AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

FƏXRƏDDİN SALİM
(BAXŞƏLİYEV)

# MİLLİ YADDAŞ SİSTEMİNDƏ ÜRFAN VƏ TƏSƏVVÜF

«Elm və təhsil»
Bakı – 2010

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Kitab AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

*Redaktor*
*və ön sözün müəllifi*: **Hüseyn İsmayılov**
*filologiya elmləri doktoru, professor*

*Rəyçilər:* **Muxtar Kazımoğlu**
*filologiya elmləri doktoru*

**Füzuli Bayat**
*filologiya elmləri doktoru*

**Elxan Məmmədli**
*filologiya elmləri namizədi*

**Fəxrəddin Salim (Baxşəliyev).**
**Milli yaddaş sistemində ürfan və təsəvvüf.**
**Bakı, «Elm və təhsil», 2010. – 460 səh.**

Kitabda Azərbaycan milli məfkürəsinin ən önəmli səhifələrindən olan ürfan və təsəvvüf elmi haqqında geniş məlumat verilir. Müəllifin «Milli yaddaş sistemində ürfan və təsəvvüf» kitabı oxuculara təqdim etdiyi ikinci əsəridir. Bundan əvvəl Fəxrəddin Salimin «İsmi-Əzəm» adlı şeirlər kitabı işıq üzü görmüşdür.

**4603000000-302** *qrifli nəşr*
**N-098-2010**

**© «Elm və təhsil», 2010**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## ÖN SÖZ

Allah-insan münasibətlərinin fonunda elm də din kimi bəsit və konservativ görünür. Hər iki cəbhə nələrisə –biri Onun varlığını, digəri yoxluğunu israrla sübut etməyə çalışır. Fəqət bihudə. Onun nə sübuta ehtiyacı nə də inkara etirazı vardır. Bütün ehtiyacların və etirazların mənbəyi insandır. Bəli, böyük mənada insan!

İnsan övladı, Nəsimi demişkən, "Allah olduğunu" unudur! Bütün müşküllər də bunun başındadır. Hər şeyin özündə olduğu bilgisini buraxıb, Onu – məchul bir varlığı və dolayısı ilə yoxluğu kənarda axtarır. Bu yerdə böyük azərbaycanlı Hüseyn Cavidin dahiyanə misrası yada düşür:

***Ey varlığı yox, yoxluğu vardan daha dilbər!***

Elm deyilən nəsnə isə özlüyündə zəngindir, cazibədardır. Elm bəzən hər şeydir – kimi görünür. Bütün suallara cavab verəcək kimi olur. Amma heyhat! Din adlanan nəsnə özlüyündə müdhiş haqlara sahibdir. Milyonlarla insanın zahiri səbəbləri məchul qalan birliyi, inancı, fədakarlığı, göz yaşları, şəhadəti qarşısında materiyanı əlində dəstəvuz edən elm bütün bunların qarşısında aciz və cavabsızdır. Çağdaş düşüncə isə daha başqa yanaşma tərzləri diqtə etməkdədir. Hər mənada metafizik düşüncə tərzi fəlsəfi və dəqiq elmlər sahəsində elm və din münasibətlərini dərindən tənzimləməyə çalışır. Dünyanın ən proqressiv universitetlərində, elmi tədqiqat institutlarında ən böyük bilim adamları bu dərin uçurumun doldurulması yolunda çoxlu sayda elmi araşdırmaların sahibidirlər. Məşhur Lütfi Zadə, Stefan



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Hafkinq, Knış kimi alimlərin bu sahədəki nailiyyətləri danılmazdır.

Lakin, qədim Şərqin ürfan və təsəvvüf elmi bu boşluğu əslində çoxdan doldurmuşdur. Mühyiddin Ərəbi, Molla Sədra, Mənsur Həllac, Şəms Təbrizi, Mövlana Rumi kimi təsəvvüf ərbabı olan mütəfəkkirlər elm ilə dinin boşluq daşıyan ünsürlərini görmüş, onları bir nurun, bir mənbənin əsəri olduqlarını istər elmi, istərdə də bədiipoetik bir dildə bəyana gətirmişlər. Bu bəyanlar isbat xarakterli, təsbit ünsürlü olmuşdur. Qərbin illimünatları kimi, Şərqin işraqiləri də xürafatın qarşısında dayanmağa çalışmışlar. Şəriət məhkəməsi ilə katolik inkvizisiyası eyni məna və və hədəflər daşımışlar zamanzaman.

Lakin, Mənsur Həllaclar, Nəsimilər, Eynülqüzzatlar fərqli idilər. Onlar ateist deyil, qatı ilahipərəst idilər. Amma, ehkam və qanunların altında deyil, eşq və ürfanın cazibəsində! Zamanzaman təkyələrdə, zaviyələrdə, xanəgahlarda dövrün, məkanın ən dərin müşkülləri çözülmüş, ən ağır dərdlərə çarə bulunmuşdur.

Bunların yanında, yəni, elmi-elitar ürfani düşüncənin paralelində formalaşıb inkişaf edən və geniş kütlələrə daha artıq sirayət edə bilən xalq təsəvvüfü Yaxın və Orta Şərq insanının mənəvi-ruhi təfəkküründə ən önəmli yerə sahib olmuşdur. Xoca Əhməd Yəsəvi, Yunus Emrə, Şah Xətai, Aşıq Qurbani, Tufarqanlı Abbas və nəhayət Aşıq Ələsgər kimi xalq ozanları, xalq mütəfəkkirləri Türk xalq təsəvvüfünün yaradıcıları və öncülləri olmuşlar.

Türk xalq sufizminin ən azman nümayəndələri olan Azərbaycan mütəsəvvüfləri bu sırada əvəzedilməz yerə sahibdirlər. Azərbaycan aşıq sənəti isə, bu mənada elə bir möhtəşəm sənət və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ruh abidəsidir ki, Dünya təsəvvüf estetikasını, sufimistik semantikanı onsuz təsəvvür etmək sadəcə mümkün deyildir.

Qədim Türk ruhunun mifoloji, sakral qatlarından süzülüb gələn pak Tanrıçılıq ideyası əslində elə sonradan formalaşmış İslam təsəvvüfünün özü idi.

Fəxrəddin Salimin məhz bu sahədəki araşdırmaları mənim diqqətimi artıq neçə ildir ki, özünə cəlb edir. Onun elmi rəhbəri olduğum "Təsəvvüf ənənələri və Aşıq Ələsgər" mövzusundakı dissertasiyası Azərbaycan folklorunda bu sahədə atılan ilk ciddi addım kimi çox dəyərlidir.

Fəxrəddin Salim AMEA Folklor İnstitutunda on ilə yaxındır ki, fəaliyyət göstərir. Təkcə bu doğma elm ocağı deyil, demək olar ki, bütün elmi ictimaiyyətimiz onu təsəvvüf elminin uslanmaz bir fədaisi kimi tanıyır.

Fəxrəddin Salim ozandır, şairdir. Amma sufi ozanıdır, ürfan şairidir. Yəni, fəqlidir, başqadır. Çox gözəl, virtuoz saz çalmasına, ilahi və türkülər oxumasına baxmayaraq, heç kim onu sıradan bir aşıq, sənətkar kimi tanımır. O, məhz ozandır. Ona "aşıq" deyə bilmirəm, çünki, aşıqlığın mahiyyəti dəyişilib, təhrifə uğrayıb. Aşıqlarımız artıq "aşiq" deyil, artist, sənətçi, şairdirlər. Onlarda təsəvvüfdən demək olar ki, heç nə qalmayıb. Fəxərddin Salim məhz ona görə özəldir və sevilir ki, o, bir mütəsəvvüf ozandır. Məhz bu keyfiyyətləri onu elm sahəsində öz tədqiqat obyektini praktik şəkildə bilməsinə yardım etmişdir. Fəxrəddin həm də bir Aşıq Ələsgər vurğunudur. Ancaq fərqli şəkildə, tamam ayrı aspketdə. Onun Dədə Ələsgərə münasibəti sadəcə bir el aşığına, istedadlı şairə olan münasibət deyil. O, Ələsgəri başqa gözdə görür. Bu, yeni baxışdır, bizim istədiyimiz görüşdür. Fəxrəddin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Salim mənim arzularımın gerçəkləşməsinə vasitə olaraq, Aşıq Ələsgəri və ümumilikdə el sənətini ürfani yöndən araşdıraraq, onun əslində həqiqi mahiyyətini ortaya qoymaqdadır. Yeri gəlmişkən söyləyim ki, onun ərəb və fars dillərinə bələdçiliyi, Qurani-Kərimi demək olar ki, əzbər bilməsi, Mövlananı, Hafizi, Nizamini orijinaldan oxuması onun tədqiqatları üçün əlavə imkanlar açır.

Bu kitab isə, daha geniş mətləblərdən xəbər verir. Milli yaddaşımızın ən bilinməz qatlarında gizlənmiş sufiyanə-mistik dünyagörüş uzun illərdir ki, qadağanlar, məlum tabular üzündən elmimizin, məfkurəmizin, həyatımızın içindən yox olub getmişdi. Mən uzun illərdir ki, böyük övliyamız Miskin Abdalın xalqımıza qaytarılması yolunda ən müxtəlif tədqiqatların gerçəkləşməsinə nail olmuşam. Elə Fəxrəddinlə bizi yaxınlaşdıran da Miskin Abdal oldu. Yadımdadır, bir neçə il bundan öncə "Miskin Abdal"ın təqdimatında Fəxrəddin Salimə çıxış üçün söz verdik. Elə səhnədə ikən qəribə bir əhvalat danışdı. Dedi ki, mən Təbriz yaxınlığındakı İlxıçı məntəqəsində olarkən, Miskin Abdalın adını çəkdim, oradakı Əhli-Həqq mürşidlərindən biri əyilib yeri öpdü. Açığı mən buna əvvəl inanmadım. Lakin, illər keçdi, Fəxrəddin Salimi yaxından tanıdıqca, Əhli-Həqq dünyasına və ümumiyyətlə, praktiki təsəvvüfə də yaxından aşina oldum. Təsəvvüf sahəsində araşdırma aparan bir çox alimlərdən fərqli olaraq, Fəxrəddin Salim ürfana praktiki şəkildə bələddir, təsəvvüfə birbaşa könül və baş vermiş adamdır.

Bu keyfiyyətlərinə bələd ola-ola biz onu elmi tədqiqata cəlb etdik. İnstitutun gərgin fəaliyyəti, Azərbaycan foklorunun yüz cildliyinin nəşrə hazırlanması prossesi içərisində bu fərqli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tədqiqatçını da doğma kollektivin arasında həvəslə işləməyə sövq etdik. Nəhayət, bu kitab ortaya çıxdı. İri həcmli giriş və beş cilddən ibarət olan bu geniş araşdırma həm ozan-aşıq sənəti, həm də xalq yaradıcılığının ən müxtəlif janrlarında mövcud olan ürfan və təsəvvüf elementlərini əhatə etmişdir. Bundan əlavə klassik təsəvvüf elminə, divan ədəbiyyatına dərindən bələdçilik bu əsərə əlavə rəng və dəyər qatmış oldu. Kitabın giriş hissəsi çox maraqlıdır. Ən müxtəlif mövzuları informasiya şəklində sıralayaraq, ürfan və təsəvvüfün bilinməyən, bizlər üçün uzun bir müddət gizli qalan keyfiyyətlərini açıqlayan müəllif sanki, irəlidəki böyük həcmli əsərin üvertürasını yazmışdır.

Kitabın birinci fəsli sırf elmi mənbələrə istinad edərək, təsəvvüfün müqayisəli təhlilinə həsr olunmuşdur. Burada həm klassik ürfan nəzəriyyəsi, həm də xalq sufizminin ən müxtəlif tərəfləri, ən müxtəlif cərəyanları barədə izahlar verilmiş, kifayət qədər geniş anologiyalar aparılmışdır.

İkinci və üçüncü fəsillər Azərbaycan xalq təsəvvüfünün ən azman nümayəndəsi olan Aşıq Ələsgər yaradıcılığındakı ürfan və təsəvvüf mətləblərinə həsr olunmuşdur. Bu fəsillər ümumiləşmiş halda deyil, əksinə, konkretləşmiş təriqət və ürfan ünsürləri ilə, şəriət, təriqət, mərifət, həqiqət kimi təsnifatlanan kamillik mərhələləri ilə izah edilmişdir. Ən konklret şəkildə səfəvilər dövründən başlayaraq formalaşan Azərbaycan sufizmi və ana dilli Əhli-Həqq fəlsəfi fikri Aşıq Ələsgərin mənzumələri ilə paralel şəkildə təhlil edilmiş və həddindən artıq maraqlı, yeni elmi nəticələrə nail olunmuşdur.

Xalq təsəvvüf dünyagörüşünün ən önəmli qollarından olan dastan yaradıcılığı da nəzərdən qaçmamışdır. Kitabda bu möv-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zuya ayrıca fəsil həsr olunmuşdur. Dördüncü fəsildə məhz "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qurbani", "Əsli və Kərəm", "Abbas və Gülgəz" dastanlarının ən maraqlı epizodları, müxtəlif mənzum parçalar ürfani baxımdan, təsəvvüf nəzəri qəliblərindən təhlil olunmuşdur.

Kitabın beşinci fəsli isə "Eşq Risaləsi" adlanır. Əvvəlki fəsillərdən fərqli olaraq, bu hissə elmi texnologiyadan daha ziyadə klassik hikmət və ürfani deyimləri xatırladır. Sanki, əvvəlki fəsillər boyu gəlinən yol burada qəribə müdrikliklə sona çatır. Mən bu fəsli çox sevdim. Oxuduqca insan sanki, bir sufi nəfəsindən yarımənzum, yarımənsur deyişlər eşidir. Bu fəsil sanki, kitabdan ayrıdır, özəldir.

Yolun sonu olmaz, amma sufilər demişkən, "FƏNAFİLLAH" vardır! Bir ürfan adamı, təsəvvüf yolunun yolçusu olaraq, Fəxrəddin Salimə "fənafillah" arzulayıram. Əlbəttə ki, yeni yaradıcılıq uğurları ilə birlikdə.

***Hüseyn İsmayılov.***
***filologiya elmləri doktoru,***
***professor***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# GİRİŞ

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı (Genel Kurmay Başkanlığı)nın gizli arxivində saxlanıldığı iddia edilən Barnabas İncili barədə deyilənlərin həqiqətə uyğun olub-olmaması məsələnin görünən tərəfidir. Əsas mətləb isə, bu İncilin varlığı və əsrlər boyunca gizlədilməsidir ki, bunu çoxlu sayda tarixi faktlar, Həzrəti İsanın ən sevimli və sadiq həvarilərindən olan əziz Barnabasın adının belə çəkilməsi üstündə yandırılan orta əsr katolik inkivizisiyasının saysız qurbanları sübut edir.

Həqiqət bəzən bu cür yığcam girişlərlə özünü göstərə bilir. Əslində isə, gerçək olan, Haqq olan elə yığcamdır, bir neçə kəlmədir. Məşhur bir kəlam vardır, deyərlər, Haqq göydən enən qılınc da olsa, boynunu ona doğru uzatmaqdan çəkinmə!

Atalarımız, Haqq yolunu getməyə bilərdi. Çünki, Haqq şəxslərdə deyil. O, fərdləri təmsil etmir. İnsanlar onu təmsil edir. Fərdlər yerini dəyişir, ölür, satılır, amma Haqq öz yerində qalır. Birindən digərinə keçir. Elə buna görə də Haqqın ən böyük təmsilçiləri zaman-zaman Haqqın öz tərəfindən sınaqlara, qəzəbə, uzaqlaşdırmalara məruz qalmışlar. Həqiqətin hüzurunda Peyğəmbərlə qatilin heç bir fərqi yoxdur. Buna görədir ki, Həzrəti Musanın belində bir ömür boyu cinayət damğası qaldı. Bu gün qatil olan sabah Peyğəmbər ola bilər  və olur da... Yaxud da əksinə;

***Feyzi-ruhul-qudus ər baz mədəd fərmayəd,***

***Degəran həm bekonənd an çe Məsiha mikərd* (Dedilər, Ruhul-Qüds – İsa möcüzələr yaradır, nəfəsi ilə ölüləri diril-**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**dir. Halbuki, Məsihin yapdıqlarını hər kəs edə bilər).** Pirlər Piri Hafizin nə demək istədiyi məlumdur. Əslində isə, onun "nə demək istədiyi" yanlış ifadədir. O, demək istəməyib, deyib. İstəmək anlayışı bizə xasdır. Biz anlamaq istəsək, anlayarıq. O da elə bunu deyir. Yəni, seçilmişlər deyə bir şey yoxdur. Allah insanları seçmir. İnsanlar Allahı seçir, ayırır, fələyin və Mələk Tavusun qurduğu bu qədər qalmaqalın içərisindən Onu tanıyır "HU" deyir.

Bəs nə vardı o Barnabas İncilinin içərisində? Nə yoxdu ki,.. İsadan sonrakı Peyğəmbərin adı, Məsihin çarmıxa çəkilməməsi,.. Və nəhayət, baş qəhrəmanın Allah deyil, sıradan bir Peyğəmbər olduğu!!! Al sənə inkivizisiya, al sənə Da Vinçi şifrəsinə istinad edən Yəhudi beyni! Vatikan bəlkə də Məsihin sadəcə Peyğəmbər olması ilə razılaşardı, əgər o, sonuncu Peyğəmbər olsaydı. Fəqət, Həzrəti İsa sonuncu olmadı. Hətta, özündən sonra gələcək olan sonuncunun müjdəsini belə verdi. Bax elə düyün də burdadır. Kilsə, Mühəmməd Rəsulallahın peyğəmbərliyini inkar etmir. Əksinə, qəbul edir. Əgər, Həzrəti İsanı da sıradan bir Peyğəmbər olaraq qəbul etsələr, o zaman,.. O zaman sonuncu anayasa şəksiz və şübhəsiz qəbul edilməlidir. Çünki, Buddistlərdən, Vedanta izləyicilərindən fərqli olaraq, bizlər də əhli-kitab kimi monoteistik. Yəni, bir mənada qardaşıq, əminik Onun vəhdaniyyətindən! Allah eşqinə belə şey ola bilərmi? Vatikan bunu necə qəbul etsin? Elə buna görə də "bütün insanlığın özündən əvvəlki və sonrakı elçilər də daxil olmaqla Məsih hər kəsin Rəbbidir!" dedilər.

Petros Romaya gəlib nələr deyib, yeni dinin əsaslarını necə qurub, onunla işimiz yoxdur. Fəqət, ağlı başında olan bir nəfər romalı soruşmayıbmı ki, insandan, əti, qanı, cavanlığı, qocalığı,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doğumu, ölümü olan bir məxluqdan Allah olmaz!? Yəqin ki, soruşan olub. Yoxsa, cəhənnəmi bu dünyaya transfer edən inkivizisiya məhkəməsi o tonqalları niyə qalamışdı?

***“Ləm yəlid, və ləm yuləd”*** İxlas surəsi buyurur ki, O, nə övlad sahibidir, nə də kiminsə övladıdır. Böyük ehtimalla bu ayə elə keçmişin, bu günün və gələcəyin ağıllı dəlilərinə ünvanlanıb. Ancaq ortada bir yanlış anlaşılma var. Bizlər Qurani-Kərimin hələ ki, zahiri, üst qatlarına varid olmuşuq. Ona görə də bu ayələri birmənalı olaraq qəbul edirik. Halbuki onlar tək bir Allahın elmidir. Məsələ burasındadır ki, sözün birinci fazasında Məsihilər haqlıdırlar. İsa ***“Allah mənəm”*** deyib! O zaman bizmi yanlış düşünürük, Quranmı yanlış hökm verir? Xeyr, Quran düz buyurur. Yaxşı, bəs nə baş verir?

Bir az aralanaq. İki din, iki düşüncə, iki cəbhə arasındakı uçurumun səbəbi təkcə təəssüb və hakimiyyət əsarəti deyil. Den Braun deyir ki, bunlar hamısı boş sözdür, söhbət kilsənin dünya üzərindəki hakimiyyətinə qarşı olan təhlükədən gedir. O da düz deyir. Ancaq böyük ariflərdən birinin heç zaman unutmayacağım bir sözü vardır: **“Şeytan min dənə doğru söz söyləyər ki, içində bir dənə yalan söyləsin”** Da Vinçi şifrəsi də bu doğrulardandır.

Mənim dinim və dindarlarım isə, zindana salınmış məsumlara bənzəyir. Özlərini haqlı bilməkdən başqa əllərindən heç nə gəlmir. Qısası budur ki, İslam şəriətinin, Vatikan nağıllarının və Yəhudi fürsətçiliyinin ortasında firuzə rəngli bir işıq yanır. Onun adı ürfandır, təsəvvüfdür. Onun adı Mənsur Həllacdır, Şəmsdir, Mövlanadır, Nəsimidir!!! Dini tolerantlıq olaraq qələmə verilən ***“Kim olursan ol, yenə də gəl”*** sözlərini Mövlana YUNESKO üçün deməmişdi. **Kim olursan ol, mən sənin boğulduğun**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**dənizin sahilindəyəm, gəl,** deyirdi. Dolayısı ilə, mən sizin ixtilafların, iddiaların, cənnət davalarınızın fövqündəyəm. Kim olursan ol, səndən mənə zərər gəlməz. Gəl ki, özünə daha artıq zərər verməyəsən. **Bəli, Həzrəti İsa eynilə Mənsur kimi, eynilə Nəsimi kimi "Ənəlhəq" demişdi. Allahın onda zühur etdiyini, təcəlla etdiyini görüb, bu həqiqəti dilinə gətirmişdi.** Bu qədər bəsit və sadə... Bu qızıl ortanı bulub, onun gerçəklik olduğunu qəbul etməyin zamanı gəlib çatmayıbmı görəsən?

Bəlkə elə bu səbəbdəndir ki, tarixdən bu günə bəzi alimlər "təsəvvüfdə əski dinlərin, xüsusilə də xristianlığın güclü təsiri və izləri mövcuddur" demişlər. Əlbəttə bu fikir nəzəri olaraq kökündən yanlışdır və diletantdır. Məsələ burasındadır ki, təsəvvüf ümumiyyətlə din deyil. Bütün dinlərin varmaq istədiyi ana mərkəzə, nüvəyə, dolayısı ilə vəhdətə gətirən ən qısa yoldur.

***ƏBRU***

İnsan təfəkkürü Allahın işığını, təcəllasını gəzdirdiyi üçün nəhayətsiz gözəlliklərin məskənidir. Allahın möcüzələri, əsərləri təkcə təbiətdə, kainatın quruluşunda özünü göstərmir. Tanrının ən böyük və cazibədar əsəri elə insan özüdür. İnsan isə bir tək vücudu, əqli və şüuru ilə kainatın əşrəfi deyil. İnsandakı ən güclü keyfiyyətlərdən biri onun yaradıcılıq qabiliyyətidir. Elmi təfəkkürdən, quruculuq işlərindən daha çox incəsənət və ədəbiyyat nümunələri insanın həqiqətən də bir Allah zərrəsi olduğunu möhtəşəm bir şəkildə nümayiş elətdirir.

Bizlər incəsənət növləri haqqında kifayət qədər bilgilərə sahibik. İstər musiqi, istər rəssamlıq və istərsə də memarlıq sahəsində biz elə nailiyyətlərin şahidi və həmvətəniyik ki, qeyri-iradi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olaraq, biz dünyanın nəcib və mədəni millətləri sırasına daxil olmuşuq.

Lakin, incəsənətin elə bir növü də vardır ki, biz onun haqqında demək olar ki, heç nə bilmirik. Bu, Yaxın və Orta Şərqdə, eləcə də bütün türk dünyasında məşhur olan ***əbru*** sənətidir.

***Əbru*** rəssamlığın bir növüdür. Lakin bu zahirdə, ilk baxışda belədir. Əslində isə, bu incəsənət növü rəssamlıqdan köklü şəkildə fərqlənir. Bəs nədir əbru?

Əvvəla onun adı haqqında. "Əbru" sözü fars dillində iki mənada işlənir. Bunun biri "qaş"dır ki, bu mənanın həmin incəsənət növünə o qədər dəxli olmadığı qənaətindəyik. İkincisi isə fars dilində "bulud" sözünün qarşılığıdır. Bax bu məna əbruya tam uyğun gəlir. Əlbəttə, ona görə ehtimallar üzərində dayanırıq ki, bu incəsənət növünün adının niyə "əbru" olması hələ də tam araşdırılmayıb.

İndi isə əbrunun özü haqqında. Əvvəlcə xüsusi dəmir teşt hazırlanır. Dayaz və dördkünc. İçərisinə mütləq və mütləq yağış suyu doldurulur. Bu suyun tərkibində deyəsən başqa qatqılar da olur ki, mən o sirri əbru ustalarından tam olaraq öyrənə bilmədim. Sonra rənglər ortaya gəlir. Həmin rənglər yenə də mütləq və mütləq təbii otlardan, çiçəklərdən hazırlanır. Əks təqdirdə onlar su ilə təmasa girə bilməzlər. Əbru üçün xüsusi qarğı qələmlər hazırlanır. Həmin qələmləri o rənglərə batıraraq, yuxarıdan suyun üzərinə damcıladırlar.

Burada bir haşiyə çıxmaq istərdim. Dostum, konyalı məşhur əbru ustası Mutluxan Taş belə bir məlumat verdi. ***"Mən hər dəfə əbrunun başına oturmazdan əvvəl mütləq dəstəmaz alıram. Ona görə ki, əvvəla, bu, mənimçün adi bir incəsənət növü deyil,***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***bir ibadətdir. Ən əsası isə damlaların su üzərində hansı şəkil alması o qədər də bizdən asılı olan bir keyfiyyət deyil. O damlaların su ilə nələr yapdığını belə demək mümkünsə, Allah bilir. Mən isə bir vücud və ruh olaraq, burada bir ötürücüyəm. Allahın istəyi, təbiətin və mələklərin zövqü mənim içimdən keçir o anda. Buna görə də mən pak və ixlaslı olmalıyam".***

Bilmirəm, bu açıqlamalar oxucularımıza necə təsir edir, amma gerçəkdən tüklər ürpədici şeylərdir bunlar!

Sonra isə xüsusi iti qələmlə su üzərində ustaca naxışlar, rəsmlər müxtəlif istiqamətlərə yönəldilir. Əsər su üzərində bitdikdən sonra teştin ölçüsündəki kağızı ehtiyatla suyun üzərinə qoyub, götürürlər. Və əsər kağız üzərinə keçir.

Əbru bir qədər çətin və konservativ incəsənət növü olsa da əhatə elədiyi, təsvirini görüntülədiyi mövzular ən müxtəlif fikirləri ehtiva edir. Məsələn, bu qədər incə və məhdud şərtlərin olmasına rəğmən ən qəliz rəsm əsərlərini əbru ilə meydana gətirmək mümkündür. Fəqət burada incə bir ayrıntı vardır. O da bundan ibarətdir ki, mövzusundan asılı olmayaraq, bütün əbru əsərlərinin fonunda rəngli buludlara bənzər mənzərə həkk olunur. Bu, əbrunun özəlliyidir ki, yuxarıda bəhs etdiyimiz fars dilindəki "əbru"  "bulud" sözü bu mənada həmin incəsənət növünün adına uyğun gəlir. Mən bunu heç yerdə oxumamış, heç kimdən duymamışam. Bunlar mənim fərziyyələrimdir. Amma çox güman ki, bu barədə yazılıb, deyilib.

Belə. Bu da bir tanışlıq, bu da bir gözəllik idi ki, Həzrəti Məsihin seyrindən sonra tam yerinə düşdü.

***Xoş ol zaman ki, yar mənə həmzəban idi,..***
***Dəmlər o dəmlər idi, zaman ol zaman  idi.*** (S. Ə. Şirvani)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## *DÜNYA*

"Dünya" ərəb dilində "dəni" sözündəndir. Mənası "alçaq yer", "aşağı məkan" deməkdir. Bir şeyi də qarışdırmaq olmaz ki, dünya məhz Yer kürəsidir. Bəzən kainatı, qalaktikanı da "dünya" adlandırırlar, yanlışdır. Dünya buradır, mənasını dərk etmədiyimiz, çox şeylər umduğumuz, keçici, alçaq məkan...

Yaradılış baqidir, çünki, yaradan əbədidir. 99 "Əsmaül-hüsna"dan biri də məhz "Həyy"dir. "Həyy"in bir mənası "həyat verən", başqa bir mənası isə "hər zaman diri olan" deməkdir. Onda bəs nə üçün bu boyda dünya, ariflər demişkən, fanidir?

Məsələ burasındadır ki, heç nə itmir, hər şey bir şəkildə yaşayır, davam edir. "Fani" sözü "fəna", "boşluq", bir mənada isə "yoxluq" anlamındadır. Əslində isə, mahiyyət etibarilə baqidir.

Bəs nə üçün kainatda "fani" adlandırılan, keçici, müvəqqəti sayılan məkan təkcə Yer kürəsidir? Məgər başqa qalaktikalarda, digər aləmlərdə ölüm yoxdur (əgər həyat varsa)? Bizim özgə planetlərdəki yaşam haqda doğru-dürüst heç bir məlumatımız yoxdur. Lakin, qüdsal kitabların verdikləri xəbərə görə, qiyamət saatı yaxınlaşdıqda, dünya ilə bərabər onlar da dağılacaq, öz məhvərindən qopacaq, yerlə yeksan olacaq.

Sözümüzün gerçək mahiyyəti isə ondan ibarətdir ki, insan dünyaya gəlməmişdən öncə müdhiş bir yaddaşa sahib olur. Bu yaddaş isə dünyadakı həyata başlayandan sonra itir, qeyb olur.

Qurani-Kərimdə üstüörtülü şəkildə "Ələst" aləminin adı çəkilir. Bu ad haqda heç kim bundan artığını bilmir. Bilinən təkcə odur ki, kainat xəlq olunmamışdan öncə Allah-Təala və mələklərinin xüsusi məclisi olmuşdur. Bu məclisə "Bəzmi-Ələst" də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

deyirlər ("bəzm" elə "məclis" deməkdir). Bu məclisdə dünyanın və kainatın, belə demək mümkünsə, planı cızılmış, olacaqların ssenarisi yazılmışdır. Vəssəlam. Dinin və dindarların Ələst günü haqqında bildikləri bu qədərdir. Qurani-Kərimdə **"Ələstü birəbbiküm qalu bəla" ("Ələst günü sizdən soruşdum: "sizin Rəbbiniz mənəmmi?" Dediniz "bəli")** ayəsi bilinməz bir məchul olaraq qalır. Bu barədə daha müfəssəl izah və daha artıq bilgi yenə də ürfani qaynaqlardadır.

***Ələstdən "bəli" dedim, nə xoş kamaldı yüküm***

deyən Aşıq Ələsgər görəsən nəyi nəzərdə tuturdu? Bizim üçün məsələ aydındır. Təsəvvüf fəlsəfəsinə görə, insanın yaranışı kainatdan daha öncədir. İnsan Ələst günü var idi. Necə ki, Şah Xətai buyurur:

***Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim,..***

Böyüklərimiz görəsən bu iddiaları, bu sözləri boşu-boşunamı deyiblər? Axı belə şey ola bilməz. Ola bilməz ki, yalandan, pafos olsun deyə, şair belə müddəalar irəli sürsün. Aşıq Ələsgər məddah saray şairlərimizdən deyildi ki, onun-bunun namusuna göz dikib, öz Vətənini dünyanın cənnəti adlandırsın. O, Ələsgər idi. Dostlarımızla söhbətlərimizdə tez-tez belə bir ifadə yerinə düşür: **"Ağıllı adam belə söz deməz, dəli isə Ələsgər olmaz"** (Böyük ustad Aşıq Ələsgər bu kitabda bizim əsas tədqiqat obyektlərimizdən biridir). Deməli burada nəsə var.

Bəli, gəlinən məchul nəticə budur ki, insan doğulub bu dünyaya gəldikdən sonra, qısa bir müddət ərzində əzəli yaddaşını itirir. Əbədiyyətdən gəldiyini unudur, bu fani, keçici dünyaya aludə olur və hər şeyin bu müvəqqəti həyatdan ibarət olduğuna inanır. Əslində isə, bütün dinlərdən, peyğəmbərlərdən, təriqət və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

övliyalardan məqsəd həmin yaddaşı bərpa etməkdir. O yaddaş bərpa olmayınca nə dindən, nə dindarlıqdan heç bir fayda yoxdur. Xatırladığı və yaşadığı yeganə şey bu fani dünya olan insan övladının imanı da dini də bir çürük qoza dəyməz.

Həzrət Əli buyurur: ***"Hamı öz axırından qorxur, mən əvvəlimdən qorxuram".*** Buradakı "qorxuram" ifadəsini "düşünürəm", "əhəmiyyət verirəm" kimi də anlamaq mümkündür. Belə ki, dindən və dindarlıqdan məqsəd sonu, axitəri, cənnəti və ya cəhənnəmi qəsd etməkdirsə, əsl mənada insanın getdiyi yerdən çox, gəldiyi yer daha mühüm, daha anlamlıdır.

***Sinəsi tişeyi-dərd ilə olan çaklərik,***
***Abi-çeşm ilə edən aləmi nəmnaklərik,***
***Nur-iHəqdən yaranan Şəms kimi paklərik,***
***"Biz haman rindi-xərabatiyi-bibaklərik,***
***Söhbəti indi də dillərdədi əfsanəmizin"***

Belə şeir növünə klassik şərq ədəbiyyatında "təxmis" deyilir. "Təxmis" beşləmə deməkdir. Burada iki şair iştirak edir. Təxmis edən şair təxmis olunan şairin qəzəlinin hər beytinin (iki misrasının) əvvəlinə üç misra artıraraq onu beşlik halına gətirir. Burada qafiyələr kimi, fikirlər də birləşməli, eyni hədəfə vurmalıdır. Dırnaq içinə alınan son iki misra Əliağa Vahidə, onu təxmis eləyən əvvəlki üç misra isə bəndeyi-həqirə məxsusdur (Rəhmətlik Mirzə Cəlil burada olsaydı, məni əməlli başlı lağa qoyardı ki, 21ci əsrdə bu nə danışıq tərzidir).

***RİND***

Bu təxmisdəki bütün misralar, hətta sözlər haman "rind" kəlməsinin açılmasına xidmət edir. Bəs nə deməkdir rind?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, ədəbi termin deyil. Ürfani termindir. Rindlik, rindanəlik sufi dərvişlərin həyat tərzlərinin, baxışlarının önəmli, tərkib hissəsidir. Yuxarıdakı təxmisdə "pak", "bibak" kimi kəlmələr həmqafiyə işlənmişdi. "Pak"lıq məlumdur. "Bibak"lıq isə qorxmazlıqdır. Maraqlı məqamdır ki, bibaklıq paklığın hesabına mümkün olur. Rind adam həm pak, həm qorxmaz olur. Lakin bunlar rindliyin görünən keyfiyyətləridir. Rindliyin əsas mahiyyəti isə əqidəsini xalqdan uzaq tuta bilmək, hər kəslə anlaşa bilmək, yeri gəldikdə güzəştə getmək, özünü onlardan biri kimi göstərməkdir. Bütün bunlar daxildəki əzəmətli sirləri qoruyub saxlamaq, ən başlıcası isə yola davam üçündür. O yol təriqətdir! Yuxarıdakı təxmisdə Şəmsin adı çəkilir. "İsmi-Əzəm" nəşr olunana qədər mən həmin sözü kiçik hərflə yazmışdım. Lakin nəşr üçün icazə aldığım ariflər o kəlməni böyük hərflə, yəni, "Şəms Təbrizi" olaraq alqıladılar. Mən də bundan payımı götürdüm. Bəli, Şəms ən böyük rind olub. Onun barəsindəki məşhur bir mükalimə bu fikrin sübutudur. Şəms bir gün deyir: ***"Əgər Mənsur Həllac doğrudan da Həqq idisə, niyə "Ənəlhəq" deyirdi?".*** Ətrafındakılar həmişəki kimi, təəccüblə soruşdular: "Ya Şəms, Mənsuru niyə aşağılayırsan?" Ulu Şəms isə belə cavab vermişdi: ***"Əgər hər kəs Mənsur kimi zahiri qəhrəmanlıqla dar ağacına gedəcəksə, bu məktəbi gələcəyə kim aparacaq?"***

Bəli, bu rindlikdir. Dində, daha doğrusu şəriətdə buna bənzər bir termin var; Təqiyyə. Təqiyyə təhlükə anında dini gizlətməkdir. Əlbəttə ki, hər təhlükədən getmir söhbət. Əgər o dindarın, o müsəlmanın həyatı, yaşamağa davam etməsi mühümdürsə və o andakı ölümü, zindana düşməyi və ya hər hansı başqa bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəla mənasız və yersizdirsə, o zaman o, təqiyyə edə bilər. Göründüyü kimi, təqiyyə tam mənası ilə rindlik deyil. Amma ona yaxın bir şeydir.

Yenə də yuxarıdakı təxmisdə bir "rindi-xərabat" birləşməsi işlənir. Rindiliyin mayasında xərabat əhli olmaq dayanır. Xərabat könül şəhridir, uçmuş, dağılmış dünyadır, keçici məkanla olan mülaqatdır. Çox sevdiyim, əsrlərdən gələn pirim Hafiz belə yazırdı: ***"Ba dustəm mürüvvət, ba düşmənəm müdara".*** Yəni, dostlarla mürüvvət edəlim, düşmənlərlə keçinəlim. Bax, əsli rindlik budur.

Bir dəfə gəlib görürlər ki, Şəms öz dükanının qapısında at başı boyda bir qıfıl asıb. Görənlər deyirmiş, görəsən nə var o dükanda. Halbuki, boş imiş o dükan. Bax bu, lap böyük rindlikdir.

Hətta yaxın keçmişdə Bakı şairləri də çırtıq çalaraq belə bir qafiyə tutardılar: ***"Rind əhliyik, meyxanəyə canu dildən hörmət edək"***. İndiki çırtıq çalıb, qafiyə tutanlar böyük ehtimalla bilmirlr bu nə deməkdir. Amma orada "meyxanə" kəlməsi rindliklə şərtləndirilir. Yəni, xalq meyxanənin nə olduğunu anlamır, orada nələr baş verdiyini öz beynində təhrif edir. Lakin biz rindik. Rind olduğumuz üçün də açıqlamırıq meyxanənin nə olduğunu. Qoy yanlış anlasınlar. Təki, bizə cahillərdən zərbə dəyməsin, öz işimizə öz yolumuza davam edək.

### ***SİMURĞ***

Bu quş həqiqətən də əfsanədir. Bəziləri belə iddia edirlər ki, Simurğ hansısa uçan qədim dinozavr kimi bir şey olmuşdur. Lakin, məlumdur ki, insan övladı dinozavrların təbii yox oluşundan çox-çox sonralar peyda olmuşdur bu başıbəlalı dünyada.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nağıl qəhrəmanları olan divlər, pərilər, uçan xalçalar kimi Simurğ quşu da əfsanədən, ən yaxşı halda isə mifdən başqa bir şey deyil. Nağıllarda bu cür süjetlərin niyə, nə zaman, hansı ehtiyacdan yaranması mifoloqların, folklorşünasların tədqiqat obyektidir. Konkret olaraq mifin tərifi dinlər öncəsi insan təfəkkürü deməkdir. Dinlərdə və dini kitablarda isə məlum olduğu üzrə, qeyri-real, əfsanəvi, insani və qlobal məntiqdən kənar süjetlərə, obrazlara rast gəlmək çətindir. Düzdür, bu məqamda ateistlərlə metafiziklər arasında dərin fikir ayrılığı yaranır; məsələn, ateistlər deyirlər ki, Allah, mələklər, peyğəmbərlik, vəhy kimi anlayışların özü artıq qeyri-məntiqi, ağılüstü şeylərdir. Elmə və məntiqə müraciət eləməyi xoşlamayan dindarlarla işim yoxdur, amma metafiziklər deyirlər ki, yox, əksinə insan ağlının sərhədləri elə insanların özləri tərəfindən müəyyən edilib. İnsanlar özləri öz məntiq və idrak qapılarını ilahi nizamın, kainat düzəninin özbaşına olmayacağı nəzəriyyəsinin üzünə bağlayır. Zira, kainatın və heyrətamiz qanunauyğunluğun öyrənilməsi və təsdiqi mif deyil, əfsanə heç deyil.

Mənim Simurğ haqdakı düşüncələrim isə nə mifə, nə də əfsanələrə söykənmir. Mənim "Simurğ"um ürfani ədəbiyyatda, təsəvvüf qaynaqlarındakı Simurğdur. Nədir, yaxud da kimdir bu Simurğ?

Şeyx İşraq kimi tanıdığımız İşraqilik fəlsəfəsinin banisi , böyük Azərbaycan filosofu Sührəverdi yazır:

***"Hophop – şanapipik quşu Qaf dağının ətəyinə gəlir. Öz şahı Simurğu axtarır, onu gözləyir. Lakin, illər keçməsinə baxmayaraq, Simurğ ortaya çıxmır. Təxminən min il vaxt***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***keçir. Bu müddət ərzində Hophop tüklərini tökür, rəngini, şəklini dəyişir, böyüyür və min ildən sonra özü Simurğ olur".***

Bu qısa, lakin çətin izaha onu əlavə etmək olar ki, burada söhbət quşların, uçan canlıların aqibətindən getmir. Burada hədəf insandır.

Müəllifi bəlli olmayan məşhur "Mirati-Üşşaq" ("Aşiqlərin aynası") əsərində böyük bir lüğət təqdim olunmuşdur. Bu lüğət sırf ürfanidir. Ədəbiyyat və fəlsəfədə sıx-sıx rast gəlinən, bəzən isə bütöv bir məzmunu və formanı əhatə edən terminlərin əsl, batini mənaları əks olunmuşdur o lüğətdə. Məsələn, "can", "canan", "mey", "saqi", "meyxanə", "ləb", "zülf" kimi minlərlə ürfani istilahların lüğəti izahı verilmişdir bu əsərdə. Tarixdə ikinci belə bir uğurlu cəhd məşhur Azərbaycan mütəsəvvüf şairi Şeyx Mahmud Şəbüstəriyə məxsusdur. Özünün yüksək bədii sənət nümunəsi olan "Gülşəni-raz" ("Sirr gülşəni") adlı əsərində böyük usta mənzum şəkildə bu istilahların əksəriyyətinin həqiqi izahını vermişdir.

Biz də o tip lüğətlərə istinad edərək Şeyx İşraqın Simurğ fəlsəfəsini qısaca belə açmaq istərdik: Qaf dağı Allahın dərgahı, Simurğ Haqqın özü, Hophop quşu aşiq, mürid, Qaf dağının ətəyi isə Haqq dərgahının qapısıdır. Sühreverdi bizə belə mesaj verir ki, Allahı axtaran aşiq uzun cəfalardan, əqli və mənəvi aşılmazlardan keçdikdən sonra axtardığını özündə bulur!

***"Quşlar Simurğu axtarmaq üçün Qaf dağına qalxırlar. Yolda bir qismi tufana düşür, bir qismi yorulub qayıdır, axır ki, kiçik bir hissə ilə gəlib Qafın zirvəsinə çatırlar. Fəqət baxıb görürlər ki, Simurğ adlı şey yox imiş burada. Məyus olurlar. Sonra Hophop quşunun məsləhəti ilə sayıb görürlər ki, onlar***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***nə az, nə çox, düz otuz nəfərdirlər," Fars dilində "si" otuz, "murğ" isə quş deməkdir. "Simurğ" – "Otuz quş".***

Bunu isə Fəridəddin Əttar Nişaburi yazır. Oxuyub anlayanlara eşq olsun!

***ƏVVƏL ALLAH***

***Dust bipərva, fələk birəhm, dövran bisükun,***
***Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.***

(Məhəmməd Füzuli)

Rəhmətliyin oğlu, yer qoymayıb ki,.. Daha nə qaldı? Dostlar namərd, fələk rəhmsiz, dövran dingir, dərdimiz çox, həmdərdimiz yox, düşmənimiz güclü, taleyimiz, bəxtimiz də sıfır... Türklər demişkən, "o haaa!" Doğrudan heç nə qalmır. Yəni, təxminən yıxıl öl. Amma bircə şey yaddan çıxıb.

Onu Füzuli yaddan çıxarmayıb. O, bizim yadımızdan çıxıb. Füzuli qəsdən heç nəyin qalmadığını belə haray-həşirlə ərz eləyir ki, sonda Ona gedən yolu bulsun. Bəli, biz unuduruq. Unuduruq ki, bir də Allah var.

Görmədiyimiz, duymadığımız və deməli, inanmadığımız Allah bütün dərdlərdən, çarəsizliklərdən sonra gəlir. Yəni Ona gedən bütün yollar bunların üzərindən və ya içindən keçir. Ariflər ***"dərd olmasa, dürd olmaz"*** deyiblər ("dürd", yəni dürdanə, ləl, cəvahir).

Onda belə çıxır ki, Allah özünü ən sonda xatırladır. Amma Onun adı təkcə "Axır" deyil. Həm də " Əvvəl"dir. Qurani-Kərimin "Hədid" surəsi ***"O əvvəldir, O, Axırdır, O, Zahirdir, O, batindir"*** deyə başlayır.

Hə, deməli, Onu axırda görən bizik. O, elə əvvəldən Odur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz Onu görmürük. Problem bizim gözlərimizdədir. Yenə də soruşdular; "Ya Əli, Allahı görürsən?" Buyurdu: ***"Mən görmədiyim Allaha ibadət eləmərəm".***

Ustadlarımızdan məşhur Osmanlı şairəsi Samiha Ayverdi yazırdı:

***"Məndən soruşdular; "Cənnət haradır?". Dedim; "Sənin olduğun yerlər". Soruşdular; "Bəs, cəhənnəm haradır?" İstədim deyəm; "Sənin olmadığın yerlər". Amma sonra gördüm yox. Sənin olmadığın yer yoxdur ki,.."***

Xoşbəxt millət! Məsum, səssiz bir qadının qələmindən çıxan sözlərə baxın. İndi gəl sən döşünə döyən pafoslu qələm əhlimizin yazdıqlarına bax. Adam vətəndaş olduğuna utanır, onlarla eyni havanı, suyu paylaşdığı üçün əzab çəkir. Nəisə, genə başlamayaq.

Allah nə deyir? Onu kövrək, sınıq qəlbimizə soraq. Çünki, müqəddəs kitabımız ***"Fi qülubun münkəsir"*** ayəsini işlədir. Yəni, ***"Allahın məkanı sınmış qəlblərdir".*** Elə bircə bu ayə təsdiq edir ki, dərdsiz, ələmsiz Onun vüsalına yetişmək, Onu duymaq, varlığını içdən anlamaq mümkün deyil.

Belə yerdə istəyərdim "Yaşasın dərdlərimiz!" deyə bir şüar səsləndirim. Amma, bektaşilər demişkən, "O, zarafat götürmür ki,.." Bir də görürsən, eşitdi. İndi gəl, qurtar dərdlərin əlindən. Binəva Məcnun onu deyirdi də;

***Ya Rəbb, bəlay-ieşq ilə qıl aşina məni,***
***Bir dəm bəlayi-eşqdən etmə cüda məni.***

O, bilirdi ki, mütləq gözəlliyə və əminliyə yetişmək üçün dünyanın rənglərindən, həvəsindən qurtulmaq lazımdır. Bunun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isə, ən optimal yolu dərdlərin, ağrıların çoxalması, çarəsizliyin son həddə çatmasıdır ki, ardınca **Allah-Təala Özü gəlir!**

***Az eyləmə inayətini əhli-dərddən,***
***Yəni ki, çox bəlalərə qıl mübtəla məni.***

Deyir birdən məni yanlış anlayırsan, ey Rəbbim, mən "inayət" deyərkən, dünya səadəti, para, pul, villa, maşın filan demirəm ha. Mən Səni istəyirəm. Səndən qeyrisi vız gələr, tırız gedər (bu Anadolu türklərinin nə qəşəng ifadələri var). Səni duymaq, səndən əmin olmaq istəyirəm. Buna görə də Sənin inayətin, Sənin lütfün dünyanı unutmaq üçün mənə göndərdiyin bəlalardır ki, onları mənə çox görmə!

Ona nə vardı ki,. Qupquru səhra, məsum heyvanlar, peşmanlıqdan qəhr olan hər iki düşmən qəbilə... Bəh, bəh,..

Bu bədii sözlər bir yana dursun, amma həqiqət bundan ibarətdir ki, İsa həqiqətən də ***"Mən Allaham"*** demişdi. Ancaq Petrosun anladığı mənada yox. Yuxarıda dediyim kimi, Mənsur misal, Nəsimi misal ***"ƏNƏLHƏQ"*** demişdi. Zülmdən qaçan həvarilər ya bunu yanlış anladılar, ya da yanlış anlatdılar. Başqa cür ola da bilməzdi. Məsih vəcd məqamına yetişdi, seyri-sülukun, vəhdəti-vücudun və şuhudun ən yüksək mərtəbəsinə vardı və özündə Həqqin zati-mütləqini gördü. Bu, eşq əhli üçün ümumi haldır və qəbul edilən sindromdur. İxtilafa filana girmək mənim işim deyil, amma İslam Peyğəmbərinin duyduğum məşhur bir kəlamı var: ***"Ümmətimin övliyaları Əhli-Kitabın Peyğəmbərləri kimidir"*** Ümmətimin alimləri, müctehidləri, mollaları demir, "ümmətimin övliyaları" deyir. Övliya kimdir? Gizlin Vilayət bilgilərinə varid olan, özü də Vilayət sahibi olan şəxs. Yəni, pir, mürşid.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## *VİLAYƏT*

Vilayət nurunun sahibləri olan Allah dostlarının ölməz ruhu bizlərdən xəbərsiz mövcuddur və mövcudiyyətini bir missiya, İlahi bir hüccət olaraq, yer üzündə sürdürməyə davam edirlər.

Biz istəsək də istəməsək də. Allah bir vasitə ilə qəlblərdən, yaddaşlardan silinmir, öz varlığını can ilə bədən ilə birlikdə gerçəyə çevirir. Əgər fundamental, sıradan dini baxışlarla yanaşsaq, mənim burada dediklərimin hamısı küfrdür, şirkdir. Fəqət, dediyim o dini yanaşma tərzi, min illərdir davam edən qanunlar və ehkam potensialı hər şeyi həll etsəydi, əvvəla Allaha ehtiyac qalmazdı, ikinci də ki, hər şey özlüyündən həll olub getmişdi.

Allahın zatı ilə işimiz yoxdur. Bu, əslində maraqsız və təhlükəli mövzudur. Amma Onun varlığının necəliyi çox vacib bir məsələdir. Allah necə vardır? Onun varlığını insanlar, heyvanlar, canlılar nə ilə, hansı təsirlərlə hiss edirlər? Hər kəs deyəcək ki, məsələn, Günəş batır, ay çıxır, bizi qoruyurlar, yatırırlar, öldürürlər,.. Bunlar hamısı Allahın varlığını dərk etmək, hiss etmək üçün yetərli deyilmi? Əlbəttə yetərlidir. Ancaq yalnızca hiss üçün, dərk üçün yetərlidir. Bəs, Onun sevgisi?

Açığını söyləmək gərəkirsə, mən Allaha inamın, Ona edilən ibadətin bir borc olaraq, qarşılıq olaraq, var olunduğuna inanmıram. **İnanmıram ki, Allah "Mən sənə nəfəs verdim, yaşatdım, ruzini yetirdim, əvəzində də sən mənə ibadət eylə, dua eylə" desin.** Məntiq isə onu deyir ki, bu, belə ola bilməz. Axı, bizim yaranışımız, yaşantımız, ruzimiz bizdən xəbərsiz mövcud olan şeylərdir. Bunları biz istəməmişdik. Bizim iradəmizin xaricində olan bəxşişlər üçün bu qədər israrlı tələblər, cəhənnəm qorxusu ilə, cənnət müjdəsi ilə vacib bilinən vəzifələr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nə dərəcədə ağıllı görünür. Yox, Allah öz verdikləri üçün insandan əvəz istəməz. İbadət də dua da zikr də Onun verdikləri, aldıqları üçün deyil, Onun Özü üçündür!

***Aşkın aldı benden beni,***
***Bana Seni gərək, Seni.***
***Ben yanarım günü-günü,***
***Bana Seni gərək, Seni...***

Yunusun bu sözləri yuxarıdakı "küfrlərin" təsdiqidir.

***Aqillere söhbet gerek,***
***Ahıllara ahiret gerek.***
***Mecnunlara Leyla gerek,***
***Bana Seni gerek, Seni...***

Vallah, mənimçün bu cür küfr, o cür imandan daha faydalıdır. Burada eşq var. Orada isə təmənna. Uca Allahdan belə bir şey gözləmək yanlışdır. O, öz yaratdıqlarından qarşılıq deyil, məhəbbət umur. O da sevir! Həm də dəlicəsinə!

O, Mövladır. Mövla dostdur, sevgilidir, insandadır, ən yaxındadır. Özündən başqa kimsə olmayacaq qədər yaxındır. O, həyatı da ruzini də ölümü də axirəti də şərt olaraq deyil, lütf olaraq, hədiyyə olaraq, cilvə olaraq vermişdir. Hədisi-qüdsilərdə Özü buyurur: ***"Mən görünmək istədim, insanı yaratdım"***

"Mövla" həm də insandır. Bəs necə olur ki, O, həm özündə, həm də insanda var olur? Əslində isə, Onun özündə var olması məchul bir şeydir. Onun insandakı varlığı isə, Onun gerçək, görünən varlığıdır.

***Bulmuşam Həqqi, Ənəlhəq söylərəm,***
***Həq mənəm, Həq məndədir, Həq söylərəm.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəsimi baba nə deyirdi görəsən? O da küfr edirdi? Əlbəttə, dini baxışlarla baxsaq, kafirin lap yekəsi olub mənim Nəsimi babam! Dediyim kimi, mən belə küfrü o cür dindən üstün tuturam. Əgər məni Nəsimi, Şəms, Mövlana, Seyyid Əzim, Aşıq Ələsgər kimi "kafirlərlə" bir cərgədə ittiham edəcəklərsə, razıyam. Onlarla bir yerdə cəhənnəmə girmək, şeyxül-islamlarla bir yerdə cənnətə girməkdən daha yaxşıdır.

Həqiqətən də qəliz məsələdir. İçindən çıxmaq çox çətindir. Ürfani dünyagörüş bu səbəbdən çox daha qədimdir. Yuxarıda dediyim kimi, Qərb alimlərinin dediyi "təsəvvüfdə kifayət qədər xristianlığın və daha əski dinlərin ölçüləri və nişanələri vardır" fikri yanlışdır. Gerçək olan budur ki, təsəvvüf, ürfan dinlərüstü bir şeydir. Din bəşərin Allah elmindən yararlanaraq qurduğu fəlsəfi, ictimai təlimdir. Dolayısı ilə Yer təlimidir, Dünya bəsirətidir. Yerin Yer olduğu məlumdur. Yer planetlərdən biridir. Yerin bir adı da "ağıl"dır. Yəni, məntiq, başı və sonu olan, zahiri gözlə görünən bir nəsnə. Ancaq böyük Füzuli görün nə deyir:

***Fəzayi-eşqi ta gördüm, səlahi-əqldən durəm,***
***Məni rüsva görüb eyb emə ey naseh ki, məzurəm...***

Yəni, eşqin fəzasını gördükdən sonra, ağlın məsləhətindən uzağam. Eşqin müqabili aşiqdir. Ağlın müqabili aqil, elmin müqabili isə alim olduğu kimi. Aşiq olmadan o fəzada nələrin baş verdiyini, o qazanda nəyin bişdiyini ehtimal etmək belə ağıl sahiblərinin özləri üçün ən böyük ağılsızlıqdır.

Əslində İslama qədərki dinlərlə bağlı (ürfan və təsəvvüf mövzusunda) elə də böyük problemlər mövcud deyildir. Onların da ürfanla bağlı bir dərdləri yoxdur. Ona görə yox ki, onlar mütərəqqi, İslam şəriəti isə mürtəcedir. Ona görə ki, o dinlər bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mövzudan atrıq çox uzaqdadırlar. Təsəvvüf çoxdandır ki, islamlaşıb. Çoxdandır ki, "atəşpərəst" deyilən maqlar "piri-muğan"laşıb və Həzrət Əlinin gizli elmi ilə silahlanmışlar.

***PİRİ-MUĞAN***

Bir az yaşlı nəslin nümayəndələri üçün tanış kəlmədir **Piri-muğan.**

Tarixə hər cür yanaşma tərzi mövcud olub. Birtərəfli, obyektiv, qərəzli və s. Fəqət tarixə yanaşmanın ən passiv nümunəsi fəlsəfi yanaşmadır. Hadisələr sanki kuklalar ətrafında baş verir. Fiqurların nə yapdığı, necə yapdığı araşdırılır, amma niyə yapdıqları çox zaman diqqət xaricində qalır. Fəlsəfi boşluq tarix elminin əzəli xəstəliyidir. Buna görə də əksər tarixçilər çox zaman obyektiv, tərəfsiz görünsələr də əksinə, məsum bir avantüra ilə məşğul olmuşlar. Tarixin fəlsəfəsi çürük, nizamsız və bəhrəsiz, fəlsəfənin tarixi isə bərbad vəziyyətdə olmuşdur. Tarixçi alimlər "biz fəlsəfəyə qarışmırıq" şüarı ilə, filosoflar isə "fəlsəfə bəsit və dialektik məntiqə bağlıdır" devizi ilə çıxış etmişlər. Məntiq deyilən şey isə mənadan çox reallığa (bu sözü dırnaq içində yazmaq daha doğru olardı), yəni tarixi hadisə gerçəkliyinə söykənir. Nəticə? Nəticə hadisə və şəxsiyyətlərin toplum üzərindəki təsir və işləmə mexanikasının qeyri-dəqiq araşdırılması ilə nöqtələndi. Məsələn, elə dinlərin tarixi peyğəmbər və yaxınlarının həyatından, həmin dinlərin bayrağı altında yaradılmış dövlət və quruluşlardan ibarətdir. Vəssalam. Sizcə, bunlar din tarixinin düzgün araşdırılması üçün yetərlidirmi? Elə buna görədir ki, əlimizdə olan bu günkü ənənəvi İslam dini Ərəb dövlətçiliyi tarixindən o tərəfə gedə bilmir. Özünü mütərəqqi, başqasını mürtəce adlandıran bütün məzhəbi



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

cərəyanlar dönüb-dolaşıb, yenə də hansısa xəlifənin və ya imamın siyasi hakimiyyəti üzərində dayanır.

Elə bu tip səbəblərin ucbatından məsələn, təsəvvüf, ürfan kimi müdhiş ruhani məfhumlar ədəbi, bədii mənbələr olaraq təqdim olunur. Onların real tarixi hadisə olması, toplum üzərindəki mənəvi qalibiyyəti göz önündən yayındırılır.

"Piri-muğan" anlayışı da belə məfhumlardandır. İlk nəzərdə (fars dilindən tərcümədə) "muğların piri" anlamına gələn bu ifadə əslində daha dərin fəlsəfi qatlardan xəbər verir. Dinlərin də ictimai formasiyalar kimi (ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və s.) mərhələli bölgüsü bu cür məsələlərin ətrafında əslində çaşqınlıqdan başqa bir şey yaratmır. Yəni,.. Yəni, İslami baxışlarla çulğalaşan əski Xorasan sufi məktəbləri alimlər, tarixçilər tərəfindən regional, milli məsələlər kimi dəyərləndirilir ki, bu da kökündən yanlışdır. Nə sufilik islamlaşmadı, nə də bəzilərinin (bir-iki dəfə də mənim) dediyi kimi, İslam sufiləşmədi. Bunlar əzəldən var idi, bir idi, vəhdət təşkil edirdi.

Bax elə bu son cümləni tarixçilər, realistlər rədd edirlər. Necə yəni, 8-ci əsrdə yaranmış bir din ilə əsrlər öncəsi mövcud olan fəlsəfi cərəyanlar bir məcradan qaynaqlanır və demək olar ki, eyni şeydir? Elə bu yerdə də yuxarıda dediyimiz tarix elminin fəlsəfədən uzaqlığı məsələsi dövrəyə girir. Onlar (alimlər, tarixçilər) fəlsəfi mətləbləri ya görməzdən gəlir, ya da bir zamanlar mövcud olmuş hansısa cərəyanın fərdiyyətçiliyi kimi qələmə verirlər.

Ədəbi və orta əsr Şərq elmi mənbələrində "Piri-muğan" anlayışı sufi təkyələrinin mürşidlərinə, zamanın qütbi-övliyalarına isnad edilmişdir. Yanlış olaraq, təbir edildiyi kimi, bu mət-



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

ləbin irançılığa, xüsusilə də farsçılığa dəxli yoxdur. Elə türkçülüyə də həmçinin. Tarix elminin ən böyük bəlalarından biri də məsələlərə məhz millətlərin və dövlətlərin prizmasından yanaşmasıdır. Əgər ərəblər Xorasan sufi məktəbini rədd edir, ona küfr damğası vururdularsa, o zaman Həzrət Əli və məktəbinin təsəvvüfə olan bağlılığını nə ilə izah etmək olar? Axı onlar da ərəb idi. Yox, bu məsələ ərəbçilik, farsçılıq, türkçülük deyil, şəriət, təriqət məsələsidir. Yəni, fəlsəfi problemdir. Tutaq ki, təsəvvüfün binasını qoyan Xorasan sufi məktəbinin vətəni sayılan İranda bu günün özündə də sufilərin amansız təqibi, xüsusilə son illərdəki kütləvi edamları nəyin göstəricidir?

Düşünməyə ehtiyac var.

Arada isə çox sayda qaranlıq qalan mətləblər vardır. Bu qaranlıqların mənbəyi şəriətlə təriqətin arasındakı əqidə və fikir ayrılığından nəşət edir. Əsrlər keçməsinə baxmayaraq, demək olar ki, heç nə dəyişməyib. Şəriət qanunlarına əsasən, Mənsur Həllac yenə də mürtəddir və edama məhkumdur. Nəsimi aşkar şəkildə, öz adıyla yenidən qayıdıb gəlsə, müftilər onu yenə də dərisi soyulmaqla dar ağacına çəkərlər. Haşiyə çıxaraq söyləyim ki, İsanın çarmıxı da öz yerindədir.

***Bilirsən ki, Nəsiminin küfrünü yayan ölümə məhkumdur?***

***Bilirəm.***

***Kimsən?***

***İmadəddin Nəsimi!***

***Yalan deyir. O, Nəsimi deyil.***

***O məlunun küfrü üzündən dünyanın yarısı etiqaddan məhrum olub.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Kim bilir. Neçə il lazımdır ki, camaat Haqq yoluna qayıtsın.***

(“Nəsimi” kinofilmindən fraqment)

“Küfr” sözü ərəb dilində “kəfərə” felindən törəyib. Sözün kökü bir şeyin üstünü örtmək, bağlamaq mənasındadır. Bu hərfi mənada da belədir. Tutaq ki, mən əllərimlə masanın üzərindəki bir şeyin üstünü örtürəmsə, mən küfr etmiş oluram. Bu mənada həqiqətin üstünü örtənlərə “kafər” deyilir.

Tarix boyu şəriət tərəfindən çoxlarına “kafər” damğası vurulub. Fəqət, əslində gerçək küfr elə dinin, şəriətin özünə məxsusdur. Mən hərfi mənada danışacağam. Mətləb bir az qəlizdir.

Din elə pərdədir ki, üzərindəki zahiri gözəllik, əminlik arxasındakı həqiqətləri məharətlə gizlədə bilir. Belə ki, dinin arxasında ürfan gizlənir. Yəni, elmi dillə desək, şəriətin bətnində təriqət, mərifət, həqiqət yatır. Şəriət, yəni din bunları pərdələyir və deməli, bizim məntiqimizlə yanaşsaq, küfr edir.

Ürfanda terminlər mövcuddur. Onlar zahiri mənalarını soyunmuş, batini məcazlardır. Tutaq ki, elmi və bədii ədəbiyyatda çox işlənən məşhur “zahid” kəlməsi bəsit terminologiyada zöhd eləyən, təqva sahibi, pak, mömin insana deyilir. Batini, ürfani anlamda isə, “zahid” bir yerdə donub qalan, mühafizəkar və cahildir. Allah rəhmət eləsin, Seyyid Əzim Şirvani mənzumələrində sıxsıx “zahidi-gümrah” ifadəsini işlədirdi. “Gümrah” sözü bizim türkcəmizə yanlış transfer olunub. Fars dilində “güm” (“gom”) azmış, çıxmış, “rah” isə yol deməkdir. “Gümrah” yəni yolundan azmış, həqiqətin məcrasından çıxmış. Bu mənada biz yaşlı adamlarımıza “maşallah gümrahdır” deyəndə, əslində onları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təhqir edirik. Nəisə, bu ayrı məsələdir. Seyyid Əzimin zahidi həqiqəti örtən, Haqq yolundan azan bir kafərdir. Çünki, Seyyid Əzim dözülməz dərəcədə güclü bir ürfan əhli, mütəsəvvüf idi. Onun bu cür terminlər işlətməsi ürfan və təsəvvüfün ən dərin qatlarından xəbər verir.

Bu günümüzə də diqqət etdikdə, görürük ki, həmin cəbhədə heç nə dəyişməyib. Əksinə, dinin və dindarların küfrü bir az da artıb. ***Əstəğfurullah, yanlış anlaşılmasın, mən dindara "kafər", dinə "küfr" deyərkən, kommunistlər kimi yox, sufilər kimi danışıram. Əlbəttə ki, yüzlərlə ateist, insanlıq yolundan azmış harın məmur ordusu, onların gecə barlarında damara və cinsi orqanlara qulluq edən övladları qurban olsun avam bir dindarın atılan dırnağına!*** Söhbət ondan getmir. Kateqoriyalar var. Mən eyni evdə, eyni çatı altında olan qardaşların ev içi müşküllərindən danışıram.

Şəms Təbrizi deyirdi ki, ***"Mənim kütlə ilə işim olmaz. Mən yalnız şeyxləri tutub danlayaram. Özü də hər şeyxi yox, kamil şeyxi".*** Gördüyümüz kimi, ürfan əhlinin, hal əhlinin vəziyyəti başqa cürdür. Həmin Şəms başqa bir yerdə deyir ki, ***"Müctehidə təqlid eləyən kafərdir".*** (Bu barədə irəlidəki fəsillərdə daha geniş şəkildə bəhs edəcəyik). Təsəvvür edin ki, milyonlarla müsəlman hansısa din üləmasına, ictihad sahiblərinə təqlid edir, yəni risalələrin hökmü ilə yaşayır. Şəms Təbrizinin məntiqi ilə onların hamısı küfr edir. Əslində isə, böyük arif düz deyir. Bütpərəstlikdən, allahsızlıqdan qurtulan dindarlar bu dəfə də mühafizəkarlığa, ehkam və tabuların köləliyinə məhkum oldular. Onlar nəyi gizlətdilər, nəyin kafəri oldular? Əlbəttə ki, **eşqin!** Eşq nəhayətsiz, qanun və ehkam tanımayan, Mənsurları, Nəsimiləri dar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ağacına qədər aparan fəlsəfi təlimdir ki, birbaşa Xaliqin özündən gəlir.

***Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim,***
***Gövhərin yekdanəsindən iləri pərgar idim.***
***Girdim Adəm cisminə, bir kimsə bilməz sirrimi,***
***Mən şu beytullah içində ta əzəldən var idim.*** (Şah Xətai)

Bax, din dediyimiz şey bunları gizlətdi, bu gerçəkləri pərdələdi. Çünki, meyli məhəbbətə, iradəsi eşqə olan insanları özlərinə, öz qanun və ehkamlarına tabe etdirməklə, əsrlərdir ki, toxunulmazlıq və hakimiyyət əldə etmişlər.

Ürfan sahibləri isə, əsrlər boyu dinsizlikdə ittiham olunmuşlar. Bizə məxsus olan əsas problem isə ondadır ki, bizlər sovetlər dönəmi elmi təfəkkürünün təsiri altında yaşadıq və çox güman ki, belə də ölüb gedəcəyik. Bu gün elm adlanan nəsnə Babək Xürrəmidə, Nəsimiyə və digər batini elm nəhənglərinə münasibətdə irticayi İslam şəriətindən o qədər də fərqlənmir. **Onlar da bunlar da Babəkə "zindiq", Nəsimiyə "müşrik" deyirlər. Arada bir fərq var ki, şəriət onlara mənfi mənada, elm isə müsbət mənada küfr damğası vurur. Çünki, elm hələ də Allahı tanımır. Din isə, tanıdığı Allahı tanıda bilmir.** Ürfan isə, adından da göründüyü kimi, "mərifət"dir tanımaq və tanıtmaqdır.

***BABƏK***

Tarixi təhrifləri düzəltmək isə çətin və bəzən də mümkünsüzdür. Təkcə elə ona görə ki, onlar tarixdir. Kimdir qərinələrin o tayından bağırıb, **"ay qardaşlar, sizə yanlış məlumat verib salnaməçilər. Babək dinsiz və əxlaqsız olmayıb. O, şərəf və ruh sahibi, böyük alim idi!"** deyən? Bu,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mümkün deyil. Tarix yalnız və yalnız elmi metodlarla araşdırılır və dəyərləndirilir. Elm isə məhdud qanunauyğunluqlar, bir dəlinin quyuya atdığı daşı yüz ağıllının çıxara bilməməsi prinsipi ilə var olmuşdur. Yəni, nə qədər tərəfkeşlik edirsən et, nə qədər məntiqi nəticələrə gəlirsən gəl, hər hansısa bir təəssübkeş, hakimiyyət qulu olan ərəb tarixçisinin yazılı səlnaməsi öz doğma alimlərimizin fikrini yönəltməyə bəs eləyir.

Fəqət, biz burada bir "məntiq" ifadəsi işlətdik. Tərəfkeşlikdən, hissi düşüncələrdən arınmış dialektik məntiq. Məsələn, mənim məntiqim mənə deyir ki, Babək Xürrəmidin üzərinə gələn Abbasilərlə indi bizi (və şəxsən məni) "kafir", "dinsiz" "Allaha şərik qoşan" adları ilə çağıran vəhhabilər eyni mahiyyət daşıyırlar. Düşünmək çətin deyil ki, xilafətin tarixçiləri ərəblərin din adı altında torpaq, namus, azad düşüncə basqılarına qarşı iyirmi il fiziki və ruhani mübarizə aparan Babək haqqında nələr yaza bilərdilər. Təsəvvür etmək çox rahatdır ki, İmam Hüseyni də Hüseyn ibn Mənsur Həllacı da Fəzlullah Nəimini də İmadəddin Nəsimini də qətlə yetirən həmin xilafət idi.

Nə deməkdi xilafət? Heç bir şey. Ərəb əşirətçiliyinin, ərəbin divanə nəfsinin başqa millətlər və sivilizasiyalar üzərindəki islamlaşmış forması. Bu qədər bəsit. Məntiq belə düşünməyə əsas verir ki, Peyğəmbər xanədanını bir neçə əsr ərzində son nəfərinə qədər qırıb, dünya üzündən silən ərəblər məhz o bütpərəst Məkkənin intiqamını alırdılar.

Məntiqin ipini qırmamağa çalışaraq, belə bir ardıcıllıqla davam edək ki, çoxlu sayda tarixi mənbələr (ərəb mənbələri də daxil olmaqla) xürrəmiləri Əli aşiqləri, əliyullahilər, dolayısı ilə kafir və müşrik adlandırmışlar. Bu nə deməkdir? İslam dini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əleyhinə (guya) 20 il qılınc çalan bir təriqət necə olur ki, Həzrət Əlini və Əhli-beyti öz amalı və mürşidi elan edir? İlk baxışda burada məntiq görünmür. Lakin, çox yox, bir azca diqqət etsək, görərik ki, bu məsələdə çox güclü bir məntiq hökm sürür. Xürrəmiləri, hürufiləri, nuseyriləri təqib edən, din düşməni elan edən xilafət Peyğəmbər xanədanının bütün üzvlərinə qarşı elə həmin ittihamla da çıxış etmişlər. Abbasilərin xilafəti boyu (yüz illərcə) hər gün bütün məscidlərdə Həzrət Əli və onun ailəsini tənqid və hətta təhqir etmədən namaza oturmazdılar. Bunu tarix yazır. Həmin tendensiya ilə Səfəvilər İmperiyasının banisi Şah İsmayıl Xətai də İslam şəriəti tərəfindən ittiham olunmuşdur. Çox maraqlıdır ki, Yavuz Sultan Səlimin müftilərinin Şah Xətai və onun təriqəti haqqındakı fitvasında eynilə bu cür yazılmışdı: **”Bu şəxs özündən əvvəlki mürtədlərin yolunu tutaraq, Zərdüştilik və Xürrəmiliklə sufiliyi birləşdirmişdir”.** Bu fitva çox qiymətli mənbə olaraq, onu sübut edir ki, Babək də Həsən Səbbah da Fəzlullah Nəimi də Şah Xətai də dindən çıxmamış, əksinə İslamın gerçək üzünü Peyğəmbər xislətindən gələn eşqi və imanı daşımışlar. Çünki, qeyd etdiyimiz kimi, Peyğəmbər ailəsindən başlayaraq, adını çəkdiyimiz və çəkmədiyimiz bütün təsəvvüf və ürfani cərəyanlar eyni ittiham üzrə mühakimə olunmuşlar.

Hakim bir, məhkum bir. Hökm bir, günah bir. Əgər, tutaq ki, Babək Xürrəmid kafir və dinsiz idisə, onda Peyğəmbərin nəvəsi İmam Hüseyn kim idi ki, onu da həmin xilafət Babəkdən də qat-qat ağır bir əzabla, bütün ailəsi və əqidədaşları ilə birlikdə şəhid etdilər? Bu da bir məntiq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deməli, belə bir nəticə ortaya çıxır ki, Babək bir Azərbaycan qəhrəmanı olaraq və bir müsəlman olaraq, İslam dini ilə deyil, bu dini özünə bayraqşəkilli pərdəyə çevirən, özündən başqa əli çatan bütün sivilizasiyaları məhv etməyə çalışan ərəb milliyyətçiliyi ilə mübarizə aparırdı.

Əlavə olaraq məsələn, mənbələr yazır ki, Babək özü tənbur çalır, **"Əli Hu"** deyə zikr edir, özündən gedirdi. Təbii ki, elə bircə bu tənbur musiqi aləti faktı kifayətdir ki, xürrəmilər kafir elan olunsun. Çünki təməl şəriət hökmlərində musiqi haramdır. Bu elə həmən tənburdur ki, sonradan onu Lahicanda Şah İsmayıl çalardı. Daha sonra Xətainin əlində o tənbur çoğur musiqi alətinə və sonra da saza dönüşdü. Şəriət onu da küfr elan edərək, istifadəsinə qadağa qoydu.

İndi gəlinən nəticə nədir? Təhrif olunmuş tarix, yoxsa həmin təhrif mənbələrin özündən çıxarılan məntiq? Hansına inanaq? Şəxsən mən Allahın mənə bəxş etdiyi ağılı və məntiqi buraxıb, təəssübkeş və irtica dolu ərəb mənbələrinə güvənmərəm!

Məntiqim bir daha mənə diqtə edir ki, mənbələrin təhqiramiz şəkildə təsvir etdikləri "əxlaqsızlıq yuvaları" olan Bəzz, Ələmut, Əlincə qalalarında döyüşən insanlar həmin əxlaqla belə bir mübarizəni apara bilməzdilər! Bu mümkün deyildi!

***BƏZZ, ƏLƏMUT, ƏLİNCƏ***

Üçü də təsəvvüfün qalalarıdır. Üçündə də fiziki mücadilədən ziyadə ruhani, mənəvi savaş getmişdir. Bəzz qalası Cənubi Azərbaycanın Kəleybər mahalında, Ələmut qalası hələ də Azərbaycan olduğu etiraf edilməyən Qəzvin dağlarında, Əlincə isə adı "Kitabi-Dədə Qorqud"da yad edilən Naxçıvandadır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qeyd etdik ki, bu qalaların üçündə də ruhi mücadilə verilmişdir. Bəzz qalası xürrəmilərin, Ələmut qalası nüseyrilərin, Əlincə qalası isə hürufilərin qiyam qalaları olmuşdur.

Bu üç mübarizə haqqında xüsusilə bizim çox az və yanlış məlumatımız vardır. Bunun da əsas səbəbi sovetlər zamanında aldığımız təhsil və tərbiyənin diqtə elədiyi təfəkkür tərzindən çıxış etməyimizdir. Bizə elə gəlir ki, biz həmin təfəkkür dairəsindən, ateist və vulqar psixologiyadan qurtulmuşuq. Lakin bu, elə də asanlıqla tərk edilən bir illət deyilmiş. Nəzərə alsaq ki, müstəqil bir ölkənin vətəndaşları olmamıza baxmayaraq, bizi hələ də əski nəzəri-fəlsəfi sistemlə idarə edirlər, o zaman bu cür məsələlərə düzgün münasibət bəsləmək bizim üçün bir xeyli müşküldür.

Azərbaycanda Babəkin və babəkilərin təriqət mənsubları olduqlarını çox az sayda insan qəbul edir. Xürrəmilərin əslində Əhli-beyt aşiqləri olaraq, Həzrət Əlidən gələn məxfi bilgilərin əsasında təriqət savaşı apardıqlarına inanırıq.

Eyni ilə Ələmut qalasında xilafətə qarşı otuz il mübarizə aparan nüseyrilər də tarixçilər tərəfindən obyektiv şəkildə təhlil edilməmişdir. **“Xudavəndi-Ələmut”** adı ilə məşhur olan Həsən Səbbahın başçılıq etdiyi möhtəşəm qiyam İslam şəriəti altında xalqların mədəni, demoqrafik haqlarına təcavüz edən ərəb milliyyətçiliyinə qarşı idi. Tarixdə əməlli-başlı fenomen olan bu hərəkat sonralar terror, narkomaniya kimi keyfiyyətlərlə qaralanmışdır. Nüseyrilər haqqında ilk böhtanlar məhz ərəb tarixçiləri və salnaməçiləri tərəfindən atılmışdır. Bu, təbii idi. Ərəb işğalına, ərəb nəfsinə qarşı çıxan hər kəs, hətta kütlələr belə “kafir”, dinsiz” adlandırılırdı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu böhtandan on dörd il Əlincə qalasında vuruşan hürufilər də nəsibini almışdılar. Hürufilərin zamanında mərkəzləşmiş İslam xilafəti mövcud deyildi. Lakin Əmir Teymur və teymurilər İslam şəriətini əllərində silah etmişdilər. Onlar İslamı yaymaq və qorumaqda ərəblərdən daha səmimi və ixlaslı olsalar da nəticədə onlar da şəriət və ehkam carçıları idilər. Şəriət və fundamental İslam isə təriqəti, ürfanı, xüsusilə də kütləvi hərəkat və ictimai şəkildə var oluşunu rədd edirdi. **Əlincədə vuruşan sadə xalq deyil, hürufilər idi. Dava şəriət-təriqət davası idi.** Bunu inkar etmək ağılsızlıq olardı. Ən azı ona görə ki, sayı yüz minləri ötən güclü, yaxşı silahlanmış orduların, ölkələr fəth edən komutanların qarşısında kiçik qalalar, sayları beş-on min nəfəri ötüb keçməyən insanlar on illərlə necə davam gətirə bilərdi? Belə mübarizələrin kökündə mütləq və mütləq əqidə, nəzəri bilgilər və güclü inam kateqoriyaları dayanırdı. Əks təqdirdə iyirmi il Bəzz qalasında, otuz il Ələmut qalasında, on dörd il Əlincə qalasında müdafiə olunmaq absurd bir şey olardı. Bu fikri əksər dünya alimləri təsdiqləyir. Bu sıraya özəlliklə son dövr Avropa və Amerika şərqşünas alimlərini daxil etmək olar.

Bizdə isə proses tamamilə əksinə gedir. Biz artıq yerimizdə də saymırıq, geriyə gedirik. Mənəviyyat və ruh tariximizin bu möhtəşəm səhifələrini yeni baxışla, müasir, mütərəqqi dünyagörüşü ilə təhlil etmək əvəzinə hələ də Babəkə “dinsiz”, Həsən Səbbaha “terrorist”, Nəsimiyə isə “ateist” deməkdə davam edirik. Çünki, müstəqillik aktı ilə bərabər dəyişməli olan ideoloji bazis yerində qaldı. Müstəqillik atributlarının yanında milli ideologiyanın da mövcudluğu qaçılmaz bir şey olmalıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***"Barmağıma baxmayın, Aya baxın"***

(Əbu Yəzid Bistami)

"Həqiqət" bir çox dillərdə, amma müxtəlif mənalarda işlənən bir kəlmədir. Məsələn, ruslar "istina", Türkiyə türkləri "gerçək", ərəblər və biz "həqiqət" deyirik. Lakin məqsədimiz dilçilik etmək deyil, bu sözün eyni dildə, lakin fərqli dünyagörüşlər üzrə fərqli anlamlarda işlənməsinə diqqət yetirməkdir. Məsələn, müsəlman olan əksər millətlər bu kəlməni olduğu kimi işlədirlər. Əsli ərəb dilindən gələn "həqiqət" "haqq", "Tanrı", "gerçəklik" mənalarını daşıyır.

Düyünlü məsələ də elə buradan yaranır. Məsələn, dini və ürfani qaynaqlardan uzun illər boyu uzaq düşürülmüş bizlər, yəni Azərbaycan türkləri bu kəlməni "düzgünlük", "doğru danışmaq" kimi anlamlarda istifadə edirik. Oxucularımızı qəliz yerlərə çəkmək istəmirəm. Lap qısaca ifadə etsək, bizim elə mənəvi-ruhi və hətta əqli dayazlığımız, ümummilli "yüngüllüyümüz" də buradan bəlli olur (deyirəm, nə yaxşı ki, Mirzə Cəlil (lər) varmış. O rəhmətlik deyirdi ki, millət uşaq topuna bənzər. O topu nə qədər hirslə yerə vursan, göyə bir o qədər çox qalxar. Yəni, pişik balasını istədiyindən yeyən kimi, biz də istəkli millətimizi sevdiyimizdən dolayı belə yarımtəhqirlərə məruz qoyuruq).

Deməli, məsələ burasındadır ki, ürfan və təsəvvüfdə (sufizmdə) dörd ruhani təkamül mərhələsindən bəhs edilir. **"Şəriət", "Təriqət", "Mərifət", "Həqiqət".** Bu mərhələləri özündən əvvəl gələn (həm zaman, həm də səviyyə etibarilə) ariflərin nəzəri sistemləri əsasında böyük təsəvvüf teoloqu Əbu Həmid Qəzzali şərti olaraq tərtib etmişdir. Bəli, məhz şərti olaraq. Yəni burada mütləq olan heç nə yoxdur. Klassik Şərq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müəlliflərinin əsərlərinin sonunda deyilidiyi kimi, “hər şeyin doğrusunu Allah bilir” kimi tərzdə yanaşsaq, ürfani bir məcraya hansısa sistemi, nəzəri cədvəlçiliyi sığışdırmaq mümkün deyil.

Bu mərhələlərin, göründüyü kimi, sonuncusu “həqiqət”dir. Hər şey ona doğru, onu hədəf alaraq gedir. Burada başqa bir məqam ondan ibarətdir ki, insan təkamülündən bəhs edən bu qatlar sonda, yəni “həqiqət”də “insan”dan xilas olur. Yəni, insan amilinin yerini Haqq, Allah, həqiqət tutur. Bunu böyük Mühyiddin Ərəbi belə təsnifatlandırır:

***1. Şəriət  Allahdan insanlara seyrdir (mesajdır, görüntüdür).***

***2. Təqiqət  İnsandan Allaha seyrdir.***

***3. Mərifət  Allahdan insanlara seyrdir (bu dəfə “mərifət” səviyyəsində, yəni ürfani dünyagörüşlər çərçivəsində)***

***4. Həqiqət  Allahdan Allaha seyrdir.***

Bir az diqqət etsək görərik ki, burada “həqiqət” Allahın özünə deyilir. Bir az da incələsək, bu məqamda Allah-insan ayrılığı yoxa çıxır  yəni, **“fənafillah”  Allahda yox olma** başlayır.

İndi bütün bunlardan sonra insanın həqiqət barədəki düşüncələri necə dolaşmasın? Yunus Emrədən tutmuş, Aşıq Ələsgərə qədər “həqiqət”i məhz bu nöqteyi-nəzərdən təhlil etmiş, bizim doğma ariflərimiz. Məsələn, Yunus deyir:

**Şəriət, Təriqət yoldur varana,**
**Mərifət, Həqiqət ondan içəri.**
**Məni məndə sorma, məndə deyiləm,**
**Bir mən vardır məndə, məndən içəri,..**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz Qafqaz türklərinin itirib, əvəzində araq rumkası və əxlaqsız aşıqlar qazandığımız şey məhz elə həmin bu içdəki “mən”dir. **Nəyi verib, nəyi aldığımızın fərqində olsaq, kütləvi şəkildə, ümummilli intihara cəhd edərik!**

Beləliklə, “həqiqət” özünü deyil, haqqı nişan verməkdir desək, yanılmarıq. Bir az əvvəldə göydəki ayı göstərib, ***“barmağıma deyil, Aya baxın”*** deyən Bistami həzrətlərini boş yerə misal gətirmədim. Bizlər hər kəsə öz barmağımızı göstəririk (biədəb çıxmasın). Yəni, tanıtdığımız, ünvanladığımız şeydən çox, diqqətləri öz üzərimizə çəkirik. Məhz elə buna görə də bizə hələlik mənəvi qurtuluş yolu görünmür. Biz həqiqəti Haq naminə yox, öz nəfsimizin uğruna təbliğ edirik. Belə demək mümkünsə, Allah bizim mənliyimizin içində itib batır. Buna görə də heç bir ruhani, şeyx, molla, o cümlədən də heç bir (kəsinliklə heç bir) siyasətçi, alim xalqı inandıra bilmir. Çünki, Haqqı gizlədən mənliyin içində müdhiş bir riyakarlıq, bu riyakarlığın altında isə şərəfsiz bir saxtakarlıq yatır.

Məntiqi bağlantını qırmamaq üçün bir şeyi də əlavə edim ki, həqiqəti hədəfin, nişan verdiyin müqəddəsliyin özü naminə dilə gətirmək, elə sufilər demişkən, “fənafillah”dır Allahın Həqiqətin içində əriyib yox olmaqdır!

Bax, biz bunu itirmişik.

### *MİLLİ FƏLSƏFƏ*

Azərbaycan isə, ürfanın, təsəvvüfün ən böyük qaynaqlarından biri olmuşdur. Sonuncu feli keçmiş zamanda işlətmək nə qədər acı olsa da məcburuyyətdir. Biz elmimizi, dinimizi, mənəvi tərəqqimizi həmin ənənələr üzərində inkişaf etdirə bilərdik. Bunun örnəyi Anadolu Türkiyəsidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan olan maddi və fiziki ehtiyaclarını ödəmək ehtiraslarından bir gün mütləq usanmalıdır. Bir gün mütləq, özündə bütün kainatın sirlərini gəzdirən öz içinə baş vurmalıdır. Bunun başqa yolu yoxdur. Yumurtasını dələrək çıxan zərif bir cücə belə öz ağlına, nəfsinə deyil, mütləq enerji mənbəyi olan qüdsal varlığa bağlanaraq, o havasız yerdən işıqlı dünyaya göz açmağı bacarır. İnsan adlanan məxluq isə cəhalət yumurtasının içindən bir türlü qurtulmaq istəmir ki, istəmir!!

Yaxın və Orta Şərq məntiq elmində (məsələn Əbu Nəsr Farabi, Bəhmənyar ibn Mərzbani kimi alimlərin əsərlərində) insanın tərifi belədir: **"İnsan heyvani-natiqdir yəni insan danışan heyvandır".** Qəribədir, deyilmi? Belə çıxır ki, insanın heyvandan fərqi yalnız onun nitqidir (yazıq Şərq filosofları, yəqin danışan heyvanları heç görməmişlər). Fəqət, burada incə bir nöqtə var. O da bundan ibarətdir ki, "heyvan" sözü ərəb dilindəki "həyat" sözündən gəlir. Eyni qrammatik tərkibə malik olan bu kəlmələrin hər ikisi "diri olan", "yaşayan" anlamlarını ifadə edir. Elə Allah-Təalanın 99 gözəl adlarından biri də "Həyy"dir. Bu kəlmə də "həyat" sözü ilə eyni mənanı daşıyır. Nəisə,.. demək istədiyimiz odur ki, məntiq elmindəki "heyvani-natiq " ifadəsi insanın bizim anladığımız mənada heyvan yox, məhz yaşayan, diri olan, həyat daşıyıcısı anlamındadır.

Bu həyat daşıyıcısının heyvani varlıqlardan ən önəmli fərqi və üstünlüyü onun inkişaf və geriləmə (ruhi, mənəvi və əqli cəhətdən) imkanının olmasındadır. Yəni, bir at və ya şir istəsə də şair və ya şərəfsiz ola bilməz. İnsan isə bu iki keyfiyyəti hətta bir məcrada belə daşımağa qadir olan bir məxluqdur. Həqq-Təala insana həm alçalıb heyvandan aşağı (mən nədənsə axır zamanlar



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

heyvanlar haqında anoloji düşünə bilmirəm), həm də yüksəlib öz məqamına  Allah qatına qədər ucalma keyfiyyətini bəxş etmişdir.

Bütün bu deyilənlərdən məqsədimiz sözü o yerə gətirməkdir ki, insanın müqəddəsliyə bağlanmağa ehtiyacı vardır. Qısa keçmək istəyirəm; Bu bağlantını təmin etmək üçün Dünya üzünə çoxlu sayda mesaj sahibləri, peyğəmbərlər, övliyalar təşrif gətirmişlər. Onların çəkdikləri zəhmətin arxasında bircə şey dayanırdı: Gördükləri və yaşadıqları xoşbəxtliyi insanlarla paylaşmaq. Vəssalam,.. Heç kim nağıl danışmasın. Türklər demişkən, zorla gözəllik olmaz. Yəni, məhəbbət və gözəllik stimul olmasa, insan heç bir vəzifəyə, missiyaya sonuna qədər davam gətirə bilməz.

Bu din (və bütün dinlər) məhəbbət dinidir. Qanun və ehkam yığıntısı deyil. Biz ərəblərin, bizə "əcəm" deyərək ixrac etdikləri din adlanan dəbilqənin altında can vermək üzrəyik! (buna deyərlər həyəcan siqnalı  yoxsa "din əldən getdi, qoymayın, millət kafir oldu" bular hamısı boşboş şeylərdir). **Din bizimdir... Amma ərəb dövlətçiliyi tarxi bizim deyil. Din bizimdir... Amma İran şiəliyi bizim deyil. Mən İmadəddin Nəsiminin təqdim etdiyi Həzrəti Mühəmmədi sevirəm! O. Hərra mağarasında "Hu!" deyərək, özündən gedən aşiqdir. Mən Xətainin vəsf etdiyi Əlini sevirəm! O Əli ki, mənə 4-cü xəlifə olaraq lazım deyil!**

Bu millət nə qədər əlləşsə də, özünü nə qədər məcbur etsə də şəriət dindarı ola bilməyəcək. Başa düşün, ərəbin Mövlanası, Xətaisi yoxdur. Buna görə də onun yeganə sərmayəsi ehkam və qanundur. Ərəbin 1400 ildən bəri təbliğ etdiyi İslam deyil, ərəb



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

dövlətçiliyi, Əbu Süfyan əşirətçiliyidir! Bunlar bizə lazımdırmı? Biz niyə xəlifələrin çarpışmasını özümüzə məşğuliyyət eləmişik?

Bəli, Nəsiminin "gördüyü" (sözü dırnaq içinə aldım ki, bir az düşündürsün bizi) Peyğəmbər mənimdir. Amma özünü "xələfi" (ya da "sələfi") adlandıran vəhhabinin dediyi kimi, xristiyana verdiyi (guya səhv olaraq) salamı geri istəyən Mühəmməd (adı könlümün tacı olsun!) mənim deyil! Çünki mənim övliyam, Mövlanam, Nəsimim, Aşıq Ələsgərim özünə nə sünni, nə də şiə dedi. Onlar Həqq aşiqləri idilər! Əgər xatırlayırıqsa, qatı sünni məzhəbinin nəzəri təliminə söykənən Nəqşbəndiliyin böyük nümayəndəsi olan Mir Həmzə Seyyid Nigari Amasya təkyəsindən qovulmuşdu. Səbəb? Səbəb aşağıdakı zikr idi:

***Şiri-Xuda Ya Əli,***
***Dadıma yet ya Vəli!***
***Həm Əlisən, həm Vəli,***
***Yerin-göyün ləngəri!***

Mir Həmzə bu zikri qaynar təndirin içində ayaqyalın halda söyləyirdi. Yəni semah edirdi. Şiə qardaşlarımız həvəslənməsin. Bu zikrdə sizin qandığınız Əlidən söhbət getmir. Elə bilərsiz, o da şiə idi, yox. Mir Həmzə əfəndi heç sünni də deyildi. O, bir azərbaycanlı olaraq, məhz sufi, ürfan ərbabı idi.

Bəli, məhz Azərbaycan İslamı! Mənim görə bildiyim və xəbər verdiyim budur! Türkiyəli qardaşlarımız öz dinlərini Mövlananın, Yunus Emrənin hesabına formalaşdırdılar. Buna görə də onların aqressiv İslam (terror-merror) dininə ehtiyacları yoxdur.

Təkliflər paketinə bənzəməsin, amma demək istədiyimiz odur ki, Azərbaycanın öz İslam modelini yaratmaq istəyiriksə, xarici kəşfiyyat və terror təhlükələrindən həmişəlik qurtulmaq



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

istəyiriksə, millətimizin könlünə ilahi eşqi təbliğ edən ürfani dəyərləri sövq etmək lazımdır.

Nato Parlament Assambleyasında Türkiyəni təmsil edən keçmiş bir millət vəkili var idi. Zülfü Livanəli. Həm də şair və bəstəkar olan Zülfü bəy 80-90cı illərdə Böyük Millət Məclisində bir məsələ qaldırmışdı: **Siyasətdə Mövlanaçılıq.**

Amma pis təklif deyil,..

***ƏZİZ MÖVLANA***

Neçə illər bundan əvvəl qəribə bir söz eşitmişdim. Deyirdilər ki, neyin səsinə uzun müddət, davamlı qulaq asmaq insanda kanser xəstəliyi yaradır. “Kanser” xərçəng xəstəliyinin beynəlmiləl adıdır.

Şərq dünyasında bəzi musiqi alətləri vardır ki, indinin özündə belə onlar missioner alətlər kimi mövcuddurlar. Yəni, konkret təkyələrdə, zaviyələrdə, qapalı məkanlarda ifa olunur. Onlar bir növ ibadət və zikr vasitəsi olaraq, müqəddəs hesab olunur. Əlbəttə bu, onların başqa məkanlarda ifasına qadağa qoyulmurdu. Buna baxmayaraq, biz həmin musiqi alətlərini indi də hər yerdə, necə gəldi, kimin əlində olduğunu görmürük, çox şükür. Yenə onları xüsusi təfəkkür və əxlaq sahibləri ifa edirlər.

Müqəddəs sayılan belə musiqi alətlərindən biri və bəlkə də birincisi neydir. Qamışdan düzəldilir, üzərində dəliklər açılaraq, üflənir. Lakin belə görünsə də ney əslində öyrənilməsi və ifası həddindən artıq çətin bir musiqi alətidir. Təkcə ondan sadəcə bir səs çıxarmaq insan ömründən günlər, aylar, hətta illər alır.

***Ney kimi hər dəmdə bəzmi-vəslini yad eylərəm,***
***Ta nəfəs vardır, quru cismimdə fəryad eylərəm.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beytin müəllifi böyük Məhəmməd Füzulidir. Nə qədər dahiyanə deyilsə də bunlar güclü bir obrazdan, metaforadan başqa bir şey deyil. Neyin " sahibi" isə, hər kəsin bildiyi kimi, Mövlana Cəlaləddin Rumidir.

***Dinlə neydən, çün hekayət eyləyir,***
***Ayrılıqlardan şikayət eyləyir.***

"Məsnəviyi-mənəvi"nin ilk iki misrasından sonra hər şey dəyişir. Dünya tərsinə dönür. Əlbəttə, insanın daxili, böyük dünyası! Mövlana neyin özünü xəlq olunmuş insana, neyə üflənən nəfəsi isə, Allah-Təalanın (Qurani-Kərimin də xəbər verdiyi kimi) Həzrəti Adəmə (və demək bütün bəşərə) öz nəfəsindən üflədiyi ruha bənzədir. Əlbəttə, "bənzədir" sözü burada artıq oldu. Çünki, Mövlana bənzətmir, şişirtmir, həqiqəti deyir, gerçəkləri nəql edir. Onun hekayətlərinin gerçək olduğuna isə yalnız aşiq olanlar iman gətirir. Ariflər bilər, Mövlana hansı neydən, hansı nəfəsdən danışır.

Neyin fəryadı "ayrılıqlardan şikayət"dir. O, hansı ayrılıqdır görəsən?

Dediyimiz kimi, ney qamışdan hazırlanır. Qamış isə bir bitkidir və öz məkanı vardır. Onu oradan qoparıb gətirəndə, qurudub, sonra da dəlik-dəlik edib, üfləyəndə əlbəttə ki, fəryad edəcək. Mən hətta bu yazını yazanda belə qulağımda qulaqcıq, bilgisayarımdakı 6 saatlıq ney taksiminə qulaq asıram. O səslərdir mənə bu kövrəkliyi, bu dərinliyi diqtə eləyən!

**Bəli, neyin sirri çox dərindədir. Eynilə insan kimi. İnsan da doğulanda ney kimi fəryad eləyir. Tibbi cəhətdən hərə bir söz söyləsə də heç kim doğru-dürüst bilmir ki, dünyaya gələn körpə niyə ağlayır. Amma ariflər bilir. Ürfan və təsəvvüf**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**deyir ki, insan bir zamanlar Haqqın dərgahında, "səri-kuyində vəhdətdə idi. Hər yer ona cənnət, hər şey Allahın ona vəsl olan camalından ibarət idi. İnsan doğularkən ilk olaraq onu dərk edir ki, artıq o cənnət yoxdur. Əvəzində müvəqqəti, sürgünə bənzər, möhnətlərlə, əzablarla dolu bir həyat var. Bu həyat ayrılıqdan başqa heç nə vəd etmir insana! O ayrılığın adı "Allahdan qopma"dır. Füzulinin yuxarıda "yad elədiyi" "bəzmi-vəsl" (vüsal məclisi) də elə bu idi. İnsan buna ağlayır. Amma elə ki, zaman keçir, o böyüyür, böyüdükcə unudur, unutduqca bu fani məkana daha artıq bağlanır.**

Aşiqlər dediyimiz zümrə isə o vüsalı və o ayrılığı heç zaman unutmayanlardır. Təbii ki, onlar da başqaları kimi, doğulub, başqaları kimi böyüyürlər. Amma başqaları kimi yaşamırlar. Onlara həmin vəhdəti, "Ələst aləmini" xatırladan pirlər, mürşidlər, ariflər, övliyalar vardır. Var idi yox, hər zaman var.

İndi siz deyin, bu həqiqətləri bilib də neyi dinləyən insan "kanser"ə yaxalanmazmı?

Amma bir riyazət anlayışı da var ki, bu da təsəvvüfdə fiziki və mənəvi əzablara bilərəkdən düçar olmaqla, ruhun fəzasını müəyyənləşdirmək istəyidir.

***RİYAZƏT***

Yox, bu, nə konservativ katolik sektalarındakı özünə verilən fiziki əziyyətə, nə də İslam şiələrindəki Aşura "fədakarlığına" bənzəməz. Bunun adı riyazətdir. Sufilərdə müşahidə olunan nəfslə mübarizə.

Hər kəs öz pəncərəsindən baxır hadisələrə. Əgər olub bitənlər onun pəncərəsinin çərçivələrinə uyğun gəlirsə, həmin şəxs



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xoşbəxt hiss edir özünü. Əsl həqiqət isə ondan ibarətdir ki, xoşbəxtlik də bədbəxtlik də fərdi mülahizələrin təsdiqindən keçir.

Bu yaxınlarda "Krişna Şuuru Cəmiyyəti"nin Bakı ofisində qonaq idim. Dostum Babək mənə belə bir məlumat verdi ki, bir azərbaycanlı qadın Vrndavana getmiş, orada dağlar arasındakı sıx tropik meşələrin içində müqəddəs Şiva məbədinə qapatmış özünü və bütün ömrünü bu məbədə qulluğa həsr etmişdir. Üstəlik həmin məbəd yüz illərdir ki, kimsəsizdir və unudulmiş bir yerdədir. O qadın oraya yerləşəndən sonra ziyarətçilərin axını başlamış və həmin azərbaycanlı o məbədin xilaskarı kimi tarixə düşmüşdür.

Mən düşündüm, görəsən Hindistanın dəhşətli nəmli istisində boğulmadan, günlərcə, aylarca insan üzü görmədən yaşamaq nə deməkdir?

Əslində isə bu mənzərə mənə türklər demişkən, "fazlasıyla tanışdır". Onun adı eşqdir! Yaxın və Orta şərq mütəsəvvüflərinin qapalı təkyələri, çillə mərasimləri, günlərcə, aylarca sürən zikr və ibadətləri həmin "piyazəti-nəfs"in tərkib hissəsidir.

İnsan öz nəfsinə, çox sevdiyini sandığı şeylərə üsyan edərək, əslində isə dünya və fələyin cazibəsindən çıxır. Dünya məlum cazibə (həm fiziki, həm də ruhi) qanunları ilə idarə olunur. Fələk isə ulduzlardır. Ulduz fallarına nə qədər nifrət eləsəm də onların da bizə təsiri danılmazdır. Lakin o cazibə də bu təsir də həmin cazibəyə və həmin təsirə qapılanlar üçündür. Eşq əhli isə Allahla ünsiyyətdə istək və gözlənti mövqeyindən çıxış etmədikləri üçün dünya elementi olan həmin istək də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ulduzlara tabe etdirilən həmin gözlənti də ortadan gedir. Nəticədə insan gerçək azadlığın nə olduğunu anlayır.

Məgər Həzrət Əli başqaları kimi, normal qidalana bilməzdimi? Yaxud da hamı kimi Allahın halal buyurduğu digər nemətlərdən istifadə edə bilməzdimi? Amma yox. Çünki yavan arpa çörəyi ilə sirkədəki gücün və təmizliyin fərqində idi. Yuxusuz qalmağın, yetimləri görəndə ağlamağın gözəlliyini bilirdi. O, elə bir zahid idi ki, bütün bəşəriyyəti tarixin sonuna qədər öz nəfsi ilə baş-başa buraxaraq, dilemma qarşısında qoyacaq. Birinci elə dindarların özlərini. İndi mənim dilim uzundur. "Əli aşiqiyəm" deyənlərin yüz minlər dəyərindəki arabalarını, evlərini sorğulaya bilərəm. Çünki dünyaya o adda bir kişi gəldi və "bu cür yaşamaq mümkündür" deyə bir yol açdı uçmaq istəyənlərə.

Yeri gəlmişkən, əski türkcədə "uçmaq" "cənnət" anlamını verirdi. Hal əhli bilsin nə dediyimi!

Bir pəncərə açıldı. Eşq pəncərəsi. Ariflər, övliyalar, aşiqlər, mənsurlar, nəsimilər, xətailər baxdı o pəncərədən. Allah onların nurlu qəbirlərindən bir çəngə torpağı bizim kor gözlərimizə sürmə eləsin!

Onlar bir yol açdılar. **Riyazət** yolu. Ruhani tənbəlliyi, cismani əsarəti, əqli bağlılığı yox edən müqəddəs "çilələr"! Məsələn şəxsən mənim üçün idman da bir riyazətdir. Çünki kamil insan formulu mənəvi və fiziki azadlığın vəhdətindən keçir. Əgər insan özünü bir əziyyətə yaxud da ibadətə-filana adət elətdirirsə, bu artıq riyazət deyil. Bəs onda necə etmək lazımdır ki, insan gözəl şeylərə adət eləyib (Şəms Təbrizi demişkən) öz cövhərini əldən verməsin? Bunun bir tək yolu var. Hər an inkşaf



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və dəyişiklik. Əgər ibadət öz qaydasında, yeknəsəq, eyni ölçülü davam edirsə və insan bu davamiyyətdən sıxılmırsa, deməli o insan riyakardır! Özünü aldadır. Gəlin özümüzü də özümüzdə olan Allahı da aldatmayaq!

***El dolandı o gülün başına pərvanə kimi,***
***Elə bildim gözəlim eşqü məhəbbət piridir.***

(Əliağa Vahid)

***FİRUZƏ***

Vahid öz gülünün "pir" olduğuna bir az şübhə ilə yanaşır. "Elə bildim" deyir. Mənim gülüm, mənim gözəlim isə şübhəsiz-filansız gerçək pirdir. Diri ocaqdır.

"Gözəlim", "pirim" dediyim zat böyük ustad Mövlana Cəlaləddin Rumidir!

Onun şəhəri aşiqlərin Məkkəsi, məqbərəsi isə eşq əhlinin Kəbəsidir. Bir zərrə də olsa, mübaliğəyə yol vermirəm, heç nəyi obraz havasında şişirtmirəm.

Dindəki zühur və qiyamət anlayışları ürfanda və təsəvvüfdə bir qədər fərqlidir. Belə ki, sufilər üçün bir ümumi, zahiri qiyamət, zahiri zühur var ki, buna **"zühuri-amm"** deyirlər. Bir də xüsusi, batini qiyamət, batini zühur var ki, onun da adına **"zühuri-xass"** deyirlər. Buradakı "zühur"dan məqsəd həqiqətlərin üzə çıxması, aləmlərin Rəbbinin mehman, zati təcəlla olduğu məzhərlərin aşkar olunmasıdır.

Eşq əhlinin, ürfan əhlinin, təsəvvüf ərbabının "xas"ları, "batin"ləri sırasında ibadət və zikrlərin, ziyarət və hacətlərin də yer aldığı nəsnələr vardır. Bunlardan ən tanınmışı Konyada bulunan Mövlana Cəlaləddin Rumi türbəsidir. O türbə adicə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(adından bəlli olduğu kimi) torpaq deyil, sıradan bir məqbərə deyil. Ora məhz, zikr və semah məqamı, gerçək batini ziyarət məskənidir. Ora gələn ariflər (təxminən 700 ildən çoxdur ki,) hansısa qəbri, o qəbirdə yatan hansısa ölünü ziyarət etmirlər. Onlar məhz diri Mövlananı ziyarət edirlər. Onunla mülaqata, ruhani alış-verişə girirlər. Bunlar elə mətləblərdir ki, mayasında batini elmlər dayandığı üçün, onları ümumxalq məntiqi ilə izah etmək, onu kimlərəsə zorla, fakt qarşısında qoyaraq, çatdırmaq mümkün deyil. Bizim cəhdimiz, bağlı qapılar arxasında yaşadığı ehtimal edilən, hicab üstündən hicaba bürünən bir gözəlin haqqındakı əfsanəyə bənzəyir. O əfsanənin gerçək oluşunu yalnız və yalnız o gözəlin varlığını qəbul edib, ona "ləbbeyk" deyənlər seyr edə bilər. Yəni, bu hərəmə girmək üçün, ona məhrəm olmaq lazımdır.

Bəli, böyük pirin firuzə rəngli türbəsi elə bir ehtişam və gözəllik daşıyıcıdır ki, onu zövq əhlindən, ariflərdən özgə heç kim duya bilməz. **Deyirlər, bir gün, Əbu Yəzid Bistami Məkkəyə, Kəbə ziyarətinə gedirmiş. Yol üstündə saçlı, saqqallı bir dərvişə rast gəlir. Uzun bir müddət göz-gözə gəldikdən sonra dərviş soruşur: "Yolun haradır qardaş?" Bistami "Kəbəyə gedirəm" deyə cavab verir. Dərviş bu dəfə soruşur" "Üzərində nə qədər pulun var?". Əbu Yəzid ziyarət məsrəfini çıxararaq göstərir. Dərviş onları Bistaminin əlindən alaraq deyir: "Mənə bax, o getdiyin Kəbə var ha,.. Orada hələ heç kim bu günə qədər Allahı görə bilməyib. Halbuki ora Allah evidir. Buradakı, mənim içimdəki Allah isə buranı bir an olsun belə tərk etməyib. Sən gəl mənim başıma dolan, çıx get. Bir daha da buralar gəlmə". Əbu**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Yəzid Bistami eynilə dərvişin dediyini edir. Yeddi dəfə onun başına fırlanandan sonra qayıdır gedir və bir daha Məkkəyə ayağını basmır.**

Bu təhlükəli hekayənin bətnində duran mətləb ondan ibarətdir ki, xalqın qibləsi ilə ariflərin qibləsi fərqlidir. Əlbəttə, eşq əhli ibadət edərkən üzünü həmin qibləyə çevirir. Çünki, ibadət ibadətdir. Fəqət, batini ibadət, batini zikr, batini ziyarət ayrı şeydir. Əslində bu cür xırdalığa getməyinə dəyməzdi. Ancaq, sufilər demişkən, bu şərab çox qatı olduğu üçün, bir az su qatmaq lazım idi ki, ən azından içə bilənlər içsin.

Konyada çox bahalı bir otel var. Özəlliyi isə Mövlana türbəsinə yaxın olmasıdır. Növbəti ziyarətlərimin birində həmin oteldə bir aydır ki, yaşayan bir Yapon ailəsini gördüm. Onların bu qədər pul xərcləməkdən məqsədi o idi ki, hər sabah günəş çıxarkən, firuzə rəngli həmin günbəzə düşən müdhiş rəngləri görsünlər. Onlar İslamı qəbul etmişdilər Mövlananın eşqinə!

Bir gün Əbu Süfyan oğlu Müaviyyə ilə Həzrət Əli Əbu Talib oğlu arasında müharibə olur. "Allahın şiri" ilə mücadilə etməyin ağılsızlıq olduğunu gözəl bilən siyasət qurdu Müaviyyə əsgərlərinə əmr edir ki, Qurani-Kərimin varaqlarını cırıb nizələrin ucuna taxsınlar. O arxayın idi ki, Həzrət Əli Qurana qılınc çalmaz. Əmirəl-möminin isə öz əsgərlərinə belə buyurur: ***"Siz qılınc çalmağa davam edin. Nizələrə taxılan kağızdır. Yeriyən, Quran mənəm!".***

Ariflər və övliyalar sultanının bu məzmundakı başqa bir künyəsi "Qurani-Natiq" ("Danışan Quran") idi.

Qurani-Kərimlə bağlı şəxsiyyətlər və nəsnələr üzərində bir çox bənzətmə və adlar mövcuddur. Onlardan biri Mövlana



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəlaləddin Ruminin məşhur “Məsnəviyi-Mənəvi” əsəridir. Onun adına “Mənzum Quran” deyirdilər.

Əvvəla onu qeyd edək ki, Qurani-Kərimlə bağlı deyilmiş ad və bənzətmələr qatı İslam şəriətinə, daha dəqiq ifadə etsək, ərəb İslamına qətiyyən xas olan bir şey deyil. Əksinə, bu cür təşbehləri fundamentalistlər (xüsusilə mühafizəkar sünni və mürtəce vəhhabi cərəyanları) küfrün, Allaha və Onun müqəddəs kitabına qoşulan şirkin tərkib hissəsi olaraq, rədd edirlər. Lakin bizim fundamentalistlərlə nə işimiz var? Zatən Allahın dini onların ümidinə qalsaydı, Yer kürəsində öz xeyrini güdən, şəhvət və şöhrət əsiri olan insan sürüsündən başqa müsəlman qalmazdı.

Bizim maraq və meylimiz əski (İslam öncəsi) Xorasan sufi məktəbindən başlayaraq, bu günə qədər aktuallığını və cazibəsini qoruyub saxlayan təsəvvüf və ürfan elminədir. Məhz ürfani bilgilər müstəvisində bu cür məsələlər öz məntiqi əsasını, izah oluna bilən strategiyasını təsdiqləyir.

Həzrət Əlinin “Qurani-Natiq”liyi, “Məsnəviyi-Mənəvi”nin “Mənzum Quran”lığı öz partlayış, külminasiya, türklər demişkən”püf nöqtəsi”ni Anadolu Ələvi-Bektaşiliyində buldu. Belə ki, Qurana edilən ən cazibədar və ağlagəlməz təşbehlərdən biri Ələvi-sufi sazına verilən addır: **“Telli Quran”.**

***SAZ***

Bircə şeyə heyfsilənməmək olmur ki, ən gözəl mətləblərin, ən mənalı mənaların sirr olduğu, gizli olmağa məcbur qaldığı bir məmləkətdə yaşayırıq. Dünyanın ən əxlaqsız, ən qəmsiz, ən səviyyəsiz adamları olan əski kolxoz, indiki restoran və iqtidar aşıqlarının əlindəki o zavallı saza necə “Telli Quran” deyəsən? Bu, ən azından ona görə mümkün deyil ki, Quranın mənəvi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

batini tərcümə və təqdimi olan şey bu musiqi alətinin özü deyil. O ağac parçasını qucağına alıb, onun vasitəsilə İlahi sirləri dilə gətirən müqəddəs əqidə sahibləridir. Bu baxımdan biz bir millət olaraq, bədbəxtliyin "püf nöqtəsi"ndəyik! Təkrar edirəm, məhz "bu baxımdan". Başqa məsələləri isə öz bilicilərinə buraxıram. Mənə mənim həsrətim yetər (artar belə). Yunus Emrə demişkən,

***Ötmə bülbül, ötmə bülbül,***
***Dərdimə dərd qatma bülbül.***
***Mənim dərdim mənə yetər,***
***Bir dərd də sən qatma bülbül,..***

Sazın Allahın son kitabının mənəvi tərcümanı olaraq, **"Telli Quran"** adlandırılması həm Qurandan öncənin, həm də sonranın işidir. Bu nə deməkdir?

Qısa şərh verməyə məcburam. Haqqında hər zaman (fürsət oldu, olmadı) bəhs etdiyim "Ələst bəzmi" barədəki həqiqətlərdə Qurani-Kərimin kainat xəlq olunmamışdan öncəki mövcudiyyətindən söz edilir. Bu iddia əslində Quranın özündən gəlmişdir. "Ər-Rəhman" surəsinin ilk ayələri belədir: ***"Rəhman və Rəhim Allahın adı ilə. Quranı öyrətdik. İnsanı yaratdıq".*** Əlavə şərhə ehtiyac da olsa, yer yoxdur.

Bu öncəliyin, yəni "Ələst" aləminin ilklərindən biri də Həzrəti Adəmin vücuda gəlməsinin iştirakçılarından olan telli sazdır. Bunun da izahını Aşıq Ələsgərin boynuna yıxıram:

***Ələstdən "bəli" dedim, nə xoş kamaldı yüküm,***
***Beş gözəlin aşiqiyəm, vəsfi-camaldı yüküm",..***

Müəmma müəmma dalınca... Nə etmək olar? Bu da bizim dəyərlərimizdir (Bu kitabda biz məhz elə bu mətləblərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

açılmasına xidmət edən məsələlər barədə geniş şərhlər verəcəyik).

Cahillər cahilliyindən, zalımlar zalımlığından, biz isə elmimizin və ürfanımızın təbliğindən əl çəkən deyilik.

Dünya belə gəlib, amma belə getməz. Deyirlər bu həyatda dəyişilməyən bir şey var, o da dəyişilməkdir.

İnsan da dəyişir, insanın içindəki də. Bu dəyişmə zərurətdən çox, nizamın məntiqindən doğur. O nizam ki, kainatın "böyük partlayış"dan bu tərəfə hər an genişlənən rəqsindən yaranmışdır ki, bu genişlənmənin özü də bir dəyişmədir. Təkcə korlar öz fikirlərində "sabitqədəm"dirlər. Yalnız qəlbi və gözü kor olanlar kainatın, eyni zamanda da insanın dəyişiminə qarşı çıxırlar.

Fəqət burada bir nöqtə var. O da bundan ibarətdir ki, nizamın dəyişikliyi yalnız və yalnız inkişaflın, irəliyə can atmanın bətnindən doğmuşdur. Bu inkişaf, bu irəliləyiş isə Allaha doğrudur! Çünki  kiçik qəlblərdən və dar qulaqlardan iraq, ***"Allahın özü də inkişafdadır"*** deyir" ürfan əhli!

Qurani-Kərimdə bir ***"Ələm nəşrəh, ləkə sədrək"*** ayəsi mövcuddur. Bu ayə Həzrəti Rəsulallaha xitabən deyilmişdir. Mənası **"Biz sənin sinəni (qəlbini, ruhunu) hər an genişləndiririk"**dir. Buradan anlaşılır ki, dəyişilən, inkişaf edən, genişlənən həm də insan qəlbi, insan ağlı, insan ruhudur.

**Hürufilər isə deyirlər ki, əslində hər şey əvvəlcə insanda, insan üzündə, insan vücudunda baş verir. İnsan kainatın əşrəfi, yaranmışların ən gözəli və nəhayət Xaliqin sirri, dolayısı ilə təcəllası və hətta məzhəri olduğu üçün, bütün dəyişilmələr insandan qaynaqlanır. İnsan üzündəki bir cizginin yerini dəyişməsi fəzadakı hansısa bir cismi yerindən**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**tərpədir. Kainatdakı hərəkətlər insan üzündəki hərəkətlərlə sıx bağlıdır.**

Bunları hürufilər deyir. O hürufilər ki, mən onların nəzəri fikirlərini təqdimat olaraq deyil, duyğu və düşüncələrim olaraq səsləndirirəm. Yüzlərcə alim tanıyıram ki, öz tədqiqatlarının hədəf və məqsədlərini müəyyən edə bilməmişlər. Baxırsan ki, dindən, mənəviyyatdan bəhs edən çox dərin və qəliz əsərlər yazmış, amma özünün etiqadı yoxdur. Öz yazdıqlarına özü də inanmır. Bax mən bunu başa düşə bilmirəm. Niyə özünə bu qədər əziyyət verirsən? Bəllidir ki, onlar informasiya verməklə və özlərini təbliğ edib, alimlik dərəcəsi almaqla məşğuldurlar.

Fəqət, əsl alim oxuduqlarına inanan, dediklərinə əməl edən alimdir. Cəmiyyət yalnız belə alimdən faydalana bilər. Fəzlullah Nəimi kimi!

Biz ona "Şah Fəzl" deyərdik. Çünki o, gerçək şah idi. Onun şahlığı sübut olundu. Belə ki, nə onu (daha doğrusu onun quru cismini) güdaza verən Şirvan hökmdarından, nə də onu edam etdirən Əmir Teymurdan, onların şahlığından bu dünyaya heç nə qalmadı. O şahların qurduğu dövlətlər, imperiyalar dağıldı. O torpaqlarda indi hər cürə sərsəri hökmranlıq edir. Fəqət, Şah Fəzlin yapdığı könüllərə, o könüllərdə qurduğu taxtlara heç bir şərəfsiz yaxın dura bilməz. Əsl şahlıq odur ki, səni sən olmayanda sevsinlər. Sənin üzünə tərifləyb, arxanca tüpürməsinlər. Sənin hakimiyyətin qorxu və şöhrət üzərində olarsa, sən hakim yox, məhkumsan!

Mən isə, öz şahıma, öz könlümün fatehinə beyət eləmişəm. Buna görə də zahirdəki şahın təbəələri qul, mən isə azadam!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**28 hərfi 32-yə çatdırıb, Haqqın, ən gizli sirlərini çözən, insanı insana dəvət edən, Tanrını kənarda deyil, insanda axtaran hürufilər tarixin axarını dəyişdilər. Bəşəriyyətə elə bir hədiyyə verdilər ki, altı yüz il öncə Anadoluya dağılıb, Hacı Bektaş həzrətlərinin xirqəsi altına girib, qurtulanda da bu günün daha dəhşətli və qorxunc cəhalətindən gizlənəndə də onlar, o böyük insanlar insan-Allah vəhdətini hər zaman yaşatdılar.**

Nəsiminin sözü olsun;

***Vəhdətin şəhrində seyran eylərəm,***
***Mən səni cismimdə heyran eylərəm,***
***Sirrimi adəmdə pünhan eylərəm,***
***Adəmi həm Həqq, həm insan eylərəm!***

***"FƏZLHƏQ!"***

Fəqət, bütün bunlar tarixdən, məqbərədən, xatirələrdən ibarət deyil, canlıdır, çağdaşdır. Qanlıqadalı müasir İraq torpaqlarında bu gün Kəsnezani adı ilə məşhur olan sevgili bir mürşid, çox güclü bir təriqət yaşayır. Qadiriyyə təriqəti. Onu və onları xatırlamaq da mətləbi aydınlamamıza yardım edərdi.

***ƏBDÜLQADİR GEYLANİ- İNSANDAKI TANRI***

Fars dilində "heç kimin bilmədiyi" anlamına gəlir. İraqda yaşayan Qadiriyyə təriqətinin mürşidi və lideri, çağdaş sufilərin göz bəbəyi Əbdülkərim Kəsnezanidən bəhs etmək istəyirəm. Mən burada "mürşid" və "lider" sözlərini təsadüfən ayrı-ayrılıqda işlətmədim. Qısa ərz etmək mümkünsə, mürşid təriqətin iç qatında, təkyədə, ruhani hal və məqamların sahibinə deyilir. Mürşid gizli, çoxluğun tanımadığı birisi ola bilər. Bir də hər hansı təriqətin lideri ola bilər ki, onu hər kəs tanıyır və o cərəyanı əksə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

riyyət onun simasında görür. Məsələn, 15-ci əsr Azərbaycan Səfəviyyə təriqətinin lideri Şah İsmayıl Xətai idi. Fəqət təriqətin mürşidi o deyildi. Bəs kim idi? O şəxs idi ki, Şah Xətai hər həftə təkyəyə gedərək, onun əlini öpür, bir küncdə oturaraq, gah "günahkar", gah "nevniyaz", gah da "xadim" qismində bulunurdu (hökmdarı olduğu öz ölkəsinin ərazisində!!!).

Əbdülkərim Kəsnezani həzrətləri isə həm mürşiddir, həm də lider. Proqressiv dünyada onu hamı tanıyır. Onun elmi, kəramətləri, mözüzələrlə dolu ruhani fəaliyyəti barədə Amerikanın, Avropanın ən böyük elmi tədqiqat institutları araşdırmalar aparır. Məsələn, İraqın ucqar bir dağ əyalətində sadə həyat tərzi keçirən, bəlkə də orta savada belə malik olmayan bu böyük zat haqqında ABŞ-ın  təsəvvüf araşdırmaları ilə bağlı institutları neçə illərdir ki, tədqiqat aparır. Tədqiqatların nəticələri isə maraqlıdır. Şəxsən məndə bir neçə saatlıq videoyazılar var ki, o kadrları Kəsnezani həzrətlərinin icazəsi ilə elə amerikalı alimlər çəkmişlər. Bəzi agah dostlarıma o səhnələri göstərmişəm. Dəhşətlidir, inanılmazdır. Tibb elmi, anatomiya, fizika, onların elmi, məntiqi nəticələri kadrlara baxdıqdan sonra sual altına gedir. Təsəvvür edin; Qadiriyyə təriqətinin ənənəvi həftəlik zikr mərasimi keçirilir. Bu dəfə açıq havada. Dərvişlər birbir gəlib, ustada təzim edir, sonra isə əllərindəki odlu və soyuq silahlarla bədənlərinin ən həssah, ölüm gətirən nörtələrinə zərbələr endirirlər. Qan da axır, göz önündə təbii olan hər şey baş verir. Ancaq, nəinki ölüm, hətta kiçicik bir maddi zərər toxunmur o dərvişlərə. Çünki, qadiriyyə sufilərinin yüz illər ərzindəki bu tip mərasimləri İlahi qüdrətin insan vücudundakı təcəllasının, bir növ ölməzliyin rəmzidir. Nəsimi də belə etdi. Onun dərisi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

soyulanda "uf" da demədi. Çünki, ufuldayacaq bir şey yox idi. Vəhdət və hal məqamında bədənin, yəni nəfsin fəaliyyəti sıfıra enir. Ağrı-acı, hissiyyat, məhəbbət, nifrət, hamısı nəfsin keyfiyyətləridir. Bu, həmin tərki-dünyalıqdır ki, zahirdə insanlardan, cəmiyyətdən qaçmaqla deyil, insanlarla bərabər olaraq, könüldə, qəlbdə dünyanı tərk etməklədir. Həzrət Əli nə gözəl buyurub: ***"Xalq ilə ol, xalqdan olma!"***

Deyirəm bəlkə bizim (eləcə də bütün dünyanın) insan problemi var? Bu qədər çözümsüzlüyün, qılıncla açılan Qordi düyünlərinin başında duran səbəb insansızlıqdır bəlkə? Amma bu, mənim üçün "bəlkə" deyil, gəlinən qənaətdir. Necə ola bilər ki, öz nəfsi ilə mülaqata girə bilməyən, öz orbitini aşmaq barədə düşünmək belə istəməyən insanlar milyonların taleyinə hökm edə bilirlər? Əlbəttə ki, bunu bacarırlar. Fəqət, nəticə göz qabağındadır. Heç nə öz müsbət və tam həllini tapmayıb! Çünki, ruh problemi var. Ruha tərəf baxan yoxdur! Bütün müşküllər – işğal altında olan torpaqlar, maliyyə böhranları, qarşılıqlı iddialar, hər şey, hər şey nəfslə, fərdi və əqli çıxarlarla həll olunmağa çalışılır. Elə buna görə də həll olunmur.

İnsan problemi var, insan! Sevgisiz qalan, qorxu və şöhrət üzərində sürünən və yaşadıqlarının adına "həyat" deyən insan! Elmi yöndən hərtərəfli açıqlamalara talib olan, həddindən artıq mütərəqqi, beynəlxalq təşkilatlardan qrant almaq istəyənlərin diliylə desək, demokratik və tolerant olan ürfan və təsəvvüf həm fərdi, həm də toplumsal olaraq, bu gün insanın və insanlığın ən böyük ehtiyacıdır. Biz buna əminik.

***YA (R) ALLAH!***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənə belə gəlir ki, bütün müraciətlər təmənnalıdır. Ən gözəl müraciət sevgidəndir, amma o da bir təmənnadır. Biz "təmənna" deyərkən elə həmişə maddi şeyləri düşünürük. Bəlkə ən halal təmənna elə mənəvi təmənnadır?

Beləliklə, insan oğlu təbiətə baxıb heyrətlənəndən, daha sonra müxtəlif işarələr, ilham və həvalələr, ən nəhayət isə elçilər vasitəsi ilə Allahın varlığını duyandan bəri Ona üz tutdu. Ona müraciət etdi. Ondan cavab gözləyərcəsinə müraciət etdi. Dərdlərini, sevinclərini, şikayətlərini, şükrlərini ən tez və gözəl bir biçimdə Onunla paylaşdı. Maraqlıdır, insan duasının, istəklərinin Onun tərəfindən qəbul olub-olunmadığını haradan bilir? Bu dərin və məchul ehtimalı haradan alır? İndi deyəcəklər ki, bir şey istədikdə, bir şeyə niyyət elədikdə və o istək, o niyyət baş tutduqda insan "dualarım qəbul oldu" deyir, baş tutmadıqda əksini bəyan edir. Məsələ burasındadır ki, istəklərin, niyazların Allah dərgahı deyilən məqamda qəbul görüb-görməməsi hər insanın hiss edəcəyi, duyacağı bir şey deyil. İnsanlar yanılır. Özlərinə sərf edən tərzdə bu məsələləri dilə gətirirlər. Təsadüfi deyil ki, Allah-Təala Cəbrayıl əleyhissəlamın diliylə sonuncu kitabda buyurur ki, ***"yaxşı şeyləri biz sizə verirk, pis şeyləri özünüz qazanırsınız"***. Bu, əlbəttə ki, hökmdür. Fəqət uca Tanrının diktator olmadığını (Ziqmund Freydin əksinə desək) nəzərə alaraq, bunun bir bildiri, bir tanıtma olduğunu düşünsək belə, bu ayə çox düşündürücüdür. Belə çıxır ki, başımıza gələn bütün işlər bizim yozumumuzla, bizim tərifimizlə dilə gətirilir. Əslində biz bizə sərf edəni düşünürük. Yuxarıdakı ayədə Allah "yaxşı" "pis" kəlmələrini işlədərkən, maddi-fiziki yaşam xoşbəxtliyini "yaxşı", əksini isə "pis" adlandırmır. Belə olsaydı, nə İlahi ədalət, nə də İlahinin özünə ehtiyac qalardı. Məsələ burasındadır ki, yaxşı və pis olan hadisələr, nəsnələr Allahın istəyi (daha doğrusu görmək istədiyi, məqbul gördüyü) üzərində gerçəkləşən əməllər və yaxud əksinə, Onun müstəvisindən kənarda baş verənlər özbaşına işlərdir. Tutaq ki, bir ata öz oğlunun əyyaş, kütbeyin, haramxor olmasını fəlakət hesab etmir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

amma onun qəfil ölümünü böyük fəlakət sayır. Niyə? Ona görə ki, həmin oğul kütbeyinliklə, haramxorluqla atasına maddi məmnuniyyət gətirirdi? Deməli, insan özünə sərf edəni qəbul edir, etməyəni isə qəbul etmir. Allah isə insan deyil! Onun nizamı, qanunları, cazibəsi insanların naqis istəklərinin və qorxularının üzərində qurulmayıb.

Elə fundamental dinin özündə yer alan və Allahın son çarə olaraq insanlara sunduğu cənnət müjdəsi və cəhənnəm vədi insani istək və təmənnalara hesablanıb. Halbuki, Allah sevilməyi istər! Çünki, Özü də sevir!!

Allah eşqiylə ömür sürənlər Ondan gələn hər bir şeyin Ondan gəldiyini bilirlər. Qaranlıqda işığı, işıqda isə qaranlığı gözləyirlər. Onlara nə cənnətin bulaqları, huriləri, nə də cəhənnəmin qır qazanı, zəqqum ağacı maraqlı deyil. Onlar Onun özünü istəyirlər. Bu sevgi yuxarıda bəhs etdiyimiz müraciət formasında da özünü büruzə verir. Bəndələr **“Ya Allah”** deyərkən, aşiqlər **“Yar Allah”** deyir. Yar kimdir? Kim olacaq? Yüz ilə yaxındır ki, şəxsən bizim əlimizdən alınıb, maddi, şəhvani dona bələndirilən Xudavəndi-aləmin ta kəndisidir! (Ata dilimizi sevməyənlər məndən inciməsinlər. Mən bəzi kəlmələri Türkiyə türkcəsində deyil, dədə-baba türk dilində Nəsiminin, Xətainin dilində işlədirəm) ***Degilsən çoxdan ey gərdun, cahan seyrində yoldaşım, Hola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım.***

Böyük Füzuli görün nə deyir; Məlumdur ki, Yer əyridir, yəni kürədir. Füzuli iddia edir ki, baxmayaraq, gərdunun (dünyanın) qəddi əyilib, ancaq mənim yaşım ondan çoxdur. Yəni, dünya yox ikən, mən vardım. Sonra deyir ki,

***Mənə manənd bir divanə surət bağlamaz, guya,***
***Qələm sındırdı təsvirim, çəkəndən sonra nəqqaşım.***

**Yəni, Allah (nəqqaş) mənim (insanın) surətini çəkəndən sonra öz qələmini sındırdı!!! Çünki, özünə “yar” yaratdı!**

***YAR ALLAH, HU!***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# I FƏSİL

# OZAN AŞIQ YARADICILIĞINDA TƏSƏVVÜFƏ ÜMUMİ BAXIŞ

## Ümumtürk ədəbi və elmi qaynaqlarında ürfan və təsəvvüf

İnsan düşüncəsinin metafizik qatlarında yatan yaradan və yaranan münasibətlərini dərk etmək istəyi ilkin yaranışdan bu günə qədər səngiməmişdir. Bu meyl müxtəlif zamanlarda müxtəlif tərzlərdə insan təfəkkürünü məşğul etmişdir. İnsan oğlu bu şiddətli istəyə gah mifoloji, gah dini, gah da elmi don geydirmişdir. Hər zaman "Tanrı yaratmaq" fikri insanın mənəvi ehtiyaclarının ödənməsində şüuraltı bir əhəmiyyətə malik olmuşdur. İnsan öz qəlbindən, öz ağlından, öz ruhundan çıxardığı inam və sevgi enerjisini zaman-zaman əşyaların, təbiət ünsürlərinin, hətta canlıların üzərinə yönəltmişdir. O, bu gücün özünəməxsus olduğunu beyninin dərin qatlarında anlasa da, kənar bir qüvvəyə ehtiyac hər an onu təqib etmişdir. Nə teizm, nə də ateizm əslində mütləq həqiqəti ifadə edə bilmir. Bütün peyğəmbərlərin, övliyaların, seçilmiş fərdlərin apardıqları qeyri-adi mücadiləyə, səmavi kitabların insan iradəsindən asılı olmayan mütləq yaşarılıq keyfiyyətlərinə baxmayaraq, bəşəriyyət ən müxtəlif şəkillərdə qutsal bir gözləmə əndişəsindədir. Monoteist və poluteist dinlərin nümayəndələri hansısa bir xilaskarın zühurunu, insanpərəstlər qeyri-müəyyən bir ədaləti, kommunistlər isə ümumbəşəri devrimi, bütün dünyanı xilas edəcək inqilabı gözləyirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Antik fəlsəfədə də bu belə idi. Əxlaqı kateqoriya cəmiyyətin dönüş nöqtəsi sayılırdı. “Aristotel etikanı ruh haqqında təlimlə dövlət haqqında təlimin arasına qoymuşdu” (162, 27). Nəticədə, insan xilas olmaq istəyirdi. Mif anlayışı da bu inancdan doğmuşdu. Bu inanc isə istər-istəməz insan şuurunu fəlsəfi çalarlarla zənginləşdirirdi. “Fəlsəfənin nə vaxt və necə meydana gəlməsi məsələsi də ilk dünyagörüşün forması olan mifologiya ilə əlaqədardır” (93, 95). İlkin fəlsəfənin yaranış qayəsində isə qeyd etdiyimiz kimi, inanc, yəni İlahi bağlantıya olan güclü meyl və ehtiyac yatırdı. “İnanc təməlində yaranmışların ən mükəmməli insandır. Kainatdakı bütün həqiqətlərin təməli insanda toplanmışdır. Allahın isim və sifətləri ən mükəmməl şəkildə insanda təcəlli etmişdir. Ancaq şüur və iradəni istifadə edib etməməyə bağlı olaraq insan, ən aşağı mərtəbədən ən yüksək mərtəbəyə (əsfali-safillidən əlayi-illiyyinə) qədər yer dəyişdirə bilər” (179).

Alimlərdə imanın, dindarlarda isə elmin əksikliyi hər iki tərəfdə dərin cəbhələşmə yaratmışdır. Alimlər heç də bütün tərəflərini görüb dərk edə bilmədikləri reallıq mənzərəsini dindarların inadcıl iddialarına, günah və savabdan ibarət bəsit dünyalarına qarşı qoymuşlar. Təsəvvüf anlayışı bu uçurumu qapada biləcək yeganə nəsnədir. “Həqiqətdə bu elmin adı Qəzzalidə açıq bir şəkildə göründüyü kimi, “batini fiqh”dir. Bu yanaşma tərzi İslam elmləri ənənəsində təsəvvüfün ilk yerini alma təşəbbüsünün nəticəsi idi” (174).

Bu arada dini qaynaqlara elmi don geydirmək istəyən gülünc nəzəriyyələrə də rast gəlinir. Dini və hətta İslam dinini qəbul etmiş tanınmış dünya alimlərinin bütöv şəxsiyyətləri də səmimi təsir bağışlamır. Belə ki, onlar öz elmi kəşflərini heç



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəchlə İlahi başlanğıca bağlaya bilmirlər. Dindarlıq onların əxlaqi, hissi əqidəsi, şəxsi keyfiyyətləri olaraq qalır. Nəticədə elmi yeniliklər bəşəriyyətin mənəvi qurtuluşuna, dini iddialar isə onun əməl və inkişafına ciddi və müsbət təsir göstərə bilmir. Bu fikir təkcə Qərbdə formalaşıb, bu gün də dünya elminin aparıcı gücü olan alim və elmi kəşflərə aid deyil. Hətta orta əsr Şərq alimlərinin əsərləri də İlahi başlanğıcı təyin edə bilmir. Qərblilərdən fərqli olaraq, onlar əsərlərinin sonunda ənənəvi olaraq, "Hər şeyin düzünü Allah bilir" kimi ifadələrlə kifayətlənmişlər.

Orta çağ müsəlman Şərqinin böyük alimi Xacə Nəsirəddin Tusi yazır: "İnsanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətlərinin şərafəti – fikir, əql, şüur, iradə vasitəsilə təmin və idarə edilir. İnsanın xoşbəxtlik və bədbəxtlik açarı, kamillik və naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir. Əgər düzgün, ardıcıl, məqsədəuyğun, müstəqim xətlə (ən qısa yol ilə) hərəkət etsə, tədriclə elm, mədəniyyət, bilik və hikmətə yiyələnsə, təkamülə qadir olan fitri istedadı hədləri aşaraq onu bir mərtəbədən başqa bir mərtəbəyə, bir dərəcədən o biri dərəcəyə yüksəldər, düppədüz gətirib, arzu elədiyi məqsədə, İlahi nurun şəfəq saldığı ali məqama çatdırar və Allahın yaxın adamları cərgəsinə daxil edər…" (101, 53)

Şərq mütəfəkkirləri ağlın, məntiqin özünün də İlahi başlanğıcın bəhrəsi olduğunda israr etmişlər. Tədqiqatçı Ş.Zeynalov məşhur Əl-Kindinin fikirlərini şərh edərək yazır: "Əl-Kindiyə görə, hisslər ayrı-ayrı cisimlərin formasını, əql isə bütövlükdə bunların cinsini, növünü, yəni mənəvi formalarını qavrayır. Maddi aləm duyğularla, mənəvi aləm isə əqllə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qavranılır. Əql isə dörd hissədən ibarətdir: 1) mövcud olan hər şeyin əsli və səbəbi, daim fəal olan əql. Bu əzəli əql-Allahdır. 2) İnsanın təfəkküründə də bir qüvvə kimi mövcud olan əql. 3) İnsanın təfəkküründə məlakə halında yaşayan əql. 4) Təfəkkürdən xaricdə istəyi, əməli həyata keçirməyə yönəldilmiş əql. Əl-Kindiyə görə, bu əql forması insanın fəaliyyətində özünü təzahür etdirir. Əqlin qüvvətdən fəaliyyətə keçməsi ilk səbəblə bağlıdır, yəni əsil əql Allahdan gəlir" (107, 260). Lakin, vurğuladığımız kimi, bunlar nəticədə elmdir. Elm isə, Tusinin də Əl-Kindinin də simasında təmsil olunduğu üzrə inanc və bağlantıdan daha ziyadə, nəticəsi qeyri-müəyyən olan gerçəkliyə, yəni, reallığa, materiyaya istinad edir.

Şərqin əksər elm adamlarının tərtib etdikləri "böyük insan" nəzəriyyələri elm, əxlaq və hikmət üzərində qurulmuşdur. Çünki, bu keyfiyyətlərin, belə ifadə etsək, elmi-nəzəri izahı mümkündür.

Tanınmış filosof A.Şükürovun əsərində oxuyuruq: "Monoteizm, dualizm, panteizm və s. dünyagörüşü ifadə edən təlimlər varlığa baxışa, onun cisimləri arasındakı münasibətə görə müəyyənləşdirir. Kreatsionizmə (Allahın dünyanı heçdən xəlq etməsi haqqında nəzəriyyə) əsaslanan ideoloqlar, o cümlədən ortodoksal və müxalifətçi sxolastlar, mötədil sufilər monoteistdirlər. Vacib varlıq ilə mümkün varlığın yanaşı mövcudluğunu iqrar edən Şərq peripatetikləri dualistdirlər. Allah ilə insanın substansional vəhdətinə inanan ifrat sufi mütəfəkkirləri panteizmə meyl edənlərdir" (92, 191). Bu da materialist bir baxışdır. Bu kimi alimlərin fikirləri heç şübhəsiz ki, çağın və məkanın, materiyanın varlığı üzərində qurulmuş birtərəfli bucağının altından çıxa bilməmişdilər. Beləliklə, ruhani alimlər fakta,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sübuta, materialist mütəfəkkirlər isə mümkün varlığın və qeyri-bəşəri iradənin mövcudluğuna həvəssiz yanaşırdılar.

Eşq və ürfan isə Şərqdə deyildiyi kimi, "qal" deyil, "hal" mərtəbəsində qərar tutmuşdur. "Qal" sözü ərəbcədəki "qalə" yəni, danışmaq, türrəhat, söz-söhbət, elm anlamındadır. "Hal" kəlməsi isə ruhun məkanına daxildir, ağılüstü, məntiq ötəsi, elmin xaricində olan bir şeydir. "Hal" haqqında məşhur Türk alimi Ə.Gölpınarlı belə qeydlər verir: "Hal, lüğətdə keçmiş zamanın sonu, gələcək zamanın ilkidir; yəni, içində olduğumuz zamandır. Təsəvvüfdə termin olaraq, salikə bir nəşə, bir sıxıntı, yaxud zikr, yaxud da gözəl bir səs, bir nəğmə vasitəsilə meydana gələn mənəvi bir zövq gəlməsi mənasındadır; fəqət bu, istəyərək, diləyərək olmaz, özlüyündən olur və bu zövq, nəşə, sıxıntı, cazibə halında salikə, sufilərə görə bəzi sirlər açılır. Hal gəlib keçər; salikə mal olur, salik o halı özünə mal edərsə, "məqam" adını alır" (120, 41). Bu, özünəməxsus tərifdən göründüyü kimi, hal istəyərək, iradə edərək gəlməz. Halı verən lazımdır. Halın öz mənbəyi vardır. Bu mənbə mürşiddir. "Mürşid" sözü ərəbcədən "irşad edən" mənasında, yəni, rüşd verən, xilas edən anlamındadır. Lakin mürşid, müəllim deyil. Çünki hal da qal deyil. Dediyimiz kimi, qal elmdir. "Müəllim" sözünün bir kökü də "elm"ə dayanır. Qal məhz, insani təlimin elm qatına şamil edilir. Hal isə insani təlimin eşq mərtəbəsinə daxildir. Elmi müəllim, eşqi mürşid təlim edər. Elmi insan özü öyrənə bilər, müəllimlərini özü axtarıb tapa bilər. Eşq isə insana kənardan gəlmə bir keyfiyyətdir. Elmin binası istedad və zəhmətdir. Eşqin təməli isə yoxluq (bu "yoxluq"dan məqsəd zahiri, görünə bilən istinadların olmamasını ifadə etməkdir), gözlənilməzlik, məntiqüstü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lütflərin toplusudur. "Eşq tanımlamalarında bütün mütəsəvvüflərin ittifaq etdikləri xüsuslardan biri, onun sərhədsizliyidir. Eşqi "sahilsiz bir dəniz, boşluqda bir ümman" olaraq dəyərləndirən tanıtmalar, bu sərhədsizliyi çox gözəl ifadə edər" (166). N.Tusi başqa bir əsərində – "Övsafül-əşraf"da bənzər izahları verir: "Vəhdətdə salik ilə süluk, seyr ilə məqsəd, tələb ilə talib və mətlub yoxdur. "Hər şey məhvə məhkumdur". Bu sözün isbatı və izahatı da yoxdur, təsbit və isbat isə qarşılıqlıdır. Kəsrət bundan başlanır. Burada təkzib ilə isbat yoxdur, təkzibin təkzibi və isbatın isbatı da yoxdur. Ona fəna deyərlər. O, yoxluğun başlanğıcıdır" (102, 33). Məhz elə bu xüsusiyyətlərinə görə, Şərq fəlsəfəsi, Şərq insanı qərblilərdən əfkar və duyğular baxımından xeyli dərəcədə fərqlənir. "İbn Ərəbidə daha çox bilinib tanınan vəhdəti-vücud anlayışı, Allahdan başqa varlıq olmadığının idrak və şüuruna sahib olmaqdır" (180). Türkiyəli düşüncə insanı C.Meriçin qeydlərində oxuyuruq: "İrfan coğrafiyası da iki hissəyə ayrılmışdır. Birincisinin mədəniyyəti müqayisəyə, ikincisinin isə çalğıya, musiqiyə söykənir. Avropada mədəniyyətin başlıca vasitəsi ağıldır, Asiyada coğqunluq" (65, 138). Təsəvvüf əslində tam mənası ilə bir İslam mədəniyyətidir. Onun keçdiyi tarixi proses də bunu deməyə əsas verir. "İslam mədəniyyətinin ən önəmli mövzularından biri də Təsəvvüf anlayışıdır. Təsəvvüf cərəyanı, Suriyədə H. 2-ci əsrdə ilk zaviyəni quran Kufəli Əbu Haşimdən sonra, Sufyani-Sərvi (öl. 875), Misirli Zun-Nun (öl. 860), Xorasanlı Bayəzid Bistami (öl. 87-55), Həllac Mənsur (875-922), Cüneyd Bağdadi tərəfindən yayılmış, Əbül Qasim Əbdül Kərim Küseyri (öl. 1073) tərəfindən də əhlisünnət inancına isbata çalışılmışdır. Daha sonra Qəzzali (1058-1112),



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sührəverdi, Əbdülqadir Geylani (1076-1166) kimi məşhur isimlər və daha yüzlərlə mütəsəvvüf, bu cərəyanın təşəkkül tapmasında mühüm rol oynamışlar” (131,13).

Kiçik bir haşiyə çıxaraq, onu da qeyd etmək istəyirik ki, bu fəlsəfi təlimin kökü, bəzi tədqiqatçıların fikincə, İslamdan çox-çox öncələrə gedib çıxır. Məsələn, məşhur şərqşünas A.Nikolson belə yazır: “Təsəvvüf baxışları ilə vedanta sistemi arasında bənzərliklər olduğu açıqdır. Fəqət təsəvvüfün vedantalardan alınıb-alınmadığını təsbit etmək ancaq tarixi əsasları diqqətə almaqla mümkündür” (178).

Mövlana Cəlaləddin Rumi yazır: “O sevgilimi, yəni Allahı, gərək o qədər çox axtaram ki, onu tapmaq üçün o dərəcədə bol qeyrət sərf edim ki, ən sonda onu axtarmağın gərəksiz olduğunu anlayım! Bu ilahi sirri görən kimdən anlaya bilərəm?!

Mənalar aləmini seyr etmədən, orada dönə-dönə dolaşmadan Onun mənimlə birlikdə olmasının sirlərini, hikmətlərini könlümün qulağıyla axı necə eşidə bilərəm?! Ona bu həqiqətləri necə anlata bilərəm?! Yəni, “Harada olursunuzsa olun, Allah hər zaman yanınızdadır, çünki sizi yaşadan heç vaxt ondan qopa bilməz!” ayəsini onda necə anlaya bilərəm?” (82, 35).

“Məsnəvi”nin girişində Mövlana deyir:

***Dinlə neyi, gör necə hekayətlər söyləyir,***
***Ayrılıq həsrətindən şikayətlər eyləyir (81, 19).***

XX əsr Türk dünyasının ən böyük şairlərindən biri Nəcib Fazil Kısakürək iki misralıq tamamlanmış şeirində eynilə Mövlananın ney səsindəki vəhdət fəlsəfəsini çox gözəl bir dildə anladır:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Ben o kutsi nefesin üfledigi kamışım,***
***Ses onun, ben imzamı atmışım, atmamışım*** (123, 104).

Mövlana kimi ürfan dahiləri xalq arasında təkcə bir şair, alim olaraq deyil, ən əsası övliya, pir olaraq anılmışlar. "Bütün vəlilər Peyğəmbər əfəndimizin yolunda yürüyərək, xalqı irşad etməyə qeyrət sərf etmişlər" (168). Məsələn, elə Mövlananın özü əsrlər keçməsinə baxmayaraq, bu gün də xalq arasında öz qüdsi və toxunulmaz yerini qoruyub saxlayır. Buna maraqlı bir misal olaraq onun türbəsi haqqındakı çağdaş inancları göstərmək olar. Türkiyəli bilim adamı Dr. Ərdoğan Ərol məqaləsində yazır: "Vətəndaşlar arasında isə Mövlana, onu ziyarətə gələni üç dəfə çağırır. Yeddi dəfə gələn yarım hacı olur, şəklində sözlər söylənməkdədir" (124, 282).

Təsəvvüf dünyagörüşündə Allah düşüncələri fərqli, dərin və şəriət qəliblərinin kifayət qədər eşiyində olan bir anlayışdır. Buna misal olaraq, övliyalar sultanı adını almış böyük arif Əbdülqadir Geylaninin "Fütuhul-qeyb" əsərindəki bu fikirlərdən istifadə etmək olar: "Allah hardadır" desən, onu məkanla tələb etmiş olarsan. "Allah necədir və nə cürdür" desən, Onu necəlik və şəkillə tələb etmiş olarsan. Onun haqqında "nə zaman?" deyərsən, Onu zaman qavramı ilə qəbul etmiş olarsan..." (172).

Lakin, vəhdəti-vücudun nə demək olduğunu anlamaq üçün aşağıdakı mərhələli sxemə nəzər salmaq mümkündür. Vəhdət anlayışı iki cürdür. Bunlardan biri, insan vücudunun, ruh, bədən, nəfs, zəka, idrak, ağıl, şüur da daxil olmaqla, çoxlu sayda komponentin seyri-süluk məqamına doğru vəhdət halında birləşməsi, digəri isə, Haqqla, Allahla insan ayrılığının yox olduğu, ariflərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dilində deyildiyi kimi, "fənafillah", "Allahda yox olma" dərəcəsidir. Vəhdətin təsəvvüfdəki təsnifatı belədir:

1. Kəsrəti-vücud
2. Kəsrəti-mövcud
3. Vəhdəti-vücud
4. Vəhdəti-mövcud
5. Şuhud

Kəsrət çoxluqdur, bir anlamda ikilikdir. Bu ayrılıq, yəni kəsrət həm vücudun, həm də mövcudun içindədir. Vücudundakı vəhdətə yetişməyən, mövcudiyyətdəki vəhdəti də anlaya bilməz. Qısa ifadə etsək, vücudun vəhdəti əslində mövcudiyyətin vəhdəti deməkdir. Bunun başlıca səbəbi insan amilidir. İnsan, kainatın əşrəfi, yaradılmışların ən üstünüdür. Qurani-Kərimdən gələn "Əhsənüt-təqvim" ifadəsi də məhz insana şamil edilmişdir. Yəni, uca Tanrı buyurur ki, "biz insanı ən gözəl biçimdə yaratdıq". Bu yaradılışın qayəsi əlbəttə ki, fərqli mərtəbələrdə fərqli anlamlar daşıyır. Məsələn, şəriət mərhələsində, yəni, İlahi mövcudiyyətin ehkam, qanun, insanın isə yalnız ibadətə qadir ola bildiyi (insan-Allah münasibətləri müstəvisində) bir dönəmdə əlbəttə ki, kəsrət, yəni, ikilik, çoxluq mövcuddur. Buna rəğmən iman və ibadət ürfan əhli tərəfindən hər zaman qüdsal tutulmuşdur. Tanınmış Türk ilahiyyatçı alimi Seyfəddin Yazıçı "Temel dini bilgiler" adlı əsərində yazır: "İman açıqda yanan bir lampaya bənzər. Lampanın sönməməsi üçün şüşəni fənərlə qorumaq gərəkdir. Əgər bu şəkildə qorunmaz, açıqda yanmağa davam edərsə, xəfif bir küləyin təsiri ilə sönə bilər. İman da qəlbimizdə yanan bir işıqdır. Onun qoruyucusu ibadətdir" (132, 29). Ürfani qatlarda isə insanın yaradılışı Allahın "özünü ifadə", hətta özünü tanıtma,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

göstərmə qayəsini və məqsədini daşıyır. Məşhur “Ənəlhəq”, “Mən Allaham” formulu da elə buradan meydana çıxmışdır. Klassik ədəbiyyatın demək olar ki, bütün nümayəndələrində biz bu fikrə rast gəlirik. “Ənəlhəq”in yayqın olduğu hürufilik cərəyanı haqqında K.Bünyadzadənin məqaləsində oxuyuruq: “Hürufulik fəlsəfəsində bir neçə vacib ana diqqət yetirək. Əvvəla, Tanrı bir Yaradan olsa da, öz Yaratdığı ilə ayrı deyil, hətta eynidir və onlarla eyni mahiyyətə malikdir və bu mahiyyət mistik xarakterli olsa da, maddidir. İkinci tərəfdən, Mütləq Həqiqətin dərki üçün insanın təfəkkürü təbiətin fövqünə qalxmır, əksinə, maddənin özünə nüfuz etməli olur, çünki bu həqiqət onun 4 ünsüründəndir. Nəhayət, insan hər şeyi – 4 ünsürü və bununla da, Tanrının özünü də ehtiva etdiyindən hər şey insandır nəticəsinə gəlmək mümkündür” (23, 154).

Hətta ən az tanınan şairlər belə “Ənəlhəq” düsturunu o qədər israrlı və cazib bir şəkildə bəyan etmişlər ki, insan heyrətə gəlir. Buxaralı Şeyx Əhməd İlahi Əfəndinin mənzuməsində oxuyuruq:

***Ey könül, mərdanə gir dərdü bəla meydanına,***
***Yol əriysən girməgil nəfsü həva meydanına.***

***Olmadan Mənsur “Ənəlhəq” demə kim, təqliddir,***
***Əhli-təhqiq olmadan girmə Xuda meydanına*** (126, 58)

Yuxarıdakı mərhələlərdən göründüyü kimi, son olaraq “şuhud” mərtəbəsi gəlir. Şuhud görmək, şahid olmaqdır. Nəyə? Əlbəttə ki, həqiqətlərin ən üstünü və üstünlərin ən gözəli olan Allahın camalına! Türkiyəli tanınmış tədqiqatçı Dr. Səlcuq Əraydın “Təsəvvüf və təriqətlər” adlı kitabında yazır: “Cüneyd



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bağdadidən təsəvvüfün nə olduğu soruşulduğu zaman o: "Təsəvvüf bir haldır ki, hər zaman qul ilə bərabərdir" demişdir. Buna; təsəvvüf hər zaman qul ilə bərabər olan bir haldır da deyə bilərik. "Bu hal Haqqın sifətinin təcəllasıdır, yoxsa, xalqın vəsflərindənmidir?" sualına da Cüneyd: "Sifət olaraq Haqqın, şəkil olaraq da xalqındır" cavabını vermişdir" (116, 39).

Yuxarıdakı fikirlər əlbəttə ki, təsəvvüf və ürfan qaynaqlarında bol-bol şərh edilmişdir. Klassik ədəbi nümunələrdə də hətta, mənzum, amma nəzəri şəkildə təriqət və mərifət mərhələlərinin mətləbləri geniş şərh olunmuşdur. Məşhur arif Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" adlı mənzuməsi belə əsərlərdəndir. Sırf ürfani mətləbləri hətta lüğət şəklində təqdim edən, lakin müəllifi bəlli olmayan məşhur bir əsər də "Mirati-üşşaq"dır ("Aşiqlər aynası"). Bu tip yazılı nümunələr təsəvvüf və ürfan haqqında kifayət qədər bilgi əldə etməyə imkan verir.

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, təsəvvüf, ilk öncə, bir yaşam tərzidir, yəni, dolayısı ilə dərvişlikdir. "Dərviş" sözü farscadan "qapı qulu", "qapıda oturan" mənalarını verir. Bu "qapı" mürşid ətəyi, pir məqamı, Haqq qapısıdır. Bununla əlaqədar bir məsələyə də toxunmaq istərdik ki, xüsusilə əski Sovetlər Birliyinin ideoloji qalıqları olan təfəkkür tərzlərində, yəni o dövrün yadigarı olan məmləkətlərdə məlum təbliğat nəticəsində dərvişlik anlamı sanki bir növ dilənçilik, bəzən də fırıldaqçılıq mənalarında yozulmuşdur. Bu cür tərbiyə və təbliğatların izi və təsiri heyf ki, asanlıqla silinib gedənə bənzəmir. Azərbaycanda son 100 ilə yaxın bir müddətdə dərviş adı ən çox Abşeron zonasında, Bakı kəndlərində məşhur olaraq qalmışdır. Fəqət bu, gerçək anlamdakı dərvişlik deyildir. Abşeron dərvişləri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sadəcə qəsidəxan, mərsiyəxan, məclis adamlarıdır. Ən başlıcası isə, Bakı dərvişləri ürfan əhli, təsəvvüf ərbabı deyillər. Onlar şiə məddahlarından heç nə ilə fərqlənmirlər. Şiəlik isə ruhani təkamül cədvəlinin "şəriət" mərtəbəsində qərar tutmuşdur. Təsəvvüf isə, adından da göründüyü kimi, təriqət və mərifət qatlarının zahiri təcəllasını ifadə edən bir anlayışdır. Azərbaycan xalq yaradıcılığının müxtəlif nümunələrində isə biz təriqət dərvişliyinin aydın izlərinə rast gəlirik. Məsələn, Ağbaba tırınqılarının birində deyilir:

***Göy-göy dolanıram, gəzirəm düzü,***
***Eldə seçiləni, bədir ay üzü...***
***Əlimdə bərəkət, bolluq, ruzu,***
***Abdalam, dərvişəm, sofuyam, buyam*** (100, 41).

Bax elə əsil sufi dərvişlik budur. Dediyimiz kimi, digərləri rövzəxan və şiəliyin bədii təbliğatçılarıdır.

Belə ki, Yaxın və Orta Şərqdə yalnız sufi təriqətlərinin nümayəndələrinə dərviş deyilib. Şiəlik isə heç bir vəchlə sufilik deyil. Şiəlik də, sünnilik də məzhəbdir. Sufilik isə məzhəb yox, təriqətdir. Məzhəb, qeyd olunduğu kimi, şəriət mərhələsinin elementidir. Bəzən tarixçilər tərəfindən ya qəsdən, ya da bilgisizlik ucbatından, məsələn, "sufi-şiə cərəyanı" kimi yanlış ifadələrdən istifadə olunmuşdur. Bu fikir həm fəlsəfi, həm məntiqi, həm də tarixi-siyasi baxımdan belə kobud səhvdir.

"Dərviş" sözünün, yuxarıda qeyd etdiyimiz hərfi mənası yalnız onun zahiri anlamını ifadə edir. Əslində isə ürfani bir termin olaraq "dərviş" sözü daha çox batini mənaları əks etdirir. Belə ki, D-dünya, R-riya, V-varlıq, İ-yalan, Ş-şəhvət formasındakı kodlaşdırma (burada ikinci hərf olan "ə", ərəb əlifbasında qısa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sait olduğu üçün yazılmır. “İ” hərfi isə ərəb qrafikası ilə “ye” hərfidir ki, bu da yalan sözünün baş hərfidir) məhz bu qavramın batini qatını kodlaşdırır. Səlcuq Universitetinin (Konya) müəllimi Dr. M.Çıpan Mövləvi dərvişləri barəsindəki məqaləsində yazır: “Dərviş” sözü ibarət olduğu dal, ra, vav, ye və sin hərflərinin simvolik olaraq ifadə etdiyi dünya, riya, varlıq, yalan və şəhvətdən özünü uzaq tutan insan mənasındadır. Sadəcə Allahın fəqiri olan və Ondan başqasına ehtiyac duymayan, dünyanın minnəti altına girməyən və qənaətcil insanlar olan Mövləvilər ruhi kamillikləri, fikri incəlik və təkamülləri, sənət qabiliyyətləri ilə birlikdə təmizlik və mənəvi zənginlikləri ilə də diqqətləri üzərlərinə çəkmiş və sosial həyatı yönləndirmişlər” (27, 19).

Bütün bu fikirlər təsəvvüfün həqiqətən də bir yaşam tərzi, eşq ilə ağılın, ruhla bədənin, təfəkkürlə şəxsi həyatın, hal ilə qalın bir arada, vəhdətdə və münaqişəsiz olduğu qənaətinə gətirib çıxarır. Elə məşhur “kamil insan” formulu da əslində bu deyilənlərə əsaslanır. Kamil insan təkamülə yiyələnmiş bir varlıqdır, hər zaman mücadilə verən bir insandır. Bu mücadilənin feyzi və mahiyyəti nəfs riyazəti, batini və zahiri paklıq, hünər və elmlərə yiyələnmə, dünyanı və Allahı ağılla, məntiqlə deyil, eşq və halla dərk etməkdir. Təsəvvvüfdə halın mənbəyi və əsas səbəblərindən biri olan sufi zikrləri barədə Türkiyəli ilahiyyatçı Yazıçıoğlu Əhməd Bican “Ənvarul-Aşiqin” – “Haqq aşiqlərinin nurları” adlı əsərində bu qeydləri verir: “Allahı zikr etmək yeddi qisimdir:

Bir: Göz zikridir, ağlamaqla olur

İki: Qulaq zikridir, Haqqın hökmlərini eşitməklə olur

Üç: Dil zikridir, həmd və səna ilə olur



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd: Əl zikridir, verməklə və comərdliklə olur

Beş: Ayaq zikridir, qeyrət və çalışma ilə olur

Altı: Könül zikridir, qorxu və ümidlə olur

Yeddi: Can zikridir, təslim və rica ilə olur.

Bəzilərinə görə zikr dörd cürdür:

Bir: Dil zikridir

İki: Könül zikridir

Üç: Ruh zikridir

Dörd: Sirr zikridir" (133, 391).

Sufi dərvişliklə bağlı çox yayılan tərki-dünyalıq məsələsi də düzgün təhlil olunmur. Bəzi tədqiqatçılar bu məsələyə birtərəfli və bəsit yanaşmışlar. Müasir dövrün araşdırmaçılarından M.Hacıyeva və M.Rıhtımın birgə yazdıqları əsərdə bu sətirlərə rast gəlirik: "Zahid və mütəsəvvüflərin ən qabarıq özəlliklərindən biri tənha yaşamağı üstün tutmaları və Haqqla olmaq üçün xalq-dan ayrı yaşamağa əhəmiyyət verməléridir" (43, 158). Bu fikir əlbəttə ki, zahirən həqiqətə bənzəyir. Əslində isə, təsəvvüf ərbabı mərifət əhli olaraq, bütün mənəvi zənginliklərini xalqla paylaş-mışlar. "İnsanlardan, toplumdan sosial həyatdan tamamilə qopmağa heç bir təsəvvüf cərəyanı izn verməz. Bu cür qopmalar, Allah Rəsulu s.ə.v-in peyğəmbərlikdən öncə beş il müddətində Hira mağarasına çəkilməsinə və peyğəmbərlikdən sonra hər il Ramazan ayında xəlvətə girməsinə bənzər şəkildə bəlli müddət-lərlə məhdud bir üzlət, inziva və çilədən ibarət olaraq qəbul edilir" (177). Nəinki dini-mənəvi dəyərlərin zəif olduğu mühitlərdə, hətta (və daha çox) ruhaniyyətin azad və çoxəsrlik ənənəyə sahib olduğu ölkələrdə belə təsəvvüf ərbabı ilə bağlı həddindən artıq yanlış fikirlər yürüdülməkdədir. Zaman-zaman



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sufilər, ürfan böyükləri zahiri din qoruyucuları tərəfindən kafir, müşrik, mürtəd, münkir elan olunmuş və amansızca təqib olunmuşlar.

Hüseyn İbn Mənsur Həllacdan başlayaraq, Eynülqüzzat Həmədani (Miyanəçi), Şihabəddin Sührəvərdi, Şah Fəzlullah Nəimi, Əbu Müslim Xorasani, Şeyx Həsən Curi və başqa ariflərin edam və təqibləri şəriətlə ürfan arasındakı dərin uçurumun ən bariz nümunəsidir. Halbuki, bu böyük insanlar tarixə insanlıq yaddaşından silinməyəcək əsərlər, elmi, bədii sənət nümunələri, fədakar və mübariz həyat örnəkləri bəxş etmişlər. Görkəmli şərqşünas M.Mahmudov yazır: "Şihabəddin Sührəvərdinin ölümünə fərman verilməsini heç də Hələb fəqihlərinin paxıllığı və subyektiv mülahizələri ilə izah etmək olmaz. Filosofdan məlumat verən orta əsr alim və təzkirəçiləri ilk növbədə göstərirlər ki, Şihabəddin müsəlman ehkamları ilə bir araya sığmayan fikirlər irəli sürürdü" (64, 109).

Təsəvvüflə dini məzhəbçiliyin heç bir əlaqəsi yoxdur. Zahirdə biri digərinin davamı kimi görünsə də, əslində bu ayrıntının kökləri daha dərindədir. Ədəbiyyatşünas alim F.Bayat "Xoca Əhməd Yəsəvi və xalq sufizminin bəzi problemləri" adlı əsərində yazır: "İslam dininin fəlsəfi bazasını yaratmaq, Tanrı kəlamını dərk etmək zərurətindən meydana gələn sufizmin dini-fəlsəfi axın kimi formalaşması üçün müsəlmanların iki əsrlik fəaliyyəti dövründə ictimai-siyasi zəmin yaratmışdı. Sufizm IX-XII yüzilliklərdə artıq geniş bir ərazini əhatə edən müsəlman dünyasının ideologiyasına çevrilmişdi. Mürəkkəb sistemli ərəb, əcəm sufizmi içində milli dünyagörüşə əsaslanan türk sufizmi də geniş yer tuturdu. Dinin batini tərəfini yaşadan böyük türk



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təriqətlərinin bəziləri yəsəviyyədən çıxdığından, bu təriqətin sülukunun öyrənilməsi elmi əhəmiyyət kəsb edir. Sülukun mühüm keyfiyyətlərindən biri də adını yuxarıda qeyd etdiyimiz hal məqamıdır ki, onun da bir keyfiyyəti vəcddir. Vəcd təsəvvüfdə kifayət qədər çoxcəhətli və mübahisəli məsələdir. Lakin böyük mütəsəvvüf alim İmam Qəzzali vəcd haqqında bu qeydləri edir: “Dinləmənin sonunda dinləməkdən ötrü nəfsdə yaranan hər şey vəcddir. Bu baxımdan nəfsdəki itminan, ürpəşmə, qorxu, qəlbin yumşalması, bütün bunlar vəcddir.

“Möminlər o kimsələrdir ki, Allah anıldığı zaman qəlbləri qorxar” (Ənfal, 2)” (173).

Bu baxımdan qeyd etmək lazımdır ki, təriqət də şəriət kimi haqqı dərk etmək yoludur. Birinin əsasında məntiq və elm durursa, o birinin məğzində eşq durur. Şəriətdə ibadət Allahı dərk etməyin açarıdırsa, təriqətdə eşq, vəcd, hal Haqqa qovuşmağın yeganə yoludur. Şəriət dinin zahiri tərəfini öyrənirsə, təriqət onun batini tərəfini öyrənir” (22, 42).

İzahlardan da göründüyü kimi, adət olunmuş dini dəyərlərlə ürfani mətləblər arasında nə qədər fərq vardır. Təsəvvüf böyüklərinin yaratdıqları elm və sənət nümunələri də məhz eşqə, hala söykənir. Sözə çevrilməsinə baxmayaraq, bu dəyərlər əslində kitablardan yox, qəlbin və idrakın fəhmindən doğur. Türk alimi Prof. Dr. H.Kamil Yılmazın kitabında oxuyuruq: “Təsəvvüf, surətdən çox sirətə, qəlibdən ziyadə qəlbə, zahirdən çox batinə önəm verən bir elmdir. Bu səbəbdən bəziləri təsəvvüfü bu qəliblər içərisində tanıtmaq istəmişlər.

Cüneyd Bağdadi deyir: “Zahirinə fikir verən bir sufi görsən, bil ki, onun batini xarabdır”.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zun-nun Misri deyir: “Sufi, danışdığı zaman halına uyğun söz söyləyən kəsdir. O, özündə olmayan bir şeydən bəhs etməz. Dilini tutub danışmayacaq olursa, rəftarı halının tərcümanı olur, halı dünyadan əlaqəsini kəsdiyini anladır” (134, 46).

Təsəvvüf məfkurəsinin ən geniş yayılmış nəzəri məsələlərindən biri də təriqət daxilindəki mərhələli inkişafın şərtləndirilməsidir. Bu mərhələlər kağız üzərində, elmi-nəzəri formada yox, məhz əfkar və nəfsin iştirakı ilə verilən fiziki və ruhani mücadilənin təxmini düsturudur. Ənənəvi təkamül mərhələləri aşağıdakılardır:

1. Tələb
2. Eşq
3. Mərifət
4. İstiğna
5. Tovhid
6. Heyrət
7. Fəna

Bu məqamlar yalnız eşq əhlinə, sufi-saliklərə nəsib olur. Salikin varlığı süluka, yəni İlahi seyrə bağlıdır. Sondakı “fəna”dan məqsəd “Allahda yox olma”dır ki, şəriətdə buna Allaha qayıdış deyilir. Nəsirəddin Tusi bu məsələni sırf sufiyanə izah etməsə də, cənnətin, axirətin gerçək anlamının ehkamlardakı şəkildə yox, məhz Allaha qovuşmaqda olduğunu izah edir: “Cənnətdən (bu) dünyaya gəlmək kamillikdən nöqsana üz tutmaq (yönəlmək) və (ilk) yaradılışın (fitrətdən, yaradılış yerindən) düşməkdir. Şübhəsiz, insanların (yaradılmışların) Yaradandan (Xaliqdən) çıxması bu üsuldan başqa bir üsulla mümkün deyil. (Bu) dünyadan cənnətə getmək isə nöqsandan kamilliyə üz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tutmaq və (ilk) yaradılışa çatmaqdır. Şübhəsiz insanların Yaradana qayıtması bu üsuldan başqa bir üsulla baş tutmaz: "Allah yaradılmışları (varlıqları və insanları) yoxdan yaradır (var edir), sonra onları (yenidən) qaytarır, sonra Onun yanına qayıdacaqsınız" (ər-Rum, 11) (103, 22). Tanınmış Azərbaycan bilım adamı Ə.Əhmədovun kitabında oxuyuruq: "Əql şahini eyn-ül yəqində gördüklərindən vəcdə gəlir, daha ülvi aləmlərə pərvaz edir, həqiqət nurunun ziyası və təcəllası şövqü ilə öz varlığını unudur, özünü bu nurani aləmə yetirib, onun şəşəələri içində qərq olur. Bu isə həqqül-yəqin mərtəbəsidir. Süluk əhlindən olan bəzi ariflər yəqin üçün bir də dördüncü mərtəbəyə qaildirlər: ona "fənafillah" deyirlər" (30, 56). Alimin izahı leksik baxımdan bir qədər qəliz görünə bilər. Əlbəttə çağdaş dünyamızda bu mətləbləri daha anlaşılan bir tərzdə ifadə etmək yaxşı olardı. Yuxarıda adını çəkdiyimiz araşdırmaçı alim M.Rıhtım isə seyri-süluk haqqında bunları yazır: "Seyr lüğətdə "gəzmək" mənasındadır. Təsəvvüfdə isə cəhalətdən elmə, əxlaqi-zəminədən əxlaqi-həmidəyə, öz vücudundan Haqqın vücuduna doğru seyr və hərəkətdir. "Süluk" lüğətdə girmək və getmək, təriqət əhlinə görə isə, saliki vüsala hazırlayan əxlaq tərbiyəsidir. İfadə etdikləri mənalar baxımından bir-birinə çox yaxın olan bu iki termin təriqətə girən şəxsin bütün mənəvi dərəcələri tamamlayanadək keçirdiyi səfahətə verilən addır. Seyrin əvvəli süluk, sonu vüsaldır" (80, 129).

Lakin, bu yeddi mərhələ, dörd məqamın ikincisi olan "təriqət"ə daxildir. Təriqət məhz sufilikdir, dərvişlikdir. Dərvişliyin təkyədəki məqamı təriqətdir. Sonrakı "mərifət" və "həqiqət" məqamları isə təriqətdən fərqli olaraq, insan və cəmiyyət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arealında mövcudiyyətini sürdürür. Qısa ifadə etsək, salik təriqətdə əxz edib öyrəndiklərini, ibadət, zikr və başqa əməllərlə qazandığı ucalıq və paklıq keyfiyyətlərini sonrakı “mərifət” məqamında xalqla, insanlarla paylaşaraq, ürfani mərtəbəyə qədəm basır. Məhz “ürfan” və “mərifət” sözlərinin bir bağlantısı da məna olaraq buradan doğur. Türkiyəli araşdırmaçı R.Akdoğan öz məqaləsində bu barədə maraqlı məqamlara toxunur: “Mərifə-tullah dini əqidənin əsasını təşkil edən Allah inancıyla əlaqəli, kəlam əsərlərində elm, nəzər, hüsn və kubh məsələlərində araşdı-rılmaqda olan epistomolojik bir mövzudur. Kəlam elminə görə, mübahisə mövzularından birinə başlıq olan “Mərifətullah” sadə və dar anlamda “Allah bilgisi”dir” (164). Bu baxımdan mərifət əhli artıq sufi olmaqdan çox, mübariz bir şəxsiyyətə çevrilərək, cəmiyyət üçün önəmli və mühüm yerlərdən birini tutur.

## Aşıq yaradıcılığının mistik fəlsəfə üzərində formalaşmasının tarixi kökləri

Azərbaycan milli mənəviyyatının kökləri çox qədim mədəniyyətlərə dayanan fəlsəfi didaktik, mədəni təfəkkür tərzlərinə bağlıdır. Həm milli həm də regional cəhətdən Azərbay-can məkanı köklü mədəni-siyasi və mənəvi hadisələrin ən qaynar yerində qərar tutmuşdur. Bütün dünyanı bu gün də öz cazi-bəsində saxlayan Hürufiyyə, Yaxın və Orta Şərqi öz fəlsəfi təlimi altında tutan Xəlvətiyyə, nəhayət, tarixdə ilk və son dəfə təsəvvüf-ürfan cərəyanını siyasi hakimiyyətə gətirib, nəhəng bir imperiya quran Səfəviyyə təriqətləri məhz Azərbaycan adlı əfkari-ümumiyyənin məhsuludur. Tarixin mənəvi-fəlsəfi sütunla-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rını təşkil edən Azərbaycan dahiləri bu qudsal məkanın ruhani ab-havasının törəmələridir, desək, yanılmarıq.

Mövzumuzun əsas predmeti aşıq yaradıcılığının təsəvvüf-ürfan məsələləri ilə bağlı tərəflərinin araşdırılıb üzə çıxarılmasıdır. Bu məqsədlə aşıq poeziyasına, saz sənətinə, bütövlükdə aşıq yaradıcılığına fərqli bir kontekstdən baxmaq lazım gəlir.

İşin əsas çətinliyi ondadır ki, birincisi, Azərbaycan aşıq sənətkarlığı bu gün bəhs edəcəyimiz ürfani dəyərləri demək olar ki, özündə yaşatmır. Çağdaş aşıqlar öz sələflərindən fərqli olaraq, nə sufidirlər, nə dərvişdirlər, nə də arif... Bu əksiklik onların şeirlərində də, ifa tərzlərində də el-oba sevimlisi kimi həyat tərzlərində də aydın görsənir.

Əlbəttə ki, aşıqdan Haqq aşiqi, arif, dərviş olmağı tələb etməyə, ən azından bunu onlardan gözləməyə bizim haqqımız vardır. Ustad Aşıq Ələsgər demişkən, "tərki-vətən olub", "pür kamal" yiyəsi olmaq aşıqlığın və əslində aşiqliyin ən ümdə şərtidir. Aşıq Ələsgər "Mərifət elmindən halı gərəkdir" deməklə, əslində həmin ürfani dəyərləri, təsəvvüf ənənələrini nəzərdə tuturdu.

İşin başqa çətinliyi ondadır ki, aşıq yaradıcılığında təsəvvüf, ürfan ənənələri bu günə qədər çox az sayda alimlər tərəfindən araşdırılmışdır. Bizim istinad edəcəyimiz nöqtələr yalnız son dövrlərdə, yəni elmi ateizmin qüvvədən düşdüyü müasir, müstəqil Azərbaycan alimlərinin bəzi əsərləridir. Bunlar da o qədər azdır ki, biz məcburən ümumtürk və hətta ümumşərq kontekstində bu məsələyə yanaşaraq, xarici ölkə alimlərinin tədqiqatlarına baş vurmalı oluruq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Prof. H.İsmayılov, aşıq yaradıcılığında təsəvvüf məsələlərinə dair özünün “Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri” əsərində yazır:

“Aşıq ideya – estetik və dini ruhani əsaslarını atadan (babadan və dədədən keçməklə), sənət ənənəsini ozandan, musiqi (alət (saz) və havalar) ənənəsini isə hələ tam aşkarlanmamış əski türk xalq musiqi sənətindən almışdır. Ata əski cəmiyyətin tanrıçılıq dövrünün dini rəhbəridir, patriarxıdır. Baba deqradasiya olunmuş Tanrıçı atadır, Tanrıçı dərvişdir. İslama keçidlə bağlı siyasi dəstəkdən məhrum olur, dərvişləşir və kütlənin içinə gedir. Dədə sufi dərvişdir. Asketik inam daşıyıcısıdır” (52, 64).

Şəhər, dolayısı ilə saray mədəniyyətinin təmsilçisi olan klassik divan ədəbiyyatı ürfani dünyagörüşü çox həssas və geniş çalarlarla təqdim edirdi. Lakin Şərq klassikasında mövcud olan ürfani ənənələr müəyyən qəliblər içərisində idi. Şairlər elə şair olaraq qalır, yəni mürşid, tərbiyəçi, ustad rolunu çox zəif şəkildə icra edirdi. Hərçənd ki, onlar özləri də şairliyi bir vasitə, şeiri ruhani bir ötürücü olaraq görürdülər. Fəqət, xalqla ünsiyyətin zəif olması, daha dəqiq ifadə etsək, xalq dilindən uzaq bir üslubda yazıb yaratmaları onları məhz şairlik, sənətkarlıq qəlibinə salırdı.

Lakin xalq təsəvvüfü bu mənada, yəni ürfani qaynaqların, təriqət görüşlərinin kağız üzərindən, bədiyyat qəlibindən çıxıb, praktiki şəkil alması istiqamətində daha da uğurlu mövqedə idi. Buna səbəb, mütəsəvvüflərin xalqla yaxınlaşması idi. Onlar təkyədə, ürfan ocaqlarında, mürşid ətəyində qazandıqlarını xalqa, insanlara sərf edirdilər. Bu anlamda böyük mütəsəvvüf Xoca Əhməd Yəsəvi türk xalq təsəvvüfünün ilk örnək şəxsiyyətlərin-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dən sayıla bilər. Onun yaradıcılığı ilə bərabər həyat tərzi də özəlliyi və əfsanəvi keyfiyyətləri ilə bütün təsəvvüf dünyasına örnək olmuşdur. Görkəmli türk alimi Prof.Dr. Fuad Köprülü yazır:

"Əhməd Yəsəvi altmış üç yaşına girdikdən sonra, ənənəyə görə, təkyəsinin bir tərəfinə üç arşın dərinliyində bir çilləxanə tikdirərək oraya çəkildi. Bunun hansı tarixə təsadüf etdiyini də heyf ki, bilmirik. "Divani-Hikmət"dəki bir çox parçalarda bu çilləxanəyə girişini, inzivasının səbəblərini mütəsəvvüfanə bir dildə uzun-uzun nəql edir. Xoca Əhməd vəfat edincəyə qədər "Hikmət" başlığı altındakı sufiyanə mənzumələrini yazmaqda davam etdi; ətrafındakı müridlərə sufiyanə həqiqətləri, batini saflaşma və əxlaqi islahın vacibliyini, dini ənənələri o şəkildə anladır, bunlara dair ərəbcə və farsca bilməyənlərə "Hikmət"ləriylə yol göstərirdi" (125, 75).

Xoca Əhməd Yəsəvinin üç arşın dərinliyində qazdırdığı çilləxanə çox diqqətçəkən bir məqamdır. Köprülünün verdiyi mətnə diqqət etsək görərik ki, Əhməd Yəsəvi bu çilləxanəni məhz altmış üç yaşında inşa etdirib. Həm də bu çilləxanə yerin üstündə deyil, yerin üç arşın dərinliyində tikilib. Yəni Xoca Əhməd (və ya Türküstan ellərində deyildiyi kimi, "Qara Əhməd") bununla demək istəyirmiş ki, mən Peyğəmbərimiz Rəsuli-Əkrəmdən (s.ə.v.) artıq yer üzündə yaşamağa utanıram. Çünki Məhəmməd (ə.s.) bu dünya üzündə altmış üç il yaşamışdı. Ondan artıq yaşamaq qismətdə varsa, bunu dünya üzündə yox, yer altında yaşamaq daha məqbuldur. Buna ürfanda "Xərabat" da deyilir. Məşhur Həbibi yazırdı:

***Əla, ey dildarım, yarım, xərabat,***
***Dilü can içrə dildarım xərabat (20, 273).***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

X.Hümmətova Yunus Əmrə ilə Mövlana Ruminin ürfani dünyagörüşünü bir araya gətirən fikirlər bəyan edir: "Başdan-başa ilahi hikmətlərlə haqqa çağırış olan bu iki sufi şairin poeziyası bir-birinə ideya və məzmunca qaynayıb-qarışmışdır. Bu iki sufi şeyxi sonra yaranan ürfan poeziyasına, sufi şairlərinə, onların yaradıcılığına böyük təsiri olmuşdur.

Bu bağlılıq hər iki sufi şeyxinin yaradıcılığının bir mənbədən qidalandığını göstərir. Bu mənbə İslamın müqəddəs kitabı olan Qurani-Kərim və İslam fəlsəfəsidir. Həm Mövlana, həm də Yunus Emrə yaradıcılığı Quranla başlayıb, Quranla da qapanır" (47, 66-67). Bu fikirlər həm də ona görə diqqətimizi çəkdi ki, müəllif burada klassik ədəbiyyatla ozan-aşıq sənətinin təsəvvüf dünyagörüşündəki məqam eyniliyini vurğulayır.

Ümumiyyətlə, "Türk sufizmi", "türkdilli mütəsəvvüflər" kəlməsi bəzən insan düşüncəsində qəribə ziddiyyət yaradır. Ərəbdilli, farsdilli, hinddilli, əfqan və urdu dilli saysız-hesabsız ürfan və təsəvvüf nümunələri mövcuddur. Lakin, bu əsərlərin müəlliflərinin əksəriyyəti türkdür, türkdilli mütəfəkkirlərdir. Millət və məmləkət olaraq, ərəblərdə, farslarda (hind, əfqan, tacik və başqa millətlər Hind-Avropa və Sami dil qruplarına aid olduqları üçün onların adlarını xüsusi olaraq çəkmirik) adları barmaqla sayılacaq qədər mütəsəvvüflər mövcud olmuşdur. Əlbəttə, Mühyiddin Ərəbi, Zün-nun Misri, Əttar Nişaburi, Hafiz Şirazi, Əbu Hamid Qəzzali kimi böyüklərin Şərq təsəvvüf fəlsəfəsinin formalaşmasında əvəzsiz xidmətləri olmuşdur. Bunların arasında böyük ustad Hafizin adını xatırlamaq xüsusilə vacibdir. O da eynilə Mövlana kimi, şair olaraq deyil, pir, mürşid olaraq, bu gün də öz mənəvi hakimiyyətini sürdürməkdədir. Şərqşünas E.Quli-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yev məqaləsində Hafizin farscadan tərcümədə “pərdənin iç sirri” ifadəsini təhlil edərkən yazır: “Ədib “pərdənin iç sirri” ifadəsi ilə “ilahi eşqdən gələn zövq hesabına aşiqin qeyb aləminin bəzi sirlərinə vaqif olması”na işarə edir. Belə sirlər idrak yolu ilə ələ keçməz. Bu hala qovuşmaq üçün alim, hətta aliməqam zahid yox, rind, yəni dünya malında zərrəcə gözü olmayan, ilahi eşq ilə könlü müdam qovrulan aşiq, arif olmaq lazımdır” (62, 3). Lakin etiraf etmək lazımdır ki, sufiliyin kütləvi şəkildə yayılması, elm və bədii ədəbiyyatdan məntiqi bağlılıqla sızaraq geniş xalq kütlələrinə sirayət etməsi, ana Türküstandan İraqi-Əcəmə, Qafqazlardan Balkanlara qədər yayılan təkyələr, zaviyələr, mürşidlər, pirlər, qütbi-övliyalar məhz türk xalqlarının maddi-mənəvi dəyərləri sırasındadır. Türkiyəli araşdırmaçı Fəyyaz Sağlam öz kitabında Prof.Dr. Fuad Köprülünün “İslami Türk ədəbiyyatı” adı ilə bir nizamın ortaya çıxdığı fikrini misal gətirərək yazır: “Bu nizam içərisində Xoca Əhməd Yəsəvi, Yunus Emrə, Hacı Bektaş Vəli, Süleyman Çələbi, Niyazi-Misri, Şeyx Qalib, Əsrar Dədə, Mehmet Akif, Nəcib Fazil, Sezayi Qaraqoç kimi ədəbiyyatçılardan təşəkkül tapan İslami bir cizgi görünür. Təsəvvüf ədəbiyyatını da burada yenə din çərçivəsində xatırlamaq gərəkdir” (128, 29).

Tarixdə Sultan Mahmud Qəznəvinin, Qazi Bürhanəddinin, Əlaəddin Keyqubadın, Uluğbəyin və nəhayət, Şah İsmayıl Xətainin simasında birbaşa və şəxsən sufi olan, ürfan əhli, ərbabi-təsəvvüf olan hökmdarlar yalnız türklərə məxsusdur. Bu fakt həm tarixi, həm mədəni, həm fəlsəfi, həm də siyasi baxımdan çox böyük əhəmiyyətə malikdir. Nəqşibəndilərin Orta Asiyada, Mövləvilərin Anadoluda, Xəlvətilərin, Nemətullahilərin,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qadirilərin, Hürufilərin, Bektaşilərin digər cəmiyyətlərdə yüksək mövqelərə gəlmələri, dövlətin və xalqın aparıcı simalarına çevrilmələri məhz Türk hökmdarlarının xidmətidir. Ürfan əhlinin ərəb ölkələrində və İranda bu gün də davam edən təqibi əslində şəriətin, ortodoksal və radikal İslamın bu ölkələrdə, eşq və ürfan üzərində, xas və gizli bilgilər əsasında yaranmış inancın, yəni təsəvvüfün isə Türk məmləkətlərində geniş intişar tapmasının göstəricisidir.

Bu faktoru Türklərin İslamiyyətdən öncəki Tanrıçılıq ideyasına bağlılıqları ilə izah edənlər də çoxdur. Bu fikir əlbəttə ki, həqiqətdir. Tanrıçılıq, tək Tanrıya inam, bu inamdan doğan məfkurə türklərin qanında, canında mövcud idi. Məsələn, məşhur "Qutadğu Bilig"də oxuyuruq:

1. Tanrının adı ilə sözə başladım,

O. yaradan, yetirən və köçürən Rəbbimdir.

2. Vahid Tanrıya minlərcə şükür olsun ki,

Onun üçün fənalıq yoxdur.

3. Qara yeri, mavi göyü, günəşi və ayı, və gecə ilə gündüzü,

Xilqəti, zamanla zəmanəni o yaratmışdır (21, 25).

N.Cəfərov "Kitabi-Dədə Qorqud"dakı Dəli Domrul-Tanrı mülaqatına şərh verərkən yazır: "Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Allah-Tanrı obrazının bu cür sərbəst, sadəlövhcəsinə, bir qədər də ərkyana yaradılması, birincisi, epos təfəkkürünün xarakteri ilə bağlıdırsa, ikinci tərəfdən, türk düşüncəsinin tipologiyasından irəli gəlir. Türklər qədim dövrlərdən başlayaraq, öz Tanrıları ilə sıx mənəvi-ruhi təmasda olmuş, ondan qorxub çəkinməmiş, əksinə ona könüldən bağlanmış, İslamı qəbul edəndən sonra həmin sadəlövhlük, səmimilik müsəlman Allahına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

münasibətdə də özünü göstərmişdir... Tədricən sadəlövhlük mistika, səmimilik isə mənəv-iruhi diplomatiya ilə əvəz olunmağa başlamış, müxtəlif təriqətlər, ruhani məktəblər, tendensiyalar yaranmışdır" (25, 16). Lakin bir məsələ də vardır ki, türklər yarımköçəri həyat tərzi sürürdülər. Yəni, saray mədəniyyətinə, şəhər mənəviyyatına o qədər də yaxın deyildilər. Bu, xalq arasında təbəqələşmənin zəif inkişaf etməsinə səbəb olmuşdu. Məsələn, əski Türk xaqanları elə öz əsgərləri, təbəələri kimi adi çadırda yaşayırdılar. Yaranan hər hansı bir fəlsəfi qığılcım ictimai təbəqələri sürətlə aşaraq, bütün icmanı əhatə edirdi. Məsələn, məşhur Türkmən şairi Dövlətməmməd Azadinin oğlu Məxdumqulu Fəraqinin şeirləri, sağlığında ikən dastanlaşmış həyatı bütün Türkmən əşirətlərini, xaqanlı, rəiyyətli hər kəsi valeh edirdi. Təsəvvüf zehniyyətini hər zaman daşıyan türk qəbilələri arasında gizli bir təbəqə, övliya məqamlı şəxslər mövcud olmuşdur ki, onları ictimai zümrəsindən asılı olmayaraq hər kəs etiraf edir və ehtiram göstərirdi. Məxtumqulunun adına diqqət edək: "Məxdum" ərəb dilində "xidmətində durulan şəxslər" deməkdir. Şair özünü (bu təxəllüsü götürməklə) həmin şəxslərin qulu, köləsi adlandırır. Bu şəxslər, yəni "məxdumlar" hər zaman türklər arasında ən mötəbər yerdə dayanan övliyalar, pirlər, mürşidlər idi. Bu təbəqə bütün türk arealında mövcud idi. Teymurilərin Bəhaəddin Nəqşibəndisi kimi, Səlcuqilərin Mövlanası kimi, Osmanlıların Ak Şəmsəddini, Səfəvilərin Şeyx Cüneydi, Şeyx Heydəri, Şah İbrahimi kimi... Bu məntiqə söykənərək söyləmək olar ki, Türklər bir övliya millətidir, taleyini övliyalara əmanət etmiş bir xalqdır. Tanınmış alim M.Allahmanlı məqaləsində Yunus Emrənin dərvişlik, sufilik barədəki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

formulunu yada salaraq, bu qeydləri edir: “Bunlar orta çağ ədəbiyyatının sufi haqqında olan qənaətləridir. Məhz onu da qeyd edək ki, həmin nümunələrin özü də sufi şeyxləridir. Bu təsəvvürlərlə həyatlarını qurub böyük ideallara xidmət etmişlər” (4, 196). Əgər digər müsəlman xalqlarında bu şəxsiyyətlərə bəslənilən ruhani ehtiram və hətta etiqad kafirlik, Allaha şirk qoşmaq sayılırdısa, bu, türklərdə qətiyyən belə deyildi. Türklər əlini öpdükləri övliyanı, piri, mürşidi məhz Allahın təcəllası, Tanrı zatının nuru hesab edirdilər. Bu, tam fəlsəfi bir ideologiyadır; bəzi tarixçi və ehkamçıların təbir etdikləri kimi, avamlıq və bilgisizlik deyil. Məsələn Türkiyədə nəşr olunmuş “Salur Kazan Destanı” adlı kitabda belə bir mənzum parçaya rast gəldik:

***Mekke ile Medinenin kapısı,***
***Konakların, sarayların yapısı,***
***Yeşerende dallarının hepisi,***
***Yağız yere gölge salan gür ağaç,***
***İlde tutsak, dağ başında hür ağaç.***

***Hasan ile Hüseyinin beşigi,***
***Camilerin, türbelerin eşigi,***
***Alp erenler sofrasının kaşığı,***
***Köprü agaç, gemi ağaç, kin ağaç!...***
***Şol gölgeni bağrım üzre sun ağaç! (118, 129).***

Göründüyü kimi, burada Əhli-Beyt eşqi ilə Alp erenlerin sevdası eyni “qazanda qaynadılır”. Bu xüsusiyyət yalnız türklərə məxsusdur və sırf sufiyanədir. Ümumiyyətlə, İslama qədərki türk Tanrıçılığı təsəvvüf dünyagörüşü ilə gizlin bağlara sahibdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

F.Ə.Seyidovun kitabında oxuyuruq: "Türklər uşaqlarını ağac, daş, kəsək, gildən düzəldilmiş əfsanəvi fiqurlar kimi ayrı-ayrı Bütlərə deyil, Göy Tanrıya səcdə etməyə öyrədirdilər. Türklərdə bir Allahın olması fikri İslamdan çox-çox qabaq olmuşdur. Türklərdə Göy Tanrıya inam yalanın, oğurluğun, mənəvi pozğunluğun qarşısını almaq üçün ən kəsərli mənbə olmuşdur" (88, 19).

Təsadüfi deyil ki, məhz bu doktrina Türk alimlərini, ariflərini, şair və mütəfəkkirlərini tarixlərə sığmayan ümumbəşəri bir səviyyəyə qaldırmışdır. Bu ənənə Anadoluda günümüzə qədər gəlib çıxmışdır. "Müxtəlif səbəblərlə XII-XIII əsrlərdə Xorasan diyarından Anadoluya hicrət etmiş və bu coğrafiyanın Türkləşməsi və İslamlaşması fəaliyyətlərinə qatılmış şəxsiyyətlərin mənqəbəvi həyatları və bunların yaratdıqları hərəkatlara münasibət hər zaman fərqli olmuşdur. Bu köçlər nəticəsində Anadoluya gələn ərənlər, Əhməd Yəsəvi başda olmaqla Xorasan civarında ortaya çıxıb inkişaf edən təriqətlərin davamlı qərbə yönəlik irşad hərəkətlərinə və buralarda yeni isim və şəkillərdə yenidən müəssisələşmələrinə səbəb olmuşdur" (165). Anadolu təkyə ədəbiyyatı bunun bariz nümunəsidir. Bir çox təkyə şairlərinin adlarını çəkmək olar ki, onlar əzəli varlığı Tanrı-insan vəhdətində görərək, insanın həqiqi, batini məqamını bəyan etmişlər:

***Hu deyip devrane geldim bu cihane çare ne***
***Çok zamandır hadim oldum ben bu hane çare ne*** (114, 30).

Elə ilk misradan Həzrəti Adəmin vücudundakı Zatimütləqin bütövlükdə insan simasını təşkil etdiyi fikrinin qabardıldığını görürük.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zaman-zaman qısqanclıqla qarşılanan türk sufizmi müxtəlif hücumlara məruz qalmışdır. Məsələn, Mövlana Cəlaləddin Ruminin türk olmadığını israrla bəyan edən tarixçi və ədəbiyyatçılar, Mövlana türk olmasa belə, onu Mövlana edən böyük azərbaycanlı, Türk dünyasının ən böyük simalarından biri Şəms Təbrizini unudurlar. Unudurlar ki, Mövlana Cəlaləddin Rumi ən böyük və ən dərin əsəri olan "Divani-Kəbir"indəki bütün qəzəlləri "Şəms" təxəllüsü ilə yazmışdır. O, bu divanı bəzilərinin ifadə etdiyi kimi, Şəmsə həsr etməmişdir. O, bu qəzəllərin əsl müəllifinin Şəms olduğunu, özünün isə sadəcə bir katib, nazim olduğunu iddia etmişdir. Bu əsərin ən məşhur adı "Divani-Şəms"dir. Konya Səlcuq Universitetinin dosenti Hulya Kiçik yazır: "Bir çox insan iki Mövlana olduğuna inanır: Şəmsdən əvvəlki və sonrakı Mövlana. Həmçinin Mövlananın əslində İslam dininə bağlı bir insan olduğu halda, Şəmsdən sonra içinə düşdüyü şövq və eşqlə dəyişdiyini, dinə olan bağlılığını itirdiyini qeyd edirlər. Halbuki o, Şəmslə sadəcə "təmkinli və oturaqlı" bir sufilikdən "Şəms də mənəm, Xuda da" dediyi "coşqulu" bir sufizmə keçmişdir. Bəli, Mövləvilikdə iki qol olduğu, bunlardan biri olan Vələd qolunun zöhdə, Şəms adlanan digər qolunun isə eşq və coşquya əhəmiyyət verdiyi iddia edilir.." (58, 38). Bu fikirlərdən belə aydın olur ki, məhz Türk təsəvvüf zehniyyəti ehkam və zahidliyi sındıraraq, salikin daha geniş, daha fəzayi mərtəbələrə yüksəlməsinin əsas bazalarından biridir. Bu, məhz Türk ruhudur ki, xalq sənətinə, o cümlədən, sazla sözün vəhdəti olan aşıq-aşiq sənətinin yaranmasına gətirib çıxarmışdır. Bu, hər zaman belə olmuşdur və bu gün də həmin ruhda davam etməkdədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Səfəvilər dövründən başlayaraq formalaşan Azərbaycan sufizmi

Klassik divan ədəbiyyatı, daha öncə də qeyd etdiyimiz kimi, tam olaraq, xalqın, geniş kütlənin tərcümanına çevrilə bilmirdi. Bu ədəbiyyat təriqətçilikdən, təkyə sufiliyindən çox, sənətə, sözə ağırlıq verirdi. Təriqətçilik isə ictimai mənasını, yükünü artıraraq, cəmiyyət içərisinə daha artıq nüfuz edirdi.

Azərbaycanda bu vəziyyət özünəməxsus bir aspektdə inkişaf edirdi. Üç böyük fəlsəfi təlim, üç nəhəng təsəvvüf təriqəti – Xəlvətilik, Hürufilik və Qızılbaşlıq Azərbaycan insanını çox fərqli biçimdə formalaşdırırdı. Əmir Teymurun və Miranşahın hücumlarına qarşı Naxçıvandakı Əlincə qalasında on dörd il mücadilə verən xalq məhz Şah Fəzlullah Nəiminin banisi olduğu Hürufilik ideyaları ilə silahlanmışdı. Əks təqdirdə dünya fatehi olan bir ordunun qarşısını mühasirə vəziyyətində, silahsız, sadə bir xalq necə ala bilərdi?

Səvəfilik barəsində ən fərqli fikirlər müxtəlif elm adamları tərəfindən irəli sürülmüşdür. Bu məsələdə İran alimlərinin düşüncələri özəl sayıla bilər. Çünki İranda Şah Xətaiyə münasibət birmənalı deyildir. Müasir İran alimlərindən Kazım Əbbasinin Xətai haqqındakı ümumiləşdirilmiş fikirləri diqqətimizi çəkdi: "Şah İsmayıl kimdir?" sorğusunu araya sürdükdə onun tarixsəl bir şəxsiyyət olduğuna şübhə etmək olmayır. O böyük arif, din alimi, şair və bahadır olduğu halda bir hökmdardır. Şah İsmayıl Səfəvilər sülaləsində olan padşahlığın qurucusudur. Şübhəsiz, bu hərtərəflilik sağlam tərbiyə, dərin zəkavət, ari inam, böyük bacarıq nəticəsində olmuşdur. Şah İsmayıl bir hökmdar olduğu üçün onun yaşayışı haqqında bir çox tarixsəl sənədlərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olduğu isə apaydındır. Elə həmin sənədlərə dayansaq, Şah İsmayılın nə sayaq doğulması, haralarda yaşayıb böyüməsi, hökmdarlığa çatması, hökumət sürməsi və nəhayətdə dünyamızdan köçməsi barədə azma-çox bilgi sahibi olarıq" (90, 230). Səfəviliyin və Şah Xətainin özünün şiə yox, məhz sufi dünyagörüşünə sahib olması danılmaz bir həqiqətdir. Şah Xətai şəriətin haram bildiyi saza, musiqiyə dərindən bağlı idi. O, sarayında dərvişlərə xüsusi hücrələr ayırır, zikr və başqa rituallar üçün təkyələr saxlayırdı. Ümumiyyətlə, türklərdə məzhəbçilikdən daha çox təriqətçiliyin – təsəvvüfün geniş rəğbət qazanması danılmaz bir faktdır. Türkiyəli alim Prof.Dr. Ethem Ruhi Fığlalı yazır: "Türklərdə Ələviliyin mənşəyi məsələsində bunları ifadə etməliyik ki, türklər İslam kültür çevrəsinə girdiklərindən etibarən tamamən sünni anlayışını mənimsəmiş olmalarına rəğmən, əsas etibarilə Hz. Məhəmməd (s.ə.v.) və Əhli-Beyt sevgisini ön planda tutan sufilik cərəyanının qüvvətli təsiri altında qalmışdılar" (117, 247).

Bəli, Səfəvilər İmperiyası dini dövlət deyildi. Zahirdə İslam üləması dövlət işlərində müəyyən qədər iştirak etsə də, bu dövlətin əsasını məhz ürfani dəyərlərə sahib olan təsəvvüf ideologiyası təşkil edirdi. Tarixçilərin bu məqamdakı yalnış yanaşma tərzi çoxlu faktların və hadisələrin təhrif olunmasına gətirib çıxarmışdır. Lakin, tanınmış şərqşünas alim Triminqemin "İslamda sufi ordenləri" əsərində oxuyuruq: "İmamlar kimi, sufi böyükləri də ezoterik bilgilərə sahib idilər. Lakin imamlardan fərqli olaraq, onlar həmin bilgiləri genoloji yolla deyil, ruhani ötürmə ilə, ruhani xətlə alırdılar" (161,115). Buradan da aydın görünür ki, Şah Xətainin öz dövründə həm hakimiyyət, həm də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təkyə-orden statusu, çoxlarının bəyan etdiyi kimi, nəsildən-nəslə deyil, məhz təsəvvüfdə nəzəri əsaslara malik olan ruhani ötürmə yolu ilə keçmişdi. Şiəlikdə isə bu belə deyildi. İmamlığın ötürülməsi məhz genoloji faktora söykənirdi. Necə ki, Şah Xətaidən sonra siyasi hakimiyyət oğlu Təhmasibə keçsə də, mənəvi-ruhani hakimiyyət başqalarına – yəni, təsəvvüf elminin daşıyıcıları olan batini-nihan dərvişlərə, övliyalara keçdi. Qısaca da olsa, bir məsələyə toxunmaq yerinə düşərdi ki, sufiliyin şiəliklə əvəz olunması, yəni, təriqətdən şəriətə qayıdış XVIII əsrdə Şah Abbas Səfəvi zamanında baş verdi. Elə Şah Abbasa qədər də bu proses Şah Xətainin ölümündən sonra başlamışdı. Belə demək mümkünsə, xalqın əlindən sazı alıb, yerinə "şaxsey zənciri" verdilər. Elə bu dövrdə də dövlət dili yenidən qayıdıb fars dili oldu. Bunun məntiqi davamı olaraq da Səfəvilər Dövlətinin paytaxtı Təbrizdən fars mədəniyyətinin göbəyi olan İsfahana köçürüldü. Bu, nəinki Azərbaycan türklərinin, eləcə də bütün Türk dünyasının tarixində faciəvi bir proses olmuşdur. Məhz bu baxımdan yanaşdıqda, Şah Xətai dövrünü Türk dünyasının qızıl dövrü adlandırmaq olar. Məhz Şah Xətai şəxsiyyətinin əzəməti ilə Türk xalq təsəvvüfü, Türk ürfani mənəviyyatı bu günə qədər də görünməmiş bir kulminasiya nöqtəsinə çatdı. Daha mütəsəvvüf və ariflərə mücadilə verərək, saray əxlaqına qarşı çıxaraq, xalqın öz dilində, öz ruhunda ilahi həqiqətləri bəyan etməyə gərək yox idi. Bu proses sarayın özündən başladı. Şah özü ana dilində, heca vəznində şeirlər yazmağa başladı. Özü saz çaldı, Haqqın hikmət və ürfan sirlərini öz sadə və şirin dilində bütün xalqa əzbərlətdirdi. O, istəsəydi, klassik üslubda, fars dilində əzəmətli divan bağlaya bilərdi. Öz sələfləri kimi, o da dərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təsəvvüf terminləri, sufi istilahları ilə dolu qəsidə və məsnəvilər yazardı. Lakin o, bunu etmədi. O, sübut etdi ki, İlahi hikmətlərin ən dərinlərini, ən qəlizlərini sadə xalqın dilində çox gözəl bir şəkildə ifadə etmək olar. O, bunu şəxsən özü etdi və beləliklə də, çoxlarına qol-qanad verərək, ilham qaynağı oldu. C.Sadıqoğlunun "Azərbaycan təsəvvüfü tarixində "Səfəviyyə" və onun Xətai yaradıcılığında yeri" adlı məqaləsində oxuyuruq: "Gözəlliyə səmimi bir münasibət və sevgidən məqsəd aşiqin batinini – mənəvi aləmini, hiss və duyğularını kamala çatdırmaq, onu müdrik, arif bir insan səviyyəsinə qaldırmaqdır. Xətaidə kamil gözəllik – "cəmali-mütləq"dir. Bu məhfum batini görüşlərini əks etdirən bir istilah kimi bütün panteist şeirində işlənmişdir. "Cəmali-mütləq"i, yəni kamil gözəlliyi bütün cəhətləri ilə dərk edən insan da aşiqi-kamil, daha doğrusu, "aşiqi-mütləq", yaxud "sahibi-pürkamal"dır. Başqa panteistlərdə olduğu kimi, Xətai şeirində də batini təfəkkürə uyğun olaraq kamil gözəl-sevgili "cəmali-mütləq" – insan şəklində Allah səviyyəsinə ucaldığı kimi, kamil aşiq də ariflik, daxilini, mənəviyyatını kamilləşdirmək yolu ilə aşiqi-mütləqə, ilahi məqama yüksələ bilir" (85, 67-68).

Bu, çox möhtəşəm bir vəziyyətdir, analoqu olmayan bir tarixi dövrdür. Həqiqətən də tarix buna bənzərini bir daha görmədi.

Lakin, qeyd etmək lazımdır ki, aşıqlığa, eləcə də, ümumtürk ruhunun çox mühüm atributu olan saza meyl Şah Xətaidə birdənbirə yaranmamışdı. Məlumdur ki, Səfəvilik ideologiyası Şeyx Səfiəddin İshaq Ərdəbilidən gəlir. Bu ideoloji təlim özünəməxsus çalarları, yeni əsasları ilə bərabər xüsusi olaraq milli-mənəvi dəyərlərə meylli deyildi. Açığı, onlar da farsca yazır, divan ədəbiyyatının cazibəsi altında öz sələflərinin yolunu davam



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

etdirirdilər. Əlbəttə, Şeyx Səfi çox böyük bir türk oğlu idi. Möcüzələr, kəramətlər sahibi olan bu zat zamanının təsəvvüf ərbabı tərəfindən qütbi-övliya hesab olunurdu. Lakin onun təkyəsində oxunan kəlamlar, zikrlər ənənəvi olaraq, sufi musiqi alətləri olan neyin, tənburun, dəfin müşaiyəti ilə gerçəkləşirdi. Çünki, qadirilərdə də nemətullahilərdə də xəlvətilərdə də belə idi. Hətta uzun müddət təkyələrə tənburdan başqa heç bir musiqi aləti buraxılmadı. Tənbur ənənəsi çox qədimdən, Cavidan və Babək Xürrəmidin dövründən gəlir. Cünglərdə və təzkirələrdə Babəkin də tənbur çalaraq, zikr nəğmələri oxuduğu qeyd olunur. Şeyx Səfi təkyəsinin xürrəmilərlə əlaqəsi barədə Fəzlullah ibn Ruzbehxan Xunaci "Tarixi-aləmarayi-Əmini" əsərində yazır: "Şeyx Heydər müridlərinə Babək xürrəmilərinin dini qanunlarını, "ibahət" (qeyri-qanuni işləri qanuni saymaq – müəllif) inanclarını təlim edirdi" (163, 82). Əlbəttə, müəllifin bu məsələyə yanaşma tərzi birtərəfli və qərəzlidir. Fəzlullah Xunaci-nin xürrəmilərə də səfəvilərə də münasibəti ərəb və Osmanlı tarixçilərinin münasibətlərindən heç nə ilə fərqlənmir. Halbuki, dini hədislərdə biz başqa şeyə rast gəlirik: Türkiyəli İlahiyyatçı Abdullah Kahraman bu qeydləri edir: "Bu məsələdə Qəzzalini izləyən böyük İslam alimi, mütəsəvvüfü və hüquqçusu, Maliki məzhəbi müntəsibi İbn Ərəbi (543, 1148) olmuşdur. Ona görə, "Musiqi (ğina) alimlərin çoxuna görə könülləri coşduran bir əyləncədir. Bu əyləncənin haramlığına dair nə Quranda, nə də hədislərdə bir dəlil yoxdur. Hətta musiqinin mübah olduğunu göstərən dəlil belə vardır. Bu rəvayətə görə, Hz. Əbu Bəkr bir dəfə Hz.Ayişənin otağına girmiş və orada iki cariyənin şərqi söyləməkdə olduğunu görmüş və Hz.Ayişəni bu sözlərlə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

azarlamışdı: Allah Rəsulunun evində şeytan əməli!” Bu durumdan xəbərdar olan Hz. Peyğəmbər isə, “onlara ilişmə, ey Əbu Bəkr! Bu gün bayram günüdür” buyurmuşdu. Əgər musiqi haram olsaydı, Rəsulullahın evində icra edilməzdi. Hz. Əbu Bəkr gördüyü bu durumdan xoşlanmamış və buna qarşı çıxmışdı. Hz. Peyğımbər isə, könüllərin dincəlməsi xüsusunda müsamaha və icazət göstərərək onlara qarşı çıxmamışdır. Çünki hər könül, hər zaman ciddi vəziyyətdə olmaz” (57, 14).

Təriqət məktəblərində zikrin, semahın, şeirin, musiqinin istifadə olunması şəriət tərəfindən “ibahət” hesab olunurdu. Təbii ki, bu sıraya sufi musiqisinin aparıcı alətlərindən olan tənbur da daxil idi. Şərq xalqlarının estetik dəyərləri içərisində bu gün də özünə mühüm yer tutan bu musiqi aləti iki simli olub, mizrabsız çalınır (Lakin bu, indiki Türkiyədə ifa olunan və adına tənbur deyilən çoxsimli, uzun qollu musiqi aləti deyil). Tənbur uzun zaman müqəddəs və yeganə halal musiqi aləti sayılıb. Şah Xətai də Lahicanda, Gilanda olarkən tənbur çalarmış. Bu, Şeyx oğlu olaraq, onunçün bir təkyə ayini idi. “Anadolu Ələvi-Qızılbaş xalqları arasında geniş təbliğat və özəlliklə Hacı Bektaşdan sonra sonra Əli donunda Şah İsmayılın ortaya çıxarılışı kütlələrə çox təsir etdi” (165).

Lakin Şah Xətainin qısa, ancaq çox zəngin hadisələrlə dolu həyatında onun qədim Türk yurdu Göyçəyə gəlişi çox mühüm yerlərdən birini tutur. Göyçənin piri, ariflər arifi, zamanının ən böyük qütblərindən olan Miskin Abdalla görüşü ömrünün sonuna qədər gənc Şahın məfkurəsinə hakim kəsilmişdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O zamankı Göyçə mühiti belə bir şəxsiyyətin yetişməsində mühüm rol oynamışdır. Göyçənin adı müxtəlif mənbələrdə çəkilir və hər zaman paklıq, ucalıq simvolu olaraq xatırlanır.

Bizim düşüncələrimizə görə, məhz Miskin Abdalla baş tutan müqəddəs görüş nəticəsində Şah Xətai əlinə saz aldı. Bir şeyi də nəzərə almaq lazımdır ki, Şah İsmayılın doğulub böyüdüyü o zamankı Ərdəbil mühitində sazın mövcudluğu, hətta bu musiqi alətinin təriqətin içərisinə girişi məntiqi cəhətdən mümkün görünmürdü. Yerdə qalan tək ehtimal Şah Xətainin Göyçə səfərindən əldə etdiyi milli Azərbaycan sazıdır. Bu fikir hələlik nə tarixi baxımdan, nə də dastan yaradıcılığından gələn nümunələrlə təsdiq olunmur. Lakin nə tarixi nə də ədəbi mənbələr bu fikri inkar da etmir. Bir də vurğulamaq istərdik ki, Şah Xətainin saza bağlılığı barəsində yalnız müəyyən məntiqə söykənərək, yuxarıdakı fikri yürütmək olar. Lakin bəzi tədqiqatçıların fikirləri də maraq doğurur. Tanınmış el ağsaqqalı, fədakar folklor araşdırıcısı Abbas Vəfadağlının kitabında oxuyuruq: “Miskin Abdal məktəbinin qədim kökə malik olmasına şübhə ola bilməz... Bu məktəbin Xətaiyə təsiri öz izlərini açıq-aydın göstərir. Şah İsmayılın Miskin Abdala olan hüsn-rəğbətinə səbəb də bu cür keyfiyyətlərdən irəli gəlmişdir” (106, 168).

Beləliklə, Şah Xətainin saza, aşıqlığa vurğunluğu birinci növbətə onun öz təfəkkürünə mühüm milli çalarlar gətirdi. Məlumdur ki, bütün Şərq mənbələrində “saz” sözü ümumi musiqi aləti mənasında işlənmişdir. Bu gün də əksər Şərq xalqlarında bütün musiqi alətlərinə “saz” deyilir. Lakin öz şeirlərində Xətainin ifadə etdiyi “saz” kəlməsi məhz onun özünün də ifa etdiyi aşıq sazıdır. Çünki, Şah Xətai əksər şeirlərini məhz aşıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üslubunda yazırdı. O, başqa əsərlərində sazla bərabər digər musiqi alətlərinin də adını çəkir. Bu fakt bir daha subut edir ki, Şah Xətai məhz Azərbaycan sazından bəhs edir. Onun nüfuzlu simasında aşıqlıq ən dərin ürfani qaynaqlarla zənginləşdi. Tənburdan fərqli olaraq, sazdakı çoxcəhətli improvizə imkanları, gur tembr, coşqulu intonasiya məhz Azərbaycan-Türk təsəvvüfünə, bu bölgə insanına məxsus olan hal və zikr keyfiyyətlərinə artıqlaması ilə cavab verirdi. Nemətullahi, Qadiri, Mövləvi təkyələrindəki sakit musiqi, dinamikadan bir qədər uzaq olan zikr və hal keyfiyyətləri Qızılbaş sufilərinin simasında, sazın müdaxiləsi ilə şəklini dəyişərək, coşqulu və dinamik bir hal aldı. Bu məntiqi müstəvi ilə şeirlərin dili də, mahiyyəti də, fəlsəfi-ürfani cəsarəti də dəyişərək, ən yüksək mərtəbəyə yetişdi. Azərbaycan sufilərinin zikr və kəlam olaraq yazılmış şeirləri bütün təsəvvüf dünyasında yeni bir mərhələnin, yeni ürfani ənənənin əsasını qoydu. Bu möhtəşəm tarixi olay məhz Azərbaycan sazının, aşıqlığın əli ilə baş verdi. Təbiidir ki, burada türk ruhunun, islamiyyət öncəsi türk mənəviyyatının arxaik ünsürlərini görməmək mümkün deyildi. Məhz təsəvvüfün ilkin qaynaqları olaraq, qamlığın, şamanlığın bu nöqtədəki tarixi əhəmiyyəti danılmazdır. Prof. H.İsmayılov bu barədə yazır: "Ozan asketik inam daşıyıcısıdır. Ozanın davranışında qam elementləri müşahidə olunur. Xüsusilə ekstatik məqam elementləri oxşardır. Sonralar dərvişdə bunun qam sənətindən götürülməsi dərvişin şamanlaşması (dədənin qamlaşması) demək deyildir. Bu element (ekstaz) bütövlükdə həmin dövrdə (XII-XIII əsrlər) Şərqdə asketik dünyagörüşün geniş yayılması, qlobal xarakter alması ilə bağlıdır" (54, 37). Xətainin şeirlərindəki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təsəvvüf mətləbləri də o qədər dərin və cəsarətli idi ki, bunların hal və məqam olaraq bənzərinə yalnız Mənsur Həllacda, İmadəddin Nəsimidə rast gəlmək olur. Məsələn, Şah Xətai bir qəzəlində belə ifadələr işlədir:

***Yer yox ikən, göy yox ikən ta əzəldən var idim,***
***Gövhərin yekdanəsindən iləri pərgar idim..***
***Girdim Adəm cisminə, bir kimsə bilməz sirrimi,***
***Mən bu Beytullah içində ta əzəldən var idim....*** (89, 164)

Bu fikirlər çox dərin ürfani mətləblərdən xəbər verir. Bu qədər açıq və cəsarətli ifadə tərzi heç Mənsur Həllacda və Nəsimidə də mövcud deyil. Şah Xətaidən sonra bu ənənə Aşıq Ələsgərə qədər ümumtürk şifahi və yazılı ədəbiyyatında davam etdi. Məsələn, məşhur Anadolu şairi, mütəfəkkiri Yozqatlı Hüzninin şeirində oxuyuruq:

***Alemi-nasuttan yok iken nişan***
***Ademla nüshai-kübrada idim.***
***Enbiuni emri oldukta ferman***
***Talimi-ilimül-esmada idim... (127, 147).***

Bu, həmin fəlsəfədir ki, onu daha örtülü və ehtiyatlı şəkildə ifadə edən İmadəddin Nəsimini İslam şəriəti edama məhkum etdi. Lakin Şah Xətainin hakimiyyəti dövründə belə bir şəriət məhkəməsi, müsəlmansayağı inkivizisiya mövcud deyildi. Ürfan əhlinə, təsəvvüf ərbabına qarşı heç bir alim, müctəhid fitva verə bilmirdi.

Belə bir dövrdə geniş xalq kütlələri arasında təsəvvüf aşıqlarının və onların tərənnüm etdikləri ürfani dünyagörüşün nə dərəcədə geniş vüsət aldığını təsəvvür etmək çətin deyil. Şeirin, incəsənətin, musiqinin azad olduğunu və istedadlı bir xalqın bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəyərlərə yiyələndiyini düşündükdə, tarixin hansı bir dövlət quruluşuna şahid olduğuna və bu möhtəşəmliyi qoruyub saxlaya bilmədiyinə dərin təəssüf hissi keçirməmək olmur. Lakin bu ənənə sonralar gizli təkyələr halına keçərək, yaddaşlarda, məfkurələrdə yaşayaraq, nəsildən nəslə ötürülürdü. Xüsusilə də məkan amili burada çox mühüm rol oynadı. Qısa ömür sürən Şah İsmayıl Xətainin taxt-tacı oğlu Şah Təhmasibə qaldı. Lakin dünya tarixində ən uzun hökmranlıq sürənlərdən biri olan Təhmasib Xətainin mənəvi varisi ola bilmədi. Şah Təhmasib sadəcə siyasi hakimiyyətə gələ bildi. O, atası kimi xalqın "mürşidi-kamili", "dədəsi", "piri" olmadı. İndinin özündə də dərvişlər arasında (Təbriz, Maku və Anadolunun bir hissəsindəki Əhli-Həqlərdə) Şah Xətainin "nihan dərvişlər"ə yazıb bağışladığı "Divan" mövcuddur. Onu demək lazımdır ki, əvvəla, bu divandakı mətləblər ürfanın təriqət və mərifət mərhələləri üçün də yeni və batini idi. Bu divan yalnız Əhli-Həqlərə, yəni ürfanın "həqiqət" mərhələsində olanlara ünvanlanmışdı. Şah Xətainin zahiri şahlığı, yəni hökmdarlığı, taxt-tacı oğlu Təhmasibə, batini, könül şahlığı isə həmin batini, nihan dərvişlərə, Əhli-Həqlərə verildi. Bu, tarixi zərurətdən çox, İlahi təqdir idi. Xətai könüllər şahı idi. Onun şahlığı da Xətailiyi də əslində təsəvvüf sirlərini özündə ehtiva edirdi. "Şah" kəlməsi, qeyd olunduğu kimi, könüllər şahına isnad edilir. Əksər ürfan dahiləri də "Şah" olaraq çağrılıblar. Məsələn, Şah Fəzlullah Nəimi, Şah Nemətullah Vəli, Şah Qasim Ənvar və s. Bu zatların heç birisi, daşıdıqları "şah" ünvanına rəğmən zahiri taxt-tac sahibi olmayıblar. Şah Xətai də məhz onlar kimi, batini dünyanın şahı idi. Təsəvvüf aləmində maraqlı bir məqam mövcuddur: Hz. Məhəmməd (s.ə.v.)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“peyğəmbər”, Həzrət Əli (r.ə.) isə “şah” adlandırılır. Bu ideoloji fikir İslam şəriətində qətiyyən qəbul olunmur. Şah Xətai isə yazırdı:

***Şəriət yolunu Məhəmməd açdı,***
***Təriqət gülünü Şah Əli seçdi...*** (89, 342)

Buradakı “Şah” qətiyyən 4-cü xəlifə Əli ibn Əbu Talib deyil. Bu məhz aşiq və ariflərin vəsf etdiyi Əlidir ki, onu Xətai “şah” adlandırır. Bir haşiyə çıxaraq, Türk yazarı Salih Çiftin maraqlı fikirlərinə istinad etmək istərdik: “Sufilərin Hz. Əli və Əhli-Beyt yönümlü fikirlərinin qaynaqlarını təsbit etmənin ən əmin yolu təsəvvüfi mətnlərdən hərəkət etməkdir. Bu şəkildə ilk dönəmdən etibarən Hz. Əli ilə əlaqədar axtarılanları ortaya qoymaq və təhlil etmək surətiylə onların görüşlərinin təməl-ləriylə bağlı bəzi ip ucları əldə etmək ehtimalı mövcuddur” (170). Bu təsbit Şah İsmayıl Xətainin də məfkurəvi dünyasına şamil oluna bilər. Yəni, onun “Əli”si şəriətin, dinin yox, təsəvvüfün, eşqin “Əli”sidir.

“Xətai” kəlməsinə gəlincə isə, burada bəzi tarixi və digər yanlışlıqlar mövcuddur. Ehtimallara görə, Şah Xətai Kərbəla şəhidi Hürrün qəbrini açaraq xəta etmiş və təxəllüsü, yəni “Xətai”ni özünə götürmüşdür. Səhv, günah anlamında işlənən “xəta” sözü ərəb əlifbasında dəstəli “ta” hərfi ilə yazılır. Halbuki, Xətainin adı əksər mənbələrdə nöqtəli “te” hərfi ilə yazılmışdır. Bu formada yazılan “xəta” sözü isə heç bir dildə konkret məna ifadə etmir. Yalnız əbcəd hesabı ilə “Xəta” (nöqtəli “te” hərfi ilə) sözü 1001 edir ki, bu da Allahın min bir adına işarədir.

Bütün bu deyilənlər onu sübut edir ki, Şah Xətai öz zamanına sığmayan, şəxsiyyətinin ömrü qurduğu dövlətin öm-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ründən qat-qat uzun olan möhtəşəm bir zatdır. Bu imperiyanın daha böyük mənəvi təsir arealından bəhs edən A.Mirzə yazır: "Səfəvilərin Nadir şaha kimi Dərbənddə yürüşləri həm də mədəni axınlar, saz, söz axınları, "mədəni deportasiyalar"la diqqəti cəlb edir. Müşkürün, Bayatın, Ovşarın bu mədəni axınlar zəminində yaranması, sufi görüşlü aşıqların, xüsusən, Şah Xətai təriqəti daşıyıcılarının Dərbənd ətrafında yerləşdirilməsi əvvəl siyasi, sonrakı mərhələlərdə isə öz milli-mənəvi əhəmiyyəti ilə yadda qaldı" (123, 76). Onun qurduğu İmperiya indi mövcud deyil. Lakin qurduğu mənəvi-fəlsəfi "imperiya" mövcudluğunu hələ də sürdürür. Çoxları bunu Xətainin şairliyi ilə əlaqələndirirlər. Yəni, Xətaini əbədi yaşadan onun yaratdığı bədii sənət nümunələridir. Bu, doğrudur. Lakin Şah Xətai məfkurəsi, onun özünün də mənsub olduğu ürfani çevrə, təsəvvüf dünyası Şeyx oğlu İsmayılı yaşadan ən önəmli faktordur. Cənubi Azərbaycanın və Anadolunun böyük bir hissəsini özünə məskən etmiş Xətaiçi-Şahsevən dərvişlərin sayı bu gün milyonlarladır. Onlar Şah Xətai ideyalarını, dolayısı ilə ürfan və təsəvvüfü sazla, aşıqlıqla geniş tərənnüm edir, yaşadırlar. Təbrizdən Makuya qədər uzanan Şahsevən elləri demək olar ki, əqidə etibarilə, zahiri əlamətlərlə belə Əhli-Həqdirlər. Onlar həmin nihan dərvişlərdir ki, Şah Xətai onlara gizli "Divan" əmanət etmişdir. Bu gün Əhli-Həqq cəmxanalarında həmin gizli divan ritual olaraq, kəlam havaları kimi oxunur. Əhli-Həqq aşıqları xalqın içində Şah Xətainin ürfani şeirlərini çalıb çağırırlar. N.Xəlilovun qeydlərində oxuyuruq: "Artıq XV əsrin sonu XVI əsrin əvvəllərindən başlayaraq saza olan güclü maraq diqqəti daha artıq cəlb eyləyir. Bu da yəqin ki, Şah İsmayıl Xətainin adı ilə bağlı olmuşdur. Şah



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsmayıl dövründə artıq, din xadimləri saza qarşı açıq şəkildə hücum edə bilmirdilər. Çünki Xətainin özü də saz çalırdı, sarayında aşıqlar, xanəndələr saxlayırdı” (49, 47). Bu gün Anadoluda Ələvi, Bektaşi adı ilə 20 milyona yaxın xətaiçi mövcuddur. Bu, Anadoluda, bəzilərinin yanlış ifadə etdiyi kimi, şiəliyin mövcudiyyəti deyil. Onlar məhz Oızılbaş sufiləridir. Onların Cəm evlərində saz – bağlama o qədər mühüm yer tutur ki, onu bu mətləbləri izah etmək yolunda heç nə ilə əvəz etmək mümkün deyil.

Anadolu şeiri geniş mənada təsəvvüf dünyagörüşünə söykənmədən öz mövcudiyyətini sürdürməmişdi.

Məşhur Anadolu şairi Əbdülfəttah Şahinin bir şeirində oxuyuruq:

***Bulanlar Hakkı buldu, buldular can içinde,***
***Kalanlar yolda kaldı, kaldılar zan içinde.***
***Arayan bular mutlak, miskine bulmak ırak,***
***Kuluna O son durak, gönülden han içinde*** (108, 45).

Ümumiyyətlə, Anadolu Ələviliyi, Bektaşiliyi Türk təsəvvüfünün ən möhtəşəm qollarından biridir. Tədqiqatçı alim A.Cəlilova yazır: “Azərbaycan aşıqları ilə yanaşı Anadolu aşıqlarının da təsəvvüfdən ilhamlanıb, ilahi eşqi tərənnüm edən şeirlərinə rast gəlirik. Aşıqların xalq içində hörmət-izzət sahibi olmasının, şeirlərinin dillər əzbəri olmasının, haqqında dastanlar qoşulmasının səbəbi onların sufi ədəb-ərkanına sahib və Allaha sidq ilə bağlanmaları, haqq-ədalət tərəfdarı olmaları ilə bağlıdır” (26, 43).

Teymurilər tərəfindən təqib olunan və nəhayət, bir cərəyan olaraq yox olmaq təhlükəsinə gəlib çıxan Hürufiliyin nümayən-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dələri də bir növ sufiyanə “təqiyyə” edərək (“təqiyyə” ərəb sözü olub, hər hansı bir mühüm təhlükə, eləcə də, ölüm təhlükəsi qarşısında dini və əqidəni gizlətməyə deyilir) ən çox Anadolu ərazisinə yayıldılar. Fakt ondan ibarətdir ki, bu gün dünya üzündə Hürufilik adlı bir cərəyan yoxdur. Tək-tək insanların daşıdıqları yarı elmi, yarı mənəvi əqidə yükünə və iddialara baxmayaraq, bu təriqət toplu halında, bir orden kimi mövcud deyil.

Anadolu Bektaşılıyi (və sonradan yaranan Ələvilik) nisbətən yumşaq, barışcıl təriqət kimi öz axıcılığı ilə seçilirdi. Türk xalq təsəvvüfünün ən nəhəng simalarından olan Hünkar Hacı Bektaş Vəli tərəfindən əsası qoyulan və sonradan onun adı ilə vücuda gələn bu sufi cərəyanı qeyri-aqressiv və tolerant bir təriqət olaraq, sanki öz sələfi olan Hürufiliyin faciəvi sonundan nəticə çıxarırmış kimi, rəvan və şairanə bir tərzdə bu gün də öz varlığını sürdürməkdədir. “Bütün bu ədəbiyyatda ehkamlara qarşı çıxmağı, şəriətə uymamağı yaxşının və pisin, imanın və inancsızlığın eşqə və sonunda coşqunluq halına, yəni vəcd halına və sevilən varlıqla birliyə yetişmək istəyini görürük” (175). Hacı Bektaş Vəlinin məşhur “Məqalat”ında oxuyuruq: **“O həyat verən əzəli Tanrı müjdələmişdir ki:**

**– Ey qullarım! Arzunuz cənnətdir ki, qoruyucusu Rizvan adlı mələkdir. O cənnət Rizvanın qoruyuculuğu ilə heç bir zaman xarab olmaz, sağlam qalar. Bunun qarşılığında mərifətli könüllərin qoruyucusu mənəm. Şeytanın ona qarşı zəfər qazanması mümkün olarmı? Zira mərifətli könüllər mənim xəzinəm və nəzərgahımdır”** (121, 54).

Bu təriqətin o dövrdəki əksər nümayəndələri Hürufilikdən Bektaşiliyə təbdil olmuş insanlar olsa da, onlar daha çox Şah



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xətaiyə və Qızılbaşlığa meylli idilər. Gülağ Öz yazır: “Bütün Anadolu ərənlərində olan həm ərmiş, dədə, öndər, həm də kütləvi hərəkatların liderləri olaraq qarşımıza gəlməkdədir. Anadolu ərəni dediyimiz şəxslər demək olar ki, eyni özəllikləri daşımaqdadırlar” (78, 267). Məsələn, Pir Sultan Abdalın şeirləri dillər əzbəri olaraq, ƏləviBektaşi təkyələrinin bəzəyinə çevrilmişdir:

***Koyun beni Hakk aşkına yanayım,***
***Dönen dönsün ben dönmezem yolumdan,***
***Yolumdan dönüp mahrum mu kalayım,***
***Dönen dönsün ben dönmezem yolumdan.***

Əgər İran (Cənubi Azərbaycan) Əhli-Həqlərində məşhur olan quyəndələr (“quyəndə” fars sözü olub, danışan, bəyan edən, Həqiqətin sirlərini mənzum və bədii estetik şəkildə təqdim edən şair, aşıq mənasını daşıyır) Aşıq Qurbani, Beyrək Quşçuoğlu idisə, Anadolu Bektaşi və Ələvilərinin məşhur ozanı Pir Sultan Abdal, Qul Nəsimi və digərləri idi. Ən çox da Pir Sultan Abdalın şeirləri Anadolu Cəm evlərində indi də sazla (bağlama ilə) oxunur, ilahilər altında “semah” edilir. Ələvilərin “semah”ı (“semah” ərəbcədən eşitmək, duymaq anlamına gələn, binası Şəms Təbrizi, Mövlana Rumi tərəfindən qoyulan trans, hal, ekstaz rəqsidir. Buradakı “eşitmək” feli bu rəqsi icra edərkən Haqqın, həqiqətin səsini duymaq anlamına gəlir) Mövləvilərinkindən fərqlənir. Türkiyəli araşdırmaçı Hüseyn Özcan Mövləvi təkyələrindəki semahlar və semazənlər haqqında bu qeydləri verir: “Semazənlər hər dönüşlərində Allah adını bir dəfə zikr edirlər. Seman əslində bir zikrdir. Allahın adını zikr etmə, yəni zikrullahdır. Əslindən varlığın başlanğıcından bəri kainatda qalaktikalar, dünya, günəş və b. hər şey içiçə keçmiş dairələr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəklində dönür, semah edirlər, sanki bu hərəkətləri ilə Yaradanı zikr edirlər.

Semazənlərin əllərinin duruş şəklinin mənası budur: Sağ əl niyaz (istək) məqamındadır. Haqdan almağı təmsil edir. Sol əl isə xalqa vermək mənasındadır, yəni Haqdan alıb xalqa verməyi təmsil edir.

Dörd dəfə salamlaşma var. Bu, eyni zamanda, Allaha yüksəlməyin dörd mərhələsidir: Şəriət, Təriqət, Mərifət, Həqiqət.

Şəriət dünyaya gəlmək, bilik əldə etmək və özünü qurtarmaqdır. Təriqət: Dürüst olaraq yaşamaq, "etdiyi bəzi xəta-lara tövbə edərək" Mərifət ağacının meyvəsini dərmək, ətrafına, ölkəsinə və insanlığa faydalı hala gəlməkdir. Həqiqət: Əbədi həyatda doğulmaq, insanlığın könlündə yaşamaqdaır" (79, 16).

Ümumiyyətlə, Anadolunun bütün dünyada məhşur olan Mövləvi təkyələri və Ələvi Cəm evləri fəlsəfi-ürfani təməllər baxımından bir-birinə bağlı olsalar da, şəkil və zahiri keyfiyyət baxımından bir-birlərindən çox fərqlənirlər. "Dəf, ney və səmazənlərin hərəkətlərinin anlatdıqları özəldir və dərin mənalıdır. Özəlliklə dönmə fikrindən çox təsirlənən Mövlana semahın ilham altında dönən mənzillər və kainatlar, dəyirman daşı və çarxına bağlı mükəmməl bir simvolizm ortaya qoymaqdadır" (169).

Ələvilərin semahı isə məhz sazla baş tutur. Türkiyəli araşdırmaçı alim Vahid Lütfü Salçı Ələvi Cəm evlərindəki semah ayinini belə təsvir edir:

"Semah başlamaq zamanını məhəbbətin, yəni o cəmin ən dini ulusu olan mürşid əmr edər. Semah oyunlarının ağır, orta və sürətli hərəkətləri vardır. Əvvəldə ağır hərəkətli semah nəfəsləri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sazlarla bərabər söylənir. Bunlar nə qədər ağır hərəkətli olsalar, yenə də "oturaq" nəfəslərdən daha oynaqdır" (129, 504).

Semahlar belə demək mümkünsə, şeir olaraq yazılmayıb. Yəni müəllif burada şair deyil, məhz yuxarıda da qeyd etdiyimiz kimi, quyəndədir. Bu parçalar məhz sazla oxunmaq üçün və semah etmək üçün yazılır. Başqa bir Anadolu ozanı olan Aşıq Yoxsul Dərvişin bir şeirinə diqqət edək:

***Muhammed mescitte sohbet ederdi***
***Seksen günlük yoldan bir nara erdi***
***İmamı Alinin sesidir derdi***
***Aliyi Düldüle binerken gördüm... (110, 20)***

Göründüyü kimi, bu parça sırf musiqili, bir növ hekayət kimi yazılıb. Ənənəvi cəm evlərində bu tip parçalar isə bir qədər ağır, ləngərli və ağıvarı oxunur.

Şah Xətainin, Pir Sultan Abdalın, Qul Nəsiminin şeirləri, dediyimiz kimi, Ələvi Cəm evlərinin əsas atributlarıdır.

Müasir Bektaşı dərgahları dövrün, zamanın tələbinə uyğun, tolerant, sülhsevər və çağdaş bir biçimdə fəaliyyət göstərir. Türkiyənin bir çox tanınmış ozanları məhz Ələvilərdir. Hətta onların içərisində təriqətdə xüsusi mövqeyi və ruhani məqamı olanlar da vardır. Məsələn, məşhur aşıq Musa Eroğlu Cəm evində "postnişin" məqamındadır ("Postnişin" fars dilində "dəri üzərində oturan" deməkdir. Bu, xüsusi bir məqam, yüksək imtiyaz deməkdir. Əksər sufi təriqətlərində "postnişin" deyilən məqam vardır). Yaxud da tanınmış ozan Arif Sağ da öz sazı və səsi ilə 40 ilə yaxındır ki, Anadolu sufizminə xidmət edir. Bu sənətkarlar təkcə sənətləri ilə deyil, əqidə və ruhani mövqeləri ilə də şöhrət qazanmış ustadlardır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamının tanıdığı və sevdiyi məşhur ustad Aşıq Veysəl də Ələvi-Bektaşi dünyasının ən böyük tərənnümçülərindən biri idi.

Ümumiyyətlə, Anadolu Ələviliyinin ən bariz göstəricisi, xüsusilə yaradıcı aşıqlar və şairlərdir. Anadolu ozanlarından Derdlinin bir mənzuməsində oxuyuruq:

***Ey Dertli alemde biz şahi-diliz***
***Haktan hakikatten agahi-diliz***
***Tarıkıı esrara ervahi-diliz***
***İrşad olsak da bir olmasak da bir*** (130, 205) .

Müasir aşıqlardan məşhur Aşıq Məhzuni Şərif, Əli Əkbər Çiçək, Nəşət Ərtaş, Səbahat Akkiraz və başqalarının adları bütün dünyada məşhurdur. Çünki, Anadoludan Balkanlara, oradan da bütün Avropaya yayılan Ələvilik məhz bu ozanların əməyi və ilhamı sayəsində varlığını qoruyub saxlamışdır. Bu aşıq və şairlər daşıdıqları mənəviyyata, sahib olduqları əqidəyə baş vermiş, ona candan, könüldən bağlanmışlar. Müasir Anadolu aşıqlarından Aşıq Reyhani yazır:

***Nesimi erkan u ahkama uymuş,***
***Enelhak sırrını kendinde duymuş.***
***Bu maddi varlığı bir yana koymuş,***
***Var senden içeri bir nerde gizli...*** (115, 134).

Təəssüf ki, Şah Xətai, Abbas Tufarqanlı, Dirili Qurban və nəhayət, Aşıq Ələsgər kimi ən yüksək məqama malik sələfləri olan çağdaş Azərbaycan aşıq sənətində biz belə bir ənənənin davamını görmürük. Həmin mənəvi əlaqə və ruhani bağ qırılmışdır.

Beləliklə, verilən izahlardan da məlum olur ki, Anadolu Ələviliyi həm Qızılbaşlığın, həm də Hürufiliyin mənəvi davamıdır. Fəlsəfi və siyasi cəhətdən öz aktuallığını xeyli itirən bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Türk təriqətləri Ələvi-Bektaşiliyin simasında öz varlığını bu tərzdə sürdürməli oldu. Bu, tarixi bir gerçəklik idi. Tərəqqilər və tənəzzüllərlə zəngin olan Türk təsəvvüf tarixinin ən qalıcı və yaşarı qollarından olan Ələvi-Bektaşiliyin yaşaması birbaşa saza və aşıqlığa bağlıdır, desək, yəqin ki, yanılmarıq. Təsəvvür etmək çətin deyil ki, böyük bir ərazidə bu gün də mövcudiyyətini ləyaqətlə davam etdirən ürfani bir cərəyanın mühərriki olan aşıq və saz gerçəkliyi nə dərəcədə müəzzəm və müqəddəs bir məqama, nə qədər güclü və tükənməz bir enerjiyə sahibdir. Tarixi əlaqənin, mənəvi bağın, ruhani irtibatın qırılmaması bu deməkdir. Bu ənənə bu cür də davam edəcək. Çünki milli və mənəvi dəyərlərini qoruyub saxlamaqla yanaşı, eyni zamanda həddindən artıq açıq fikirli, çağdaş və modern olan Anadolu Bektaşi-Ələvi, saz-aşıq ənənəsi xalqla birbaşa ünsiyyətdədir. Anadolu Ələvi-Bektaşiliyi məhz bu baxımdan Türk xalq təsəvvüfünün ən bariz və ən gerçək nümunəsidir. Siyasi axınlara, tarixi-fəlsəfi təbəddülatlara rəğmən, öz əsilliyini qoruyub saxlamaq, yalnız xalqla yaxınlaşma və toplumun sevimlisi olma hesabına mümkündür. Biz bunu Anadolu Ələvilərinin, Bektaşilərinin, bu əqidəni daşıyan aşıq və şairlərin simasında aydın şəkildə görməkdəyik. Təsəvvüf ənənələrini aşıq sənətində yaşatmaq ləyaqəti bu gün məhz Anadolu ozanlarına məxsusdur.

## Əhli-Həqq təriqətinin Azərbaycan aşıq yaradıcılığına bəzi təsirləri

Aşıq yaradıcılığına güclü təsir edən təsəvvüf ənənələrindən biri də müasir İran ərazisində daha geniş intişar tapmış məşhur Əhli-Həqq zümrəsidir. Adını”Haqq əhli”, “həqiqət insanları”



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mənalarından götürən bu möhtəşəm cərəyan təqribən XIV əsrin sonu XV əsrin əvvəllərində yaranmışdır. Bu məktəbin yaranışı yarıməfsanəvi olaylarla tarixə düşmüşdür. Bunun səbəbi isə Əhli-Həqlərin bu günə qədər çox hissəsini gizli saxladıqları əqidə və inancları, yalnız Əhli-Həqlərin üzünə açıq olan xanəgahları və bu günə qədər Əhli-Həqq olmayan heç kimin doğru-dürüst oxuyub başa çıxa bilmədikləri kitablarıdır.

Əfsanəyə görə, İranın Cənub Şərqində, Uramanat deyilən dağlarda Sultan Sahak (əsl deyimlə "Sultan İshaq") adlı bir zat zühur etmişdir. Özünü "Xudanın məzhəri" elan edərək, Həzrət Əlinin gizlin müridlərinə, o cümlədən, Həsənül-Bəsri və şagird-lərinə təlim etdiyi təriqət bilgiləri içərisində özünə yer alan vədini xatırlatmışdır. Bu vədə əsasən Həzrət Əli təyin olunmuş zamanda və müəyyən olunmuş məkanda həmin şəxsin bədənində zühur edəcəkdir. Həmin şəxs isə Sultan İshaqdır (Sultan Sahak). Bundan sonra onun yeddi "mələyi" müxtəlif məkanlardan onun yanına gələcək. "Ələst bəzmi"ndə qurulan ilk cəmxanə təkrar olaraq, Yer üzündə ilk dəfə Sultan Sahakın ətrafında qurularaq, Əhli-Həqliyin binası qoyulacaq. Bu qısa rəvayətlə, sayları bu gün on milyonu ötüb keçən Əhli-Həqq firqəsinin əsası qoyulur. Sonrakı hadisələr isə, gerçəkliyə tam uyğun olaraq bizə gəlib çatmışdır. Sultan Sahakın 11 oğlu olur. On bir övladdan isə on bir xanədan törəyir. Bu xanədanların sayca və nüfuzca ən böyükləri Çeltən (Oırxlar), Həftən (Yeddilər) və Ataşbəylidir. Bu xanədanlardan törəyən Əhli-Həqlərə "Tayfa" deyilir. Əhli-Həqq, onların öz təbiri ilə desək, "yadlarla" evlənə bilməz. Beləliklə, Əhli-Həqq xanədanı böyüyür və hər doğulan körpə artıq "tayfa" hesab olunur. Əgər bir Əhli-Həq "yad"la ailə qurarsa, o zaman



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həmin “yad” öncə xanədana “baş verməlidir”. Bu ayinin, yəni “baş vermə”nin adı fars dilində “sər sopordeqan”dır (yəni başını tapşıranlar). Simvolik olaraq, baş verərkən, yerində qırmızı qan qaldığı üçün, Qızılbaş sufilərinin adının bir ehtimalı da buradan götürülmüşdür (digər bir ehtimala görə, qızılbaşlar on iki imamın eşqinə papaqlarına on iki qırmızı çalma bağladıqları üçün onlara “qızılbaş” deyilmişdir. Lakin bu fikir şiə şəriətinə məxsus olduğu üçün sufilərə bunu aid etmək bir qədər mübahisəlidir).

Ənənəvi olaraq, iki cür Əhli-Həq mövcuddur. Bunlardan birinə “çəkidə”, digərinə “çəspidə” deyilir. Çəkidə farsca “dammaq”, “damızmaq” mənasındadır. Bu tayfalar atadan-babadan, yəni nəsildən damaraq gəlmişlər. “Çəspidə” isə, “yapışma”, sonradan gəlmə, sonradan qoşulma anlamındadır ki, bu Əhli-Həqlərin sayı həddidən artıq azdır.

Azərbaycan Səfəvilər Dövlətinin banisi Şah İsmayıl Xətainin Əhli-Həqlərlə bağlılığı barədə müxtəlif gizli məqamlar mövcuddur. Xətainin fikirləri, başqa sufi təriqətlərindən məzmun və forma etibarilə xeyli fərqlənən dünyagörüşü, sazla bağlılığı Şah Xətainin sadəcə təriqət sufisi olduğuna şübhə yaradır. Bu fikrə uyğun olaraq, S.Xavərinin “Xətai poeziyasında təsəvvüf ideyası” adlı məqaləsində oxuyuruq: “Əgər Əhməd Yəsəvi poeziyasında müridə verilən əxlaq dərsləri içərisində ilahi dərgaha qovuşmağın yeganə vasitəsi kimi eşqə sadiqlik təbliğ olunursa, Yunus İmrədə ilahi dərgaha qovuşmuş salikin vüsal nəğmələri əsas yer tutursa, Şah İsmayıl Xətai poeziyasında mürşidə sadiqlik təriqətin əsas prinsipi kimi qabardılır. Çünki qızılbaşlıq yəsəvilikdən fərqli olaraq, həm də siyasi ideologiya idi” (48, 209-210). Xətainin babaları təriqət sufiləri idilər. Bu faktdır. Lakin,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xüsusi olaraq qeyd etmək lazımdır ki, Əhli-Həqlər təriqət əhli sayılmır. Bu mənada onlara "sufi" demək də bir qədər yanlışdır. Onlar Təriqət sufiliyini aşaraq, Mərifət qatından keçərək, Həqiqət məqamına yetişən, həm tarixi, həm də fəlsəfi baxımdan zəruri olan bir zümrədir. Xətainin fikirləri, məlum olduğu üzrə, fəlsəfi-ürfani baxımdan sələflərinin və müasirlərinin təsəvvüf dünyagörüşündən xeyli şəkildə fərqlənir. Onun çox məşhur olan iki beytinə diqqət edək:

***Həqin nüsxələrində bir bəyan var,***
***Müqərrər biliniz kim, qanə qan var...***
***Sana derəm, əya, ey mürşidi-Həq,***
***Günəşdən Əhli-Həq qatına əyan var...*** (89, 61)

Birinci beytdəki "Həq nüsxələri" ifadəsi birbaşa içində Quranın, İncilin, Tövratın, Zəburun, gəlmiş-keçmiş və gələcək bütün həqiqətlərin mövcud olduğu "Lövhi-Məhfuz"a işarədir. Bu həmin "Lövhi-Məhfuz"dur ki, Əhli-Həqlərin iddialarına əsasən, bu "kitab" onların əlindədir (bu kitabın Əhli-Həqq cərəyanındakı adı da bu günə qədər gizli tutulur).

İkinci beytdəki "Günəşdən Əhli-Həq qatına əyan var" misrası isə, bir çox başqa mətləblərdən xəbər verir. Burada məşhur Buddist və Atəşpərəst (və yaxud da Günəşə sitayiş edən Şəmsilər) əqidələrinin izləri görünür. Üstəlik "Əhli-Həqq" ifadəsinin burada ayrıca, termin olaraq, xüsusi isim kimi işlənməsi mətləbi bir az da dərinləşdirir. Ümumiyyətlə, Ələviyili, Qızılbaşlığı əski dini görüşlərlə, məsələn, şamanizmlə əlaqədə olduğunu görənlər də var. Yusif Yörükanın kitabında bunlara rast gəldik: "Şamanılğın xüsusiyyətlərini və onun alıb yürüdüyü istiqamətin hədəflərini izah etmək üçün içinə girmək və oradan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tarixin səsini dinləmək gərəkdir; görünəcəkdir ki, orada bir Türk məzhəbi olaraq, ümumiyyətlə Ələvilik adını verdiyimiz təşəkkülü görəcəyik" (135, 118).

Bəs, Şah Xətai Əhli-Həqliyə harada, kimlərin vasitəsilə varid olmuşdu? Bir az öncə adını çəkdiyimiz Əhli-Həqq xanədanlarından biri olan Çeltənin (Qırxların) adı da Şah Xətainin şeirlərində yad edilir:

***Qırxlar meydanına vardım,***
***Gəl bəri ey can, dedilər,***
***Salam verdim izzət ilə,***
***Gir, iştə meydan dedilər...*** (89, 359)

Çox maraqlıdır ki, Şah Xətai bir təriqət şeyxi, hətta məmləkət şahı ola-ola, adını üstüörtülü çəkdiyi Qırxlar cəminə mürid kimi, talib kimi gedirmiş. Zənnimizcə, bunlar həmin Əhli-Həqlərdir ki, Şəriətdən, Təriqətdən, Mərifətdən "keçən" Xətai Həqiqət məqamına varmaq üçün onların qapısına gedirdi. İrəlidə Miskin Abdalla bağlı bəhs edəcəyimiz hissədə bu məsələyə bir də qayıdacağıq.

Əhli-Həqlər, əldə olunan şifahi və yazılı mənbələrə əsasən, əvvəllər tam olaraq şeirlərini, zikrlərini, kəlamlarını "goran" dilində yazarmışlar. Bu dil fars, kürd, lor, bir az da türk sözlərinin qarışığından ibarət bir ləhcədir və indi də mövcuddur. Əhli-Həqlər çox zaman elə "goran" adlanır. Bəzi ehtimallara görə, "goran" sözü türkcədəki "görən" (bilən, anlayan, qeybi, həqiqəti görən) mənasında olan sözün təhrif olunmuş formasıdır.

İlk dəfə türk dilində (Azərbaycan türkcəsində) Əhli-Həqq kəlamları XV əsrin sonu, XVI əsrin əvvəllərində yaşamış təbrizli məşhur şair və quyəndə Beyrək Quşçuoğluna məxsusdur. Əlbəttə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ki, Şah Xətainin şeirləri Əhli-Həqq kəlamları sayıla bilməz. Çünki kəlam deyilən anlayış Əhli-Həqlər üçün sırf cəmxanada oxunan və yalnız onların bələd olduğu sirli mətləbləri ifadə edən şeirlərdir. Xətainin əşarı isə öz zamanında da kütləvi şəkildə yayılmışdı.

Beyrək Quşçuoğlu sırf cəmxana üçün kəlam yazırdı (Şəriətdə məscid, Təriqətdə xanəgah, təkyə, Həqiqətdə isə cəmxana kimi ünvanlanan məkanlar forma və məzmun etibarilə bir-birindən ayrılır).

Quşçuoğlunun bir kəlamı çox diqqətəlayiqdir:

***Padşahım o donda ikən,***
***Saf goranı söylərdi..***
***Şükr, bu dona gələli***
***Türkü göftara çəkdilər...***

(bu kəlam Əhli-Həqlərin dilindən söylənilmişdir və ona yazılı mənbələrdə hələ ki, rast gələ bilməmişik)

Bu dörd misrada o qədər mətləb yatır ki, onları izah və təhlil etmək ayrıca bir mövzudur. Lakin, qısa şəkildə onu qeyd etmək olar ki, burada "donbadon"dan, yəni ruhlarin keçidindən, təbdilindən danışılır. Quşçuoğlu demək istəyir ki, əvvəlki bədəndə hülul etmiş Əhli-Həq şahı goran dilində danışırdı. Sonra isə şükr edir ki, bu bədəndə o, türk dilində danışır. Yəni, Beyrək Quşçuoğlu türk dilinin Əhli-Həq dünyasındakı varlığına sevinir. Bu, çox möhtəşəm bir hadisədir. Quşçuoğludan sonra Əhli-Həqlərin ənənəvi 24 quyəndəsi (şairi, kəlamxanı) əksəriyyətlə məhz türkcə (Azərbaycan türkcəsində) yazıb yaratmağa başladılar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beləliklə, Azərbaycan təsəvvüf tarixində daha bir əzəmətli cərəyan – Əhli-Həqlik yaranır. Miskin Abdal və Şah Xətai formulunun birbaşa nüfuzu və kəraməti nəticəsində Əhli-Həq dünyasının da özünüifadə vasitələrindən biri saz oldu. Təsadüfi deyil ki, indi Kirmanşah, Gərrəvan və digər Əhli-Həq cəmlərində tənbur çalınır, Cənubi Azərbaycan, o cümlədən, Təbriz, İlxıçı, Maku və digər ərazilərdəki “tayfalar” isə məhz Azərbaycan sazından ilham alaraq, ilahi sirləri bəyana gətirirlər. Elə bu məqamda saz haqqında məşhur bir Əhli-Həq inancını rəvayət halında nəzərə çatdırmaq istərdik. Güney Azərbaycanın Goran cəmxanalarından toplanan materiallar arasında bu əfsanə xüsusi yerə sahibdir. Nəql olunur ki, Allah-Təala Həzrəti Adəmin bədənini xəlq etdikdən sonra müqəddəs ruh (əksər təsəvvüf təriqətlərinə görə, Allah öz ruhunu Adəmin bədəninə üfürmüşdur) çirkinliklərlə – qanla, tərlə, nəfslə dolu o bədənə daxil ola bilmirdi. Bu zaman mələklərdən Cəbrayıl saz olub Adəmin qucağına düşdü. Digər mələk Mikayıl o sazın simlərinə döndü, İsrafil isə səsinə. Elə ilk mizrabdan Allahın ruhu məst olaraq, Həzrəti Adəmin bədəninə daxil oldu. O zamandan bəri saz əzəli müqəddəsliyin simvolu hesab edilir. Bu maraqlı əfsanəni hardasa təsdiq edən bir şeir parçası məşhur Molla Cümənin

***Aşıqlıq Adəmdən icad olubdur,***
***Ol Adəm atanın nəvəsiyəm mən*** (69, 66).

– qoşmasıdır. Yəqin ki, əlavə şərhə ehtiyac yoxdur.

Türkiyəli folklorçu Yaşar Kalafat Əhli-Həqlər barədə yazır:

“Əhli-Həqq Qaraqoyunlu Türkmən şəhəri İlxıçıda “təkiyə” – “təkyə bağı” vardır. Bu bağda Əhli-Həqq dərvişlər toplanırlar... Əhli-Həqq inanclarına görə, özlərindən olmayan müsəlmanlara



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Əhli-Şəriət deyilməkdədir. Hər vasitə ilə özlərinin Qaraqoyunlu olduqlarını bildirirlər. Qaraqoyunluluqla qürur duyarlar. Bunlardan bir qismi İlxıçıdan köçüb Xorasanın Dərəkəndinə getmişlər. Dərəkənd Əhli-Həqləri də türkcə danışırlar, aralarındakı əlaqəni davam etdirməklə, onlar da Qaraqoyunlu türkü olduqlarını unutmurlar" (122, 91). Bu izah bəsit görünsə də, özündə maraqlı məqamlar da daşıyır. Belə ki, Cənubi Azərbaycan ərazilərindən Xorasan tərəfə köçüb gedən Əhli-Həqlərin öz türklüklərini saxlaması çox mühüm nöqtədir. Bu ənənənin kökü əlbəttə ki, Şah Xətai zamanından gəlir. Milli ruhun saxlanılması, bir Türk olaraq Əhli-Həq olmaq, sufi olmaq məhz Şah Xətai, Miskin Abdal, Pir Sultan, Aşıq Qurbani, Beyrək Quşçuoğlu kimi ürfan böyüklərinin milliyyətçi duyğularının çağdaş təzahürüdür. Bu təzahür nümunələrinin ən güclüsü heç şübhəsiz ki, sazdır, aşıq sənətidir. Aşıqlıq, yuxarıda da qeyd etdiyimiz kimi, Türk xalq sufizminin, milli təsəvvüf ənənələrinin ən bariz daşıyıcısı sayıla bilər.

## Saz sənətinin Azərbaycan təsəvvüf dünyagörüşündəki mövqeyi

Azərbaycan sazının ifa xüsusiyyətləri, özündə yaşatdığı coşqu, temperament, dinamika məhz hal, trans və zikrlərdən yaranan vəcd halının nişanələridir.

Təəssüf ki, Azərbaycan sazının bu keyfiyyəti araşdırılıb ortaya qoyulmamışdır. Bu gün saz hələ də bir əyləncə, məclis, konsert aləti kimi meydandadır. Əlbəttə ki, saz bir musiqi alətidir. Həm də çox imkanlı, texniki ifa tərzi baxımından zəngin, tembr və intonasiya cəhətindən misilsiz bir incəsənət vasitəsidir. Sazin məclislərdə də, əyləncəli məkanlarda da, konsert salonları və efir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məkanlarında da yeri vardır. Milli mənəvi duyğuların təzahür forması kimi, xalqın çoxəsrlik mədəniyyətinin təbliğat vasitəsi kimi Azərbaycan sazı əvəzsiz əhəmiyyətə malikdir.

Lakin bizim məqsədimiz sazın və aşıq yaradıcılığının məhz bu günə qədər tədqiqat obyektindən kənarda qalan xüsusiyyətlərini, o cümlədən, ürfan və təsəvvüflə sıx bağlılığını araşdırmaqdır. Bu bağlılıq və əlaqə hardasa ikinci dərəcəli, diqqətdən kənarda qala biləcək, çox da vacib olmayan bir məsələ deyil. Bu məsələ məlum tarixi-fəlsəfi səbəblərdən bu günə qədər belə idi. Bu obyektiv səbəblər, yəni bir əsrə yaxın davam edən elmi ateizmin tüğyan etdiyi və bu təbliğat maşınının uzun bir müddət davam etdirdiyi təfəkkür tərzi təbii olaraq sazın və aşıq sənətinin min ilə yaxın davam edən bu mühüm keyfiyyətinin araşdırılmasına mane olmuşdur. Fəqət, müasir dövrün, müstəqil Cümhuriyyətin yaratdığı imkanlar bu günə qədər tədqiq olunmamış sahələrin araşdırılıb üzə çıxarılması üçün geniş imkanlar yaratmışdır.

Aşıq sənətinin ən mühüm atributu olan saz, sözdən də, nəfəsdən də, səsdən də artıq ürfani duyğuları əks etdirə bilən bir incəsənət ünsürüdür. Bunun əsas səbəbi sazın sələfləri olan qopuzun, çoğurun, tənburun hal, vəcd keyfiyyətlərini ən ümdə amil kimi özündə daşıması və bu keyfiyyətlərin sonradan saza ötürülməsidir. Bu, həmin məfhumu qüvvətləndirən xüsusiyyətləridir. Digər tərəfdən də, yuxarıda izahını verdiyimiz tarixi gerçəklərin yaratdığı amillər, Şah Xətai dövrü və ondan sonrakı Cənubi Azərbaycan və Anadoludakı təsəvvüf fəlsəfəsinin aşıq sənəti ilə qırılmaz əlaqəsi məhz sazın bir ürfani alət olduğu fikrini qətiləşdirməyə kifayət edir. Lakin onu da qeyd etmək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yerinə düşər ki, sazın hər hansı bir ruhani keyfiyyəti onun ifaçısının mənəvi dünyasından çox asılıdır. Belə ki, aşıq ürfan əhlidirsə, oxuduğu şeirlər ruhani mətləbləri özündə ehtiva edirsə, deməli, həmin saz da o keyfiyyətləri daşıyır. XX əsr Anadolu şairlərindən Ardanuçlu Aşıq Əfkarinin bir bəndi diqqətimizi çəkdi:

***Efkariyim göz yaşlarım silerim***
***Şimdi saz yerinde def de çalarım***
***Yaratan Mevlamdan huzur dilerim***
***Belki bir kusur var hicap eyledim*** (109, 133).

Bu misralar əqidə sahibi aşığın sənətkardan çox hal əhli, arif olduğunu göstərir.

Elə bu səbəbdən də çağdaş Azərbaycan aşıqlarının çoxəsrlik ürfani ənənədən bixəbərliyi, onların sənətinə də, yazdığı şeirlərə də, şəxsiyyətlərinə də, çaldıqları saza da güclü təsir göstərir. Buna görə də bu gün Azərbaycan sazı onun bətnində axtardığımız mətləbləri özündə əks etdirə bilmir.

Azərbaycan sazında ifa olunan havaların (xüsusilə qədim havaların) gerçək kimliyi məhz həmin ruhani qatlarda yatır. Təsadüfi deyil ki, sazda ifa olunan musiqilərə “mahnı” yox, məhz “hava” deyilir. “Hava” sözü bizim fikrimizcə, səmavi vəcd və hal mənalarını ifadə edir. Bir zamanlar semah rəqslərini müşaiyət etmək üçün çalınan sazda sənət, musiqi, nümayiş amilləri deyil, məhz hal, trans, zikr xüsusiyyətləri mövcud olmuşdur. Bizim düşüncələrimizə görə, “hava” sözü həm də bir növ “havalanmaq” mənasına uyğun gəlir. Belə “havalanmaq” təsəvvüfdə vəcd, övc, şiddətli hal pillələrini təşkil edən səmavi rəqslərin keyfiyyətlərindən biridir. Tədricən asta səsdən, yavaş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tempdən get-gedə yüksələn temperamentli dinamik inkişaf semah ayinlərinin əsas görüntülərindən biridir. Əlbəttə, çox uzun zamandır ki, biz Azərbaycan sazının bu xüsusiyyətləri daşıyan forma və ifa tərzinin şahidi olmuruq. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, sazın sələfləri olan çoğur, tənbur kimi musiqi alətlərinin məhz təkyə, hal, trans təyinatlı alətlər olduğunu bilirik. Bu alətlərdən saza keçid məsələsi də araşdırmaçılar tərəfindən kifayət qədər tədqiq olunmuş mövzudur. Nəzərə alsaq ki, tənbur musiqi aləti müxtəlif Şərq ölkələrində bu gün də məhz təriqət ünsürü kimi, fəaliyyətdədir, o zaman Azərbaycan sazının, məna, məzmun və təyinat baxımından nə qədər təhrifə uğrasa da, alt qatında məhz İlahi-ruhani dəyərlərin gizləndiyini anlamış oluruq. Bu məsələyə qüvvət verən ən güclü amil isə bu gün Anadolu ərazisindəki Cəm evlərində zikr, ekstaz musiqisinin öncülü olan bağlama – Anadolu sazıdır. Özü də bu musiqi aləti saz tipli alətlər içərisində istər forma, istər tembr, istərsə də digər müxtəlif cəhətlərdən Azərbaycan sazına ən yaxın olan musiqi alətidir. Halbuki, Azərbaycan sazı öz coşqulu tembri ilə bu alətlərin hamısından imkanlıdır. Öz texniki priyomlarının, çoxsəslilik prinsiplərinin köməyi ilə bu saz əsl ürfan tərənnümçüsüdür. Bu deyilənlərə əsaslanaraq, belə bir fikir yürütmək olar ki, tənbur da Anadolu bağlaması da "təriqətin", Azərbaycan sazı isə "həqiqətin" təmsilçisidir.

Musiqi alətlərinin inkişafını, fərqli ictimai təbəqə və zümrələri dolaşdığını, məzmun və forma etibarilə şəkildən-şəklə düşdüyünü inkar etmək olmaz. Sazın məhz həmin ilahi keyfiyyətlərinin özünə qaytarılması yəqin ki, tam olaraq mümkün ola bilən bir proses deyil. Onun təyinatını dəyişmək də mümkün



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

deyil. Bu, qarşısıalınmaz bir prosesdir. Lakin, ən azından müxtəlif fərdlərin timsalında, elmi-nəzəri şəkildə, hərtərəfli düşünülərək, Azərbaycan sazının bir zamanlar Şah Xətainin, Qurbaninin, Tufarqanlı Abbasın, Aşıq Ələsgərin qucağında olduğunu praktiki şəkildə xatırlatmaq olar. Çünki, məlum məsələdir ki, Aşıq Ələsgərin əlindəki saz indiki saz deyil. Quruluş, tembr etibarilə bu saz elə o sazdır. Sadəcə, Ələsgər ağlı, Abbas nuru, Qurbani sevgisi indi yoxdur. Bu əzəməti heç olmasa xatırlatmaq üçün aşıq sənətinin özəyi olan saz havalarının bətninə girib, onlara tamam başqa rakursdan baxmaq lazımdır.

Yuxarıda "hava" kəlməsi barədə bir neçə söz dedik. "Hava" həm də ruhani məstliyin təcəssümü ola bilər. Məstliyin zatında "mey" dayanır. Lakin bu mey bu günün anlayışları çərçivəsindəki mey deyil. Ürfani lüğətlərdə meyin öz tərifi vardır. Ürfani mənbələrdə tez-tez rast gəlinən "Ələst meyi" ifadəsi diqqətçəkəndir. Bildiyimiz kimi, "Ələst" kəlməsi Qurani-Kərimdən gələrək, "ilk gün", "yaradılışa niyyət olunan gün", "Allahın öz mələklərini imtahana çəkdiyi gün" kimi anlamlara gəlir. Aşıq Ələsgərin təsəvvüf görüşlərindən bəhs edəcəyimiz fəsildə ustad aşığın bu mövzuya müraciəti barədə geniş izahlar verəcəyik. Hələlik, onu demək olar ki, ariflərin işlətdiyi "Ələst günündə içilən mey" ifadəsi vəhdəti-vücüdun məstlik fazasını əks etdirir. Belə ki, əfsanəyə görə, Həzrəti Adəmə Axirəzzəman Peyğəmbərin Əhli-Beyti haqqında bu gün də gizli qalan bilgilər verilmişdir. Bu bilgilər meylə təşbeh edilərək, Həzrəti Adəmi məst etdiyi nəql olunur. "Mey" kəlməsi isə, ərəb əlifbasında "mim" və "yey" hərflərinin əbcəd hesabı ilə 14 rəqəmini göstərdiyi şəklində mənalandırılır. Bu isə on dörd məsum (Peyğəmbərin Əhli-Beyti



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

və məsum imamlar) haqqındakı gizlin bilgilərə işarədir. Bu mənada həm klassik ədəbiyyatda həm də aşıq poeziyasında tez-tez rast gəlinən "mey", "şərab", "badə", "saqi" sözləri əksər hallarda ürfani mənada, təsəvvüf terminləri olaraq işlədilmişdir.

Deyilənlərdən bu nəticəyə gəlmək olar ki, saz musiqilərinin məhz "hava" adlandırılması təsəvvüflə, ürfanla sıx bağlıdır. Azərbaycan sazının iddia etdiyimiz bu ruhani keyfiyyətləri təbii ki, onun səsində, ifasında yaşayır. Möcüzəli bir şəkildə qorunub saxlanılan və bu günə qədər gəlib çıxan saz havaları yalnız ruhani-İlahi bir maya sayəsində mövcudiyyətini sürdürə bilərdi. Əks təqdirdə ifaçı aşıqların ruhaniyyətlə müqayisədə zəif olan, aşağı səviyyəli təfəkkür tərzləri sayəsində bu havalar hətta öz melodik quruluşlarını belə itirə bilərdi. Məsələn, dərin və qədim bir saz havası üstündə yüngül, dayaz mahiyyətli şeirlər təbii olaraq, həmin havanın ruhani çəkisini xeyli azaldır. Tutaq ki, "Mənsuri" saz havası çalınmağa başlayanda insan səbirsizliklə bu dərin mənalı musiqinin üstündə hansı hikmətin oxunacağını gözlədiyi halda, birdən-birə bu havaya qətiyyən uyğun gəlməyən, ya məişət, ya da material, cismani məhəbbəti ifadə edən bir şeir oxunur. Sanki, bir az əvvəl çalınan hava bu deyildi. Bunun əsas səbəbi, şübhəsiz ki, ifaçı aşığın dayaz məfkurəsindən doğan yanaşma tərzidir.

Tarixi-fəlsəfi və ruhani silsilənin qırılması, ustad-şagird ardıcıllığının yalnız saz çalıb, şeir öyrənməkdən ibarət olması nəticədə uca dəyərlərin bu günümüzə gəlib çıxmamasına səbəb olmuşdur. Təəssüf ki, bu mənzərə Azərbaycanda daha da qabarıq şəkildədir. Qeyd etdiyimiz kimi, yaxın tarixi keçmişimizdə ustad-şagird ardıcıllığı təkcə sənət və şeir öyrənməkdən ibarət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olmayıb. Belə demək mümkünsə, ustad mürşid, şagird isə, mürid olmuşdur. Gəldiyimiz qənaətə görə, saz və aşıqlıq bir sənət olaraq yox, ürfani dəyərlərin ötürülməsinə xidmət edən bir vasitə olaraq mövcud olmuşdur. Ümumiyyətlə, "aşıq" və "aşiq" sözləri bir-birindən ayrı deyil və başqa-başqa mənaları ifadə etmir. Bu mənada indiki Anadoluda hər iki ifadə, daha doğrusu, hər iki anlayış eyni cür tələffüz olunur. Anadoluda "aşığ"a da "aşiq"ə də eyni tərzdə, "a" səsini uzatmaqla "aşık" deyilir. Onlar, xüsusilə də aşıqlardan bəhs edildikdə, cümlə içərisində elə tələffüz olunur ki, sanki sənətkar elə "aşiq"dir. Bu, çox gözəl bir mənzərədir. Fikrimizcə, bu deyim tərzi əslində elə qədimdən də bu cür olmuşdur. Bunu bu şəkildə də izah etmək olar ki, Anadoludakı aşıqlar, təbiri caizsə, elə aşiqdirlər. Bunun analoqu Azərbaycanda tez-tez istifadə olunan "Haqq aşığı" ifadəsidir. Qənaətimizcə, "Haqq aşığı" elə "Haqq aşiqi"dir, yəni, Allah aşiqi, sufi-dərvişdir. Ədəbiyyatşünas alim M.Allahmanlı böyük tatar şairi, ozanı Aşıq Ömər haqqındakı məqaləsində bu qeydləri edir: "Aşıq Ömər sözün həqiqi mənasında eşqin şərabını içən sənətkarlardandır. Haqq aşığı olmada isə eşqin şərabını içmə və ondan sonra haqq vergisinə yüklənmə var. Məhz xalq arasında dolaşan hekayətlər də bunu bir daha aydınlıqla əks etdirir. Klassik aşıqlarımızın bir qismi bu şərabı içməklə, bu haqqa sahib olmaqla müşkülləri keçmiş, öz sazı, sözü, ağlı, zəkası ilə ətrafdakılardan fərqlənə bilmişdir. Ona görə də bu sənətkarlar böyük sevgini də, qeyri-adilikləri də haqdan alırdı. Haqq aşıqı kimi xalqa haqdan mətləb qandırırdı" (3, 42).

Məna etibarilə çəkisini itirən şeylər özünü təkcə sözlərdə deyil, praktiki şeylərdə də göstərir. Təəssüf ki, Azərbaycanda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“aşıq-aşiq”liyin təkcə mahiyyəti deyil, eyni zamanda hədəfi də təhrifə uğramışdır. Lakin Miskin Abdaldan, Şah Xətaidən Aşıq Ələsgərə qədər davam edən ruhani-mistik ənənə və bu ənənənin təzahür şəkli olan şeir və dastan nümunələri bu sənətin fövqündə ilahi dəyərlərin, təsəvvüf və ürfan həqiqətlərinin yatdığını sübut edir. Bu danılmaz gerçəkliyi inkar etmək sadəcə, mümkün deyil. Əksinə, bu dəyərləri mümkün formada bərpa edib yaşatmaq bu mənəvi dəyərə qarşı çox böyük ehtiram deməkdir.

Saz havalarının fərqli bir şəkildə təhlili təsəvvüflə bağlı məsələlərin üzə çıxmasına yardım edər. Bəzi saz havalarının adları belə çox mətləblərdən xəbər verir. Lakin, bütün saz havalarının, xüsusilə qədim saz havalarının adlarının olduğu kimi qalması şübhəli məsələdir. Zaman içərisində baş verən tarixi-fəlsəfi təbəddülat, keşməkeşlər nəticəsində bu havaların adları dəyişilməyə bilməzdi. Çünki, fəlsəfi təfəkkür tərzi də dəyişilir. Məsələn, bizim şəxsi fikrimizə görə, tutaq ki, “Bəhməni” saz havasının qədimliyi, özündə ehtiva etdirdiyi dərin mənalı ruhani duyğularla bu havanın adı arasında tərs mütənasiblik mövcuddur. Yəni, bu hava çox sonralar kiminsə adı ilə adlanaraq, əsl məzmununu itirmişdir.

Saz havalarının başqa bir özəlliyi də mövcuddur. Məlumdur ki, janrından asılı olmayaraq, istər folklor, istərsə də professional musiqidə əsərin adı məsələsi ya bəstəçinin qoyduğu adla (əgər o, instrumental və ya orkestr əsəridirsə),  ya da (folklor və ya milli musiqi nümunəsidirsə) o musiqidə oxunan şeirin adı ilə adlanır. Yəni, məsələn, xalq mahnılarının adları ayrıcadır. Bu adlar o mahnıda oxunan şeirin adıdır. Amma, Azərbaycan saz hava-larında musiqinin ayrıca adı vardır. Həmin musiqi üstündə hansı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şeir oxunursa oxunsun, havanın adı eyni qalır. Bəlkə də elə buna görə aşıq musiqisi nümunələri "mahnı" yox, "hava" adlanır. Tutaq ki, Anadolu aşıq sənətində belə deyil. Ayrı-ayrı türkülər, hətta semahlar belə bu musiqilərdə oxunan şeirlərin adları ilə adlanır. Bu barədəki istisnalardan biri də Azərbaycan və İran muğam sənətidir. Burada da bənzər vəziyyət mövcuddur. Lakin qeyd edək ki, muğamat "dəsgah" halında olan, yəni proqramlı musiqidir. Həm də muğam adları onların lad xüsusiyyətlərini, tembr özəlliklərini təyin edir. Azərbaycan və İrandan başqa ölkələrdə isə (məsələn, Türkiyədə, Ərəb ölkələrində, Orta Asiyada, Hindistanda) muğamlar dəsgah halında deyil, şöbə və guşə halındadır. Onların adları isə daşıdıqları ladın, məqamın adı ilə bağlıdır. Məsələn, "Nəhavənd", "Hicaz", "Hüseyni", "Üşşaq" kimi muğamlar Azərbaycan və İranda şöbə və guşə olduqları halda, başqa ölkələrdə ayrıca muğam və məqam halındadır.

İzahlardan göründüyü kimi, Azərbaycan saz havalarının adları keyfiyyət və məna ünsürüdür. Elə bu fikirdən çıxış edərək, bir daha qeyd etmək istərdik ki, saz havalarının adlarının təhrifə uğraması mümkün olan bir şeydir.

Lakin elə saz havaları da var ki, onların adları, üzərində tədqiqat apardığımız mövzu baxımından müəyyən mülahizələr yürütməyə imkan verir. Belə saz havalarından biri məşhur "Ruhani" havasıdır. Bu möhtəşəm incəsənət abidəsi əsrlərdir ki, öz ağır, ləngərli və məhz ruhani ab-havasını qoruyub saxlayır. Bu saz havası bütün aşıqların (Azərbaycanın Qərb zonası və Cənubi Azərbaycan aşıqları daxil olmaqla) repertuarına daxil olsa da, hər aşıq bu havanı layiqincə ifa edə bilmir. Daha çox yaşlı aşıqların və solo saz ifası olaraq daha gənc və mahir saz ifaçılarının



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təqdim etdikləri "Ruhani" də fəlsəfi təbəddülatdan, yəni aşıq sənətində baş vermiş ürfani tənəzzüldən öz nəsibini almışdır. Bu saz havası da, bizim fikrimizcə, öz əsl mahiyyətini, əsl hədəfini və qayəsini itirmişdir. Zənnimizə görə, haqqında sadəcə "qəmli və hikmətli hava" deyilən "Ruhani" əslində qəmdən və hikmətdən çox, təsəvvüf və ürfan daşıyıcısıdır. Buradakı "qəm" anlayışı yəqin ki, əsl mahiyyətdən xəbərsiz olmaqdan doğur, "hikmət" isə bu havadan gələn ağır, təmkinli duyğulara şamil edilə bilər. Lakin xüsusilə vurğulamaq lazımdır ki, hikmətlə ürfan ayrı-ayrı şeylərdir. Hikmət əxlaqı, ağlın nəfsdən üstünlüyünü, qarşılıqlı ehtiramı və saysız-hesabsız bu cür insani keyfiyyətləri öyrədən bir elmdir. Ürfan isə ilahi eşqin insanlarda və nəsnələrdə təcəllasını göstərən, bu gerçəklərin dindən sonra gələn, din içində din kimi təsbit edilən mərifət elmidir. Bunlar çox fərqli anlayışlardır. Elmi ateizmin uzun bir müddət hakim olduğu məkan və məfkurələrdə dini-mistik, xüsusilə də ürfani dəyərlər diqqətdən kənarda qalmışdı. Bu səbəbdən də istər klassik yazılı ədəbiyyatda, istərsə də şifahi xalq yaradıcılığında tərənnüm edilən təsəvvüflə, ürfanla əlaqəli fikirlərin məhz hikmət olaraq qəbul edilməsi təbii bir haldır. Nümunə olaraq qeyd etmək olar ki, məsələn, Şərq klassikasının dahilərindən olan Sədi Şirazinin fəlsəfəsi hikmət elminə, Hafizin şeirləri isə ürfan elminə aiddir. Yaxud da ustad Aşıq Ələsgərin dini, əxlaqi mövzudakı şeirləri hikmət, təsəvvüf, İlahi eşq, hətta dini fundamentalistlər tərəfindən qətiyyətlə rədd edilən mədhiyyə və vəsfi-halları isə ürfani dəyərlər kateqoriyasına daxildir.

Yuxarıda adından bəhs etdiyimiz "Ruhani" saz havası bu anlamda daha qədimdə "Ürfani" adını daşıya bilərdi. Belə olduğu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təqdirdə bu havanın çalğı üslubu da bu hava üstündə oxunan şeirlərin məzmunu da fərqli mahiyyətə yönəlir. Üstəlik nəzərə alsaq ki, sazdan bir zamanlar təkyə və xanəgahlarda istifadə olunmuşdur, o zaman uzun kəlamların, zikrlərin pillə-pillə və dinamik şəkildə inkişaf edən semahların mövcudluğu bu cür saz havalarının daha uzun çalınıb oxunmasından xəbər verir. Ritual xarakterli bu keyfiyyətlərin tarixi daha qədimlərə – mifik düşüncə tərzinin mövcud olduğu zamanlara gedib çıxır. Bu barədə A.İslamzadə yazır: “Mif ritual hadisə olaraq avazın (musiqinin), sözün (bədii-epik ifadənin) və yaxud sözsüzlüyün (mimika və pantomimika) və rəqsin sinkretik əlamətlərini özündə cəmləyir ki, burada mif inanc mənbəyi kimi əsas səbəb rolunu oynayır, ritual ifadələnmə isə janr spesifikasını ortaya çıxarır (51, 500).

Yuxarıda qeyd etdiyimiz kimi, bu vəziyyət, yəni sazla kəlam oxuyub, semahlar etmək bu gün əksəriyyəti xətaiçi dərvişlər olan Anadolunun Cəm evlərində müşahidə edilməkdədir. Bu analogiyanı aparmaqda məqsədimiz odur ki, sazın və saz havalarının ürfanla, təsəvvüflə bağlılığı tarixdə qalmış, zamanı keçmiş bir şey deyil. Əksinə, biz bu dəyərlərə çox təəssüf ki, hələ də sahib çıxmamaqla milli mənəviyyatımızın çox mühüm bir atributunu get-gedə əldən veririk. Bu dəyərləri bərpa etməyin yeganə yolu bu məsələnin elmi-nəzəri konsepsiyasını hazırlayıb, xüsusi tədris formasında onu aşıq və sənətkarlarla paylaşmaqdır. Bu proses folklorçularla, sənətşünaslarla birlikdə reallaşmalıdır.

Yuxarıda qeyd etdiyimiz uzun havaların yoxluğunun ən ümdə səbəblərindən biri də sazın, aşıqlığın məkan dəyişdirməsi, yəni ruhani dairələrdən qopub, məclislərə, toylara, konsert



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

salonlarına düşməsidir. Bizim qənaətimizə görə, bu hal inkişafdan çox, mənəvi, məfkurəvi geriləmədir.

Saz havaları içərisində qədimliyi və dərinliyi ilə seçilən havalardan biri də el arasında "Mansırı" adı ilə məşhur olan havadır. Bəri başdan söyləmək istərdik ki, bizim fikrimizcə, bu havanın əsl adı "Mənsuri"dir. Yəni, "Ənəlhəq" kəlməsiylə dara çəkilib, tarixə düşən Hüseyn ibn Mənsur Həllacın adı ilə bağlıdır. Əlbəttə, bu fikir subyektiv kimi görünə bilər. Lakin üzərində tədqiqat apardığımız mövzunun kontekstindən baxdıqda bu qədim musiqi nümunəsinin daxili dinamikası, heç də hər kəsə tanış olmayan və hamının zövqünü oxşamayan intonasiya və melodik quruluşa malik olması "Mənsuri" saz havası haqqında ürfani duyğulardan çıxış edərək, fərqli fikirlər söyləməyə imkan verir. Burada başqa bir faktor isə, "Mənsuri"nin bənzəri olan və bu gün də müxtəlif sufi təkyələrində tənbur və saz ilə çalınıb oxunan zikr və kəlam havalarıdır. Bunların içərisində xüsusilə Nemətullahi və Qadiri təkyələrində, eyni zamanda Əhli-Həqq cəmlərində türkcə, goranca və Ərəb dilinin Cənubi İran (Bistam, Şüştər, və s. bölgələrdə işlənən) ləhcəsində oxunan "Baba-Tahiri", "Cilovşahi" havalarıdır. Bu musiqilər ümumşərq mədəniyyətinin cizgilərinə daxil olduqları üçün əsasən iki simli tənbur alətində çalınır. Məhz bu havaların quruluş, tembr və məzmun baxımından Azərbaycan saz havası olan "Mənsuri"yə həddindən artıq yaxın olması bu saz havasının qədim köklərindən və tarixi-fəlsəfi əlaqələrindən xəbər verir.

Ümumiyyətlə, bizim gəldiyimiz qənaətə görə, Azərbaycan saz havaları istər nəzəri, istərsə də ədəbi-bədii baxımdan ümumtürk və ümumşərq kontekstində araşdırılmalıdır. Bu mə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sələ ilə təəssüf ki, filoloqlar və musiqi nəzəriyyəçiləri çox az məşğul olmuşlar. Belə ki, Azərbaycan saz havalarının lad və tembr xüsusiyyətləri ayrıca tədqiq olunmalı mövzudur. Bu məsələyə qısaca rakurs edərək, bunları söyləyə bilərik ki, saz havaları böyük Üzeyir Hacıbəyov tərəfindən təsbit olunan və bütün müsəlman Şərqində qəbul edilən yeddi muğam ladı üzərində qurulmuşdur ("Lad" musiqi termini olub, hər hansı bir musiqi nümunəsinin səs düzümü, diapazonu və tembr xüsusiyyətləri ilə nəzəri forma, qəlib deməkdir). Ü.Hacıbəyovun bu kəşfi onun elmi-metodoloji kitabı olan "Azərbaycan xalq musiqisinin əsasları" əsərində özünə yer tapmışdır. Məlumdur ki, klassik Avropa və dünya musiqisi böyük Alman bəstəkarı İohan Sebastian Baxın YTK-sı (mənası "Yaxşı Temperasiya Olunmuş Klavir" deməkdir) əsasında iki əsas lad üzərində qurulmuşdur ki, bunlardan bir major, digəri minor ladlarıdır (əlbəttə, "qədim ladlar" deyilən və "pentatonika" adlanan lad sistemləri də mövcuddur. Lakin əsas etibarilə, klassik musiqi major və minor ladlarına istinad edir). Lakin dahi Üzeyir Hacıbəyov sübut etdi ki, Azərbaycan və Şərq musiqisi heç də Avropa ladları üzərində qurulmamışdır. Böyük nəzəriyyəçi bəstəkar dünya musiqisinə yenilik gətirərək, yeddi muğam ladını kəşf etdi. Həmin ladlar aşağıdakılardır:

1. Rast
2. Şur
3. Segah
4. Çahargah
5. Bayatı-Şiraz
6. Humayun



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

7. Şüştər

Göründüyü kimi, Ü.Hacıbəyov bu adları muğamların adlarından götürmüşdür. Yəni, Şərq muğam sistemi yeddi əsas, beş əlavə muğamdan ibarət olaraq, həmin ladlar üzərində qurulmuşdur. Bu sistem, eyni zamanda, Şərq musiqisinin bütün janrlarına, o cümlədən, mahnılara, rəqslərə və aşıq musiqisinə daxildir.

Azərbaycan aşıq havaları da həmin yeddi ladın üzərində qurulmuşdur. Qısaca olaraq onu qeyd etmək lazımdır ki, sazda mövcud olan 4 kök və bu kökdə çalınan havalar 7 laddan əsasən dördünü, yəni, "Rast"ı, "Şur"u, "Segah"ı və qismən "Bayatı-Şiraz"ı əhatə edir. 1-ci kökə, yəni do-do-si bemola "Şur", 2-ci kökə, yəni do-re-si bemola "Segah", 3-cü kökə, yəni do-mi-bemol-si bemola "Rast", 4-cü kökə, yəni do-fa-si bemola isə müxtəlif ladlar, əsasən də "Bayatı-Şıraz" aid edilir. Örnək olaraq göstərmək olar ki, məsələn, "Şur" ladında "Osmanlı divani", "Döşəmə Koroğlu", "Segah" ladında "Dilqəmi", "Yanıq Kərəmi", "Rast" ladında "Ruhani", "Orta Sarıtel" və "Bayatı-Şiraz" ladında (bu kökdə bəzən modulyasiya elementləri ilə "Şüştər" ladı da yaranır) isə "Misri", "Mansırı" havaları ifa olunur. 4-cü kök, yəni, "şah pərdə" kökü daha zəngin və qədimdir. Belə ki, bu kökdə "Segah" və "Şur" ladındakı havalar da ("Ovşarı", "Qaraçı" və s.) ifa olunur. Ümumiyyətlə isə, bu qədim kökdə bütün saz havalarını ifa etmək mümkündür. Məhz "şah pərdə" kökü deyilən do-fa-si bemol quruluşlu kök Şərq musiqisində və xüsusilə də, təsəvvüf musiqisində, tənburun, Anadolu bağlamasının çalındığı yerlərdə məşhurdur. Bu fakt bir daha onu göstərir ki, "Mənsuri", "Bəhməni", "Qaytarma" kimi çox qədim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

havaların çalındığı "şah pərdə" kökü məhz ürfan və təsəvvüf qaynaqlarını özündə ehtiva edən musiqilər üçün daha yararlıdır (buradakı "şah" kəlməsi də diqqətçəkəndir və bizcə təsadüfi deyil).

Bu qısa izah daha çox nəzəri məsələləri özündə əks etdirdiyi üçün onu çox uzatmırıq.

Beləliklə, məlum olur ki, sazın və saz havalarının təsəvvüf fəlsəfəsi ilə bağlılığı kifayət qədər ciddi məsələdir. Gələcək fəsillərdə aşıq poeziyasının, o cümlədən, ustad Aşıq Ələsgərin ürfani görüşlərini ifadə edən şeirlərinin təhlilində biz, ümumiyyətlə, aşıq yaradıcılığının təsəvvüf dəyərlərindən nə dərəcədə bəhrələndiyini izah etməyə çalışacağıq.

Bizə görə, vəhdət halında mövcud olan və sinkretik şəkildə öz funksiyasını yerinə yetirən aşıq sənətinin bütün çalarları ilə, hərtərəfli araşdırılması işində məhz təsəvvüf ənənələrinin rolunu tədqiq etmək bu məsələyə daha da aydınlıq gətirər. Bunun səbəbi isə, fikrimizcə, nəinki aşıq yaradıcılığının, ümumiyyətlə, incəsənətin və ədəbiyyatın bütün janrlarının təkcə bir nümayiş, əyləncə vasitəsi olmamasıdır. Bütün incəsənət növləri təbii olaraq öz bətnində dərin fəlsəfi çalarlar daşıyır. Əks təqdirdə onların yaranışı, hədəfi və missiyası mənasız və məzmunsuz qalardı. Bu da məlumdur ki, hələ əyləncənin, nümayişin, daha dəqiq ifadə etsək, sənətkarlığın, artistliyin aktual olmadığı dövrlərdə şeirin, musiqinin, rəqsin cəmiyyət içərisində xüsusi yeri olmuşdur. Sonradan sənət növünə, qazanc vasitəsinə çevrilən estetik dəyərlər bir zamanlar (elə indinin özündə də) ritual, mənəvi ehtiyacların ödənilməsi, hətta ibadət və paklaşma vasitəsi olmuşdur. Bu keyfiyyət, bu tarixi-fəlsəfi zəmin heç şübhəsiz ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aşıq sənətinə də şamil edilməlidir. Elə bu baxımdan da aşıq yaradıcılığına fərqli münasibətin və ona ürfani sistem çərçivəsində nəzər salmağın vaxtı gəlib çatmışdır. Bu sahədəki araşdırma və dəqiqləşdirmələr zənnimizcə, milli mənəviyyatımızın bu əvəzedilməz tərənnümçüsünə, yəni aşıq sənətinə olan münasibətin kütləvi şəkildə dəyişməsinə də səbəb ola bilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# II FƏSİL

# AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA ÜRFANİ DÜNYAGÖRÜŞ

## Təsəvvüf ənənələrinin təsiri

Şifahi xalq ədəbiyyatının mühüm istiqamətlərindən olan aşıq yaradıcılığı öz spesifikası, çoxcəhətli məzmun və mahiyyəti ilə Azərbaycan milli mənəviyyatının aparıcı qollarından biri hesab olunur. Milli yaddaşın bətnində yatan fəlsəfi struktur incəsənət və ədəbiyyat sferasında müxtəlif şəkillərdə özünü göstərmişdir. Xüsusilə musiqi və şeirin vəhdətindən yaranan incəsənət növlərində mövcud olan abstrakt və geniş imkanlara malik daxili quruluş, yaranma üslubu fəlsəfi, ürfani çalarların bu sahələrdəki təzahürünə geniş imkanlar açır. Ənənəvi Şərq ədəbi üslubu olan rəmz və batini mənaları ifadə edən zahiri istilahlar sistemi şifahi xalq yaradıcılığında və xüsusilə də, aşıq ədəbiyyatında uzun zaman istifadə olunmuşdur. Əlbəttə ki, simvolika və məcazlar sistemi klassik ədəbiyyatdan gəlir (Bu istilahları özündə əks etdirən xüsusi lüğətlər də mövcuddur. Onlardan ən məşhuru, adını əvvəldə də qeyd etdiyimiz, müəllifi bəlli olmayan "Mirati-üşşaq"dır ("Aşiqlər aynası")). Şərq klassik ədəbiyyatı öz bədii incəliyi və sənətkaranə möhtəşəmliyi ilə, eyni zamanda, fəlsəfi-təsəvvüf və hikmət elmi baxımından əslində müəyyən qədər elmi-nəzəri bazaya malikdir. Xüsusilə təsəvvüf və ürfan nəzəriyyəsi özünü – təzahür etdirdiyi ədəbi-bədii nümunələrə çevrilməzdən qabaq – ilk öncə bir yaşayış tərzi, sonra isə didaktik-yazılı bilgilər sistemi kimi mövcud olmuşdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əvvəlki abzaslarda müəyyən qədər izahını verdyimiz ruhani təkamül quruluşu, o cümlədən, Şəriət, Təriqət, Mərifət, Həqiqət mərhələləri, həmçinin ənənəvi yeddi təbəqədən ibarət olan Tələb, Eşq, Mərifət, İstiğna, Tovhid, Heyrət, Fəna anlayışları məhz məfkurə və yaşantı olaraq öz təsdiqini tapmışdır. Təsəvvüf ərbabı bu nəsnələri öz üzərində gerçəkləşdirərək, sonradan çətin bir keçid prosesi olan elmi-yazılı qaynaqlar yaratmağa başlamışlar. Əslində praktiki təsəvvüfü qəliblər halına salıb, yazıya almaq alim və mütəsəvvüflər üçün tam mənası ilə uğurlu bir iş hesab oluna bilməz. Belə ki, əksər alim və mütəsəvvüflər ürfani yaşantıdan müəyyən qədər uzaq olmuşlar. Onların təsəvvüfü sistem halına gətirən kitabları və elmi-nəzəri konsepsiyaları əsas etibarilə kənar rəğbətin və israrlı müşahidənin bəhrəsi olmuşdur.

Lakin ürfan və təsəvvüfün daha geniş, daha gerçək təzahür şəkli bədii ədəbiyyatda mümkün olmuşdur. Şeirin ehyam, rəmz, məcaz kimi keyfiyyət imkanları elmi ədəbiyyatla müqayisədə bəhs olunan fəlsəfənin düzgün təqdimatında daha uğurlu sayıla bilər. Həm də şairlər daha artıq hiss və həyəcan sahibləri olduqları üçün onların həmin ürfani keyfiyyətləri yaşamadan qələmə almaları mümkün görünmür. Həqiqətən də, əksər Şərq klassikləri, yəni şair mütəsəvvüflər özləri məhz ürfan ərbabı olmuşlar. Onların bəziləri hətta təsəvvüf ordenlərində xüsusi məqam və imtiyaz sahibi idilər. Xoca Əhməd Yəsəvi, Mövlana Cəlaləddin Rumi, Hafiz Şirazi və başqaları bu qəbildəndir. Bu ariflərin bədii yaradıcılığında bəzən üstüörtülü, bəzən isə tam açıq şəkildə təsəvvüfi mətləblər öz əksini tapmışdır. Lakin ürfan şairləri əsas etibarilə üstüörtülü məcazlar tərzinə üstünlük vermişlər. Bunun iki əsas səbəbi vardır: birincisi gizlədilən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mətləblər dövrün və zamanın fəlsəfi-ictimai və sosial-mənəvi tələblərinin bir qədər (bəzən də tam olaraq) xaricində idi. Elə buna görə də ürfan əhli olan şair və mütəsəvvüflər müasiri olduqları dini fundamentalistlər (şəriətçilər) tərəfindən ciddi fiziki və mənəvi təqiblərə məruz qalmışlar. İkincisi, ürfan şairlərinin yaradıcılığı və şəxsiyyəti, yuxarıda ruhani və məfkurəvi təkamül olaraq şərtləndirilən Şəriət, Təriqət, Mərifət və Həqiqət sisteminin Təriqət və Mərifət dairəsinə daxil idi. Bir az da dəqiqləşdirsək, Təriqət və Mərifət qatlarında ürfan əhli üçün hər zaman mütləq həqiqət sayılan mətləblər çox da aydın şəkildə ifadə olunmurdu. Bunun ən böyük örnəyi elə məhz rəmz və məcazlar sisteminə uyğun olaraq formalaşdırılan bədii sənət nümunələridir. Buradan belə nəticə çıxarmaq olar ki, gizli qalan bir çox mətləblər yalnız ruhani təkamülün Həqiqət qatında aşkara çıxa bilir. Elə adından da göründüyü kimi, "Həqiqət" mərhələsi məhz ilahi həqiqətləri özündə ehtiva edir. Bu fikirlər əlbəttə ki, əsrlər boyu təkmilləşib, çoxlu sayda arif və mütəsəvvüflər tərəfindən öz təsdiqini tapsa da, yenə də müəyyən qədər subyektivdir və bəlli zümrələrin əqidə sferasına daxildir.

Bütün bunlara rəğmən çoxəsrlik Şərq mədəniyyətinin aparıcı və tərkib hissəsi olan Azərbaycan klassik və şifahi xalq yaradıcılığı heç vəchlə ürfan və təsəvvüf dəyərlərindən ayrı sayıla bilməz. Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycan ürfani dünyagörüşü daha dinamik, daha cəsarətli məzmun və formaya malikdir. Həm yazılı klassik, həm də şifahi ədəbi nümunələrdə Azərbaycan mütəsəvvüfləri çox yüksək məna zirvələrini fəth edə bilmişlər. Azərbaycan ürfanının fərqli ünsürlərindən biri də odur ki, digər Şərq xalqlarındakı təsəvvüfi dairələrdə elitar mühit və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xalq təbəqələrindən ayrılıq Azərbaycan məkanında çox da nəzərə çarpmır. Belə ki, klassik şairlərlə, məsələn, xalq aşıqlarının bədii və fəlsəfi cəhətdən yaxınlığı elə xalq dilinin elitar təbəqəyə, saray əfkarının da kütlə psixologiyasına təmas etməsinə gətirib çıxarmışdır.

Xalqın mənəvi ehtiyaclarını ödəyən, xalqın diri qibləsinə, pənah yerinə çevrilən övliya-aşiqlər-aşıqlar mütləq olaraq təsəvvüf elminin daşıyıcıları idilər. Böyük arif Miskin Abdal, vilayət və eşq şahının aşiqi Abbas Tufarqanlı, öz müridliyi və sədaqəti ilə Əhli-Həq dünyasının dilinin əzbəri olan Dirili Qurban və nəhayət, Azərbaycanın hələlik son ürfan aşığı olan Aşıq Ələsgər məhz Azərbaycan xalq təsəvvüfünün layiqli təmsilçiləridir. Cəsarətlə söylədiyimiz bu fikir bir qədər subyektiv görünsə də, xalq təsəvvüfünün Azərbaycan variantı olaraq, başqa bir örnəyə də rast gəlmək mümkün deyil. Bədii yaradıcılıqlarındakı çoxcəhətli mövzu zənginliklərinə baxmayaraq, onların mənzum ifadə təzlərinin bətnində əsas etibarilə ürfan və təsəvvüf dayanır. Mövzu baxımından daha çox məhəbbət və gözəlliklərin vəsfindən ibarət olan klassik aşıq yaradıcılığı nümunələrindəki fəlsəfi simvolika məhz ruhaniyyətlə bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi, aşıqlar da məcazlar sistemindən geniş istifadə etmişlər. Onlar çox zaman zahiri məhəbbət, dünyəvi, insani sevgi hisslərini xatırladan şeirlərində batini olaraq, İlahi və irşadi cazibəni gizlətmişlər. Tutaq ki, gülə, sevgiliyə (hətta konkret adlarla müraciət etsələr belə) həsr olunmuş qoşma və gəraylılardakı məhəbbət elementləri əslində (əksər hallarda) həqiqi eşqi, yəni batini-ürfani mənbəni əks



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etdirir. Bu mənbə klassik Şərq fəlsəfəsindən gələn təsəvvüf nəzəriyyəsidir.

Təsəvvüf-aşıq məktəbinin layiqli davamçılarından biri və demək olar ki, sonuncu nümayəndəsi ustad Aşıq Ələsgərdir. Təsəvvüf və ürfan fəlsəfəsi baxımından Aşıq Ələsgər haqqındakı bu iddialı fikrimiz əlbəttə ki, ustad aşığın bədii yaradıcılığına əsaslanır. Aşıq Ələsgərin konkret olaraq hansı təsəvvüf məktəbinə daxil olması haqqında əlimizdə dəqiq məlumatlar yoxdur. Yəni onun hansısa bir sufi təriqətinin yolçusu olması hələ ki, bizimçün qaranlıq qalan bir məsələdir. Baxmayaraq ki, Aşıq Ələsgər yaxın bir tarixdə yaşamışdır, lakin onun bu məsələ ilə bağlı şəxsiyyəti və həyatı özündən çoxçox əvvəlki ariflərin və aşıqların tarixi siması qədər aydın deyil. Bizcə, bunun əsas səbəblərindən biri, həmin tarixi dövrün hadisələri və orta çağ klassik ürfan fəlsəfəsindən get-gedə uzaqlaşma amilidir. Yəni həmin dövr təsəvvüf dünyagörüşündən bir qədər uzaq yaşayan insanların yaşadığı bir dövr idi. Artıq Aşıq Ələsgərin zamanında "aşiqlik" "aşıq"lığa çevrilmişdi. Daha dəqiq ifadə etsək, övliya məqamlı mütəsəvvüf aşıqlar sənətkara, saz və söz mahirlərinə dönmüşdülər. Bu, tarixi zərurət olsa da, əslində xalqın mənəvi dəyərlərinin fəlsəfi tutumu, kütlə ruhunun paklığı baxımından acınacaqlı idi. XVII əsrin ortalarından başlayan rus işğalı və bu axının gətirdiyi fərqli dünyagörüş Azərbaycan insanının əfkarına güclü təsir etmişdi. Yenilik adı ilə, dini fanatizmlə mübarizə adı ilə ürfani dəyərlər də xalqın yaddaşından tədricən silinib gedirdi. Bir zamanlar Mirzə Ələkbər Sabirin özünü belə "bülbülə, eşqə, gülə dair yalan fırlatmışam" misrası ilə tənqid etməsi ədəbiyyat tarixində tez-tez istifadə olunan "realizm"in əlamətlərindən idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin Sabirin öncə vəsf, sonra tənqid etdiyi "gül" də, "bülbül" də əslində zahiri gözəlliklərin təcəssümü deyil, məhz rəmz və məcazlar sisteminin təzahürü idi. Sadəcə, klassik ədəbi ənənələrin artıq dəbdən düşdüyü bir dövrdə ədəbi formalarla bərabər fəlsəfi düşüncə modelləri də öz aktuallığını itirirdi.

Aşıq Ələsgər məhz belə bir dövrdə yaşayırdı. Məkanından və mühitindən asılı olmayaraq, Azərbaycanın hər yerində təsəvvüf dünyagörüşü arxa plana keçmişdi. Bu hal təbii ki, aşıq yaradıcılığına da təsirsiz ötüşmürdü.

Aşıq Ələsgəri bir mütəsəvvüf adlandırmaq doğru deyil. Ən azından ona görə ki, həmin dövrdə Azərbaycanda övliyalıq, pirlik məktəbi demək olar ki, yox dərəcəsində idi. Mütəsəvvüflər mövcud deyildi. Əgər belə demək mümkünsə, Aşıq Ələsgərin övliyalığı tarixin və mövcud dövrün "qurbanı oldu". Lakin ustad aşıq öz yaradıcılığında çox səylə və israrla ürfani ənənələri qoruyub saxlamağa çalışmışdır. Burada xalqın tələbi də mühüm amil idi. Əvvəllər İlahi nura qərq olan, xalqın dərdlərinə batini gücü ilə əlac edən "İsa nəfəsli", "Musa kəramətli" övliya aşiqlər-aşıqlar indi toya, düyünə gedir, bir zamanlar düşünmək istəyən xalqı indi əyləndirirdilər. Aşıq Ələsgər də bu axından kənarda qala bilmirdi.

Aşıq Ələsgər çoxlarının hesab etdiyi kimi, adi mömin və dindar deyildi. Zira, möminlik, dindarlıq (yuxarıda da qeyd etdiyimiz kimi) şəriət çərçivələri ilə məhdudlaşan bir şeydir. Aşıq Ələsgər aşiq idi. Onun aşiqliyi aşıqlığından qatqat üstün idi.

Dədə Ələsgər uzun ömür yaşamış, dünya işlərində yetərincə muradına çatmış, ədəb-ərkan sahibi, xoşbəxt bir insan idi. Onun qeybdən istədiyi mətləb heç bir zaman dünya mətləbləri ola



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilməzdi. O, zamanın sahibindən nə uzun ömür, nə can sağlığı, nə övlad, nə sərvət istəmirdi. Onun istədiyi heç dini mətləb də deyildi. Özünün də gözəl, bədii dildə ifadə etdiyi kimi, “alimlərin”, “mollaların” bilmədiyini bilirdi.

Yəni, zahirən savadsız olan Ələsgər hər halda dini mətləbləri zamanının savadlı alimlərindən, ruhanilərindən öyrənə bilərdi. Lakin həm maddi, həm də mənəvi cəhətdən dolmuş bu uca könül sahibi olan bir zat qeybdən elə bir mətləb istəyirdi ki, o mətləbin həlli məhz “həqiqət”in zühurundadır. Bu zühur isə, özünün də şeirlərində ifadə etdiyi kimi, “Əli Zülfüqarı”na bağlıdır. Məhz elə bu məqamda Aşıq Ələsgərin dindar bir möminliklə bərabər, dərin mətləblərə bələd olan ürfan əhli olduğu anlaşılır.

## Aşıq Ələsgər poeziyasında Həzrət Əli obrazı

Məlumdur ki, dini qaynaqlarda adı keçən məşhur Zülfüqar Əli ibn Əbu Talibə (s.ə.) məxsus olan ikibaşlı qılıncın adıdır. Lakin ustad aşıq zühur günündə bu qılıncın İmam Mehdi Sahibəzzamanın əlində olacağından söz edir (“Məhəmməd ümməti çıxmaz zindandan, Ta ki, ağam Zülfüqarı çəkməyə”). Dini rəvayətlərə görə, Həzrət Əlinin Zülfüqarı özündən sonra on bir İmamın əlində olmuş, sonuncu, on ikinci İmamla bərabər qeybə çəkilmişdir. Gözlənilən zühur günündə də İmam Mehdi ilə birlikdə qayıdacaq. Bu, məsələnin dini, yəni şıə şəriətinin yozumladığı tərəfidir. Fəqət, Aşıq Ələsgər burada “Ağam” kəlməsi ilə hər zamankı kimi, məhz Həzrət Əlidən bəhs edir. Həzrət Əlinin təsəvvüf qaynaqlarındakı “dondan-dona” – bədəndən-bədənə hülul etməsi, eyni zamanda, onun Xudanın məzhəri hesab



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olunması bu məsələyə başqa bir şəkildə aydınlıq gətirir. Təsəvvüf ənənələrinə əsasən, Allahın təcəllası Yer üzündə müəyyən zatların vücudunda var olmuşdur (bir az sonra Əhli-Həq dünyagörüşündəki "donbadon" fəlsəfəsinin Azərbaycan aşıq ədəbiyyatındakı təcəssümünə dair geniş izahlar verəcəyik). Bu zatlardan biri də Həzrəti Mehdidir. Bir daha təkrar edirik ki, bu fikir təsəvvüf ideologiyasının bir çox cərəyan və nümayən-dələrinə məxsusdur. Dini fundamentalizm tərəfindən qətiyyən qəbul edilməyən və "küfr" damğası vurulan bu fəlsəfi məntiqə əsasən, Həzrət Əli və Həzrəti Mehdi eyni ruhun, eyni zatın daşıyıcılarıdır. Bu mənada Sahibəzzamanın əlindəki Zülfüqar məhz Aşıq Ələsgər tərəfindən təsəvvüf və ürfan qəlibində təqdim olunmuşdur. Elə yuxarıda adını çəkdiyimiz "mətləb" də bununla bağlıdır. Ustad Aşıq Ələsgər qeybdəki İmamdan mətləb istəməklə, həmin sirlərin açılmasının intizarında olduğunu bəyan edir. Ümumiyyətlə zühur, əksər dini təlimlərdə özünə geniş yer tutmuşdur. Belə ki, xristianlıqdakı Həzrəti İsanın zühuru, buddizmdəki Buddanın qayıdışı kimi inanc faktorları bu günə qədər çoxlu sayda insanların mənəvi ümid yeri olaraq qalmaq-dadır. Hətta bəzi islami təlimlərdə qeyd olunur ki, zühur günü Həzrəti Mehdi tək gəlməyəcək. Onun bir tərəfində Həzrəti İsa, digər tərəfində Həzrəti Musa olacaq. Bu cür inanc fəlsəfəsi əsasən "isna əşəri" (on iki imamın bərhəq olduğuna etiqad təlimi) məzhəbində geniş yayılmışdır. Bəzi sünni, o cümlədən Hənəfi, Şafei məzhəblərində isə Həzrəti Mehdinin elə Məsih olduğuna inamlar mövcuddur. "Məsih" isə həm Həzrəti İsanın bir adı, həm də ümumiyyətlə, xilaskar anlamındadır. Bu mənada bəzi əhli-sünnət qiyamət gününə bir az qalmış Həzrəti İsanın (Məsihin)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

axirəzzaman Peyğəmbər Həzrəti Məhəmmədin (s.ə.v.) rəhbərliyində zühur edəcəyinə inanır. Qeyd edək ki, bütün bu inanclar istər İslamın, istərsə də başqa dinlərin ehkam, yəni ilkin şəriət qatlarına isnad edilir.

Təsəvvüfdə isə məsələ tamamilə başqa cürdür. Buradakı Mehdi hər zaman diri, yəni seçilmiş zatların vücudunda ariflərə görünən bir məqamdadır. Təbii ki, burada Əhli-Həqlərin nəzəri "donbadon" (hülul və tənasüx) məsələsi ortaya çıxır. Əhli-Həq nəzəri sisteminə əsasən, iki cür "zat" mövcuddur. Bunlardan biri "zati-mehman", digəri "zati-qürs"dür. Bu zatların ikiliyi mərhələlik prinsipinə əsaslanır və haqqında daha öncə də bəhs etdiyimiz iki zühurla, "zühuri-xas" və "zühuri-amm"la müəyyən qədər əlaqəlidir. Adını çəkdiyimiz "zat" terminləri məhz "donbadon"la bağlıdır. Birinci zat, "zati-mehman", qonaq olan ruh, gəlib-gedən vücudi-mütləq mənasındadır. Yəni, qeybdəki İmam, yaxud da Həzrəti Məsih (çünki təsəvvüfdə bu məsələ bir dinə mənsubluqdan çıxaraq, daha geniş anlam daşıyır) müəyyən şəxslərin vücudunda mehman olur. Bu fikri, əqidəsi üstündə dara çəkilən Mənsur Həllac və İmadəddin Nəsiminin tez-tez işlətdikləri "Ənəlhəq" kəlamı ilə də təhlil etmək olar. Belə ki, həmin şəxslərin (və bir çox başqa ariflərin, o cümlədən, Şah Fəzlullah Nəiminin, Şah Nemətullah Vəlinin və başqalarının) iddiasına görə, Həzrəti Mehdi – yuxarıda izah etdiyimiz kimi – Cənabi-Haqq onların vücudunda "mehman" olaraq, onların surətində görünürmüş. Elə bu məqamda da onlar "Ənəlhəq" – "Mən Allaham" demişlər. Şah Xətain beytinə diqqəti çəkmək istərdik:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Girdim Adəm cisminə, bir kimsə bilməz sirrimi,***
***Mən bu beytullah içində ta əzəldən var idim...*** (89, 164).

Diqqətlə nəzər salsaq görərik ki, Xətai burada Allahın dilindən bəyan edir və özünün dolayısı ilə "zati-mehman" olaraq, Həzrəti Adəmin cisminə girdiyini və bu cismin də "beytullah", yəni Allahın evi olduğunu iddia edir. Göründüyü kimi, hülul nəzəriyyəsi burada açıq-aşkar ifadə olunur. Biz bunun rəmzli şəkildə təzahürünə İ. Nəsimidə də tez-tez rast gəlirik:

***Surətindən ey sənəm, ta görmüşəm həqqi əyan,***
***Səcdə qıldı üzünə bu aşiqi-qəllaşımız*** (76, 69).

Lakin Əhli-Həq, Ələvi-Bektaşı və digər təsəvvüf cərəyanlarının iddiasına görə, Şah Xətai məhz "zati-mehman" məzhəri olmuşdur. Yəni Həqq-Təala onun vücudunda "qonaq" olmuşdur. Bəs, digər zat, yəni "zati-qürs" nəyi ifadə edir? "Zati-qürs" bir şəxsin vücudunda doğulandan rehlət edənə qədər (ürfan əhli dünyadan gedən böyük zatlar haqqında "öldü" yox, "rehlət etdi" və yaxud da "pərdə çəkdi" ifadələrini işlədirlər) var olan Həqq-Təaladır. "Zati-qürs"ün məqamı "zati-mehman"ın məqamından qat-qat üstündür.

Bu fikirlərə əsasən söyləmək olar ki, Aşıq Ələsgərin Həzrət Əli və Həzrəti Mehdi haqqında düşüncələri tamamilə ürfanidir və adi dinçiliklə heç bir rabitəsi yoxdur.

Ümumiyyətlə, Aşıq Ələsgərin yaradıcılığındakı Həzrət Əli obrazi dini ehkamçılıqdan çox uzaq, birbaşa könül sirlərinə bağlı, eyni zamanda, mürşid, pir öncüllüyündə əxz edilən bilik və inanclarla izah olunmalıdır. Ustad aşığın yaradıcılığında rast gəlinən mollaların, şəriətçilərin tənqidi, çoxlarının izah etdiyi kimi, onun dinə üsyanından, əski Sovet alimlərinin də dediyi kimi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onun ateist dünyagörüşündən irəli gəlmir. Aşıq Ələsgər dindar, təqvalı, dərin etiqada malik bir el ağsaqqalı olmuşdur. Onun mollalara və məzhəbçilərə üsyanı da məhz elə təriqət məsələləri ilə bağlıdır. Aşığın ürfani dünyagörüşü, şəriət tərəfindən küfr damğası vurulan fikirləri şübhəsiz ki, zamanının ruhaniləri tərəfindən təqib olunmuşdur. Bu fikirlər heç də maddi aləmlə, zahiri gözəlliklərin vəsfi və məddahlığlı ilə bağlı deyil, məhz təsəvvüf dünyagörüşü ilə əlaqədardır.

Aşıq Ələsgərin Həzrət Əli haqqındakı bir qoşmasına diqqət edək:

***Sidqinən tutmuşam, çağırram səni,***
***Xeybərin qalasın alan, ya Əli,***
***Hər kim ayırırsa yarı yarından,***
***Eylə tətxü tacın talan, ya Əli.***

***Aslan olub Merac yolunda yatan,***
***Əbu Cəhlin daşın havaya atan,***
***Xurma lifəsiynən barmağın çatan,***
***Ağ devi zindana salan, ya Əli.***

***Ələsgərə nişan verən almanı,***
***İslam edən Qəmbərini, Salmanı,***
***Musaya öyrədən Turda kəlməni,***
***Cəbrayıla ustad olan, ya Əli*** (10, 142).

Elə bircə bu şeir bəs idi ki, Aşıq Ələsgər şəriət ruhaniləri tərəfindən təqib olunsun. Çünki bu qoşmadakı fikirlər Əlipərəst ürfani dünyagörüşün davam etdiyi min ilə yaxın (bəlkə də artıq) bir müddətdə çox az sayda müəllif tərəfindən bu qədər açıq və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cəsarətli şəkildə deyilmişdi. Həzrət Əlinin vəsfi və mədhi istər Şəriət, istər Təriqət, istər Mərifət, istərsə də Həqiqət məqamlarında seyr edən şair, kəlamxan, quyəndə və qəzəlxanlar tərəfindən müxtəlif zamanlarda bol-bol yazılmışdır. Məsələn, Anadolu ozanlarından olan Aşıq Zakiri yazır:

***Zakiri, bilmem nideyim?***
***Hangi diyara gideyim,***
***Ağular verin yudayım***
***Ol Aliye deyin gelsin*** (111, 61).

Elə buradan da aydın olduğu kimi, onu vəsf edənlər məhz fərqli ruhani təbəqələrin şairləri olmuşlar. Yəni ona yazılan şeirlər də fəlsəfi sistem və dini hədislər, rəvayətlər baxımından fərqli kateqoriyalara bölünür. Məsələn, bir şəriətçi məddahın yazdığı şeirdə Həzrət Əli böyük xəlifə, Rəsullahın kürəkəni, Həsən və Hüseynin atası kimi tərif olunur. Bunun örnəyi ədəbiyyat tariximizdə yüzlərlədir. Fəqət bu təriqətçi şair Həzrət Əlini, ümumiyyətlə, ruhani həqiqətləri və bu həqiqətləri təmsil edən böyük zatları bir başqa gözlə görür. Sufiyanə yazılmış Həzrət Əli mədhləri yuxarıda da qeyd etdiyimiz kimi, şəriət alimləri tərəfindən qəbul olunmur. Şəriətçilər hesab edir ki, Həzrət Əli bu şeirlərdə Həzrəti Peyğəmbərdən də üstün tutulur və hətta onların fikrincə, təriqətçilər Həzrət Əli barəsində "qüluvv" edirlər (bu söz ərəb dilində insanı ilahiləşdirmək anlamına gəlir. Adətən "qüluvv" damğası vurulan şəxslər haqqında "onlar, Allah filankəsin simasında görünür və ya filankəs Allahın görünən sifətidir deyə iddia edirlər" deyilir). Sonrakı "mərifət" qatında bu mövzu bir az üstüörtülü, rəmzlərə və məcazlara bürünmüş halda təqdim olunur. Ürfan şairləri (əhli-mərifət), o cümlədən, Hafiz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şirazi, Mövlana Cəlaləddin Rumi kimi ariflər Həzrət Əli mövzusunu məhz arifanə şəkildə işıqlandırmışlar. Lakin "həqiqət" mərhələsində, yəni Əhli-Həq zümrəsindəki Əli obrazı artıq əsas başlanğıc kimi mövcuddur. Yuxarıda da qeyd etdiyimiz kimi, Həqiqətin bir zümrə olaraq yaranışı məhz Həzrət Əlinin hülul vasitəsilə Sultan Sahaka (Sultan İshaqa) təbdil etdiyi ruhi-mütləq ilə başlayır (Əvvəlki fəsildə buna geniş izahat vermişdik). Bu mənada Əhli-Həqlər tərəfindən söylənilən təməl fikirlər gizli tutulur. Çünki o fikirlərin məxluqat arasında yayılması gerçəklərdən və Əhli-Həqlərin dediyi kimi, "gerçək ərənlər"dən xəbərsiz olan kütlə arasında fəsada və nifaqa səbəb ola bilər. Elə bu səbəbdən də əksər təsəvvüf ərbabı həqiqətin zühurunu gözləyir. Belə bir mənzərə fonunda Aşıq Ələsgərin bu qədər (yuxarıda təqdim etdiyimiz şeirdəki kimi) açıq fikirlər bəyan etməsi insanda təəccüb doğurur. Bu təəccübün bir səbəbi də ondadır ki, həmin qoşma daşıdığı məna yükü və sirli mətləblər baxımından tamamilə Əhli-Həq kəlamlarına uyğun gəlir. Sanki Aşıq Ələsgər bir "quyəndə" kimi Əhli-Həqlərdən batini sifariş alaraq, bu kəlamı yazmışdır. Bir məsələ də var ki, bu qoşmadakı fikirlər dini ehkamçılıqdan uzaq olduğu qədər də xalq deyimindən folklor nümunələrindən də uzaqdır. Yəni bu fikirlər, daha doğrusu bu sirlər xalq arasında da mövcud ola bilməzdi. Lakin həmin qoşmadakı iki misra, yəni,

***Hər kim ayırırsa yarı yarından***
***Eylə təxtü tacın talan ya Əli –***

– misraları dastan ənənələrindən gəlir. Belə ki, burada Həzrət Əli ənənəvi olaraq, sevgililərə buta verən Mövla, Ağalar-Ağası kimi təqdim olunur. Həzrət Əlinin sevənlərə buta verməsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir çox dastanlardan bizə məlumdur. Şeirdəki "yarı yardan ayıranların" cəzasının məhz Həzrət Əlidən istənməsi bizim fikrimizcə, folklor məfhumudur. Ümumiyyətlə, xalq məfkurəsindən, el ağzından qidalanan Aşıq Ələsgər şeirləri hər zaman onun bir xalq adamı, el atası olduğunu gözlər önünə sərir. Həm də bu faktorun, yəni Həzrət Əlinin sevgililərə buta vermə məsələsinin kökü əski Türk təsəvvüf qaynaqlarına söykənir. Həzrət Əlinin hətta öz zamanından çox-çox əvvəl də yaşadığı, mövcud olduğu fikirləri müxtəlif təriqətlərdə, təlimlərdə özünə yer tapmışdır. Bu baxımdan dastan yaradıcılığındakı Həzrət Əli obrazı dini deyil, mistik və ürfanidir ("Koroğlu" dastanının "Ağca quzu" boyundakı Həzrət Əli ilə qarşılaşma bu deyilənlərə misal ola bilər. Burada və ümumiyyətlə, bir çox dastanlarda Həzrət Əli Xızr Peyğəmbərlə eyniləşdirilir. Xatırlatmaq yerinə düşərdi ki, təsəvvüfdəki bəzi qaynaqlara əsasən, Xızr İlyas da Həqq-Təalanın zati-məzhəri sayılır və onun Həzrət Əli ilə eyni vücudda olması bu baxımdan mənalandırılır).

Təqdim olunan qoşmadakı məna mərtəbələri müxtəlif qatlarda təzahür edir. Buradakı şəriət rəvayətləri də gerçək tarixi hadisələr də mistik-əfsanəvi elementlər də, qatı təsəvvüfi fikirlər də mövcuddur. Məsələn, ikinci misrada ifadə olunan "Xeybərin qalasın alan ya Əli" fikri real tarixi hadisəni təsvir edir. Söhbət İslamiyyətə qarşı vuruşan yəhudilərin sığındığı Xeybər qalasından və bu qalanı fəth edən Həzrət Əli ibn Əbu Talibdən gedir. Bu fəth zamanı Həzrət Əlinin, Aşıq Ələsgərin başqa bir mənzumədə ifadə etdiyi kimi, "yetmiş min batmanlıq dəri-Xeybəri" qoparıb atması məşhurdur. Bu rəvayət bütün İslam tarixçiləri tərəfindən təsdiq olunmuşdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İkinci bənddəki

***Aslan olub Merac yolunda yatan –***

– misrası Həzrəti Məhəmmədin (s.ə.v.) Meracı haqqındakı qatı təşəyyö (şiə) hədislərinə istinad edir. Bu hədislərə əsasən, Meracda ikən, Rəsullahın yolunun üstünə bir aslan çıxır. Peyğəmbər Meracdan qayıtdıqdan sonra bu əhvalatı Həzrət Əliyə danışır. Həzrət Əli isə “həmin aslan mən idim” deyə ərz edir.

Qoşmanın möhür bəndindəki son iki misra şeirin kulminasiya nöqtəsidir:

***Musaya öyrədən Turda kəlməni,***
***Cəbrayıla ustad olan ya Əli.***

Həqiqətən də bu misralar qeyri-adi kəramət yükünə sahibdir. Məlumdur ki, Həzrəti Musa Həzrət Əlidən çox-çox qabaq, min illər öncə yaşamışdır. Yəni, Həzrət Əli ona necə kəlam öyrədə bilərdi? Belə mətləblər təsəvvüf və ürfan çərçivələrini də çoxdan aşmış həqiqətlərdir. Bəli, məhz “həqiqət”! Termin olaraq (ümumi halda işlətdiyimizə baxmayaraq, “təsəvvüf” əslində bir sufi termini, yəni təriqət anlayışına daxil olan bir şeydir) “təsəvvüf” təriqət, “ürfan” isə (ərəbcədə “mərifət”, “arif”, “ürfan” sözlərinin bir törəməsi olaraq) mərifət məktəbinə şamildir. Bu mənada təsəvvüf və ürfan qəliblərini sındırmaq məhz “həqiqət”ə daxil olan nəsnələrə xasdır.

Burada türk şairi Mehmet Demirerin çox gözəl bir şeirindən kiçik bir sitat gətirmək yerinə düşərdi:

***Leyla çiçeklere şöyle bir baktı***
***Baktı ki, çiçekler Ali diyordu,***
***Aliye ulaşmak aşk ister kardeş***
***Aşka gelen güller Ali diyordu.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Şemsini aradı yıllarca belki***
***Mevlana dönerken Ali diyordu.***
***Nemrutun yaktığı alevli ateş***
***Birden söner iken Ali diyordu*** (171).

Yuxarıdakı fikir, yəni Həzrət Əlinin Musa peyğəmbərə kəlam, danışıq öyrətməsi sırf Əhli-Həq rəvayətlərinə aiddir. Dinlərin tarixindən də məlumdur ki, Həzrəti Musanın nitqi qüsurlu olub. O, danışanda kəkələyərmiş. Tur dağında Allah-Təalanın mübarək səsini eşitdikdə isə vəcd və həyəcandan Peyğəmbərin dili demək olar ki, tamamilə tutulur (maraqlı olan başqa bir şey odur ki, Peyğəmbərlərinin hərəsi ilə bir şəkildə ünsiyyət saxlayan Allah, nitqi qüsurlu olan peyğəmbərini "kəlamullah" ("Allahla danışan" etdi). Aşıq Ələsgər deyir ki, bu zaman Həzrət Əli ona yardım etdi – ona məhz kəlmə, yəni danışmaq öyrətdi. Burada daha maraqlı bir fakt mövcuddur. Tarixdən də bəllidir ki, Həzrəti Musa hər dəfə Fironun sarayına gedəndə qardaşı (özü də zamanının bir Peyğəmbəri olan) Harunu da özü ilə aparırdı. Harun həm peyğəmbər, həm Musanın qardaşı, həm yaxın köməkçisi və həm də (ən əsası) Musanın danışan dili idi. Qeyd etdiyimiz kimi, Həzrəti Musanın nitqi qüsurlu olduğu üçün çox zaman Misir fironu ilə Harun danışırdı.

Lakin, Tur dağına Həzrəti Musa tək gedirdi. Həmin dağda ona vəhy gəlirdi. Yuxarıda qeyd etdiyimiz kimi, vəhy anında Həzrəti Musanın nitqi daha da çətinləşirdi. Aşıq Ələsgərin iddiasına görə, Həzrəti Musaya bu zaman Həzrət Əli kömək edirdi.

İzahlardan da göründüyü kimi, Aşıq Ələsgərin bu qoşmasındakı son iki misranın məna yükü çox ağırdır. Son misrada



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isə, ustad aşıq elə bir məsələyə təmas etmişdir ki, bu məsələ dini-mistik rəvayətlər çərçivəsindən çıxaraq, dərin fəlsəfi məzmun daşıyır. ***“Cəbrayıla ustad olan ya Əli”*** misrası, ümumiyyətlə, dini motivlərlə əlaqəli deyil. Din anlayışı çərçivəli, ehkamlarla idarə olunan bir inanc sistemidir. Bu məsələ isə sırf eşqin, cazibənin, məzhərin və təcəllanın elementlərini daşıyır. Buna bənzər fikirlərə biz Göyçəli Aşıq Nəcəfin bir divanisində də rast gəlirik:

***Gecə-gündüz zikr eyləyib,***
***Səni salan yadına,***
***Mətləb alar, mətəl qalmaz,***
***Tez yetər muradına.***
***Cəmi darda qalanların***
***Yetişənsən dadına;***
***İbrahimə sən eylədin***
***Narı gülüstan, Əli!*** (41, 167).

Bu və buna bənzər fikirlər ənənədən gəlməklə bərabər, həm də mövzu boyu yeri gəldikcə toxunduğumuz “Ələst” aləmi haqqındakı fəlsəfənin əsasından törəmişdir.

Bir haşiyə çıxaraq, söyləmək istərdik ki, bu tip ənənəyə müasir el şairlərinin şeirlərində də rast gəlirik. Onlar dövr və məkan etibarilə yazdırları misraların fəlsəfi yükünə çox da varid olmaya bilərlər. Bu, mümkündür. Ancaq dedyimiz kimi, bu bir ənənədir. Məsələn, məşhur el şairi Borsunlu Məzahir Daşqının bir şeirində oxuyuruq:

***Ələmlə dağıtdın bürciXeybəri,***
***“Ya mənhu” deyəndə böldün Əntəri.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***İşarət eylədin gün döndü geri,***
***Ərrəhman eylədi sənə ziyarət*** (28, 97).

Bu fikirlərin bənzərinə biz Aşıq Qurbanidə rast gəlirik. Ənənə məsələsinə dair nümunələr içərisində tanınmış el sənətkarı ustad Aşıq İskəndər Ağbabalının misraları da diqqətimizi çəkdi:

***Mən ürfan adamıyam,***
***Aşıq kimi aldım nam.***
***Sözlə şenlənir xanam,***
***Ya Rəsul, səndən mədəd*** (1, 15).

Mətləbə qayıdaraq qeyd edək ki, "Ələst" günü ilə bağlı təsəvvüf qaynaqlarında, şəriət ehkamçılığına daxil olmayan və bu ehkamın qəbul etmədiyi nöqtələr var. Qurani-Kərimdən gələn ***"Ələst günü, sizin Rəbbiniz mənəmmi? – sualına siz "bəli" dediniz"*** ayəsindəki məzmun şəriət elmi tərəfindən birtərəfli və qaranlıq izah olunmuşdur. Belə ki, Allah-Təala bu sualı mələklərə yönəldir. Onlar isə "bəli" cavabını verirlər. Haşiyə olaraq qeyd edək ki, Aşıq Ələsgər bir divanisində belə deyir:

***Ələstdən "bəli" dedim. Nə xoş kamaldı yüküm..*** (Həmin divanidəki misranı ayrıca araşdıracağıq).

Bu hadisə ariflər tərəfindən, batini bilgilərdən və ürfan əhlinin özünün də dediyi kimi, "məxfi mənbələrdən" gələn məlumata görə, bu şəkildədir; Həqq-Təala Həzrət Cəbrayıldan soruşur: – **Sən kimsən, mən kiməm?** Cəbrayil cavab verə bilməyəndə Həzrət Əlinin Zülfüqarı onun qanadlarına enir. Bu zaman Həzrət Əli özü peyda olur və həqiqəti Həzrət Cəbrayıla öyrədir. Allah-Təala bu sualı ikinci dəfə təkrar edəndə Cəbrayıl cavab verir: **"Sən Allahsan, mən bəndə".**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu qısa hədisdən də göründüyü kimi, Aşıq Ələsgərin, Həzrət Əlinin Cəbrayıla ustadlığı məsələsini nəzmə çəkməsi ürfani qaynaqlara əsaslanır.

**Aşıq Ələsgər məfkurəsində**
**Əhli-Həqq nəzəri fikrinin izləri**

Məlumdur ki, şeir, musiqi, ümumiyyətlə, incəsənət amili hər zaman konkretlik ifadə etmir. Yəni bir mənada, hər şair, hər incəsənət adamı müəyyən olunmuş bir missiya daşıyıcısı deyil. Bu mənada mütəsəvvüf şair və aşıqlar istisnadır. Əvvəldə də qeyd etdiyimiz kimi, Aşıq Ələsgəri tam bir mütəsəvvüf şair adlandırmaq düzgün olmazdı. Onun şeirləri təsəvvüfi, ürfani qaynaqlarla dolu ola bilər. Lakin, təsəvvüf ərbabı olmaq, sənətkarlıqdan və şairlikdən ibarət deyil. Həm də (yuxarıda da vurğuladığımız kimi) Aşıq Ələsgərin zamanında, təbiri caizsə, mütəsəvvüf olmaq mümkün deyildi. Ustad aşıq güclü ilham, həvalə və cazibə altında olan nadir bir şəxsiyyət idi. Lakin onun bir övliya, mütəsəvvüf olması üçün bunlar belə yetərli deyildi. Bəs onda Aşıq Ələsgər bu mətləbləri haradan, kimlərdən əxz etmişdi? Axı nə ilhamın gücü ilə, nə də xalq içindən gələn rəvayətlərlə bu nəsnələri anlayıb, qəbul etmək mümkün deyildi. Bunlar, bu mətləblər konkret məktəb və təlim ünsürləri idi. Yəni bunları bilməkdən ötrü pirə, mürşidə möhtac olmaq lazım idi. Aşıq Ələsgər, şeirlərindən də göründüyü kimi, həmin mətləbləri bilməklə kifayətlənməmiş, həm də onları candan, könüldən qəbul etmişdir. Məhz bu qəbullanmaq duyğusu məhəbbətin, sədaqətin nişanələridir. Bu sədaqət, bu məhəbbət isə, ustada, pirə yönəlmiş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müqəddəs duyğulardan ibarətdir. Ustad aşıq məşhur bir divanisində deyir:

***Biçarə Aşiq Ələsgər,***
***Sığın Şahi-Heydərə,***
***Onun damənindən tutan***
***Məşhərdə yanmaz nara,***
***Pirim mənə nüsrət verib***
***Girdim bu gün bazara,***
***Sən sərrafsan, aç, xird elə,***
***Bax gör, nə maldı yüküm...*** (10, 204).

Bu bənddəki Şahi-Heydər Həzrət Əlidir ("Heydər" kəlməsi ərəb dilində "aslan" deməkdir. Bu izafət tam olaraq "Heydəri-Kərrar"dır ki, bu da ərəbcə "təkrar hücum edən aslan" mənasındadır). Ən diqqətçəkən məqam isə, buradakı "pir" kəlməsidir. Məlum olduğu kimi "pir" (fars dilində yaşlı, qoca adam mənasında olaraq) ürfani termin kimi, ustad, mürşid anlamındadır. Özü də "pir" kəlməsi İslamiyyətdən çox öncələr qədim İran ərazisindəki "muğlar", "muğların piri", klassik ədəbiyyatda bu gün də çox işlənən "piri-muğan" kəlməsi olaraq, ruhani bir anlayış kimi mövcud olmuşdur. ***"Pirim mənə nüsrət verib"*** ifadəsi ilə Aşıq Ələsgər sanki bir dəqiqləşdirmə aparır, az qala konkret ünvan göstərmək istəyir. Buradakı "nüsrət" kəlməsi ərəb dilində "qələbə", "uğur" anlamındadır. Yəni ustad aşıq deyir ki, pirimin mənə verdiyi qələbə müjdəsi məni hər "bazarda", yəni hər meydanda qalib edər. Bu, çox mühüm bir məqamdır. Aşıq Ələsgər "pirim" deməklə, çox güman ki, heç kimi və heç bir fikri təkrarlamır, yamsılamır. Bu, ən azından misranın məna gücündən, poetik sərrastlığından hiss olunur. Yəni, təsəvvüf dünyagörüşü və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hətta ürfani terminologiya baxımından Aşıq Ələsgərin bu misrası olduqca orijinaldır. Bütün bunlar istər-istəməz belə düşünməyə əsas verir və səbəb olur ki, Aşıq Ələsgər zamanının ürfani çevrələri və hansısa təsəvvüf zümrələri ilə müəyyən qədər əlaqədə olmuşdur.

Özəl olaraq, əlavə məlumat üçün bir mətləbə də aydınlıq gətirmək istərdik. Bu da yuxarıda müəyyən qədər təhlilini verdiyimiz "Ya Əli" qoşmasındakı "ya" ifadəsidir. "Ya" məlum olduğu kimi, ərəbcədə müraciət forması, türk dillərindəki "ey" sözüdür. "Ya Əli", yəni, "Ey Əli" anlamındadır. Buna heç bir şəkk-şübhə yoxdur. Fəqət, ürfani və hətta dini qaynaqlarda "Ya" ifadəsi xüsusi məna daşıyır. Əvvəlcə, İslam Peyğəmbəri ilə bağlı bir hədisi xatırlatmaq istərdik. Hədisdə nəql olunur ki, Peyğəmbərliyinin ilkin dövrlərində (din tarixində Həzrəti Məhəmmədin (s.ə.v.) həyatı dörd əsas dövrə bölünür: Bisət (yəni ona peyğəmbərliyin gəlişi), Dəvət (yəni xalqı dinə çağırışı), Hicrət (Məkkədən Mədinəyə köç etməsi) və Hüsrət (İslam peyğəmbərinin qələbəsi-Məkkənin fəthi) yəhudi alimləri Rəsullahın yanına gəlir, ona peyğəmbərliyini sübüt etmək üçün bəzi suallar verirlər. Bu suallardan biri, məşhur "Əshabi-Kəhf" əhvalatı, digəri isə, "Ya" məsələsi ilə bağlı olur. Bir daha vurğulamaq istərdik ki, bu hədis məhz elə şəriət alimləri tərəfindən təsdiqlənir. Lakin şəriət ruhaniləri həmin "Ya" məsələsinin nə ilə bağlı olduğunu və Peyğəmbərin bu suala necə cavab verdiyini açıqlamırlar. Həqiqətən də şəriət elmində və ümumiyyətlə, din tarixində bu məsələ barədə konkret heç bir məlumata rast gəlinmir.

"Ya" haqqındakı yeganə açıq qaynaq yenə də Əhli-Həq mənbələrində mövcud olan informasiyalardır. Əhli-Həqlərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ehkam və nəzəri baza halına çevrilmiş qaynaqlarında bu məsələ belə açıqlanır:

Həqq-Təalanın pak zatı hələ kainat xəlq olunmamışdan qabaq mərhələli olaraq, 3 adda mövcud idi:

**1. Ya**

**2, Xavəndigar**

**3. Şahxoşin**

Bir daha vurğulayaq ki, bu adlar mərhələli şəkildə, yəni bir növ təkamül prosesində dəyişilmişdir. "Ya" Onun ilk adıdır. "Xavəndigar" və "Şahxoşin" isə, Əhli-Həqlərdə məxfi mənbələr olaraq, mənaları geniş şəkildə açıqlanmayan, Zati-İlahiyə isnad edilən adlardır. Bu qısa məlumatla kifayətlənərək, onu söyləmək istərdik ki, Allah-Təalanın ən ilkin adlarından olan "Ya" ismi əksər hallarda mütəsəvvüflər tərəfindən Xudanın məzhəri, zatı, təcəllası hesab olunan şəxslərin adlarının önünə əlavə olunmuş-dur. "Ya Əli" burada, məhz ürfani bucaq altında baxdıqda, müra-ciətdən başqa Əlinin bir adı kimi görünür. Yəni, məna etibarilə bu, "Ey Əli" yox, məhz "Ya Əli" dir. Bu da həmin hülul və zati təcəlladır ki, Əhli-Həqlərdə və digər təsəvvüf cərəyanlarında gizli və ya açıq şəkildə özünə geniş yer tutmuşdur. Tanınmış Türk alimi Bahəddin Ögəlin "Türk Mifologiyası" əsərinin birinci cildində oxuyuruq: "Qurana görə də tanrı insanı öz surətində yaratmışdır. İnsan oğlu ən sonda yaradıldığı üçün bütün varlıqların ən kamili, eyni zamanda, kainatın da bir xülasəsi kimi idi. Təbii olaraq, mütəsəvvüflər bunu daha da inkişaf etdirmişdilər. Onlara görə, insan xarici görünüşü etibarı ilə tanrının özü deyil, onun yaratdığı bir xilqət idi. Əslində isə o yalnızca bir xilqət deyil, tanrının özü idi" (77, 473).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün bu deyilənlərdən çıxış edərək, cəsarətlə söyləmək olar ki, Aşıq Ələsgərin bu mətləblərdən müəyyən qədər xəbəri olmuşdur. Çünki, məsələn, "Ələstdən "bəli" dedim" ifadəsi elə məqamlardan xəbər verir ki, Aşıq Ələsgər həmin mətləblərdən bixəbər olsaydı, belə bir sözü, belə bir fikri sadəcə, ağlına gətirməzdi.

Buradakı ən diqqətçəkən məqam isə, Ələst günündəki "bəli" kəlməsinin başqa qaynaqlarda, o cümlədən, Qurani-Kərimə əsasən, mələklərin deyil, Aşıq Ələsgərin öz təbiri ilə desək, onun öz ağzından çıxmasıdır. Yəni qısası, Aşıq Ələsgər Ələst cəmində Həqq-Təalanın "sizin Rəbbiniz mənəmmi?" sualına özü "bəli" cavabını verdiyini iddia edir. Böyük ustad məhz belə bir etirafı xüsusi olaraq vurğulayır.

Bəs, bu necə müəmmadır ki, Dədə Ələsgər özünün bir zaman Ələst aləmində olduğunu söyləyir? Üstəlik nəzərə alsaq ki, Aşıq Ələsgərin bu məfhuma baxışı ürfanidir, o zaman bu suala (əvvəlki abzaslarda izahını verdiyimiz kimi) cənabi-Cəbrayıl cavab vermişdir. Həmin Cəbrayıl ki, bu suala birinci dəfə cavab verə bilməyəndə qanadına Həzrəti Mövlanın Zülfüqarı enmişdi. Sonra isə, Həzrət Əlinin təlimi və ustadlığı ilə bu suala cavab verə bilmişdi.

Burada isə, Aşıq Ələsgər deyir ki, həmin "bəli" cavabını Ələst günü mən vermişəm. Bu müdhiş və müəmmalı iddia elə-belə, üstündən xəlvətcə keçiləcək bir məsələ deyil. Bu sirri cəsarətlə açmağın vaxtı çoxdan gəlib çatmışdır. Həqiqətən də bu sirrin çözümü müəyyən qədər cəsarət tələb edir. Çünki uzun zaman elmi ateizmin, indi isə yarımçıq dini doktrinanın mövcud olması səbəbindən belə məsələlərin izahı və təhlili mümkün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olmamışdır. Məsələ orasındadır ki, Aşıq Ələsgərin qəbul etdiklərini bizim də qəbul etməmiz, ən azından dərk etməmiz üçün təsəvvüfün nəzəri sisteminə səthi olsa da bələd olmamız gərəkdir. Bu isə çox çətin bir prosesdir.

Bu məsələdə yeganə mənbə Əhli-Həq dərvişlərinin daşıdığı əqidə sistemindəki mövcud prinsiplərdir. Bu sistemə əsasən, hülul və təbdil deyilən anlayışlar vardır. Təbdil anlayışı xüsusilə geniş əhatə dairəsinə malikdir. "Təbdil" sözü ərəbcədə "yerdəyişmə", "əvəzləmə" anlamındadır. Dilimizdə işlənən "bədəl" sözü də həmin kökdəndir. Təbdil də hülul kimi, əvvəllərdə də izahını verdiyimiz ənənəvi "donbadon" anlayışıdır. "Donbadon" yəni, "don dəyişmə", "bədən dəyişmə", "vücuddan vücuda keçmə" deməkdir. Bu anlayış bir çox sufi təriqətlərində mövcud olsa da bir az rəmzi, qeyri-konkret və bir az da cəsarətlidir. Yəni, təriqət sufiləri təbdili-ruh məsələsini qəbul edir, ancaq ona çox ehtiyatla yanaşırlar. Məsələn, onlar astaca, gizlicə deyirlər ki, "bizim pirimiz filankəsdir" – yəni, bizim mürşidimizin vücudunda filan övliyanın ruhu təbdil olaraq, hülul edərək, yaşayır. Fəqət, yenə də təkrar edirik ki, bu məsələ təriqətdə çox da açıq və cəsarətli şəkildə təzahür olunmur.

Aşıq Ələsgərin Əhli-Həqlərlə əlaqəli olduğunun üstündə ona görə israrla dayanırıq ki, həm məfkurəvi, həm də praktik tərəfdən **"mən Allahın əzəm mələyi Cəbrayılam"** deməsi ilə ustad aşıq müəyyən bir çevrəyə sahib olmuşdur. Belə ki, yenə də "həqiqət" nəzəriyyəsinə əsasən, əgər Allahın mələkləri insan vücuduna təbdil olaraq, dünya üzərində mövcuddursa, deməli, ürfani məntiqə əsasən, Allah-Təalanın özü də təcəlla və ya hülul edir və onun yer üzündə məzhəri, "zati-mehmanı", "zati-qürs"ü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də mövcuddur. Bu baxımdan ustad aşığın şeirlərində işlətdiyi "pirim", "şahlar şahı" və başqa bu kimi ifadələr həmin silsiləyə və ruhani çevrəyə şamil edilə bilər. Araşdırmaçı alim İsrafil Babacanın Əhli-Həqlər haqqındakı yazısında oxuyuruq: "Bu firqənin inancı, ruhun geri dönüşü və tənasüxdür. İnsanın əməlləri məqbul olursa və sidqin başlanğıcından rica edərlərsə, bu kimsələrin ruhlarının dünyaya göndəriləcəyi inancına sahibdirlər. Əhli-Həqqin inanc üsulunun ağırlıq mərkəzi, Haqqın tam və tamam olan sifət və fellərdə yeddi təcəllasına dayanır. Bu təcəllilərə "donbadon" deyərlər. "Don" kəlməsi; əlbisə, məzhər, zahir, köynək, cəsəd, qəfəs bunun kimi anlamlara gələn türkcə bir kəlmədir" (167).

Biz iddia etmirik ki, Aşıq Ələsgər Əhli-Həq olmuşdur. Onun Əhli-Həq olması, mütləq bir çevrə içində olması, həmin nəzəri sistemə əsasən, onun özünün pirinin, şahının və dəlilinin olmasını gərəkdirirdi. Bu üç nəsnə, yəni "pir", "şah" və "dəlil" Əhli-Həqlərin bir növ təsdiqi və şərtidir. Yəni bu şərtlərə sahib olmayan dərviş, ürfan əhli, sufi sayılsa da Əhli-Həq deyil. Əlbəttə, başqa sufi təriqətlərində də bir mürşidin mövcudluğu vacib amildir. Lakin Əhli-Həq sistemində bu məsələ, silsilə, ustad-şagird ardıcıllığı daha konkret, sistemli və prinsipial şəkildədir. Onu da qeyd edək ki, pirin, şahın və dəlilin keyfiyyətləri, vəzifələri və şəxsiyyətləri başqa-başqa və müəyyən olunmuş şəkildədir.

Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, Aşıq Ələsgər ürfan əhli olsa da konkret ordenə, sektaya və hansısa təsəvvüf zümrəsinə aid olmamışdır. Yaxın tarix olmasına baxmayaraq, Göyçədə və onun ətrafında hansısa sufi təkyələrinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və özəlliklə də, Əhli-Həqlərin mövcud olması barədə əlimizdə konkret faktlar yoxdur. Lakin nəzərə almaq lazımdır ki, Göyçə Miskin Abdal kimi qütbi-övliyanın vətənidir. Bu torpağın ürfani dəyərlərdən xali olması, sadəcə mümkün deyildi. Fəqət, silsilə olaraq, ustad-şagird, pir-mürid ardıcıllığı olaraq, Əhli-Həq olduğundan şübhələndiyimiz Miskin Abdal və çevrəsinin Ələsgər zamanına qədər gəlib çıxması qaranlıq qalan məsələdir. Bu baxımdan istinad edə biləcəyimiz yeganə mənbə yenə də xalqın içində yaşayan, ağsaqqalların dilində əfsanə şəklində də olsa dolaşan "həqiqət" nəsnələri və ürfani dünyagörüşdür.

Məsələləri bu qədər incələməyimizin səbəbi Aşıq Ələsgərin şeirlərindəki çox açıq və cəsarətli ürfani mətləblərdir. Əvvəldə də qeyd etdiyimiz kimi, "həqiqət" elminə bələdçilik təkcə xalqın içindən süzülən və aşığın könül həvələsinin məhsulu olan bir şey ola bilməz. Bunun üçün bir də təkrar edirik ki, konkret pirə, mürşidə mütləq ehtiyac vardı. Mərhum ustad Aşıq Ələsgərin özünün pirinin olması barədə müxtəlif iddialar mövcuddur. Lakin bu barədə, yəni məşhur Aşıq Alının məhz təsəvvüf mürşidliyi etməsi haqqında olan fikirlər dəqiq, elmi izaha malik deyil və beləliklə həqiqətə uyğun deyil. Lakin bu da bir ehtimaldır və heç də tam əsassız ehtimal deyil. Aşıq Alının öz şeirləri də ürfani mətləblərlə dolub daşır. Məsələn,

***Mərifətdən kamil olan ay aşıq,***
***Şəriəti nəylə edərsən aşkar?***
***Bey altından o nöqtəni bəyan et,***
***O nöqtədən eylə məni xəbərdar*** (5, 90) –



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

– misraları Aşıq Alının təsəvvüf qatlarını necə sadaladığını göstərir. Üstəlik "bey" altındakı nöqtə məsələsi də Həzrət Əlinin təriqətdəki batini məqamı ilə bağlıdır.

Heyf ki, bu şəxslərin dünyagörüşünü, fəlsəfi-nəzəri sistemə sahib olduqlarını yalnız onların bədii yaradıcılıqlarından anlamaq olur. Ən mükəmməli o olardı ki, mütəsəvvüf dünya baxışına yiyələnmiş olduqlarını iddia etdiyimiz bu şəxsiyyətlərin ürfanla bağlı silsiləvi və mənqəbəvi həyatları haqqında məlumatlar əlimizdə olardı.

***Ələstdən "bəli" dedim,***
***Nə xoş kamaldı yüküm.***
***Beş gözəlin aşiqiyəm,***
***Vəsfi-camaldı yüküm..***

"Nə xoş kamaldı yüküm" ifadəsi dərya kamalın və ruhani təkamülün izharıdır. "Xoş kamal" olmaq məqama yetişmək, imtiyaz sahibi olmaq, daxili hüzur və səadətə nail olmaqdır. Bu ifadənin özü də termindir. "Yük" isə elmdir, qazanılmış kamaldır. Məqamın yük olaraq dəyərləndirilməsi çəkilən zəhmətlərin, mürşidə qulluğun, nəfs riyazətinin gətirdiyi əziyyət və nişanədir.

Aşıq Ələsgərin "yük" kəlməsini işlətməsi təsadüfi deyil. O, başqa ifadə də işlədə bilərdi. Məhz elmə, əqidəyə, qazanılmış məqama "yük" deyilməsi ustad aşığın orijinal ifadə tərzidir. Ümumiyyətlə, bu divani çox mükəmməl poetik bir nümunədir. "Divani" anlayışının özü də ürfanidir. "Divan" bir növ Haqq divanı, Haqq dərgahındakı hesabat, məşhər, sorğu-sual mənalarına uyğundur. Bu da təsadüfi deyil ki, saz-söz məclislərinin ənənəvi olaraq, "Divani" ilə açılması vacib amil sayılır. Həm də divani şeirləri adətən, hikmət, ürfan və dini-mistik keyfiyyətlərə



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

malik olur. On dörd hecalı olan bu mənzumə forması sazda çalınan "Divani" havası üstündə oxunaraq, bu musiqi forması ilə möcüzəli bir şəkildə biri digərini tamamlayır, ruhani bir assosiasiya və ab-hava yaradır.

Aşıq Ələsgərin yuxarıdakı "Divani"sindəki "beş gözəlin aşiqiyəm" ifadəsi də dərin mənəvi qatlardan xəbər verir. Ənənəvi olaraq tədqiqatçılar tərəfindən də "beş gözəl" "pənc təni Ali-Əba". "beş kimsənə" – Məhəmməd, Əli, Həsən, Hüseyn, Fatimə kimi izah olunur. Bu doğrudur. Ən azından ona görə ki, ilk misralardakı ruhani fəlsəfəyə uyğun olaraq, ("Ələstdən "bəli" dedim, nə xoş kamaldı yüküm"), zahiri, məsələn, qadın gözəlliyindən, həmin gözəlliklərə vurğunluqdan söhbət gedə bilməzdi. Burada heç rəmz və məcazlığa da o qədər ehtiyac yoxdur. "Divani" məzmununun keyfiyyətləri də nəzərə alınmaqla, "beş gözəl" anlayışının məhz Əhli-Beytə (Peyğəmbərin pak və məsum ailəsi) şamil edilməsi danılmazdır. Bu o qədər açıq və aydındır ki, hətta əski Sovet dövründən qalma alimlər tərəfindən belə, bu misra məhz ruhaniyyətlə bağlı izah olunmuşdur.

Lakin burada da məsələ təkcə dini deyil. Yəni Aşıq Ələsgər Əhli-Beyt sevgisindən bəhs edərkən, hər kəsin anlayıb, qəbul etdiyi məfhumlardan daha dərinlərə gedib çıxır. Söhbət Əhli-Beytdən getsə də, burada yalnız ürfan əhlinə və təsəvvüf ərbabına xas olan metoddan istifadə olunmuşdur. Bunun isbatı üçün ilk misraya nəzər salmaq məqsədəuyğundur. Çünki bu misralar biribiri ilə əlaqəlidir və biri digərinin məntiqi davamıdır. Aşıq Ələsgər Ələst aləmini xatırlayır və bu məqamda Əhli-Beyt aşiqliyini ortaya qoyur. Bu iki məfhumun, yəni Ələst bəzmi ilə "beş gözəl"in rabitəsini qurmaq üçün məşhur bir ürfani rəvayətə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istinad etmək istəyirik. Rəvayətdə deyilir ki, Firdövs cənnətində (hələ Yer kürəsinə gəlməmişdən öncə) Həzrəti Adəm cənabi Cəbrayılın rəhbərliyi ilə behiştin sirr dolu mərtəbə və məkanlarını səyahət edir. Elə burada da Adəm peyğəmbərə Həzrəti Cəbrayılın dili ilə "ismi-əzəm"lər öyrədilir. Behiştin məna dolu məkanlarını seyr edən cənabiCəbrayıl və Həzrəti Adəm qırx otaqlı bir sarayın önünə gəlirlər. Cəbrayılın müşaiyəti ilə 39 otağı gəzən Həzrəti Adəm 40-cı otağa daxil ola bilmir. Çox dua və niyazdan sonra, Allahın rizasıyla Həzrəti Adəm 40-cı otağa daxil olur. Burada, taxt üzərində üzü niqablı bir xanımın oturduğunu görür. Bu xanımın başında bir tac, boynunda bir boyunbağı, qulaqlarında isə bir cüt sırğa vardı. Sırğanın biri göy daşlı, digəri qırmızı daşlı idi. Həzrəti Adəm bu xanımın kimliyni və üzərindəkilərin hansı əlamətlər daşıdığını xəbər alır. Həzrəti Cəbrayıl belə cavab verir: **"Bu xanım bir zaman dünyaya gələcək axirəzzaman Peyğəmbərin qızı Həzrəti Fatimeyi-Zəhradır. Onun başındakı tac atası Həzrəti Məhəmməddir. Sinəsindəki boyunbağı əri Həzrət Əlidir. Qulağındakı göy daşlı sırğa oğlu İmam Həsəndir ki, onu zəhərləyib öldürəcəklər. Qırmızı daşlı sırğa isə digər oğlu İmam Hüseyndir ki, onu da qılıncla şəhid edəcəklər".**

Qeyd edək ki, bu rəvayət bir çox mütəsəvvüflər tərəfindən nəql edilməklə bərabər, həm də xalq dilində dolaşmaqdadır. Əvvəlki abzaslarda izahını verdiyimiz "mey" sözünün əbcəd hesabı ilə 14 rəqəmini göstərməsi və bunun on dörd məsumla bağlı olması da bu rəvayətlə əlaqədardır. Qeyd etdiyimiz kimi, Həzrəti Adəm məhz cənnətdə ikən on dörd məsum haqqındakı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilikləri alaraq “məst olur”. Bu məstlik 14 rəqəmi ilə şifrələnən “mey”lə izah olunur.

Aşıq Ələsgərin bu rəvayətə istinadının məhz Ələst gününü xatırladan beytlə əlaqəli istifadə olunması təsadüfi deyil. Qeyd edək ki, bu əhvalatın baş verdiyi məkan, yəni Firdövs adlanan cənnətdə yalnız Həzrəti Adəmlə Həzrəti Həvva yaşayırdı. Firdövs, bu mənada Haqq dərgahı-Ələst bəzmi idi.

***Ələstdən “bəli” deyən,***
***Sübhana baş endirir,***
***Mühəmmədə nazil olan,***
***Qurana baş endirir.***
***Özü birdir, adı minbir,***
***“Vəhdəhü la şərikə”,***
***Əhli-mömin görə bilməz,***
***Pünhana baş endirir...*** (10, 192)

”Sübhan” Allahdır, Allaha edilən həmdü sənadır. Aşıq Ələsgər bəyan edir ki, Ələst günü “bəli” deyənlər Ona baş əyir. Burada kiçik bir ayrıntı var. Sanki ustad aşıq “Ələstdən “bəli” deyən” misrasını xüsusi vurğu ilə demişdir. Bu vurğunun altında deyəsən, **“Ələst günü “bəli” deməyənlər də vardır”** fikri yatır. Yəni Aşıq Ələsgər demək istəyir ki, Ələst aləmində var olanlar xaslar, seçilmişlərdir. Bu fikirlə bağlı Əhli-Həq nəzəriyyəsində insan xilqətindəki maraqlı bir parçalanma mövcuddur. Deyilir ki, Əhli-Həqlər özləri, eləcə də, cümlə ənbiya və övliyalar “zərgil”, yaxud da “zərdəgil”dirlər. Burada zər rəngində sarı gildən, palçıqdan söhbət gedir. Qeyd olunur ki, iki cür yaranış vardır. Birincisi, zər gildən, yaxud da goranlarda deyildiyi kimi, “zər xəmirdən”, “sarı torpaqdan” xəlq olunanlar, digəri isə qara



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

torpaqdan yaradılmışlardır. “Zərdəgillər” xas aşiqlər, Əlæst günündə Haqq-Təala ilə vəhdətdə olanlardır. Onlar bu dünyaya gəldikdən sonra həmin günü, Seyyid Əzim demişkən “o dəmlər”i xatırlayır və hicran atəşində qovrulurlar. Onlar zahirən fani olsalar da, başqaları kimi doğulub ölsələr də qara torpaqdan xəlq olunan yerdəki insanlara bənzəsələr də onların mayasında həqiqət yatır. Bu nəzəriyyədə daha sonra deyilir ki, “zər xəmir”dən, “sarı torpaq”dan xəlq olunanlar Yerdə yox, dərgahda, bəzi ideoloqların fikrincə, Həzrəti Adəmin məkanı olan Firdövs behiştində yaranmışlar. Yəni onların mayası da Yerin torpağından deyil. Burada İlahi ədalət prinsipinin paradoksal məntiqi də müəyyən qədər açılır. Hər halda Əhli-Həq dünyasındakı (özləri demişkən, **“Yarıstan”**dakı) bu inanc sistemi dini-fəlsəfi, metafizik cərəyanlarda analoqu olmayan bir quruluşdur.

***Özü birdir, adı min bir,***
***“Vəhdəhü la şərikə”...***

Allahın vəhdaniyyəti danılmaz gerçəklikdir. Aşıq Ələsgər bunu xüsusi olaraq vurğulayır. “Vəhdəhü la şərikə” kəlməsi Qurandan gəlib, namazın ən mühüm atributlarından olan “təşəhhüd”də istifadə olunur. Mənası “Onun şəriki yoxdur” deməkdir. Göründüyü kimi, təməli və keyfiyyəti təkallahlıq olan İslamın ən çox vurğulanan və xatırlanan vəhdaniyyət anlayışı bu şeirdə özünü məzmunun qayəsi olaraq göstərir.

Fəqət, “Özü birdir, adı minbir” ifadəsinin altında başqa mətləblər yatır. Bu misraların obyekti və belə demək mümkünsə, qəhrəmanı Haqq-Təalanın özüdür. Onun özü təkdir, fəqət adı çoxdur. Aşıq Ələsgər “min bir ad” kəlməsini işlədir. Ancaq İslamiyyətdən bizə məlumdur ki, Allahın 99 gözəl adları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mövcuddur. Bu adlar Qurani-Kərimdən çıxarılaraq, möminlərin ən önəmli zikrlərindən birinə çevrilmişdir. Bəzi müsəlmanlar bu adları əzbərləyərək, 99 saylı təsbeh vasitəsilə zikr edirlər. Təsbeh dənələrinin sayının 99 olması bir tərəfdən də bununla əlaqədardır.

Ancaq Aşıq Ələsgər burada 99 Əsmaül-hüsnadan yox, 1001 addan bəhs edir. O zaman bu min bir ad hansılardır və hansı mənbəyə əsaslanır?

Məsələ burasındadır ki, Qurani-Kərimdən gələn və "Əsmaül-hüsna" adlanan 99 ad isim deyil, sifətdir. Çünki, "Əsmaül-hüsna" ərəb dilində "gözəl adlar" deməkdir. Qrammatik cəhətdən "Əsmaül-hüsna" məhz ismi-sifətdir.

Belə nəticə çıxarmaq olar ki, 99 adlar sifət, min bir adlar isə isimdir. Bəs onda bu isimlər haradandır və 1001 nə deməkdir?

Yenə də təsəvvüf qaynaqlarına görə, HəqqTəala zati təcəlla olaraq (təcəllalar üç cürdür: **zati təcəlla, sifati təcəlla** və **feli təcəlla**) min bir şəxsin vücudunda zühur etmişdir – yaxud da bu min bir hələ tamamlanmayıb və bu "zühuri-xasslar" və "zühuri-ammlar" davam edir. Bu inanc sistemi də əsasən Əhli-Həqlərin nəzəriyyəsində daha əhatəli və məntiqi sıralanma üzrədir. Əlavə olaraq qeyd etməliyik ki, təsəvvüf inancına görə, Xudavəndi-aləmin şəxs olaraq təcəlla etdiyi (zühur etdiyi) ilk zat Həzrəti Adəmdir. Yəni Adəm peyğəmbər həmin min birdəndir.

***Əhli-Mömin görə bilməz,***
***Pünhana baş endirir...***

Bu misralar heyrətamiz dərəcədə məntiqi bir tamamlanmanı yerinə yetirir. Yəni, bu izahlardan məlum olur ki, həmin nəsnələr, ustad aşığın təbiri ilə desək, möminlərin görə biləcəyi, dərk edə biləcəyi şeylər deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Mömin” ərəbcədə “iman əhli” deməkdir. Sözün kökündə “iman” yatır. “İman” termin olaraq, ruhani təkamülün birinci pilləsi olan şəriətə daxildir. Bu pillədə imandan üstün heç nə yoxdur. Əgər birisi imandan keçib, eşqə varırsa, o zaman həmin şəxs möminlikdən ötə arifdir. Sonrakı pillə isə, “həqiqət”dir ki, həqiqətin təzahürlərinə biz Aşıq Ələsgərin mənzumələrində tez-tez rast gəlirik.

Ustad aşıq “əhli-mömin görə bilməz” ifadəsilə açıq şəkildə bildirir ki, bu mətləbləri anlamaq dindarların, şəriət əhlinin yox, ürfan əhlinin, təsəvvüf ərbabının keyfiyyətidir. Elə buna görə də misranın davamında Aşıq Ələsgər “pünhana baş endirir” ifadəsini işlədir. Bu “pünhan”, həmin “təriqət” sirridir ki, şəriət əhlinə zahir deyil. Üstəlik buradakı “pünhan” sözü xüsusi olaraq işlənərək, zikr və xəlvətlərdə aşiqin batini gözlə görə bildiyi təcəllaları əks etdirir. Bu təcəllalar zikr və xəlvət zamanlarında özünəməxsus tərzdə “batini ziyarət” adlanır. Ürfan aləmində isə, iki cür “ziyarət” mövcuddur. Bunlardan biri “zahiri ziyarət”, digəri isə “batini ziyarət”dir. Zahiri ziyarət pirin, mürşidin, şahın zahirdə camalını seyr etmək, əlini öpmək, səsinə və nəfəsinə talib olmaqdır. Bu talibliyin, tələbin içində elm, həvalə, şəfa və başqa nəsnələr mövcuddur. Yəni, ziyarət anında mürid öz mürşidindən elm, həvalə və şəfa alır. Ümumiyyətlə, təsəvvüfdəki ziyarətin mahiyyətində və hədəfində təmənna və qazanc yox, vəcd və eşq yatır. Bu vəcdin və eşqin bətnində isə idrak, yəni pirin və ya şahın kəramət və ucalığını dərk etmək istəyi durur. Lakin ürfanda digər ziyarət olan “batini ziyarət” zahiri ziyarətdən üstün sayılır. Bu zaman talib təkdir, qarşısında zahirən, gözlə görünə biləcək bir vücud yoxdur. Riyazət və zikrlərin bəhrəsi olaraq, o öz pirini,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

öz şahını qeybdən ziyarət edir. Yəni, Aşıq Ələsgər demişkən, "pünhana baş endirir". Pünhandakı ziyarət, pünhandakı baş əymə, yəni batini ziyarət aşiqə daha artıq şeylər bəxş edir.

Həmin divaninin, yəni "Baş endirir" rədifli mənzumənin ikinci bəndində Aşıq Ələsgər təsəvvüfün mərhələlik prinsiplərinə toxunmuşdur. Bu bənddə toxunulan mətləblər Aşıq Əlsəgərin tam mənası ilə kamil bir ürfan əhli olduğuna dəlalət edir:

***Ölməyincə bu sevdadan,***
***Çətin dönəm, usanam.***
***Həqiqətdən dərs almışam,***
***Təriqətdən söz qanam.***
***Şahi-Mərdan sayəsində***
***Elm içində ümmanam.***
***Dəryaların qaydasıdı,***
***Ümmana baş endirir...***

Bu divani tamamlanmış təsəvvüf hekayəsidir, desək, yanılmarıq. Ustad aşığın bu bənddə adını çəkdiyi "sevda" məzmun və mahiyyət baxımından ünvanı dəqiq göstərilmiş ürfani məfhumdur. "Sevda" bir təriqət yolçuluğudur. Ürfani terminologiyada əsasən "sevda" və "qovğa" anlayışları birbirini tamamlayan, biri digərinin içində olan nəsnələrdir.

Aşıq Ələsgərin "həqiqət"lə, Əhli-Həqlərlə ruhani və əqli təmasının daha bir məntiqi təsdiqi olan "həqiqətdən dərs almışam" ifadəsi məhz "həqiqət"ə məqam olaraq yanaşma tərzidir. "Həqiqət" anlayışı əksər və ümumi hallarda haqlı fikir, düzgünlük, haqlı mövqe kimi dəyərləndirilir. "Həqiqət" sözünün ərəbcə "Haqq", yəni "Allah" sözündən yarandığı məlum məsələdir. Əcəmlərdə, eyni zamanda, əksər türkdilli xalqlarda isə, "Haqq"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

və "həqiqət" kəlmələri dediyimiz kimi, haqlı olmaq, doğru olmaq, ədalətli olmaq anlamında formalaşmışdır. Bunlar hamısı məntiqə uyğun və mübahisəyə ehtiyacı olmayan məfhumlardır. Əslində elə AllahTəalanın bir adı olan "Haqq" da məhz məna baxımından doğruluq və nizam anlayışına gəlir.

Lakin Aşıq Ələsgərin bu divanidə işlətdiyi "həqiqət" kəlməsi ümumi, xəlqi məfkurə çərçivəsində deyil, bir termin, ürfani təkamülün 4-cü pilləsi olaraq mənalandırılmalıdır. "Həqiqət" ürfani məcazlar sistemində aşkarlıq rəmzlərindən qopma və elə buna görə də kütləvilikdən uzaq bir nəsnə kimi qəbul olunmuşdur. Bu fikri belə izah etmək olar ki, "mərifət" pilləsindəki rəmzlilik, məna və əməl dünyasındakı rindanəlik bu səviyyədə təmsil olunan fikir və məfhumların kütləvi halda yayılmasına kömək etmişdir. Bir az da dəqiq ifadə etsək, fikirlərin və nəsnələrin rəmzlərə bürünmüş halda deyilməsi çox zaman batindəki sirrlərin zahiri cazibə şəklinə bürünməsi ürfan şairlərinə öz düşüncə və qənaətlərini şeir, qəsidə, ümumiyyətlə, divan halında nəşr etmək imkanı vermişdir. Yəni bu mətləblər nə qədər örtülü və müəyyən zaman, məkan içərisində təhlükəli olsalar da, onları lüğəti ifadələrə bürüyüb təqdim etmək mümkün olmuşdur. Lakin "həqiqət" deyilən anlayış ümumi fəlsəfi mənzərədə ürfan elminə daxil olsa da, ürfan özü ayrıca olaraq "mərifət"ə daxildir (elə bu sözlərin, yəni "mərifət" və "ürfan"ın eyni tərkibdən olması da bu fikri təsdiqləyir).

Aşıq Ələsgərin "həqiqət" kəlməsini məhz termin olaraq işlətməsi şübhəsizdir. Bunun ən məntiqli izahı sonrakı, "təriqətdən söz qanam" ifadəsindədir. Belə ki, açıq şəkildə göründüyü üzrə, burada "həqiqət" və "təriqət" ayrıca olaraq işlədilir. "Hə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qiqətdən dərs almışam, təriqətdən söz qanam" misrası istinad etdiyimiz fikirlər məcmusuna rəğmən, çox dərin və sistemli bir məntiqin nəticəsidir.

Həqiqətdən dərs almaq fikri Aşıq Ələsgərin müxtəlif şeirlərində təzahür etmişdir:

***... Şahi-Mərdan nökəriyəm,***
***Dərsimi pünhan verir..*** (10, 201).

– deməklə, ustad aşıq həmin "həqiqət"ə işarə vurur. Məhz bu "pünhan"lıq elə yuxarıda qeyd etdiyimiz kimi, həqiqətin nişanəsidir. Bir daha vurğulayaq ki, "təriqət" və "mərifət" qəliblərindəki təsəvvüf elementləri daha aşkar və kütləvi xarakter daşıyır. "Həqiqət" mərhələsində isə, bəhs olunan mövzular, bu mövzulardakı obraz və hadisələr müəyyən qədər gizlilik prinsipinə əsaslanır. Aşıq Ələsgərin "pünhan dərs" deyə təbir etdiyi mətləb də məhz elə "həqiqət"dir.

Başqa bir məqam isə, bu "pünhan dərs"in Şahi-Mərdandan, yəni Həzrət Əlidən alınmasıdır. Bu, çox maraqlı bir nöqtədir. "Həqiqət" barədəki abzaslarda Həzrət Əlinin Əhli-Həq fəlsəfi nəzəriyyəsindəki yerindən və şəxsiyyətindən bəhs etmişdik. Qeyd etmişdik ki, Əli siması, Əli eşqi "təriqət" və "mərifət" qatlarındakı sistemlərdən fərqli olaraq, "həqiqət"də bir başqa mahiyyətə malikdir. Aşıq Ələsgərin "Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir" deməsi məhz Həzrət Əlinin "həqiqət"dəki obrazıdır. Çünki burada adını çəkdiyimiz gizlilik prinsipinə söykənilmişdir. Əgər bu Əli "həqiqət"dəki yox, "təriqət" və "mərifət"dəki Əli olsaydı, o zaman həmin dərs nəyə görə pünhan verilməliydi? Bu, birbaşa ustad aşığın "həqiqət" fəlsəfəsi ilə təmasının əlamətləridir ki, haqqında yuxarıda bəhs etdiyimiz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Baş endirir” rədifli divanisində elə bu xətt əsas prinsip kimi götürülmüşdür.

Əlaqəli şəkildə qurulan nəzəri fikirlərin mənzum ifadə tərzi Aşıq Ələsgər yaradıcılığının çox mühüm nailiyyətidir. Bu poeziya sadəcə şeiriyyət və bədiyyatdan ibarət olmayıb, bəlağəti və fəsahəti vasitə kimi götürərək, gerçəkliyin və qeybi dünyagörüşün təzahür formasına çevrilmişdir. Bu baxımdan Aşıq Ələsgər mənzumələri çox dəyərli fəlsəfi nümunə kimi Azərbaycan təsəvvüf tarixində silinməz iz və danılmaz faktor olaraq mövcuddur.

Buradakı başqa bir məqam “elm içində ümmanam” kəlməsidir. “Elm içində” sözü qarışıq mənalı, bədii ifadə tərzi deyil. Yəni bu söz eləbelə, şeiriyyət xatirinə deyilməmişdir. “Elm” burada Allahın elmi, Allahın şəhəridir. İslam Peyğəmbərinin məşhur bir kəlamı bu məqamda öz yerini alır: **“Allahın şəhəri mənəm, qapısı Əlidir”.** Aşıq Ələsgər bu elmə varidliyini “Şahi-Mərdan sayəsində” mümkün olduğunu hesab edir. Yəni, bir elm qapısı kimi, bu mənada da Ələsgərin mürşidi, rəhbəri, piri Həzrət Əlidir.

Bəs onda “elm içində ümmanam” kəlməsi bütövlükdə nə deməkdir?

“Ümman” kəlməsi çoxmənalı ifadə tərzidir. “Ümman” ərəb dilində böyük dəniz, okean anlamına gəlir. “Elm içində ümman” olmaq isə, təsəvvüf çərçivələrində konkret izahı olan bir məsələdir. Belə ki, “ümman” (xüsusilə də Əhli-Həq sistemində) Allahın əzəm mələklərindən biri olan Həzrəti Cəbrayıln bir adıdır. Əhli-Həq sistemində əsasən 28 mələyin adı keçir. Bu mələklər əsas etibarilə 3 adda, 3 şəkildə göstərilir. Bu adlardan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

biri həmin mələklərin şəriət (ərəbcə) adı, ikincisi onun təbdil və təcəlla ilə vücudunda mövcud olduğu şəxsin (bu şəxslər cədvəldə əsasən Rəsulallahın əsri-səadət dövründə yaşamış insanlardır) adı, üçüncüsü isə, o mələyin "həqiqət"dəki adıdır. Məsələn:

| ***Şəriət*** | ***Bəşər*** | ***Həqiqət*** |
|---|---|---|
| Cəbrayıl | Səlman | Pir Binyamin |
| İsrafil | Qəmbər | Davud |
| Əzrayıl | Malik Əştər | Mustafayi-Davudan |

Qeyd etdiyimiz kimi, bu mələklərin Əhli-Həq sistemindəki sayları 28-dir (Bir az irəlidə bu məsələyə bir az da ətraflı izahlar verəcəyik). Əhli-Həqlərin bu mənbələrə, bu adlara haradan və necə yiyələndikləri hələlik məlum deyil. Lakin hülul və təbdil anlayışları çərçivələrində bəlli bir sistemə əsaslanan bu fəlsəfə öz istinad nöqtələrinə və özünün məntiqi açıqlamalarına malikdir. Onların məntiqi çox zaman subyektiv qəbul olunsa da, hər halda bu fakt özü bir reallıqdır və 600 ildən artıq bir müddətdə yüz milyonlarla insanın həyat amalına və əqidəsinə çevrilmişdir. Faktı sadalamaq və izah etmək isə onu müdafiə etmək və ya rədd etmək demək deyil. Eyni zamanda da, klassik yazılı və şifahi ədəbi nümunələrdə təsəvvüfün bu möhtəşəm cərəyanının, "həqiqət" sisteminin varlığını və əhəmiyyətini inkar etmək mümkün deyil.

Beləliklə, Həzrəti Cəbrayılın pirliyindən və "elm şəhri"nin müqabilindəki "ümman"lığından bəhs etdik. Aşıq Ələsgər "elm içində ümmanam" deməklə, Allahın elmindəki yerindən, yəni özünün Cəbrayıl olduğundan söhbət edir. Ələst aləmində Həzrəti



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cəbrayılın “bəli” deməsi və Aşıq Ələsgərin də özünü bu mənada Cəbrayıl adlandırması bu baxımdan indi bəhs etdiyimiz məsələ ilə sıx bağlıdır.

***... Dəryaların qaydasıdır,***
***Ümmana baş endirir,..***

Məlumdur ki, dərya ümmandan kiçikdir. Yəni bu mənada Aşıq Ələsgər özünü daha üstün məqamda görür və “dəryaların”, yəni özündən aşağı elmə və yükə sahib olanların bu “ümman”a baş əyməsinin bir qayda olduğunu ərz edir. Bu “dəryalar” da bizim fikrimizcə, təriqət və mərifət fəzalarında seyr edənlərdir. “Dərya” sözünün özü də dərin mənalar daşıyıcısı, “dərya kamal” sahibi olanlar barədə bir metaforadır. Aşıq Ələsgər öz məqamından, yəni dayandığı “həqiqət” pilləsindən çıxış edərək, hətta ürfan və təsəvvüf əhlinin belə ona baş əyməsinin gərəyini vurğulayır.

## Miskin Abdaldan Aşıq Ələsgərə qədər “həqiqət” nəzəriyyəsi

Aşıq Ələsgər yaradıcılığındakı vəhdət anlayışı analoji olaraq, klassik təsəvvüf ədəbiyyatından gəlirdi. Lakin bu keçid birbaşa Aşıq Ələsgərə yetişmədi. Çünki arada həm zaman, həm də məkan atributları hökm sürürdü. Zaman olaraq, orta çağ klassik ürfan fəlsəfəsi ilə XIX əsrin birinci yarısından başlayan Ələsgər dünyagörüşündəki əməli (praktik) təsəvvüfün bir qədər süqutu reallığın qoyduğu təsirlər, məkan olaraq isə, böyük bir qismini xalq sufizminin diktə etdiyi Türk xalq məfkurəsinin çox qədim ocaqlarından olan Göyçə mahalı təşkil edirdi. Bu zaman və məkan fərqləri Aşıq Ələsgəri min ilə yaxın şəhər mədə-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

niyyətlərinin ən dominant ünsürünə çevrilmiş təriqət və mərifət dünyagörüşündən istər-istəməz ayırmışdı. Təsəvvüfün mətləb və nəzəri baza olaraq, ilk yaranış məkanı olan Xorasan sufi məktəbi İslam təsəvvüfü üzərində bu günə qədər öz nüfuzunu saxlamışdır. Bağdad və Orta Asiya – Səmərqənd, Yəsi (indiki Türküstan) sufi məktəblərinin binası da məhz Xorasanda qoyulmuşdur. Xorasan vilayətinin bir tərəfdən İraqla qonşu olan İran ərazisi olması, digər tərəfdən Orta Asiya ilə birbaşa qonşuluğu İslami təriqət əqidələrinin bu əyalətlərə asanlıqla nüfuz etməsinə yardım edirdi.

Məsələ burasındadır ki, əvvəldə də qeyd etdiyimiz kimi, əksər Yaxın və Orta Şərq təsəvvüf dünyagörüşünün aparıcı simaları türklər idi. Təsadüfi deyil ki, Bağdad sufi məktəbi ənənəvi olaraq, İraqi-Ərəb deyil, İraqi-Əcəmdə daha çox intişar tapmışdı. İraqi-Əcəm sufiləri təkcə türklər də deyildi. Bu areala ərəblər, farslar, türklər, lorlar, kürdlər və digər xalqların nümayəndələri də daxil idilər. Lakin, bir daha vurğulayaq ki, əsas etibarilə təsəvvüf fəlsəfəsinin ən aparıcı simaları türklər idi. Azərbaycan türkləri isə həm klassik təsəvvüf, həm də türk xalq sufizminin intişarı prosesində özünəməxsus yer tutmuşdu. Azərbaycan arifləri, əvvəlki abzaslarda da vurğuladığımız kimi, həm Xorasan, həm Orta Asiya, həm də İraqi-Əcəm-Bağdad sufi məktəblərinin ən yaşarı və ən mütərəqqi prinsiplərini özündə cəmləşdirərək, tarixə yeni bir ürfan anlayışı, yeni bir təsəvvüf şəkli bəxş etmişdir.

Belə bir zəmində də məhz Aşıq Ələsgər formalaşmışdı. Yəni, şifahi də olsa, təsəvvüf ənənəsinin ustad aşığa yetişməsi onun bir yaradıcı insan olaraq, varlığına səbəb olmuşdu. Bəli, o, Miskin Abdalın xələfi idi. Bu xələflik ona həm xalq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təfəkküründən süzülüb gələn keyfiyyətlər vasitəsilə, həm də daxili vəcd, həvalə və halların bir haqq vergisi olaraq, onun özündəki sirli mövcudluğu ilə nəsib olmuşdu. Belə bir qənaətə gəlmək olar ki, Miskin Abdal, aralarındakı zaman məsafəsinə baxmayaraq, Aşıq Ələsgərin tarixləri ötüb gələn ustadı idi. Onun ustadlığı, qeybani mürşidliyi, Aşıq Ələsgərin də mənsub olduğu məktəbin binasını qoyması, Aşıq Ələsgərin də bu mənada məhz onun müridi, onun varisi olduğu qənaətinə gətirib çıxarır. Bu, məktəb və fəlsəfə olaraq belə düşünməyə əsas verir. Ən azından ona görə ki, Aşıq Ələsgərin bu dərəcədə bir ürfani zirvəyə ucalmasını şərtləndirən amillər, yəni həmin dövrün övliyası, hər hansı təkyə və ya xanədanı barədə konkret tarixi məlumatlar mövcud deyil. Yəni Aşıq Ələsgər zamanının ən seçilən arifi idi ki, öz fövqündə ona mənəvi-ürfani ustadlıq edə biləcək birini tanımırıq.

Bu baxımdan Miskin Abdalın bu günümüzə gəlib çıxan az sayda şeirləri Aşıq Ələsgərin mənzumələrindəki bir çox mətləblərlə səsləşir. Yuxarıda şərhini verdiyimiz Ələsgər incilərində əsas qayə və mahiyyəti təşkil edən ürfani sistem eynilə Miskin Abdalda da müşahidə olunmaqdadır. Ən diqqət çəkən məqam isə ondan ibarətdir ki, bu paralellər çoxsaylı təsəvvüfi təməllərdən sıyrılaraq, eyni fəlsəfi müstəvidə qovuşur. Onların eyni, Əhli-Həq məktəbindən qaynaqlandığına şübhə yaranmır. Çünki, Miskin Abdal kimi, Aşıq Ələsgərin də istifadə etdiyi inanc elementləri zəngin ürfan dəryasının məhz "həqiqət" bucağına şamildir. Məsələn, Miskin Abdal bizə yarımçıq gəlib çatan bir şeirində belə deyir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*İqlimin şahıydı Həzrət Süleyman,*
*Ədalətə pənah idi Nuşrəvan.*
*Şıx oğlu İsmayıl, o cənnətməkan,*
*Düşməz ələ, bir yadigardı getdi.*

Həzrəti Süleymandan, Ənuşirəvan padşahdan bəhs edən böyük arif sonda Şeyx oğlu İsmayılın adını çəkir. Ona eynilə Aşıq Qurbani kimi "cənnətməkan" adını verir. Üzərində dayanmaq istədiyimiz mətləb sonuncu misradakı "yadigar" kəlməsi ilə bağlıdır. Əvvəlcədən onu qeyd etmək istərdik ki, istər Aşıq Ələsgərin, istərsə də Miskin Abdalın şeirlərindəki ürfani məqamlara biz hədəf olaraq, yaxud da yeri gəldi-gəlmədi toxunmuruq. Bütün bunlar üçün əlimizdə əsaslarımız var. Daha öncə də qeyd etdiyimiz kimi, bunlar adi şeir nümunələri deyil. Onlar sənətkarlıq üçün və ya şeir olaraq yazılmayıb. Əks təqdirdə onları bu qədər incələməyə ehtiyac olmazdı və bu heç mümkün də olmazdı. Fəqət, mütəsəvvüflərin şeirdən bir vasitə kimi istifadə etdikləri inkar olunmaz bir faktdır. Miskin Abdal da belələrindən idi. Yuxarıdakı mənzum parçada onun Şah Xətaini "yadigar" adlandırması sırf "həqiqət" terminlərinə istinad edir. Əhli-Həq nəzəri sistemində, yuxarıda izahını verdiyimiz kimi, xüsusi adlardan ibarət bir sxem mövcuddur. Qeyd olunduğu kimi, bu adlar əsasən 28 mələyin insani təbdil və təcəllalarından törəmiş, mənşəyi elmə məlum olmayan adlar sistemidir. Həmin adlardan bir neçəsini yuxarıda sadalamışdıq. Əhli-Həq mənbələrinə görə, Sultan İshaq (Sultan Sahak) Uramanat dağlarında zühur edən zaman əvvəlcədən vəd olunduğu kimi, onun yeddi mələyi nazil olur və fərqli məkanlardan Sultanın



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yanına gəlir. Sonra Yerdə ərşin, Ələstin ilk cəmi qurulur. Həmin mələklər "həqiqət" isimləri ilə belə zikr olunur:

**1. Pir Binyamin**

**2. Davud**

**3. Pir musi**

**4. Mustafayi-Davudan**

**5. Ruçiyar**

**6. Yadigar**

**7. Rəmzbar**

Tam olaraq onların şəriətdəki və Rəsulallah zamanındakı insani təcəllalarının adları isə bu cürdür:

**Pir Binyamin – Səlman – Cəbrayıl**

**Pir Musi – Məhəmməd – Mikayıl**

**Davud – Qəmbər – İsrafil**

**Mustafayi-Davudan – Malik Əştər – Əzrayıl**

**Ruçiyar – İmam Həsən – Əqiq**

**Yadigar – İmam Hüseyn – Yəqiq**

**Rəmzbar – Həzrəti Fatimə – Hur**

(Bu adların mənbəyi haqqında konkret ünvan verməyimiz mümkün olmayacaq. Çünki, Əhli-Həq dərvişləri arasında yaşadığımız müəyyən bir müddət ərzində biz bu bilgiləri onlardan şifahi şəkildə əxz etmişik. Fəqət, heç şübhəsiz ki, Əhli-Həqlər barəsində dünyanın müxtəlif ölkələrindəki ən yeni nəşr-lərdə bu isimlərə və ümumiyyətlə, bu cərəyan haqqındakı bilgilərə müfəssəl şəkildə rast gəlmək mümkündür).

Əvvəldə də qeyd etdiyimiz kimi, bu mələklərin "həqiqət" isimləri ilə sayları 28-dir. Onu izah etdik ki, bu adlar Peyğəmbər (s.ə.v.) zamanında yaşamış Əhli-Beyt və yaxınlarının gizli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isimləridir (Bu gizliliyin də mənbəyi fundamental elmə hələlik məlum deyil və yalnız inanc sferasında qəbul olunur). Yəni, Əhli-Həqlərə görə, həmin mələklər bu şəxslərin ruhlarında zühur etmiş, Ələst bəzmindəki şərtə əsasən, hər zaman fərqli şəxslərin vücudlarında təcəlla edərək, dünyanın mənəvi-ruhani idarəçiliyinə məmurdurlar.

Yuxarıdakı sadalamadan göründüyü kimi, 6-cı mələk "Yadigar"dır. Həzrəti Məhəmməd (s.ə.v.) dönəmində yaşamış şəxslərə müqabil Pir Binyamin – Salman, Davud – Qəmbər, Pir Musi – Həzrəti Məhəmməd, Mustafayi-Davudan – Malik Əştər, Ruçiyar – İmam Həsən, Yadigar – İmam Hüseyn, Rəmzbar – Həzrəti Fatimeyi-Zəhradır.

Beləliklə, Miskin Abdalın adını çəkdiyi "Yadigar" İmam Hüseynə işarədir. Bir daha qeyd edirik ki, "həqiqət" nəzəriyyəsinə əsasən, Yadigar yeddi əsas mələkdən biridir və onun şəriətdəki (ərəbcə) adı Əqiqdir (Bu ada Qurani-Kərimdə rast gəlinmir. Lakin İslam şəriətinin çox dərin təfsiri qaynaqlarında bu ada təsadüf edirik. Həmin siyahıdan göründüyü kimi, Əhli-Həqlər Həzrəti Məhəmmədi də o yeddi mələkdən birinin daşıyıcısı hesab edir. Həmin mələyin Qurani-Kərimə istinadən adı Mikayıl, "həqiqət" məqamındakı adı isə Pir Musidir. Pir Musi katib mələk sayılır. O, həm təbiət qüvvələrini idarə edir, həm də səmavi kitabların, suhufların məzhəri olur. Bu baxımdan Əhli-Həqlər Qurani-Kərimin Həzrəti Peyğəmbərə nazil olmasını da həmin fəlsəfə ilə əsaslandırırlar).

Beləliklə, Miskin Abdal Şah Xətainin əslində İmam Hüseynlə eyni ruhun daşıyıcısı olduğunu bəyan edir. Onu da xatırladaq ki, təsəvvüfdə İmam Hüseynin bir künyəsi də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Hüseyni-Yadigar”dır. Şah Xətainin özünün “Anamdır Fatimə, atamdır Əli” kimi tanınan məşhur bir misrasını hər hansı şiə fanatizminin nişanəsi olaraq deyil, məhz yuxarıdakı sistemlə izah etmək daha doğru olardı.

Bizim məqsədimiz Azərbaycan xalq yaradıcılığında özünə mühüm yer tutan təsəvvüf və ürfan qaynaqlarını mümkün qədər üzə çıxarıb, təhlil etməkdir ki, buna da misal gətirdiyimiz mənzumələrin köməyi ilə nail olmaq mümkündür.

***Aşiq olub tərki-Vətən olanın,***
***Əzəl başda pür kamalı gərəkdir.***
***Oturub durmaqda ədəbin bilə,***
***Mərifət elmindən halı gərəkdir*** (10, 84).

Bu formatdakı “aşiq”, bəzilərinin ifadə etdiyi kimi, “aşıq” – sənətkar deyildir. Tərki-Vətənliyi aşıqlığa, sənətkarlığa bağlayanlar yanlışa yol verirlər. Bu yanlışlığın səbəbi isə, Aşıq Ələsgər poeziyasının əksər tədqiqatçılarının beynində əski Sovetlər dönəmindən qalma bayağı “xəlqilik” və “realizm” idi. Bu “xəlqilik” də, “realizm” də əslində elmi ateizmə söykənirdi. Elmi ateizmin kökündə isə təkamül nəzəriyyəsi və paradoksal materializm dayanırdı. Bu keyfiyyət, təbii olaraq, bütün klassiklərimiz kimi, Aşıq Ələsgər poeziyasının araşdırılmasında da öz “xidmətlərini” göstərmişdir. Bu günün özündə də biz bu dəyərlərə qeyri-materialist və yalançı xəlqilikdən (sinfilikdən) uzaq bir tərzdə yanaşdığımızda kəskin tənqid və anlaşılmazlıqla üzüzə gəlirik. Bunun hələ uzun bir müddət davam edəcəyi qənaətindəyik.

Aşıq Ələsgərin “aşiq” deyə təbir etdiyi bədii qəhrəman onun özüdür. O, özü də bu mənada Aşıq Ələsgər yox, Aşiq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ələsgərdir. Onun bu "aşiqliyi" də materialist tədqiqatçılar tərəfindən yanlış anlaşılıb. Uzun müddət Aşıq Ələsgər öz böyük sələfləri kimi, "el-oba gözəllərinin aşiqi" olaraq təqdim olunub. Qadın gözəlliyinin davamlı məddahı kimi təbliğ olunan əksər klassiklərimiz bu mənada öz "nəsibini" almışdır.

Fəqət, bu əyriliyi düzəltmək, bu məntiqsizliyi yoluna qoymaq bir o qədər də asan məsələ deyil. Artıq şüurlara hopmuş bu mənzərəni silib atmaq müəyyən zaman və israrlı araşdırmalar tələb edir.

Aşıq Ələsgər "aşiq"liyi məhz tərki-Vətənliyə bağlayır. Bu aşiqlik heç şübhəsiz ki, dərvişlikdir. "Tərki-Vətən"lik isə bir növ tərki-dünyalıqdır. Əgər biz bu misranı **"dərviş olub tərki-dünya olanın"** kimi təbir etsək, sanki mənanın qabığı sınır və içindəki cövhər ortaya çıxır. Əlbəttə, ustad aşıq bu misranı həmin formada da təqdim edə bilərdi. Ələsgər kimi cürətli bir arif üçün burada gizlədiləsi heç nə yox idi. Lakin, "aşiq olub tərki-Vətən olanın" deməklə, Aşıq Ələsgər daha geniş mənaları ifadə edir. Zənnimizcə, buradakı "Vətən" sözü bir neçə anlamda düşünülə bilər. "Vətən" burada aşiqin mənsub olduğu daxili, mənəvi dünyadır. Burada o, doğma, öz düşüncələrində haqlı olan bir Adəm övladıdır. Fəqət, təsəvvüfdə "özündən imtina" deyilən şeyin içində sıralanan şərtlər arasında özünə doğmalıqdan, dünyəvi hüzur və səadətdən, keçici rahatlıqdan qoparaq, bir aşiq misalı haqqın və haqlı olmağın hər zaman məşuqun tərəfində olduğuna etiqad kimi nəsnələr sərgilənir. "Tərki-Vətənlik" bu mənada özündən imtinadır.

Misradakı "Vətən" kəlməsinin ürfani mətləblərlə bağlı daha geniş və inandırıcı izahı Vətən anlayışının Haqq dərgahı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olmasındadır. Haqq dərgahı şəriət elmində ədalətin və mizanın kürsüsü, məşhər ayağında bəşər övladının öz əməlləri ilə üzləşəcəyi bir yerdir. Bunlar həmin mənada, yəni mərhələ olaraq, şəriət prinsiplərinə uyğun şəkildə doğru və məntiqlidir.

Fəqət, təsəvvüfdəki Haqq dərgahı məhz vəhdətin məkanıdır. Vəhdət anlayışı, əvvəldə də qeyd etdiyimiz kimi, dində-şəriətdə tovhid, yəni Allahın təkliyi, vəhdaniyyəti üzərində qurulan bir məfhumdur. Təriqətdə isə vəhdət, insanla Allahın tək vücuddan ibarət olduğunu inikas etdirən bir məqamdır. Bu məqam isə adətən xilqət öncəsinə, bu dünyada isə, mərifət və kamal zirvələrini fəth edən eşq əhlinin mənən və cismən yaşadığı vəhdəti-vücuda şamil edilir. Bir mənada, dünyadakı vəhdət, xilqətdən öncəki vəhdətin aynasıdır, inikasıdır.

Ariflərin məqamındakı tərki-Vətənlik dərgahdan qopub, dünyaya gəlmək, ana bətninə düşməkdir. Bu, ürfani lüğətlərdə "hicran" adlanır. Dünyaya gələn körpənin ağlayışı da təsəvvüfi əsaslara görə, həmin hicranın əlamətlərindən biridir. Bütün bu mənalardan nəşət edən misralar Aşıq Ələsgərin dilində çox arifanə səslənir.

Vətən anlayışının təsəvvüf ədəbiyyatında başqa bir deyimi də vardır. Bu da divan mənzumələrində tez-tez rast gəlinən "kuyi-yar", "kuyi-nigar", "kuyi-dilbər" və başqa istilahlardır. "Kuy" fars dilində "sinə", "qucaq" mənasındadır. "Yarın sinəsi", "dilbərin qucağı" ifadələri təsəvvüf lüğətlərində məhz Haqq dərgahı, Tanrı vəhdəti, Ələst bəzmi, daha sonra tərk edilən, xatırlanıb yaşanan və dönülən yer anlamlarını ifadə edir. "Yar" burada şübhəsiz ki, Allahdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Ələsgərin Haqq dərgahına, vəhdət məkanına “Vətən” deməsi Məhəmməd Füzulinin məşhur misraları ilə səsləşir:

***Edməməm tərk Füzuli, səri-kuyin yarın,***
***Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim.*** (38, 215).

Amma bəzi tədqiqatçılar Aşıq Ələsgərin işlətdiyi “tərki-Vətən” sözünün əslində “diyar-diyar” olduğunu bəyan edirlər. Guya, Aşıq Ələsgər “Aşıq olub diyar-diyar gəzənin” deyib. Yəni, ustad aşıq diyar-diyar gəzən aşıqlardan (sənətkarlardan) bəhs edir. Buradan çıxan məna odur ki, diyar-diyar gəzən, toy-düyün quran aşığın “əzəl başda pür kamalı gərəkdir”. Bu, tamamilə səviyyəsiz və böhtan xarakterli yanaşma tərzidir. Onlar demək istəyir ki, Vətənini, elini bu qədər sevən Ələsgər nəyə görə “tərki-Vətən” olsun? O zaman biz də soruşuruq: “Toy-düyün qurmaq, xalqı əyləndirmək üçün “pür kamal” olmağa nə ehtiyac var?” Elə məntiqsizlik də buradan yaranır. Bizə görə bu məntiqsizlik, bilgisizlik və ideoloji boşluqdan törəyir.

***Oturub durmaqda ədəbin bilə,***
***Mərifət elmində dolu gərəkdir.***

Buradakı “ədəb” ifadəsi də bizə görə, termindir. Çünki sonrakı misrada buna uyğun olaraq, “mərifət elmi” ifadəsi işlənir. “Ədəb” sadəcə, ədəbli, tərbiyəli olmaq deyil. Bunlar ürfanda bəsit mənalardır. Ürfani ədəb, ilk növbədə, Haqqın hüzurundakı ədəbdir. Arif üçün isə hər tərəf Allahın zühuru, Haqqın təcəllasıdır ki, zatən “mərifət” elə xalqda Haqqı görməkdir. Xalqın önü Haqqın önüdür. Allah hər zaman xalqın içində təcəlli edə bilər. Bu mənada möminin qibləsi Məkkə, aşiqin qibləsi könüllərdir. Əslində Allah xofu deyilən şey iman əhli üçün qeyri-müəyyən, göylərdən gələ biləcək hansısa bəla anlamına gəlir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təriqətdəki xof isə, məhz qeyb aləmindəki sirrlərin xalqın, insanların içində gizləndiyinə olan inamdır. Yəni hər kəs Allahın məzhəridir. Birisinə zülm etsən də ona xidmət etsən də hər iki halda Allahla üzbəüzsən, hər iki halda onun qəlbində gizlənən Allahı görəcəksən.

***Mərifət elmindən dolu gərəkdir.***

Mərifət elmindən dolu olmaq, ürfanı başa vurmaq, "həqiqət" məqamına yetişməkdir. Yəni buradakı "dolmaq" kamilliyə işarədir. Aşıq Ələsgər sətiraltı mənalarla təkamül pillələrini çox gözəl və incə şəkildə izah edir. Elə buna görə də sonrakı bəndlərdə deyilir:

***Xalqa həqiqətdən mətləb qandıra,***
***Şeytanı öldürə, nəfsin yandıra,***
***El içində pak otura, pak dura,***
***Dalısınca xoş sədalı gərəkdir.***

Diqqət etsək görərik ki, "mərifət elmi" sözündən sonra "həqiqət" kəlməsi gəlir. Bizcə, məsələ aydındır. "Xalqa həqiqətdən mətləb" qandırmaq elə haqq əhli, Əhli-Həq olmaqdır. Ustad aşıq bəlkə də bu sıralamanı xüsusi olaraq, məqsədli şəkildə düşünməmişdir. Çünki, bəlağətindən də görünür ki, bu şeir böyük ilhamın məhsuludur, bəlkə də bədahətən deyilmişdir. Bu mənada düşünmək olar ki, Aşıq Ələsgər burada təsəvvüf mərhələlərini sıralayaraq, bu qədər incə və dəqiq şəkildə təqdim etməmişdir. Lakin bütün bunlar təsadüf də ola bilməzdi. Ona görə ki, burada məntiqi keçidlər o qədər güclü və səlisdir ki, bunu təsadüf əsəri hesab etmək ağılsızlıq olardı. Bu məntiq və nizam ustad aşığın öz daxili potensialından doğan bəhrələrdir. Hər şeyi ağılla, idrakla düşünmək elə təsəvvüfün özünə yaddır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağılın da idrakın da fövqündə qəlb, hal və həvalə dayanır. Qəlb Allahın məkanı, hal Xaliqin seyri, həvalə isə bu seyrin gəlmə şəklidir. Bu cür mürəkkəb bir sıralamanı əlbəttə ki, təsəvvüf alimi olmayan Aşıq Ələsgər ağıl və idrakla fəhm edə bilməzdi. Əslində eşqin idrakı aşağı mərtəbədir. Eşqi yaşamaq isə daha üstün məqamdır. Əksər hallarda vəcdin və halın nə olduğunu dərk edənlər onu yaşamayanlardır. Aşıq Ələsgər isə bu eşqi, bu halı yaşayan birisi olmuşdur. Əks təqdirdə bu cür qüvvətli və sərrast nəticəyə varmaq qeyri-mümkündür. Hərçənd ki, ustad "mərifət elmi" ifadəsini işlətməklə bu mətləblərin həm də elminə, quruluşuna varid olduğuna işarə vurur ki, bunun özü də çox maraqlı və müəmmalıdır. Bir daha qeyd edək ki, təsəvvüf mətləbləri ilə bağlı həmin dövrdə Göyçədə nələrin baş verdiyini biz bilmirik.

***Danışdığı sözün qiymətin bilə,***
***Kəlməsindən ləlü gövhər süzülə,***
***Məcazi danışa, məcazi gülə,***
***Tamam sözü müəmmalı gərəkdir.***

Aşıq Ələsgər burada mətləbi daha da dərinləşdirir. Belə ki, bu dəfə söhbət məcaz elmindən gedir. Məlumdur ki, bütün mətləblər məcaz və həqiqət üzərində qurulur. Məcaz həqiqəti gizlədir. Bəzən isə həqiqətin zahirinə, şəklinə çevrilir. Aşıq Ələsgərin işlətdiyi "məcazi danışa, məcazi gülə" ifadəsi isə birbaşa "rindlik" deyilən təsəvvüf termininə işarədir. "Rind" sözü ürfani lüğətlərdə (mənalarda) həqiqəti eyhamla, işarə ilə bildirmək, davranış və baxışları ilə bəzən cəlbedici, bəzən də itələyici ola bilmək və digər keyfiyyətlərdir. "Rindanə" olmaq məhz bu nəsnələrə sahib olmaqdır. Klassik ədəbiyyatda işlənən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“rindi-xərabat” ifadəsi məhz məcaz elmini daşıya bilənlərə işarədir. Daxilində həqiqət gəzdirməyənin məcaz elmini daşımağa ehtiyacı yoxdur. O, zatən məcazidir. Ürfandakı məcaz isə aldanış deyil, müəmma və rindlikdir. “Rindi-Xərabat” sözü “xərabat”ın, yəni zahirdə təkyə və xanəgahın, batində isə məna və həqiqətin məkanının “rind”i, təmsilçisi mənalarındadır. Buradakı “xərabat” xarab olmaq, dağılmaq anlamında işlənir. Bu deyim tərzi başqa bir formada “viranə”dir. Viranə də xərabat da içində gizlətdikləri mənəvi xəzinələrin qoruyucularıdır. Nağıl və əfsanələrdə rast gəlinən uçuq-sökük, dağınıq yerlərdə olan xəzinələr əslində, öz həqiqi mənasında sınıq ürəklərdə, qırılmış, parçalanmış könüllərdə yatan xəzinələrdir. Məcaz elminin, bu keyfiyyətlər baxımından təsəvvüf ərbabı üçün vacib olmasını Aşıq Ələsgər xüsusi olaraq vurğulayır. Hətta bunu şərt olaraq dəyərləndirir. Ümumiyyətlə, ürfani poeziyada şərtilik mühüm amildir. Ədəbin, ərkanın, yolun şərtləri bu yolun apardığı hədəfə yetişməkdə əvəzedilməz nəsnədir.

***Arif ola, eyham ilə söz qana,***
***Naməhrəmdən şərm eyləyə, utana,***
***Saat kimi meyli haqqa dolana,***
***Doğru qəlbi, doğru yolu gərəkdi.***

Arifin eyhamı həmin rindlikdir ki, ustad aşıq onu məcazi yolla bildirməyi və anlamağı tövsiyə edir.

Eyham işarədir. İşarə isə məcazın bir elementidir. Məcazi danışmaq elə eyhamla söz qanmağın başqa bir üzüdür. Eyham da şərtdir, çünki, dərvişlərin dili ilə desək, “ətraf aləm naməhrəmlə, yadla doludur”. Aşıq Ələsgərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Naməhrəmdən şərm eyləyə, utana –***

– misrası bu baxımdan dəyərləndirilməlidir. Buradakı “naməhrəm” həqiqətin və ürfanın sirlərinə bələd olmayanlardır. Onlardan çəkinmək, utanmaq özü də bir növ rindlik, bir növ məcazdır.

Fəqət bu misradakı “naməhrəm” sözünü adət olunduğu üzrə məhrəm olmayan qadınlar, qızlar kimi başa düşmək yersiz olardı. Təbii ki, Aşıq Ələsgər pak namus və iffət daşıyıcısı idi. Lakin “naməhrəm” sözünü bu mənada, özü də bu yerdə işlətmək ağlasığan deyil. Ən azından ona görə ki, burada misralar və bəndlər bir-birilə əlaqəli, biri digərini tamamlayıcı şəkildədir. Dərin ürfani mətləblərdən bəhs edərkən, birdən-birə hər kəsə aydın olan əxlaq məsələsini şeirin içinə salmaq bir qədər inandırıcı görünmür. Bir cəhəti də vurğulayaq ki, birinci misrada ariflikdən, ehyamdan, gizlilikdən danışılır. İkinci misrada bunun davamı olaraq naməhrəm ifadəsinin işlədilməsi məhz həmin gizliliyə, məcaza, arifliyə yetişmək üçün  naməhrəm olanlardan çəkinmək kimi tövsiyə olunur.

***Saat kimi meyli haqqa dolana...***

Bu misra da özlüyündə çox maraqlı və orijinaldır. Bir sual ortaya çıxır: Saatın meyli nə səbəbə haqqa doğrudur? Aşıq Ələsgər burada elə bir nöqtəyə təmas etmişdir ki, insan heyrətə düşməyə bilmir. Saat zamanın əlamətidir. Zamanın gedişi isə həyatın bitişidir. Həyatın sonu ölüm, ölümün sonrası Haqqa qovuşmaqdır. Beləliklə, zaman keçdikcə biz Haqqa yaxınlaşırıq – bunun fərqinə varsaq da varmasaq da. Amma saat özü öz əqrəblərini sona doğru, intəhaya, fənaya, dolayısı ilə Haqqa doğru çəkməklə, bunun fərqindədir. Bu mənada Aşıq Ələsgərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ifadəsi ədəbi-fəlsəfi tapıntıdır. Elə sonrakı "doğru qəlbi, doğru yolu gərəkdir" misrası da həmin Haqq yolunu, Haqqa gedən yolu göstərir:

***Ələsgər, haqq sözün isbatın verə,***
***Əməlin mələklər yaza dəftərə.***
***Hər yana istəsə baxanda görə,***
***Təriqətdə bu sevdalı gərəkdi.***

Son bəndin yükü çox ağırdır. Birinci və ikinci misralar bir az ənənəvi və xüsusi izaha ehtiyacı olmayan misralardır. Lakin üçüncü misradakı "hər yana istəsə baxanda görə" ifadəsi sırf mənəvi ucalıq və kamilliyin bəhrəsi olan qeybi görmək, başqalarının varid ola bilmədiyi sirlərə sahib olmaq qavramındadır. Qeybi görmək zahiri gözlə mümkün deyil. Çünki başda olan gözün funksiyaları məhduddur. Qeybi, görünməyəni görmək isə könül gözü ilə mümkündür.

***Təriqətdə bu sevdalı gərəkdir.***

Şəriətdə, Təriqətdə, Mərifətdə, Həqiqətdə batini seyrlər edən ustad aşığın sevdası onun yolu – təriqətidir. Bunu Aşıq Ələsgər çox ustalıqla mənalandırmış və bizlərə çatdıra bilmişdir.

Bir məsələyə də toxunmaq istərdik. Bu da Aşıq Ələsgərə el arasında "Dədə Ələsgər" deyilməsidir. "Dədə" bu gün də Anadolu Ələvi-Bektaşiləri arasında "pir", "mürşid" deməkdir. Həmin dədələr məhz təriqət pirləridir. Müasir dövrümüzdə bəzi aşıq sənətkarlara "dədə" deyə müraciət olunması (söhbət indiki Azərbaycan aşıqlarından gedir) doğru bir hərəkət deyil. Çünki belə adları qoşanlar və bu adlara sahib çıxanlar "dədə"liyi bir el ağsaqqallığı, hörmət, izzət sahibi olan şəxslərin kimliyi olaraq qələmə verirlər. Əslində isə "dədə" olan şəxs müəyyən missiya



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

daşıyıcısı, tabeliyində müridlər, taliblər olan mürşiddir, pirdir. İrşad əhlinin "dədə" adlandırılması Türk dünyasına xas olan bir keyfiyyətdir. Bu mənada Qorqud Atanın da "Dədə"liyi, Dədə Qorqudluğu məhz ruhani irşad, hadilik, rəhbərlik qavramında dərk olunmalı və qəbul edilməlidir.

***Aləmin padşahı,***
***Sən yetiş imdada bu gün,***
***Naqafil qarşımıza***
***Çıxdı mələkzadə bu gün,***
***Göz gördü gül camalın,***
***Könül içdi badə bu gün.***
***Can cəsəddən ayrılır,***
***Gedir bu sevdada bu gün*** (10, 210).

Müraciət etdiyimiz bu müxəmməs mövzu genişliyi, hədəfinin uzaqlığı, əhval-ruhiyyəsi baxımından zahiri gözəlliklərin vəsfinə bənzəmir. Əlbəttə ki, Aşıq Ələsgərdə insan gözəlliklərini vəsf edən çoxlu sayda nadir sənət inciləri mövcuddur. O şeirlərin qəhrəmanları əksər hallarda konkret insanlardır. Aşıq Ələsgər elə-belə məddah, özünün dediyi kimi, "arsız aşıq" deyildir. Onun sevgisi də uca idi, mənalı idi. Onun məhəbbət tərənnümlərinin içində də İlahi qüdrətin vəsfi yatırdı. Daha dəqiq desək, Aşıq Ələsgərin vəsf etdiyi gözəllər nəfsin bəhrəsi, cismani duyğuların nəticəsi olaraq görünmür. Buna Aşıq Ələsgərin hər kəsdən fərqli geniş dünyabaxışı, arifliyi, gerçək aşiqliyi imkan verməzdi. Onun gözəl qəhrəmanları oxucuda, dinləyicidə şəhvət yox, ruh yüksəkliyi yaradır. Xaliqin elminə və insanın daşıdığı cilvəyə məhəbbət aşılayır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin yuxarıda misal gətirdiyimiz "Bu gün" rədifli müxəmməs başqa mətləblərdən xəbər verir. Ustad aşığın qarşısına "naqafil" çıxan "mələkzadə" hər kimdirsə, ilk misradan o, "aləmin padşahı"nı imdada çağırır.

"Aləmin padşahı" ifadəsi, məlumdur ki, Allah-Təalaya müraciətdir. Lakin dəqiq ölçü, heca və qəliblərə ehtiyac duymayan bu mənzumədə müəllif elə "aləmin padşahı" yerinə birbaşa Allahın adını və ya adlarından birini çəkə bilməzdimi? Axı "padşah" ifadəsi Allahın "Əsmaül-hüsnası"ndan (gözəl adlarından) biri deyil. Daha öncəki bəhslərdə də vurğuladığımız kimi, "şah", "padşah" ifadələri təsəvvüfidir. Örnək olaraq, Anadolu Ələvi-Bektaşilərini xatırlamaq olar. Məsələn onlar cəm evlərində, "Haqq süfrələri"ndə "bismillah" yerinə çox zaman "bismişah" ifadəsi işlədirlər. "Bismişah" "şahın adıyla" deməkdir. Allaha "Şah", "Padşah" deyə müraciət etmək məhz Xorasan sufi məktəblərindən formalaşaraq, Səfəvilər dövründə sırf Azərbaycan təsəvvüf məktəbinə çevrilən "şahsevən"liyin nişanələrindəndir. Şahsevənlik məna olaraq, zahirdə Şah Xətaini sevənlərə şamil edilir. Hətta Cənubi Azərbaycan və Anadolunun bir hissəsində bu gün də kütləvi halda yaşayan şahsevən elləri mövcuddur. Lakin şahsevənliyin təkcə Şah Xətai ilə yaxud da başqa bir hökmdarla bağlı olmadığı qənaətindəyik. Türkiyəli alim Yaşar Kalafat yazır: "Şahsevən təbiri çox zaman Anadoluda Qızılbaş təbiri kimi yanlış anlaşılmış, ən önəmlisi isə yanlış anladılmışdır. Şübhəsiz ki, bu cür zehniyyətin yaranması qəsdən törədilmiş sosial psixoloji əməliyyatlardır. Şahsevən Türkmən boylarının hamısını Osmanlı arxiv sənədlərindən çox yaxından tanımaqdayıq. Şah sevməklə padşahı sevməyin hökmdarı sevməkdən başqa



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir şey olmadığı gerçəyi necə də ustalıqla azdırılmış; qardaş deyil, doğma qardaş olan bu Türk boyları birbirinə çox uzaqdakı böyük düşmənlər olaraq göstərilmişdir” (122, 78). Biz müəllifin qayğısını başa düşürük. O, demək istəyir ki, Şahsevənliyi Anadoluda Osmanlı-Səfəvi qarşıdurması kimi qələmə vermiş və bundan ustalıqla istifadə etmişlər. Bu doğrudur. Lakin məsələ orasındadır ki, şahsevənlik daha qədim köklərə bağlıdır. Yuxarıda adını çəkdiyimiz Xorasan sufi məktəbindən başlayaraq, insanda Həqqi-Təalanın nuri-təcəllasını görməyi təlim edən “vilayət” məmurları “Şah” dedikdə Allahın zati, sifati və feli təcəllalarını daşıyan övliya və pirləri nəzərdə tuturdular. “Hülul” nəzəriyyəsini əsas götürən təsəvvüf ərbabı “Şahi-cahan”, “Padşahi-aləm” dedikdə, həm Xudavəndi-aləmi həm də onun yer üzündəki məzhərini nəzərdə tuturdular. Təsəvvüf məntiqinə görə, zahirdəki “Şah” Allah-Təala, batindəki “Şah” isə yalnız mövcud təriqət çərçivəsindəki dərvişlərin tanıyıb qəbul etdikləri Xudanın məzhəri, valisi, təcəllasıdır.

Bu mənada Aşıq Ələsgərin işlətdiyi “aləmin padşahı” ifadəsi tamamilə sufiyanədir. Burada Aşıq Ələsgər əslində məlum bir ənənəni davam etdirir. Onun “təkrarçılığı” söz yox, kəlam yox, məna və təriqin – yolun davamıdır. Daha doğrusu, “aləmin padşahı” bir düsturdur ki, Aşıq Ələsgər onu müəyyən olunmuş qəliblər və mövzuların üstündə yarlıq – etiket olaraq təqdim edir. Biz əminik ki, “aləmin padşahı” ifadəsi işlənən hər hansı bir mənzumədə dünyəvi, keçici, fani, şəhvani, cismani duyğulardan söhbət gedə bilməz. Adama elə gəlir ki, Aşıq Ələsgər elə birinci misranın ilk ifadəsi ilə bizi xəbərdar edir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hazırlayır ki, sonra gələn mətləblərə məhz mənəvi, ürfani düşüncə ilə yanaşaq, arifanə gözlə baxaq.

"Aləmin padşahı" bir mənada da təsəvvüfdə Xudavəndi-aləmin "zati-qürsü" hesab olunan, eyni zamanda, ürfanda və "həqiqət"də "qırxların şahı" kimi bilinən Həzrət Əliyə işarədir. Qeyd etdiyimiz kimi, "mərifət" qatında (əvvəlki abzaslarda Allahın "min bir adı"na verdiyimiz izah da buna daxildir) Həzrət Əli də Həzrəti Adəm kimi Haqqın "zati sifətlər"ini daşıyan "Mövla", "Sultan", "Şah" olaraq idrak edilir. Başqa bir el şairi Göyçəli Məmmədhüseynin "Gəlmədi" rədifli divanisi də diqqətimizi çəkdi:

***İki aləmin günəşi***
***Şahi-cahan gəlmədi,***
***Dolandı kəc irəftar,***
***Keçdi dövran gəlmədi.***
***Mən ki, sənin aşiqinəm,***
***Müştağam didarına,***
***Halım oldu yen pərişan,***
***Mərdi-meydan gəlmədi.***

***Aləm oldu zimməpərəst,***
***Heydəri-Səfdər hanı?***
***Xeybərin qalasın alan,***
***Fəth edən Bərbər hanı?***
***Düldül, Zülfüqar sahibi,***
***Ağeyi-Qəmbər hanı?***
***Bir adı Şahi-Qəşəmşəm,***
***Şiri-Yəzdan gəlmədi...*** (87, 36).



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Göründüyü kimi, “şahi-cahan” ifadəsini işlədən şair Məmmədhüseyn də burada açıq şəkildə Həzrət Əlidən bəhs edir. Üstəlik diqqət etsək görərik ki, bu şeirdə həm də bir intizar fəlsəfəsi, ənənəvi “zühuri-İmami-Zaman” mövzusu hakimdir. “Müştağam didarına” ifadəsi (“didar” fars dilində “görüş” deməkdir) sırf zühurla bağlı işlənən, klassik ədəbiyyatdan gələn ənənəvi deyim tərzidir. Diqqətimizi çəkən başqa bir cəhət də bu divanidə şairin Həzrət Əli ilə İmami-Zamanın eyniləşdirilməsi oldu. Bu məsələ barəsində biz əvvəlki abzaslarda geniş izahat vermişdik. Bir daha xatırlatmaq yerinə düşərdi ki, bu iki böyük zatın adlarının bir arada çəkilməsi yalnız və yalnız mütəsəvvüflərə xas olan bir cəhətdir. Onu da əlavə edək ki, Həzrət Əlinin elə İmami-Zaman olması, yəni “həqiqət”dəki “donbadon” (hülul, tənasüx, ruhların keçidi) fəlsəfəsinə əsasən zühur edəcək xilaskarın həmin Zati-Xudavənd olması məsələsi ən çox və ən aydın şəkildə ruhani təkamülün nəzəri olaraq, dördüncü – “həqiqət” mərhələsinə xas olan bir düşüncə tərzidir.

Beləliklə, Aşıq Ələsgər

***Aləmin padşahı***
***Sən yetiş imdada bu gün –***

– deməklə, Yaradana və onun zati-mütləqinə müraciət edir. “Aləmin padşahı”ndan imdad diləməyin səbəbini isə ustad sonrakı misralarda göstərir:

***Naqafil qarşımıza***
***Çıxdı mələkzadə bu gün...***

Bu “naqafil”, yəni qəfildən, ani olan çıxış yenə də zahiri mətləblərə və nəsnələrə aid olan bir cəhətə bənzəmir. Burada “mələkzadə” “mələkdən gəlmə”, yaxud da “görünən mələk”



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

anlamında işlənmişdir (Zatən bu sözün, yəni “mələkzadə”nin hərfi tərcüməsi də bunu bildirir). Əgər bu pəncərədən baxsaq, Aşıq Ələsgərin nə qədər dərin hal və məqamlara malik olduğunun şahidi olarıq. Əlbəttə, biz burada “əgər” sözünü boşuna işlətmədik. Bizim niyyətimiz onun poeziyasına ürfani pəncərədən baxmaqdır. Elə buna görə də kiçik misraların içərisindən bu qədər məna və mətləblər hasil olur. Başqa oxucu və tədqiqatçılar bu tip şeirlərə adi gözlə, yəni zahiri, dünyəvi baxışla nəzər salır və onlarda yüksək bədii sənət nümunəsindən başqa heç nə görə bilmirlər. Elə polemika və mübahisələrin çoxu da buradan yaranır. Əlbəttə, biz demirik ki, bizim və yaxud da başqalarının fikri subyektivdir, özünəməxsus baxış tərzidir. Qətiyyən belə deyil. Əgər belə olarsa, o zaman mənasız yollarda itər və müəyyən bir hədəfə yetişmək mümkün olmaz.

Aşıq Ələsgərin bu şeirlərdə əslində nə demək istədiyi, mətləbinin və məqsədinin ürfani, təsəvvüfi, yoxsa dünyəvi, cismani olduğu o qədər də qaranlıq və qəliz məsələ deyil. Sadəcə olaraq burada illərlə formalaşmış materialist və yalançı realizmdən bir az aralanıb, çağdaş fəlsəfi müəyyənliklə düşünmək yetərlidir. O zaman bizim baxış tərzimiz də dəyişər – ölməz sənət incilərinin yaşarılığının səbəbini onların bətnindəki əbədi həqiqətlərdə, hər zaman pak və toxunulmaz qalan gerçəklərdə görərik. Əksini düşündükdə, məlumdur ki, keçici, zahiri, fani hadisələri vəsf edən sənət nümunələrinin ömrü elə həmin zahiri gözəlliklərin ömrü qədər olur. Bu, danılmaz bir məntiqdir. Bəli, Aşıq Ələsgər şeirlərinin həmişəyaşarılığının ən böyük səbəbi onların bədii sənət inciləri olmasından daha çox, onları hədəfi, bətnində daşıdıqları İlahi təcəlla və gözəlliklərdir. Elə ürfan



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elminin varlığı da Allahın dini ehkam və qanunlarla qəlblərə girə bilməyən ehtişamını könül dilində, qeyrimüəyyənlikdən uzaq, Aşıq Ələsgər demişkən “mələkzadə” bir görkəmdə təqdim etməyə xidmət edir. Bu mənada yuxarıda da qeyd etdiyimiz kimi, ürfan elmi hikmət elmindən köklü şəkildə fərqlənir. Məsələn, Aşıq Ələsgərin başqa bir divanisi başdan-ayağa hikmət yüklüdür, yəni, ürfandan ayrılır:

***Sirat, sual qabaqdadı,***
***Nə damaqdı dünyada!?***
***Kəlmeyi-şəhadət lazımdı***
***Ölən vaxtı dünyada.***
***Tut orucun, qıl namazın,***
***Şükür eylə Allaha,***
***Gül olma dünya malına,***
***Qalacaqdı dünyada*** – (10, 194).

– divanisi başdan-başa xəlqi hikmətdir. Yəni hikmətin, nasehliyin klassik, bədii vasitələrlə deyil (Mövlanada, Sədidə, Nizamidə olduğu kimi), xalq dilində, sadə dini mətləblərlə ifadəsidir.

Lakin, haqqında bəhs etdiyimiz “Bu gün” rədifli müxəmməsində Aşıq Ələsgər hikmətə deyil, ürfana söykənir. Buradakı daha bir incə məqam hikmət elminin batini, ruhi, ürfanın isə zahiri, dünyəvi mətləblərlə qarışdırılması ehtimalıdır. Məsələ burasındadır ki, çoxları Aşıq Ələsgərin hikmətamiz şeirlərinə dini-fəlsəfi, ürfani şeirlərinə isə cismani, zahiri don geydirir. Bu, kökündən yanlışdır. Unutmaq lazım deyil ki, Aşıq Ələsgər poeziyası başdan-ayağa təsəvvüf elementləri ilə doludur. Bu terminlər ayrıca lüğətlər şəklində müxtəlif mənbələrdə möv-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cuddur. Məhz bu istilahların köməyi ilə və onların zahiri pərdəsi altında Aşıq Ələsgər kimi ariflər cəmiyyətdən və ehkamlardan gizlətdikləri həqiqətləri bəyan edirdilər.

Elə həmin müxəmməsin ilk misraları da onu göstərir ki, ustad aşıq burada hansısa qeyri-adi bir gözəllikdən, qəfil, sanki qeybdən təzahür edən bir məxluqla, "mələkzadə" ilə rastlaşır.

"Mələkzadə" ifadəsi ürfani ədəbiyyatda şərti olaraq işlənir. Çünki "zadə" birləşməsi fars dilində hərfi olaraq "oğlu", "övladı" mənasındadır. Dini qaynaqlara əsasən isə, mələklərdə cinsiyyət olmadığı üçün doğub doğula bilməzlər və heç kimsə onlardan törəyə bilməz. Aşıq Ələsgərin işlətdiyi "mələkzadə" ifadəsi yuxarıda da qeyd etdiyimiz kimi, təxminən "yerdəki mələk", "görünən mələk" anlamındadır. Məhz bu səbəbdən də ustadın öz şeir qəhrəmanına yanaşma tərzi çox ehtiyatlı və qüdsaldır. Hiss olunur ki, bu yanaşma qeybani, batini və insanüstü bir mətləbdir. Bizim fikrimizcə, bu lirik qəhrəman hansısa bir övliya və ya təcəlla nurunu daşıyan bir şəxsdir. Aşıq Ələsgərin bu qarşılaşmanı "naqafil" adlandırması o qəhrəmanın gözlənilməz, daha öncə tanımadığı birisi olduğundan xəbər verir. Biz iddia etmirik ki, Aşıq Ələsgərin həyatında haçansa buna bənzər bir hadisə baş vermişdir. Bu, heç maraqlı bir hadisə də deyil. Bu qarşılaşma, bizim fikrimizcə, daha çox batinidir. Ola bilsin ki, zikr və hal məqamında ustad aşıq hansısa könül sirlərinə vaqif olub və batini ziyarətə müvəffəq olub. Ən maraqlı cəhətlərdən biri də odur ki, həmin "mələkzadə"nin "didarı"ndan – görüşündən doğan məstlik, və həyəcanla "aləmin padişahı"ndan imdad dilənir. Burada təsəvvüfi bir incələmə mövcuddur. Belə ki, ürfan aləmində Allahın mələkləri Onun sifətləri və təcəllalarıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların hərəsi bir mənəvi-ruhani aləmin inikasıdır. Xudavəndi-aləm özü isə külli aləmin, klassik ədəbiyyatda deyildiyi kimi, "on səkkiz min aləmin padişahı"dır. Məhz Onun nuri-təcəllasından Onun özünə pənah aparmaq təsəvvüfdə "naz məqamı", "İlahi cilvə və işvə" ünsürləri kimi dəyərləndirilir.

***Göz gördü, gül camalın,***
***Könül içdi badə bu gün...***

Ustad aşıq vurğulayır ki, həmin mələkzadə "gül camal" sahibidir. Bəli, Aşıq Ələsgər bu məqamı məhz xüsusi olaraq vurğulayır. Zənnimizcə, buradakı "gül camal" ifadəsi elə-belə, bədii ifadə deyildir. Bu, xüsusi bir məqamdır. Belə ki, hətta dini ədəbiyyatda belə (qəsidə və nətlərdə, eləcə də minacat və mədhiyyələrdə) "gül camal" ifadəsi Peyğəmbərimiz Həzrəti Məhəmməd əleyhissəlama ithaf edilir. Klassik ədəbiyyatda bunun çoxlu sayda nümunələri vardır. "Qədim və orta əsrlər dünya ədəbiyyatında nitqin-kəlamın, sözün və xüsusilə də bədii sözün sənətkar icadının ilahi mənşədən nəşət tapıb ecazkar yaradıcı qüdrətə malik olması təsəvvürü məlumdur" (83, 141).

Beləliklə qeyd etdik ki, buradakı "gül camal" ifadəsi ola bilsin ki, Peyğəmbər camalına işarədir. Onu da əlavə edək ki, Azərbaycan dilində "gül" sözü bütün çiçəklərə verilən addır. Halbuki, Şərq dillərində, o cümlədən də, Anadolu türkcəsində "gül" yalnız bildiyimiz qızılgülə deyilir. ("Gül" sözü farscadır. Türkcə çiçək sözü işlənir ki, bunlardan biri də bizim işlətdiyimiz "qızılgül"dür). Yəni, "gül" (qızılgül) çiçəklərdən biridir.

Buradakı "badə" isə, mətləbə uyğun olaraq, ənənəvi eşq, ürfan badəsidir. "Gül camal"dan "məst olmaq" eşq əhlinin keyfiyyətidir. Bu məstlik, təbii ki, zahiri sərxoşluq deyil. Bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məstliyi zahiri keyfiyyət kimi qəbul etmək ən azından insafsızlıqdır. Göründüyü kimi, Aşıq Ələsgər bu badəni könlündən içir:

***Könül içdi badə bu gün –***

– deməklə, ustad aşıq öz hədəfini tam olaraq müəyyənləşdirir. Bu badə könüllər tərəfindən "nuş edilir". Aşıq Ələsgər ənənəvi ürfan mətləblərini gözəl bir dildə bəyana gətirir. Bir daha qeyd etmək istəyirik ki, Aşıq Ələsgər poeziyasının mayası zahiri, dünyəvi, cismani məhəbbətdən deyil, özünün də əksər hallarda ifadə edə bilmədiyi gerçəklərin, ürfani həqiqətlərin məstliyindən, cazibəsindən yoğrulmuşdur. Bu baxımdan Azərbaycan təsəvvüf ədəbiyyatında Aşıq Ələsgər poeziyası əvəzedilməz bir yerə sahibdir. Ümumiyyətlə, təsəvvüfün Azərbaycan modeli ayrıca olaraq işlənib hazırlanması çox vacib olan bir məsələdir.

Qeyd etmişdik ki, Aşıq Ələsgərin ürfani görüşlərini onun böyük sələfləri olan mütəsəvvüf aşıq və şairlərin yaradıcılıqları ilə müqayisəli şəkildə təhlil etmək araşdırılan məsələlərə daha da aydınlıq gətirə bilər. Biz bu qənaətdəyik ki, Aşıq Ələsgər poeziyası, hər zaman yazıldığı və deyildiyi kimi, realist, çağdaş ünsürlərdən çox, klassik fəlsəfi təməllər üzərində formalaşmışdır. Bu keyfiyyət ustad-şagird ardıcıllığından ziyadə bədii-fəlsəfi ənənələrdən intişar tapmışdır. Yəni, məsələn Aşıq Ələsgəri Aşıq Alının şagirdi olaraq tanıyırlar. Lakin Ələsgər dünyagörüşünün, Ələsgər istedadının əzəməti və genişliyi bu anlayışa sığışmır. Bu məsələ aşıqlıq, şairlik, sənətkarlıq məsələsi deyil. Bizim fikrimizcə, Aşıq Ələsgər Aşıq Alının şagirdi olmaqdan çox, Azərbaycan-Türk fəlsəfi ənənəsinin layiqli davamçısı idi. Açıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəkildə söyləsək, Aşıq Ələsgər Şah Xətaidən, Dirili Qurbandan, Tufarqanlı Abbasdan daha artıq bəhrələnmişdir. Əlbəttə, zəmanəsinin böyük ustadı olan Aşıq Alının Ələsgərə olan təsirini danmaq mümkün deyil. Lakin, burada məqsəd böyük ustadları bir-birilə müqayisə etmək deyil. Məqsəd aşıq sənətinin formalaşmasında şifahi-qiyabi məfkurənin çağdaş ustad-şagird münasibətlərindən daha artıq əhəmiyyətə malik olduğunu vurğulamaqdır. Bəzən biz bədii nümunələrə, müxtəlif şeir parçalarına sadəcə bir ilham əsəri olan, gözəl bəlağət nümunəsi kimi baxmışıq. Onların daxilində yatan, çox zaman da açıq şəkildə bəyan edilən iddialı fikirlərə nəzəri-fəlsəfi cəhətdən o qədər də əhəmiyyət verməmişik.

Biz qeyd etdik ki, Aşıq Ələsgər poeziyası daha ziyadə fəlsəfi-ürfani ənənələrin davamıdır. Məsələn, böyük ustadın yuxarıdakı divanilərinin birinə təkrar qayıdaq:

***...Oxuram "inna fətəhna",***
***Mətləb allam yuxuda.***
***Şahi-Mərdan nökəriyəm,***
***Dərsimi pünhan verir*** (10, 201).

Buradakı yuxuda verilən mətləb, "inna fətəhna" ayəsi Şahi-Mərdandan alınan "pünhan dərs"lər, hamısı bizim qənaətimizcə, bədii təxəyyül vasitələrindən çox, reallıqları əks etdirən gerçək hadisələrdir. Əks təqdirdə Aşıq Ələsgər təqlidçilik etmiş, kimisə yamsılamışdır ki, buna inanmaq yanlış olardı. Axı necə olur ki, Aşıq Ələsgərin hansısa bir el gözəlinə ünvanladığı qoşma və yaxud da gəraylı geniş şəkildə təhlil olunur, konkret hadisələrlə izah olunur, ancaq yaradıcılığının böyük və əhəmiyyətli hissəsini təşkil edən ürfani və təsəvvüfi şeirlərinin üzərindən bədii-fəlsəfi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təxəyyül nümunəsi olaraq keçilir? Niyə onun hətta dərin fəlsəfi yükə malik olan bəzi şeirləri yanlış şəkildə təhlil olunur, onlara dünyəvi don geydirilərək, dəyəri və çəkisi aşağı salınır? Tutaq ki, Aşıq Ələsgərin

***Pasibanı oldum dost irahının,***
***Soruşdum, öyrəndim, yar salamatdı.***
***Belə məlum olur, şahlar şahının***
***Bizə mərhəməti var, salamatdı*** (10, 129).

– qoşmasını bəzi tədqiqatçılar hansısa mənəvi dəyəri çox aşağı olan bir hadisə ilə əlaqədar yazıldığını iddia edirlər. Ola bilsin ki, bu qoşma hansısa şəxsə, bu şəxslə əlaqədar hansısa hadisəyə müəyyən qədər bağlıdır. Lakin, aydın görünür ki, birinci misradakı "dost" həmin şəxs deyil. "Dost irahı" (dost yolu) həmin şəxsin arxasınca gedilən bir yol deyil. Bu, ən azından keçən abzaslarda da uzun-uzadı izahını verdiyimiz fikirlərin davamı olaraq, bizim gəldiyimiz qənaətdir. Fikirlərimiz subyektiv görünə bilər – bu normaldır. Lakin, həmin bənddəki "şahlar şahı" ifadəsi bizim fikrimizi təsdiqləməyə kömək edir ki, bu şeir ürfani şeirdir. Əlbəttə, nəinki ürfani, ümumiyyətlə bədii ədəbiyyatda əsas sətiraltı mətləblər bəzən konkret hadisələrin fonunda verilir. Yəni həmin hadisələr müəllifin fəlsəfi görüşlərini bəyan etmək üçün bir növ bəhanə və hətta səbəb ola bilər. Məsələn, obrazlı şəkildə ifadə etsək, şairin könlü birinə qırıldıqda, bu kədəri, bu sınıqlığı həmin əfkar sahibi olan şair biz az sonra içində gəzdirdiyi fəlsəfi-ruhani təməllərin qəlibinə salır, ona bədii-idraki don geydirir və beləliklə, ötüb keçən kiçik bir hadisədən çox böyük bir sənət nümunəsi yaranır. Buna görə də biz iddia etmirik ki, yuxarıda təqdim etdiyimiz "Salamatdır"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rədifli qoşma hansısa bir hadisə ilə əlaqədar deyil. Fəqət, bizim narahatçılığımız ondandır ki, tədqiqatçılar niyə buna bənzər nümunələri yalnız həmin keçici, yüngül, səviyyəsiz mətləblərlə izah edirlər. Axı Aşıq Ələsgər adi bir el şairi, hər yetənə məddahlıq edən bir nazim deyildi.

Ümumiyyətlə, Aşıq Ələsgərin şeirlərini təsəvvüf və ürfan metodu ilə iki cür araşdırmaq mümkündür. Bunlardan biri onun həqiqətən də konkret zahiri mətləblərlə bağlı duyğu və düşüncələrini əks etdirən şeirlərindəki gizli, ürfani qaynaqları və simvolikanı, məcazları təhlil etmək, digəri isə onun sırf, açıq şəkildə təqdim olunan təsəvvüf şeirlərini izah etməkdir. Aşıq Ələsgər mütəsəvvüf bir düşüncəyə sahib olan bir sənətkar olduğu üçün onun bütün şeirlərində sətiraltı da olsa (əlbəttə, onun bəzi həcvvari, yumoristik parçaları istisna olmaqla), ürfani fəlsəfəni əks etdirən məna və işarələrə bol-bol rast gəlmək mümkündür.

Bir az əvvəl qeyd etmişdik ki, Aşıq Ələsgər daha ziyadə öz orta çağ sələflərinin şagirdi və davamçısıdır. Onu da qeyd etdik ki, həmin sələflər məhz sırf Azərbaycan təsəvvüfünün, Azərbaycan ürfanının yaradıcılarıdır. Onlardan böyük Şah İsmayıl Xətai barədə geniş bəhs etmişdik. Şah Xətai ilə aşağı-yuxarı eyni əqidəyə, eyni məsləyə malik olan Dirili Qurban da Azərbaycan mütəsəvvüfü sayılacaq qədər əhəmiyyətli bir şəxsiyyətdir. Aşıq Qurbani bu günə qədər dastan və rəvayətlərdən öyrənilmişdir. O, indiyə qədər, belə demək mümkünsə, Pəri adlı bir qıza aşiq olan, adi bir dastan qəhrəmanı kimi tanınmışdır. Lakin, məlum məsələdir ki, onun Şah Xətainin müridi olması, konkret əqidə və məslək daşıyıcısı olması, canlı mürşidə talib olması Aşıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qurbani barədə bir mütəsəvvüf olaraq, daha geniş düşünməyi icab edir.

Onun Aşıq Ələsgər poeziyası ilə səsləşən şeirləri həmin ruhani silsilənin davamiyyətindən xəbər verir. Onun məşhur bir qoşmasına diqqət edək:

***Haqqım əmr eylədi, gəldim dünyaya,***
***Gözüm açdım, meyl eylədim o burca.***
***Arif oldum, haqq kəlamın oxudum,***
***Əlif qəddim dal eylədim o burca.***

***İsmin xəbər aldım, dedi Vəlidi,***
***Göydə gəzən Cəbrayıldı, Pəridi,***
***Qapıçısı Şahi-Mərdan Əlidi,***
***Məhəmməd Meraca gedər o burca.***

***Qurbani der, arayıban tapmışam,***
***Qırxlar məclisindən bir pay qapmışam,***
***Kəbədisə, mən də birin yapmışam,***
***Min könüldən bir yol gedər o burca*** (19, 45).

Bu qoşma çox diqqətəlayiqdir. Xilqətin təsəvvüfanə təsviri bu şeirdə çox güclüdür. Şeirin rədifi olan "o burca" ifadəsi daha öncələr də bəhs etdiyimiz Haqq Dərgahına, "kuyi-yarə", "Ələst bəzmi"nə işarədir. Burada gözəl bənzətmələr vardır. Məsələn:

***...Arif oldum, haqq kəlamın oxudum,***
***Əlif qəddim dal eylədim o burca.***

Ariflik ürfandır. "Haqq kəlamı" isə həm Quran ayələri, həm də Əhli-Həq kəlamlarıdır. Biz izahat vermişdik ki, Əhli-Həqlərdəki cəm şeirləri, zikr kimi istifadə olunan "24 quyəndə"nin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mənzumələri “kəlam” adlanır. Çox güman ki, Qurbaninin də işlətdiyi “haqq kəlamı” ifadəsi termindir. Yəni, burada söhbət “həqiqət” nəzəriyyəsini özündə ehtiva edən, “kəlam” adlanan zikri-ilahilərdən gedir.

Qeyd etdik ki, buradakı “haqq kəlamı” Quran ayələri də ola bilər. Əslində Aşıq Qurbaninin “haqq kəlamı” deyərkən həm Quran ayələrini, həm də Əhli-Həqq kəlamlarını qovuşuq, vəhdət halında görüb təsvir etməsi mümkündür. Məlum olduğu kimi, Qurani-Kərimin bəzi ayələri (kiçik surələri) namaz qılınarkən istifadə olunur. Namazdan bəhs etməyimizin səbəbi “Əlif qəddim dal eylədim o burca” misrasıdır. Məlumdur ki, namazda ayaqda durmaq (“qiyam”), əyilmək (“rükü”), səcdəyə getmək (“səcdə”) kimi məqamlar vardır. “Əlif” hərfi düz xəttə bənzədiyi üçün onu “qiyam”a, “dal hərfi isə əyri olaraq “rükü”yə bənzədiyi üçün Aşıq Qurbani burada həm də namaza işarə etmişdir. Klassik ürfan estetikasında bu hərflərə “mim” hərfi də əlavə olunaraq, “qiyam”, “rükü” və “səcdə” olaraq, “Adəm” sözünə təşbeh olunmuşdur. Yəni “Adəm” sözü ərəb əlifbası ilə namaz qılan adamın sıra ilə hərəkətlərinə bənzəyir.

Ümumiyyətlə, buna bənzər keyfiyyətlər şifahi xalq yaradıcılığının ən mühüm qollarından olan aşıq yaradıcılığına klassik ürfan və hikmət fəlsəfəsinin danılmaz təsiri olaraq keçmişdir. Bu baxımdan Aşıq Qurbanidən Aşıq Ələsgərə qədər gələn bir dövr ərzində (tarixin bütün keşməkeşlərinə, təbəddülatlarına rəğmən) ürfan və təsəvvüf xətti qırılmamışdır. Bu, əqidə və məslək olaraq, ustad-şagird ardıcıllığından daha çox, bir inam və yəqinlik məsələsi idi. İnanc sistemi isə, “təriqət” və “mərifət”də, (eləcə də “həqiqət”də) eşq və aşiqlik olaraq dəyərlən-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dirilir. Bu mənada mütəsəvvüflərin dünyagörüşündəki qəliblər və əlamətlər çox zaman şəriət və din ehkamları ilə üst-üstə düşmür. Ona görə də ürfan əhlinin istifadə etdikləri qaynaqları dini və şəriət məntiqini daşıyan ölçülərlə izah etmək yox, məhz ürfan və təsəvvüf nümunələri ilə müqayisə və təfsir etmək doğru olardı. Yəni, örnək olaraq, Aşıq Ələsgərin dünyagörüşündəki ürfani sistemin qaynaqlarını və analoqunu məhz Aşıq Qurbanidə, Tufarqanlı Abbasda, digər mütəsəvvüflərdə axtarmalıyıq. Əks təqdirdə bu mənzumələrə dini pəncərədən baxılaraq, heç bir məntiqi nəticəyə yetişmək mümkün olmayacaq. Daha konkret şəkildə ifadə etsək, Aşıq Ələsgərin ürfani poeziyası ənənəvi, klassik Azərbaycan xalq təsəvvüfünün bir parçasıdır.

Aşıq Ələsgərin, yuxarıda izahını verdiyimiz "Ya Əli" rədifli qoşmasındakı

***Aslan olub, Merac yolunda yatan –***

– misrası Aşıq Qurbaninin

***Qapıçısı Şahi-Mərdan Əlidi,***
***Məhəmməd Meraca gedər o burca –***

– misralarıyla eyni mənanı ifadə edir.

Ondan əvvəlki

***İsmin xəbər aldım, dedi Vəlidi,***
***Göydə gəzən Cəbrayıldı, Pəridi –***

– misraları isə daha dərin mənalı mətləblərdən xəbər verir. Buradakı "Göydə gəzən Cəbrayıldı, Pəridi" misrası Merac əhvalatı ilə bağlı dini rəvayətlərdəki bir məqama istinad edir. Rəvayətdə deyilir ki, Rəsulallah Allahın əmri ilə Məkkədən Qüdsə gəlir və oradan "Büraq" adlı bir məxluqla Meraca qalxır. ("Büraq" haqqında Qurani-Kərimdə müfəssəl olaraq heç bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məlumat yoxdur. Yalnız onun adı çəkilir. Şəriət təfsirlərində isə Büraq başı adam, bədəni ata bənzər bir heyvan olaraq göstərilir. Bunlar əlbəttə ki, əfsanəvi rəvayətlərdir və gerçəyi əks etdirməyə bilər. "Büraq" haqqında həqiqətə daha yaxın fikir ondan ibarətdir ki, bu söz ərəb dilində "bərq", "bərraq" – işıqlı, işıq saçan (müasir ərəbcədə elektrik) anlamındadır. Bu da Büraqın bəlkə də hansısa kosmik gəmiyə bənzər bir nəsnə olduğu işarətlərini verir. Qeyd edək ki, bunlar bizim subyektiv fikirlərimizdir və həqiqətdən uzaq ola bilər). Meracda Allahın Rəsulu elə bir məqama yetişir ki, onu müşayiət edən əzəm mələk Cəbrayıl buradan o tərəfə getməyə gücünün yetməyəcəyini bəyan edir. Aşıq Qurbani məhz bu məsələyə istinad edərək, Həzrət Əlini Merac qapıçısı və ya Meracın qapısı adlandırır. Yəni, onun məqamını mələklərdən də üstün görür.

Qurbaninin bu misraları Aşıq Ələsgərin yuxarıdakı

***Musaya öyrədən Turda kəlməni,***
***Cəbrayıla ustad olan ya Əli***

– misralarını xatırladır.

Aşıq Qurbaninin

***Mənə badə verib Həzrəti Əli,***
***O, nə ki buyurub, demişəm: – bəli...*** (19, 51).

– misraları Aşıq Ələsgərin şeirləri ilə heyrətamiz dərəcədə üst-üstə düşür. Buradakı "bəli" ifadəsi sadəcə ona edilən biət, ona deyilən "ləbbeyk" deyil. Bu "bəli" Ələst günündəki "bəli"dir ki, Aşıq Ələsgər onu

***Ələstdən "bəli" dedim,***
***Nə xoş kamaldı yüküm –***

– şəklində ifadə edir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ümumiyyətlə, Həzrət Əlidən gələn badənin eşq meyi, Ələst camı olduğu fikri klassik və şifahi xalq ədəbiyyatında çox geniş yayılmış təsəvvüf dünyagörüşüdür. Dastan və rəvayətlərdə, daha öncə də qeyd etdiyimiz kimi, bu badə Xizr butası ilə eyniləşdirilmiş, Həzrət Əli Xızra, badə isə butaya transformasiya olunmuşdur. Lakin buradakı "badə" sırf ürfani, təsəvvüf təməlli, yəni folklorlaşmamış bir şəkildədir. Qurbani başqa bir şeirində belə deyir:

***Bir kimsənə gəldi mənim üstümə,***
***Yazılı şəninə ya minəl-əta.***
***İmam ola, damad Əhmədi-Muxtar,***
***Doldurub camını eylədi əta*** (19, 44).

Buradkı "cam" da həmin eşq badəsidir ki, onu "ərənlər şahı", "qırxlar piri" sayılan Həzrət Əli verir. Daha incə bir məqam, təsəvvüfdə imanla eşqin fərqli ünvanlardan gəlmə məsələsidir ki, bunu burada xatırlatmaq yerinə düşərdi. Həmin məqam ürfani təfəkkür tərzinə əsasən, imanın Həzrəti Məhəmməddən, eşqin isə Həzrət Əlidən qaynaqlanmasıdır. Həzrət Əlinin aşiqlərə badə verməsi də məhz bu əfkardan törəyən bir inanc və əqidə sistemidir. Həzrət Əlinin bu mənadakı ustadlığı da mürşidlik, pirlik olaraq dəyərləndirilir.

Bu paralellər zahiri bir bənzərlik, yaxud da yuxarıda qeyd etdiyimiz kimi, təkrarçılıq və ya təqlidçilik deyil. Bu uyğunluq fəlsəfi-ürfani təmayüllərə söykənən təsəvvüf dünyagörüşünün silsiləli sistemlə davamının bədii şəkildə təzahür edən keyfiyyətidir ki, bu keyfiyyətin biz Aşıq Ələsgər poeziyasında ən yüksək zirvəsinə çatdığını görürük.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Ələsgər də həmin qaynaqlardan faydalanmışdır. Onun dini motivlərə ürfani yaxınlaşma tərzi müdhiş bir ənənədən xəbər verir. Yaşadığı dövrün və mühitin Səfəvilər dövrünə nisbətən ürfani baxımdan xeyli dərəcədə fərqli və təsəvvüf ənənələrindən uzaq olmasına baxmayaraq, Aşıq Ələsgər həmin ənənəni çox ləyaqətlə davam etdirmiş, Azərbaycan xalq təsəvvüfünün yoxluğunu hiss etdirməmişdir. Əlbəttə, müasirlərindən, öz qohumu Növrəs İman kimi dərya kamallı bir ürfani şəxsiyyətin mövcud olması Göyçə mühitinin, hətta həmin dövrdə belə təsəvvüf dəyərlərini qoruyub saxladığının təsdiqidir. Lakin ümumi, tarixi baxımdan Aşıq Ələsgər təsəvvüf düşüncəsinə malik olan bir şəxsiyyət kimi, dövrünün və mühitinin tənha ariflərindən biri idi. Bu tənhalığın əsas keyfiyyətlərindən biri isə həmin dövrdə ürfani silsilənin mövcud olmamasıdır ki, biz Aşıq Ələsgərin özündən sonra nə yaxınları, nə də xələflərində mütəsəvvüf dünyagörüşünün şahidi olmamışıq. Bu, məhz həmin ürfani kəramət və möcüzədir ki, əsrləri adlayaraq, xüsusi məktəb və silsilənin konkret şəkildə mövcud olmadığı şərtlər altında Ələsgər məfkurəsinin tərkib hissəsi olmuşdur.

Lakin, buradakı ən mühüm amillərdən biri Səfəvilər ideologiyasının azərbaycançılıq formulunu yaratması və bu formulun da təsəvvüf dünyagörüşü ilə iç-içə olması məsələsidir. Qeyd olunduğu kimi, təsəvvüf dünyagörüşü Azərbaycan məkanında daha öncələr də mövcud idi. Lakin bu dünyagörüş Azərbaycan ərazilərində formalaşsa da sırf AzərbaycanTürk milli özəlliklərinə malik deyildi. Məhz Azərbaycan təsəvvüfünün yaranması Səfəvilərin hakimiyyəti dövrünə təsadüf etdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şərq xalqları içərisində ürfan və təsəvvüf dünyagörüşü və geniş şəkildə yayılmış mütəsəvvüfanə həyat tərzi hər bir xalqın öz mədəni-estetik dəyərlərinin yaratdığı formalarda təzahür edirdi. "Ürfan dünya intibah mədəniyyətinin ən əski qatlarını təşkil edir. Bu qatları formal şəkildə üç dövrə ayırmaq olar: 1.Dinlərə qədərki qatlar; 2.Orta qatlar və ya ilkin naturalistik-mifoloji inanışların təşəkkül və inkişaf etdiyi dövrlərin maddi mədəniyyət qatları. Azərbaycan ictimai şəraitində muğ mədəniyyəti-atəşpərəstlik-zərdüştilik; 3. İslamiyyət dövründə təşəkkül və inkişaf etmiş ürfan" (86, 162). Təbii olaraq, bu təzahürün ən mühüm atributu ədəbiyyat və incəsənət idi. Deməli buradan belə bir nəticə çıxır ki, hər bir xalq öz dili ilə, öz musiqisi ilə özünəməxsus ürfani fəlsəfə yaşadırdı. Belə olan surətdə, Azərbaycan dilinin və heç bir ortaq dəyərlərə malik olmayan, sırf türk milli ruhunun tərcümanı olan sazın və aşıqlı-ğın ürfani mətləblərə xidmət etməsi Azərbaycan Səfəvilər Dövlə-tinin milli siyasətinin və bu siyasətin başında dayanan Şah İsmayıl Xətainin öz milli mənsubiyyətinə olan sədaqəti və bağlılığı ilə əlaqədardır. Biz bu məsələlər barəsində daha öncələr də izahat vermişdik və irəlidə də yeri gəldikcə həmin mövzuya qayıdacağıq.

Göyçə mühiti və Aşıq Ələsgər poeziyası məhz Şah Xətaidən, Miskin Abdaldan, Dirili Qurbandan, Xəstə Qasımdan, Tufarqanlı Abbasdan gələn sırf azərbaycanlaşmış bir təsəvvüf modeli əsasında intişar tapmışdı. Bütün bunlar əlbəttə ki, təbii və tarixi cəhətdən məntiqi proseslər idi. Aşıq Ələsgər möcüzəsi isə ondan ibarət idi ki, özüylə həmin mütəsəvvüflər arasındakı bir



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

neçə əsrlik fasiləyə baxmayaraq o, həmin ürfan və təsəvvüf ənənəsini yaşada bildi.

***...Həm aşiqəm, həm dərvişəm, həm dəli,***
***Könlüm gözəllərin yol qurbanıdır –*** (10, 70).

– deyən böyük ustadın bu misralardakı kəramət və ilhamı çox aydın şəkildə özünü büruzə verir. Diqqət etsək, görərik ki, təsəvvüfün müəyyən məqamlarını dərvişlik, aşiqlik, dəlilik kimi pillələrini sadalayan aşıq gözəllərdən və onların yollarından bəhs edir. Bu "gözəllər" heç şübhəsiz ki, müqəddəslər və məsumlardır. Çünki dərvişlikdən, abdallıqdan danışan şəxs eyni şeirin, hətta eyni bəndin içərisində, çoxlarının sandığı kimi, "el gözəlləri"ndən, zahiri, dünyəvi keyfiyyətlərdən bəhs edə bilməzdi. Üstəlik buradakı "yol" da təriqətdir (Zatən, ərəb dilində "təriqət" "yol" deməkdir). Deməli, gözəllərin yolu müqəddəslərin, övliyaların, ərənlərin yoludur, təriqətidir. Aşıq Ələsgər belə bir şəxsiyyət idi. O, konkret olaraq, hansısa təriqətə, mürşidə qulluq etdiyini açıq şəkildə bildirməsə də, onun Haqq yoluna olan sadiqliyi, eşqi-İlahiyə olan məhrəmliyi şeirlərində özünü aydın şəkildə göstərir.

Aşıq Ələsgər poeziyası əsl Azərbaycan-Türk məfkurə sisteminin ləyaqətli təmsilçisidir. Bu təmsil etmənin ən mühüm atributu və ən köklü məsələsi məhz ürfan və təsəvvüfdür. Bir daha vurğulamaq istəyirik ki, Azərbaycan ürfanının, milli təsəvvüf fəlsəfəsinin formalaşmasında Aşıq Ələsgərin və onun sələfləri olan şifahi xalq yaradıcılığının tanınmış nümayəndələrinin böyük xidmətləri olmuşdur. Təsəvvüf və ürfanı isə Azərbaycan milli məfkurəsindən ayırmaq mümkün deyil.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ümumiyyətlə, təxminən X əsrdən başlayaraq, bütün Yaxın və Orta Şərqin əqli və ruhi inkişafının əsas parametrlərindən biri təsəvvüf idi. Tarixdə bu fəlsəfi model daha çox bədii əsərlərdə yaşamalı oldu. Əlbəttə, təsəvvüfə dair elmi-nəzəri əsərlərin sayı kifayət qədərdir. Fəridəddin Əttar Nişaburi, Əbu Səid Əbu Xeyr, Əbu Həmid Qəzzali, Muhyiddin Ərəbi, Cüneyd Bağdadi, Sərrac Tusi, Molla Sədra və başqa müəlliflərin əsərləri təsəvvüf elminin bir sistem şəklində yaranıb var olmasında əsas rolu oynadı. Lakin bu əsərlər zaman keçdikcə bir ideologiya, təfəkkür tərzi və praktika olaraq, öz əhəmiyyətini yavaş-yavaş itirməyə başladı. Çünki tarixin təkəri tənəzzül və tərəqqilərlə bərabər insanlığı məcburi, qaçılmaz məfkurə deformasiyasına sürükləyirdi. Uzun əsrlər boyu Yaxın və Orta Şərqdə demək olar, bütün ictimai təbəqələri əhatə edən təsəvvüf cərəyanı istər-istəməz öz nəzəri bazasını boşaltmağa doğru gedirdi.

Fəqət, qeyd etdiyimiz kimi, təsəvvüf və ürfan təkcə elmi-nəzəri bazadan ibarət deyildi. Bu qədər zaman keçməsinə baxmayaraq, hələ də Yaxın və Orta Şərqin mənəvi-mədəni etiketi olan təsəvvüfün yaşam sirri, əlbəttə ki, böyük mütəsəvvüflərin yaratdıqları bədii əsərlərdə yatır. Etiraf etmək lazımdır ki, başdan-ayağa məcazlar və rəmzlərlə dolu olan klassik Şərq ədəbiyyatı təsəvvüf nəzəriyyəsini elmi əsərlərdən daha aydın və milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanlıq üçün daha anlaşılan bir hala gətirmişdi. Sadə dillə desək, xüsusilə divan ədəbiyyatı təsəvvüf və ürfanı qəlizlikdən çıxarıb, gözəllik və estetikanın axarına qoşdu. Əgər belə demək mümkünsə, təsəvvüf üçün mütəsəvvüf şairlər mütəsəvvüf alimlərdən daha çox iş gördülər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün bunların zəminində, haqqında bəhs etdiyimiz Türk xalq təsəvvüfünün əhəmiyyətli qollarından biri olan Azərbaycan klassik aşıq ədəbiyyatı Azərbaycan-Türk milli məfkurəsinin formalaşıb, özünəməxsus şəkil almasında əvəzedilməz rol oynadı. Maraqlıdır ki, Azərbaycan klassik divan ədəbiyyatı divan təsəvvüfünün son nümayəndəsi olan Seyyid Əzim Şirvaniyə qədər öz konservativliyini və elitarlığını qoruyub saxladı. Yəni, yazılı təsəvvüf ədəbiyyatının nümayəndələri olan Azərbaycan klassikləri də ənənəvi Şərq mütəsəvvüfləri kimi, xalqdan müəyyən məsafədə ayrı idilər. Xalq təsəvvüfünün Azərbaycan modeli isə, daha öncə də söylədiyimiz kimi, əsas etibarilə Azərbaycan aşıq ədəbiyyatı idi.

Maraqlıdır ki, bir-birilərinə yaxın dövrlərdə yaşamış olan Seyyid Əzim Şirvani və Aşıq Ələsgər, biri klassik, digəri xalq təsəvvüfünün Azərbaycan versiyası üzrə sonuncu nümayəndələri oldular. Bu, əlbəttə ki, təsadüfi deyil. Əksinə, bu fakt tarixi bir zərurətdir ki, həm divan ədəbiyyatında, həm də aşıq ədəbiyyatında hər iki önəmli şəxsiyyətdən sonra özünü bariz şəkildə göstərdi. Yəni, təsəvvüf və ürfan çərçivələrində nə Seyyid Əzim Şirvani, nə də Aşıq Ələsgərin davamçıları olmadı (Bu barədə biz sonrakı fəsildə bir az geniş məlumat verəcəyik).

Aşıq Ələsgərin poeziyası belə bir vaxtda ədəbi və fəlsəfi qaynaqlara söykənərək, öz varlığını sürdürürdü. Bu qaynaqlar, bir az əvvəl də qeyd etdiyimiz kimi, əsas etibarilə Miskin Abdaldan, Şah Xətaidən, Dirili Qurbandan, Xəstə Qasımdan, Tufarqanlı Abbasdan başlayaraq, üzü bəri gələn Azərbaycan aşıq ədəbiyyatı idi. Həmin şəxsiyyətlərin əsərləri Aşıq Ələsgər üçün



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

təkcə ədəbi-bədii nümunələr deyildi. Aşıq Ələsgər mükəmməl bir aşıq-sənətkar olaraq, kamil bir şəxsiyyət idi.

El şənliklərində, möhtəşəm aşıq məclislərində söylənilən dastan və rəvayətlərin, yaddaşdan-yaddaşa ötürülən şeirlərin ən mahir daşıyıcılarından biri elə Aşıq Ələsgərin özü idi. Bu da təbii ki, onun bilik və təcrübəsinin, təfəkkür dairəsinin genişliyindən xəbər verirdi. Klassik şair və aşıqların əsərləri, onlar haqqındakı dastan və rəvayətlər Aşıq Ələsgərdən ötrü həm də bir ürfan və hikmət qaynağı idi. Bu ötürmə yaddaşdan-yaddaşa şifahi şəkildə də olsa, güclü əqidə və inanc sisteminə əsaslandığı üçün yaşarı bir hala gətirildi və Azərbaycan türkünün halal sərvətinə çevrildi.

***Firdovsi, Füzuli, Hafiz, Nəsimi,***
***Onlar da yazdığı ayə, məndədi –*** (87, 48).

– deyən ustad aşıq bu misralarda elə-belə, söz xatirinə iddialar etməmişdir. O, özü bəlkə də bunun fərqində deyildi, amma milli yaddaşımızın möhkəmlənməsində, onun fəlsəfi çalarlarının azərbaycanlaşmasında Aşıq Ələsgərin yeri özünəməxsus və əvəzedilməzdir. Çünki o, aşıq idi, onun sazı heç bir müştərək dəyərlərə malik olmayan, tamamilə milli bir incəsənət vasitəsi idi. Onun şair kimi yüksək ilhamı, heyrətamiz həvalə və kəraməti bu keyfiyyətləri tamamlayırdı. O, təbiri caizsə, öz dövrünün və özündən sonrakı dövrün bir Azərbaycan mürşidi, Azərbaycan dədəsi olmağa bütün cəhətləri ilə layiq bir şəxsiyyəti idi. Möhtəşəm və kamil fikirlər, heç bir irada tuş gəlməyən saf, şəffaf, eyni zamanda, yaradılması çox çətin olan, amma sadə xalqın bu gün də, gələcəkdə də dilinin əzbəri olacaq şeirləri ilə Aşıq Ələsgər, təbəqəsindən və düşüncə tərzindən asılı olmayaraq, hamının qəlbində taxt qurmuşdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, qəliz şeir formaları olan təcnis və dodaqdəyməzlərində belə heç vəchlə sözçülük etməmişdir. Əksinə, çox mühafizəkar bir şəkildə məna və mətləbləri qoruyub saxlamışdır. Aydın şəkildə görünür ki, Aşıq Ələsgər şairlik xatirinə, gözəl söz xatirinə şeirlər qoşmurdu. Bunlar daxili vəcd və ehtizazın gözəl bəhrələri idi:

***Ahəngər deyiləm, naşı bəzirgan,***
***Gözüm dürdanədə, a yəməndədi.***
***Sinəmdədi eşqin şirin çeşməsi***
***Ləzzəti meyl edib, ay əməndədi.***

***Bir sazım var yox pərdəsi, nə simi,***
***Onun çalıb, kim tərpədər nə simi?***
***Firdovsi, Füzuli, Hafiz, Nəsimi***
***Onlar da yazdığı ayə, məndədi.***

***Kişi gərək zəhmət çəksin, dər salsın,***
***Süfrə açsın, ad qazansın, dər salsın.***
***Dərsi azlar Ələsgərdən dərs alsın,***
***Altı min altı yüz ayə məndədi*** (87, 48).

Bu təcnis insanın qəlbini vəcdə gətirir, onu dəhşətə salır. Çoxları tərəfindən "savadsız olmuşdur, hərf tanımamışdır" deyə anılan Dədə Ələsgər "Altı min altı yüz ayə məndədi" deyir. Görəsən o, həqiqətən savadsız olmuşdur? Bizim fikrimizə görə isə, onun bu sözlərinin savadlı olub-olmamağına heç bir aidiyyatı yoxdur. Məsələ burasındadır ki, Aşıq Ələsgər şəriət əhli yox, ürfan əhli idi. Məlumdur ki, şəriət elmi zahiri bilgilərdən ibarətdir və bu elmə yiyələnmək həqiqətən də insandan savad



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tələb edir. Təriqət və ürfanda isə elm anlayışı kitablardan, yazı-pozulardan ibarət deyil. Ürfan ərbabı elmi batini yolla, mürşid əli ilə, pir nəfəsi ilə öyrənirlər. Əgər belə olmasaydı, zahiri savadı olmayan Aşıq Ələsgər yuxarıdakı kimi iddialar etməzdi.

Biz bu məqamda yenə də Əhli-Həqq nəzəriyyəsinə baş vurmaq məcburiyyətindəyik. Çünki həmin misraları başqa yolla izah etmək mümkün deyil. "Həqiqət" elmində Əhli-Həqlərə fars dilində "sefidexan" deyilir. Bu ad onlar üçün bir növ künyə və tərifdir. "Sefidexan" farsca "ağları, ağ yazıları oxuyan" deməkdir. Yəni, buradan çıxan məna budur ki, başqaları Qurani-Kərimin qara yazılarını (görünən xəttini), onlar isə ağ yazıları (görünməyəni və qara xətlərin arasında olanları) oxuyurlar. Bu mənada "sefidexan" ifadəsi çox diqqətçəkəndir.

Qurani-Kərimi bəzən üzündən oxuya bilməyən bir çox arif və övliyaların özlərini "hafiz", "Quranın cəm olduğu vücud" adlandırmaları boş iddialara deyil, məhz həmin nəzəri fikrə söykənir. Aşıq Ələsgər də həmin ariflərdən biri idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# III FƏSIL

# AŞIQ ƏLƏSGƏR POEZİYASI VƏ KLASSİK DİVAN ƏDƏBİYYATI NÜMUNƏLƏRİ İLƏ ÜRFANİ PARALELLƏR

## M.Füzuli, Ə.Nəbati, S.Ə.Şirvani və digər klassiklərlə müqayisəli təhlillər

Klassik ədəbiyyat nümunələri ilə xalq yaradıcılığı inciləri arasındakı fəlsəfi və bədii paralellər bir neçə aspektdən araşdırıla bilər. Bu paralellər əsas etibarilə məna və məzmun qəlibləri arasındakı ənənəvilikdir.

Söhbət Yaxın və Orta Şərq divan ədəbiyyatında gedən fəlsəfi-ürfani cərəyanların əslində bədii sənət faktorundan çox ruhani-əqidəvi proses olmasından gedir. Bu məsələ kifayət qədər araşdırılmamışdır. Yəni divan şairlərinin yalnız bir sənətkar, mütəfəkkir olaraq düşünülməsi onların daşıdıqları fəlsəfi yükün, yaşadıqları qeyri-adi mənəvi həyat tərzinin əhəmiyyətinə kölgə salmışdır. Bu keyfiyyət divan ədəbiyyatını uzun bir müddət ərzində xalq məfkurəsindən, kütlə psixologiyasından uzaq tutmuşdur. Məsələn, tutaq ki, təsəvvüf ədəbiyyatının azman nümayəndəsi Hafiz Şirazi bütün dünyada möhtəşəm bir şair olaraq məşhurdur. Əslində isə Hafiz ürfan əhli tərəfindən böyük pir, mürşid, övliya kimi qəbul olunur. Məsələ burasındadır ki, onun pirliyi, övliyalığı təkcə sağlığında, yaşadığı dövrdə mövcud olan bir hadisə olmamışdır. Təsəvvüf ərbabı Hafizi "bütün zamanların övliyası" adlandırır. Bu keyfiyyətlər eynilə Mövlana Cəlaləddin Rumiyə də şamil edilir. Əslində divan ədəbiyyatının



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

böyük nümayəndələrinin mənəvi-ruhani məqam sahibləri olması Mövlananın timsalında daha aydın şəkildə büruzə vermişdir. Mövlananı əksəriyyət bu gün də yalnız bir şair olaraq tanımır. O, öz həyatı ilə mənzum sənətin bir vasitə olduğunu, şairliyin keçici bir hadisə olduğunu iddia etmiş və sübuta yetirmişdir. Onun elə sağlığında "Mövlana" adlandırılması bu böyük arifə verilən mənəvi-ruhani dəyərin ən aydın göstəricisi idi.

Eyni fikirlər böyük Azərbaycan mütəfəkkiri, mütəsəvvüf şairi Seyyid İmadəddin Nəsimiyə də aiddir. Nəsimi də bu günə qədər (xüsusilə son yüz ilə yaxın bir dövrdə) sadəcə, gözəl bir şair kimi tanınmışdır. "Nəsimi – insan və şair idi, onun həyat və yaradıcılıq fəaliyyəti tamlığın, vəhdətin gözəl bir nümunəsi idi" (145, 60). Əlbəttə, Nəsiminin də Mövlananın da Hafizin də digərlərinin də fəlsəfi-ürfani dünyagörüşləri, çoxcəhətli şəxsiyyətləri barədə kifayət qədər deyilib, yazılıb. Lakin onların təkcə bir şair-sənətkar olmadıqları, milyonlarla insanın həyatını dəyişdirən, əqidə yoluna çevrilən ruhani məqamları yenə də arxa planda qalmışdır.

Bizim düşüncəmizə görə, Şərq divan ədəbiyyatı nümayəndələrinin bədiyyatı bir vasitə, bir ötürücü olaraq seçmələri və bu rəng altında əslində bəşər fikrini, dünya həyatını yönləndirən məktəb sahibi olduqlarının kifayət qədər araşdırılmamasının əsas səbəbi onların daşıdıqları fəlsəfəyə yetərincə ictimai əhəmiyyətin verilməməsidir. Bu fəlsəfi yük, təsəvvüf dünyagörüşünə əsasən, öz bətnində bəşər ağlının əslində daima diri olan ("Həyy" olan) Allahın bir sifəti olduğunun görünən şəklidir. Sufilərə görə, Allah insan vəhdəti birincidir. İkinci olan isə kəsrətdir –



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

çoxluqdur, parçalanmadır. Kəsrətdən vəhdətə – ikilikdən birliyə yetişmək amal olaraq, əsilə, qayəyə, mənbəyə dönüşdür.

Azərbaycanın tanınmış tədqiqatçı alimlərindən olan Ramiz Fasehin "Seyyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi" kitabında maraqlı fikirlərlə rastlaşırıq: "Bəziləri demişlər ki, Nəsimi bu təxəllüsü öz müəllimi (mürşidi) Şeyx Fəzlullah Nəiminin təxəllüsünə uyğun olaraq götürmüşdür. Bəziləri də demişlər ki, "Nəsimi" "sübh yeli" mənasındadır. Lakin bu fikirlərin hər ikisi yanlışdır. Əvvəla ona görə ki, bu fikirlərin hər birini ayrı-ayrılıqda təsdiq edə biləcək heç bir elmi və tarixi mənbə, əsas yoxdur. İkincisi də ona görə ki, Nəsiminin bütün yaradıcılığından tam və dəqiq şəkildə aydın olur ki, o, hürufu şairidir və hürufilik təriqəti də sufi (təsəvvüf) fəlsəfəsinin bir qoludur, əsil, həqiqi mənası da qədim Şərq filosoflarının (məsələn, Cüneyd Bağdadinin, Mühyəddin ibn əl-Ərabinin, Əbu Həmid əl-Qəzzalinin, Şeyx Mahmud Şəbüstərinin, Əbdürrəhman Caminin və s.) yazdıqlarına görə, Allahın insanda əks olunması deməkdir. Necə ki, Quranın 50-ci "Qaf" surəsində deyilir: **"Biz insana onun boynunun şah damarından da yaxınıq"** və yaxud 15-ci "əl-Hicr" surəsində deyilir: **"O zaman ki, mən onun (Adəmin) surətini yaratdım, sonra da ona öz ruhumdan üfürdüm"** və yaxud Əli əleyhissəlam deyir: "Hər kəs özünü tanısa, yəni nədən və necə yaranıb insan mərtəbəsinə yetişdiyini dərk etsə, o, Allahını da tanıyar". Deməli, əgər Nəsimi öz şeirlərində bu ideyaya sadiq qalaraq, həmin ideyanı da təbliğ edirsə, o zaman tam və qətiyyətlə demək olar ki, Nəsimi bu təxəllüsü öz mənasını yuxarıda qeyd etdiyimiz mənalardan yox, öz ideyasına uyğun təsəvvüfi bir mənadan götürmüşdür. Belə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olduqda, biz təxəllüsün dəqiq və düzgün mənasını necə və hardan bilək? Bizim apardığımız tədqiqata görə, yəni daha dəqiq desək, Seyyid Məhəmməd Vəhəbi Konyəvinin yazmış olduğu “Hafiz divanının təsəvvüfi şərhi” əsərinin müqəddiməsində qeyd olunduğuna görə, Nəsimi “aləmül-ilfiraq” ilə “aləmül-cəm” arasında olan əlaqə ittisalə agah olan, yəni Allahla insan arasında olan asılılıq və qovuşmaya agah olan” deməkdir. Burada “aləmül-ilfiraq” dedikdə, vacib varlıq olaraq, bütün varlıqlardan fərqləndiyi üçün Allah, “aləmül-cəm” dedikdə isə, bir neçə aləmi – yəni daha dəqiq desək, 6 aləmi özündə cəm edən insan nəzərdə tutulur” (36, 1314).

Tədqiqatçının fikirləri ona görə maraqlıdır ki, Nəsiminin timsalında biz təsəvvüf ədəbiyyatı nümayəndələrinə qarşı fərqli bir münasibətin şahidi oluruq. Hiss olunur ki, müəllif Nəsimiyə münasibətdə ədəbi-bədii rakursdan çox, ürfani-təsəvvüfi bucaq altında baxmağa cəhd edir. Bu baxış tərzi bizim araşdırdığımız mövzu baxımından aktual və vacibdir. Ən azından ona görə ki, milli şüurumuzun tarixin keşməkeşlərindən süzülüb gələn ən qədim qatlardan olan ürfan və təsəvvüfün layiqincə və cəsarətlə araşdırılıb, xalqımıza məqbul bir şəkildə təqdim olunmasının vaxtı gəlib çatmışdır. İmadəddin Nəsiminin gerçək mənada xəlqiliyi onun sadə dildə və yaxud da türkcə yazmasından daha çox onun əqidə və düşüncəsinin xalq arasında yayqın olmasındadır. Nəsimi xalqa çox yaxın idi. Baxmayaraq ki, Hürufilik qəliz fəlsəfi bir təlimdir, lakin Nəsimi o təlimin də qəliblərini sındıraraq, sadə insan – kamil insan formulunu tərtib edə bildi. Tanınmış alim S.Şıxıyevanın “Nəsimi şeirində “əlif-lam” poetik forma və fəlsəfi rəmz kimi” adlı məqaləsinin girişində oxuyuruq:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Azərbaycan türklərinin ədəbiyyatı və fəlsəfi fikir tarixində Seyid İmadəddin Nəsimiyə həm şair, həm də mütəfəkkir kimi özünəməxsusluq və misilsizlik verən onun mənsub olduğu hürufilik təriqəti ilə bağlı görüşləridir. Nəsiminin istər şeir yaradıcılığı, istərsə də səyahətləri başlıca olaraq bu fəlsəfi-fikri cərəyana daha çox xalq kütləsini cəlb etmək məqsədini güdürdü. O, hürufiliyin təbliğinə yönəldilmiş şeirlərini yalnız ənənəvi bədii qəlibdə qələmə almaqla kifayətlənmir, fəlsəfi mülahizələrində heç bir nəzəri sistemin, o cümlədən, hürufiliyin də çərçivəsinə sığmadığı kimi, şeirlərinə bədii quruluş verərkən də ənənə ilə bağlı məhdudluğu tanımırdı” (91, 173).

Məhz ürfan ədəbiyyatının daha geniş, xəlqi baxımdan araşdırılması xalq yaradıcılığındakı təsəvvüfi meyllərə məntiqi aydınlıq gətirməkdə yardımçı ola bilər. Daha dəqiq ifadə etsək, bu günə qədər divan ədəbiyyatı ya fəlsəfi, ya da ədəbi baxımdan əsas etibarilə birtərəfli araşdırılmışdır. Yəni, məsələn Füzuli qəzəlinin təsəvvüfi izahı müəyyən olunmuş çərçivələr içərisində aparılmışdır. Bu izahlar Məhəmməd Füzulini daha çox bir şair, son dövrlərdə isə (söhbət Azərbaycandakı araşdırmalardan gedir), dindar, Əhli-Beyt aşiqi kimi təqdim etmişdir. Halbuki Füzuli qəzəlinin ruhani bətnində, fəlsəfi mahiyyətində nə ədəbiyyat, nə də din dayanmırdı. O, əsl mənada nə nazim, nə də dindar deyildi. Mövlana Ruminin təbiri ilə desək, **“halal sehr olan şeir”**in dilində elmi-batindən gələn İlahi rabitənin mümkünlüyünü təsvir etmişdir.

Bu keyfiyyətlərin yalnız bir klassik ədəbi abidələr olaraq araşdırılması təsəvvüfün və ürfanın xəlqiliyini sual altında qoyur. “Təsəvvüfün və ürfanın xəlqiliyi” dedikdə biz təkcə xalq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təsəvvüfünü, xalq ədəbiyyatından və milli folklordan gələn ürfani elementləri nəzərdə tutmuruq. Bu xəlqiliyin mahiyyətində yatan əsas məfhum klassiklərin ümummilli fəlsəfəni təşkil edən əqidə və məfkurələrinin xalq tərəfindən mənimsənilib, dərk olunmasıdır. Elə buna görə də klassik ədəbiyyatla xalq yaradıcılığı, xüsusilə, aşıq ədəbiyyatı arasında aparılması vacib olan fəlsəfi və bədii paralellər zənnimizcə aktual bir məsələdir. Bu araşdırma daha çox ümumfəlsəfi tezislərə əsaslanmalıdır. Bu tezislər isə, milliləşmiş ürfan və təsəvvüfün hər iki cəbhədəki (klassik divan və xalq aşıq ədəbiyyatındakı) əhəmiyyətli yerini təşkil edir.

Bizim gəldiyimiz qənaətə görə, təsəvvüf anlayışı ədəbiyyatda ayrıca bir yerə malik deyildir. Xüsusilə divan ədəbiyyatında əslində təsəvvüfün xaricində hər hansı başqa bir mövzuya rast gəlmək çətindir. Bunu biz aşıq yaradıcılığında da kifayət qədər bariz şəkildə görürük. Bu ənənə kortəbii olsa da, özünü bu günlərə qədər gətirib çıxarmışdır. Məsələn, kiçik bir haşiyə çıxaraq, Şirvan aşıq-poeziya məktəbinin tanınmış nümayəndələrindən olan Şamlı Cabbarın Həzrət Əlinin vəsfindəki qoşmasından bir hissəyə nəzər salmaq istərdik:

***Əli aldı Zülfüqarı əlinə,***
***Suvar oldu, o Düldülün belinə,***
***Allahı şəhadət gətdi dilinə***
***Əlində Zülfüqar halbahal oldu...*** (60, 41).

Göründüyü kimi, şair burada şifahi ənənədən gələn fikirlərdən bəhrələnmişdir. Bu bədii təkrarçılığın özündə belə – sonuncu misradakı “halbahal” kəlməsi ilə – şəriət və adi dini hədislər çərçivəsindən cayaraq, ürfani tərz açıq şəkildə özünü göstərir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin, klassik, yazılı ədəbi nümunələrdə bu faktor daha qabarıq və konservativ şəkildə mövcud olmuşdur. Başqa bir misalı Azərbaycanın ən böyük mütəsəvvüflərindən biri olan Mir Həmzə Seyid Nigarinin Türkiyədə nəşr olunmuş şeirindən gətirmək istərdik:

***İbn Mansur enelhak dimedi tenha tek,***
***"Rabbi-erni" sözünü söylemedi Musa tek.***

***İgnesin riştei-Meryemden üzenler çoktur,***
***Gitmedi alemi-tecride hemin İsa tek...*** (113, 127).

Bu misralarda biz Aşıq Ələsgərin yuxarıdakı "Musaya öyrədən Turda kəlməni" misrası ilə sətiraltı, arifanə bir vəhdət görürük.

İstər ilahi və başqa qüdsal mədhiyyələr, nətlər, istərsə də hansısa hadisələri canlandıran məsnəvi və təhkiyələr belə ürfani qəliblərdən kənara çıxa bilməmişdir. Məsələn, Məhəmməd Füzuli farsca divanının dibaçəsində yazır:

**"Həqiqətən, Allahın həmdi şah beytinin ən layiqli qafiyəsi möcüzələr göstərən barmağının qələmilə göylər səviyyəsində ayın pəncəsini iki misraya bölüb, möcüzələr silsiləsinin mənzuməsinə mətlə (ilk beyt) edən sultanın tərifidir:**

***Öylə bir şah ki, asitanında***
***Üz qoyub torpağa günəş qul tək.***
***Əl atıb parə qıldı sinəsini***
***Şövqdən ay cəmalını görcək.***

**Və Allaha sitayiş mənzuməsini bir padşahın mədhi rədifi zinətləndirir ki, onun peyğəmbərliyinə iman, imanın**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**əsli olan kəlmeyi-şəhadət mənzuməsində şeir beytlərinin birinci misrasını tamamlayan ikinci misra yerindədir ki, Allahın birliyi misrasını tamamlayar:**

***Tohid mücərrəd olsa kamil,***
***Verməz səmər heç kəsə nəhayət.***
***İman ilə fəzlinin sübutu***
***İqrari-nübuvvət olmuş əlbət.***

**Allahın səlavatı peyğəmbərlik sahibinə, onun böyük nəslinə və hörmətli səhabəsinə olsun. Onlar din bayrağını daşıyanlar, Allahın aydın şəriətini bizlərə gətirənlərdir. Allah onlardan razı olsun!”** (37, 1617).

İlk nəzərdə bu mətn adi şəriət səviyyəsindəki fikirləri ifadə edir. Lakin unutmaq olmaz ki, bu dibaçənin müəllifi Məhəmməd Füzulidir. Böyük mütəsəvvüf hətta şəriət qəlibləri içərisində belə ürfani danışır. Onun Allaha və Onun Rəsuluna etdiyi müraciət və mədh insanda ehkam və doktrina təsiri yaratmır. Əksinə, məsələn həmin dibaçənin mənzum parçasındakı “tohid” (tovhid – Allahın vəhdaniyyəti) kəlməsi özündə mücərrədliyin inkarını ehtiva etməklə, əslində bu günə qədər şəriət elmi çərçivəsində anlaşılmadığını ifadə edir. Çünki tovhidin ilk baxışda məlum və qəti bir nəzəri məzmun daşımasına baxmayaraq, Füzuli ikinci misrada

***Verməz səmər heç kəsə nəhayət –***

– deyir. Yəni, şair burada mütəsəvvüfanə bir baxışla tovhidin insandan kənar mücərrəd şəkildə dərk olunmayacağını və heç kimə faydalı olmayacağını ifadə edir.

Bəzi tədqiqatçılar yuxarıdakı mətn parçasının sonundakı salam və duanı, eyni zamanda klassiklərdə rast gəlinən buna bənzər elementlərin guya dövrün və dini doktrinanın hökmü



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

altında yazıldığını iddia edir. Bu, kökündən yanlışdır və elmi ateizmə xas olan bir yanaşma tərzidir. Doğrudur, Füzuli şəriət əhli olmamışdır. Lakin şəriət qəliblərindəki məsələlərə Füzuli baxışı tamam fərqli və elə "füzuliyanə"dir. Əlbəttə ki, həmin mədhü sənalar heç bir doktrinanın diktəsi altında yazıla bilməzdi. Əksinə, Füzili qələmi, Füzuli ağlı həmin şəriətçiləri Allah, Peyğəmbər sevgisinin nədən ibarət və necə olmalı olduğunu göstərmişdir. Bəli, Füzuli və digər mütəsəvvüflərin Allah, Peyğəmbər, onun Əhli-Beyti və əshabına olan məhəbbəti adi dindarların, möminlərin, şəriətçilərin, hətta üləma və ictihad sahiblərinin məhəbbəti demək deyil. Çünki, Füzuli "təriqət" və "mərifət" astanalarında çırpınan bir könül insanı idi. Füzuli silsilədən idi. Həmin silsilə ki, əsrlərdən bu günə qədər vəhdət meyini nuş edərək, İlahi rabitəni qoruyub saxlaya bilmişdir. Tanınmış şərqşünas N.Göyüşov yazır: "İrfanda həqiqət yolçusunun öz muradına yetişməsi üçün iki yol vardır:

1) İnsanın öz çalışması  mücadilə və mücahidəsi
2) Haqqın lütfü və yardımı (inayəti)

Əgər bu inayət olmasa və bəxt üzünə gülməsə təkcə çalışmaqla həqiqətə qovuşmaq olmur. Bunlar birbirini tamamlayır. Füzuli bəxtindən çox gileylənən Haqq aşiqidir" (42, 21).

Belə nəticəyə gəlmək mümkündür ki, şəriətlə təriqət və yaxud da ürfan – mərifət bir-biriləri ilə konflikt yox, inkişaf prinsipləri ilə münasibətdədir.

Klassik ədəbiyyatdan fərqli olaraq xalq yaradıcılığında ürfani qəliblər o qədər konservativ deyildir. Doğrudur, əvvəlki fəsillərdə izah etdiyimiz kimi, xalq ədəbiyyatında, xüsusilə aşıq yaradıcılığında təsəvvüfün daha dərin  qatlarından xəbər verən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaynaqlar mövcuddur. Hətta divan ədəbiyyatında hər zaman rəmzlərlə, məcazlarla ifadə olunan, çox zaman isə "mərifət" elmini aşmayan mövzuların xaricində qalan mətləb və mövzular sadə aşıqların dilində çox anlaşıqlı şəkildə ifadə olunmuşdur. Məsələn, yuxarıda Füzulinin farsca divaninin dibaçəsindən təqdim etdiyimiz parçanı Aşıq Ələsgərin bir mənzuməsi ilə məna və məzmun baxımından qarşılaşdıraq:

***Aşıqlar qövlilə, arifü aqil,***
***Dörd dəfə peyğəmbər meraca getdi.***
***Otuz altıyla cəm olubdu on yeddi,***
***Xəstə dilim bu yollara bələddi.***

***Şiə məzhəbindən süludun beşdi,***
***Üç müqərrər mələk bilmədi keçdi.***
***Fərmani-qüdrətdən nida yetişdi;***
***Həbibim, nəleynin ərşə zinətdi.***

***Hər yandan səs gəldi: "Ya Məhəmmədа!"***
***Məscidi-Əqsaya yetişdi səda.***
***Musa ərz eylədi: "Ey bari-Xuda",***
***Nə qurğu mənzilət, nə fəzilətdi!?"...*** (10, 43).

Ustad aşığın "Peyğəmbərin Meracı" adını verdiyi bu mənzumənin təqdim etdiyimiz kiçik bir parçasında ənənəvi klassik "Merac" girişlərindən fərqlənən çoxlu sayda detallar mövcuddur. Məsələn, elə birinci benddəki rəqəmlərin sıralanması ("Otuz altıya cəm olubdu on yeddi") şəriət qəliblərində olmayan, hətta ürfani ədəbiyyatda belə rast gəlinməyən mətləblərdir. Yaxud da üçüncü benddəki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Musa ərz eyəldi: "Ey bari-Xuda"*
*Nə qurğu mənzilət, nə fəzilətdi!?*

– misraları həqiqət elmindəki gizlin mətləblərdən xəbər verir. Diqqəti çəkən başqa bir cəhət isə Quranda və hədislərdə olmayan rəvayətlərin Aşıq Ələsgər dilindəki ifadəsidir. Daha öncə də qeyd etdiyimiz kimi, bu mətləblər folklordan, xalq təfəkküründən gələn ünsürlər deyil. O rəvayətlər (daha öncə də iddia etdiyimiz kimi) təsəvvüfün dördüncü ruhani təkamül pilləsi olan "həqiqət"in nəzəri bazasından süzülüb gələn nəsnələrdir. Hər iki mütəfəkkirin təqdim olunan fikirlərində şəriət pərdəsinin, ehkam qabiğinin içində gizlənmiş müdhiş bir eşq və ürfanın mövcudluğunun şahidi oluruq.

Bildiyimiz kimi, klassik ədəbi nümunələrdə daha çox "təriqət" və "mərifət" terminləri ilə ifadə olunan gerçəklər üstünlük təşkil edir. Bu da divan ədəbiyyatının üslubu olmaqla bərabər, həmin müəlliflərin ruhani məqam məsələsinin təzahürüdür.

Maraqlı olan başqa bir məsələ də vardır ki, o da "həqiqət" mərhələsində mövcud olan mətləbləri vəsf edən şairlərin xalq dilinə, xalq üslubuna getdikcə daha yaxın olmalarıdır. Sanki, "mərifət"i aşdıqca, "həqiqət"ə yaxınlaşdıqca bu şairlərin dili sadələşir, divan şeiri üslubunda yazmalarına baxmayaraq, sanki daha artıq aşıq şeirinə yaxın bir tərzdə yazıb yaradırdılar. Belə şairlərin ən ümdələrindən biri "Xançobani" təxəllüsü ilə məşhur olan Seyyid Əbülqasim Nəbatidir. Nəbati klassik şairdir. Lakin Molla Pənah Vaqif və onun gətirdiyi ənənədən fərqli olaraq, Nəbati xalq dilinə, xalq təfəkkürünə yaxınlaşsa da, onun ədəbi qəhrəmanı öz ruhani səviyyəsini aşağı salmadı. Əksinə, Nəbati özünün bir mütəsəvvüf şair olduğunu israrla sübuta yetirdi və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

klassik ürfani üslub ilə xalq təsəvvüfü arasında analoqu olmayan bir əlaqə və keçid yaratdı. Onun timsalında biz divan ədəbiyyatının müdhiş xəlqiliyini görürük. Nəbati tam bir divan bağlamamışdır. Lakin onun mövzu və üslubu divan janrını təşkil edir. Nəbati bir sufi olaraq, Əhli-Həq firqəsinə mənsub idi (Bu, tamamilə dəqiqləşmiş bir informasıyadır). Zənnimizcə, onun xəlqiliyinin əsas səbəblərindən biri məhz elə budur. Əvvəlki abzaslarda da qeyd etdiyimiz kimi, Əhli-Həq kəlamları sadə xalq dilində yazılmış və "həqiqət" firqəsi təsəvvüf cərəyanları içərisində sadə xalqa ən yaxın olan bir zümrədir. Nəbatinin, Əhli-Həq kəlamlarından birinə çevrilmiş, Həzrət Əlini vəsf edən məşhur bir qəsidəsindən bəzi misralara diqqət edək:

***Mənim aləmdə sultanım Əlidir,***
***Mənim miri-cahanbanım Əlidir.***
***Nə Dara tanıram mən, nə Skəndər,***
***Mənim fəxfuru xaqanım Əlidir.***
***Behişti zahidə verdim sərasər,***
***Mənim gülzari-rizvanım Əlidir.***
***Əgər hər kimsənin bir şahı olsa,***
***Mənim də şahi-şahanım Əlidir.***
***Tutub hər mürğ bir gülşəndə məskən***
***Mənim də bağü bostanım Əlidir.***
***Məni bu ismi-əzəm etdi natiq,***
***Mənim məcmui-divanım Əlidir...*** (74, 151).

Buradakı "ismi-əzəm" ifadəsi Allahın böyük adı, gizlin adı və yaxud da əsl adı anlamındadır. Söylədiyimiz kimi, Allah-Təalanın Qurani-Kərimə və hədislərə istinadən 99 "Əsmaül-hüsna"sı mövcuddur. "Əsmaül-hüsna", adından da göründüyü kimi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"gözəl adlar" deməkdir. Həqiqətən də 99 "Əsmaül-hüsna" Həqq-Təalanın tərifidir. "İsmi-əzəm" isə, fundamental ilahiyyatda da qəbul olunduğu kimi, Allahın, hər kəsin bilə bilmədiyi gerçək adıdır.

"Həqiqət" fəlsəfəsinə və Əhli-Həq nəzəriyyəsinə görə, "ismi-əzəm" "Əli" sözüdür. Yəni, Kəbədə Allah evində doğulan və adı daha öncə heç kimə qoyulmayan Həzrət Əli əslində, sufilərin təbiri ilə desək, "Sultanın cameəsi", "Allahın zati-qürsü"dür. Bu mənada Nəbati "ismi-əzəm"in "Əli" olduğunu vurğulamaqla, özünün Əhli-Həq və mütləq bir mütəsəvvüf olduğunu meydana qoyur.

Aşıq Ələsgər də Peyğəmbər və Həzrət Əliyə münasibətinin dinlə, şəriətlə əlaqəli olmadığını nümayiş etdirir. Belə ki, məhz "həqiqət"in bəxş etdiyi Məhəmməd və Əli sirlərinə bələd olduğunu ustad aşıq belə vurğulayır:

***İbtida "əlif"dən dərsim almışam,***
***Ələst aləmindən demişəm "bəli".***
***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Məhəmməd, birisi Əli...*** (10, 45).

Bir daha qeyd edirik ki, Aşıq Ələsgər "həqiqət"dəki mətləblərdən danışır və bunu israrla, açıq şəkildə bəyan edir.

Əbülqasim Nəbati ilə Aşıq Ələsgərin "həqiqət" barəsindəki ilham və izharları çox yerdə üstüstə düşür. Məsələn, Aşıq Ələsgərin heyrətamiz dərəcədə dərin və çoşqulu "Qabaqda" rədifli bir qoşması mövcuddur. Qoşmadan bəzi məqamlara diqqət edək:

***Şəhrin şöləsindən buldum bələdi,***
***Xoş gəldi xoşuma halı qabaqda.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Pir mana göstərdi şah məqamını,***
***Gördüm cəmdi çox cəlalı qabaqda.*** (10, 101).

Üçüncü misradakı "pir" və "şah" kəlmələri, bu kəlmələrin ehtiva etdiyi mənalar o qədər bariz, o qədər mükəmməldir ki, Aşıq Ələsgərin "həqiqət" məqamı ilə əlaqəsini inkar etmək sadəcə mümkün olmur. Məsələ burasındadır ki, adi söyləntilərlə, ağızdan-ağıza yayılan hər hansı bir xalq ənənəsi ilə bu məsələni, yəni "həqiqət"dəki "şah", "pir" və "dəlil" məsələsini bilmək qeyri-mümkündür. Qoşmanın üçüncü bəndinə diqqət edək:

***"Ya hu!", – deyib, birbirinə uydular,***
***"Ya mən hu!" deyəndə təam qoydular,***
***Cümlə məxluq yemədilər, doydular,***
***Qaldı məcməilər dolu qabaqda.***

Burada rəsmi olaraq "Qırxlar məclisi"ndən söhbət gedir. Bu "qırxlar" həm ərşdəki, Haqq dərgahındakı qırxlar, həm də Əhli-Həqq xanədanlarının ən mühümlərindən olan "Çeltən" – "Qırxlar" xanədanıdır. Həqiqətən cəmxanalarda təam, yəni süfrə vaxtı həmin sözlərlə ("Ya hu", "Ya mən hu") başlayan dualar oxunur. Əgər nəzərə alsaq ki, Əhli-Həqlərin cəmxanaları, ürf və adətləri bu gün də belə gizlin şəkildə qorunur, o zaman Aşıq Ələsgərin bu mətləbləri kimlərdənsə eşidib qavraya bilməsi mümkün görünmür. Bunun üçün yalnız, sufilər demişkən "cəm əhli" olmaq lazım idi.

Şeirin son bəndi isə ideya baxımından daha da mükəmməldir:

***Dünyada əl çəkmə sövmü səlatdan,***
***Təmiz ver, qalmasın xümsü zəkatdan.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Ələsgər, xof etmə puli-siratdan,***
***İrəhbərdi cənab Əli qabaqda.***

Əbülqasim Nəbatinin bir tərci-bəndində isə bu misralara rast gəlirik:

***Deginən, ya Əli, besövti-cəli,***
***Eyləmə hiç kimsədən pərva.***
***Himmət al pirdən, mədəd həqdən,***
***Dəmbədəm “hu” çəkib yolu başla,***
***Qoy qədəm rahi-eşqə mərdanə,***
***Gir xərabatə məst-məstanə...*** (74, 206)**.**

Eynilə, Aşıq Ələsgərdəki kimi, Nəbatidə də biz “pir”və “şah” mətləblərinin ayrıldığını görürük. Nəbatinin həmin şeirindəki “şah” məfhumu “həqq” olaraq ifadə olunur. Məlumdur ki, təsəvvüfün əksər qollarında “şah” elə “həqq”, “Allah” və yaxud “Allahın zatı”, “Haqqın təcəllası” anlamındadır. Tərci-bəndin hər dəfə nəqərat kimi təkrar olunan

***Qoy qədəm rahi-eşqə mərdanə,***
***Gir xərabatə məst-məstanə –***

– misraları həqiqətən də nəqəratdır. Çünki Əhli-Həq cəmlərində bu şeir kəlam olaraq çox məşhurdur. Səsi olan bir cəmnişin (cəmdə Əhli-Həqlərin xanəgahında oturan şəxs) şeiri avazla oxuyur, digər cəmnişinlər isə həmin nəqəratı xor halında təkrar edirlər.

Həcm etibarilə çox böyük olan bu tərci-bəndin başqa bir hissəsinə nəzər salmaq istərdik:

***Ey dili-natəvanü zarü həzin,***
***Kim səni böylə eyləyib məntər?***
***Oxu “nadi-Əlini” şamü səba***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Eylə bu ismi-əzəmi əzbər;***
***Qoy qədəm rahi-eşqə mərdanə,***
***Gir xərabatə məst-məstanə...*** (74, 211)**.**

Göründüyü kimi, Seyyid Əbülqasim Nəbati burada da "ismi-əzəm"in adını çəkir. Ümumiyyətlə, Nəbatinin yaradıcılığına sırf təsəvvüf və özəlliklə də "həqiqət" prizmasından baxmaq kifayətdir ki, onun indiyə qədər çoxlarına qaranlıq qalan misra və beytlərindəki mənalar ortaya çıxsın.

Həmin hal və ilhama biz Aşıq Ələsgər şeirlərində də rast gəlirik. Biri divan, digəri xalq ədəbiyyatının nümayəndələri olan hər iki mütəfəkkir sənətkarın yaratdıqları bədii sənət incilərində yüksək könül hissləri, iti ağıl və idrak, millilik, ruhi və əqli cəhətdən oyaqlıq və kamillik müşahidə olunur. Məsələn, Aşıq Ələsgərin dodaqdəyməz janrında yazdığı bir divanisinə nəzər salaq:

***Əssəlatü həşt ərkan,***
***Əhli-dil, hal cəngинə.***
***Əhli-dil hal gəldi ərlər,***
***Seyr edər ahənginə.***
***Əhl-idil, hal tirü tiğü***
***Xədənginə, cənginə,***
***Cənginə, xədənginə,***
***Ahənginə, hər rənginə...*** (10, 195)**.**

İlk baxışda çətin anlaşılan bu misralar dodaqdəyməz olduğu üçün daha da qəlizləşir. Lakin, məsələ burasındadır ki, Aşıq Ələsgər burada sözçülük etməmişdir. Elə ustad aşığın böyüklüyü də ondadır ki, onun məna aləmi zahirpərəstlikdən və sözçülükdən üstün olmuş, məcazdan önə keçmişdir. Nəzərə alsaq ki, Aşıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ələsgər bu şeirlərin çoxunu böyük ehtimalla bədahətən söyləmişdir, o zaman insanın heyrəti iki qat artır.

Buna bənzər misralara biz Seyyid Əbülqasim Nəbatidə də rast gəlirik:

***Pərü bali-bəstə darəm,***
***Hələ ləng, ləng ləngəm.***
***Təni-zarü xəstə darəm,***
***Hələ ləng ləng ləngəm.***

***Nə mərizü nə təbibəm,***
***Hələ ləng ləng ləngəm.***
***Nə həbibü nə rəfiqəm,***
***Hələ ləng ləng ləngəm...*** (74, 289).

(Bəzi ehtimallara görə, fars dilində olan bu şeir Azərbaycanın ən böyük mütəsəvvüflərindən biri Mir  Həmzə Seyyid Nigariyə məxsusdur. Hər iki halda bizim qəsdimiz müəllifin özündən çox, təqdim olunan şeir parçasının müqayisəli təhlilini aparmaqdır).

Göründüyü kimi, hər iki şeir həm ahəng, həm şeiriyyət, həm də məna baxımından birbirilərinə çox yaxındırlar. Fars dilində və əruz vəznində yazılan "Hələ ləng ləng ləngəm" şeiri tam mənasilə bir zikrdir. Böyük ehtimalla bu bir kəlamdır ("kəlam", yuxarıda da qeyd etdiyimiz kimi, sufilərdə və xüsusilə də, goranlarda müqəddəs mənzumələrə deyilir) və təkyələrdə musiqinin müşayiəti ilə xor halında oxunmuşdur. Çünki şeirin quruluşu, hər misradan bir eyni sözlərin təkrar olunması belə düşünməyə əsas verir. Belə təkrarçılıq yalnız musiqi ilə müşayiət oluna və yaxud da yalnız insan avazı ilə oxuna bilər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Ələsgər də bu mətləblərdən heç şübhəsiz ki, xəbərdar idi. Onun şeirləri onun duyğu və düşüncələrinin məhsulu idi. O, əksər hallarda, ariflər demişkən, "hal gələndə" söz deyərmiş. Yəni, vəcd məqamına, idrakın və məntiqin eşqin axarına düşdüyü, dünyəvi cazibədən qurtulan bir anda bu gözəl əsərlər yaranmışdır. Təbiidir ki, burada sazın əhəmiyyəti və yeri əvəzedilməzdir. Biz qəti qənaətdəyik ki, Aşıq Ələsgər kimi təsəvvüf aşıqlarına halı verən, özü demişkən, "əhli-dilə halın gəlişi" məhz sazla mümkün olmuşdur. Heç şübhəsiz ki, saz həmin hal əhlinin əlində bir musiqi aləti, köməkçi əyləncə vasitəsi olaraq yox, məhz vəcdin, səmahın, zikrin bir parçası olaraq mövcud olmuşdur.

***Dərviş olan gedər gəzər dərində,***
***Yelkən açar dayazlarda, dərində.***
***Mən aşiqəm dərində,***
***Dayazlarda dərində.***
***Quş olasan qalasan***
***Nazlı yarın dərində.***
***Əl açasan ərənlərin dərində***
***Calayasan sınıq könlü üz ha üz...*** (10, 188).

Bu cığalı təcnis həm bədii sənət nümunəsi kimi, həm də təsəvvüfi mənalar baxımından çox qiymətlidir. Birinci misradakı "dərviş" sözü ilə "dər" sözünün işlənməsi təsadüfi deyildir. Dərviş Haqq qapısında, pir ətəyində oturandır (fars dilində "dər" elə qapı deməkdir). Bunu bilmək üçün insana ən azından orta savad lazımdır. Aşıq Ələsgərin mühitini və zamanını nəzərə alsaq, onun haqqında deyilən "savadsız olmuşdur" kəlməsi həqiqətən də bir az şübhə doğurur. Tək elə bircə, "dərində" sözünün burada cinas olaraq bir neçə mənada işlənməsi güclü istedad və zövqlə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bərabər, eyni zamanda, sənətkardan intellektual səviyyə də tələb edir.

Əvvəldə qeyd etmişdik ki, Əbülqasim Nəbati xalq şeirinə, aşıq üslubuna daxil olan çoxlu sayda mütəsəvvüfanə şeirlər yaratmışdır. Bu fikir bir daha onu təsdiqləyir ki, ustad sənətkar həm də bir türk xalq mütəsəvvüfü kimi anılmalıdır. Çünki Azərbaycan türkcəsində möhtəşəm, dərin, eyni zamanda da, sadə və son dərəcə şirin mənzumələr yazan Xançobani milli təsəvvüf ənənələrinə və ürfani çevrələrə çox böyük bir ruhani xəzinə qoyub getmişdir:

***Məcnunlar adını çəkən təhrirə,***
***Nola sərdəftərə o yaza məni.***
***Deyirlər bu idi zikri Məhmudun:***
***“Durun qurban edin Ayaza məni”.***

***Genə sağ qalmışam belə yarə, mən?!***
***Kəlbintək kuyində yatam yerə mən,***
***Gizlin sirrim gedim deyim yarə mən,***
***Bir ağac götürə, ay əzə məni...*** (74, 270).

Bu təcnisin bənzərinə biz Aşıq Ələsgərdə rast gəlirik:

***Arif olan, bir od düşüb canıma,***
***Əridib döndərir a yağa məni.***
***Aşıq deyər, ay ağa,***
***Yetiş dada, ay ağa!***
***İllər xəstəsi canım,***
***Yar gəldi, qalx ayağa!***
***Ağa olan qulun salmaz nəzərdən,***
***Salma nəzərindən aya ağa məni!*** (10, 183).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göründüyü kimi, burada da hər iki təcnisin rədifləri birbirinə çox yaxındır. Lakin buradakı əsas paralellər yenə də bədii deyil, ürfanidir. Hər iki şeirdə ünvan birdir. Hər iki aşiq öz yarına, pirinə, şahına, ağasına müraciət edir. Bu müraciət ənənəvidir, dərvişanədir. Zikrin, duanın, həmdin, sənanın arifanə təbiri əksər hallarda rəmzlərlə, rindanəliklə, üstüörtülü deyilir. Bu gizliliyin iki əsas səbəbi vardır. Bunlardan biri ruhani mətləbləri naməhrəmlərdən, sufilər demişkən, "yad"lardan gizlətməkdir. Ürfanda naməhrəm anlayışı əsasən şəriət əhlinə şamil edilir. Şəriət əhli isə, dünya əhli sayılır. Ədəbiyyatdakı rəmzliliyin, gizliliyin, rindliyin ikinci əsas səbəbi isə sırf estetik dünyagörüşlə bağlıdır. Mütəsəvvüf şairlər bəzən sirli mətləbləri məcazlarla gizlətmək məcburiyyətində qalsalar da çox zaman bu mətləbləri bilərəkdən, çilpaqlıqdan çıxarmaq üçün onu simvolikaya, bədiyyata bürümüşlər. Məsələn, Əbülqasim Nəbati "Yaradıb" adlı bir gəraylısında həm sadə, həm bədii, həm də açıq bir tərzdə öz mətləbini ifadə edir:

***O dəm ki, Rəbbiyəl-əla***
***Aləmi etdi hüveyda,***
***Səni bir şahi-lafəta,***
***Məni bir Qəmbər yaradıb...***

***Nəbati, çək Əli, Əli,***
***Könlün olsun cəli, cəli,***
***Onu Allah bəli, bəli,***
***Bu dildə əzbər yaradıb.*** (74, 276).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Burada söhbət yenə Ələst aləmiylə bağlı təsəvvüf nəzəriyyələrindəki məsələlərdən gedir. Bu mətləblərə biz Aşıq Ələsgərdə də rast gəlirik:

***Yüz iyirmi dörd min nəbi gəlibdi,***
***Cəmi ənbiyanın əbədi sənsən.***
***Sidq ilə hər kim ki, çağırsa səni,***
***Zahirdə, batində mədədi sənsən...***

***Ələsgər çağırır Əliyyül-əla,***
***Qeyzə gəldi, zərbət vurdu Salsala.***
***Zərbindən titrədi Xeybər tək qala,***
***Münkirin dünyada cəlladı sənsən.*** (10, 133).

Bu qoşmanın əvvəlindəki mətləb, yəni Həzrət Əlinin bütün Peyğəmbərlərin "əbədi yol göstərəni" olması qətiyyən dini mətləb deyil. Buradakı "dini" sözü əlbəttə ki, İslam şəriətini özündə ehtiva edir. Yəni, söhbət yenə də "təriqət"də, "mərifət"də, "həqiqət"də zikr olunan gerçəklərdən gedir.

***Ələstü birəbbiküm qalu bəladan***
***Mərdin Mövlasına nökər olmuşam.***
***Sürtmüşəm üzünü xaki-payına,***
***Elm tapıb, sinədəftəf olmuşam...*** (10, 126).

Yuxarıda bəhs etdiyimiz elm, savad məsələsinə Aşıq Ələsgər burada özü aydınlıq gətirir. İlk baxışda (və ümumiyyətlə) Aşıq Ələsgərin bu iddiası, Ələst aləmində tapdığı elm, qazandığı savad məsələsi qeyri-real görünür. Çoxları belə hesab edir ki, Aşıq Ələsgərin bu cür misraları fəlsəfi amil, tarixi gerçəklik yox, məhz şair təxəyyülünün məhsuludur. Bu fikir də, ilk baxışda, həqiqət kimi görünə bilər. Lakin ürfani mətləblərə nə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elm, nə tarix, nə də hikmət pəncərəsindən baxmaq doğru deyil. Ürfanın özünəməxsus qəlibləri mövcuddur. Bu qəliblərə ciddi yanaşa bilməyin, onları reallıq olaraq görə bilməyin yeganə yolu ürfan əhli olmaqdır.

Zahiri mətləblər vasitəsilə batini feyzləri dilə gətirmək, onları qəlibə salmaq təsəvvüf ədəbiyyatına xas olan bir keyfiyyətdir. Bu mənada Seyyid Əbülqasim Nəbati də öz şeirlərində elə məsələlərə toxunmuşdur ki, birbaşa təsəvvüfün nəzəri-tarixi əsaslarına gedib çıxır. Məsələn, Əlipərəst təriqətlərin, o cümlədən, Əhli-Həqlərin Zərdüştiliklə, daha sonra Xürrəmiliklə bağlı münasibətləri barədə əvvəlki fəsillərdə məlumat vermişdik. Əbülqasim Nəbatidə bu məsələ ilə bağlı bir detala rast gəldik:

***Qoymayaydım qızıl kanda,***
***Çəkəydim olsa hər xanda.***
***Bina qılaydım İranda,***
***Dini-Zərdüşti, Zərüşti...*** (24, 279).

– deyən Nəbatinin arifanə, aşiqanə halı göz qabağındadır. Bu misralar böyük ilhamın, təbii vəcdin, hal və batini seyrlərin məhsuludur. Bir məsələyə də toxunmaq istərdik ki, İslam öncəsi dini cərəyanlara münasibət təsəvvüf əhli tərəfindən hər zaman müsbət olmuşdur. Məsələn, Həzrət Əlinin məşhur adlarından biri də "ŞiriYəzdan"dır ki, Yəzdan, məlum olduğu üzrə "Avesta"dan gələn müqəddəs isimdir. Elə sufizmin əski dinlərdən bəhrələnən nəzəri sistem olduğunu söyləyənlər də az deyil. Böyük alim və mütəsəvvüf Əbdürrəhman Cami yazırdı: "Tarixdə yazılmışdır ki, dünyanın hakimiyyəti beş min il mağların və atəşpərəstlərin əlində olmuşdur. Səltənət ona görə bu xanədanın əlində bu qədər çox qalmışdır ki, onlar rəiyyətə zülm etməmiş, onlarla ədalətlə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rəftar etmişlər...” (24, 29). Bu məsələ barədə biz Dyakonovda oxuyuruq: “Zərdüştün və maqların (muğların – F.S.) təlimi tayfaların və xalqların “həqiqətən mövcud olmuş qədim dinləri” ilə sonradan yaranmış doqmatik dinlər arasında aralıq rolunu oynayırdı” (146, 399). Bütün bu fikirlər təsəvvüfün yaranması və şəriət qəliblərindən azad olaraq, xalq məfkurəsinə yerləşməsinin hansı tarixi və fəlsəfi prosesdən keçməsinə dair aydınlıq gətirməyə yardım edir.

Beləliklə, Aşıq Ələsgərin qoşmalarındakı aşiq həsrəti, başqalarına bəlli olmayan hicran və göz yaşı öz mənbəyini eynilə Nəbati kimi könüldən, Haqq təcəllası, Allah məkanı olan qəlbdən alır:

***Ağıldan kəm, huşdan caşqın, dildən küt,***
***Naqabil, kəlməsi bisəmər mənəm.***
***Məcnun kimi viranələr küncündə,***
***Sərgərdan, səhrayi-qələndər mənəm.***

***İbadət vaxtında müşkülhal oldu,***
***İblis əməlində pürkamal oldum.***
***Qəza vurdu, sin içində dal oldum,***
***Hər sözü dillərdə bir dəftər mənəm...*** (10, 111).

Bu misralar həm hürufat, həm də məcazlar baxımından klassik ədəbiyyat ənənələrinə sadiqliyin bariz nümunəsidir. Hürufatın nümunəsi kimi, “sin içində dal oldum” misrasını göstərmək olar. “Sin” ərəb hərfi olaraq, quruluşuna görə qəbir mənasına uyğun gəlmişdir. El içində “sinmək” sözü aşağı əyilmək, yerə yatmaq anlamında işlənir. Bu anlam “sin” hərfindən törəmiş və yenə də məzar, uzanmaq, yatmaq kimi qavramları



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ehtiva edir. Misradakı “dal oldum” ifadəsi isə çox şairanə və obrazlıdır. Belə ki, “dal” hərfi hər zaman qəddin əyriliyini, ikiqat olmağı rəmzləndirmişdir. “Sin” içində “Dal” olmaq, qəbir içində əyilmək, qatlanmaq anlamında həddindən artıq qiymətli bədii tapıntıdır. Əvvəldəki “İblis əməlində pürkamal oldum” misrası isə, çoxlarının fikrincə, sazın şeytan əməli olduğuna işarədir. Yəni, Aşıq Ələsgər guya İblisə uyaraq, saz sənətində, aşıqlıqda pürkamal olmuşdur. Zənnimizcə, bu fikirlər həqiqəti qətiyyən ifadə ifadə etmir. Aşıq Ələsgər sazı “şeytan əməli” adlandıra bilməzdi. Bu şeir bötövlükdə vahid məzmun və mənaya malikdir. Yəni, şeirin hədəfi tərki-dünyalıq, təsəvvüfdəki inziva və xəlvətdir. Bizim fikrimizcə, şeirin əsas qayəsi “sərgərdan səhrayi-qələndər mənəm” misrasıdır. Bu misra tam sufiyanədir. Ədəbi cəhətdən kamil olduğu qədər də savadlı misradır. İzafət baxımından əslində bu “qələndəri-səhra” olmalı idi. “Qələndər” bildiyimiz kimi, təsəvvüf cərəyanlarında xüsusi bir mərhələdir. Hətta, “Qələndəriyyə” adında ayrıca bir sufi təriqəti də mövcuddur. “Qələndər” sözü tam olaraq, “səhra” sözünə uyğun gəlir. Qələndərlər adətən gəzərgi dərvişlərdir. Onlar xüsusi məqamı olan təbliğatçı, nəfəs sahibi olan pirlər kimi, ürfani çevrələrdə xüsusi yerə sahibdirlər. Aşıq Ələsgərin izafəti tərsinə işlədərək, “səhrayi-qələndər” deməsi sırf ədəbi üslubla, qafiyə ilə bağlıdır. Klassik ədəbiyyatda “rey” qafiyəsi kimi məşhur olan bu prinsipə Aşıq Ələsgərin şeirində tam riayət olunmuşdur.

Maraqlıdır ki, Aşıq Ələsgər yaradıcılığındakı ürfani istilahlar daha çox “mərifət” və “həqiqət” mərhələlərinin ehtiva etdiyi mətləbləri əks etdirir. Bu fikrə istinad edərək, demək olar ki, təsəvvüf istilahlarının Türk xalq sufizmində özəlliklə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan şifahi xalq ədəbiyyatında klassik divan ədəbiyyatı ilə müqayisədə az və nisbətən sistemsiz istifadə olunması bu istilah və nəzəriyyələrə bələd olmaqdan ya da olmamaqdan irəli gəlmirdi. Yəni, bunun elitar və qeyri-elitar mühitlərə aidiyyatı yoxdur. Bu keyfiyyət məhz, həm də tarixi gerçəklik olaraq, "mərifətin" – ürfanın yüksək pillələri ilə "həqiqət" mətləblərinin Azərbaycan-Türk aşıq ədəbiyyatındakı daha əhəmiyyətli yerinin olmasını təsdiq edir.

Lakin buna baxmayaraq, Aşıq Ələsgər yaradıcılığında bir qədər sistemsiz də olsa, rəmzlər, məcazlar sisteminə, yəni, təsəvvüf istilahlarına rast gəlinir.

***Arif olan insafından keçməsin,***
***Mən fağırı qəm atəşi yandırır.***
***Heç kimsəni eşq oduna düşməsin,***
***Ahəni əridir, daşı yandırır...*** (10, 146).

Ustad aşığın bu qoşması həmin istilahların məhz "təriqət" və "mərifət" qatlarındakı təzahür tərzidir. Buradakı "eşq atəşi", şeirin ruhundan da göründüyü kimi, batini ilahi eşqin keyfiyyətidir. Birinci misradakı "arif" kəlməsi də bu fikri qüvvətləndirir. Ustad demək istəyir ki, bu atəşi, bu eşq yanğısını yalnız ariflər görə bilər. Ənənəvi olaraq, başqalarının da bu atəşə düşməməsini arzulamaq da ürfan ədəbiyyatı nümunələrinə xasdır. Məhəmməd Füzuli isə bu bəladan eşq əhlini xəbərdar edir:

***Qıl səvab ey göz, töküb qan, vaqif et qafilləri,***
***Meyl edənlər eşqə bilsinlər cigər qan olduğun...*** (38, 242).

Aşıq Ələsgərlə apardığımız bu paralellər, bir daha vurğulayırıq ki, ümumtəsəvvüf dünyagörüşünün yaratdığı məfkurə formasıdır. Həmin məfkurə pəncərəsindən baxdıqda, biz Aşıq Ələs-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gərin əslində daha artıq batini məhəbbət tərənnümçüsü olduğunu görürük:

***Hər kim görmək istər yarı pünhandan,***
***Daim çəkər ahü zarı pünhandan...*** (10, 146) –

– kimi misralar batini seyrlərin və gizli eşqin təzahürləridir. Pünhandakı "yar", əlbəttə ki, başqalarının görüb, sevə bilməyəcəyi qüdsal dəyərlərin ümumiləşmiş obrazıdır. Bu cür yanaşma tərzi Aşıq Ələsgər yaradıcılığındakı batini mənaların üzə çıxmasında yeganə vasitədir. Həmin qoşmanın son bəndi daha diqqətçəkəndir:

***Vaxtın keçdi, xəttin çaldı, Ələsgər!***
***Sərf edirsən nə kamaldı, Ələsgər!***
***Bir sirr gördü, heyran qaldı Ələsgər;***
***Ayaq oddu, yanmır, başı yandırır*** (10, 146).

Axırıncı iki misra mübahisəli şəkildə təhlil oluna bilər. Çünki, burada mətləb tam olaraq aydın deyil. Ola bilər ki, başqa tədqiqatçılar bu misraları fərqli tərzdə izah edirlər. Bizə görə isə, burada söhbət badədən – "eşq badəsi"indən gedir. Zənnimizcə, misradakı "ayaq" sözü ürfan ədəbiyyatındakı "əyaq" kəlməsidir. "Əyaq" adətən, meyə, şəraba, badəyə deyilir. Həm də burada "gətirmək", "gəlmək", "bir əyaq içmək", "mey vermək", "şərab gətirmək" mənaları da vardır. "Ayaq" həm də aşağıdır. Baş isə yuxarıdır. "Başı yandırmaq", qənaətimizə görə, məst olmaq, badənin başa çıxmasıdır. Təsəvvüf ədəbiyyatında tez-tez işlənən "atəşli mey", "odlu badə" ifadələri də mətləbə müəyyən qədər aydınlıq gətirir. Analoji olaraq, XVII əsr Anadolu el şairlərindən Gövhərinin də bir şeirini misal gətirmək istərdik:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Meclisi-irfandır hicabı kaldır*
*Şetaretler olsun, iç efendim, iç*
*Cemali-pakinden nikabı kaldır*
*Ziyaretler olsun iç efendim iç* (119, 38).

Bu nəfis misralarda meyin, şərabın insanı hətta ziyarət məqamına yetirməsi onu göstərir ki, bu şərab ənənəvi ürfani meydir.

Məhəmməd Füzuliyə müraciət etsək, görərik ki, hər iki ustad sənətkar (Füzuli və Aşıq Ələsgər) nə qədər birbiri ilə səsləşən mənalar ifadə etmişlər:

***Sərvərlik istər isən, üftadəlik şüar et,***
***Kim, düşmədən əyağə, çıxmadı başə badə...*** (38, 269).

Füzuli çox gözəl bir təşbeh işlətmişdir. Buradakı "əyaq" kəlməsi həm "ayağa düşmək", "tökülmək", "alçalmaq", həm də "şərab", "badə" mənasındadır. Böyük mütəsəvvüf nəfsdən, mənlikdən imtinanı, özündən keçməni şərabın başıaşağı tökülüb, "əyağə düşüb", sonra başa çıxmasına bənzədir. Birinci misradakı "sərvərliyin", üstünlüyün səbəbini də böyük ustad "üftadəlik"də, alçalmaqda, ayağa düşməkdə görür. Bu fikri çox gözəl məcazlarla ifadə edən Füzuli ilə, bənzər mənanı sadə, heca vəznində ifadə edən Aşıq Ələsgər şübhəsiz ki, batini-İlahi eşqi mənalandırmışlar.

Əvvəldə də izah etdiyimiz kimi, Aşıq Ələsgər poeziyasındakı Həzrət Əli obrazı sırf sufiyanədir. Yəni, ortodoksal İslam təfəkkürü ilə izah oluna bilməyən mətləbləri Aşıq Ələsgər özünün, həm klassik divan ədəbiyyatındakı, həm də xalq yaradıcılığının böyük təmsilçiləri olan sələfləri kimi, təsəvvüfi qaynaqlar vasitəsi ilə dilə gətirmişdir. Bu qaynaqlar hələ Həzrət Əlinin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sağlığında onun taliblərindən olan Həsənül-Bəsri həzrətlərinin və şagirdlərinin uzun bir zaman məxfi saxladıqları, sonradan rəvayət və hətta əfsanə halına keçmiş sənədlər idi. Yəni, belə demək mümkünsə, təsəvvüf hələ Peyğəmbər və Həzrət Əlinin sağlığında mövcud idi.

Məsələn, Aşıq Ələsgərin daha əvvəldə də təhlilini verdiyimiz "Ya Əli" rədifli qoşmasında onun peyğəmbərlərə və hətta mələklərə dərs verdiyi kimi mətləblər yalnız bir ağız ədəbiyyatı nümunəsi, hansısa əfsanə və ya söylənti deyil. Bu mətləblərə biz yazılı divan ədəbiyyatının bütün dövrlərdə və çevrələrdə kifayət qədər ciddi qəbul edilən nümunələrində də görürük.

Lakin klassik ürfandakı sirli mətləbləri Aşıq Ələsgər açıq şəkildə, "həqiqət" əhlinə məxsus bir tərzdə ifadə edir:

***Ələsgərə nişan verən almanı,***
***İslam edən Qənbərini, Səlmanı,***
***Musaya öyrədən Turda kəlməni,***
***Cəbrəyilə ustad olan ya Əli!*** (10, 142).

Bu paralellər Azərbaycan təsəvvüf ədəbiyyatının ən ümdə məsələlərindən biridir. Bir daha xüsusi olaraq vurğulamaq istərdik ki, təsəvvüf nümunələrindəki Həzrət Əli obrazı nə dinidir, nə də mifioloji. Bu obraz ona görə dini ola biməz ki, həmin mətləb və uzlaşmalar heç bir dini stereotiplərə sığmır və hətta şəriət ehkamına görə küfrdür. Bu obraz eyni zamanda mifoloji də ola bilməz. Ona görə ki, mif səmavi-monoteist dinlərə qədərki dünyagörüş sistemini təşkil edən bəşəri məfkurədir. Bu barədə f.e.n. S.Rzasoyun kitabında maraqlı qeydlərə rast gəlirik: "Mifoloji şüurun parçalanması ilə miflər öz əski funksiyalarını itirir, bir növ, mif kimi ölür. Demifləşmiş (mifsizləşmiş) bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mətnlər yaşamaqda davam edir. Bu prosesdə (demifləşmə) öz sakrallığını, rituallığını, kultluq funksiyasını, etioloji-idraki və sanksiyalaşdırıcı-hüquqi funksiyalarını itirən mətnlərin əvvəllər arxa planda qalan bədii-estetik funksiyası indi ön plana keçir" (84, 33). Bəhs etdiyimiz qaynaqlar isə, nə qədər qəribə də olsa, səmavi kitablara istinad edir və monoteizmin əsaslarına qətiyyən toxunmur. Deməli, əgər bu qaynaqlar mifoloji deyilsə və əgər dini doktrinalar tərəfindən də qəbul olunmursa, o zaman ortada tək bir yol qalır: onlar mütləq şəkildə təsəvvüfidir. Buna ən bariz misallardan biri elə Həzrət Əli ilə Həzrəti Xızr obrazlarıdır ki, bu obrazları biz yuxarıda müqayisəli şəkildə təhlil etməyə çalışmışdıq.

Təəssüf ki, bu mövzuların hərtərəfli araşdırılmasında hələ ki, konkret və tam müsbət nəticələrə gəlinməmişdir. Lakin bu barədə biz müəyyən elmi cəhdlərin şahidi oluruq. Məsələn, gənc alim N.Qurbanovun məqaləsində oxuyuruq: "Onu qeyd etmək istəyirik ki, dərvişlər tarixən sufi təriqətlərini yaymaqla məşğul olan haqq, Tanrı aşiqləri olmuşlar. Xızır isə uzaq keçmişdə yaşaması güman edilən yüz iyirmi dörd min Tanrı peyğəmbərindən biri olmuş, daha çox darda qalanlara yol göstərən, onları himayə edən Tanrı elçisi olduğu söylənilir. Həzrəti Əli isə islam dünyasının müqəddəs şəxslərindən biri, möminlərin əmiri (əmirəl-möminin), bütün şiə müsəlmanlarının dini lideri olmuşdur" (63, 220). Hər iki şəxsiyyətin yanaşı təhlil olunması həm də mifoloji araşdırmaların içərisində də həmin ürfani elementlərin tədqiqinə olan meylin göstəricisidir. Lakin bu kiçik misaldan hiss olunduğu kimi, mövcud mətləbə münasibətdə elm adamlarımızın fikir və informasiyaları bir qədər bəsit və diletantdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Ələsgər yaradıcılığının içərisindən qırmızı xətt kimi keçən Həzrət Əli obrazı barədəki sufiyanə dünyagörüş əksər klassiklər tərəfindən də ehtiyatla təhlil olunmuş və xalq sufizmi ilə müqayisədə bir qədər qəliz və qeyri-cürətkar fikirlərlə nöqtələnmişdir. Bu keyfiyyət daha çox islamiyyətdə küfr və bidət hesab olunan tənasüx və hülul məsələlərinə şamil edilmişdir.

Məhəmməd Füzuli məşhur "Mətləül-etiqad" əsərində bu prosesi müxtəlif yönlərdən belə səciyyələndirir:

**"Batinilərin imamət haqqında başqa fikirləri vardır. Onlar deyirlər ki, iki aləm vardır: ruhani və cismani. Bu iki aləm mənşədən birlikdə nəşət etmişdir və kəmaldan nöqsana doğru tənəzzül edir. Sonra mənşəyə mənsub olana qədər nöqsandan kəmala doğru qayıdır. Cismani aləm zahir aləmidir. Bu aləmin idarəedicisi peyğəmbərdən ibarətdir ki, şəriətin zahiri ehkamı əsasında hökm edir. Ruhani aləm isə batin aləmidir. Bu aləmin idarəedicisi isə imamdan ibarətdir ki, məqul (əqli) və mənəvi ehkam əsasında hökm edir. Elə buna görə də bunlar (batinilər) peyğəmbərin deyil, imamın gizli olmasını (gözə görünməməsini) düzgün hesab edirlər. Necə ki, bədən (peyğəmbər kimi) gizlin deyil, ruh isə (imam kimi) gizlidir.**

**Bəzi qüluvv edənlər (ifratçılar) demişlər ki, Tanrı bəzi vaxtlar insan şəklində gözə görünür. Onun (insanlar) peyğəmbər və imam adlandırırlar. Bunlar insanları həqiqi dinə və düz yola çağırırlar"** (40, 136). (Tərcümə H. Zərinəzadənindir).

Bu əsərdən nümunə gətirməklə bəyan etmək istəyirik ki, klassik və xalq ədəbiyyatında dini ehkamlara sığmayan və elmi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

metodlarla izah oluna bilməyən sufiyanə mətləblərin kökündə batini elmlər yatır. Nümunədən göründüyü kimi, Füzuli batinilərin fikirlərinə istinad edərək, deyir ki, şəriət zahiri, təriqət isə batinidir. Onun adını çəkdiyi "imam" kəlməsi əslində 12 şiə imamının isna-əşərilikdəki formatı deyil. Belə olsaydı, sünni və şiə məzhəbləri onları "batini" adlandırmazdı. Buradakı "imam" dan məqsəd gizlin mürşid, zamanın qütbü olan rəhbər və təbdili-ruh (ruhların keçidi) vasitəsilə hər dövrdə İlahi eşqi və hüccəti tamamlayan şəxsdir. Belə ki, mətndən də anlaşıldığı kimi, həmin şəxs hər zaman mövcuddur və "hülul"un əsasıdır. Halbuki, şiəlik doktrinasına əsasən, sonuncu, 12-ci imam qeybə çəkilmişdir. Deməli, bu ideoloji xətt şiəlik ola bilməz. Bu, məhz təsəvvüfdür ki, onu Şah Xətainin, Füzulinin, elə Aşıq Ələsgərin öz simasında da şəriətlə-şiəliklə qarışdırmışlar. Elə buna görə də biz Aşıq Ələsgərin ürfani şeirlərini təhlil edərkən, klassik ədəbi nümunələrə müraciət etməyi məqbul saydıq. Əks təqdirdə, ustad aşığın fəlsəfi dünyagörüşü bir ilham və təxəyyül əsəri olaraq anlaşılacaq. Bu anlayış isə yanlışdır və Aşıq Ələsgərin simasında bütün Azərbaycan-Türk təsəvvüf şair və mütəfəkkirlərinin uca məqamına xələl gətirir.

### Aşıq Ələsgər şeirlərindəki ürfani məcazlar və rəmzlər

Aşıq Ələsgər yaradıclığındakı bizim izlədiyimiz mətləblər ruhaniyyatla bağlı olduğu üçün istər-istəməz ürfani qaynaqlara nəzəri formada da olsa baş vurmaq məcburiyyətindəyik. Ürfanın nəzəri bazası isə, klassik ədəbi nümunələrdə gizlidir. Yəni onlar ədəbi əsərlər olmalarına rəğmən, onların bətnində çox güclü bir sistem mövcuddur. Bu sistemi qoruyub saxlamaq və onu bədii



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təsvir vasitələri və obrazlarla vermək, daha əvvəldə də qeyd etdiyimiz kimi, Şərq mütəsəvvüflərinin öz həyat tərzlərindən mənimsədikləri ürfani dünyagörüşdən irəli gəlirdi.

Aşıq Ələsgərin ruhani-mənəvi dünyasında həm etiqad, həm də eşq hökm sürür. Bu etiqad şəriət hökmləri ilə, zahidliklə, təqva ilə bağlıdır. Eşq isə təsəvvüflə, "meyxanə" ilə, rindanəliklə şərtlənmişdir. Bu iki dünyabaxış birbiri ilə ziddiyyət təşkil etmir. Əksinə, Aşıq Ələsgər kimi şəxsiyyətlərin simasında biri digərini tamamlayır. Sistemli şəkildə görürük ki, Aşıq Ələsgərdəki "təriqət" və "mərifət" ünsürləri şəriətin, ehkamın ruhani təməli üzərində qurulub. Yəni, belə demək mümkünsə, Aşıq Ələsgər öncə mömindir, sonra aşiq. Əlbəttə, aşiqlik onun əsas mətahıdır. Təsəvvüf dünyabaxışı olmasaydı, Aşıq Ələsgərin möminliyi də yüksək mənəvi mənada heç bir işə yaramazdı. Lakin, təməldəki zahidlik, zirvədəki aşiqliyin mənbəyi, meyarı olmuşdur. Onun mənzumələrində tez-tez həm islami ibadətdən, həm də badeyi-eşqdən söz açılır  həm məscid, həm meyxanə yad olunur. Eyni zamanda həm zahidlik, həm rindlik təbliğ olunur. Lakin, böyük ustad bu mətləbləri bir-birindən elə gözəl ayırır ki, burada klassik ürfani ənənənin davamını görməmək mümkün deyil.

***Dürdanəni səngi-siyah içində***
***Həsrət gözüm görən kimi tanıdı.***
***Könül bivəfadı, heç salmır yada***
***Göz doymur, gözünün mehribanıdı...***

***Adım Ələsgərdi, əslim Göyçəli,***
***Ələst aləmində demişəm "bəli".***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Həm aşiqəm, həm dərvişəm, həm dəli,***
***Canım gözəllərin yol qurbanıdı*** (10, 71) –

– misralarında misilsiz rindanəlik müşahidə olunur. “Səngi-siyah içindəki “dürdanə” təsəvvüf lüğətində ayrıayrı terminlərdir. “Səngi-siyah” adı tərcümədə “qara daş” deməkdir. Lakin, ürfani mənada bu, gözəlin – yəni özündə Haqq təcəllasını, **həm zati, həm feli, həm də sifatı** şəkildə gəzdirənin – üzündəki qara xaldır. Xal, ürfanda həm sirr anlamındadır, həm də Kəbədəki qara daşın nişanəsidir (elə fars dilindəki “səngi-siyah” ərəb dilindəki “həcə-rül-əsvəd”dir). Lakin, bir haşiyə də çıxmaq istərdik ki, bu iki dildəki həmin söz birləşməsi qrammatik cəhətdən eyni mənanı ifadə etsə də, məna və ruhani baxımdan birbirindən fərqlənir. Məsələ burasındadır ki, fars dilindəki “qara daş” (“səngi-siyah”) qədim Xorasan sufi məktəbinin əsaslarına söykənən fikir və mənaları ehtiva edir. Ərəb dilindəki “qara daş” (“Həcərül-əsvəd”) isə sırf dini, ehkami termin olaraq, məhz zahiri Kəbə daşını təcəssüm etdirir. Bəlkə elə bu baxımdan Aşıq Ələsgər və digər ürfan meylli müəlliflər şüuraltı da olsa, münasib mətləbi ifadə etmək üçün məhz “səngi-siyah” kimi təsəvvüf lüğətlərini bəzəyən kəlmələrdən istifadə etmişlər. “Qara daş”ın içindəki “dürdanə” isə, həmin sirrin içindəki mənadır. Həm də təsəvvüfdə qara rəng Qurani-Kərimdəki **“sibqətullah”** (Allahın rəngi) ayəsinə nisbətdə Xudavəndi-aləmin simvolu hesab olunur. O rəng qara olduğu üçün zülməti və bu zülmətin içində isə işığı – həmin dürdanəni gəzdirir. Aşıq Ələsgər əlbəttə ki, həmin misranı elə-belə, havadan, boşu-boşuna qələmə almamışdır. “Həsrət gözüm görən kimi tanıdı” misrası isə çoxcəhətlidir. Belə ki, burada daha öncə də izahını verdiymiz “Ələst” gününün, o gündə şahid



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olduqları sirlərin xatirəsi yatır. Aşıq Ələsgərin "tanıdı" kəlməsi həmin tanımağın, həmin şahidliyin işarəsidir. Həmin sirrin, həmin "dürdanə"nin nədən ibarət olduğu təsəvvüf əhlinə gizlin zikrlər, semahlar, sonsuz riyazətlər hesabına bəlli olur. Buradakı başqa bir maraqlı cəhət ondan ibarətdir ki, dürdanə, inci əsasən sədəfin içində olur. Sədəf isə ağ rəngdə olur, dəryada, ümmanda yatır. Məsələ burasındadır ki, təsəvvüfə görə, ümman Həzrət Cəbrayılın rəmzidir. Yenə də təsəvvüf qaynaqlarına əsasən, dər-yadan sədəf almaq, bu sədəfdən inci qoparmaq, əvvəldə də ifadə etdiyimiz kimi, Cənabi Cəbrayılın elminə vaqif olmaqdır. Aşıq Ələsgər isə, bu dürdanəni, bu incini ağ sədəfin yox, qara daşın içində axtarır. Üstəlik, onun buradakı seyri ümmanlarda deyil, zülmətdədir. Deməli, böyük ustad bu mənzumədə Cəbrayılın yox, Haqq-Təalanın öz elminə talibdir. Ən azından apardığımız ürfani təhlil belə bir obrazlı nəticəyə gəlməyə imkan verir.

Qeyd edək ki, Aşıq Ələsgər yaradıcılığında sufiliklə-aşiqliklə möminlik ayrı-ayrılıqda, kifayət qədər aydın bir tərzdə şərh olunmuşdur. Bu ayrıntı çox mühümdür və təsəvvüf elmində nəzəri problem olaraq mövcuddur. Böyük mütəsəvvüf Məhəm-məd Füzulinin "Rindü Zahid" əsərində bu məsələyə belə rast gəlirik:

**"...İlahi, ibadət sövməəsinin pak məzhəb zahidləri hörmətinə günah və üsyan meyxanəsinin rindlərini "Allaha doğru qayıdın" (Quranın 66-cı ("Təhrim") surəsinin 8ci ayəsindən bir parçadır. Cilddə Quran ayələrindən gətirilən parçaların tərcüməsi mütərcimlərə məxsusdur.) qədəhinin nəşəsindən məhrum etmə, üzlət xərabatının saf təbiətli rind-ləri izzətinə, xudbinlik xanəgahının zahidlərini, "imtina etdi**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**və təkəbbür göstərdi" (Quranın 2-ci ("Bəqərə") surəsinin 34-cü ayəsindən bir parçadır) azğınlığı və zəlalətindən uzaq saxla!**

**...Xoş o zahidin halına ki, səadət əldə etmək itaətxanəsində ibadət təsbihinin sərriştəsini son Peyğəmbərin salavatı silsiləsinə yetirə. Xoş o rindin halına ki, iradət qədəhini hüsn və fərasət meyxanəsində şəriət sahibinin razılığı əlindən ala, həmişə təriqət xanəgahlarının etikafında onun yolunu tutub gedə və bu təriqətin zövqünə tabe ola, necə ki, deyiblər:**

**Rübai**

***Zahidlərin pak ürəyindəki işıq səndədir,***
***Şəriətin binası həmişə səninlə abaddır.***
***Qırxlar məclisində həriflər birbir***
***Rindlikdə üzüm suyunu alıblar...***

**(Tərcümə Q. İlhamındır)" (40, 13).**

Böyük mütəsəvvüf şəriət və təriqət keyfiyyətlərini bu qısa dua şəkilli mətndə çox incə və yuxarıda da qeyd etdiyimiz kimi, birbiri ilə bağlantılı şəkildə təqdim etmişdir. Burada sanki bir uzlaşma və barışıq  mövcuddur. Aşiqləri "rind", möminləri isə "zahid" adlandıran Füzuli binasında şəriət, təqva dayanan eşq yolunun rindlik olmadan gedilə bilməyəcəyini təsvir edir. Zahidliyin kökündə elmin, rindliyin kökündə eşqin dayandığını Füzuli açıq şəkildə bəyan edir.

Əslində burada iki ayrı fiziki şəxsdən söhbət getmr. Bu dualizm, möminlik və aşiqlik, alimlk və ariflik, rindlik və zahidlik, hal və qal Füzulinin – yəni, insanın öz içində gedən bir prosesdir. Çünki, ruhaniyyət təcrübəsindən, mənəviyyat tarixçəsindən də bilindiyi kimi, iki şəxsin arasında belə bir barışıq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vəhdət mümkün olmamışdır. Bu vəhdət Füzulinin öz düşüncə qəlibində baş verir. Bu mənada böyük mütəsəvvüfün gəldiyi nəticələr bizə ürfan dünyasındakı çoxlu sayda müəmmaların çözülməsi üçün açar verir.

Biz, Aşıq Ələsgər mənəviyyatının nədən və haradan qaynaqlandığı sualına məhz bu cür mənbələrə müraciət etməklə cavab tapa bilərik. Əgər bu rakursdan baxa bilsək, görərik ki, Aşıq Ələsgər poeziyası məcazlarla, təsəvvüfi rəmzlərlə doludur. Bu istilahları bəzi klassiklərlə müqayisəli şəkildə təhlil etdikdə görürük ki, həqiqətən "təriqət" və "mərifət" məfkurəsinə yiyələnmək üçün Aşıq Ələsgərə savad, zahiri bilgilər lazım olmayıb. Onun ürfani istedadı bəlkə də haqlarında ətraflı məlumata sahib olmadığı divan ədəbiyyatı şairləri ilə onu müəyyən paralellər üzərində birləşdirir.

***Hicran düşkünüyəm, gözəl müştaqı,***
***Axtarıram bu dünyanı sini-sin.***
***Mürği-ruhum getməz səndən irağa,***
***Qonşun ollam, qəbul etsə sini-sin...*** (10, 175).

Verdiyimiz bəzi izahlara əsasən, artıq söyləmək olar ki, məsələn, "hicran düşkünüyəm" ifadəsində gizlənən məna adi, məcazi görünən məhəbbət yolunda çəkilən hicrana işarə deyil. Yaxud da "gözəl müştaqı" ifadəsi işlətməklə, Aşıq Ələsgər təcəlla nurunu gəzdirən gözəllərdən bəhs edir. Çünki, ikinci misradakı "axtarıram bu dünyanı sini-sin" ifadəsi dar mənalara, ilk baxışda anlaşıla bilən mətləblərə sığışmır.

Biz, Aşıq Ələsgər hicranını Füzuli hicranı ilə müqayisə edirik. Bu, ehtişamlı bir hicrandır və nə qədər məcaz pərdəsinə bürünsə də, özündən çıxan İlahi nuru gizlədə bilmir. Məsələ



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

burasındadır ki, Aşıq Ələsgər şeirlərini hər hansı bir istiqamətdə təhlil etməyin ən məqbul yollarından biri də onun bir şeirini başqa şeirləri ilə müqayisəli şəkildə araşdırmaqdır. Bu, onun ədəbi üslubundan çox, fəlsəfi dünyagörüşünü təhlil etmək yolunda bir addımdır. Yəni, əgər Aşıq Ələsgər hansısa hicrandan, hansısa gözəldən söz açırsa, biz onun səviyyəsini, tutumunu, fəlsəfi çəkisini və bunun Aşıq Ələsgər tərəfindən deyildiyini unutmamalıyıq. Əgər Aşıq Ələsgər öz yaradıcılığı boyu "Ələst aləmi"ndən, nübuvvət, imamət, vilayət məqamından, şəriət və fundamental İslamın xaricində cövlan edən "mərifət" və "həqiqət" prinsiplərindən bəhs edirsə, demək, onun adını çəkdiyi "hicran" da vəsf etdiyi adsız "gözəl" də Ələsgər səviyyəsinə, Ələsgər fəlsəfəsinə uyğun olmalıdır. Ən azından bəsit məntiq bunları söyləməyə əsas edir. Böyük ustad hətta dəqiq ünvan göstərdiyi gözəlləmə və vəsfi-hallarında belə mücərrəd, sətiraltı mənalar gizlətmişdir.

Fəqət, bunlara rəğmən, Aşıq Ələsgər çox konservativ şəkildə, şiddətlə hikmət və ürfan tərənnümçüsü olduğunu bəyan etmişdir:

***Qəddim əyib, qəm xirqəsin geyirəm,***
***Məhəbbət odundan təam yeyirəm,***
***Leylü nəhar "yahu", "yahu" deyirəm,***
***Çıxıbdı qəlbimdən ibadət eylə*** (10, 74).

Burada kiçik bir haşiyə çıxmaq istərdik. Aşıq Ələsgərin şeirlərinin 1999cu ildə dərc olunan toplu nəşrində bu şeirdəki "ibadət eylə" ifadəsi dırnaq içərisində göstərilmişdir. Buradan belə məna çıxır ki, onun öz qəlbi ona "ibadət eylə" deyə xitab edir. Bizcə bu, yəni həmin sözlərin xitab olaraq dırnaq içinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

alınması yanlışdır. Burada ustad aşıq əksinə, gecə-gündüz ("leylü nahar" ifadəsi də həmin nəşrdə yanlış yazılmışdır. "Leyl" ilə "nahar" sözləri arasına izafət defisi qoyulmuşdur. Halbuki, onlar izafət deyil, ayrı-ayrı sözlərdir. "Leyl" gecə, "nahar" gündüz deməkdir. Onların arasında isə defs yox, "u" bağlayıcısı olmalıdır ki, bu da "və" bağlayıcısını əvəz edir) "ya hu", "ya hu" deyərək, ibadətdən uzaq düşür. Buradakı "ibadət" şəriət termini olaraq işlədilmişdir. Yəni, təriqətə, eşq havasına, ruhani məstliyə girən aşiq ibadətdən, zahidlikdən, dolayısı ilə riya və göstərişdən uzaq düşür. Nəticədə onun qəlbindən ibadət çıxır, yerinə hal, şur, vəcd girir:

***...Xəstə könül, sürün dost irahına,***
***İslam sərdarına, din pənahına.***
***Ələsgər, yön çevir şahlar şahına***
***Yapış ətyindən, şikayət eylə.***

Artıq bəllidir ki, "şahlar şahı" dedikdə söhbət Həzrət Əlidən gedir. Hər fürsətdə Şahi-Mərdana, Vilayət sahibinə sığınan Aşıq Ələsgər əslində bir dərviş olaraq, Həzrət Əli aşiqi idi. Onun eşqi ilə dərvişlik, abdallıq, sufilik edirdi. Bu eşqin özü ilə gətirdiyi məcazlar və rindanəlik Aşıq Ələsgər yaradıcılığının əsas məzmun və qayəsini təşkil edir:

***Bir gün Mansır qalxar, gələr toxmaq, yay,***
***Dağlara atmağa eylər haqq-say.***
***Seçilməz məşhərdə nə şah, nə gəday***
***Xaliqi-ləmyəzəl haqq divan eylər*** (10, 77).

Burada ustad aşıq həm məşhər günündən, həm haqq divanından, həm də zühurdan danışır. Birinci misradakı "Mansır", yəni, "Mənsur" ifadəsinin kimə xitabən deyildiyi bu günə qədər



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

heç kimə məlum deyil. Şeirin məzmunundan görünür ki, söhbət gələcək dövrandan, zühur və məşhər günündən gedir. Elə buna görə də həmin şəxs (Mənsur) kimdirsə, Aşıq Ələsgərin müasiri və tanıdığı biri ola bilməzdi. Burada ən çox ehtimal verdiyimiz məsələ Əhli-Həqlərin gizlin kitablarında və cəm quyəndələrinin (kəlamxan şairlərin) Aşıq Ələsgərdən də neçə əsr öncə irəlidən xəbər verdikləri mətləblərdir. Onlar da həmin şəxsin adını çəkmişlər (hətta biz bu ada Hafizin məşhir divanında da rast gəlirik!). Bəzi məsələlər bu gün də gizli qaldığı üçün biz həmin təhlili bu yerdə dayandırmaq istərdik. Bircə onu deyə bilərik ki, həmin bənddə təsadüfi, qeyri-müəyyən, ünvansız heç nə yoxdur.

***Məzəmmət eyləmə mən binəvanı,***
***Sahibi-səltənət, ey gövhər kanı.***
***Mənim sözüm yoldan çıxan mollanı,***
***İnşallah, qaytarar, müsəlman eylər.***

Təhlil etdiyimiz mövzu baxımından buradakı ən vacib məqam "yoldan çıxan molla" ifadəsidir. Belə ki, biz klassik ürfan ədəbiyyatında tez-tez "zahidi-gümrah" ifadəsinə rast gəlirik. "güm" ("qom") fars dilində "azmış", "çıxmış", "rah" isə "yol", "ərkan" deməkdir. Aşıq Ələsgərin "yoldan çıxan molla" ifadəsi "zahidi-gümrah" ifadəsi ilə eyni mənaya malikdir. Əslində bu, təsəvvüf qaynaqlarında bir ənənədir. Bu "zahid", bu "molla" yuxarıda Məhəmməd Füzulidən misal gətirdiyimiz "zahid"dir ki, Aşıq Ələsgər ona eşq və ürfan pəncərəsindən baxaraq, onu naqis, yoldan azmış olaraq görür. Məhəmməd Füzulinin divanında belə bir beytə rast gəlirik:

***Ey əsiri-dami-qəm, bir guşeyi-meyxanə tut,***
***Tutma zöhhadın müxalif pəndini, peymanə tut*** (38, 74).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göründüyü kimi, burada zöhhadın, yəni zahidlərin “müxalif pəndindən”, əyri və həqiqətə zidd nəsihətlərindən söhbət gedir.

Aşıq Ələsgərin “Mənim” rədifli çox gözəl bir qoşması vardır:

***Süludun, firudin dilim əzbəri,***
***Oxusam xoş gələr avazım mənim.***
***Qünut, rükum bir də səcdəm səhv olsa,***
***Neyləsəm, səhihdi namazım mənim.***

***Günahkardı nə ki yoldan azan var,***
***Iki mələk – xeyirşəri yazan var,***
***Ərəsət var, qıl körpü var, qazan var,***
***Orda qəbul olsun niyazım mənim.***

***Ələsgərə şərü böhtan deyənlər,***
***Şeytana qul olub, riba geyənlər,***
***Zəkatsız dövlətə halal deyənlər,***
***Onlardan halaldı bu sazım mənim*** (10, 113).

Bu nəfis şeirdə ibadəti, təqvanı qoruyan, riyadan, yoldan azmış zahidlikdən – “zahidi-gümrah”lardan uzaq olan bir dərvişin etirafları dilə gətirilmişdir. Əvvəlki misralarda qeyd olunur ki, ibadətlər xətalı, müəyyən qədər qeyri-kamil ola bilər. Lakin ustad aşıq “neyləsəm, səhihdi namazım mənim” deyir. Bu, çox diqqətçəkən bir məqamdır. Arifaşıq ehkamdan, şəriətdən xəfifcə qaçır, zahidliyi riyakarlıq sayır. Səcdədə, rüküdə səhv də olsa, namazının, ibadətinin səhih-dəqiq olduğunu iddia edir. Burada Aşıq Ələsgər böyük Füzuli ilə birləşir. Hər iki aşiq eşqin fəzasında seyr edərək, şəriətin haram buyurduğu sazı, “vəhdət



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

meyi"ni halal hesab edir. Bu ənənəvi ürfani məfkurədir ki, ona Aşıq Ələsgər də mükəmməl şəkildə yiyələnmişdir.

***Onlardan halaldı bu sazım mənim –***

– misrası sazın ehtişamından, "təriqət", "mərifət" və "həqiqət"dəki yerindən, onun hal, vəcd, trans vasitəsi olduğundan xəbər verir. Bir vücudda, bir könüldə həm pak şəriəti, həm ürfanı daşıya bilmək, həm zahidanə təqva, həm aşiqanə seyrlər sahibi ola bilmək Aşıq Ələsgərin kamala yetmiş bir arif olduğunun nişanələridir.

Aşıq Ələsgər poeziyasındakı təsəvvüfi meyllərin əsaslarından birini də dediyimiz kimi, rəmzlər və məcazlar sistemi təşkil edir. Ümumiyyətlə, aşıq yaradıcılığında bu xüsusiyyət klassik divan ədəbiyyatına nisbətən az müşahidə olunur. Bunun da əsas səbəbi bəzilərinin qeyd etdikləri kimi, hansısa realizmdə və ya materiallıqda deyil. Yəni, tutaq ki, hansısa aşıq şeirində "gül", "zülf", "ləb", "mey" kimi ifadələri işlədərkən, şair bunları müstəqim, material mənada işlətməyə də bilərdi. Lakin, bu keyfiyyətləri nəzərə alan bəzi tədqiqatçılar aşıq ədəbiyyatını ürfani ədəbiyyatdan fərqli olaraq, daha real, daha xəlqi hesab etmişlər. Halbuki həmin "reallığın" kökündə elmi ateizm, həmin "xəlqiliyin" əsasında isə, artıq aktuallığını çoxdan itirmiş sinfi ziddiyyət dayanırdı. Bütün bunlar əlbəttə ki, yaxın keçmişdə qalmış məsələlərdir. Bu gün ilahiyyatı, ürfanı, təsəvvüfü məhz bir gerçəklik, bir mənəviyyat hadisəsi olaraq idrak etməyin zamanı gəlib çatmışdır. Məsələ burasındadır ki, divan ədəbiyyatı ilə aşıq ədəbiyyatı bir-birindən fəlsəfi məfkurə etibarilə deyil, janr etibarilə fərqlənir. Yəni, əski Sovet alimlərinin düşüncələrinin əksinə olaraq, divan ədəbiyyatı idealizmi, aşıq ədəbiyyatı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

isə realizmi təşkil etmir. Bu cür düşüncə, bir daha vurğulayaq ki, öz aktuallığını itirmişdir. Bu mənada, bundan sonra həm klassik divan ədəbiyyatındakı, həm də aşıq ədəbiyyatındakı təsəvvüfi mətləbləri həmin bədii sənət nümunələrinin qayəsi, əsas məzmunu kimi, araşdırmağa ehtiyac vardır. Əslində, hər iki ədəbi janrın içərisindən ürfan və təsəvvüf anlayışını çıxarsaq, onların yerində gözə dəyən, tutarlı heç nə qalmır. Xüsusilə, Aşıq Ələsgər də daxil olmaqla, Ələsgərə qədərki aşıq ədəbiyyatının mayasından bu fəlsəfəni qoparsaq, çoxlarının dediyi kimi, bunun əvəzində səviyyəsiz, cismani duyğular, yaramaz "məhəbbət" hissləri qalacaq. Halbuki hər iki janrda yazılan saysız-hesabsız əsərlərdəki konkret ünvanlı material məhəbbət tərənnümlərinin özləri belə ürfanidir. Bunu, ən azından həmin müqəddəs ruhlu sənətkarların əqli və mənəvi səviyyəsi tələb edir. Məhşur ozan Qaracaoğlanın bir mənzuməsində oxuyuruq:

***Dörd kitabdan başlayıram əlifə,***
***Bir isim yazılmış quldan ziyadə.***
***Əbrişim saçından əyməli zülüf,***
***Sürmələr qarışmış teldən ziyadə*** (59, 17).

Bu misralar Aşıq Ələsgərin hətta zahiri gözəllik vəsflərindəki ürfaniliyi barədəki yuxarıda qeyd etdiyimiz fikrin analoqudur.

Müasirlərimiz olan şair və aşıqlardan fərqli olaraq, həmin mütəfəkkir sənətkarlar əqidə və ürfan daşıyıcıları olmuşlar. Onları əqli və mənəvi cəhətdən özləri ilə müqayisə edənlər çox yanılırlar.

***Güləbətin qıyı tər sinən üstə,***
***Nə gözəl yaraşır, qız köynəyinə.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Sinən Kəbə, köynək Kəbə örtüyü,***

***İzn versən, sürtəm üz köynəyinə...*** (10, 100).

Göründüyü kimi, sevdiyi gözələ şəhvani hisslər bəsləyən heç kimin, o gözəlin sinəsini Allahın evi Kəbəyə, köynəyini isə Kəbə örtüyünə bənzətməyə cürəti çatmaz. Ələsgər bunu ancaq təcəlla nurunun ardınca düşməklə, insana olan məhəbbətində belə ilahi cazibə gəzdirməklə deyə bilərdi.

İkinci bənddəki

***Gözəl yaranıbsan qalu bəladan –***

– misrası bu dediklərimizi bir daha möhkəm şəkildə təsdiq edir. Aşıq Ələsgər vəsf etdiyi gözəli xilqətdən əvvəl, ruhlar aləmindən – "Aləmi-lahut"dan tanıdığını deyir. Belə bir məhəbbətin içində nə qədər şəhvət, nə qədər materiallıq ola bilər?

Biz əvvəldə də qeyd etmişdik ki, Aşıq Ələsgər yaradıcılığı təqribən min ildən artıq bir dövr ərzində davam edib gələn təsəvvüf ənənəsinin davamıdır. Aşıq Ələsgəri mütəsəvvüf şairlərdən, təriqət və ürfan ədəbiyyatından ayrı təhlil etmək araşdırdığımız mövzu baxımından yanlış olardı.

Qeyd etdik ki, rəmzlər və məcazlar divan ədəbiyyatındakı ürfani mövzuların əsas aparıcı keyfiyyətlərindən biridir.

Belə rəmzlərin açıqlanması ilə çıxış edən ən görkəmli mütəsəvvüflərdən biri də Şeyx Mahmud Şəbüstəridir. Onun məşhur **"Gülşəni-Raz"** əsərində mənzum şəkildə ürfani istilahların gerçək mənaları verilmişdir.

Mahmud Şəbüstəri öz əsərində bu istilahların bədii açıqlanma səbəbini yazır. Şair qeyd edir ki, bu barədə çoxlu sayda əsərlər yazılmışdır. Lakin o da bu mövzuya müraciət edərək, bəzi rəmzlərə aydınlıq gətirmək istəmişdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürfani istilahlar olan "göz" və "dodaq" barədə Mahmud Şəbüstəri belə izah verir:

***Bax ki, gözdən olur nə şahid peyda***
***Lazım olanları sən gözlə burda.***
***Gözündən istədi məstlik, xumarlıq,***
***Ləlindən var oldu büsbütün varlıq.***
***Onun gözündəndir ürəklər xumar,***
***Ləlindən gizlənmiş pərdədə canlar...*** (46, 208).

(əlbəttə ki, tərcümələr qüsurlu ola bilər – F.S.)

Tədqiqatçı alim Möhsün Nağısoylu yazır: "Şəbüstərinin "Gülşəni-raz" məsnəvisi, əsasən fəlsəfi əsər kimi tanınır ki, bu da, ilk növbədə, onun məzmunu ilə bağlıdır. Bizim fikrimizcə, "Gülşəni-raz"ı məzmununa görə sırf fəlsəfi yox, bədii-fəlsəfi əsər saymaq daha məqsədəuyğundur. Birincisi, ona görə ki, əsərdə bilavasitə sufizimin elmi-nəzəri məsələləri işıqlandırdığı kimi, filosof-şairin əxlaqi didaktik görüşləri də öz əksini tapmışdır. Əsərdə yüksək əxlaqi fikirlər aşılanır, sufi dünyagörüşü, sufi həyat tərzi təbliğ olunur" (70, 13).

Mətləbə bir az da yaxınlaşsaq, görərik ki, burada söhbət Allah-Təalanın təmsili rəmzlərindən gedir. Yəni, "göz" və "dodaq" Onun "gözü" və Onun "dodağı"dır. Qəribə görünsə də təsəvvüfdə bu hal məqbul və əhəmiyyətlidir. Nəsnələrin, məcazların Tanrıya istinad edilməsi məhz təsəvvüfə xas olan özəllikdir. Bu, çox qədim, ta Hüseyn ibn Mənsur Həllacdan, Sərrac Tusidən, Mühyiddin Ərəbidən, Əbu Səid Əbu Xeyrdən gələn bir ənənədir. Fəlsəfi baxımdan təsəvvüf Allaha şəkil vermir. Onu görünə bilən bir hala gətirmir. Bu, təkcə şəriət ehkamına görə küfr deyil. Eyni zamanda, ürfani məntiqə və həm də metafizik metodlara əsasən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də mümkün olmayan bir şeydir. Təsəvvüfdəki “Haqqın gözü”, “Tanrının zülfü”, “Xudanın ləbi” kimi istilah və mənalar, belə demək mümkünsə, ruh aləminin cilvələridir ki, bu cilvələrə aşina olmaq insandan müəyyən mərhələli hazırlıq tələb edir. Məsələn, Şeyx Mahmud Şəbüstəri “Ləlindən var oldu büsbütün varlıq” deyərkən, ilkin kəlama, dodaqlardan çıxan can nəfəsinə işarə edir (kəlam və nəfəs məsələsinə biz başqa ariflərin əsərlərində də rast gəlirik).

“Gülşəni-Raz”ın məcazlara dair davamında “zülf”dən söhbət açılır. Sufi dünyabaxışında “zülf” zikrə işarədir, “kakil” isə namaza. Ümumiyyətlə, istilah olaraq, “zikr” təsəvvüf ədəbiyyatında çox geniş və əhatəli şəkildə istifadə olunmuşdur. Zülfün ilahi zikrlə əlaqəsi onun uzunluğuna, pərişanlığına təşbeh edilir. Belə ki, sufi zikrləri uzun olar və ruhun hallarını məqamdan məqama salaraq, pərişan edər. Namazın “kakil”ə, zülfün isə “zikr”ə təşbeh edilməsi məhz bu baxımdan yozulmalıdır. Məcaza girən Tanrının “hicab altından çıxan kakili” sirri-həqiqəti gizlədən və əhli-möminə xas olan, aşiq üçün isə yetərli olmayan namazdır. “Örtük altındakı zülf” isə məna və ehtiva baxımından genişdir və yalnız həmin hicabdan qurtulanlar üçündür. Hicab şəriətdir, ehkamdır. Bu hicabın altında eşq yatır. Eşq isə zikrin bəhrəsidir, pərişanlıq və qaranlıq əlamətidir (ibadətin gündüz, zikrin gecə, o cümlədən, imanın günəş, eşqin isə ay olduğuna dair fikirlər klassik Şərq məfkurəsində və ədəbiyyatında çox geniş yayılmışdır).

Zülf haqqında Şeyx Mahmud Şəbüstəri yazır:

***Uzundur cananın zülfünün sözü,***
***Ondan nə deyəsən, bir sirdir özü.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***O qıvrım zülfləri soruşma məndən,***
***Tərpətmə dəlilər zəncirini sən...*** (46, 209).

Göründüyü kimi, zülf məsələsi "Gülşəni-Raz"da da zikr və sirr əlaməti olaraq vəsf olunur.

Zülf istilahına biz Aşıq Ələsgərin başqa bir şeirində də rast gəlirik:

***Ovçuyam, görməmişəm,***
***Bir belə sərxoş maralı,***
***Tökülüb şahmar zülfü,***
***Bürüyübdü qəddi-dalı.***
***Hüsndə Züleyxadı,***
***Loğmana bənzər camalı!***
***Mələklər də "amin" desin***
***Ərşi-müəllada bu gün*** (10, 210).

Bu şux mənzumədə də ürfani təməllərlə formalaşmış bir təfəkkürə sahib olan Aşıq Ələsgər çoxlu sətiraltı mənalar işlətmişdir. Zahiri tərəfdən adi tərif, gözəlləmə kimi görünsə də bu şeir alt qatlarda dərin müqəddəslik duyğuları daşıyır. Hiss olunur ki, zahiri gözəllik əlamətləri burada ustadı çox da məşğul etməmişdir. O, burada eşqi ümumiləşdirir – məstliklə zülfi-pərişanı bir arada verməklə, öz şeirinə ürfani ideya qatır. Həmin gözəl kimdirsə, Haqqın (Tanrının) təcəllasını daşıyır. Çünki, təkcə zahirdə Züleyxaya yox, həm də batində və kamalda Loğman peyğəmbərə bənzəyir. Bu, adi gözəllik deyil. Onun camalında bir nizam vardır ki, Aşıq Ələsgər onun pozulmaması üçün dua edir. Üstəlik bu duaya göy üzündəki mələklər də "amin" deyir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yuxarıdakı izahlara qayıdaraq, "Gülşəni-Raz"ın "xətt" barəsindəki şərhinə nəzər salmaq istərdik:

***Burada xətt deyəndə düşün kibriya,***
***Üz desən canlansın hüsnilə Xuda.***
***Üzü gözəllikdə yaratdı bir xətt***
***Dedi: – Yad deyilik bu hüsnə əlbət.***
***Xətt bir çəmən oldu can dünyasına,***
***Odur, həyat evi dedilər ona.***
***Zülfün zülmətiylə bir gecə yarat,***
***Xətdən tələb eylə gəl abi-həyat.***
***Xızr tək axtarma burda sən ad-san,***
***İç onun xətti tək həyat suyundan.***
***Görsən sən üzünü, xəttini, bişək,***
***Kəsrəti vəhdətdən seçmisən demək...*** (46, 210).

Buradakı "xətt", yəni üzdəki tük, peyğəmbərlərin, övliyaların varlığı kimi şərh olunur. Daha əsil və dərin mənada isə İlahi gözəlliklə onun aşiqləri arasında vasitəçi, təmsilçi, həm də görünməyən nurun görünən işarəsi, nişanəsi kimi səciyyəvidir. Bəzən isə "xətt" vəhdətin yolunda maneə, nöqsan kimi dəyərləndirilir. Məsələn, böyük arif Seyyid Əzim Şirvani xətt barəsində yazır:

***İstəməz aşiq ki, xətt düşsün üzari-dilbərə,***
***Eşqdə kamil olan ol mahə nöqsan istəməz...*** (90, 127).

Sufilərə görə, "yar" camalının həsrəti də müqəddəsdir. Bu gözəllik bətnində hicran daşıyır. Həmin hicran isə, bir zamankı vəhdətin, vüsalın paradoksal davamıdır. Ariflərin sevgisi də həmin vəhdətin təmsili olduğu üçün müqəddəsdir. Aşıq Ələsgərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Müddətdi həsrətəm camalın görəm,***
***Mətləbimi Mürtəzadən diləröm –***

– misraları bu baxımdan diqqətəlayiqdir. Aşıq Ələsgərin məhəbbəti ona görə pak və ucadır ki, o, öz mətləbini, yəni vüsala qovuşmağını Həzrəti Əliyyəl-Mürtəzadan istəyir. Belə məhəbbət şəhvani, cismani ola bilməz. Aşıq Ələsgər gözəlliklərin təsvirində klassik ənənələrə sadiq qalaraq, həmin vəsfləri hikmət və ürfan bağçasının gülləri ilə bəzəyir, onlara səviyyə verir.

Qeyd etdik ki, rəmzlər və məcazlar həm ədəbi, həm də fəlsəfi baxımdan təsəvvüf meylli bədii ədəbiyyatın özəyini təşkil edir. Onu da vurğulamaq istərdik ki, bədii istilahlar bədiyyatın özündən çox, şeirin məna və missiyasına xidmət etmişdir. Fəlsəfi dərinliklərdə dünya üzündəki əlamətlər, gözəlliklər gerçək aləmin inikası olaraq, bilinir. Gerçək aləm isə, ariflərin mərifətini – biliyini təşkil edən “Aləmi-Lahut”, “Ələst bəzmi”, “Qırxlar cəmi” və sairədir. Məsələ burasındadır ki, arifanə bilgilər nə dini, nə də bəsit məntiqə malik olan çağdaş elmi düşüncə baxımından izah oluna bilən şeylər deyil. Din inanca, imana, elm isə fakta və məntiqə söykənir. Çox zaman bunlar cəbhələşir, aralarındakı uçurum dərinləşir. Elm ilə dinin fövqündə dayana bilən yeganə nəsnə isə eşq – yəni, ürfandır. Ürfanın məntiqi isə təsəvvüfdür. Daha dəqiq ifadə etsək, təsəvvüf “təriqət” mərtəbəli bilgilər toplusu olaraq, “mərifət” qatındakı ürfanın tərcümanıdır. Bu izahlar bir neçə aspektdən dəyərləndirilə bildiyi üçün özünün ziddinə və inkarına da malikdir və buna görə də müəyyən mənada subyektivdir. Lakin, nəticə olaraq, onu söyləmək olar ki, “mərifət” qatındakı bilgilər nə qədər dərin və “həqiqət” məqamına yaxın olsa da təsəvvüf elmindəki zahiri qəlizliyə və kəlam



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

elmindəki dolaşıqlığa sahib deyil. Bəzən bu iki metod, yəni elmi təsəvvüflə bədii ürfan metodu eyni şəxsin, bir mütəsəvvüfün yaradıcılıq simasında əks olunmuşdur. Məsələn, böyük arif, özü özünə hər zaman "qəribə alim" deyən Hüseyn ibn Mənsur Həllacın təsəvvüflə bağlı elmi-mənsur əsərləri nə qədər qəliz və riyazi olsa da onun divanındakı bədii mənzumələr bir o qədər sadə və anlaşıqlıdır. Halbuki, onun divanı ürfanidir və daha dərin və çətin mətləblərdən xəbər verir.

Bu mənada ürfani rəmzlərin bədii ədəbiyyatda geniş şəkildə istifadəsi bir tərəfdən də qəliz təsəvvüfi fikirləri estetik və anlaşılan bir tərzdə təqdim etməyə xidmət etmişdir.

Ustad Aşıq Ələsgərin bu mətləblərə sadə dillə aydınlıq gətirən misraları insanı heyrətə gəlir:

***"Bəli" deyib, yol-ərkana gəlmişəm,***
***Nəqş olub sinəmdə eşqin kitabı.***
***Çeşmi-nübuvvətə aşiq olmuşam,***
***Bir suala verrəm yüz min cavabı...*** (10, 49).

Bu, həmin təcəllanın bəxş etdiyi, nə dini, nə də elmi baxımdan izah oluna bilməyən bilgilər toplusudur ki, Aşıq Ələsgər məhz ona iddia edir. Ta "Ələst" günündə, "həqiqət" termini ilə desək, "Cəbrayıl donunda" aləmlərin Rəbbinə "bəli" deyən Ələsgər "təriqət", "mərifət" və "həqiqət" yoluna gəldiyini bu cür gözəl misralarla təsvir edir.  Sufi simvolikası formadan daha çox, məzmuna xidmət etmişdir. Yəni, obrazlar bədii cəhətdən şəkilləndirilərkən onların zahiri ilə batini sıx bir vəhdət təşkil etmişdir. Hər hansı bir mətləbi həm bəzəyib, həm də gizlədən məcaz başqası ilə əvəz oluna bilməzdi.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yuxarıda dedik ki, Şeyx Mahmud Şəbüstəriyə rəmzlər barədə suallar verilir. Növbəti bir sual büt, zünnar, tərsalıq, yəni şəriətdə küfr sayılacaq nəsnələr barəsindədir. Bu suala o, –

***Büt burda məzhərdir eşqə, vəhdətə,***
***Zünnar qurşanmaqdır Haqqa, xidmətə.***
***Küfr, din varlığa bağlıdır deyə,***
***Fərq yoxdur tovhidlə bütpərəstliyə.***
***Əşyalar varlığa olmuşdur məzhər,***
***Onlardan biri də deyilmi bütlər?*** (46, 211) –

– şəklində cavab verir. Həqiqətən də ziddiyyətli fikirlərdir. Təkallahlı dinlərdə bütpərəstliyə son qoyulduğu halda, İslam övliyaları hansı bütləri və nəyə görə vəsf edirlər? Şeyx Mahmud deyir ki, büt vəhdətin əlamətidir. Çünki küfr də, din də Ondan gəldiyi üçün vəhdaniyyətlə bütpərəstlik arasında heç bir fərq yoxdur. Deməli, söhbət zahiri bütdən, ona sitayişdən yox, Haqqın təcəllasından gedir.

Daha sonra Şeyx Mahmud mətləbə bir az da aydınlıq gətirir:

***Bütpərəst olsaydı din nədir agah,***
***Dinindən dönərək etməzdi günah.***
***O, gördü bütdəki zahir cəhəti,***
***Kafir təriqətə düşdü rəğbəti...*** (46, 211).

Burada mətləb bir az da incələşir. Deməli, bütpərəstliyin gerçək mənası əslində vəhdətdir. Sadəcə onlar (bütpərəstlər) daşdan, taxtadan bütlər yaradaraq, surətpərəstlik edirlər. Deməli, küfr olan bütpərəstlik yox, surətpərəstlikdir. Belə nəticə hasil olur ki, nə zaman təcəlla özünə məkan tutdusa, o zaman surətə girir. Allah isə la məkandır! Bu mənada bütpərəstlik həm də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

həqiqətin inkarıdır. Çünki Allah sifətlərə sığmaz. Onun cilvələri gəzər, oynayar, gizlənər, fəqət bir yerdə donub qalmaz. Haqqın təcəlla sifəti aşiqi arxasınca apararaq, ona gah naz edir, gah zülm edir, gah da onu didara yetişdirir. Bu mənalardan çıxış edərək, söyləmək olar ki, "büt" kimi simvolların altında şəriətin öz inkar etdikləri ilə özünə qarşı çıxmaq dayanır. Yəni, ehkamdan, riyakar zahidlikdən qurtulmaq üçün təsəvvüf ərbabı məhz İslamla daban-dabana zidd olan məfhumları seçərək, elə bir mənzərə yaratmışlar ki, möminlərlə aşiqlər, alimlərlə ariflər, müctəhidlərlə övliyalar bir-birindən ayrılaraq, insanlığı seçim qarşısında qoysunlar.

Böyük arif, ürfan və təsəvvüfün ilk şəhidlərindən sayılan Hüseyn ibn Mənsur Həllacın məşhur "Kitab ət-Təvasin" əsərinin "Mərifət bağçası" bölümündə oxuyuruq:

**1. Alim, qəribə ustad Əbu Umarə Hüseyn b. Mənsur Həllac (Allah onu ruhunu müqəddəs etsin) deyir:**

**Məchulun içindəki mərifət gizlidir, mərifətin içindəki məchul da gizlidir. Məchulluq arifin sifətidir (və zinətidir, cəhalət onun surətidir. Mərifətin surəti idrakdan uzaqdır, gizlidir və geri dönəndir. Onu necə tanıyar ki, necəsi yoxdur), onu harada tanıyar ki, "hara" yoxdur, ona necə çatar ki, (vasitə yoxdur), necə ayrılsın ki, (ara yoxdur). Mərifət heç bir məhdud üçün tam deyil, o hesablanmır, tükənmir, bitmir.**

**2. Mərifət üstün fövqündədir, müddətin fövqündədir, məqsədin fövqündədir, sirlərin fövqündədir, xəbərlərin fövqündədir, idrakın fövqündədir. Bunlar hamısı əvvəl yox idilər, sonra var oldular. Yalnız məkanda meydana gəldilər. O, cəhətlərdən (səbəb və vasitələrdən) qabaq olub, hələ də**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**var. Onu cəhətlər necə ehtiva edə bilər, sonralar onu necə əhatə edə bilər?**

**3. Kim desə ki, "özümü itirməklə Onu tanıdım", itmiş var olanı necə tanıya bilər?**

**4. Kim desə ki, "öz varlığımla Onu tanıdım", iki əzəli var ola bilməz.**

**5. Kim desə ki, "Onu cahil olmaqla tanıdım", cəhalət pərdədir, mərifət pərdənin arxasındadır, (deyilənlərdə) bir həqiqət yoxdur.**

**6. Kim desə ki, "Onu adla tanıdım", ad adlanandan fərqli deyil, O isə məxluq deyil.**

**7. Kim desə ki, "Onu Onunla tanıdım", iki tanınana işarə edir.**

**8. Kim desə ki, "Onu sənəti ilə tanıdım", sənətkarsız sənətlə kifayətlənir.**

**9. Kim desə ki, "Onu tanımağın acizliyi ilə tanıdım", aciz (yerində) dayanandır. Dayanan tanınanı necə dərk edə bilər?**

**10. Kim desə ki, "mənə özünü tanıtması ilə tanıdım", o, elmə işarə edir, məlum olana qayıdır, məlum olan isə Zatdan uzaqdır. Zatdan fərqli olan Zatı necə dərk edə bilər?**

**11. Kim desə ki, "Onu özünü tanıdığı kimi tanıdım", əsər olmadan (yalnız) xəbərlə kifayətlənir.**

**12. Kim desə ki, "Onu iki hədlə tanıdım", Tanınan vahiddir, uzaqlaşmır, hissələrə ayrılmır.**

**13. Kim desə ki, "Tanınan özünü tanıyır", israr edir ki, arif arada (olan məsafədə) Onunla yüklənir, çünki Tanınan özünü tanımaqda hələ də davam edir.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**14. Qəribədir! Bədənində bir tükün necə qara və ağ olduğunu bilməyən əşyaları yaradanı necə tanıyar? Konkreti və müfəssəli, əvvəli və sonu, dəyişiklikləri və səbəbləri, həqiqətləri və yolları tanımayan şəxsə əzəli olanın (Allahın) mərifətindən pay düşməz”** (99, 4950).

Təsadüfi deyil ki, Həllac Mənsur on dördüncü bənddə eyham vurur və deyir ki, “bədənində bir tükün necə qara və ya ağ olduğunu bilməyən əşyaları yaradanı necə tanıyar?” Dolayısı ilə Allahı tanımağın yolu insanı tanımaqdan keçir. Şəriət və ehkam, yəni fundamental din isə bunun ziddinə gedir.

Fəqət biz “zöhd”, “ehkam” kimi sözləri şəriət halları, ehkam sifətləri olaraq istifadə edirik. Halbuki gerçək zahidlik elə təsəvvüfün binasını təşkil eidr. Həmin zahidlik bəndələrin nəzərinə və Allahın mükafatına talib deyildir. Yəni, bir sufi zahidlik edərkən, nə insanların onun zahidliyini görməsini, nə də Allahın bu zahidliyin əvəzində ona bol-bol nemətlər verəcəyini arzulamır.

Təsəvvüf aləminin əsasən huşyar, yəni ayıq (digər təsəvvüf ərbabı, məsələn, Mənsur Həllac, Şibli, Şəms və başqaları “məst”, “sərxoş” zümrə adlandırılır) mütəfəkkirlərindən olan Sərrac Tusi zahidlik haqqında özünün məşhur “Əl-Lümə” adlı əsərinin “Zahidlik məqamı” (“Zöhd”) bölümündə geniş təfsilat verir:

**“Şeyx deyir: Zahidlik şərəfli məqamdır. O, ali halların və uca mərtəbələrin əsasıdır. Bu, Allaha üz tutanların, Allah üçün hər şeydən aralananların, Allahdan razıların, Allaha təvəkkül edənlərin ilk addımıdır. (İmanın) əsasını zahidlikdə sabitləşdirməyəni sonralar heç nə saflaşdırmır, çünki dünya sevgisi hər bir səhvin başıdır, dünyadan zahidlik isə hər bir xeyir və itaətin başıdır.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Deyirlər: "Bu dünyada zahidlik adı ilə adlanan şəxs min şərəfli adla adlanar, bu dünyada istək adı ilə adlanan isə günahın min adı ilə çağrılar". Bu (zahidlik) Allahın öz elçisi üçün seçdiyi və onun da bu seçimi üstün bildiyidir.**

**Zahidlik halalda olmalıdır, haram və şübhəlini onsuz da tərk etmək vacibdir.**

**Zahidliyin üç təbəqəsi var: birincisi başlayanlardır ki, onlar əllərini mallarından, ürəklərini də əllərini çəkdiklərindən çəkirlər.**

**Cüneyd zahidlik barədə deyir: "(Bu), əllərini çəkdiklərinin dadından da qəlbini uzaqlaşdırmaqdır".**

**Səri Səqati də hesab edir ki, "Zahidlik – əlini çəkdiyindən qəlbini də çəkməkdir".**

**Digər təbəqə zahidliklə haqqa çatanlardır. Rüveyn b. Əhməd bildirir: (Zahidlik) nəfsin həzzini dünyada olan hər şeydən kəsməkdir". Bu, haqq əhlinin zühdüdür. Rahatlıqdan, tərifdən, mədh olunmaqdan adamlar arasındakı hörmətdən zahid olmağın özündə də, bu dünyadan zahidlikdə də nəfsin həzzi var. Bu həzzlərdən qəlbi ilə zahid olan öz zahidliyini gerçəkləşdirmiş olur".**

**Üçüncü təbəqə bilib və yəqin etsə də ki, dünya tamamilə onun halal mülküdür, axirətdə onunla bunun haqq-hesabı çəkilməyəcək və bu, onun Allah yanındakı məqamına bir naqislik gətirməyəcək, yenə Allah naminə ondan üz döndərib zahid olur. Çünki onun hər bir şeydə zahidliyi Allahın həmin şeyi yaratdığı və ona dəyər vermədiyi vaxtdan başlayır. Əgər dünyanın Allah yanında ağcaqanadın dəyəri qədər dəyəri**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**olsaydı, kafirə bir udum su verməzdi. Buna görədir ki, o, zahidliyindən də zahid olub tövbə edir”** (99, 108109)

İstər Hüseyn ibn Mənsur Həllacdan, istərsə də Sərrac Tusidən gətirdiyimiz bu nümunələrlə biz təsəvvüfün və təsəvvüf ərbabının gerçək mahiyyəti barədə yenə də müəyyən təsəvvür yaratmaq istədik. Göründüyü kimi, mahiyyətində Allahın rizası və eşqi dayanmasına baxmayaraq, şəriət və ürfan arasındakı köklü, təməlli fərqlər və ziddiyyətlər mövcuddur. Təsəvvüfün və ürfanın nə olduğu barədə kifayət qədər bilgiyə və az da olsa həyati təcrübəyə malik olmayanlar yanlış təsəvvürlərə qapılaraq, onları İslam ümmətinin arasına təfriqə salan cərəyanlar kimi qələmə vermişlər. Halbuki, təsəvvüf və ürfan tam əksinə, İslamın bətnini parçalayan məzhəb ayrılıqlarının fövqündə dayanaraq, bu təfriqənin – sünniliyin, şiəliyin və digər buna bənzər məzhəblərin yaratdığı mənəvi, fiziki və məfkurəvi fəlakətlərə son qoymuşdur. Həqiqətən də ürfan əhlinin məzhəbi olmaz, çünki məzhəbçilik şəriət mərhələsinə xas olan bir keyfiyyətdir. Eşq əhli öz ağlını, qəlbimi elə nəsnələrlə məşğul etmişdir ki, şəriət, məzhəb, ehkam haqqında düşünməyə onun imkanı olmamışdır. Ustad Aşıq Ələsgərdən oxuyuruq:

***Ələstü birəbbiküm qalu bəladan,***
***Mərdin mövlasına nökər olmuşam.***
***Sürtmüşəm üzümü xakipayına***
***Elm tapıb sinədəftər olmuşam...*** (10, 126).

Bu misralar o qədər inandırıcıdır və təbiidir ki, insan onları yaşanmış bir hekayə kimi qəbul edir. Təsəvvüfdəki ariflik də məhz budur. Arif, zamanı qabaqlayan, gələcəyi yaşayan, hər an ölən, dirilən şəxsdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəzəri təsəvvüfün böyük nümayəndələrindən olan Əbu Hamid əl-Qəzzalinin "Əməllərin mizanı" əsərində oxuyuruq:

**"Diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, müqəddəslərin möcüzələri peyğəmbərliyin birinci təzahürüdür. Allahın Rəsulunun bu dünyanın özündən uzaqlaşaraq Hira dağına tərəf gəlməsi və öz Allahı ilə tək qalması zamanındakı vəziyyəti məhz belə** (sufiyanə – F.S.) **hallardandır və həmin vaxt o, ərəblərin qarşısında möminliyi elə izhar etmişdir ki, ərəblər bir səslə: "Doğrudan da, Məhəmməd öz Allahına olan qızğın məhəbbətindən alışırdı", – söylədilər.**

**Bilavasitə hiss etməklə həmin halı yalnız sufilərin yolu ilə gedənlər öyrənə bilərlər. Lakin bunu öz üzərində hiss etməyənlər yalnız sufilərlə tez-tez ünsiyyətdə olaraq onların söhbətləri və təcrübələri əsasında səhih bilik əldə edə bilərlər. Onların vəziyyətləri ilə müfəssəl tanış olduqdan sonra yalnız o zaman mötəbər məlumat qazana bilərlər. İnsanın onlarla az müddət oturması kifayət edir ki, onların inamını qəbul etsin. Sufilərsə elə insanlardır ki, onların müsahibləri heç bir yamanlıq bilmirlər. Əgər onlarla ünsiyyətdə olmaq kiməsə müyəssər olmayıbsa, onda qoy həmin şəxs məntiqi arqumentlərin göstəricilərinə əsaslanaraq "Dini elmlərin dirçəlişi" kitablarından birində, daha dəqiq desək, "Ürəyin möcüzələri" kitabında göstərdiyimiz şəkildə bunun mümkünlüyünə inansın".** (61, 190)

Bu məsələlərə, əsərlərindən nümunələr gətirdiyimiz digər mütəsəvvüflərdən fərqli olaraq daha anlaşılan bir tərzdə izahlar verən Əbu Hamid əl-Qəzzali də təsdiq edir ki, təsəvvüf dinin, inancın daha dərin və daha əsil qatıdır. Bu baxımdan biz Aşıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ələsgərin də ürfani şeirlərindəki mübahisəli, çox zaman da anlaşılmayan mətləblərə həmin aspektdən yanaşmalıyıq. Bizə lazım olan isə qaranlıq qalan mətəblərə təxəyyül, xürafat, şairanəlik donu geydirmək deyil, ürfanın və təsəvvüfün gerçək mahiyyətinə az da olsa varid olmaqdır. Bunu Aşıq Ələsgər özü də deyir:

***Şairin sinəsi haqq bazarıdı,***
***Satdığı kəlmələr ləl-mirvaridi.***
***Alimin elmiylə helmi yarıdı,***
***Həcvü hədyan demək nahaq söhbətdi...*** (10, 44).

Bizcə mətləb aydındır. Aşıq Ələsgərin "elm" dediyi alimlik, "helm" dediyi isə ariflikdir. Alimlik oxumaqla, ariflıik isə yaşamaqla, təcrübə etməklə mümkün olur. Bu təcrübə, Əbu Hamidin dediyi kimi, məhz sufi dünyasına bələd olmaqdır.

Aşıq Ələsgər yaradıcılığındakı təsəvvüfi meyllərin ən güclü palellərindən birini də böyük arif Seyyid Əzim Şirvaninin divanındakı incilərdən tapmaqla müvəffəq olduq. Bu paralellər əsas etibarilə məna və hədəflər baxımından diqqətəlayiqdir.

Seyyid Əzim Şirvani Azərbaycan təsəvvüf ədəbiyyatının ən azman nümayəndələrindən biridir. Cəsarətlə demək olar ki, onun divanında ürfan və təsəvvüf elminin cilvələrini özündə bariz şəkildə əks etdirməyən bir dənə də olsun qəzəl yoxdur. Bu prizmadan yanaşdıqda Seyyid Əzim fəlsəfəsini daha asan dərk və qəbul etmək mümkündür. Seyyid Əzim özündən əvvəlki həm elmi, həm də bədii təsəvvüf ədəbiyyatının əsl mahiyyətini daşıyan nadir şairlərimizdən biridir. Onun təhsili islami və ürfani idi. Uzun illər İraqda – Nəcəfül-Əşrəfdə oxuyan bu böyük mütəsəvvüf "Nəcəf Şahı"nın – Həzrət Əlinin ən dərin aşiqlərindən, ən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

atəşli taliblərindən biri idi. O, bu eşqin, bu tələbin sayəsində çoxlu sayda məxfi bilgilərə yiyələnmişdir. Həmin bilgilərin məxfiliyi onların zahiri məntiqdən, elmi-şəriətdən və rasional elmlərdən uzaq təsəvvüfi-ürfani informasiyaların mövcudluğundadır. Başqalarında olduğu kimi, Seyyid Əzimin fikirlərindəki həmin məxfi informasiyalar anlaşılmazlıq ucbatından çox zaman təxəyyül və xurafat elementləri hesab olunmuşdur. Lakin, həqiqət orasındadır ki, əvvəlki izahlarda da göstərdiyimiz kimi, həmin məxfi bilgilər birbaşa Peyğəmbər xanədanından və ən ümdəsi Qurani-Kərimin öz bətnindən gəlir. Seyyid Əzim vəhdət fəlsəfəsini daşıyan ariflərin ən üstünlərindən olmuşdur. Bu vəhdət – cövhərdir. Yəni, parçalanmayan, əzəli və əbədi olandır. Vəhdətdən ayrılan kəsrət isə ərəzdir. Ərəz parçalanır, ixtilafa səbəb olur və gerçəkləri pərdələyir. Bu fikirləri Seyyid Əzimin kamil bir qəzəli daha aydın ifadə edir:

***...Hüsnü eşqü aşiqü məşuq birdir, ey könül,***
***Seyyida, hərgiz deyil aləmdə əşya müxtəlif*** (90, 294).

Bu beytin mahiyyətində başdan-ayağa vəhdət anlayışını daşıyan təsəvvüf fəlsəfəsi yatır.

Biz analoji olaraq, Aşıq Ələsgərin "Olacaqdı" rədifli qoşmasının son bəndinə diqqət çəkmək istərdik:

***Ələsgər, axtarma qüdrətin sirrin,***
***Zülmətdə işıq var, acıda şirin.***
***Zikr eylə dilində mərdlərin pirin,***
***Qorxma, dar günündə yar olacaqdır*** (10, 120).

Burada, yəni Seyyid Əzim Şirvaninin qəzəlindən çıxarılan vəhdət fəlsəfəsinə toxunduğumuz məqamda həmin qoşmadakı misralar yeni bir məna çaları ilə göz önündə canlanır. Ustad aşıq



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Haqqın, qüdrətin sirrini axtarmamağı tövsiyə edir. Çünki sonrakı misrada vəhdəti ifadə edən "zülmətdə işıq var, acıda şirin" fikri yer tutmuşdur.

Seyyid Əzimin çox sevilən başqa bir qəzəli də Aşıq Ələsgər dünyası ilə səsləşir:

***Göstərir məscidi zahid ki, bu iman yoludur,***
***Bunu da bil ki, könül, meykədə ürfan yoludur...***

***Tut könül ali-Əli damənini, eyləmə qəm,***
***Get bu yoldan ki, bu yol Buzərü Səlman yoludur..***.(90, 203).

Burada birbaşa yoldan – təriqətdən bəhs edilir. Seyyid Əzim açıq şəkildə məscidin iman, meyxanənin isə ürfan yolu olduğunu bildirməklə, şəriətlə təriqəti birbirindən ayırır. Buradakı "meykədə" təkyədir, xanəgahdır. Onun məsciddən ayrılığı eşqin elmdən, arifin zahiddən, halın qaldan ayrılığıdır.

Aşıq Ələsgər şeiriyyətindəki Əli obrazı Məhəmməd Füzulidən, İmadəddin Nəsimidən daha artıq Əbülqasim Nəbati və Seyyid Əzim Şirvani yaradıcılığında özünə ürfani məqam qazanan Həzrət Əli fəlsəfəsi ilə səsləşir:

***Xəstə könül, sürün dost irahına,***
***İslam sərdarına, din pənahına.***
***Ələsgər yön çevir şahlar şahına,***
***Yapış ətəyindən şikayət eylə*** (10, 74).

İstər Aşıq Ələsgər, istərsə də Seyyid Əzim Şirvani məhz Azərbaycan təsəvvüfünün layiqli daşıyıcıları idilər. Fəqət burada bir incə məqam ondan ibarətdir ki, Aşıq Ələsgərdən fərqli olaraq, Seyyid Əzim Şirvanini elmi-nəzəri baxımdan "mütəsəvvüf"



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adlandırmaq olar. Çünki, onun yaradıcılığı məqsədli şəkildə təsəvvüfə xidmət etmişdir. Sadəcə olaraq, onun yaşadığı mühit və zaman onun bir övliya, qütb, mürşid kimi digər ruhani fəaliyyətlərlə sistemli şəkildə məşğul olmasına imkan verməmişdir. Buna baxmayaraq, cəsarətlə söyləyə bilərik ki, Seyyid Əzim Şirvani gerçək bir Azərbaycan-Türk mütəsəvvüfüdür.

Bizim gəldiyimiz qənaətə görə, Aşıq Ələsgər divan şairi olsaydı, çox güman ki, təpədən-dırnağa qədər mütəsəvvüf şair olardı. Məsələ burasındadır ki, divan ədəbiyyatı öz forması və məzmunu etibarilə missioner bir ədəbiyyat hesab olunmalıdır və ürfani dünyagörüşün, təsəvvüf gerçəklərinin ünvanlı təmsilçisidir.

Aşıq Ələsgər yazır:

***İnsan payız ölə, yazda dirilə,***
***Zimistanda boranqarı çəkməyə*** (10, 57).

Buradakı "insan payız ölə, yazda dirilə" ifadəsi çox diqqətimizi çəkdi. Gəldiyimiz qənaətə görə bu, İslamda və təsəvvüfün özündə ziddiyyətli şəkildə qəbul edilən tənasüxə işarədir. Tənasüx ruhların bədəndən-bədənə təbdili, keçidi anlamındadır. Bu məsələyə Seyyid Əzim Şirvanidə daha aydın şəkildə rast gəlirik:

***Seyyid, neçə yol gəlmiş idim mülki-cahanə,***
***Səd şükr tapıb surəti-insan genə gəldim*** (90, 366).

Bu qəzəl tamamilə təbdili-ruh və hülul nəzəriyyəsinin bədii inikasıdır. Seyyid Əzimin divanında bəlkə bu, yeganə qəzəldir ki, heç bir təfsir və yozumla ondakı fikirlərə şəriət və ehkam baxımından haqq qazandırmaq mümkün deyil. Yaxud da



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Ol qaşı Zülfüqar vuran zəxmi-mühlikin,***

***Cibril tək hənuz əsəri şəhpərimdədir...*** (90, 212).

Seyyid Əzim də eynilə Aşıq Ələsgər kimi, hülul fəlsəfəsinə dayanaraq, özünün "Ələst" aləmində Cənabi-Cəbrayıl, bu dünyada isə insan şəklində olduğunu bəyan edir.

İstər Aşıq Ələsgərdə, istərsə də Seyyid Əzim Şirvanidə tədqiq etdiyimiz təsəvvüf dünyagörüşü İslamiyyətdən kənar bir hadisə deyil. Sufiləri araşdırmaq üçün birinci növbədə İslamın tarixinə və fəlsəfəsinə dərindən bələd olmaq lazımdır. Onu da qeyd edək ki, bu məsələdə fəlsəfə tarixdən daha əhəmiyyətlidir. Tarixdə yanlışlıqlar, həqiqi mahiyyəti təhrif olunmuş mənbələr ola bilər və bu təbiidir. Lakin fəlsəfə, ilk növbədə, məntiq elminə söykəndiyi üçün insan düşüncəsini, fərdi təfəkkür keyfiyyətlərini aktiv hala gətirir. Lakin, özəlliklə təsəvvüflə bağlı İslam tarixində elə mənbələr vardır ki, onlar çox zaman gizlədilmiş məsələləri, tarixi hadisələri əks etdirir. Məsələn, təsəvvüf tarixinin tanınmış nümayəndələrindən olan (haqqında bir az əvvəl də bəhs etdiyimiz) Sərrac Tusi "Əl-Lümə" əsərinin 1ci babında yazır:

**"1. "Biz əvvəllər bu adı eşitməmişik, bu, yeni addır", – deyənlərə cavab. Biri soruşur: "Biz Peyğəmbərimizin əshabələrinə sufi deyildiyini eşitməmişik. Biz ancaq abid, zahid, səyyah, fəqir adlarını bilirik. Peyğəmbər əshabələrindən heç birinə sufi deməyiblər."**

**Allah bilən yaxşıdır. Biz deyirik: Peyğəmbərlə söhbət etmək və onun söhbətlərində iştirak etmək xüsusi hörmətdir. Onlar üçün dost adından daha şərəfli ad yoxdur. Bu, peyğəmbərə də şərəf və hörmətdir. Görmürsənmi, zahid,**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**abid, mütəvəkkil, fəqir, razılar, sabirlər və sairdirlər? Onlar nail olduqlarının hamısına Peyğəmbərlə söhbətin bərəkəti sayəsində çatıblar. Onlar halların ən ucası olan söhbətə aid edilirlər, çünki halların ən şərəflisi olan söhbətdən başqa bir fəzilətlə fərqləndirilə bilməzlər.**

**Bəziləri: "Bu, bağdadlıların uydurduğu addır," – deyirlər. Bu da mümkün deyil, çünki, Həsən Bəsrinin zamanında bu ad artıq tanınırdı. Həsən əshabələrdən bəziləri ilə görüşmüşdür. Onun belə dediyi rəvayət edilir: "Kəbəni tavaf edən bir sufi gördüm, ona bir şey vermək istədim, almadı. Dedi: "Mənim dörd dirhəmim (Bunu dörd səmavi kitab kimi yozanlar da var) var, məndəki mənə bəsdir." Sufiyan Sərvinin isə belə dediyi nəql edilir: "Əbu Həşim Sufi olmasaydı, mən riyanı dəqiqliklə tanımazdım." "Məkkə xəbərləri" kitabında Məhəmməd b. İshaq b. Yəsardan və başqalarından belə bir rəvayət edilir: "İslamdan qabaq Məkkə boş idi. Hətta Beyti (Kəbəni) dolanacaq adam belə yox idi. Uzaq ölkədən bir sufi gələr, Beyti dolanar, gedərdi." Əgər bu, düzdürsə, bu onu göstərir ki, İslamdan qabaq bu ad tanınırdı və o, fəzilətli, saleh şəxsə verilirdi"** (99, 95).

Bu deyilənlərdə çoxlu, maraqlı cəhətlər var. Ən diqqətçəkən məqam isə İslamdan qabaq da sufilərin, sufi anlayışının mövcud olmasıdır. Təsəvvüf tarixi baxımından Sərrac Tusinin əsəri etibarlı mənbədir. Üstəlik burada Tusi təsəvvüfə İslamdan kənar, hətta küfr elementi kimi baxanlara cavab verir.

Bu deyilənlər onu göstərir ki, Azərbaycan mütəsəvvüfləri ümumşərq ürfan ənənəsindən gələn silsilənin davamçıları olaraq həm klassik, həm də şifahi xalq ədəbiyyatı sahəsindəki ədəbi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nailiyyətlərində vahid dünyagörüşün bir parçasını əks etdirmişlər. Azərbaycan təsəvvüf ədəbiyyatını məhz bu yöndən təhlil etmək lazımdır.

Nümunələrdən də göründüyü kimi, ürfan əhlinin dinə, peyğəmbərliyə, ilahiyyata münasibəti fərqli və özünəməxsusdur.

Yuxarıdakı fikirlərə əsasən vurğulamaq istərdik ki, bir ürfan əhli olaraq Aşıq Ələsgər Allah və Peyğəmbərinin, son kitaba olan məhəbbətinin içində, yəni gerçək İslamın üfüqündə aşiqanə məqama yetişir. İslamiyyət bir müstəvi olaraq, arifləri nə qədər uzaqlara və məchullara aparıb çıxarsa da, ürfan və təsəvvüf nəinki küfrə və şirkə dönüşmür, hətta şəriətin və zöhdün binasını möhkəmləndirərək, dini riyadan, irticadan və ixtilafdan xilas edir.

Beləliklə, biz ustad Aşıq Ələsgərin ürfani, mütəsəvvüfanə fikirlərinin klassik ədəbiyyat nümunələri ilə paralel şəkildə necə səsləşdiyinə nəzər saldıq. Bu araşdırma, yuxarıda da qeyd etdiyimiz kimi, müəyyən məqamlarda subyektiv görünə bilər. Çünki, alışılmış elmi-metodoloji yanaşma tərzləri ilə ürfan və təsəvvüf barədəki alışılmamış baxış tərzi təbii olaraq, bəzən üstüstə düşməyə bilər. Lakin, çağdaş dünyanın bilimsəl axtarışlar yolundakı nailiyyətləri bu yöndə bizə də ümid və cəsarət verməkdədir.

Aşıq Ələsgər kimi öz xalqının əbədi iftixarı olan mütəfəkkirlərin şeir və sənət dünyası əlbəttə ki, birtərəfli, subyektiv araşdırıla bilməz. Bu fikir, ilk növbədə, elə bizim təsəvvüf fəlsəfəsi ilə paralel apardığımız araşdırmalara şamil edilməlidir. Zira Aşıq Ələsgər bir el şairi, xalqın bütün təbəqələrinin ruhani, mənəvi ehtiyaclarını qarşılaya bilən hərtərəfli və mükəmməl bir ozandır. Eləcə də bu böyük ustadın geniş dünyasının ayrılmaz və mühüm bir parçası da ürfan və təsəvvüfdür ki, biz də məhz bu sahəyə ağırlıq verərək, müəyyən mətləblərə aydınlıq gətirmək istədik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# IV FƏSİL

## BƏZİ XALQ DASTANLARINDA ÜRFAN VƏ TƏSƏVVÜF ELEMENTLƏRİ

Azərbaycan milli mənəviyyatının ən mühüm atributlarından biri də şifahi xalq yaradıcılığının dastan, nağıl, bayatı və digər qollarıdır. Azərbaycan şifahi xalq yaradıcılığı həm çoxəsrlik ənənəyə, həm də zəngin bədii-estetik keyfiyyətlərə malikdir. Öz tarixi, milli dəyərləri, fəlsəfi mahiyyəti ilə bəşər düşüncəsində özünəməxsus məfkurə cığırı açan Azərbaycan gerçəkliyi əsrlərdir ki, paklığını və monolitliyini qoruyub saxlaya bilmişdir. Bunun əsas səbəbi, bizim fikrimizcə, bu günə qədər mahiyyətinə kifayət qədər varılmamış metafizik-ruhani keyfiyyətlərdir. İstər mifoloji, istərsə də dini-mistik mətnlərdə insan hürriyyəti, hər zaman qüdsiyyətə can atan, görünməz müqəddəsliklərə kəskin meyl edən qəhrəmanlar silsiləsi göz önündə canlanır. Məhəbbət, qəhramanlıq, məişət və sairə kimi səciyyələnən dastanlar əslində mahiyyət etibarilə xalqın mənəvi, ruhi ehtiyaclarından törənən bədii-estetik hadisələr toplusudur. Bu fikir mahiyyət və şəkil olaraq miflərə və nağıllara da şamil edilə bilər. Bizim əsas tədqiqat obyektimiz isə xalq məfkurəsində ən qədim dövrlərdən bəri formalaşan ruhaniyyət və ilahi rabitə sistemidir. Bu mövzu bu günə qədər, məlum səbəblər ücbatından geniş tədqiqatdan kənarda qalmışdır. Uzun illərdən bəri Azərbaycanda aparılan elmi-ateizm təbliğatı bu sahəyə də təsirsiz ötüşməmişdir. Dastanlar, miflər, nağıllar və digər xalq yaradıcılığı janrları birtərəfli araşdırılmış, folklor və digər mətnlərə mənasız sinfilik, bəsit və səviyyəsiz xəlqilik kimi qavramlar yüklənmişdir. Bəzi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hallarda isə hətta dastan mətnlərindən müxtəlif hissələr çıxarılmış, din, mövhumat, xurafat adı altında süjetlərin əsl mahiyyəti və hədəfi sapdırılmışdır.

Bir qədər subyektiv görünsə də bunu söyləmək istərdik ki, bizim gəldiyimiz qənaətə görə, Azərbaycan şifahi xalq yaradıcılığının demək olar ki, bütün janrlarının bətnində, iç mahiyyətində güclü təsəvvüf meylləri yatır. Bizim işlətdiyimiz «təsəvvüf» kəlməsi burada həm İslamdan sonrakı təriqət qavramlarına, həm də İslam dininin zühuruna qədərki Azərbaycan-Türk milli-mənəvi dəyərlərində ehtiva olunan Tanrı sevgisi və bu anlamın yaratdığı qovuşma istəyinə-vəhdətə şamil edilir. Biz təsəvvüfün hələ İslamaqədərki təfəkkür modeli olduğu barədə əvvəlki hissələrdə bəhs etmişdik. Ancaq həmin İslamın düşüncəmizdəki İslami anlayışdan uzaq olduğunu da qeyd etmişdik. Müxtəlif mənbələrə və məntiqi dəlillərə söykənərək, bir daha xatırlatmaq istərdik ki, ehkam, şəriət, eyni zamanda dünyəvi çərçivələrdən baxdıqda İslamın zühuru tarixin bir dönəmində baş verən real hadisədir. Lakin «Qurani-Kərim»in batini mənalarından gələn və artıq elmi-nəzəri düşüncələrə sirayət etmiş urfani görüşlərə əsasən, İslami həqiqətlər nəinki dinlərin, hətta insanlıq tarixinin də öncəsinə gedib çıxır. Məsələn, «Qurani-Kərim»in «Əraf» surəsinin 172ci ayəsindəki **«Ələst günündə, «sizin Rəbbiniz mənəmmi?» (sualına) «bəli, (biz buna) şahidik, dediniz»** ayəsi «Ələst günü» adlandırılan «lahut»-ruhlar aləminə və həmin dövrdəki hadisələrə işarə edir. Bu məsələnin nə dərəcədə real bir məfhum olduğu başqa bir mövzunun söhbətidir. Buradakı diqqət edilməsi gərəkən əsas nöqtə inanc sistemindəki fərqli və daha dərin mətləblərin mövcudluğudur. Əlbəttə, bütün mərhələlərdə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

din bir inanc sistemidir. Lakin bu inanca fərqli prizmalandan yanaşılması insanların və insan cəmiyyətlərinin əqli və ruhani səviyyəsindən asılıdır. Bu səviyyə isə həm elmi, həm ictimai, həm də sosial mətləbləri özündə ehtiva edir.

Bizim fikrimizcə, dini bilgilər parçalanmır, sadəcə inkişaf edir. Yəni, konkret olaraq, elmi-nəzəri İslamın bətnindəki dinamika, zahiri deformasiya onun həm zaman, həm də məkan baxımından mərhələli inkişafının göstəriciləridir.

Qeyd etdiyimiz kimi, din həm də çox güclü bir ictimai-sosial hadisədir. Təbii ki, bu reallıq əsrlər boyu insanlıq şuurunda çox mühüm və əvəzedilməz yer tutmuşdur. Həmin qaçılmaz gerçəklik bu gün də öz davamiyyətini sürdürməkdədir. Tarixin müxtəlif dövrlərində yaranan miflər, dastanlar, nağıllar, bayatılar, atalar sözləri və digər şifahi xalq yaradıcılığı inciləri heç şübhəsiz ki, ruhani-mistik keyfiyyətlərdən xali deyildir. Qeyd etdiyimiz kimi, hər bir xalqın, millətin, yaxud da müxtəlif areallarda məskunlaşmiş insan topluluqlarının əqli-mənəvi, bədii-estetik dəyərləri o çevrələrin idrak və məfkurə ölçülərinə bağlıdır. Gəldiyimiz qənaətlərə görə isə, bu ölçülərin mayasında gözəlliyə və müqəddəsliyə meyl dayanır. Əks təqdirdə gündəlik məişəti, həyat qayğılarını, dövlətləri, müharibələri və bütün bunların dərin yer açdığı, ehtiyacdan və nəfsdən doğan insani şuuru bir tərəfə buraxaraq, bu şuura mənəvi idrak, ruhani zəka əlavə edərək, estetik kateqoriyalarla bədii incilər yaratmağa heç bir lüzum qalmazdı. Yəni, daha konkret ifadə etsək, insan oğlu hər zaman görünməz müqəddəsliyə meyl etmişdir. Bizdən əvvəlki (xüsusilə də son yüz il ərzində fəaliyyət göstərmiş) alim və təlqiqatçıların gəldikləri qənaət bundan ibarət olmuşdur ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

insanın qeybdəki hansısa müqəddəslik axtarışı onun təbiəti dərk etməməsindən, ondan qorxmasından, elmi idrakının mövcud olmamasından irəli gəlmişdir. Bu fikir heç şübhəsiz ki, elmi ateizm sturukturunun doğurduğu keyfiyyətlərdən biridir. Təkcə əski Sovetlər Birliyinin deyil, ümumiyyətlə materialist fəlsəfənin avanqard dünya elmində yaratdığı elm və din ayrılığı eyni zamanda müxtəlif xalqların şifahi yaradıcılıqlarının tədqiqinə də təsirsiz ötüşməmiş, onlara qarşı birtərəfli yanaşmaya səbəb olmuşdur. Yəni əslində «elmi yanaşma» deyilən metod elmdəki diferensiallaşma nəticəsində metafizik-ruhani məcradan uzaqlaşaraq, sırf materialist düşünsə tərzi ortaya çıxarmışdır. Əsas problem də elə həmin elm və din ayrılığındadır. Ruhani informasiyaların əqli məntiqdən uzaqlaşdırılaraq, onların din, xurafat, mövhumat adı altında qeyri-elmi və qeyri-ciddi nəsnələr olaraq qəbul etdirilməsi təbii olaraq insan məfkurəsinin şifahi şəkildə yaratdığı bədii-estetik nümunələrin mayasında yatan ilahi rabitəni pərdələmişdir.

Ruhani informasiyaların elmi məntiqdən uzaqlaşmasının bir əsas səbəbini də fundamental dini bilgilərin öz forma və metodunda axtarmaq lazımdır. Yəni, bu gün göz önündə olan din anlayışı əslində elə iddialı mövhumatdan, qeyri-səmimi ehkam və şəriətdən başqa bir şey deyildir. Dini bilgilər inkişaf edib elmi şəkil almalıdır deyə, düşünmək də kökündən yanlışdır. Yəni, şəriət və qanunlardan, müjdə və qorxudan ibarət olan din elə bu şəkildə olmalıdır. Bizim tədqiqatımızın əsas obyekti də elə bundan ibarətbir ki, ürfan və təsəvvüf kimi elmi-nəzəri bilgilər sisteminin vasitəsilə bədii insan şuurunun yaratdığı əsərləri tədqiq edə bilək. Bu baxımdan araşdırdığımız mövzulara



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

münasibətdə fundamental dini bilgilərlə ürfani, sufiyanə bilgiləri bir-birindən ayıra bilmək çox vacibdir. Yalnız bu vasitə ilə dini informasiyalar kimi tədqiq oluna bilməyən ruhani mətnləri düzgün, həqiqətə yaxın bir şəkildə araşdırmaq mümkündür. Ruhani mətnlər dedikdə həm zahiri şəkildə, həm də batini formalarda çox zaman mövcud nümünənin qayəsini, hədəfini təşkil edən mətləbləri nəzərdə tuturuq. Klassik ədəbiyyatda, eyni zamanda aşıq yaradıcılığında əvvəlki bəhslərdə də araşdırdığımız istilahlar, rəmzlər sistemi şifahi xalq yaradıcılığının ən müxtəlif janrlarına da aid edilə bilər. Əslində isə, xüsusilə dastan yaradıcılığında ürfani simvolika söz və istilahlardan çıxaraq, məzmun və süjet xəttində özünü göstərmişdir. Məsələn, klassik yazılı ürfan ədəbiyyatındakı məşhur ürfani rəmzlər bədii nümünələrin məzmun və formasını müəyyən etsə də divan ədəbiyyatının şəklinə uyğun olaraq, nisbətən dar çərçivədə və bəlli qəliblər içərisində işlənmişdir. Yəni, divan ədəbiyyatının yaranış və hədəfindəki sistemli «mərifət» müəyyən qədər dini-fəlsəfi basqılar altında idi. Bu basqılar yuxarı-kənar dairələrdən çox, həmin müəlliflərin öz iç dünyalarında formalaşmış təriqət və ürfan məktəblərinin təsirindən yaranırdı. Biz daha öncə də vurğulamışdıq ki, Yaxın və Orta Şərqin demək olar ki, bütün mütəsəvvüf şair və alimləri müəyyən ürfani çevrəyə sahib olmuşlar. Bu, onların konkret təriqət mühiti içərisində olmasalar da mütləq şəkildə zamanın hansısa övliyasının, mürşidinin, hansısa təriqət pirinin varlığına münasibətdə ehtiramın, məhəbbətin və hətta itaətin yaratdığı çərçivə və qanunlara biganə olmamalarının göstəricisi idi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şifahi xalq yaradıcılığı nümunələrində isə vəziyyət başqa cür idi. Divan ədəbiyyatındakı ürfani ənənə nə qədər dinlər öncəsi, ümumbəşəri fəlsəfi təmayüllərə söykənsə də hər halda forma və müəyyən qədər də məzmun etibarilə islami idi. Bu keyfiyyət o əsərlərin real tarixi hadisə və şəxsiyyətlərin fonunda intişar tapmasına gətirib çıxarırdı. Peyğəmbərlərin, dini liderlərin, övliya və mürşidlərin şəxsiyyəti, qissəsi zahirən müəyyən qədər şişirdilsə də bu mənzumə və nəsr əsərləri, qeyd etdiyimiz kimi, əsasən tarixi gerçəkliklərə söykənirdi. Dastan və rəvayətlərdə isə çox zaman mifik və əfsanəvi şəkildə olan obraz və hadisələr isə mahiyyət etibarilə qüdsal hədəflərə və gözəllik prinsiplərinə söykənsələr də daha azad məfkurəyə malik idilər. Əslində elə bu azadlıq şifahi xalq yaradıcılığındakı təsəvvüf meyllərinin daha geniş intişar tapmasına şərait yaradırdı. Xalq məfkurəsi, xalq zövqü mühafizəkar mənbələrdən qidalanmırdı. Biz bu əqidədəyik ki, xalq dastanları, rəvayətlər, atalar sözləri və başqa şifahi yaradıcılıq nümunələri də müəyyən informasiya daşıyıcıları tərəfindən ötürülmüş və yönlərdirilmişdir. Biz daha öncə Xoca Əhməd Yəsəvi və onun «Divani-Hikmət»indən bəhs edərkən, bu məsələyə toxunmuşduq. Əhməd Yəsəvi bir İslamsufi övliyası olaraq, Xorasan təsəvvüf məktəbinin nümayəndəsi olsa da «Türküstan piri» adlandırılırdı. Bu ünvan ona sadə xalqla bacarıqlı ünsiyyətinin, geniş kütlələr arasındakı övliyalıq məqamının nəticəsi olaraq verilmişdi. Şərq xalqları arasında yüzlərlə, minlərlə Əhməd Yəsəvilər mövcud idi ki, həmin övliya məqamlı seçilmişlər xalqın həm bədii, həm də ictimai şuurunun istiqamətləndirilməsində əvəzedilməz rol oynayırdılar. Əgər tarixdəki peyğəmbərlərin ilahi rabitə vasitəsilə yaratdıqları dinlər bir



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doktrina halında mövcud idisə, övliya və irşad sahiblərinin yaratdıqları ürfani mühit isə daha çox insani iradəyə və ruhani təkamülə söykənirdi. Bir daha vurğulayaq ki, biz burada din dedikdə qanunlar və ehkamlar səviyyəsində varlığını sürdürən şəriəti nəzərdə tuturuq. Əvvəldə də qeyd etdiyimiz kimi, vilayət məktəbindən yetişən övliyalar, pirlər, təsəvvüf mürşidləri din böyüklərindən, uzun əsrlər boyu çoxsaylı dövlətlərin tərkibində nüfuz, hökm və fitva sahibləri olan üləma və ruhanilərdən fərqli olaraq, təktək insanları və toplumu tabeçiliyində yox, cazibəsində saxlayırdılar. Məhz elə buradan da bəndəliik və aşiqlik ayrılığı kimi səciyyələnən şəriət və təriqət parçalanması başlayır. Əgər diqqət edilərsə, baradakı bəndəlik və aşiqlik insana deyil, birbaşa Allaha münasibətdə intişar tapan ünvanlardır. Yəni, Allahın bəndələri və Allahın aşiqləri kimi əqidə formatlarına girən fərdlər və topluluqlar öz dünyagörüşlərini yaşadır və təbliğ edirdilər.

Əvvəlki bəhslərdə də qeyd etdtiyimiz kimi, təriqət-təkyə məktəblərindən fərqli olaraq, mərifət-ürfan cərəyanları xalqın içinə nüfuz edirdilər. Beləliklə də övliya və pirlərin topluma müdaxiləsi nəticəsində xalq təsəvvüfü yarandı. Gəldiyimiz nəticələrə əsasən, məhz xalq təsəvvüfü təkyə, xanəgah, zaviyə mühitləri ilə səciyyələnən təriqət mərhələsindən qoparaq, ruhani təkamülün mərifət qatına qədəm qoydu. «Mərifət» də təsəvvüf deməkdir. Lakin bu təsəvvüf ümumi anlamdadır. Ayrıca olaraq təsəvvüf sufilik, yəni təriqət mənasındadır. Qeyd etdiyimiz kimi, mərifət isə təriqətdən, sufilikdən ayrılan, qapalı təkyə mühitindən qopan və geniş kütlələr arasında böyük nüfuz sahibi olan övliyalıq, pirlik məktəbidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu izahlardan göründüyü kimi, kütlə içinə nüfuz edən ruhani müdaxilə xalqın bədii-estetik şuurunu da formalaşdırırdı. Uzun müddət tədqiqatdan və ümumiyyətlə diqqətdən kənarda qalmış şifahi xalq yaradıcılğının məhz bu keyfiyyəti bizə imkan verir ki, dastan, mif, nağıl qəhrəmanlarının seçilmiş müqəd-dəslərlə, kəramət sahibləri ilə gizli əlaqələri barədə düşünək. Biz az subyektiv də görünsə, qeyd etmək istərdik ki, bəlkə də bu qəhrəmanlar həmin övliya və seçilmişlərin müəyyən anlamda transformasiya olunmuş şəklidir. «Kitabi-Dədə Qorqud», «Ko-roğlu», «Əsli və Kərəm», «Abbas və Gulgəz» və çoxlu sayda şifahi xalq yaradıcılığı incilərinin bətnində, sətiraltı qatlarında heç şübhəsiz ki, müdhiş bir ilahi cazibə yatır. Bu məsələ müəy-yən qədər elmi mübahisə yaratsa da hər halda təlqiqata cəlb olunması vacib olan mövzudur. Bizim düşüncəmizə görə, bu tip tədqiqatlar üçün vacib olan ən ümdə məsələ fərqli elmi metodun yaradılması və ümumiyyətlə, məsələlərə baxış tərzinin dəyişdiril-məsidir. Bir daha qeyd edək ki, bu fikir təkcə əski Sovet elmi metodologiyasına aid deyil. Eyni zamanda çağdaş dünya el-mində də belə bir boşluq mövcuddur. Yuxarıda vurğuladığımız kimi, elmi-praktik çevrələrdə ruhani bilgilərin dini inanc sistemi olaraq kompleks şəkildə elmi tədqiqatdan kənarda qalması müxtəlif xalqların şifahi yaradıcılıq məfkürəsində əsas atributlar-dan sayılan ilahiyyata münasibətdə də birtərəfri yanaşma tərzi formalaşdırmışdır. Belə olan təqdirdə inanc sisteminin hər zaman şüuraltı da olsa mövcud olan müasirliyinə və praktik əhəmiy-yətinə də kölgə düşür. Çünki, ümumxalq məfkurəsindən, dolayısı ilə kütləvilikdən uzaqlaşaraq, din dinliyində, elm də elmliyində qalır. Nəticədə isə kompleks elmi araşdırmalar öz yerini ilkin,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

metafizik başlanğıcını itirən differensiallaşmış elmi nailiyyətlərə vermiş olur.

Şifahi xalq yaradıcılığı nümunələrindəki, özəlliklə dastan, mif və nağıllardakı süjet xətləri ağız ədəbiyyatı nümünələri olduqları üçün təbii olaraq, müəyyən deformasiyalara məruz qalmışdır. Bu, onların tədqiqatı baxımından çox mühüm faktordur. Çünki, bədii nümunənin ilkin variantı ilə zaman-zaman dəyişikliklərə uğrayaraq bu günümüzə qədər gəlib çıxan variantı arasında həm forma, həm də daha çox məzmun baxımından dərin məna dəyişiklikləri mövcuddur. Bu isə onların düzgün tədqiqatına istər-istəməz mane olur (biz «düzgün tədqiqat» dedikdə, əlbəttə ki, yuxarıda bəhs etdiyimiz yeni elmi metodologiyanı nəzərdə tuturuq). Azərbaycan şifahi xalq yaradıcılığının ən geniş yayılmış və mükəmməl qollarından olan dastan janrında biz təsəvvüf və ürfan məsələlərinə daha çox rast gəlirik. Bu da təbiidir. Çünki, Azərbaycan xalq dasianları əsasən aşıq yaradıcılığı vasitəsilə öz mövcudiyyətini sürdürə bilmişdir. Aşıq yaradıcılığının təsəvvüflə və ürfanla bağlılığını isə biz keçən abzaslarda geniş izah etmişdik. Bizim gəldiyimiz qənaətə görə, dastan yaradıcılığındakı sufiyanə mahiyyətin qorunub saxlanmasının əsas səbəbi dastanların məhz aşığın, sazın cazibəsində var olmasındadır. Yəni, aşıq-aşiq bir təsəvvüf ərbabı olaraq, yaşadıb təbliğ etdiyi dastanda əslində öz dünyagörüşünü sürdürürdü. Bir trans, hal vasitəsi olan sazin müşaiyəti ilə dastan süjetindənki qəhrəman öz şəxsi, məişət duyğularından çox, qüdsal, batini rabitəni vəsf edirdi. Məcnun da Kərəm də Abbas da Qurban da əslində Tanrı aşiqləri, Haq carçıları idilər. Məcnun üçün Leyli, Kərəm üçün Əsli, Abbas üçün Gülgəz, Qurban üçün Pəri xoş bir



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

bəhanə idi. Bu tip qiyaslamalara klassik ədəbiyyatda daha çox rast gəlinir. Məlumdur ki, Şərq klassikası başdanayağa ürfani-mütəsəvvüfanə təmayüllərlə formalaşmışdır. Bu mənada xüsusilə klassık təhkiyə (burada təkyə ədəbiyyatı deyil, məhz hekayə, dastan anlamına gələn təhkiyə ədəbiyyatından söz gedir) ədəbiyyatındakı obraz və süjetlər rəmzi (bəzən də tam açıq) şəkildə ilahi vəhdət hədəfinə doğru dinamik şəkildə inkişaf edir. Bu mənəvi keyfiyyət dastan yaradıcılığında bir qədər dəyişilmiş və dağınıq şəkildədir. Bunun da əsas səbəbi yuxarıda qeyd etdiyimiz kimi, şifahi xalq yaradıcılığı nümunələrinin, o cümlədən də dastan janrının geniş bir zaman məsafəsi içərisində uğradığı deyormasiyadır. Dastan yaradıcılığındakı ürfani hədəflərin qeyri-dəqiqliyinin və dağınıqlığının bir mühüm səbəbi də onların xəlqiliyidir. Yəni, klassik yazılı ədəbiyyatdakı məzmun və mətləblər daha ütülü, daha sərrastdır. Əvvəla, onlar bəlli müəlliflərin kamalının bəhrəsi olmuşdur, ikincisi də həmin müəlliflər, əvvəldə də izah etdiymitz kimi, sırf ürfan əhli, təsəvvüf ərbabı olmuşlar.

Klassik təhkiyə janrından şifahi xalq yaradıcılığı nümunələrinə transfer olunan dastan və rəvayətlər əsas məzmun və süjet prinsiplərini qoruyub saxlasalar da dəyişilən obraz və hadisələr onların məna hədəflərinə də təsir etmişdir. Məsələn, klassik Şərq poeziyasındakı «Leyli və Məcnun» təhkiyəsi xalq dastançılığı modelində fərqli, xəlqi, bir qədər də bəsit şəkildə mövcuddur.

Biz xalq yaradıcılığının müxtəlif janrlarında təsəvvüf elementlərinə rast gəlirik. Qeyd etdiyimiz kimi, ürfani qaynaqlar xüsusilə də Azərbaycan-Türk xalq təfəkküründə, onun formalaşmasında həddindən artıq önəmli yerə sahiblir. Əskidən bəri Türk



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

övliyaları xalqın atası, babası olaraq anılmış, onların sözləri ata sözü, baba sözü kimi qan yaddaşına həkk olunmuşdur. Biz çoxlu sayda atalar sözü, deyimlər tanıyırıq ki, onların məzmunu və qaynağı sadə insan təfəkkürünün məhsulu ola bilməz. Bizim zənnimizcə, həmin atalar, babalar elə xalqın övliyaları, pirləridir. Məlum səbəblər ucbatından xüsusilə də Azərbaycan ədəbiyyatşünaslığında və folklorşünaslığında bu məsələ də ətraflı tədqiq olunmamışdır. Atalar, babalar bir el ağsaqqalı, aqil, dünyagörmüş şəxslər kimi təqdim olunsa da onların belə demək mümkünsə, övliyalığı, pirliyi gizlədilmişdir. Bu cür yanaşma tərzinin qayəsi, mahiyyəti məlum idi; övliyalığın mütləq başlan-ğıcı peyğəmbərlik, səmavi kitablar, nəticədə Allah dərgahı olduğu üçün, pirlikdən, mürşidlikdən gələn atalıq, babalıq anlayışı yalnız bir el ağsaqqallığı, aqillik kimi təqdim olunurdu. Əlbəttə ki, aqillik də ağsaqallıq da yüksək mənəvi keyfiyyətləri olan milli dəyərlərdir. Fəqət unutmaq olmaz ki, bu məsələ uzun illər boyu ruhi-mənəvi görüşlərin, qüdsal inancların yerinə istifadə olunmaq üçün ortaya atılmışdır. Bu keyfiyyət əsas etibarilə sovetlər dövrü elmi mühitində daha çox qabarmışdır. Elmi ateizm fəlsəfəsinin izindən gedən alimlər silsiləsi bu gün də həmin baxış tərzindən əl çəkə bilməmişlər. Lakin unutmaq olmaz ki, bu, o qədər də asan başa gələ bilən bir məsələ deyil. Yəni, elmi ateizm bütöv bir nəzəri-fəlsəfi metod idi. Bu metoddan uzaqlaşmaq üçün uzun illər boyu formalaşmış elmi bazanı kökundən dəyişmək lazımdır ki, bu da qısa bir vaxt ərzində gersəkləşə bilən bir şey deyil. Alim təfəkkürü sürətli keçidlər, inqilablar, qısa müddət ərzində dəyişilən ictimai formasiyalara bənzəməz. Alim kütlə psixologiyasına sahib olmadığı üçün onun beyni də uzun müddət ərzində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aldığı təhsil və tərbiyədən asanlıqla qurtula bilməz. Bu mənada məsələlərə bizim yanaşma tərzimiz təbii olaraq kəskin mübahisələr doğurmalıdır. Lakin çağdaş dünya elmi istər-istəməz materialist və idealist dünyagörüşləri arasındakı təməl ziddiyyətlərə son qoymaq üzrədir. Bu da o deməkdir ki, idealist fəlsəfə damğası altında elmi məntiqdən uzaq tutulan dini-mistik, ruhani bilgilər nəzəri tədqiqatlara cəlb olunur. Həqiqətən də müasir elmi kəşflər — demək olar ki, elmin bütün sahələrində — metafizik bilgilərlə silahlanaraq, ilahiyyatın material aləmlə əlaqəsini sübuta yetirməkdədir.

Bu deyilənlərdən belə bir nəticə çıxarmaq olar ki, üzərində tədqiqat apardığımız klassik ədəbiyyat və şifahi xalq yaradıcılığı nümunələrindəki ürfan və təsəvvüf elementləri yeni elmi metodlarla araşdırılması vacib olan məsələdir. Azərbaycan şifahi xalq yaradıcılığındakı zəngin bədii-estetik ənənə heç şübhəsiz ki, ruhani, mütəsəvvüfanə elementlərdən xali deyildir. Bizim bu sahədəki tədqiqatımız klassik Şərq təsəvvüfünün elminəzəri bazasına əsaslanaraq, məhz həmin metodlarla Azərbaycan milli məfkurəsində özünəməxsus yer tutan ürfan və təsəvvüfün mahiyyətinin açılmasına xidmət edir.

Yuxarıda verdiyimiz izahlara əsasən, dastan yaradıcılığında mövcud olan qaranlıq məqamlar demək olar ki, birbaşa ürfani görüşlərlə bağlıdır. Bir daha vurğulayaq ki, şifahi xalq yaradıcılığı sahəsindəki tədqiqatlarda məhz bu sahə diqqətdən kənarda qalmışdır.

İlkin muraciət edəcəyimiz mənbə Türk-İslam mədəniyyətinin ən möhtəşəm abidələrindən biri **«Kitabi-Dədə Qorqud»** dastanıdır. Şərqin bu böyük sənət incisi əlbəttə ki, yazılı ədəbi



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

nümunədir. Lakin onun fəlsəfi-etik təsir miqyası o qədər genişdir ki, onun yazılı nümunə olaraq müəllifinin kimliyi, qələmə alındığı dövr və məkan düşüncələri az məşğul etmişdir. Bu sənət abidəsinin ən dərin mənəvi-fəlsəfi qatlara nüfuz edən təsir dairəsi onun məhz ilahi rabitə nümunəsi olaraq paklığı və müqəddəsliyi qoruyub saxlamasındadır. Təsadüfi deyildir ki, dastanın ilk mənzuməsi Tanrı vəsfi və İlahi təqdirin təqdimatı ilə başlayır:

**«Dədə Qorqud soylamış:**
**Allah-Allah diməyincə işlər önməz,**
**Qadir Tənri verməyincə ər bayımaz.**
**Əzəldən yazılmasa, qul başına qəza gəlməz**
**Əcəl vədə irməyincə kimsə ölməz.** (Kitabi-Dədəm Qorqud, Bakı, Yeni Nəşrlər Evi, 1999, 704 səh. s.30).

Bu misralar əslində nə mənsurdur, nə də mənzum. Nə qədər qəribə görünsə də **«Kitabi-DədəQorqud»**un mətni «nəsri-müsəcce» olaraq, **«Qurani-Kərim»**in bədii üslubuna yaxındır. «Nəsri-müsəcce» ərəb dilindəki «səc» «kəklik» sözündən yararlanaraq, «kəklik oxunuşu» mənasında işlənmişdir. «Nəsri-müsəcce» sözünün sətri tərcümədən əlavə başqa bir mənası da «qafiyəli nəsr»dir. Adindan da göründüyü kimi, bu ad həm mənsur, həm də mənzum formanı bir arada tuta bilən mətnlərə verilmişdir. Orijinaldakı **«Qurani-Kərim»**in mətni məhz qafiyəli nəsrdir. Ayələrin quruluşu, vəzn və bəhr ardıcıllığı nizamlı şəkildə, şeirə bənzər formada olsa da son dərəcə sərbəst geniş və qəlibsizdir. Dini inanclara görə (və bizim əqidəmizə görə, əsl həqiqətdə də) **«Qurani-Kərim»** səmavi kitab olaraq, yerüstü ağlın, qeyri-bəşər idrakının məhsuludur. Bu müqəddəs kitabın ən ümdə özəlliklərindən biri də onun möcüzəli dilidir. Həmin dilin



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

özəlliyi isə mənsub olduğu ərəb dilinin həm keçmişdəki, həm də bugünkü qrammatik qaydalarından fərqli olmasındadır. Yəni, belə demək mümkünsə, **«Quran»** ərəbcədir, amma «ərəblər belə danışmırlar». Bu, bütün özəllikləri ilə xüsusi bir dildir. Əgər metafizikdini fikirlərə elmi məntiqlə yanaşsaq, xatırlatmaq yerinə düşərdi ki, bu ayələr vəhydir və bu vəhyləri İslam Peyğəmbərinə Allah-Təalanın Cəbrəil ismindəki əzəm mələyi ilqa etmişdir. Bir daha vurğulamaq istərdik ki, hər hansı bir məsələyə münaisibət həmin məsələyə ilkin yanaşma tərzindən çox asılıdır. Yəni, biz əgər bu məqamda tutaq ki, səmavi kitabların qeyri-bəşər idrakının məhsulu olduğu məsələsini ən azından öz beynimizdə həll etməsək, o zaman həmin məsələnin mahiyyəti barədə polemika açmağına dəyməz. Bəlkə də yanılırıq, fəqət bizim fikrimizcə, artıq bu məsələlərin yalnızca bir iman məsələsi olmaqdan qurtulmaq  zamanı gəlib çatmışdır.

İddialı ehtimallarımıza əsasən, ilahi rabitə elmi-nəzəri izahı olan məntiqi məfhum və hadisələrdir. Birincisi ona görə ki, bunlar konkret tarixdir, ikincisi, peyğəmbərlik tarixdə anoloqu olmayan, saysız insan topluluqlarına nəhayətsiz dərəcədə dərin mənəvi nüfuz edən, zaman və məkan tanımayan bir gerçəklikdir. Bu baxımdan ruhani faktorlara baxış tərzi təməlli şəkildə dəyişməli və inkişaf etməlidir.

Yuxarıdakı məsələyə qayıdaraq, bir daha bəyan etmək istərdik ki, **«Kitabi-Dədə Qorqud»**un mətn dili fərqli özəlliklərə malikdir. Prof. Dəmirçizadə yazır: «Kitabi-Dədə Qorqud»un bizə məlum olan Drezden nüsxəsinin üstündə «Əla lisani taifeyi-oğuzan» (yəni «Oğuz tayfalarının dilində») sözləri qeyd edilmişdir. Buna görə də bu dastanların bir saf tayfa dilində



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

olması haqqında fikir və mülahizə yürüdülmüş və bu dastanların dilindəki bu və ya digər söz yaxud qrammatik əlamət də məhz saf «oğuz dili» nöqteyi-nəzərindən yoxlanılmışdır. Həqiqətdə isə vəziyyət başqa cürdür və «oğuz dili» ifadəsi müəyyən dövrün şərti anlayışında işlənilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, bu kitabın dilində danışan oğuzlar hələ 7, 8 və 9-cu əsrlərdən bəri əvvəl Orta Asiya-Mavərənnəhrdə köçəri həyat sürən, müxtəlif tayfalarla o qədər də qarışmamış və nisbətən «saf» qalmış olan oğuzlar deyildir; bu oğuzlar Qafqaza gəlmiş, həm türk dilli və başqa dilli yerlilərlə, həm də digər türk dilli tayfalarla qaynayıb-qarışmaqla öz yeni keyfiyyətilə azərbaycanlıların tərkib hissəsinə çevrilmiş olan oğuzlardır.

Buna görə də həmin bu «oğuz tayfasının dili» də əvvəlki oğuz dilindən fərqlənən bir dil olmuşdur; bu dil, əvvəlki oğuz dili xüsusiyyətlərindən əlavə, daha bir sıra başqa tayfa dil xüsusiyyətlərinə də malik bir halına düşmüşdü. Çünki oğuz tayfası da artıq, nəinki digər türk dilli tayfalarla, hətta qismən, M. Kaşqarinin tamamilə doğru olaraq qeyd etdiyi kimi, farslarla təmasda olmuş və doğma sözlərinin bəzisinin əvəzinə bu dillərdən bir çox sözlər alıb işlətməyə başlamışdılar. Buna görə də bunların dilində əvvəlki saflıq qalmamışdı. Bunların dili Azərbaycan xalqının tərkib hissəsinə çevrilmiş bir tayfanın dilidir və bu dil əsrlərdən bəri müxtəlif tayfa və qəbilələrin dil xüsusiyyətlərilə mübarizə və qaynayıb-qarışma şəraitində qalib gələn, vahid ümumxalq dili halına düşməkdə olan Azərbaycan dilinin əsasıdır.» (Dəmirçizadə M, “Kitabi-Dədə Qorqud” dastanlarının dili, Bakı, Elm, 1999, 139 səh, s.2223) Görkəmli alimin bu fikirlərini nümunə gətirməkdə məqsədimiz bu əzəmətli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dastanın dili barədə ümumi mənzərə yaratmaqdır. Tanınmış tədqiqatçı dastanın dil xüsusiyyətlərini milli-etnik nöqteyi-nəzərdən çox gözəl araşdırmış və əhəmiyyətli nəticələrə gəlib çıxmışdır. Bizim tədqiqat sferamıza daxil olan məsələlərdən biri isə dastanların, o cümlədən möhtəşəm sənət abidəsi olan **«Kitabi-Dədə Qorqud»**un dil xüsusiyyətləri və bu xüsusiyyətlərdən çıxış edərək, aparılan fəlsəfi-nəzəri paralellərdir.

Dastan Qorqud Atanın dilindən nəql olunur. Yuxarıda apardığımız paralelə əsasən, bu dil müqəddəslik atributlarını özündə daşıyır. Bizim gəldiyimiz qənaətlərə görə, Qorqud Ata dindən sonrakı hadisədir; dolayısı ilə Peyğəmbərdən sonrakı övliyadır. Bu fikri incələməzdən öncə, dastanın girişinə, ilk sözlərinə bir qədər diqqətlə nəzər salmaq yerinə düşərdi:

***«Bismillahir-Rəhmanir-Rəhim!***

***Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından, Qorqut Ata diyərlər, bir ər qopdı. Oğuzın ol kişi təmam bilicisiydi, nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həq Təala anın könlinə ilham edərdi.»*** (Kitabi-Dədəm Qorqud, Bakı, Yeni Nəşrlər Evi, 1999, 704 səh, s.30) İlk nəzəri cəlb edən məsələ dastanın eynilə **«Qurani-Kərim»** kimi «bismillah»la başlamasıdır. Əlbəttə, başqa bir məsələni də qeyd etmək lazımdır ki, bu tip başlanğıc İslam dininin zühurundan sonra əksər yazılı mənbələrin əsas atributlarından biri olmuşdur. Əksər alimlərin qeyd etdikləri kimi, orta çağ Şərq müəlliflərinin əsərlərinin «bismillah»la başlaması, bizim fikrimizcə, heç də dövrün və mühitin basqısı altında baş verməmişdir. Bu fikir də elmi ateizmin və materialist düşüncə tərzinin məhsuludur. Halbuki həmin müəlliflər kimi Dədə Qorqud da nəinki dinin, ruhaniyyətin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

basqısı altında olmamış, hətta həmin ruhani çevrənin aparıcı simalarından olmuşdur.

Yuxarıda qeyd etdik ki, Qorqud Ata böyük ehtimalla İslam övliyasıdır. Onun övliyalığı məhz Rəsullahın zamanına təsadüf etmişdir. Əlbəttə, biz «İslam övliyası» dedikdə zaman və məkan çərçivəsində mövcud olmuş İslam dinini nəzərdə tutmuruq. Əvvəlki bəhslərdə də izah etmişdik ki, ürfani və təsəvvüfi anlamda İslam zamanla sərhədlənən bir din yox, xilqət öncəsi mövcudiyyətə dayanan fəlsəfi gerçəklikdir. Bu mövcudiyyətin ürfani atributlarını isə biz daha əvvəlki fəsillərdə sadalamışdıq. Onlardan biri də məlum olduğu üzrə qeyb aləmidir. «Qeyb aləmi» dedikdə zaman və məkan anlayışının əhəmiyyətini itirdiyi, məhz «Vilayət» məktəbinin övliya və irşad sahiblərinə bəxş etdiyi **«dürlü xəbərlər»**in gəldiyi aləm nəzərdə tutulur. Dastanın girişində isə Qorqud Ata «ğaibdən», yəni görünməz aləmdənqeybdən xəbərlər gətirən bir zat kimi təqdim olunur. İslam elmində qeybin bir dəqiq atributu da Həzrəti Məhdinin-İmami Zəmanın «qeybəti-kübra»sıdır. Övliyalar «vilayət» məktəbinin nümayəndələri olduqları üçün Qiyamət gününə qədər Allahın Vəlisi olan İmami Zəmandan xəbərlər gətirməyə məmurdurlar. Əvvəlki bəhslərdə qeyd etdiyimiz bir fikri yenidən xatırlatmaq istərdik ki, təsəvvüfdəki İmami Zəman və onunla əlaqə İslam şəriətinin şiə məzhəbindəki nəzəriyyədən tamamilə fərqlidir. Təsəvvüfün əksər cərəyan və əfkarındakı İmami-Zəman hər zaman diridir və mütləq şəkildə hansısa övliyanın timsalında zühur etməkdədir. Bu tendensiya ürfan əhli, təsəvvüf ərbabı arasında bu gün də yaşayır və aktuallığını qoruyur. Biz əvvəldə də geniş izah eimişdik ki, qeybdəki İmamın zühur məsələsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəriətdə doktiina halındadır. Əhli-şəriət bu zühuru gözləyir. Təsəvvüf əhli üçün isə İmami-Zəmanın qeybi zahiri yox, batinidir. Yəni, onun zühuru da zahiri deyil, batini olur. Bu zühur, həmin **«zühuri-xas»**dır ki, onun barəsində biz ətraflı izahat vermişdik.

Bu söylənənlərdən belə nəticə çıxarmaq olar ki, **«Kitabi-Dədə Qorqud»**dakı **«ğaibdən dürlü xəbərlər»**in verilməsi məhz şəriətdəki yox, təriqətdəki **«vilayət»** məsələsidir. Dədə Qorqud şəxsiyyətinin bir qədər də bu aspektdən təhlil olunması fikrimizcə, elmdə yeni nəzəri qatların açılmaçına səbəb ola bilər. Subyektivlik olsa da söyləmək istərdik ki, Dədə Qorqud fəlsəfəsinin bətnində yatan, bu gün də demək olar ki, dünya elminə gizli qalan ən önəmli məsələlərdən biri də məhz elə yanlış olaraq İslamiyyətlə (fundamental şəriətlə)  qarışdırılan ürfan və təsəvvüf məsələləridir. Unutmaq olmaz ki, Dədə Qorqud bir Turk əri idi. Tarixə məlum olan İslamın zühuruna qədər türklər və illah da Oğuz türkləri monoteist Tanrıçılıq inancına sahib idilər.

Təqdim etdiyimiz fikirlərdən də bəlli olduğu üzrə, əgər təsəvvüf türk xalq məfkurəsinə bu qədər tez bir zamanda ( İslamiyyətin yeni yayılmağa başladığı dövrlərdə) sirayət etmişdisə, deməli övliyalıq-vilayət məktəbi ta qədimlərdən mövcud imiş. Ən maraqlısı isə odur ki, İslamiyyətin daha yaxın və güclü olduğu digər Şərq xalqlarında təsəvvüf çox sonralar, həm də türklərə nisbətən daha zəif və mühavizəkar şəkildə bərqərar olmağa başlamışdı. Əlbəttə, burada söhbət əsas etibarilə xalq təsəvvüfündən gedir. Bəzi alimlərin də qeyd etdiyi kimi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«ortodoksal sufizm» hələ 8-9-cu əsrlərdən başlayaraq, Xorasan təsəvvüf məktəbindən intişar tapmağa başlamışdı.

Beləliklə, aydın olmağa başlayır ki, **«Kitabi-Dədə Qorqud»** fəlsəfəsinin, Dədə Qorqudun öz şəxsiyyətinin batini qatlarında çox güclü şəkildə təsəvvüf fəlsəfəsi yatır. Bəlkə də Dədə Qorqud məfhumunun bu günə qədər mahiyyət etibarilə tam şəkildə açılmamasının əsas səbəbi onun şəxsiyyətinin müdriklikdən, ağsaqqallıqdan o tərəfə idrak edilməməsidir. Bir daha vurğulamaq istərdik ki, məsələlərə yanaşma tərzi fərqli və müsbət yöndə dəyişməlidir. Əks təqdirdə biz də özümüzdən əvvəlkilər kimi təkrarçılığa yor verərək, əsl həqiqətin gizlədilməsinə yardım edəcəyik. Nəticədə elmi kəşflər sadəcə informasiya verməkdən ibarət olacaqdır. Bu isə çağdaş dünya elmində əhəmiyyətini və aktuallığını çoxdan itirmiş bir tendensiyadır. Müasir elm daha çox ideyadan ibarətdir. Elmdəki ideyanın mənası isə kağız üzərindən beyinlərə, hiss və düşüncələrə doğru hərəkət etməkdir. Buna dəqiq elmlər sahəsində praktika deyirlər. Subyektiv də görünsə, bizim qənaətimizə görə, əgər humanitar elmlər heç bir mühüm praktik əhəmiyyətə malik deyilsə, o zaman nə üçün mövcuddur? Onların mövcudiyyəti yalnız elmi adların alınması, sonra da həmin əsərlərin arxivə getməsi üçündür? Bu, kifayət qədər anlaşılmaz bir məsələdir. Bizim düşüncəmizə görə isə humanitar elmlər xalqa, ictimaiyyətə bəlkə də dəqiq elmlərdən daha artıq lazımdır. Bəlkə də insan cəmiyyətindəki çaşqınlıq, mənbəyi bilinməyən kütləvi depressiyalar elmdəki ideologiyanın, humanitar elm sahələrinin praktik əhəmiyyətinin zəif və ikinci dərəcəli olmasındandır. Məlumdur ki, dəqiq elmlərin insan idrakına və insan həyatına mənəviyyatdan daha çox material xeyri vardır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Material dünya isə insan beyninə, insan hisslərinə bəlli bir yerə qədər hakim olur. İnsan özü də bilmədən mənəviyyatın, fəlsəfənin möhtacı olur. Həmin ehtiyac duyulan mənəviyyatın, fəlsəfənin başında isə dini-mistik, ruhani dünyagörüş gəlir. Bəlkə də elə buna görədir ki, tarixdə elm, savad, maddi, fiziki güc sarıdan kifayət qədər zəif olan, heç adları və şəxsiyyətləri tarix elminə əməlli-başlı məlum olmayan peyğəmbərlərin gətirdikləri din, övliya və pirlərin açdıqları mənəvi irşad yolları bu günə qədər öz aktuallığını itirməmişdir. Bütün bunlar əlbəttə ki, müəyyən qədər sosioloji məsələlərdir. Lakin elmi-nəzəri faktorların mövcudluğu və inkişafı belə düşünməyə əsas verir ki, insan idrakı hər an irəliyə doğru sıçrayışa meyllidir. Bu meylin binasında isə «Qurani-Kərim»in buyurduğu kimi, insanın «faili-muxtar»lığı yatır. Yəni, insan öz əməl və düşüncələrində sərbəst və inkişafa meyllidir.

Bütün bu deyilənlərdən məqsəd bir haşiyə olaraq, humanitar elm sahələrinin əhəmiyyətini öz düşünsələrimizə əsasən göstərmək idi. Qənaətimizə görə, Azərbaycan mənəviyyatının və fəlsəfi məfkurəsinin ən əhəmiyyətli və bu gün də çağdaş bir formatda mənəvi və ruhi ehtiyac duyula bilən sahəsi məhz ürfan və təsəvvüdür. Haliyədə üzərində araşdırma apardığımız xalq yaradıcılığnın müxtəlif bədii aspektlərindəki təsəvvüfi görüşlər zənnimizcə, müstəsna əhəmiyyətə malikdir. Çünki bu sahə həm kifayət qədər araşdırılmamışdır, həm də dastanların, rəvayətlərin, atalar sözlərinin, eyni zamanda zəngin aşıq folklorunun timsalında sadə xalqa çox yaxındır. Bu yaxınlıq xalq şüurunda ürfani yaddaşın bərpa olunmasına, xalq təsəvvüfünə olan meyllərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

artmasına kömək edə bilər ki, bu da yuxarıda bəhs etdiyimiz praktik elmi əhəmiyyət deməkdir.

«Dədə Qorqud» dastanının mənəvi-ruhani keyfiyyətlərini onun əxlaqi keyfiyyətləri ilə qarışdırmaq olmaz. Bizim araşdırdığımız mövzu əsas etibarilə Qorqud Atanın öz ruhani siması ilə bağlıdır. Yəni, dastanda çoxmənalı, zəngin, insan həyatının ən müxtəlif sahələrini əhatə edən çoxsaylı mətləblər mövcuddur. Bu xarakter Azərbaycan-Türk xalq dastanlarının demək olar ki, hamısına şamildir. Düzdür, Azərdaycan dastanları məhəbbət, qəhrəmanlıq, ailə-məişət dastanları kimi müxtəlif şəkillərdə təsnifatlanmışdır. Lakin, bu dastanların demək olar ki, hamısında mənəvi və maddi dünyanın bütün atributları öz əksini tapmışdır. İstər əfsanəvi, istərsə də real süjetlərdə ümummilli bir əxlaq, eyni zamanda bəşəri saflıq və qüdsiyyət qorunub saxlanmışdır. Fəqət, əxlaq, hikmət kimi nəsnələrlə bərabər, bu dastanların bəzi məqamlarında çox güclü ürfani elementlər də yatır. Əlbəttə, biz iddia etmirik ki, Azərbaycan dastanlarının mayası ürfan və təsəvvüflə yoğrulmuşdur. Belə düşünmək üçün əlimizdə tutarlı əsaslarımız da yoxdur. Əslində heç belə bir konsepsiya irəli sürməyə ehtiyac da yoxdur. Ona görə ki, Azərbaycan milli mənəviyyatı, Azərbaycan xalqının bədii-estetik təfəkkürü ürfani modellərlə, təsəvvüf qaynaqları ilə doludur. İstər klassik yazılı ədəbiyyatda, istər aşıq ədəbiyyatında, istərsə də birbaşa elmi təsəvvüf sahəsində tarixə və bəşər mədəniyyətinə bəxş etdiyi alim, arif və mütəfəkkirlərlə Azərbaycan türkləri müstəsna bir xalqdır. Bunu sübut etməyə ehtiyac yoxdur. Biz kitabımızın əvvəlki hissələrində bu məsələlərə geniş yer ayırmış, Azərbaycan arif və mütəsəvvüflərinin məfkurə və yaradıcılıqlarından



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ətraflı şəkildə bəhs etmişdik. Bu məqamda şərh etdiyimiz məsələ, yəni, xalq yaradıcılığındakı, özəlliklə dastan janrındakı təsəvvüf xətti bir qədər mübahisəli və dağınıq olsa da ümumi cizgilərlə, konkret şəxsiyyət və süjetlərin ətrafında cərəyan edən müxtəlif hadisələrlə bu mətləbi ortaya çıxarmaq mümkündür. «Kitabi-Dədə Qorqud» haqqındakı düşüncələrimiz bu nöqteyi-nəzərdən yeni metodlara və nəzəri əsaslara söykənməlidir. Əks təqdirdə məsələyə obyektiv yanaşmaq qeyri-mümkün olacaq. Əlbəttə, hər obyektiv təhlilin içərisində mütləq bir subyektivlik olmalıdır. Lakin həmin subyektivliyin özü də xüsusi maraq kəsb etməlidir. Məsələn, Qorqud Atanın diliylə dastanın son duası belə səslənir:

***«Qanı dedigim bəg ərənlər,***
***Dünya mənim deyənlər?***
***Əcəl aldı, yer gizlədi,***
***Fani dünya kimə qaldı?***
***Gəlimli,gedimli dünya!***
***Son ucu ölümlü dünya!***
***Əlaqibət, uzun yaşın,***
***ucı ölüm, axırı ayrılıq.***
***Yum verəyim, xanım:***
***Ölüm vəqti gəldügingə***
***arı imandan ayırmasun!***
***Ağ saqqallı baban yeri uçmağ olsun!***
***Ağ birçəklü anan yeri behişt olsun!***
***Qadir səni namərdə möhtac etməsün!***
***Ağ alnunda beş kəlmə dua qıldıq,***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*qəbul olsun!*
*«Amin!», «Amin!» deyənlər didar görsün!*
*Yığışdırsın, duruşdursun günahınızı,*
*Məhəmməd Mustafaya*
*bağışlasın! Xanım, hey!...»* (Kitabi-Dədəm Qorqud, Bakı, Yani Nəşrlər Evi, 1999, 704 səh. s.184-185)

Əvvəla, bu duanın özü başdan-ayağa pir nəfəsini, övliya xeyir-duasını xatırladır. Bu cür duaların bənzərinə biz əksər sufi təriqətlərində, xüsusilə də Anadolu Ələvilərində, o cümlədən Bektaşi təkyələrində rast gəlirik. Əlbəttə, təsəvvüf çevrələrində bu dualar mərasim şəklində formalaşmış, qəlibləşmiş, bəzi çevrələrdə isə (xüsusilə də Cənubi Azərbaycan və İran Əhli-Həqlərində) gizlin sirr kimi saxlanılır (bu barədə biz əvvəlki abzaslarda geniş izahat vermişdik). «Kitabi-Dədə Qorqud»dakı bu tip dualar isə ürfani noqteyi-nəzərdən ibtidai və elementar şəkildədir. Yəni, dastanın bir neçə yerində rast gəlinən bu xeyir-dualar sufilərdəki kimi sistemli və ünvanlı deyil. Onu da qeyd edək ki, təriqət əhlində bu cür dualar həm də zikr halındadır. Çünki o mətnlərdə müqəddəslərin, əsasən də həmin təriqəti yaradan mürşid və övliyaların adları çəkilir. Bu adlar ibadət və mərasim qaydalarını şərtləndirən atributlardan biri olduğu üçün, qeyd etdiyimiz kimi, onlar həm də zikrdir. Qorqud Atanın duaları isə fərqli biçimdədir.

Lakin, bütün bunlara baxmayaraq, yuxarıda təqdim etdiyimiz duada maraqlı ürfani məqamlar var. Buradakı birinci diqqətçəkən məqam dünyanın faniliyi haqda Dədə Qorqud de-yimidir. «Ərənlər»in, «dünya mənim deyənlər»in əcələ boyun əyməsi Qorqud Atanın yozumunda dünyanın faniliyini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şərtləndirir. Bu yozum ürfani dünyagörüşdə Haqq aşiqlərinin dünyanın puçluğu, həqiqətin əbədiliyi barədəki düşüncələri ilə üstüstə düşür. Bu dünyagörüş fundamental dini dünyagörüşdən fərqlənir. Belə ki, təməl inanc sisteimndə həm dünya, həm də axirət xoşbəxtliyi əsas prinsiplərdən biri kimi götürülür. Dünya və axirət səadəti Allahın Rəhman və Rəhim sifətlərinin təcəllası olaraq, iman əhlinin qüdsal hədəflərindəndir. Adından da göründüyü kimi, bu keyfiyyətlər iman əhlinə xasdır. Fəqət, həm nəzəri, həm də əməli sferada iman əhli eşq əhlindən ayrılır. Aşiqlər zümrəsi nə dünya, nə də axirət səadətinə can atmır, yalnız Haqqın öz camalına müştaq olmaqla, əsl xoşbəxtliyə nail olurlar. Bu fərqlilik həm də nəzəri dünyada çox ciddi fəlsəfi ayrıntılara gətirib çıxarmışdır. Fəlsəfi nəzəriyyələr isə öz növbəsində həm şifahi, həm də yazılı bədii təfəkkürə sirayət etmiş, geniş topluluqlar içərisində uzun əsrlər boyu insan tərbiyəsi ilə məşğul olmuşdur.

Beləliklə, biz Qorqud Atanın timsalında qəlblərdə Allah sevgisini aşılamaq hesabına dünyanın faniliyini təbliğ edən bir mürşid görürük. Lakin, **«Ölüm vəqti gəldügində arı imandan ayırmasun!»** sözləri dünyanın faniliyinin fikir olaraq son hədəf olmadığını göstərir. «Arı iman» təmiz imandır. Yəni, fani dünyadan köçmək istəyinin hədəfində imanlı ölüm dayanır. Buradan belə nəticə çıxarmaq olar ki, maddi-cismani həyatın bütün puçluğuna, mənasızlığına rəğmən, Dədə Qorqud fəlsəfəsində qətiyyən ümidsizliyə və hədəfsizliyə yer yoxdur.

**«Ağ saqqallı baban yeri uçmağ olsun!»** Bu sözlər sadəcə, bir alxış deyil. «Uçmağ» məlum olduğu üzrə cənnətdir. Yəni, ərəb dilindəki «cənnət» sözü əski türkcədə «uçmaq» kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işlənmişdir. Bu, ürfani baxımdan çox maraqlı bir məqamdır. Əlbəttə, aşağıda bəyan edəcəyimiz fikirlər bizim şəxsi qənaətlərimizdir və müəyyən qədər subyektiv görünə bilər. Yəqin ki, buradakı «uçmaq» feldir. Cənnətin əski türkcədə məhz «uçmaq» kimi ifadə olunması bizim düşüncələrimizə əsasən, ruhun ənginliklərə, fənaya, dolayısı ilə Allah dərgahına tərəf seyri-sülukunun təsviridir. Bu «uçmağ»ın mahiyyətində zənnimizcə, klassik ürfandakı semahın təsəvvüf öncəsi ilkin şəkli dayanır. Biz semah barəsində əvvəlki bəhslərimizdə müəyyən qədər məlumat vermişdik. Semah təsəvvüf təriqətləri arasında əsas etibarilə Mövləviliklə məşhur olmuşdur. Bəzi tarixi rəvayətlərə əsasən, bu ritualı Həzrəti Mövlanadan sonra onun oğlu Sultan Vələd ənənə halına gətirmişdir. Lakin, bilindiyi kimi, semah rəqsi mıxtəlif şəkillərdə əksər təsəvvüf təriqətlərində mövcuddur. O cümlədən, Qadirilərdə, Nemətullahilərdə, Qunabadilərdə, Nəqşibəndilərdə bu ritual mövcuddur və ruhani təkamül nöqteyi-nəzərindən müstəsna əhəmiyyətə malikdir. Semah halında vəcd, trans məqamına girən dərvişlər seyri-sülukun övcünə ən üstün nöqtəsinə yetişir, **«fənafillah»**, **«cəmallullah»** kimi pillə və zövqlərə nail olurlar. Bu isə dünyada ikən, bədəndə ikən cənnətə və əslində Haqqın vəslinə qovuşmaqdır. Elə semahın bir anlamda forması və mahiyyəti də uçmaqla əlaqəlidir. Ərəb dilində «semah» sözü «səmiə»-eşitmək məsdərindən gəlir. Məhz «səmiə» sözündən «semah»ın yaranması çox maraqlı bir məqamdır. Semah edə-edə, təsəvvüfdə farsca məşhur olan bir ifadə ilə desək, «quşi-dil»lə — can, ürək qulağıyla Haqqın, həqiqətin səsini eşitmək bu mənada ortaya çıxmışdır. Bütün bu keyfiyyətləri nəzərə alaraq, sufi ritual rəqsinin – semahın uçmaq, varmaq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yetişmək kimi qavramlarla üs-tüstə gəldiyini söyləyə bilərik. Bu isə yuxarıda da qeyd etdiymiz kimi, ürfan və təsəvvüfdə cənnət məqamı kimi səciyyələnir.

Beləliklə, «Kitabi-Dədə Qorqud»dakı **«Ağsaqqallı baban yeri uçmağ olsun!»** ifadəsi müəyyən cizgiləri ilə təsəvvüfi mahiyyət daşıyır.

Sonrakı misradakı **«Ağ birçəkli anan yeri behişt olsun!»** ifadəsi də çox diqqətçəkəndir. Belə ki, behişt elə cənnətdir. Zənnimizcə, «uçmağ»la «behişt»in ayrı-ayrı işlənməsi ola bilər ki, təsadüf, yaxud da ədəbi priyom olmasın. Bəlkə də «ağsaqqallı baba» ilə, «ağbirçəkli ananın» Qorqud Ata qavramındakı ruhani-sakral məqamı başqadır. Amma böyük ehtimalla bu, bədii faktordur. Hər halda bu cür məsələlər ətrafında fərqli şəkildə düşünmək hansısa ehtimallara və bəlkə də müəyyən elmi nəticələrə gətirib çıxara bilər.

Ümumiyyətlə, yazılı ədəbi nümunə olmasına baxmayaraq, **«Kitabi-Dədə Qorqud»** dastanında sirli, müəmmalı məqamlar çoxdur. Lakin bizi maraqlandıran əsas məsələ nəinki bu dastanda, eləcə də bütövlükdə xalq yaradıcılığının ən müxtəlif janrlarında bu günə qədər arzu olunan şəkildə araşdırılmamış mövzulardır. Bunların başında isə heç şübhəsiz ki, bütün keyfiyyətləri və inkişaf mərhələləri ilə fundamental dini qaynaqlardan ayrılan ürfani və mütəsəvvüfanə mətləblər gəlir. **«Ağ alnında beş kəlmə dua qıldıq»**… Bu kəlmələr ola bilsin ki, zaman içərisində müəyyən təhrifə uğramışdır. Çünki nə kəlam elmi, nə dini, nə də fəlsəfi məntiqlə bu cümləni qavramaq mümkün deyil. «Beş kəlmə dua» ifadəsini müxtəlif yönlərdən dini məfhumla uyğunlaşdırıb qəbul etmək olar. Yəni, bu beş kəlmə hansısa İslami



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

duaların toplu sayını bildirə və yaxud da eləbelə yuvarlaq bir rəqəmi ifadə edə bilər. «Beş kəlmə dua»nın əvvəlki bəhslərdə də ürfani mahiyyəti barəsində ətraflı söz açdığımız «beş kimsənə» «Ali-Əba» ilə də rabitəsi ola bilər. Fəqət nəzərə almaq lazımdır ki, sırf dini – İslami nöqteyinəzərdən «Kitabi-Dədə Qorqud»un heç bir yerində «Ali- Əba»nın – Əhli-Beytin (Peyğəmbər ailəsinin) adları Xülafayi-Raşidindən – 4 xəlifədən ayrı çəkilmir. Bu tip duaların demək olar ki, hamısında raşidi xəlifələrdən həm Əbu Bəkrin, həm Ömərin, həm Osmanın, həm də Əlinin adları böyük ehtiramla yad edilir. Bu baxımdan dastanda hansısa məzhəb elementi barədə danışmaq həqiqətə uyğun olmazdı. Lakin, əvvəldə də xüsusi olaraq qeyd etdiyimiz kimi, təsəvvüfi nöqteyi-nəzərdən Peyğəmbər xanədanı məsələsi tarix öncəsinə gedib çıxır. Belə ki, əvvəlki abzaslarımızda Aşıq Ələsgər və eyni zamanda mütəsəvvüf klassiklərimizin yaradıcılığında önəmli yer tutan bu məsələ barədə söhbət açmış və göstərmişdik ki, təriqət mənbələrində Ali-Əbanın adları və kimlikləri barədə bilgilərin xilqət öncəsi, Firdövs cənnətində Həzrəti Adəmə sirr olaraq öylədilməsinə təsəvvüf ərbabı içərisində möhkəm və nəzəri bir inam vardır. «Kitabi-Dədə Qorqud»un qələmə alındığı dövrü və mühiti nəzərə alaraq söyləyə bilərik ki, «beş kəlmə dua» ifadəsi sonradan Əhli-Beyt kimi anılan «beş kimsənə»dən başqası ola bilməz. Burada kiçik bir haşiyə çıxmaq istərdik. «Beş kimsənə» məsələsi ümumiyyətlə ürfani qaynaqlarda adı teztez tələffüz olunan bir anlayışdır. Onu da qeyd etmək istərdik ki, bu ifadə həm də «beşlər» olaraq, silsilə şəklində «Üçlər», «Beşlər», «Yeddilər», «Qırxlar» adlı ürfani qafiləyə daxildir. Biz bu məsələ barəsində də əvvəlki fəsillərdə müəyyən qədər məlumat



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vermişdik. Bu anlayışlar tarixdəki məlum fundamental dinlərlə heç bir əlaqəsi olmayan, metafizik-ruhani motivlərdir ki, onları tamamilə başqa aspektdən tədqiq etmək lazımdır. Həmin nöqteyi-nəzərdən yanaşaraq, burada Əhli-Həq fəlsəfəsindəki (eyni zamanda digər təriqət qaynaqlarında) «hülul», «təbdili-ruh», eyni zamanda «donbadon» nəzəriyyəsinə müraciət etmək lazımdır. Belə ki, bu nəzəri sistemə əsasən, həmin «Beşlər» «Lahut» (ruhlar aləmi)dan «Nasut» (insanlıq-maddi aləm)a təbdil olaraq, müxtəlif zamanlarda, müxtəlif vücüdlarda zühur etimşlər. Ürfani inanca görə isə, bu vücudların ən ehtişamlıları «Ali-Əba» kimi məşhur olan İslam Peyğəmbərinin pak xanədanı – Əhli-Beytdir. Əvvəlki abzaslarda da göstərdiyimiz kimi, bu «hülul» məsələsi eyni zamanda dörd mələyə də şamil olunur. Yəni həmin əzəm mələklər də ürfani (xüsusilə də Əhli-Həq firqəsi arasındakı) qaynaqlara əsasən, qiyamət gününə qədər hər dövrdə müxtəlif cismlərdə zühur edir.

Bütün bu məsələləri göz önünə aralaq, «Kitabi-Dədə Qorqud»un mətnindən nümumə gətirdiyimiz **«Ağ alnında beş kəlmə dua qıldıq»** ifadəsi təsəvvüfi mətləbləri özündə ehtiva edir. Burada diqqətimizi çəkən başqa bir məsələ «ağ alnında» ifadəsidir. Heç şübhəsiz ki, bu ifadələr təsadüfən yan-yana işlənməmişdir. Belə ki, yenə də ürfani rəvayətlərə əsasən, (eyni zamanda «Qurani-Kərim»in təsəvvvüfi təfsirinə görə) Firdövs cənnətində Haqq-Təalanın əmriylə mələklərin Həzrəti Adəmə səcdə etmələrinin əsas qayəsi və səbəbi Allahın Zatının hülul olaraq insanda görünməsi və müqəddəs «İsmi-Əzəm»lərin ona öyrədilməsidir. Bu «İsmi-Əzəm»lər arasında Ali-Əbanın – yəni, «Beşlər»in də sirli adları olmuşdur. (Əvvəlki abzaslarda,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«həqiqət» nəzəriyyəsində öz əksini tapan həmin adlar barədə informasiya vermişdik) Həmin qaynağın daha başqa və dərin nöqtələrində yatan digər mətləb torpaqdan yaranan Həzrəti Adəmin o sirrləri öyrəndikdən sonra, bu ehtişam qarşısında torpağa səcdə etməsidir. Bu torpaq, yəni, Həzrəti Adəmin xəlq olunduğu torpaq barədə biz əvvəlki fəsillərdə geniş izahat vermiş və qeyd etimişdik ki, Adəmin xəllaqiyyəti özündən əvvəl yaradılmış Yer insanlarından fərqlidir. Belə ki, Əhli-Həq sisteminin nəzəri qaynaqlarına əsasən, Həzrəti Adəmdən öncə xəlq olunan Yer insanlarının (bu görüş tərzi din alimləri içərisində də mövcüddur. Belə ki, onlar da iddia edirlər ki, əgər Həzrəti Adəmdən əvvəl Yer Kürəsində insanlar mövcud deyildisə, o zaman Allah-Təala onu kimlərə Peyğəmbər olaraq göndərmişdi?) torpağı (yəni, xəlq olunduqları mənbə) qara, Firdövs behiştində xəlq olunan Adəmin torpağı isə sarı rəngdədir. Həm də bu torpağın adı «torpaq» olaraq yox, «gil», bəzən isə «xəmir» kimi ifadə olunur. Adından əvvəllər də bəhs etdiyimiz «Zərgil» «Zərdəgil» kimi «həqiqət» terminləri zərin (və yaxud da qızılın) sarı rəngdə olması ilə əlaqədardır. Xüsusi olaraq qeyd edək ki, «zər gil», «sarı xəmir» («sarı torpaq») kimi anlayışlar həm də ürfani ədəiyyatda nura, işığa təşbeh edilmişdir. Çoxlu digər ədəbi qaynaqlarda tez-tez rast gəlinən «nurdan xəlq olundu bədən» və bu kimi başqa ifadələrin də kökündə məhz həmin nəzəri inanc dayanır. Beləliklə, «Kitabi-Dədə Qorqud»da zirk olunan həmin duanın əsl məğzi nura boyanmış insan alnında (Adəm babadan gələn) «beş kimsənə»nin «İsmi-Əzəm»lərinin, yəni, dolayısı ilə həqiqət sirlərinin həkk olunmasıdır. Buradakı «ağ alın» da həmin nura işarədir. Bir daha vurğalayaq ki, bütün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bunlar bizim şəxsi qənaətlərimizdir. «Kitabi-Dədə Qorqud» dastanı haqqındakı sufiyanə düşüncələrimiz bir qədər sərhədli olsa da hər halda dastan və xalq yaradıcılığının dijər janrlarında ürfani və təsəvvüfi elementlərin araşdırılması baxımından müəyyən əhəmiyyətə malikdir.

Türk dünyasının bu möhtəşəm incisinin ətrafındakı ürfani düşüncələrimizi yuxarıda təhlil etdiyimiz mətnin son hissəsindəki **«Amin!», «Amin!» deyənlər didar görsün!»** kəlamı ilə nöqtələmək istərdik. Bu kəlamın ən maraqlı özəlliyi və bizim də araşdırma dairəmizə girən «didar» kəlməsidir. «Didar» fars dilindən gələn «göz», «görmək», «şahid olmaq» mənalarında işlənir. Bu sözün əsl ürfani mənası isə «görüş»dür. Əvvəla onu qeyd edək ki, «Kitabi-Dədə Qorqud»da fars dilində ifadələrin işlənməsi zaman və mədəni-etnik baxımdan o qədər də təəccüblü bir şey deyil. Böyük ehtimalla fars dili Türk-Oğuz mədəniyyətinə klassik mənzum ədəbiyyat vasitəsilə gəlmişdir. Bu, tarixi nöqteyi-nəzərdən bir qədər erkən dövr olsa da fars dilindən əski türkcəyə transfer olan söz və ifadələrin başqa izahı ola bilməz. Əlbəttə, erkən turk ədəbiyyatı nümunələrinə farsdilli ədəbi ənənənin təsiri danılmaz faktdır. Lakin nəzərə almaq lazımdır ki, «Kitabi-Dədə Qorqud» məsələn, Xoca Əhməd Yəsəvinin «Divani-Hikmət»inə nisbətən çox daha qədim dövrə aid bir sənət nümunəsidir. Bu dastan, dastanın girişində də qeyd olunduğu kimi, «Rəsul Əleyhissəlam zamanına yaxın bir dövr»ə aiddir. Digər ehtimallara görə isə «Kitabi-Dədə Qorqud» yazılı ədəbi nümunə olaraq, daha sonrakı dövrün məhsuludur. Hər halda bizi maraqlındıran məsələ bu deyil. Qeyd etdiyimiz kimi, təqdim etdiyimiz mətndəki «didar» kəlməsi sırf ürfanidir. Belə ki,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Haqqın camalını görmək, Tanrı ilə görüşmək anlamına gələn bu ifadə həmin mətndəki eyni duanın içərisində yer alan dini-şəriət mətləb və terminləri ilə mərtəbə və məna baxımından uyğun gəlmir. Bu uyğunsuzluq nə fəlsəfi, nə də ədəbi baxımdan qüsurlu təsadüf olmayıb, əksinə, həm şəriət, həm də təriqət məsələlrini özündə ehtiva edən ortodoksal sufi ədəbiyyatı nümunələrinə yaxın bir şeydir. Biz yuxarıda fars dili faktorunun üzərində təsadüfən dayanmadıq. Gəldiyimiz qənaətə görə, fars dilindən gəlmə «didar» kəlməsinin mətndə işlənməsi Xorasan sufi məktəbi ənənəsinin bir hissəsidir. Bu məktəbin Hicazda İsla-miyyətin zühurundan çox öncələr də atəşpərəstlərin, muğların və digər ruhi-mənəvi cərəyanların timsalında mövcud olduğunu bilirik. Biz əvvəlki bəhslərimizdə qədim İran, o cümlədən də Xorasan panteizminin xürrəmilərə, nusəyrilərə, daha sonralar isə səfəvilərə və ümumiyyətlə, təsəvvüf təriqətlərinin demək olar ki, hamısına təsiri barədə müəyyən qədər məlumat vermişdik. Bu baxımdan, əgər «Kitabi-Dədə Qorqud» dastanı 8-9-cu əsrlərdə yazılmış olsa belə, əqidəvi baxımdan, fəlsəfi aspektdən ruhani ustad, irşad sahibi, gizlin bilgilərin daşıyıcısı olan Qorqud Atanın «Allahla görüş» «didar» kimi bir ürfani fikri bəyan etməsi müəyyən elmi məntiqə söykənir.

Bütün bu deyilənləndən belə bir nəticəyə gəlmək olar ki, tarixi bir şəxsiyyət olaraq, Dədə Qorqudun kəlamları, sözləri, boylamaları, soylamaları dinimistik, ruhani baxımdan iki qismə zahiri cəhətdən İslami ənənənin, batini cəhətdən isə təriqət-sufi məfkürəsinin təbliğinə bölünür. Bu bölgünün mahiyyətində isə qeyd etdiyimiz kimi, Qorqud Atanın təsdiq olunmuş övliyalığı, pirliyi, dədəliyi dayanır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan şifahi xalq yaradıcılığının ən möhtəşəm incilərindən biri də məşhur «Koroğlu» dastanıdır. «Koroğlu»nun təkcə Azərbaycanda yox, bütün Türk dünyasında, Yaxın və Orta Şərqdə ən sevilən sənət abidələrindən olduğu danılmaz faktdır. Bu dastan, tarixi kimliyi hələ də dəqiq bilinməyən bir xalq qəhrəmanı haqqındadır. Koroğlunun obraz olaraq əfsanəvi-mifik, yoxsa real tarixi şəxsiyyət kimi qəbul olunması məsələsi uzun zamandır ki, müxtəlif ölkələrdə, çoxlu alimlər tərəfindən mübahisə predmeti olmuşdur. Onun 17-ci əsrdə Cənubi Azərbaycan ərazisində yayılmış məşhur Cəlalilər üsyanının başçısı olaraq görənlər də vardır. Lakin, bir şifahi xalq yaradıcılığı nümunəsi olaraq, «Koroğlu» dastanında elə süjet və hadisələr mövcuddur ki, onları nəinki 17-ci əsrə, heç o əsri əhatə edən yaxın yüzilliklərə belə şamil etmək mümkün deyil. «Koroğlu» nun real tarixi şəxsiyyət olması barədəki fikirlər bizim fikrimizcə, konkret elmi dəlillərə söykənmir. Sadəcə, publisistik xarakter daşıyan həmin fikirlər bədii tərtibat və ədəbi tənqiddən o qədər də seçilmir. Məsələ burasındadır ki, tarix elminin nəzəri metodlarıyla əfsanə, mif, dastan süjerlərini təhlil etməyin özü də müşkül məsələdir. Tarix elmi mütləq şəkildə konkretlik tələb edir. Şifahi xalq yaradıcılığı janrı isə bədii olmaqla bərabər, həm də ağız ədəbiyyatı nümunəsi olduğu üçün təbii olaraq, deformasıya və təhriflərə uğramışdır. Bu isə, dastan qəhrəmanlarına, əfsanəvi süjetlərə tarixi mənbə kimi yanaşmağı çətinləşdirir. Ümumiyyətlə, biz bu məsələnin araşdırılmasında tarixiliyin o qədər də əhəmiyyətli olduğunu zənn etmirik. Hər bir dastan süjeti, mif qəhrəmanı mütləq bir tarixi gerçəkliyə, real hadisəyə söykənmək məcburiyyətində deyil. Bu yaradıcılıq nümunələri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

konkret şəxslərin bədii təxəyyülü də ola bilər. Lakin, bir məsələyə də diqqəti yönəltmək istərdik ki, nə qədər tarixilikdən, zaman və məkan etibarilə reallıqdan uzaq olsalar da əsrlərcə yaddaşlarda yaşayan, xalqın sevimlisinə çevrilən hətta mifik və əfsanəvi qəhrəmanlar belə özündə çox güclü gerçəklik faktoru yaşadır. Bu fikrin müxtəlif tərəfləri mövcuddur. Əsas etibarilə iki məsələ üzərində dayanmaq istərdik. Bunlardan biri yuxarıda da qeyd etdiyimiz kimi, əsasən dastan qəhrəmanlarının hansısa tarixi şəxsiyyətin bədii obrazı olması faktorudur. Tədqiqatamıza uyğun şərh edəcəyimiz «Koroğlu» dastanında bu məsələ bir qədər mübahisəlidir. Çünki, sözümüzün əvvəlində də vurğuladığımız kimi, bu dastandakı qəhrəmanların varlığı tarixi reallığa o qədər də uyğun gəlmir. Bu fikir, yəni, dastan qəhrəmanları ətrafındakı gerçəklik faktoru əsasən məhəbbət dastanları kimi tanıdığımız aşıq dastanlarına şamil edilə bilər. Əlbəttə, «Koroğlu» aşıq dastanıdır. Bizim vurğuladığımız mətləb məhəbbət dastanları qəhrəmanlarının əksəriyyətinin aşıq olmasıdır. Bunlara misal olaraq, Aşıq Qurbanini, Aşıq Abbas Tufarqanlını və başqalarını göstərmək olar. Biz bu dastanlar barəsində bir az irəlidə, ürfan və təsəvvüf elementlərini araşdırarkən bəhs edəcəyik.

Haqqında söhbət açdığımız dastan qəhrəmanları ətrafındakı gerçəklik faktoru məsələsinin ikinci tərəfi real tarixi şəxsiyyətlərin əfsanəvi, mifik prototipliyi məsələsidir. Bu məsələ də bizim fikrimizcə, kifayət qədər araşdırılmamış, elmi tədqiqatdan kənarda qalmış bir məsələdir. Bizim bu haqdakı düşüncələrimiz də əsas etibarilə ürfan və təsəvvüf prinsipləri ətrafında formalaşmış detalları əhatə edir. Məsələn, konkret olaraq Koroğlu obrazı, zənnimizcə, müəyyən tarixi, fəlsəfi paralellərə əsasən, Azər-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

baycan Səfəvilər Dövlətinin banisi Şah İsmayıl Xətainin xalq təxəyyülündəki yaşatma modeli və xalqın onun haqqındakı, belə demək mümkünsə, arzu və diləkləridir. Əlbəttə ki, bu fikir müəyyən qədər subyektivdir və qeyri-elmi mülahizə təsiri bağışlaya bilər. Həqiqətən də biz bu və buna bənzər fikirləri bir ehtimal olaraq ortaya atırıq. Lakin hər ehtimal özündə müəyyən mənada həqiqət gəzdirir və gələcəkdə elmi-nəzəri polemikaların yaranmasına səbəb olur. Biz də bu baxımdan öz düşüncələrimizi paylaşmağı vacib sayırıq.

Əvvəlki bəhslərimizdə biz Şah Xətainin fəlsəfi-ürfani dünyagörüşü barədə həm ədəbi, həm də elmi mənbələr vasitəsilə kifayət qədər məlumat vermişdik. Onun əslində bir xalq qəhrəmanı səviyyəsində milli təxəyyülün önəmli hissəsini təşkil etdiyini də qeyd etmişdik. Şah Xətainin çox mühüm milli atribut olan saz-aşıq sənəti ilə mənəvi-ruhi bağlılığı bu böyük arifin bir xalq insanı olduğunu şərtləndirən keyfiyyətlərdən biridir. Şah Xətai mübarək doğuluşunun müjdəsi öncədən verilən və ölümündən sonra daşıyıcısı olduğu dövlətçilik atributları, dünyəvi şan və izzəti tarixin içərisində əriyib getməsinə rəğmən, xalqın demək olar ki, bütün təbəqələrinin yaddaşında öz varlığını sürdürən nadir şəxsiyyətlərdən biridir. Bu baxımdan onun xalq arasında gəzən əfsanəvi obrazı özündən sonra dastan, rəvayət, aşıq şeiri, musiqi və incəsənətin digər növlərində həyat vəsiqəsi qazanmışdır. Sonunculara misal olaraq, «Şahsevəni» saz havasını, «Şah Xətai» muğam şöbəsini (Azərbaycan muğamı olan «Bayatı-Qacar»ın tərkibində) xatırlatmaq yerinə düşərdi. Bütün bunlar onu göstərir ki, bu böyuk şəxsiyyətin mənəvi irsi özünün klassik Şərq formatına, ənənəvi təsəvvüf modelinə baxmayaraq, sadə və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

geniş xalq kütləsinin sərvətinə çevrilmişdir. Əlbəttə, unutmaq olmaz ki, bu klassik formatla bərabər, Şah Xətainin özü də xüsusi səylə dərin ürfani mətləbləri, qəliz təsəvvüf məfkurəsini sadə xalqın dilində, incəsənətində ifadə etməyə çalışmış və bu sahədə tarixdə anoloqu olmayan bir uğur əldə etmişdir. Beləliklə, Şah Xətai faktoru Azərbaycan-Türk milli düşüncə sisteminin aparıcı qollarından birinə sahib olmuşdur. Biz məhz bu düşüncə sistemindən çıxış edərək, Şah Xətainin xalq məfkurəsində daha başqa şəkillərdə yaşadıldığı fikrini ortaya atırıq.

**«Koroğlu»** dastanı və ondakı təsəvvüf elementləri barədə danışarkən, Şah Xətai mövzusu həm qəhrəmanlıq, həm milliəxlaqi, həm də saz-aşıq faktoru ilə təzahür edən təsəvvüf dünyagörüşü baxımından diqqəti özünə çəkir. Yəni, bir qədər şəxsi təxəyyül məhsulu da olsa, söyləmək istərdik ki, Koroğlunun timsalında xalq Şah Xətaini özünə daha da yaxınlaşdıraraq, onun simasında arzu etdiklərini, görmək istəyib, görə bilmədiklərini yaratmışdır. Bir qədər qəribə də görünsə, adama elə gəlir ki, Çıldıran savaşında zahirən məğlub olan Şah İsmayıl Xətainin intiqamını xalq Koroğlunun timsalında Osmanlı paşalarından alır. Bu cür düşüncələrlə biz hansısa türkçülüyə, milli zəmindəki birliyə zərbə vurmuruq. Əksinə, Şah Xətai ilə, onun bədii-fəlsəfi obrazı ilə müqayisə olunan bir xalq qəhrəmanı daha milli, daha artıq türkçü olaraq şərtləndirilir. Çünki, Şah Xətai qurduğu milli dövlətlə, 14-15-ci əsrlərdə heç bir Türk arealında kimisənin ağlına gəlməyən dövlət dilinə çevirdiyi türkcəyə olan bağlılığı ilə təpədən-dırnağa qədər türkçüdür. Belə bir dövlətə, belə bir şaha malik olan xalq öz məfkurəsi ilə yaratdığı istər yazılı, istər şifahi ədəbi-bədii nümunələrdə onun milli ideologi-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yasını yaradan dahilərin yolunu ləyaqətlə davam etdirmişdir. Bu baxımdan Azərbaycan şifahi xalq yaradıcılığının incisi olan «Koroğlu» son dərəcə milli, eyni zamanda da bəşəridir.

Bu keyfiyyətləri göz önünə aralaq apardığımız paralellər bizim qənaətimizə görə, müəyyən qədər obyektiv və qəbul olunandır. Elə Koroğlunu Şah Xətaiyə bağlayan ən cəlbedici atributlardan biri də sazdır. Əlbəttə, sazın varlığı Azərbaycan şifahi xalq dastanlarında əvəzedilməz və yoxluğu mümkün olmayan bir məsələdir. Lakin sazın vasitəsilə bədii sujetlərin təzahür olunmasına rəğmən, Koroğlu həm də konkret olaraq aşıqdır, yəni, aşiqdir. Bu «aşiq»liyin məğzində nələrin yatdığı isə bizim ümumiyyətlə tədqiqatımızın baş mövzusudur. Artıq dəfələrlə bəyan etdiyimiz və izahına geniş yer verdiyimiz fikirlərə əsasən, Koroğlunun sazı onun «boş vaxtlarında əlinə aldığı», qılıncı yerə qoyandan sonra götürdüyü bir nəsnə deyil. Biz artıq «saz» deyərkən «aşıqlığı», sənətkarlığı deyil, «aşiqliyi» Haqq aşiqliyini düşünürük. Koroğlunun sazı xalqın beynində Şah Xətainin mürşidi-kamilliyinin, pirliyinin, mənəvi şahlığının davamıdır. Bu baxımdan, əslində fani olan, keçici olan Şah Xətainin də, Koroğlunun da zahiri qəhrəmanlığı, dünyəvi qüdrəti, polad qılıncı idi. Əgər belə olmasaydı, qılınc oynatmağı, pəhləvanlığı bir tərəfə atılaraq, Koroğlu dəlisi olmaq istəyən birisini sazla imtahana çəkməzdilər. Bu imtahan həmin «dəliliyə namizəd»in bir tərəfdən türkçülüyünün, digər tərəfdən isə ruhani təkamülün baş atriburlarından sayılan saza və beləliklə də ruhani ustada olan məhəbbət və sədaqətinin imtahana çəkilməsidir. Əgər onun qəlbində bu məhəbbət, bu sədaqət yoxdursa, «ondan Koroğlu dəlisi olmaz». Bu cür şərtlənmələr «Koroğlu» dasta-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nında, eləcə də şifahi xalq yaradıcılığının əksər janrlarında üstüörtülü, sətiraltı şəkildə də olsa, mövcuddur. Beləliklə, gəldiyimiz qənaətlərə görə, Azərbaycan xalq dastanlarında saz müqəddəslik, hal və zikr simvolu, eyni zamanda da ruhani informasiya daşıyıcısıdır. Koroğlunun sazı, belə demək mümkünsə, Şah Xətainin dövlətçiliyinin, savaşlarının, qarışıq çevrəsinin kölgəsində «yarımçıq qalmış» sazının tam mənada, «ürəklərdən tikan çıxaracaq qədər» davamıdır. Bizə belə gəlir ki, bu sazı xalq qüdsal bir rabitə olaraq görmüş, vəsf etdiyi qəhrəmanın onu heç vəchlə əlindən yerə qoymasına imkan verməmişdir.

«Koroğlu» dastanının çoxtərəfli keyfiyyətləri haqda kifayət qədər deyilib, yazlıb. Bu dastanın əksər məziyyətləri müxtəlif tədqiqatçılar tərəfindən araşdırılıb. Demək olar ki, «Koroğlu»da qaranlıq heç nə qalmayıb. Fəqət bu, ilk baxışda belədir. Çünki, məlum olduğu üzrə, digər dastanlar kimi, xalq yaradıcılığının digər janrları kimi, «Koroğlu» dastanı da Azərbaycanda əsas etibarilə son yüz il ərzində elm adamları tərəfindən araşdırılmışdır. Bu dövr isə ideoloji təbliğat maşınının birtərəfli nəzarəti altında idi. Bu fakt təbii olaraq, xalqın bədii estetik təfəkkürünə elmi yanaşmanı istiqamətləndirirdi. Ən acınacaqlı hal ondan ibarətdir ki, sinfiliyi, yalançı xəlqiliyi təbliğ edən qırmızı imperiyanın süqutundan 20 ilə yaxın bir zaman keçməsinə baxmayaraq, xüsusilə də humanitar elmlər sahəsində necə deyərlər, «əski hamamdır, əski tas». İdeoloji yanaşma tərzi baxımından demək olar ki, heç nə dəyişməyib. Yenə də Koroğlu sinfi mübarizə qəhrəmanı, «məzlum kütlələrlə hakim feodal sinfi» arasında gedən «mübarizənin» «ön cəbhəsindədir». Düşüncə tərzinin dəyişməməsinin əsas səbəblərindən birisi də uzun müddət ərzində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

aparılan təbliğat və təlim tərbiyədir. Bu tərbiyənin nəticəsidir ki, bu gün fərqli düşünən araşdırmaçılar orta və yaşlı nəslin nümayəndələri tərəfindən kifayət qədər aqressiv qarşılanır. Bu isə ilk növbədə bizim işimizi – apardığımız tədqiqatları şübhə altına salır. Lakin, hər şeyə rəğmən yeni dövr elmi metodologiyası qarşısıalınmaz bir prosesdir. Bu prosesə qoşulmaq üçün, xüsusilə də humanitar elmlər sahəsində ideoloji baxış tərzini dəyişmək vacibdir.

İdeoloji baxış tərzini dəyişməyin ən mühüm tərəflərindən biri, konkret olaraq bədii-yazılı və bədii-folklor mətnlərinə materialist-ateist düşüncə ilə yanaşmaya son qoymaqdır.

«Koroğlu» dastanının ürfani tərəfləri əsas etibarilə onun şəxsiyyəti ətrafında nəzərə çarpır. Onun Alı kişinin oğlu olması, «Qoşa bulaq»dan su içməçi, Qıratla Düratın səmavi ata dönmələrini qırx gün gözləməsi, bütün bunlar əslində mifik süjetlər olmasına baxmayaraq, batini anlamda ürfanidir. Bəlli olduğu üzrə, «Koroğlu»nun Orta Asiya variantlarında bir adı «Qoroğlu», digər adı «Goroğlu»dur. «Qoroğlu» heç şübhəsiz ki, «od oğlu», «atəş oğlu»dur. Digər anlamda isə bu, yəqin ki, işıq oğlu, nur oğludur. Uzun zaman aparılan tədqiqatlarda bu keyfiyyətlər mifoloji sayılsa da bizcə bunlar daha çox ilahiyyatla, ruhani rabitə ilə bağlıdır. Əlbəttə, mifdə də ilahi, ruhani keyfiyyətlər mövcuddur. Lakin, mübahisəli olan, mifdə bu keyfiyyətlərin mövcud olub-olmaması deyil. Mübahisəli olan, müasir mifologiyada həmin keyfiyyətlərə baxış tərzidir. Heç kəsə sirr deyil ki, mifologiya elmi səmavi dinlərə qədərki insan təfəkkürünü araşdırdığı üçün ruhani-mistik, dolayısı ilə ürfani görüşlərdən uzaq tutulmuşdur. Burada əlbəttə ki, materialist dünyagörüşün,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

xüsusilə də elmi ateizmin «xidməti» az olmamışdır. Yəni, daha dəqiq ifadə etsək, çoxlu sayda mətləblər mifoloji metodlarla ilahiyyat prizmasından kənarda tədqiq edilmişdir. Bizim düşüncələrimizə görə isə, istər səmavi dinlərə qədər olsun, istərsə də əksəriyyəti real şəxsiyyət olaraq müasir tarix elmində təsdiq olunmayan peyğəmbərlərin gəlişindən sonra insan təfəkkürü ilahi rabitədən kənarda qalmamışdır. Bu rabitə isə, çoxlarının düşündüyü kimi, təbiət hadisələri ətrafında yaranan qorxu və anlaşılmazlığın nəticəsi deyil, insan oğlunun öz içindən doğan mənəvi-ruhi ehtiyacların göstəricisi olmuşdur. Bu mənada dastan süjetləri müəyyən mənada mifoloji olsa da ruhani-ilahi və xüsusilə ürfani keyfiyyətlərdən xali deyildir.

Bu deyilənləri göz önünə alaraq, «Koroğlu»nun əksər türkdilli xalqlarda mövcud olan müxtəlif variantlarında ürfan və təsəvvüf elementləri barədə düşünmək faydalı bir iş olardı. Yuxarıda qeyd etdiyimiz kimi, dastanın digər bir adı da «Goroğlu»dur. Məlumdur ki, «goroğlu» torpaq oğludur. Orta Asiyada məşhur olan bu variantda qəhrəman qəbirdə, torpağın içində doğulur. Torpağın ürfani, sirli mahiyyəti təkcə təsəvvüfdə yox, eyni zamanda dini qaynaqlarda da mövcuddur. Məsələn, Həzrət Əlinin tarixə məlum olan kunyələrindən biri də «Əbu Turab»dır. «Əbu Turab» ərəb dilində «torpağın atası» deməkdir. Bu adın ona verilməsinin kökündə yenə də ürfani mətləblər yatır. Belə ki, insanın torpaqdan yaranışı birbaşa dini motiv olsa da əksər dünya xalqlarının mistik və mifoloji dünyagörüşündə mövcuddur. Təsəvvüfün «mərifət», əsasən də «həqiqət» mərhələsində Həzrət Əlinin mövqeyi, şəxsiyyəti bu məsələyə yaşıl işıq tutur. Belə ki, onun «Yaradanın məzhəri», «Xudanın zatı» olması



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

torpaqdan yaranan insanın mürşidi, dolayısı ilə atası olduğu xəbərlərini verir. Təsəvvüfdəki başqa bir məsələ Həzrəti Fatimənin «torpağın anası», ümumiyyətlə, torpağın onun bir simvolu olmasıdır. Bu əfkarın içərisində, yəni, Həzrəti Fatimənin «torpaq»la əlaqəsinin bətnində onun da torpaq kimi, dünyaya gətirmək keyfiyyətinin mövcud olmasındadır. Bəlkə də dilimizdə məşhur olan «ana torpaq» ifadəsinin kökündə də elə bu mətləb yatır. Beləliklə, görünür ki, torpaqla bağlı ürfani mətləblərin «Koroğlu» dastanındakı yeri təsadüfi deyildir. Buna bir sübut da dastandakı Alı kişi obrazıdır. Çox güman ki, «Alı» adı «Əli»nin Azərbaycan türkcəsindəki təhrif varitantıdır. Elə bəzi bölgələrdə və müxtəlif aşıqların dilində «Alı kişi» sözü «Əli kişi» kimi ifadə olunur. «Koroğlu»nun məşhur olduğu Anadolu bölgəsində isə «Əli» adı «Ali» olaraq tələffüz olunur. Bu da onu deməyə əsas verir ki, Koroğlu Əlinin «Əbu Turab»ın «Torpaq Atası»nın torpağın oğludur. Məhz ürfani təhlillər vasitəsilə «Koroğlu»nun «Goroğlü» ilə batini əlaqəsi meydana çıxır. Bu fikirlər müəyyən qədəq subyektiv görünsə də hər halda fərqli düşünməyə və məsələlərə fərqli metodlarla yanaşmağa əsas verir.

Yuxarıda qeyd etmişdik ki, ürfani qaynaqlarda adı xüsusi məntiqlə «Əbu Turab» kimi keçən Həzrət Əlinin bir mənəvi keyfiyyəti də Həzrəti Adəmin, ümumiyyətlə insan oğlunun ustadı, piri olmasıdır. Koroğlunun kamillik məqamına qədər yüksəlməsində atasının ona mürşidliyi, ustadlıq etməsi dastanın əsas təməl prinsiplərindən biridir. Təhlillərdən də göründüyü kimi, Alı kişinin təsəvvüfi anlamda Həzrət Əlini təmsil etməsi bu məsələdə müəyyən uyğunluq və məntiq yaradır. Biz qeyd etdik ki, Alı kişi obrazı həm də ustadlıq anlayışını özündə ehtiva edir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Alı atadır. Atanın həm də ruhani ustad olması faktoruna biz Dədə Qorqudun simasında aydın rast gəlirik. Qorqud Atanın atalığı, dədəliyi onun məhz ustadlığının, pirliyinin göstəriciləridir. Bu paralel onu göstərir ki, Koroğlunun atası Alı kişi də onun cismani atası olmaqdan daha çox, ruhani atasıdır, yəni, ustadı, mürşididir. Buradan belə bir məntiqi nəticə çıxır ki, ustad ruhani olduqda şagird də ruhani olur. Çünki, ruhani ustad ruhi bilgilər ötürür. Dolayısı ilə irşadla məşğul olur və deməli, mürşiddir.

Bu düşüncələrin təməlində dayanan əsas mətləb odor ki, «Koroğlu» dastanının və ümumiyyətlə, AzərbaycanTürk xalq dastanlarının motivində zahiri qəhrəmanlıqdan, cismani məhəbbətdən, material məişət əhvalatlarından çox, batini, ruhi, ilahi informasiyalar yatır.

«Koroğlu» dastanının son nəşrində maraqlı bir məqama rast gəlirik. «Koroğlunun iyirminci məclisi»ndə Koroğlunun məhz Həzrət Əli ilə batini, ruhani ünsiyyəti nəql edilir. Koroğlu onunla yuxuda görüşür. Lakin məlumdur ki, bu, adi yuxu deyil, həvalədir, mürşidin müridə ilqası, pirin öz talibinə ruhani müjdəsidir. Koroğlu isə gördüyü «röyanı» belə nəql edir:

***Canım ata, necə türkü söylərəm,***
***Aç qulaqun, sözlərimi eşit bir.***
***Qadir Allah verdi mənim payımı,***
***Aç qulaqun, sözlərimi eşit bir.***

***Ağam Əli verdi, içdim badəni,***
***İtimişdim, yaxşı tapdım caddəni,***
***Həqq ucaltdı bu türkəman zadəni,***
***Aç qulaqun, sözlərimi eşit bir.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Ağam Əli qurşuyubdur belimi,*
*Uzun edib düşmən üstə dilimi,*
*Tərk edirəm Cəlali tək elimi,*
*Aç qulaqun, sözlərimi eşit bir.*

*Ağam Əli görünübdür gözümə,*
*Həqq qapusu açılubdur üzümə,*
*Koroğluyam, bir qulaq ver sözümə,*
*Aç qulaqun, sözlərimi eşit bir.*

(Koroğlu, Bakı, Səda, 2005, 751 səh. s.457).

Biz bu mətni «Koroğlu»nun Təbriz variantından nümunə gətirdik. Bizim məhz bu varianta müraciət etməmiz heç də təsadüfi deyil. Əvvəla onu qeyd edək ki, dastanın Təbriz variantında əvvəlki nəşrlərdən fərqli olaraq, dini mövhumatçılıq adı altında unutdurulan mətn və süjetlər mövcuddur. İkincisi isə, bu variant ümumiyyətlə, «Koroğlu» nun digər başqa variantlarından həm ideya, həm də məzmun baxımından köklü şəkildə fərqlənir. Məhz bu fərqlilik bizə imkan yaradır ki, dastandakı ürfani, sufiyanə meylləri və elementləri üzə çıxarıb, təhlil edə bilək.

Dastanın bu variantında Koroğlunun atasının adı Alı kişi deyil, Mirzə bəy olaraq keçir. Lakin bu heç də qəhrəmanın Həzrət Əli ilə bağlılığına dair yürütdüyümüz fikirlərə xələl gətirmir. Əksinə, bu variantda həmin məsələ daha da qüvvətli şəkildə təzahür olunmuşdur. Onu da vurğulamaq istərdik ki, Koroğlunun atasının adı məsələsi dastanlardakı variantlılıq məsələsidir ki, bu da bizim araşdırma dairəmizə daxil deyildir.

Yuxarıda təqdim olunan mənzum nümunədə, qeyd etdiyimiz kimi, Koroğlu Həzrət Əli ilə batini əlaqəyə girir. Təbii ki, bu



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əlaqə ustad-şagird, pir-mürid əlaqəsidir. Bu mənzumədə maraqlı fikirlər yer almışdır. Məsələn, **«Ağam Əli verdi, içdim badəni»** misrasında ənənəvi ürfani meydən, batini sirrləri ortaya çıxaran ruhani məstlikdən söhbət gedir. Bu meyin, bu məstliyin mahiyyətində məhz elə Həzrət Əliyə məxsus olan gizlin təriqət bilgiləri, təsəvvüf elmi yatır ki, biz bu mətləblər haqqında əvvəlki fəsillərimizdə geniş izahlar vermişdik. Daha sonra deyilən **«Ağam Əli qurşuyubdur belimi»** misrası özündə bir çox sirrləri ehtiva edir. Burada söhbət müəyyən ürfani məqama yetişmiş müridin belinə bağlanan təriqət kəmərindən gedir. Bu kəmər bir mənada da mürşidə bağlılıq rəmzi olan eşq kəməridir. Ümumiyyətlə, istər ürfanda, istərsə də xalq adət və ənənələrində bel bağlamaq xüsusi bir mərasimdir. Belin bağlanması, qurşanması müəyyən yerə, ocağa, müəyyən şəxslərə bağlanmağın, sədaqətin nişanəsidir. Tutaq ki, gəlinin belinin bağlanması onun qədəm qoyduğu ocağa bağlayır, ona bağlılıq və sadiqlik məsuliyyəti yükləyir. Ruhani çevrələrdə isə, bu, xüsusi bir ayindir. Əksər təsəvvüf təriqətlərində həmin mərasim bu gün də icra olunur. Bunun ən bariz örnəyi Əhli-Həq zümrəsindəki cəmxanalardadır. Əhli-Həqlər Cəm ayini zamanı mütləq şəkildə bellərini bağlayırlar. Həmin qurşaq yalnız pirin, Cəm şahının çevrəsində oturanlara, onların öz təbiri ilə desək, «çevrəyə girənlərə» şamil edilir. Yəni, dolayısı ilə, bu bir məqamdır ki, hər kəsə bu məqam nəsib olmur.

Bu amilləri nəzərə alaraq, söyləyə bilərik ki, Həzrət Əlinin Koroğluya badə verməsi, onun belini qurşaması ürfani fəlsəfənin tərkib hissəsidir. Həmin mənzumənin son bəndində ürfani baxımdan daha da irəliyə gedən fikirlər öz əksini tapmışdır:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Ağam Əli görünübdür gözümə,*
*Həqq qapısı açılıbdır üzümə…*

Bu misralar Dədə Qorqud fəlsəfəsindəki təsəvvüf elementləri ilə bağlı toxunduğumuz «didar» görüş məsələsini əks etdirir ki, bu məsələ ürfani çevrələrdə kifayət qədər cəsarətli və batini məqam tələb edən bir şeydir. Koroğlunun gözünə Həzrət Əlinin görünməsi iki ayrı mətləbin ortaya çıxmasına şərait yaradır. Bunlardan biri, İslam Peyğəmbərinin Həzrət Əlinin şənində buyurduğu **«Ənə mədinətü-lelm, Əliyyən babuha» «Elmin şəhəri mənəm, qapısı Əlidir»** kimi tanınan məşhur hədisidir ki, bu hədis həmin misrada tam mənası ilə öz bədii əksini tapmışdır. Belə ki, buradakı «Həqq qapısı» ifadəsini «elm qapısı», «elm şəhərinin qapısı» kimi təvil etsək, zənnimizcə, yanılmarıq. Yəni, «Əlini görmək» onu tanımaq, onu tanımaq isə Rəsulallahın mənsub olduğu elm şəhərinə varid olmaqdır. Bu, məsələnin zahiri, yəni, şəriət elmi tərəfindən qəbul olunan versiyasının şərhidir.

Həmin misralarda əks olunan digər məsələ, sırf təsəvvüf dünyagörüşü ilə bağlıdır. Özü də həmin dünyagörüş ürfani zümrələr içərisində ən çox Əhli-Həqlərdə daha qabarıq və aydın şəkildə tərənnüm olunur. Belə ki, Həzrət Əlinin Xudanın məzhəri, Həqqin zati təcəllası olması haqdakı inanc sistemi məhz Əhli-Həqlərdə, ruhani təkamülün «həqiqət» adlanan pilləsində mövcuddur. Biz bu barədə də əvvəlki bəhslərmizdə ətraflı məlumat vermişdik. Beləliklə, gəlilən nəticə budur ki, Həzrət Əlini görməklə, Koroğlu əslində Həqqin özünü görür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dastanda Koroğlu sanki bu sözlərlə kifayətlənməyib, ikinci şeiri oxuyur. Həqiqətən də bu parçada həmin mətləblər daha da qabarıq, daha da kəskin şəkildə ifadə olunur:

***Ata, məni çox eyləmə məlamət,***
***Başımda var Ağam Əli havası,***
***Qəni Mövlam badə verüb, içmişəm,***
***Gecə-gündüz zövq artırır səfası.***

***Namərdilən bir meydana girmənəm,***
***Nitq eyləsə, qulaqımı vermənəm,***
***Xudam qoysa, baş düşmənə vermənəm,***
***Başımda var Ağam Əli havası.***

***Ovçu kimi bu dağları gəzərəm,***
***Qəvvas olub dəryaları üzərəm,***
***Qəraquştək düşmən başın üzərəm,***
***Başımda var Ağam Əli havası.***

***Qoç Koroğlu sığınıbdır Xudayə,***
***Şahlar Şahı Əli kimi Mövlayə,***
***Düşmən başın keçirərəm cidayə,***
***Başımda var Ağam Əli havası.***

(Koroğlu, Bakı, Səda, 2005, 751 səh. s.457-458).

Qeyd etdiyimiz kimi, bu şeirdə ürfani mətləblər daha qabarıq və cəsarətli şəkildə təcəssüm olunmuşdur. Koroğlu burada eşq havasından söz edərək, bunu **"başımda var Ağam Əli havası"** deyə ifadə edir. Bu ifadə həddindən ziyadə məhrəm və istidir. Belə ki, burada sırf dərvişanə və sufiyanə tərzdə "Əli



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

eşqi” tərənnüm edilir. Bu tərz istəristəməz böyük Şah Xətainin misralarını xatırladır. (Biz Şah Xətaidən bəhs etdiyimiz bölmələrdə onun Həzrət Əlini vəsf edən mənzumələrinə şərh vermişdik). Biz yuxarıda da qeyd etmişdik ki, dastanın bu variantında ürfani, mistik ruhani məqamlar daha çox və müxtəjif süjetlər baxımından daha öndədir. Ümumiyyətlə, biz bu fikirdəyik ki, “Koroğlu” dastanının və özəlliklə də Koroğlu obrazının özünün mahiyyətində ruhani mübarizə, mənəvi mücadilə gizlənmişdir. Əks təqdirdə qılıncla, qanla, yaxud da zahiri məhəbbət, məlum məişət elementləri ilə hər hansı bir dastan və ya xalq yaradıcılığının digər janrları əsrlər boyu yaddaşlarda qala bilməzdi.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan dastanları həm zahiri, həm batini şəkilləri özündə ehtiva etməklə, cəmavi informasiyaların bədii formatına uyğun olaraq məcazlıq və simvolika keyfiyyətlərinə sahibdir. Bu keyfiyyətlər eyni zamanda şifahi xalq yaradıcılığının digər janrlarına, o cümlədən nağıllara, bayatılara, xalq mahnılarına da sirayət etmişdir. Zənnimizcə, həmin özəllik Azərbaycan türklərinin və Türk dünyasının mənəvi-ruhi təkamülə, bəşəri və İlahi sevgiyə olan güclü meylindən irəli gəlir. Eyni zamanda qeyd etmək yerinə düşərdi ki, bu keyfiyyət, yəni, həm hadisə və süjetlərdə, həm də konkret söz və ifadələrdə aparıcı ünsürlərdən olan məcaz və rəmzlilik klassik Şərq poeziyasının, ürfani divan ədəbiyyatının əsas keyfiyyətidir. Hər iki cəbhənin, həm klassik, həm də şifahi xalq yaradıcılığının həmin bədii-fəlsəfi aspektdə birinin digərinə qarşılıqlı təsiri tamamilə mümkün olan bir şeydir. Bu məsələdə zaman və məkan fərqliliyi önəmli rol oynasa



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

da ürfan və təsəvvüf anlayışı o qədər geniş və əhatəlidir ki, hər hansı bir dastanın divan ədəbiyyatı nümunəsinə və ya əksinə təsiri özünü kifayət qədər bariz şəkildə göstərmişdir. Biz bu halı daha çox məhəbbət dastanlarında müşahidə edirik. Belə ki, bu dastanların bir çoxunda sevgi simvolik xarakter daşıyır. Yəni, sevilən şəxs sevən şəxs üçün bir bəhanə, bir vasitə olmuşdur. Aşiq öz həqiqi məşuquna – həmin həqiqətin gizli mənbəyinə – İlahi başlanğıca qovuşmaq üçün insani sevgidən, məcazi məhəbbətdən keçməli olur. Bu məqamda istər-istəməz böyük Şah İsmayıl Xətainin məşhur misraları yada düşür:

***Batinimdə dedi mənə bir əziz,***
***Məhəbbətdən keçən haqdən də keçər.***
***Verməz nəsibini kəsin qəzasın,***
***Məhəbbətdən keçən haqdən də keçər...***

***Gerçək olan bir nəfəsə inana,***
***Canımız veririz qurban canana,***
***Lənət olsun iqrarından dönənə,***
***Məhəbbətdən keçən haqdən də keçər...***

***Dörd qapı, qırx məqam, yetmiş iki qat,***
***Məhəbbət dedilər təcəlliyi-zat,***
***Möminə, müslimə xeyir, nəsihət,***
***Məhəbbətdən keçən haqdən də keçər...***

***Məhəbbət dediyin xaslar xasıdır,***
***Məhəbbət olmiyan həqqin nəsidir?***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Dost Xətainin bu həq nəfəsidir,*
*Məhəbbətdən keçən həqdən də keçər* (89, 340).

Bəhs etdiyimiz məsələ bu şeirdə kifayət qədər aydın şəkildə ifadə olunmuşdur. Buradakı "Həq" Allahdır. Hər bənddə təkrar olunan sonuncu misrada Şah Xətai israrla bəyan edir ki, zahiri, dünyəvi məhəbbət əslində İlahi məhəbbətdir. İnsanı sevə bilməyən Allahı sevə bilməz! **"Məhəbbətdən keçən həqdən də keçər"** misralarından həm də o bəlli olur ki, məhəbbətin sınağından keçən haqqın da sınağından keçər. Zənnimizcə, bu misradan başqa bir məna çıxarmaq mümkün deyildir. Çünki burada "məhəbbət" və "həq" sözləri ayrılıqda götürülərək, məna baxımından qarşı-qarşıya qoyulur. Haq sevgisi ilə insani sevgi müqayisə edilir. Əvvəl ziddiyyət, sonra isə vəhdət yaranır. **"Məhəbbət dedilər təcəlliyi-zat"** misrasi bu fikri daha aydın şəkildə isbat edir. Yəni, Xətai xüsusi olaraq bəyan edir ki, zahirdə görünən bütün gözəlliklər Zatın – Haqqın təcəllasıdır. Əslində insan insana deyil, insandakı təcəllaya aşiqdir. Bu mənada məhəbbət dastanlarındakı sevgili obrazları ürfani rəmzliliyin bariz nümunəsidir. Məcnunun Leyliyə, Kərəmin Əsliyə, Abbasım Gülgəzə, Qəribin Şahsənəmə olan məhəbbətinin mayasında ilahi bir bəhanə, Allahın "camalına" yetişmək istəyi yatır. Bizim ehtimallarımız subyektiv görünə bilər. Lakin, burada ən düşündürücü məsələ ondan ibarətdir ki, əgər bu məhəbbət hekayələrinin mahiyyətində göründüyündən fərqli olaraq, daha dərin, daha fəlsəfi və daha qüdsal mənalar gizlənmirsə, o zaman bu dastanlari əsrlərin içərisindən keçirib, yaşarı halda gələcəyə doğru çəkib aparan hansı qüvvədir? Axı hamıya yaxşı məlumdur ki, adi insani, hətta sonu faciəylə bitən məhəbbət hadisələri hər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zaman baş verir və onların əfsanəyə çevrilib, yaddaşlara hopması kimi bir şey tarixi təcrübədə yoxdur. Zira, tarix hər zaman tarixdir və insan beyninin, insan estetikasının əfsanə, nağıl, qəhrəman yaratmağa hər zaman ehtiyacı olmuşdur. Bu mənada dastan qəhrəmanlarının xalq tərəfindən bu qədər dərin məhəbbətlə sevilməsi onların şəxsi, maddi, cismani duyğuları və istəkləri ilə əlaqədar ola bilməz. Bu fikrin ən yaxşı izahını biz klassik Şərq, o cümlədən Azərbaycan ədəbiyyatında tapa bilərik. Bəhs etdiyimiz məsələ xalq qəhrəmanlarının, dastan süjetlərinin klassik yazılı təhkiyə ədəbiyyatındakı yeri və inikası barədədir. Klassik əruz ədəbiyyatı şairlərinin, bildiyimiz kimi, ana mövzusu ürfani mətləblər və təsəvvüf gerçəkləri ətrafında cərəyan etmişdir. Təxminən min ilə yaxın bir müddət ərzində İslam Şərqinin divan və təhkiyə ədəbiyyatı bu gerçəklikdən, bu fəlsəfi cazibədən kənara çıxa bilməmişdir. Əslində bu cazibənin, bu çərçivənin daxilində elə bir genişlik, elə bir sonsuzluq vardı ki, Şərq ədəbiyyatı son yüzillərdə bu sferadan uzaqlaşdığı üçün demək olar ki, tənəzzülə uğradı və öz gerçək ehtişamını itirdi. Elə bu səbəbdən də geniş kütlələr arasinda ədəbiyyata baxış tərzi dayazlaşdı və rəmzli, məcazlı ədəbiyyat çılpaq baxışlara məruz qaldı. Nəticədə ürfan ədəbiyyatı, təsəvvüf dünyagörüşü yanlış anlaşilmağa başladı və naşı əllərə düşdü. Materializm, realizm adıyla məfkurələrə soxulan yad ünsürlər əsl mənada insanın ilahi mahiyyəti barəsindəki duyğuları məhv etməyə, onu mənəvi, əxlaqi dünyadan maddiyyat, təkəbbür və ehtirasla dolu cismani dünyaya gətirməyə doğru yönəlmişdi. Bu işi xüsusi labaratoriyalarda, xüsusi mətbəxlərdə hazırlayanlar çox yaxşı bilirdilər ki, insanın böyük mənada Allaha bağlanmasının ən optimal yolu dinlərdən və ehkam-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lardan deyil, insanın bədii-estetik zövqünü oxşamaqdan keçir. Bu, həmin zövqdür ki, Tanrının gözəlliyindən, ilahi məhəbbətdən, Allahla vəhdətdən qaynaqlanır. Belə bir zövqü, allahçılığı təlim edən dinlər vasitəsi ilə tərbiyə etmək qeyrimümkündür. Məhz bu baxımdan da ürfani ədəbiyyat Allahın, onun elçilərinin, seçilmiş və övliyaların əsl, məhəbbətlə dolu gerçək sifətlərini vəsf edərək, insan tərbiyə edirdi. Digər bir tərəfdən də praktiki yolla varlığını sürdürən təriqət və mərifət cərəyanları Yaxın və Orta Şərqin müdhiş tərəqqisinə səbəb olmuşdu. Təbii ki, bu tərəqqi Şərq xalqlarının, xüsusilə də Türk xalqlarının folkloruna, milli mənəviyyatına güclü təsir etmişdi. Bu da özünü şifahi xalq yaradıcılığının müxtəlif janrlarında müxtəlif şəkillərdə göstərirdi.

Azərbaycan aşıq dastanlarının ən möhtəşəmlərindən olan **"Əsli və Kərəm"** dastanı da bəhs etdiyimiz mövzu baxımından diqqətəlayiqdir. Bu dastan öz mənəvi keyfyyətləri, ruhani abhavası ilə digər dastanlardan müəyyən qədər fərqlənir. Bu fərqliliklərdən ən ümdəsi dastanın xoş, nikbin sonluqla bitməməsidir. Yəni, bir məhəbbət süjeti, eşq əhvalatı olaraq, buradakı qəhrəmanlar, aşiqlər birbirinə qovuşmur. Dastan nəinki ayrılıqla, hətta faciəylə bitir. Qeyd edək ki, bu cür məhəbbət mövzularinda ayrılıq özü də bir faciədir. Yəni, prinsip etıbarilə, ayrılığın yeganə şərti faciəvi sonluqdur. Daha dəqiq ifadə etsək, aşiqlər sağ qalırlarsa, mütləq qovuşmalıdırlar. "Əsli və Kərəm" dastanı bu baxımdan türk dastan yaradıclğında müstəsna yerə sahibdir. Əsasən Anadolu və Azərbaycan arealında geniş bədii və mənəvi-estetik nüfuza malık olan bu dastana fərqli dövrlərdə fərqli şəkildə yanaşılmışdır. Xüsusən son dövrlərdə milli mənsubiyyət baxımından dastandakı Əsli obrazı ilə əlaqədar müxtələf fikirlər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

polemikalar yürüdülməkdədir. Lakin bütün bunlar və özəlliklə də həmin məsələ araşdırdığımız mövzunun tam xaricində olduğu üçün biz bu məsələyə xüsusi yer ayırmaq istəmirik. Düşünürük ki, milli mənsubiyyət məsələsi çox vacib bir amildir və hansısa başqa mövzunun tərkibındə səthi şəkildə araşdrılmamalıdır.

"Əsli və Kərəm" dastanının batinində başqa dastan nümunələrindəki kimi, güclü təsəvvüf meylləri vardır. Dastanın içində istər açıq, istərsə də gizli şəkildə olsun, istər fəlsəfi, istərsə də kəlam elmi baxımından bu fikri sübut edəcək kifayət qədər faktlar mövcuddur. Məsələn, dastanın əvvəlində Kərəmin dilindən səslənən bir şeirə diqqət edək:

***Tək bircə yarımı mənə versələr,***
***Bu fani dünyada malı neylərəm?***
***Bir imdad olarsa, Mövladan olsun,***
***Qeyrinin verdiyi malı neylərəm?***
***Uca dağ başında tərlanlar süzər,***
***Göllərdə yaşılbaş sonalar üzər,***
***Əslinin yanağın bir cüt xal bəzər,***
***Qeyrinin verdiyi xalı neylərəm?***

***Kərəm deyər: mən nə idim, nə oldum.***
***Əslinin eşqindən saraldım, soldum,***
***Cismim tük gətirdi, Məcnuna döndüm***
***Əslisiz mən cah-calalı neylərəm?***

(Azərbaycan Dastanları, Baş cilddə, II cild, Bakı, Lider nəşriyyat, 2005, 445 səh,. s.45).

Bu parçada həqiqətən də ürfani baxımdan diqqətçəkən məqamlar vardır. Əvvəlcə kiçik bir məqama toxunmaq istərdik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu da ondan ibarətdir ki, birinci bəndin üçüncü misrasindakı “Mövla” sözü nəşrdə kiçik hərflə yazılmışdır. Bu, əlbəttə ki, hər hansı bir təsadüf və ya korrektə səhvi deyil. İlk nəzərdə kiçik görünən bu yanlışlıqlar əslində naşirlər tərəfindən biləərəkdən edilən şeydir. Cəlali isimlərin, yəni, Allahın müxtəlif adlarının xüsusi isim kimi kiçik hərflə yazılması əski sovetlər dönəmindən qalma bir “adətdir”. Elmi atrizmin faktoru olan bu detal başdan-ayağa yanlışlıqdan ibarətdir. Əvvəla, Ərəb dilində olan “Allah” və onun müxtəlif şəkillərdəki adları qrammatik cəhətdən isim olaraq bilinir. Belə ki, İslami mətnlərdə AllahTəalanın 99 “Əsmaül-Hüsna”sı mövcuddur. “Əsmaül-Hüsna” gözəl isimlər mənasına gəlir. Adından da göründüyü kimi, bunlar isimdir, daha dəqiqi, ismi-sifətdir. Elə bunlara biz sadəcə “Allahın adları” desək, aydın məsələdir ki, adlar böyük hərflə yazılır. Məlum səbəblər ucbatından akademik nəşrlərdə cəlali isimlər kiçik hərflə yazılmışdır. Bütün müqəddəslik atributlarını, müasir dövrümüzdə ateizmin iflasını və digər başqa məsələləri bir kənara qoysaq belə, ən azından qrammatik nöqteyi-nəzərdən isimlərin kiçik hərflə yazılması səhvdir.

Yuxarıda təqdim etdiyimiz şeir parçasında da “Əsmaül-Hüsna”lardan biri, “Mövla” sözü işlənmişdir. Nümunə gətirdiyimiz kitabdan fərqli olaraq, biz bu sözü böyük hərflə yazdıq. Onu da qeyd edək ki, biz bütün kitab boyu həmin dəyişikliyi dəfələrlə etməyə məcbur qalmışıq. Zənnimizcə, bu məsələ kiçik görünsə də, çox mühüm məsələdir. Çünki, bu bir dünyagörüş problemidir və müxtəlif sahələrə nüfuz etməklə, toplumun elmi və mənəvi təlim-tərbiyəsində müəyyən yerə və gücə sahibdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beləliklə, bizim məsələlərə fərqli baxış tərzimiz onların elmi nəzəri təhlilində də müəyyən fərqlilik yaradır. Xüsusi olaraq vurğulamaq istərdik ki, bizim bu tip məsələlərə yanaşmamız dini yanaşma deyil. Kitab boyu dəfələrlə qeyd etmişik ki, din dedikdə biz ehkamları və fundamental şəriəti nəzərdə tuturuq. Bu mənada dinin konkret yaranma tarixi və arealı vardır. Bizim araşdırmalarımız din və şəriət prizmasından deyil, təriqət mərifət və həqiqət prizmasındandır. Təriqət də mərifət də həqiqət də şəriət kimi ruhani təkamülün mərhələləri olaraq, elmi izaha və geniş nəzəri bazaya malikdir. Əvvəlkilər də daxil olmaqla, bütün bu deyilənləri nəzərə alaraq, söyləmək istərdik ki, çoxsaylı yazılı və şifahi nümunələrə verdiyimiz təhlillər ürfani nöqteyi-nəzərdən qəbul olunmalıdır. Əks təqdirdə bu fikirlər nə dini, nə də elmi məntiqlə izah oluna bilməyəcək. Bu səbəbdən də ürfan və təsəvvüf ədəbiyyatdan, eyni zamanda bütün parametrləri müxtəlif istiqamətlərdə təsdiq olunmuş fəlsəfə elmindən ayrı öyrənilməlidir. Bu proses sistemli şəkildə həyata keçirilərsə, yazılı və şifahi ədəbi nümunələrə baxış tərzi də dəyişər və obyektivlik ortaya çıxar.

Yuxarıda təqdim etdiyimiz şeir parçasindakı "Mövla" ifadəsi təriqət və mərifət anlamında Allaha, həqiqət qavramında isə Həzrət Əliyə işarədir. Biz Azərbaycan dastanlarında Həzrət Əli obrazının ürfani baxımdan mühüm keyfiyyətlər daşıdığı barədə müəyyən qədər izahlar vermişdik. Bu şərhlərin davamı olaraq, "Əsli və Kərəm" dastanında Kərəmin dilindən səslənən "Mövla" kəlməsi haqda da bənzər fikirləri söyləmək istərdik. Kərəm də "Mövla"dan kərəm istəyir. Burada incə bir məqam ondan ibarətdir ki, Kərəmin əsl, göbək adı Mahmuddur. Onun Kərəm olması heç şübhəsiz ki, təsadüf deyil. "Kərəm" sözü Ərəb dilində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahın ehsanı, ikramı, lütfü anlamına gəlir. Lakin bu ifadə daha çox ürfani çevrələrdə və təsəvvüf mətnlərində istifadə olunur. Belə ki, şəriətdə ruzi, bərəkət, ehsan anlayışları ürfan və təsəvvüfdə kərəm və lütf kimi zikr olunur. Həqiqətdə isə konkret olaraq "kərəm" ifadəsi Həzrət Əlinin lütfünə şamil edilir. Əhli-Həqlərdə çox məşhur olan "kərəmi-Mövla" ifadəsi məhz bu baxımdan şərh oluna bilər. Əhli-Həqlərin, yəni, həqiqət zümrəsinin, həqiqət əhlinin əvvəlki bəhslərdə də haqqında geniş danışdığımız Həzrət Əliyə olan münasibəti, onun məqamının həqiqət sferasında şərtləndirilməsi "kərəm" sözünün birbaşa "Mövla"ya, dolayısı ilə Həzrət Əliyə ünvanlanaraq, mərifət və həqiqət elminə istinad olunduğunu söyləməyə imkan verir. Bu qısa izahdan gəlmək istədiyimiz nəticə budur ki, **"Əsli və Kərəm"** dastanındakı Mahmudun Kərəmə dönüşü Azərbaycan xalq dastanlarında demək olar ki, ənənə halını almış Həzrət Əli kəraməti, Əli məhəbbəti ilə bağlıdır. Elə "kərəm" sözünün həm hərfi, həm də daha geniş mənasının bir ucu da "kəramət" sözünə bağlanır. Daha konkret ifadə etsək, Mahmudu Kərəmə döndərən Əlinin kəraməti oldu. Bu mənada Kərəm Həzrət Əlinin lütfüdür, kərəmidir. **"Bir imdad olursa, Mövladan olsun"** misrasının altında yatan mətləb məhz bu söylədiklərimizdən ibarətdir.

Bu izahlar subyektivlik təsiri bağışlaya bilər. Lakin, qənaətlərimiz nə qədər şəxsi olsa da yenidir və gələcəkdə daha da ətraflı təhlil olunmağa dəyər.

Bu dastandakı ürfani görüşləri əks etdirən ən bariz məqamlardan birini, daha doğrusu həmin epizoddakı şeir parçasını təqdim etmək istərdik:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***"...Az getmişdilər, çox getmişdilər, Kərəmin halı dəyişdi, ürəyi döyünməyə başladı, gözləri qaraldı. Ürəyində dedi: "Əslimə çatmayacağam, ölüb qürbət ellərdə qalacağam". Aldı, halına münasib görək nə dedi:***

***Haldan hala düşən viran könlümün,***
***Hər məhləsində bir cahan əyləşmiş.***
***Gah şah, gəda olur, gah dana, nadan,***
***Gah hər məhləsində zindan əyləşmiş.***

***Bir məhəlləsində yeddilər, beşlər,***
***Bir məhəlləsində bəzirgan işlər,***
***Bir məhəlləsində doqquz dərvişlər,***
***Bir məhəlləsində piran əyləşmiş.***

***Bir məhəllisində canan can eylər,***
***Bir məhəlləsində gül fəğan eylər,***
***Bir məhəlləsində bülbül gan eylər,***
***Bir məhəlləsində gülşən əyləşmiş.***

***Bir məhəlləsində cəmalın görəm,***
***Bir məhəlləsində güllərin dərəm,***
***Bir məhəlləsində biçarə Kərəm,***
***Bir məhəlləsində canan əyləşmiş.***

(Azərbaycan Dastanları, Beş cilddə, II cild, Bakı, Lider nəşriyyat, 2005, 445 səh. s.39)

Bizcə, geniş təfərrüata ehtiyac yoxdur. Bu şeir təpədən dırnağa ürfanidir. "Yeddilər"in, "doqquz dərvişlər"in, "pirlər"in bu parçada zikr olunması, üstəlik ürfani ədəbiyyatda "könül



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəhri" olaraq, anılan terminin "könül məhəlləsi" olaraq, şeirin əsas qayəsini, məzmununu təşkil etməsi bu barədəki fikirlərimizi açıq şəkildə sübut edir.

Təqdim olunan nümunədəki ən maraqlı məqam isə Kərəmin birdən-birə halının dəyişilərək, Əsliyə qovuşmayacağını anlamasıdır. Dastandan da göründüyü kimi, bu, Kərəmə əyan olur. Əlbəttə, bu əyan olma batini güclər, sufiyanə hallar hesabına mümkün olur. Halı dəyişilən Kərəm öz gələcəyini, aqibətini görür. Buradakı halın dəyişilməyi çox incə bir məqamdır. Əslində halın dəyişilməsi təsəvvüfdəki hala gəlmə və yaxud da halın gəlməsidir. Biz bir az əvvəl **"Kitabi-Dədə Qorqud"**dakı ürfani görüşlərlə bağlı fikirlərimizi izah edərkən, "didar" məsələsinə toxunmuş və qeyd etmişdik ki, "didar" təsəvvüfdə həm Allahla "görüş", həm də ümumiyyətlə, görmək, şahid olmaqdır. Kərəmin halının dəyişilərək, daha doğrusu hala gələrək gördükləri məhz "didar"dır. Bu deyilənlər bir daha sübut edir ki, "Əsli və Kərəm" dastanının da mahiyyətində çox güclü təsəvvüf yatır. Əlbəttə, həmin məsələlərin illərlə diqqətdən və tədqiqatdan kənarda qalması bizim işimizdə də müəyyən çətinliklər törədir. Belə ki, biz bu fikirləri daha səlis şəkildə əsaslandırmaq üçün mənbə tapa bilmirik. Tez-tez ehtiyat etdiyimiz subyektivlik amilinin əsas səbəbi də məhz elə budur.

Burada maraq doğuran daha incə bir məqam sevgilisinə qovuşmayacağını anlayan Kərəmin "halına uyğun" olaraq, sirf ürfani şeir oxumasıdır. Bu, bir qədər də mübahisəli məqamdır. Belə ki, Əsliyə olan nakam məhəbbət nə üçün mənəvi kamillik atributları olan ürfani mənzumə ilə müşaiyət olunmalıdır? Nə üçün qəfildən halı dəyişilərək, nakam aqibətini görən Kərəm



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

birdən-birə dərvişxislət olaraq, könül sirlərindən, məna dünyasının ən gizli nöqtələrindən xəbər verir? Bu sualların mahiyyətində heç şübhəsiz ki, dərin və məntiqli mətləblər gizlənir. Belə ki, məşhur "Leyli və Məcnun" dastanında da bənzər məqamlar mövcuddur. Məcnun da öz sevgilisinə qovuşmayacağını çox öncələrdən bilirdi. Bu dastanı təhkiyə janrında qələmə alan klassiklərin demək olar ki, hamısı bu məqamı xüsusi şəkildə vurğulamış, onu dastanın əsas qayəsi kimi canlandırmışlar. "Leyli və Məcnun"un sufi mahiyyəti də məhz elə bu məqama əsaslanır. Yəni, Leylinin timsalındakı hədəf Allahdır. Bu hədəfə yetişmək üçün aşiq öz zahiri məşuqundan keçir. Bu hal əlbəttə ki, təsəvvüf mahiyyəti daşıyan bütün dastan və rəvayətlərdə baş vermir. Daha dəqiq ifadə etsək, ilahi eşqin təcəllası üçün aşiqlərin fiziki ölümü, zahiri ayrılığı şərt deyil. Bu aqibət məhz "Əsli və Kərəm" kimi dastanların xarakterik xüsusiyyətidir.

Beləliklə, nakam məhəbbət və aşiqə bu sonluğun əyan olması bu məhəbbətin hədəfində (yuxarıda Kərəmin ifadə etdiyi kimi) daha dərin eşq, daha qüdsal hədəflərin yatdığını göstərir. Bu hədəflərin isə, insani məhəbbət şəklindəki təzahürü ədəbi-bədii və estetik insan təfəkkürünün məhsuludur. Bundan əlavə, söz, məna və sület rəmzliliyi, ürfani simvolika, əvvəlki bəhslərdə də qeyd etdiyimiz kimi, çoxəsrlik bir dövr ərzində ruhani və ruhaniyyətlə, daha dəqiqi, ehkam və şəriətlə silahlanmış siyasi hakimiyyətdən gizlənmək üçün idi. Hər iki səbəb istər yazılı, istərsə də şifahi ədəbi nümunələrin mahiyyətinə dərin bir estetika, yüksək sənətkarlıq bəxş etmişdir.

Biz "Əsli və Kərəm" dastanının bəzi epizodlarına baş vuraraq, onlardakı ürfani elementləri və təsəvvüflə bağlı əks olunmuş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir sıra mühüm məqamları nəzərə çatdırdıq. Bu dastanın bətnində gizlənən daha örtülü və dərin mətləblər barəsində isə gələcək tədqiqatlarımızda bir az da ətraflı şəkildə bəhs etmək ümidindəyik. Hələlik isə, araşdırmamızın "Əsli və Kərəm" dastanı ilə bağlı hissəsini burada tamamlamaq istərdik. Bu cür təhlillər qısa da olsa, Azərbaycan xalq təsəvvüfünün modeli haqda müəyyən qədər təəssürat yarada bilər.

Biz daha əvvəldə də qeyd etmişdik ki, Azərbaycan xalq dastanları əsasən aşıq dastanları olduğu üçün, aşıqların dilindən söylənərək, yaddaşlarda qaldığı üçün, həm də aşıq yaradıcılığı janrına daxil olan ədəbi-bədii hadisədir. Dastançılıq ənənəsinin səs, instrumentalizm, teatrallıq kimi elementləri bir arada tutan, sinkretik janr olan aşıq sənəti ilə birləşməsi bu ənənənin fəlsəfi-estetik yükünü bir az da artıraraq, onun daha geniş sferalarda tədqiq olunmasına şərait yaratmışdır. Şübhəsiz ki, həmin araşdırma sferalarına ürfan və təsəvvüf də daxildir. Həm də bu mövzu, xüsusilə də Azərbaycanda kifayət qədər az araşdırılmışdır. Halbuki mövzu və süjetindən asılı olmayaraq, xalq dastanlarımızın demək olar ki, hamısında bu məsələ çox aydın və qabarıq şəkildə təzahür olunmuşdur. Zamanın və ideoloji təbliğat maşınının uzun müddət qapalı saxlamasına baxmayaraq, ürfani mətləblər, nə qədər qəribə olsa da ilk baxışdan özünü büruzə verir. Sanki, ürfan və təsəvvüf Azərbaycan xalqının qan yaddaşına hopan bir dünyagörüş olaraq, şüurlarda yenidən oyanması üçün ani bir təmasa ehtiyac duyur. Kiçik bir toxunuşdan sonra xalq məfkurəsində özünə çox mühüm yer tutmuş **təriqət, mərifət** və **həqiqət** ideyası ortaya çıxır və öz varlığını müxtəlif şəkillərdə nümayiş etdirir. Bu, qaçılmaz bir tendensiyadır və nə qədər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gizlədilməyə və yox edilməyə çalışılsa da mütləq şəkildə vardır və elmi cəhətdən tədqiq olunması vacıb olan bir məsələdir.

Araşdırılan mövzu baxımından Azərbaycan xalq dastanlarının ən mühümlərindın biri də məşhur **"Qurbani"** dastanıdır. "Qurbani" dastanı konkret tarixi şəxsiyyətin, Azərbaycan Səfəvilər Dövlətinin banisi, Şah İsmayıl Xətainin quyəndəsi (kəlamxan şairi, aşığı) olmuş Dirili Qurban haqda xalq təfəkkürünün yaratdığı möhtəşəm bir sənət abidəsidir. Aşıq Qurbani kimi yaddaşlarda özünə yer tutmuş bu mütəsəvvüf sənətkar da təəssüf ki. uzun zaman yanlış və səviyyəsiz mövqedən araşdırılmışdır. Belə ki, bu aşıq da digərləri kimi, sadəcə bir aşıq, şair, zahiri məhəbbət düşkünü olaraq, tanıdılmışdır. Təbii ki, bu faktor da sovetlər dönəmi təbliğat mexanizminin göstəricisi və nəticəsi idi. Lakin üstündən kifayət qədər zaman və ideoloji təbəddülat keçməsinə baxmayaraq, hələ də bü cür məsələlərə münasibətdə demək olar ki, heç bir ciddi dəyişiklik baş verməmişdir. Hələ də Aşıq Qurbani, yuxarıda da qeyd etdiyimiz kimi, surətpərəst, material düşüncə sahibi, sadəcə mahir bir söz ustası olaraq qələmə verilir. Bu keyfiyyət xalq yaradıcılığının ən müxtəlif janrlarında istər zahiri, istərsə də batini şəkillərdə mövcud olan ürfan və təsəvvüf qavramlarına münasibətdə birtərəfli və yarımçıq fikirlərin formalaşmasına səbəb olur. "Qurbani" dastanı da məhz bu münasibətin "qurbanı" olmuşdur.

Ancaq onu da qeyd etmək lazımdır ki, "Qurbani" dastanındakı zahiri, dünyəvi məhəbbət mövzuları kifayət qədər tədqiq olunmuş, eninə-boyuna araşdırılmışdır. Biz dastanın əsasən əvvəlində yer almış ürfani motivlərə toxunmaq istərdik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məlumdur ki, dastanlarda məşhur buta elementi mövcuddur. **“Qurbani”**də də buta həlledici rol oynayır. Yəni, dastanın baş qəhrəmanına, Aşıq Qurbaniyə yuxuda buta verilir. Bu məsələlərə səthi yanaşmaq istəməzdik, amma, bizim fikrimizcə, buta məsələsinə də bu günə qədər birtərəfli yanaşılmışdır. Belə ki, butanı adətən bir msitik element kimi qələmə vermişlər. biz buna etiraz etmirik (hansısa tədqiqat nümulərindən misal gətirmək də istəmirik). Lakin, butaya sadəcə mistik element kimi yanaşmanın kökündə də məhz ateist dünyagörüşün yeridilməsi faktoru dayanır. Əsl həqiqətdə isə xalq deyimi olan “buta” təriqət elmindəki ilhamın, mərifət və həqiqətdəki həvalənin təcəssüm formasıdır. Biz buna əminik və qətiyyətlə söyləmək istəyirik ki, fikirlərimizin yeniliyi və bir qədər qəribəliyi, yuxarıda qeyd etdiyimiz kimi, adət olunmuş yanaşma mexanizmlərinin fonunda baş verir. Butanın mistik deyil, daha çox ürfani element olması dastanın əvvəlindəki süjet xəttindən də aydın görünür. Yuxudaykən buta alan Qurbani oyandıqdan sonra bu şeiri oxuyur:

***Yatmışdım, üstümə gəldi ərənlər,***
***Səfil, nə yatmısan, oyan dedilər.***
***Oyandım qəflətdən açdım gözümü,***
***Al, abi-kövsərdən iç, qan dedilər.***

***Oyandım qəflətdən, açdım gözümü,***
***Ərənlər payinə sürtdüm üzümü,***
***Dindirdilər, haq söylədim sözümü,***
***Doxsan min kəlməmə bəyan dedilər.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Qurbani, batıbsan qəm dəryasına,*
*Ovçunun məskəni dağ arxasına,*
*Bir seyqəl versənə könül pasına,*
*Aşiqi məşuqa qurban dedilər.*

(Azərbaycan dastanları, Beş cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2005, 391 səh. s.43-44)

Şerin məzmunu və forması kifayət qədər sufiyanədir. Ərənlərin gəlişi ürfani qaynaqlarda üçlər, beşlər, yeddilər, qırxlar kimi zikr olunan kimsənələrin eşq əhlinə, taliblərə gətirdiyi həvalədir. Qurbaniyə də həvalə gəlir. Şeirdə ayrı-ayrı maraqlı məqamlar mövcuddur. Bunlardan biri "abi-kövsər" ifadəsidir. İslam elminə görə, "abi-kövsər" Cənnətdə olan sudur, bulaqdır və yaxud da hovuzdur. **"Qurani-Kərim"**in ən kiçik surəsi olan **"Kövsər"** surəsində Rəsulallaha müraciətlə **"Biz Sənə Kövsər suyu bəxş etdik"** deyə buyurulur. Bu müqəddəs ayənin çoxlu sayda, müxtəlif şəkillərdə təfsirləri mövcuddur. Bu təfsirlərdən ən mötəbəri və ən çox yayılanı bu ayənin İslam Peyğəmbərinin qızı, Əhli-Beytin anası Həzrəti Fatimənin (s.ə.) şəninə enməsi barəsində olanlardır. Çünki, 3 ayədən ibarət bu surənin mahiyyətində Rəsulallahın oğlan övladı olmaması (doğulan oğlan uşaqlarının isə çox kiçik yaşda tələf olması) barədə müşriklərin o mübarək zata tənələrinə Haqq-Təala tərəfindən verilən cavab dayanır. Bu mənada **"Kövsər"** surəsinin Peyğəmbər qızının şənində nazil olması xeyli dərəcədə inandırıcıdır.

Başqa bir məsələ şeirdəki "abi-kövsər" ifadəsinin Həzrət Əli ilə bağlı dini rəvayətlərə istinad edilməsidir. Belə ki, həmin rəvayətlərdə Həzrət Əli Cənnətdəki Kövsər hovuzunun başında oturan və ora daxil olacaq möminlərə həmin sudan ikram edən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şəxsdir. Lakin ürfani mənbələrdə kövsər hovuzu anlayışı tamamilə fərqlidir. Elə kövsər suyunun məkanı sayılan Cənnət də təsəvvüfdə başqa mənalardadır. Biz bu haqda əvvəlki bəhslərdə müəyyən qədər məlumat vermişdik. Qeyd etmişdik ki, Cənnət anlayışı eşq əhli üçün axirətdən çox yarın, mürşidin camalını ziyarət, eyni zamanda batini bilgilərə vaqif olmaqdır. Bu bilgilərin mənbəyi isə, ürfani inanclara, təsəvvüf əqidə sisteminə əsasən, Həzrət Əlidir. Biz bu barədə də əvvəlki bəhslərimizdə geniş izahlar vermişdik. **"Al, abi-kövsərdən iç, qan dedilər"** misrası, bütün bu deyilənlərə əsasən, Həzrət Əlinin ərənlər, pirlər vasitəsi ilə aşiqlərə verdiyi məxvi, rihani bilgiləri əhatə edir. Kövsər badəsinin nəticəsi olaraq, qəflətdən ayılma anlayışı sırf təsəvvüf fəlsəfəsini ehtiva edir. Belə ki, burada səslənən

***... Dindirdilər, haq söylədim sözümü,***
***Doxsan min kəlməmə bəyan dedilər***

misraları həmin abi-kövsərin verdiyi ürfani məstliyin bəhrəsi olaraq görünür. "Doxsan min kəlmə" ifadəsi diqqətçəkən olduğu qədər də müəmmalıdır. Bu ifadə əsasən ruhani təkamülün **həqiqət** mərhələsində özünə yer almış bir mətləbdir. Həqiqətin mənbələrində üçlər, beşlər, yeddilər, qırx kimsənə, yetmiş iki pir, üç yüz on üç əsgərlə yanaşı, doxsan min qulamın da adı çəkilir. Doxsan min qulam anlayışı da digərləri kimi, nasut (insanliq) aləminin deyil, lahut (ruhlar və məna) aləminin atributları olub, bu dünyada yalnız aşiq və ariflərin gözünə görünən, bəlli sayda müqəddəslərin vücudlarında təcəlli edən varlıqlar kimi qəbul olunur. Deyilir ki, onlar da hülul edir, ərşi-ələdakı gerçəkliyin Yer üstündəki mənzərəsini yaradırlar. Onlarin **elmi-həqiqətdəki**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

konkret vəzifələri barədə nələrisə yazmaq araşdırmamızın hədəfi xaricində olduğu üçün biz bu barədə təfərrüata varmaq istəmirik.

Qeyd etdik ki, "abi-kövsər"lə müşaiyət olunan şeirin mayasında Həzrət Əliyə bağlı mətləblər dayanır. Son bənddəki

***Bir seyqəl versənə könül pasına,***
***Aşiqi məşuqa qurban dedilər*** –

misraları da məna baxımından ürfani gerçəklərə söykənir. Buradakı "könül pasına seyqəl vermək" kirlənmiş, həqiqətləri görməkdən məhrum olan könül aynasına müraciətlə deyilmişdir. Bu, həmin könül aynasıdır ki, insan övladı onu "Ələst" aləmindən bu dünyaya gətirmişdir. Nəzəri sistemə əsasən, insan yaddaşı, bu dünyaya gəidikdən sonra xeyli dərəcədə silinmiş, Haqqın, həqiqətin üzünü əks elətdirən həmin ayna kirlənmiş, paslanmışdır. Elə bu fikrin bənzərinə biz məşhur Əhli-Həq quyəndəsi Beyrək Quşçuoğlunun ilk söylədiyi kəlamda da rast gəlirik. Şikəst ikən atası Quşçu Yaqub tərəfindən cəmxananın önünə atılaraq, sonradan pirlər tərəfindən nəfəs verilərək ayağa qalxan Beyrək bu sözləri deyir:

***Mən bir leyli-səttar idim,***
***Məni qatara çəkdilər,***
***Sildilər güzgümün pasın,***
***Aydın didara çəkdilər...***

(Bu mənzuməni də biz əvvəlkilər kimi, Əhli-Həq cəmlərindən əldə etmişik).

Bu dünyada o güzgünü təmizləyənlər həmin abi-kövsəri içib, ruhani məstliyə yetişənlər, dolayısı ilə, əzəli yaddaşı özünə qaytaranlardır. Bu eşq badəsini aşiqlərə içirən isə, Həzrət Əlidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eynilə bu məsələ barəsində biz ustad Aşıq Ələsgərlə bağlı bölümlərdə geniş bəhs etmişdik.

Qurbaniyə məhz Həzrət Əli tərəfindən buta verilməsi dastanın əvvəlindəki növbəti şeirdə daha aydın və kəskin şəkildə göstərilmişdir:

***Bir kimsənə gəldi mənim üstümə,***
***Yazılı şəninə ya minəl-əta,***
***İmam ola, damad-Əhmədi-Muxtar,***
***Doldurub camını eylədi əta.***

***Tərəhhüm eylədi abi-kövsərdən,***
***Onunçün keçmişəm can ilə sərdən,***
***İstədim mətləbim payi-Qəmbərdən,***
***Kəramət eylədi mənə bir buta.***

***Eşq əlindən namus arım qalmadı,***
***Nə bir səbrim, nə qərarım qalmadı,***
***Qurbaniyəm, ixtiyarım qalmadı,***
***Dönmüşəm kamana, qəddimdi duta***

(Azərbaycan dastanları, Beş clddə, I cild, Bakı, Lider nəşriyyat, 2005, 391 səh. s.44).

Birinci bənddəki "Doldurub camını eylədi əta" misrası yuxaridakı fikirlərimizin birbaşa təsdiqidir. Həzrət Əlinin şəriət prizmasındakı obrazı bu izahlardakı mənzərədən tamamilə fərqlidir. Şəriətdə ümumiyyətlə badə, mey anlayışları mövcud deyil. "Abi-Kövsər" kimi dini terminin ürfani istilahlarla şəraba, saqiyə və digər qavramlara təbdil olunması, bilindiyi uzrə fundamental din və ehkamda qəbul olunmazdır. Üstəlik, bu məsələlərin bir-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başa Həzrət Əli ilə əlaqələndirilməsi hardasa küfr məqamına qədər gedib çıxır. Bu da təbii ki, ruhani təkamülün daha üstün və dərin qatlarında qəbulu və idrakı mümkün olan nəsnələrdir. Bu qatlar isə bu günə qədər şərti də olsa müəyyənləşən **təriqət, mərifət** və **həqiqət** qatlarıdır. Məhz elə fərqli təfəkkür tərzlərinin açdığı imkanlarla orta çağ mütəsəvvüflərinin nəzəri bilgilərini dərk etmək mümkündür. Onu da əlavə etmək istərdik ki, ürfan və təsəvvüf həm elmi, həm ədəbi, həm fəlsəfi, həm də praktik baxımdan mükəmməl bir kompleksə malik olub, ayrıca və geniş şəkildə tədqiq və təhlil olunmalıdır.

Beləliklə, Aşıq Qurbaninin öz şeirləri vasitəsilə ifadə və bəlli etdiyi fəlsəfi yön xeylı dərəcədə ruhani təkamülün **həqiqət** mərhələsinə yaxındır. Biz bu yaxınlığı tədqiqatımızın daha əvvəlki bölümlərində ustad Aşıq Ələsgərin yaradıcılığında müşahidə və təhlil etmişdik. Aşıq Ələsgər də təsəvvüfün məhz həqiqət mərhələsindəki mətləbləri tərənnüm etmişdir. Nə Aşıq Qurbaninin, nə də Aşıq Ələsgərin həqiqət əhli olması barəsində heç bir iddialarımız yoxdur. Onu da qeyd etmək istərdik ki, **həqiqət** nəzəriyyəsinə, bu sahədəki informasiyalara müəyyən qədər bələd olmaq üçün həmin cameəyə daxil olmaq şərt olsa da, çox maraqlıdır ki, ürfanın ən son və ən qəliz mərhələsi olmasına baxmayaraq, "həqiqət" Azərbaycan-Türk xalq təsəvvüfünün ümdə qollarından biri hesab olunur. Məhz elə bu səbəbdən də istər Qurbaninin, istərsə də Ələsgərin həqiqət elmindən bəhs etmələri xalq təsəvvüfündən, dolayısı ilə xalq təfəkküründən gələn bir informasiyalar toplusu ola bilər. Biz Əhli-Həqliyin özəlliklə Azərbaycan xalq təsəvvüfünün nümunəsi olduğu barədə əvvəlki bəhslərdə kifayət qədər tutarlı dəlillərlə bəhs etmişdik.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin Aşıq Qurbaninin **həqiqət** elminə bələdçiliyi, bizim gəldiyimiz qənaətlərə görə, təkcə xalq təfəkküründən süzülüb gələn amil deyil. Buna səbəb Aşıq Qurbaninin böyük Şah İsmayıl Xətai ilə birbaşa əlaqə və ruhani bağlılığı olmuşdur. Bu bağlılıq bizim fikrimizcə, dastanın ən önəmli və ən həlledici faktorudur. Biz əvvəlki fəsillərimizdə Şah Xətainin Həzrət Əli ilə batini, qeybani vəhdəti barədə müəyyən mülahizələr irəli sürmüşdük. Bu mülahizələrə əsasən belə bir nəticəyə gəlmək olar ki, dastanda Qurbaniyə buta, yəni, həvalə verən Həzrət Əli, dolayısı ilə Şah Xətainin özüdür. Bunlar, hər fürsətdə iddia etdiyimiz kimi, nə əfsanə, nə mif, nə də şəriətçilərin iddia etdikləri kimi, dinsizlik deyildir. Bunlar konkret nəzəri sistemə söykənən fəlsəfi dünyagörüşdür ki, geniş bir zümrənin əqidə və inanc bazasını təşkil etməklə bərabər, Yaxın və Orta Şərq xalqlarının İslami və ümumiyyətlə ruhani aspektdə sosial-ictimai həyatının nəzərəçarpacaq dərəcədə əhəmiyyətli hissəsini əhatə etmişdir. Məhz elə bu baxımdan da Ələvilik, Əhli-Həqlik, Bektaşilik və ümumiyyətlə əksər təsəvvüf cərəyanları olaraq, bu sistem dünya elminin geniş tədqiqat obyektinə çevrilmişdir. Biz də bu mənada araşdırdığımız mövzunun nə qədər ciddi və əhatəli olduğunun fərqindəyik.

**"Qurbani"** dastanındakı ürfan, qeyd etdiyimiz kimi, bu dastanın əsas qayəsini təşkil edir. Bu da heç şübhəsiz ki, Aşıq Qurbaninin tarixi, gerçək şəxsiyyətinin birbaşa ürfan və təsəvvüflə bağlılğının, onun bir təsəvvüf ərbabı, mərifət əhli olduğunun yaratdığı bir şeydir. Məhz elə bu keyfiyyətlər də həmin dastanı başqalarından fərqləndirir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dastanın bir çox yerində eşqin məhz "həqiqət" qatındakı mətləbləri özündə ehtiva edən fikirlər özünə yer tapmışdır. Bu mətləblərin ən önəmlilərindən biri, haqqında əvvəlki bəhslərdə də geniş məlumat verdiyimiz məşhur "Qırxlar" mövzusudur. Bu mövzunun xüsusilə Şah İsmayıl Xətainin mənzumələrində əks olunduğunun şahidi oluruq (bu barədə də əvvəlki fəsillərdə ayrıca məlumat vermişdik). Öz ustadının, mürşidi-kamilinin əqidə yükünü paylaşan Aşıq Qurbani dastanın əvvəllərində öz həqiqi məramını və eşqinin mahiyyətini açıqlayarkən bu cür bəyan edir:

***Haqqım əmr eylədi, gəldim dünyaya,***
***Gözüm açdım, mail oldum o burca,***
***Arif oldum, haqq kəlamın oxudum,***
***Əlif qəddim dal eylədim o burca.***

***İsmin xəbər aldım, dedi Vəlidi,***
***Göydə gəzən Cəbrayıldı, Pəridi,***
***Qapıçısı Şahi-Mərdan Əlidi,***
***Məhəmməd meraca gedər o burca.***

***Qurbani der, arayıban tapmışam,***
***Qırxlar məclisindən bir pay qapmışam,***
***Kəbədisə, mən də birin yapmışam,***
***Min könüldən bir yol gedər o burca***

(Azərbaycan dastanları, Beş cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2005, 391 səh. s.45).

Göründüyü kimi, "Qırxlar" anlayışı bu mənzumədə kifayət qədər açıq və anlayışlı bir tərzdə ifadə olunmuşdur. Xüsusi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olaraq vurğulamaq istərdik ki, Cənubi Azərbaycan Əhli-Həqlərində bu şeir **həqiqət** kəlamı kimi cəmxanalarda musiqinin müşaiyəti ilə zikr olunur. Yəni, "həqiqət" qatında Qurbaninin bir çox şeirləri mərasim havaları olaraq istifadə edilir. Bu da onun bir Əhli-Həq olduğu barədəki fikirlərimizə müəyyən qədər qüvvət verir. Lakin, bir məsələyə də aydınlıq gətirmək istərdik ki, bizim fikrimizcə, Qurbaninin təsəvvüf ərbabı olması, yaxud da Əhli-Həqliyi və ümumiyyətlə dərvişliyi Şah Xətaidən ayrı düşünülə və təhlil oluna bilməz. İstər dastanda, istərsə də tarixi və məntiqi mənbə və nəticələrdə Qurbaninin əhli-mərifət kimi mövcudiyyəti birbaşa öz mürşidi-kamili Şah Xətaidən başlayır. Burada elmi təhlillərdən, tarixi faktlardan çox, ürfani məntiq əhəmiyyət kəsb edir. Belə ki, istər fəlsəfi, istərsə də tarixi və ədəbi qaynaqlarda mahiyyəti sona qədər açıqlanmamış sufiyanə ustad-şagird ardıcıllığı Şah Xətai və Aşıq Qurbani münasibətlərində də öz əksini tapmışdır. Bu münasibətlərin paralelini biz Şəms Təbrizi və Mövlana Cəlaləddin Ruminin mübarək timsalında da görürük. Belə paralellər təsəvvüf tarixində külli miqdardadır. Şah Xətai və Qurbani münasibətləri də klassik pir-mürid anlayışları çərçivəsində olan bir məsələ idi. Bu baxımdan "Qurbani" dastanındakı ən müxtəlif mətləblərə, o cümlədən də Aşıq Qurbani və Pəri məhəbbətindən yaranan assosasiyalara baxmayaraq, bizim nöqteyi-nəzərimizə görə, bu dastanın əsas qayəsini məhz elə təsəvvüf və ürfan təşkil edir. Dastanda sırf Pəri məhəbbəti ilə bağlı məqamlarda belə insan və Allah sevgisi bir arada və həddindən artıq sistemli şəkildə təzahür olunmuşdur. Bu sistem, haqqında bütün əsərimiz boyu bəhs etdiyimiz təcəlla və hülul məsələsidir. Məsələn, dastanın çox maraqlı bir yerində



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pərini zahirən tanımayan Qurbani onun batini sifətlərini, dolayısı ilə öz eşqinin əsl mahiyyətini açıqlayır:

***Özü xoş sifətdi, adı xoş nişan,***
***Yeriyir qabaqca Mikayıl, Pərim!***
***Fəriutə zülflərin tarimar olmuş,***
***Asılıb gərdəndən həmayıl Pərim!***

***Qapına gəlmişəm, sayılam, sayıl,***
***Haqq verən paylara mən oldum qayıl,***
***Qızıl qıtmığından tökdür həmayıl,***
***Dünya olsun sənə nəqail, Pərim!***

***Qurbani qurbandı şahın dərinə,***
***Dərviş bilər xirqə nədi, dəri nə?***
***Ağam qıya baxdı, atdı dərinə,***
***Yetmiş il bənd etdi Cəbrayıl, Pərim!***

(Azərbaycan Dastanları, Beş cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2005, 391 səh. s.93)

Həm quruluşuna, həm də məzmununa görə bu mənzumə çox maraqlı bir nümunədir. Qeyd etdiyimiz kimi, burada əsas qayə və hədəf ilahi təcəlladır. Belə ki, bu məqamda insan Pəri ilə mələklər aləmi, lahut aləmi birləşir. Belə demək mümkümsə, dəqiq bilmək olmur ki, söhbət hansı pəridən gedir yerdəki, yoxsa göydəki? Əlbəttə, ənənəvi baxış tərzi ilə yanaşsaq, məsələnin kökü heç də dərinlərə gedib çıxmır; Aşıq Qurbani Pəri adlı bir qızı sevir, vəssəlam. Lakin, hər şey bu qədər sadədirmi? Sadəcə şeir parçalarına nəzər saldıqda, onların material bir mə-



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

həbbət mövzusu olduğunu düşünmək nə qədər insaflı və həqiqətə uyğun olardı?

Bu cür tərkib, xəlitə, yəni, təcəlla vasitəsilə yaranan vəhdət predmeti – seçilməzlik (vəhdətin bütün mərhələlərini əhatə etməklə) əslində bütün dastanlarda mövcuddur. Fəqət, özəlliklə "Qurbani" dastanında bu faktor kifayət qədər bariz şəkildədir. Yuxarıda da xüsusi olaraq vurğuladıq ki, bu dastanın ürfan və təsəvvüflə bağlılığlı, dastan qəhrəmanının mütəsəvvüf dünyagörüşü birbaşa mürşid-mürid münasibətlərindən ibarət tarixi gerçəklik olan Şah Xətai-Qurbani ünsiyyəti ilə əlaqədardır. Qurbani tam mənası ilə bir sufi müridi idi.

Dastan tarixi həqiqətləri tam və düzgün əhatə etmədiyinə görə, təsəvvüf məsələsində dastan mətnlərinə sona qədər istinad etmək zənnimizcə, yanlış olardı. Nəzərə almaq lazımdır ki, dastan daha çox xalq təfəkkürünün məhsuludur. Sadə xalq düşüncəsində isə dərin və sistemli təsəvvüfün müəyyən deformasiyaya uğraması təbii idi. Yəni xalq nə qədər sufiyanə düşünsə də öz qəhrəmanına material, cismani don geydirməklə, onu özünə yaxınlaşdırmaq, onu dərk etmək istəyir. Bu da təbii şəkildə, öz təbii axarına uyğun olaraq, qəhrəmanı sadələşdirir, onu dünya işlərinin, sadə insan məfkurəsinin qəliblərinə salırdı. Bu isə bir tərəfdən dastan nümunələrinin yaranıb dillər əzbəri olmasına və beləliklə də zəngin bədii irsin yaranmasına səbəb olsa da, digər tərəfdən milli yaddaş sistemindən dərin fəlsəfi məfkurənin getgedə silinib getməsinə gətirib çıxarırdı. Bu, milli-mənəvi deformasiyanın əsasını qoyan amillərdən biri idi. Nəticədə milli fəlsəfənin bazasından ilahi-metafizik bağlantı yoxa çıxır və belə demək mümkünsə, xalq dayaz düşünməyə başlayır. Lakin, bizim



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fikrimizcə, adı çəkilən deformasiyanın ən ümdə səbəblərindən biri folklor, özəlliklə də dastan nümunələrinin daşıyıcıları olan sənətkar aşıqlar, onların təfəkkür qəlibləri olmuşdur. Belə ki, şifahi ənənəyə söykənən dastan yaradıcılığı aşıqların dilində zaman-zaman yaşamış və bu günlərə qədər gəlib çatmışdır. Biz həmin "zaman" məsələsini xüsusi olaraq vurğulamaq istərdik. "Zaman" dedikdə, təfəkkür və fəlsəfi dinamikanın, eyni ruhani trayektoriyanın varlığını nəzərə almaq lazımdır. Onu da unutmaq olmaz ki, zaman içərisində, xüsusi ilə Azərbaycan türklərində ürfan və təsəvvüf fəlsəfəsi baxımından çox güclü deformasiya getdi. Bu tənəzzülün əsas səbəbi məlum üç yüz illik işğalın nəticəsi idi. Hələ Sovet imperiyası yaranmamışdan çoxçox öncələr də Azərbaycan xalqının mənəvi-ruhani təfəkkürünə qarşı istər daxildən, istərsə də xaricdən kifayət qədər "uğurlu" əməliyyatlar aparılmışdı. Rus imperiyasına rəğbət, yeniləşmə, maariflənmə adı altında adını çəkmək istəmədiyimiz müəlliflərin apardıqları yorulmaz mübarizə müəyyən müsbət nəticələrlə bərabər, əsas etibarilə material-ateist düşüncəyə istinad edərək, bütöv insan nəsillərini ideal ruhi bağlantıdan məhrum etdi. Nəticə isə, bu günün timsalında göz qabağındadır. Tədqiqatçılar ürfani məsələlərdən yan keçir, cismani, dünyəvi mətləbləri qabardır, xalq, oxucu kütləsi isə bu məsələlərdə maraqlı və aktiv deyil. Bütün bunlar bizim araşdırma imkanlarımızı istər-istəməz məhdudlaşdırır, bu mövzudakı gələcək perspektivlərimizi şübhə altına salır. Çünki biz öz gələcək oxucu kütləmizdən məhrum olur, məcburiyyət qarşısında başqa ölkələrə müraciət etməli oluruq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin hər şeyə rəğmən, biz öz tədqiqatlarımızı əzmlə davam etdirmək niyyətindəyik. Ürfan və təsəvvüfün bir məfkurə olaraq cazıbə və əhəmiyyəti sonsuzdur. Çağdaş dünya elmi ruhani təfəkkürə məhz bu baxımdan yanaşır, fundamental, yorucu dini komplekslərin yerinə məhəbbət və tolerantlıq üzərində bərqərar olmuş təriqət və mərifət ədəbiyyatına istinad edir. Azərbaycanın xalq yaradıcılığı nümunələri, eyni zamanda klassik bədii inciləri bu baxımdan əvəzedilməz yerə və danılmaz əhəmiyyətə malikdir.

Biz bu bölümdə Azərbaycan xalq dastanlarından, onların bətnində və zahiri keyfiyyətlərindəki təsəvvüf elementlərindən, ürfani qaynaqlardan söhbət açdıq. Qeyd etdik ki, Azərbaycan dastanları əsas etibarilə aşıq sənəti vasitəsilə, aşıq sənətinin tərkib hissəsi olaraq öz mövcudiyyətini sürdürmüşdür. Həmin proses bu gün də davam edir. Biz əvvəlki fəsillərimizdə aşıq sənətinin çox güclü bir təsəvvüf təmsilçisi olduğu barədə geniş və hərtərəfli izahlar vermişdik. Məhz elə bu baxımdan da Azərbaycan xalq dastanlarının aşıq yaradıcılığı versiyası ürfan və təsəvvüf metodologiyası nöqteyi-nəzərindən diqqətəlayiq və məntiqidir. Elə bu aspektdən çıxış edərək, söyləmək istərdik ki, xalq dastanlarındakı sufiyanə meylin davam etməsi və bu zəmində ümumiyyətlə milli məfkurədəki ürfan fəlsəfəsinin yaşaması üçün birbaşa aşıq sənətinin rolu və əhəmiyyəti çox böyükdür. Şimali Azərbaycandakı çağdaş sənətkar aşıqların təsəvvüf bilgilərindən uzaq olmaları, ürfani qaynaqlardan bixəbər olmaları kifayət qədər təəssüf doğurucu bir haldır. Dastan mətnləri nə qədər qorunub saxlansa da şifahi ədəbi nümunə olaraq həmin mətnlərin icraçılarının əsl mətləbdən bixəbər olmaları istər-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

istəməz söylənilən və bu vasitə ilə yazıya alınan dastanlara yozum fərqi, eyni zamanda da fəlsəfi dayazlıq gətirir. Bu baxımdan fikrimizcə, Azərbaycan xalq dastanları tamamilə yeni metodlarla tədqiq olunub, xalqın özünə qaytarılmalıdır. Bu minvalla milli yaddaş sisteminin çox mühüm atributu olan dastan janrı milli fəlsəfəyə də öz müsbət, ruhani təsirini göstərə bilər. Elə bu səbəbdən də biz istər klassik yazılı, istərsə də şifahi xalq yaradıcılığında mövcud olan ürfani ənənələrin, təsəvvüf qaynaqlarının anlaşılan və modern bir şəkildə bərpa olunmasında israrlıyıq. Əks təqdirdə milli mənəviyyatın bədiyyat və bədii-fəlsəfi arenasında müdhiş bir boşluq yarana bilər və yaranmaq üzrədir. Çünki, digər xalqlardan fərqli olaraq, bədii-estetik, ədəbi dəyərlərə öz fəlsəfi sturukturunda daha çox yer ayıran Azərbaycan türklərinin əfkarında maddi, material dəyərlər nə qədər əhəmiyyət kəsb edə bilər? Daha konkret və bir az da çılpaq ifadə etsək, yaddaşlardakı dastan qəhrəmanlarının, yaxud da dünya tarixinə çox böyük incilər bəxş etmiş dahilərin məhəbbət hekayələri, sevda nağılları hara qədər cismani duyğularla təfsir və müşaiyət olunacaq? Bunun əhəmiyyəti varmı? Yaxud da bu dayaz hisslər, keçici duyğular millətə lazımdırmı? Əlbəttə ki, yox! Məhz elə bu keyfiyyətləri göz önünə alaraq, alim və ziyalılarımızdan materialist, ateist düşüncə məcburiyyətindən çoxdan qurtulmuş bir xalqın öndə gələn nümayəndələri olaraq, dünyagörüşlərini və məsələlərə baxış tərzlərini dəyişmək tələb olunur.

Beləliklə, biz Azərbaycan dastan yaradıcılığındakı təsəvvüfi meyllərlə, ürfani məqamlarla bağlı müəyyən məsələlərə toxunmaq istədik. Əlbəttə ki, mövzunun xalq dastanları ilə bağlı tərəfləri o qədər geniş və əhatəlidir ki, bir-iki dastanın müəyyən



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fraqmentlərinə və yaxud ayrıayrı məqamlarına şərh verməklə mövzunu sonuna qədər araşdırmaq qeyri-mümkündür.  Ürfan və təsəvvüf o qədər hərtərəfli və kifayət qədər qəliz bir tədqiqat sahəsidir ki, onu yalnız şifahi və yaxud da yazılı ədəbi nümunıələrin tərkib hissəsi olaraq  təhlil etmək bu məsələyə birtərəfli və məhdud yanaşmaq deməkdir. Halbuki, istər fəlsəfi, istər estetik, istərsə də sosioloji baxımdan təriqət və mərifət məsələləri kompleks şəkildə araşdırılmağa möhtacdır. Bu ehtiyac Azərbaycan və ümumiyyətlə Şərq bədii-fəlsəfi təfəkküründə hər zaman hiss olunmuşdur. Əlbəttə ki, bu sahədə illər və hətta əsrlər boyu çoxlu sayda dəyərli tədqiqat əsərləri yaradılmışdır. Lakin, bir qədər cəsarətli görünsə də söyləmək istərdik ki, Yaxın və Orta Şərqin müxtəlif xalqlarının uzun əsrlər boyu təfəkkür və təcrübə bazasnını təşkil etmiş olan ürfan və təsəvvüf həmin dövrlərdə də sonrakı dövrlərdə də alim və filosoflarin qələmi vasitəsilə müəyyən qədər xalqdan uzaqlaşdırılmışdır. Belə ki, məsələlərə arif, dərviş baxışı ilə alim, filosof baxışı bəzən çox dərin ziddiyyətlər təşkil etmişdir. Belə demək mümkünsə, təriqəti və mərifəti yaşayan, onu öz həyatında tədbiq edən ürfan əhli, təsəvvüf ərbabı bu mətləbləri hər zaman rəmzi, əsasən də poetik bir dildə əks etdirmiş, bəziləri isə bəzi zamanlar sadəcə susmuşlar.

Onların həyat tərzlərini, dünya baxışlarını, mürşid və övliyaların kəşfü kəramətlərini kənardan müşahidə edən həmin alimlər kənar münasibət müstəvisində əsl həqiqətləri ya anlayaraq xalqa çatdırmamış, ya da həmin gerçəkləri çox qəliz, dolaşıq bir şəkildə qalın-qalın kitablara çevirmişlər. Bu cür əsərlərin həcmi, onların çətin bir üslubda qələmə alınması onu göstərir ki, ürfan və təsəvvüfün nə demək olduğunu  həmin alimlərin özləri də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doğrudürüst anlaya bilməmişlər. Bildiyimiz kimi, elmi əsərləri anlaşıqlı bir dildə yazmaq hər zaman ən məqbul və üstün metodologiya hesab olunmuşdur. Çünki, bu əsərlər nəticədə insanlıq naminə yaradılır. Məfkurə adamının üstünlüyü də orasındadır ki, axtarıb tapdıqlarını yaşarı və faydalı bir hala gətirmək üçün onu ictimailəşdirə bilsin. Əks təqdirdə bu cür əsərlər müəllifinə gətirdiyi şöhrətdən başqa heç bir dəyərə malik olmur. Bu şöhrət isə fərdi keyfiyyətdir və bətnində istər mənfi, istərsə də müsbət olsun, eqo gəzdirir. Ürfani dünyabaxış isə bunun tam əksini tələb edir. Elə bu baxımdan da söyləmək yerinə düşərdi ki, sırf mənəviyyat məsələlərini özündə ehtiva edən bir məfkurə tərzini material düşüncə ilə incələmək, ona dünyəvi rəng vermək, onu dünyəvi keyfiyyət və çalarlarla dərk etməyə çalışmaq bu günə qədər elə də müsbət və kafi nəticələrə gətirib çıxarmamışdır. Sual oluna bilər: nədir bu dünyəvilik? Belə çıxır ki, ürfani dünyagörüş, mütəsəvvüfanə məfkurə başdan-ayağa asketizmdir? Əlbəttə ki, yox. Məsələnin düyünlü nöqtəsi məhz həmin dünyəviliyin nə demək olduğundadır. Biz burada dünyəvilik dedikdə, elmin sırf material dünyabaxışından ibarət olmasını iddia edənlərin təməl yanlışından bəhs edirik. Daha öncə də qeyd etmişdik ki, onların bu yanlışı din və dindarlar adlanan bir zümrənin elmi-material dünyagörüşündən tamamilə uzaqlaşıb, əks cəbhədə mövqe tutmalarına gətirib çıxarmışdır. Bu, tarixi bir əməliyyatdır, qəsdən və ustaca işlənib hazırlanmış bir sistemdir. Elmi dindən və beləliklə də alimləri dindarlardan ayırmaq nəticədə savadsız dindarların və dinsiz alimlərin qarşıdurmasına gətirib çıxarmişddır. Dindarlar, inananlar zümrəsi heç cürə öz inanclarını insani, bəsit məntiqlə əsaslandıra bilmirlər. Əvvəlki



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

abzasların birində də qeyd etdiyim kimi, çox qədim zamanlarda yaşamış tarixi şəxsiyyətlər, hadisələr tarix elmi tərəfindən tədqiq olunur, üzə çıxarılır, amma peyğəmbərlər və dinlərin yaranma tarixi hər zaman qeyri elmi və qeyri ciddi bir nəsnə olaraq, xatırlanır. Allahçılıq yalnızca inanc məsələsi olaraq bir kənara qoyulur və hətta qüdsal şeylər olaraq, toxunulmaz elan olunur. Bu müqəddəslik, bu toxunulmazlıq isə, təbii ki, inancı məntiqdən ayırmaq istəyənlərin əməlinin nəticəsidir. İllərdir ki, elmi ateizim Avropada, dünyanın başqa proqresiv məkanlarında tənqid olunur, kommunizm ələ salınır, fəqət əslində onların özləri də elmi ateizmin yolunu gedərək, mənəviyyatın varlığını inkar etmək istəyən gizli güclərin dəyirmanına su tökürlər. Dünən elmi ateizm, bu gün isə sivil dünya adı altında dini düşüncə elə dini düşüncə olaraq qalır. Hətta, bəzi İslam ölkələrində dini-ideoloji nəzəriyyələr, ictimai hərəkatlar ateistlərin, materialistlərin özləri tərəfindən hazırlanıb, meydana qoyulur. Bu keyfiyyət yeni deyil. Məsələn, götürək elə İran ərazisindəki İslami məzhəbçiliyi. Bu məzhəbi nəzəriyyə risaləçilik, müasir ictihad problemləri o qədər ilkin və qeyri-adi dərəcədə mənasız və gülünc mətləbləri qabardıb, ümummilli məsələlərə çevirir ki, bu, dinin və dindarların işi ola bilməz.

Bütün bu sarpmalar, geriləmələr, bizim fikrimizcə, din adlanan məfhumun içərisindəki ürfani boşluqdan, vəhdət fəlsəfəsinin idrak və qəbul olunmamasından irəli gəlir. Belə ki, dini zümrə (bu, xüsusilə də sonuncu kamil din olan İslam dininin çoxmilyonlu cameəsinə aiddir) israrla bəşəri düşüncəni dərkolunmazlığa, insan iradəsinin və feiliyyətindəki muxtarlığın dar sərhədlərinə sürükləyir. Öz dininin, öz müqəddəs kitabının



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məhsulu və iftixarı olan Mövlananı, Nəsimini, Yunus Emrəni inkar etməli olurlar. Çünki onlar hər şeyin mərkəzində insanın dayandığını, bütün yolların insana çıxdığını, Allah deyilən məfkurənin insandan kənarda olmadığını iddia etmişlər. Bu isə, ürfandır, təsəvvüfdür. Bu yöndəki düşüncə insanı işıqlandırır, fərəhləndirir, insanfa qorxu və bəlirsizlik deyil, məhəbbət və əminlik yaradır. Əgər düşüncə və ruhda insan Allahın bir zərrəsi və ruhani kamiilk yolunun sonunda Onun özüdürsə, Ona qovuşmuşsa, o zaman nədən qorxacaq, nədən, kimdən xəbərsiz olacaq? Şəriət, fundamental din isə insanı qorxuya və bəlirsizliyə yönləndirir. Beləliklə də din böyüklərindən, bilginlərdən asılı vəziyyətə salır. Diqqətçəkəndir ki, kilsənin, xilafətin, qanunların, ictihadın hakimiyyəti hər zaman dünyəvi hakimiyyətə xidmət etmişdir. Bu xidmət azad düşüncənin qarşısını almaq üçün uzun əsrlər boyu yararlı və işlək vəziyyətdə olmuşdur.

Bütün bu düşüncələr bir daha onu göstərir ki, əqidə, inam anlayışları fərdiyyətçilik mövqeyindən çıxaraq, ictimai məzmin daşımış, bəzən müsbət, bəzən də mənfi sonucları ilə tarixi hadisələri yönləndirmişdir. Bu hadisələr isə, zaman-zaman insan nəsillərinin gen yaddaşına hoparaq, onun məfkurəsində, məişətində, folklorunda öz möhkəm yerini tutmuşdur. Bu baxımdan ruhani-mənəvi düşüncənin, dini-mistik dünyagörüşün müxtəlif xalqların bədii yaradıcılığında, estetik zövqündəki yeri və əhəmiyyəti danılmazdır. Elə bu baxımdan da istər bədii yaradıcılıq nümunələrinə, istər folklor yaradıcılığına yeni bir baxış tərzi ilə yanaşmaq günün aktual məsələlərindən bir ola bilər. Baxış tərzinin yenilənməsi, yanaşma metodunun kökündən dəyişilməsini şərt olaraq ortaya qoymaqla biz xalq yaradıcılığı nümunələ-



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rindəki gizli və aşkar məqamların üzə çıxarılmasına və ürfani, mütəsəvvüfanə meyllərin açığa çıxarılması işinə müəyyən töhfələr verə biləcəyimizə inanırıq. Bu cəhd təkcə elmi, proqmatik bir iş olmaqdan çıxmalıdır. Nəticədə məsələlərin bətnində xalq, onun gündəlik yaşam tərzi, məişətində və həyatının ən müxtəlif sahələrində istifadə etdiyi, istinad etdiyi folklor və etnoqrafiya dayanır. Təbiidir ki, bir xalq, bir toplum dünən qüdsal mətləblər, dərin və yaralı məhəbbət olaylarına həsr etdiyi bayatını, xoryatı bu gün dayaz və gülünc mətləblərə bağlayırsa, bu, folkorun, bədii-estetik məfkurənin həmişəyaşar olduğundan xəbər verir – zira bu yaşarılıq xalqın mənəvi düşüncəsinin aynasıdır, inikasıdır. Bu baxımdan gəlinən nəticə odur ki, tarixi şifahi və yazılı mənbələri araşdırmaq, onlara bir başqa nəzərlə yanaşmaq elə toplumun, kütlənin özünə, öz içinə müdaxilə etmək deməkdir. Əlbəttə ki, müsbət və köklərə mümkün qayıdış yönündəki belə müdaxilələr öz vacibiyyətini hər zaman qoruyub saxlamalıdır. Bunlar vacib və qaçılmaz məsələlər olaraq, aktuallıq qazanmalıdır. Əgər bir xalq, bir millət belə mənəvi dəyərlərə sahibdirsə, öz genlərində bu cür uca və ülvi duyğuları saxlamışdırsa, onları niyə aşkar və material bir tərzdə, görünən bir şəkildə davam etdirməsin? Axı həmin dəyərləri itirən bir toplum onun yerinə nəyi qoyur? Axı dünyanın proqressiv millətləri belə etmirlər. Onlar öz köklərinə müdhiş bir israrla qayıdırlar. Köklərə qayıdış məsələsi bizlərdə də mövcuddur, ancaq bayağılıq qazanmışdır. Ona görə ki, milli köklər dedikdə, biz dərin fəlsəfi, ruhani mətləbləri deyil, quru qəhrəmanlıq pafosunu, içiboş müdriklik qavramlarını özündə ehtiva etmiş mətləbləri nəzərdə tutmuşuq. Müəyyən dini kəlamların, övliya və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pirlərin, ərənlərin sözlərinin içini boşaldaraq, onları atalar sözləri, zərbül-məsəllər şəklində təqdim etmək, təhrif edilmiş şəkildə xalqın özünə qaytarmaq, əslində elə xalqın əlindən həmin dini, həmin inancı, həmin övliyaları, pirləri, ərənləri onun yaddaşından silmək deməkdir. Son illərin tədqiqatçıları, konkret olaraq, bizim ölkəmizdə buna xeyli dərəcədə nail ola bilmişlər. Onlar bunu daha çox kommunist ideologiyasının, elmi ateizm metodologiyasının basqısı altında edə bilmişlər. Bu gün bu arealda həmin təbliğat maşını işləmir. Lakin bu zahirdə belədir. Aşkar təbliğat yoxdur, amma beyinlərdə demək olar ki, önəmli heç nə dəyişilməyib. Həmin ideoloji yön öz təsirini hələ uzun illər sürdürəcək kimidir. Çünki, yeni cəhdlərə, müasir baxışlara olan təpki və aqressiya özünü aşkar şəkildə göstərir. Fəqət, hər şeyə rəğmən zaman öz işini görür, geriyə qayıda bilməyən proseslər gedir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## V FƏSİL

## EŞQ RİSALƏSİ

**“Böyük olma ki, kiçiklərin yanında olacaqsan.**
**Kiçik ol ki, böyüklərin yanında olasan”**
(Cavid Mürtəzaoğlu)
Bunları haradan öyrəndin?
Mərifət kitabından.
Bəs haradadır o kitab?
Heç yerdə...

**“Qüdrət insana müqəddəslik gətirməz, ancaq müqəddəslik insana qüdrət gətirər”**
(Cavid Mürtəzaoğlu)

Oxumaq öyrənməkdir, öyrənmək əməl etməkdir. Fəqət əməl etmək üçün öyrənmək, öyrənmək üçün oxumaq vacib deyil.

Əlimizin altındakı kitab deyil, dəftərdir. Yəni, oxumaq üçün deyil, yazmaq üçündür.

Kitab mürşid deyil. Çünki, irşad sahibi olmağın birinci və sonuncu şərti xidmət etməkdir. Kitaba qulluq isə, mümkün deyil. Kitabı sevmək də olmur. Ona görə ki, sevgi və xidmət anbaan hərəkətdən, inkişafdan və gözəlliyə doğru dəyişməkdən doğur. Bu isə yalnız və yalnız hər günün canlı şəxsində mövcuddur.

Tarix tarxdə qaldı. Haqqin işini yerinə gətirənlər öz işləriylə məşğul deyillər. Haqq isə, Allahdır – yəni, Həyydir, diridir. Dünyanın anlamadığımız sonuna qədər, Allahın rəhməti və



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hüccəti Yer üzündən kəsilməyəcək. Deməli Haqqin işi hər an göz önündədir.

Bu gün də tarixdir. Sabahkılar bizi tarixə çevirəcək. Tarixdəki böyüklər özlərindən öncəkiləri bilirdilər, görürdülər.

Rəhmət və hüccət hər zaman diri olduğu üçün Allah dostlarının da dirilərini axtaraq.

Özü olmayıb Haqq olanlar hər zaman yanımızdadır. Onları bu gün tanıyaq ki, tarixdə gizlənməsinlər.

Ilk nəzərdə şəriətin ictihadına bənzəyir. Fəqət arada bir neçə ayrıntı var.

1. O, şəriətdir, bu, mərifət
2. O, qanundur, bu, eşq
3. O, hamı üçündür, bu, hamı üçün deyil.

Əgər qanunlar və ehkamlar hər şeyi həll etsəydi,...

Əgər müctehidlər və alimlər hər şeyi görsəydilər,..

Əgər bilik və məntiq bütün suallara cavab versəydi... O zaman savaş və barışlara ehtiyac, mübarizə və nəzəriyyələrə yer qalmazdı.

Nəhayət ki, insanın yalnız özünə möhtac olduğunu anlaması onun qurtuluşudur.

Əslində qanunlar eşqdən sonra yaranıb. İdrak məhəbbətin qalıqlarından törəyib. Hər şeyi ağıl və məntiqlə dərk etmək istəyi, ruhi bağlantı qırılandan sonra baş verib.

Şeytan hər şeyi bacarır, təkcə sevə bilmir.

Həyat bir qapıdan girib, o biri qapıdan çıxmaqdır.

Və yaxud da

**“Dünya möminin zindannıdır”**

(Həzrət Əli)



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Kimsən?
Alim idim, arif oldum.
Bir də söylə.
Elmi atdım, eşqi tutdum.
Bir də söylə.
Qaldan çıxdım, hala düşdüm.
**“O şey ki, əlində var, verəsən.**
**O şey ki, başında var, atasan.**
**O şeylər ki, sənə gəlir, onlara məğrurlanmayasan”**
(Əbu Səid Əbu Xeyr)

Sev ki, qurtulasan,.. Başqasını sev ki, özünü sevməyəsən...

Tərki-dünyalıq könüldə olur. Onda belə çıxır ki, sən dünyanı yox, dünya səni tərk edir, sənin içindən çıxıb gedir.

**“Xalq ilə ol, xalqdan olma”**
(Həzrət Əli)

Ehkamlar təməl kimidir, görünmür. Qanunların üzərində eşqin binası ucalır. Binanın gözəlliyini və əzəmətini görən onun təməli haqda düşünmür.

Təqva və zöhd üzərində ucalmayan eşq, təməli qazılmamış bina kimidir – ani bir küləkdən uçur.

Aşiq qəlbdən ibarətdir. Qəlb isə ehkam və qanun tanımır. Onlar qəlbə sığan şeylər deyil . Qəlbin məkanı isə bədən və ruh olduğu üçün onun yeri təmiz və pak olmalıdır.

Aşiqin qayğısı və dərdi onun təqvası və ibadəti ətrafındadır. Dünya eşqi, həyat qayğısı ağıl və məntiq sahiblərinə məxsusdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşq əhli üçün dünya və axirətin fərqi yoxdur. Sevmək zaman və məkan istəməz.

Sevgi azadlığını aşiqin qəlbinə Haqq-Təalanın özü imzalayıb.

Aşiq nə bəndədir, nə də tacir.

O, nə qorxur, nə də istəyir.

Eşqin şiddəti yaddaşda yatır. Kuyi-yarı görənlər, dərgahdan qopanlar aşiqlərdir. Eşq isə hər kəsə nəsib olan deyil. Çünki, hər kəs oradan gəlməyib.

**"Əgər Allah-Təalanın ariflərlə bağladığı əhd olmasaydı..."**

(Həzrət Əli)

***"Divaney-ieşq olmağa hər kim həvəs etsə,***
***Əvvəlcə gərək dərs ala rindanəliyimdən"***

(Əliağa Vahid)

Birinci meyi Adəm içdi.

Onun meyini, onun məstliyini Şeytan öz xeyrinə yamsıladı. Bəşərin günaha girdiyi rəngli meyləri icad etdi. Məstlik məstlikdir, fəqət biri qaranlığa, o biri işığa aparır.

Haqq meyinin əvvəli qaldır, sonu hal. Şeytan meyinin əvvəli haldır, sonu qal.

Hallar görünəndir. Haqq camalının pərtövü halın mənbəyidir. Bunu yaşayan, onu sözə çevirə bilmir. Sözə çevirə bilən isə, o halı yaşaya bilmir.

**"İmam Qəzzalinin yazdıqlarının hər səhifəsi özü ilə Allah arasında hicab oldu"**

(Şəms Təbrizi)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söz qaldır  başqasına hal versə də.

Susmaq haldır  ətrafda qilu qala səbəb olsa da.

Danışmaq sevgilisinin üzünə hicab cəkməkdir. Susmaq öz üzünü hicablamaqdır.

Danışmaq şeydalqıdır, susmaq rüsvalıqdır. Özünü şeyda edən, sevgilisini rüsva edir, özünü rüsva edən sevgilisini qoruyur.

Halın mənbəyi hicrandır.

Yara qovuşmaq vüsala yetmək deyil. Vüsal varlıqdır, qovuşmaqsa yoxluq.

Varlıq donunu geyinənlər əslində yoxdurlar.

Fənafillah isə, əsil varlıqdır.

***Rahi-eşq içrə mənə ancaq fəna məqsud idi,***

***Şükr kim, məqsudə yetdim, intizarım qalmadı***

(Məhəmməd Füzuli)

**Tələb**

**Eşq**

**Mərifət**

**İstiğna**

**Tovhid**

**Heyrət**

**Fəna**

Bunlar da şərtidir. Sevənin qəlbi sevgisinin ölçüsünə bərabərdir.

Haqqın son kitabındakı **"Ələm nəşrəh ləkə sədrək"** ayəsi onun qəlbi kimi kainatın da genişlənməsi anlamına gəlir. Fəqət, burada eşqi təqib edən ariflərin əbədi hicranından bəhs edilir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vəsl günü başlanğıc idi. Yolun ortası hicran, sonu isə nə aşiqə bəlli deyil, nə də məşuqa.

**"Ələm nəşrəh"** Allah böyüyür. Fəqət, bu böyümək onun ehtiyacından yaranmır. Böyümək Onun xasiyyətidir.

Haqq ilə rabitə hicran zənciri olsa da bu da bir vəhdətdir. Hicrandan başqa əlaqə yoxdur. Əbədi hicran gerçək vüsaldır.

Əbədiyyət özü nisbidir. Kainat nə sonludur, nə də sonsuz. Üçüncü bir şey nədirsə, o da bizə məlum deyil. Fəqət bu üçüncünün eşqin içərisində gizləndiyinə əminik.

**Allah xəttatdır.**

**Üç xətt yazdı.**

**Birinci xəttini özü oxuya bildi, başqaları yox.**

**İkinci xəttini həm özü oxudu, həm də başqaları.**

**Üçüncünü isə nə özü oxuya bildi, nə də başqaları,..**

**O üçüncü xətt MƏNƏM!!!**

(Şəms Təbrizi)

Bunlar Yerdəki, görünən ağlın ermədiyi nöqtələrdir. Fəqət insan qəlbi bir neçə kainatdan da geniş olduğu üçün həqiqət sirrləri orada yatır. İnsan öz qəlbinə necə baxsın? Haradadır o qəlb?

**Həqiqət ululuq sirlərinin keyfiyyətlərə sığmayan bir tərzdə açılmasıdır.**

**Həqiqət gerçəyin məlum zühuru ilə yoz olmasıdır.**

**Həqiqət birlik varlıqlarını özünə cəzb etməsidir.**

**Həqiqət əcəl sabahından işaran bir işıqdır ki, birlik varlıqlarının üzərinə düşər.**

(Həzrət Əli)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağıl idraka istinad edir. İdrakın məkanı beyindir. Beyin insanla bərabər yaranır, onunla bərabər torpağa qarışır. Beyin özüylə keçmişdən yaddaş gətirmir. Özündən sonra gələcəyə heç nə buraxmır.

İdrak əməldən uzaqdır. O, dərinləşdikcə gerçəklə arasındakı uçurum da dərinləşir. Buna görə də sadə bir dərvişin qəlbindən əllərinə, dizlərinə, vücuduna axan əməlin varlığı sözə gəlmir və zəka əhlini heyran qoyub, qısqandırır.

Özünü sevən Onu sevməz.

Onu sevən özünü sevməz.

**"Ənəlhəqq" demək, Haqqi deyil, özünü inkar etməkdir"** dedilər və doğru çıxdı.

Zatən insanda Allahdan başqa heç nə yoxdur. Olanlar da Onun müqabilində heç nədir. Bunu anlayanlar iki aləmin xoş-bəxtləridir.

Bu, sıradan bir nəzəriyyə deyil. Təqdirə layiq ayrıca bir fəlsəfə də deyil. Içində və çölündə bir olan, özünə yalan sat-mayan gerçəyi daşıyandır. Eşq zamandan və məkandan asılı olmadığı üçün zaman və məkan içərisində olan hər kəs bu gerçəyi bilir. Bu gerçəyi bulanlar onun ünvanını bilənlərdir.

***Hər gecəni Qədr bil,***
***Hər keçəni Xızr bil.***
(Mir Həmzə Seyyid Nigari)

Yaşadıqlarını paylaşmaq dərdindən qurtulanlar,
Danışanda zikr edib, susanda danışanlar,
Arzuların dərdlərə hamilə olduğunu bilənlər,
Ölümü, məhbusun azadlığı gözlədiyi kimi gözləyənlər,
Görünməyənləri görünənlərdən yaxşı görənlər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ehtiyacı ilə nəfsini ayırd edə bilənlər,

Öz ömrünü yaşamayanlar,

Başqalarının könlünə girməkdən qaçıb, öz könlünü dolduranlar,

Yanlız və yazlnız eşqdən ağlayanlar,

Mənlik libası yırtıq-yırtıq olanlar,

Atası ilə ustadını, anası ilə torpağı dəyişənlər,

Din içində din, Dünya içində Dünya, can içində can bəsləyənlər,

Ölüm süfrəsinə birinci əl uzadanlar,

İbadətdən başqa bütün həvəslərini yox edənlər,

Doğulanda ağlayıb, öləndə gülənlər,

Vüsalı hicran içində gizlədənlər,

Allahdan başqa dostu, nəfsindən başqa düşməni olmayanlar,

Allahdan deyil, Onu itirməkdən qorxanlar,

Nisbi zamanla deyil, mütləq zamanla yaşayanlar,

Özü başda olmaqla hər kəsə qarşı nifrətin və məhəbbətin məsafəsini qoruyanlar,

Dinini də unutsa, ədəbi unutmayanlar,

Rahatlığın Şeytan tələsi olduğunu bilənlər,

Hədəfi yalnız qəlbinin hüzuru olanlar,

Hər kəsi və hər şeyi sevməkdə peyğəmbərlərlə yarışa girənlər,

Həqiqət üçün ayrıca zamana, qəhrəmanlıq üçün ayrıca məkana ehtiyacı olmayanlar,

Mehribanlıq və ədəb sayəsində başını bəlaya soxmayanlar,

Tikanları qırmaqla yox, gül əkməklə məşğul olanlar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özü haqqında mənfi düşüncə yaratsa belə zamansız döyüşlərə girməyənlər,

Öz dəyərini və qürururnu yalnız daşıdığı sirrlər və məhrəm olduğu zatlar xatirinə qoruyanlar,

Gözünü qırpmadan öncə belə Haqqin adını çəkənlər,

Hafiz demişkən, dostlarla mürüvvət edib, düşmənlərlə müdara edənlər,

Gecə-gündüz necə yaşadığını deyil, niyə yaşadığını düşünənlər,

Ətrafdakı bütün pisliklərin özündən qaynaqlandığına inananlar,

Yalnız məcburiyyət qarşısında qalanda məsləhət verənlər,

Yalnız sevməyi öyrədənlər,

Gündəlik ibadətləri düşə biləcəyi ən aşağı mərtəbə olduğunu anlayanlar

Bunlar saya bildiyimiz görünənlərdir ki, tarixin və insanlığın sınağından çıxmışdır.

Şeir:

***Kimə qısqanım səni?***
***Kimdən qoruyum səni?***
***Allah kimi bir şeysən,***
***Sevməyən yox ki, səni...***

Bizim görə bildiyimiz və görə bilmədiyimiz rənglər əslində iki cəhətdən nisbidir. Birincisi, biz onları elə görürük. İkincisi, mütləq bir rəng vardır ki, Dünya örtüyünü dəlib keçəndən sonra parçalanır, rənglərə dönür. Bu, son kitabdakı ***"SİBQƏTULLAH",*** yəni, ***ALLAHIN RƏNGİ-***dir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əslində görünən, duyulan hər şeyin alt, məna qatı daha vacib və daha işləkdir.

Həqiqətlərin, olub-bitənlərin, ümumiyyətlə mövcudiyyətin çox az bir qismi gözlə görünəndir.

***Bir şüanın zərrəsindəndir, fəqət rəng özgədir,***
***Deyrlərdən, məscidi-viranələrdən çıxmışıq.***
(Əliağa Vahid)

Xilqətin səbəbi onun necəliyindən daha vacibdir.

İnsan xilqətdən öncəmidir, sonramıdır?

***Degilsən çoxdan ey gərdun, cahan seyrində yoldaşım,***
***Nola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım.***
(Məhəmmd Füzuli)

Yaratdığını sevən mütləq və mütləq sevdiyini yaratmışdır.

Xilqətin səbəbi eşqdir  bunu ehtimal etməyinə dəyər.

Eşqin də öz məntiqi vardır. Fəqət, o məntiqin istifadə qaydaları ya gizlidir, ya da sözə gəlmir.

Ürfan əməldən sözə keçəndə fəlsəfə olur, yəni miskinləşir.

Yerlər, göylər hicablarla doludur. Aşiqin sevgilisi ilə ən qalın hicabı hər mərhələdə baş tutan ikilikdir. Vücudun vəhdəti aləmlərin vəhdətidir. Külli aləmin mövcudluğu üçün bir insan bəs edər.

Yaşananları yazmaq, yazılanları yaşamaqdan daha asandır. “İkincisi çox zaman mümkün olmur” desək, bəlkə də səhv etmərik. İnşaallah, Qəzzalinin başına gələnlər bizim başımıza gəlməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xalqın şərindən qaçan öz şərinə düşər. Öz şərindən qaçan heç kimin şərinə düşməz.

Diqqət ediləsi cəhət odur ki, külli kainatı insan qəlbinin bir guşəsinə sığdıran Allah onun bədəlini də insandan alır. Yəni, qüdrət qüdrətdir  Haqq yolunda olsun, Şeytan üçün olsun.

Əbədiyyət şərabı Yarın dodaqlarındadır. Yarın nəfəsi Ruhul-Qüdsdür. Bir dəfə dirilən bir daha ölməz. Yar əlindəki Xızr çeşməsi də elə budur. Həqiqətlərin xırdalanıb fəlsəfələrə dönüşməsi üçün əlimizdən gələni edirk. Beləliklə də bizə ikram edilən o badəni yerdən-yerə vururuq.

Möminlər üçün ədalətin zühuru, aşiqlərin üçün məhəbbətin zühurudur. Möminlərlə aşiqləri bir ayara gətirmək istəyənlər ya xamdırlar, ya da riyakar.

Özünü öldürməkdən daha çətin xilas yolu özünü unutmaqdır. Hər ikisindən məqsəd özündən qurtulmaqdır. Ağıllı adamlar cəhənnəm əzabını deyil, mürşidə qulluq etməyi seçər.

***Özündən can xilas eylər, kimi kim, canü canandır.***

(Cavid Mürtəzaoğlu)

Iki cür ziyarət var: zahiri ziyarət və batini ziyarət. Birincisi üçün yol getmək lazımdır. İkincisi üçün də yol getmək lazımdır. Birinci yol çöldə, ikinci yol içdə gedilir. Ikinci də məkan dəyişməkdir. Birinci məkan daş-torpaqdır, ikinci məkan mənəviyyat və əxlaqdır. Hər iki ziyarət uğursuz ola bilər. Yəni, həmin zat sənə ziyarət verməyə bilər. Fəqət, batini ziyarətin uğurlu olma ehtimalı daha böyükdür. Uzaq məkanlardakı qulluq, yəni batini müridlik surətpərəstlik və riyakarlıq təhlükəsindən uzaqdır. Kaş ki, şəriət əhlinin də bir mənəvi Kəbəsi olsaydı  yazıqlar uzun yolları dəf edəndən sonra yenə də gühanlarının yanına gəlib, hər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şeylərini əldən verməsəydilər. Fəqət, "kaş ki" kəlməsi bu dünyada gecikmə, axirətdə isə mənasızlıq deməkdir. İki aləm bir-birinə qətiyyən bənzəmir. Onları birləşdirən yeganə varlıq başda da ortada da axırda da insan oğlu insandır!

Darlıqda genişlik var.

Fəlakətlərdən ucada dayanmaq onları səadətə çevirər.

İnsan Haqq dərgahından qovulduğu üçün Dünyanın hər sabahı dərdlə açılır. Dərdlərdən qaçanlar onlara yaxalanır. Dərdlərin üstünə gedənlər onlara məğlub olur.

Fəqət, dərdlərdən yan keçə bilməyin ən qısa yolu sevdiyin və sənə rahatlıq gətirən şeylərdən imtina etməkdir. Vücudun ağrısı başqa dərdlərə sipərdir.

Dünya xasiyyətini dərd kimi göstərən şey insanın arzuları və nəfsidir. Dünyanın əyrisi heç zaman düzəlməz. Onun xilqətində kamillik yoxdur. Dünyada kamillik arayanlar bu dünyaya uyanlar və nəfsinin köləsi olanlarla eyni peşmançılığa düçar olurlar.

Yaşantının mahiyyəti ona görə eşqdir ki, insan dünyaya gəlirkən, ən böyük hicrana düçar olub. Haqq Vahid olduğu üçün Onun yanında olmaq mümkün deyil. Ya fənafillah var, ya da hicran. Doğuluş fənanı parçalayır. Ayrılıq eşqi doğur.

İslam Peyğəmbəri belə buyurur:

**"Mutu qəbləhən tə mutu!" Ölməmişdən öncə ölün!** Demək, yaşantısında **"ƏNƏLHƏQ"** deyənlər haqlı imişlər. Deməli, bu, mümkündür.

Haqq əhlinin iki bəlası var; Birincisi, xalqdan irəli getməkdir. İkincisi, öz təfəkküründən özünün geri qalmasıdır. İkinci



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bəla gerçək bəladır. Əsl bəla odur ki, ona qalib gəlmək mümkün olsun.

Ariflə məxluq arasındakı qorxulu uçurum dərinləşdikcə, irəli getməkdən başqa yol qalmır. Geriyə dönmək uçuruma düşməkdir. Dayanmaq özündən geri qalmaqdır.

***"Gedirik vaslə gedən qorxulu yolları şirin"***

(Hafiz)

**"Həqiqət ululuq sirrlərinin keyfiyyətlərə sığmayan bir tərzdə açılmasıdır"**

(Həzrət Əli)

Bu sirrlər hər zaman açılır. Fəqət Yerdəki məntiq və bəşəri idrak çərçivələrində olmadığı üçün hər kəsə bu sirrlər açıla bilmir.

Eşqin məntiqi ağıl, ruh, idrak, zəka, qəlb, könül daxil olmaqla insan vücudunun heç bir yerində gizlənmir. Bu məntiqi bulmaq üçün aşiq olmaq gərəkdir. Adından bəllidir aşiqanə məntiq.

Aşiqin məşuqu isə kənardadır, özündə deyil. Özündən qurtulan eşqin məntiqinə yetişər. Varlıq donu tər-təzə olanlar elə bir zirehə bürünmüşlər ki, eşqin oxundan başqa hər şey onu dəlib keçə bilər elm, sərvət, şəhvət, qürur və sairə.

Elə buna görə də Şeytan sevməkdən başqa hər şeyi bacarır.

**"Özünü tanıyan Allahı tanıyar"**

(Həzrət Əli)

Allah gəlmişdi.
Bəs nə oldu?
Yedilər, yatdılar, O da qayıtdı getdi!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zühur və təcəlla hər an və hər yerdə baş verir.

***Xəstə dillərdən ötür gəlsə də İsayi-zəman,***

***Hanı bimar düşən, ya dili-bimar hanı?***

(Mənsur Həllac)

Son Peyğəmbər Allahın hamı ilə (bəli, hamı ilə) paylaşdığı son sözü idi. Onun sözü bitmədi. Fəqət, paylaşdıqları bundan belə hamı deyil.

Peyğəmbərlik aşkardır, övliyalıq gizli. Aşkardan fərqli olaraq, gizlini axtarmaq lazımdır. Onu axtaranlar isə, aşiqlərdən başqası deyil. Bütün peyğəmbərləri ən yaxşı halda fiziki cəhətdən öldürən insanlığın nəyinə lazımdır bir də qalxıb övliyaları axtarsın?!

Maraq başqadır, eşq başqa. Maraq əhli təhlükəlidir. Getdiyi yolu yarımçıq gedər. Qazandığı bir ovuc təfəkkürü ya elmə çevirib özünə şəxsiyyət qazanar, ya da qaytarıb başımıza çırpar. Talibləri sınağa çəkməyin sirri də elə bundadır. Bu sınaqlar ona görə açıq-aşkardır ki, burada qeyrət yarışı gedir. Hədəf sərvət və şöhrət deyil ki, hər yoldan keçən sona qədər davam gətirə bilsin. Böyüklər demişkən, **yüz kişi girər meydana, üçü qalar...**

Sirrlər kitablarda gizləndiyi üçün sirr deyil. Zira, kitaba düşdüsə, bu artıq sirr ola bilməz. Sirr ona görə sirrdir ki, əgər Şeytanın böyük qullarının əlinə düşsə, Haqq-Təala həmin sirrləri mütləq pünhana çəkəcək. Bu da, Haqqin camalına şükürlər olsun ki, bu günə qədər hələ baş verməyib. Buna görə də ariflər çox zaman susmaq üçün danışırlar.

***Tərk edib getdin məni, gəl bir də yarı yadə sal,***

***Sən özün çox çəkmisən təlx intizarı, yadə sal.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Bivəfalıqdan nələr gördün, gəl ondan söhbət aç,***
***Kim sənə öyrətdi qəhri-ruzigarı, yadə sal.***

***Xəncəri-eşqin qılafı aşiq omuş ibtida,***
***Mən səninlə bir niyaməm, Zülfüqarı yadə sal...***

(Cavid Mürtəzaoğlu)

Naqislərin kamillərə vurduğu zərbə, kamillərin Şeytana vurduğu zərbədən ağırdır.

Mərifət sirrləri ona görə gizli qalır ki, onlar həm Haqqın aşiqlərə əmanətidir, həm də məhrəmi naməhrəmdən ayırır.

Rişxənd hədəfi olmaq ariflərin könül qapısını bağlayır. Dərvişlərin vücudu buna görə ağıllı və sıradan görünmür. Qəribə olmağı biz istəmədik, dünya bizdən istədi. Dərdü bəla qapısını sona qədər açmaq sərfəlidir. Ona görə ki, qapının o üzündə fərəh dayanıb.

**“Ləzzət gedər, günahı qalar, əziyyət gedər, ləzzəti qalar”**

(Həzrət Əli)

Təkəbbür qəflədir.

İnsanı qəflətdən uzaq tutan şeylər təvazö və ədəbdir.

Ədəb batində olur, təvazö zahirdə. Ədəbsiz təvazö riyakarlıqdır.

Az danışmaq sərvətdir.

Susmaq ədəbin yarısıdır. Digər yarısı isə dinləməkdir. Dinləmədən susmaq təkəbbürün başlanğıcıdır.

**İnsanı kar edən öz səsi, kor edən öz mənliyi, cahil edən öz elmidir.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər kəslə barışan özüylə də barışar. Özündən küsən hər kəsdən küsər.

**Atalarının yolunda həqiqəti axtaranlar, həqiqətin yolunu deyil, atalarının yolunu gedirlər.**

İnsanın içində eşqi yox, eşqin içində insanı görə bilmək doğrudur. Nifrəti görmək istəyən nifrəti, məhəbbəti görmək istəyən məhəbbəti görəcəkdir.

**Haqqı özündə axtaran, başqalarında batili görəcək. Haqqı başqalarında görən, onu özündə də görəcək.**

Rəhmət və şəfa yağış kimidir. Ümumun içində olmadan ona yetişmək olmaz. Şeytanın ən böyük silahı təklikdir. Təklik mənliyin, mənlik isə təkəbbürün ekiz qardaşıdır.

Fəqət, zahidlə aşiqin cəmiyyəti fərqlidir. Zahid xalqın içində, aşiqsə aşiqlərin içindədir.

Məscid vəhdətdir, meyxanə yoxluq. Həqiqətin yolu mənlikdən vəhdətə, vəhdətdən fənayadır. Fəqət, bu yolda dayanacaq yoxdur. Durmaq donmaqdır. Donmaq isə hədəfin deyil, özünün təsdiqidir. **"Əl ələ, əl Haqqa"** demiş ərənlər. Yolun davamı hər an özündən keçməlidir. Haqqın təcəllasını gəzdirənlər bu təcəllanı başqalarında görürlər. Mürid üçün mürşid var. Mürşid isə, özü müriddir. Silsilə, təkəbbürün varlığını yox edib, Şeytanın üzünə eşqin qapısını həmişəlik bağlayıb.

***Mən səni Allah sandım,***
***Sən başqasını...***
***Başqası özgəsini,***
***Özgəsi məni...***
***Aləmə bax?!*** (Cavid Mürtəzaoğlu)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqin çarəsi yoxdur  nə Dünyada, nə də axirətdə.

Aləmlərin Mövlası öz sifətlərini yaratdıqlarında gizlədib. Onun sifətləri cövhərdir. Sifətlərinin təcəllası isə ərəzdir. Cövhərin ərəzdən fərqi Xaliqlə məxluqun fərqi qədərdir. Cövhər külldür, ərəz cüzv. Cüzvlə küllün fərqi isə, onların keyfiyyətində yox, sığındıqları məkandadır. Cövhərin tərkibi vahiddir, parçalanmır. Ərəzin tərkibi isə kəsrətdir, yəni çoxluq. Tərkibi kəsrət olan parçalanır, dəyişir, ölmür, ancaq əmanət verilir.

İnsan vücudunda bulunan yeganə cövhər Eşqdir ki, Haqqla insanın ayrılığını inkar edir. Eşqi parçalamaq mümkün deyil. Ərəzdən qurtulmaq hər kəsə müyəssər olmadığı üçün aşiqlər zümrəsi hər kəsdən ayrılır.

Dünya ərəzin məkanı olduğu üçün aşiqlər burada qəribdir.

Cahillərin sayi çoxalmır, cəhaləti artır. Aşiqi hamı görür. Cahili isə ariflər görür. Eşqin şiddəti artdıqca ərtafdakı qəflət və cəhalətin də basqısı artır.

**“Cahillər çoxalanda ariflər qərib olar”.**

(Həzrət Əli)

**“Bütpərəstlik xudpərəstlikdən yaxşıdır”**

(Cavud Mürtəzaoğlu)

**Surət həqiqətin təcəllası olanda bütə çevrilir. Fəqət büt özü surətə çevriləndə həqiqət ortadan gedir.**

Surətlər könüllərə həkk olunarsa, gözlə görünmələrinə ehtiyac yoxdur. Yox, əgər könüllərdə deyillərsə, o zaman görünmələrinə heç ehtiyac yoxdur.

Təcəlla zatı əvəz edə bilməz, amma təmsil edə bilər. Nurun özünü görməsək də onun kimin üzərinə düşdüyünü görmək aşiqlərə xasdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başında göz gəzdirənlər üçün Allah yoxdur. Əgər olsaydı, qurtulardılar. Necə ki, Dünya üzərindəki güclüləri və gözəlləri başlarındakı gözlə görməklə öz əməl və hisslərini nizama salırlar.

Allahı görən göz könüldədir.

***Məni görə bilməz hər başı gözlü,***
***Könül gözündə binalar gərəkdir.***

(Şah Xətai)

Bəsirət gözü hikmətləri görür, könül gözü eşqi. Hikmət əhli də Dünyadan qopub, eşq əhli də. Hikmət əhlini yerin cazibəsi çəkir, eşq əhlini göyün. Hikmət elmdir, eşq ürfan. Sədi həkimdir (alimdir), Hafiz arif. Elm idraka bağlıdır, ürfan könülə. İdrakdan əmələ yol bağlıdır. Könül isə əməldir. Buna görə də idrak yalandır, ürfan gerçək.

Elm nəfsi tərbiyə etmir. Eşq isə nəfsi idarə edir. Alimin özünə belə gücü çatmırsa, deməli elm ancaq Allaha bağlıdır. İnsana məxsus olanlar isə elm deyil, bilikdir. Elmdə fərdiyyət var. Fərdiyyət isə Allahın sifətidir. Eşqdə isə könül var. O da aşiqə deyil, məşuqa bağlandığı üçün aşiqin könlü də yoxdur. Fərdi qüruru olanlar yalnız özlərindən mədəd umanlardır. Eşq əhli isə özündən ibarət olmadığı üçün qurtuluş yolundadır.

Eşqin mənbəyi gözəllik deyil. Gözəlliyin mənbəyi eşqdir. Aşiqin sevgisi aşikar, məşuqun sevgisi gizlidir.

Eşqin mərtəbələri və məkanı yoxdur. İnsan sevgisi və Allah sevgisi deyilən ayrıntı çürük əfsanədir. Sevməyi bacarmayan nə insanı nə də Allahı sevə bilər. Sevən sevir, sevməyən sevmir.

**"İnsan Allah ola bilməz, Allah insan ola bilər"**

(Cavid Mürtəzaoğlu)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsanı Allahdan ayrı görən nə insanı görür, nə Allahı.

**"İnnəllahə xələqə Adəmə əla surəti" Allah insanı (Adəmi) öz surətində yaratdı.**

(Hədisi-şərif)

Gördüklərinə inanan görmədiklərinə inanmaz. İnam şərtdir, sevgi qaçılmazlıq. İnanmamaq olar, sevməmək olmaz. **Küfrün tövbəsi imandır, eşqin tövbəsi küfr.**

***Küfr zülfün salalı rəxnələr imanımıza,***
***Kafər ağlar bizim əhvali-pərişanımıza.***

(M. Füzuli)

Zülf zikrdir, kakil namaz. Kakil surətin önündə durmur. Aşiqə surət təsdiqdir, eşq deyil. Zülf isə surəti örtür. Qapalı surət aşiqin güzərgahıdır. Namaz vüsaldır, zikr hicran. Vüsal əvvəl gəlir, hicran sonra. Mömin aşiq olmaya bilər, öz əlindədir. Aşiqsə mömin ola bilməz öz əlində deyil.

Cənnət uçmağın sonudur. Eşq isə cənnətdən sonra başlayır.

Möminlərin cənnəti, kafirlərin cəhənnəmi, aşiqlərin isə məşuqu var. Məşuq la məkandır. Aşiq isə sonunda məşuqa qovuşduğu üçün, deməli aşiq yoxdur. Varlıq donunu bu dünyada ikən parçalayıb, yox etmək həmin əbədiyyət meyidir ki, əvvəli varlıqdır, sonu yoxluq.

Təfəkkürdə və sözdə irəli gedən əməldə geri qalar. Ağılla könül bir yerdə çalışmır. Amma könüllə əməl hər zaman bir yerdədirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Haqq insanı əvvəl sevib, sonra yaratdığı üçün insanda əvvəl eşq yaranır, sonra iman. İnanıb sevənlər çoxdur. Amma sevib sonra inananlar isə azdır.

**Eşq düşüncəni qoruyur. Düşüncə eşqi öldürür.** Düşüncənin təsdiqi elmdədir, eşqin təsdiqi əməldə. Kamil insan ağlı ilə eşqini birləşdirən deyil, ağlını eşqində əridəndir. Ağıllı adamın özünü sevərlər, eşqli adamın Allahını. Çünki, ağıl hər kəsi özünə dəvət edir, eşq isə Allaha. **"Mən ona görə heç nə yazmıram ki, Mövlananı oxuyan Mövlananı sevir. Məni oxuyan Allahı sevir. Yazdıqlarım isə üzümdədir. Onları oxuya bilən Mövlana oldu"**

(Şəms Təbrizi)

## ŞƏRİƏT

**"Hər başlanan şey bitər, hər gözlənilən şey gəlib çatar"**

(Həzrət Əli)

Xoşbəxtlər yalnız mücadilə verənlərdir.

İnsanın ehtiyacları, arzu və istəkləri onun imtahanı üçün yaradılmışdır.

Mövcudiyyətin davamı maneələri aşmaqla gerçəkləşir.

Heyvanlar yalnız yaşam savaşı verirlər. Onların nəfsi ehtiyacları qədərdir.

Mələklərdən fərqli olaraq, heyvanların günahsızlığı Allaha yaxın olduqları üçün deyil, insandan uzaq olduqları üçündür yəni, bütün gözəllik və üstünlüklərlə bərabər insan həm də ehtiyacını aşan nəfsin daşıyıcısıdır.

İnsan həm də heyvani-natiqdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Heyvan acından ölə bilər. İnsan isə öz xilqətinə yad olan bütün imkanlara əl atıb yaşamaq məcburiyyətindədir.

Onun xilqəti ona müxtəliflik verib. O, dayandığı nöqtədən bütün altı istiqamətə doğru hərəkət edə bilər və bunu edir. Bu, onun böyümək və kiçilkmək imkanının olduğunu xatırladır.

Heyvanlar ucalmır və alçalmır (əgər bu baş verirsə, burada insan əli var – eyni cinsdən olan bir heyvan küçədə ölür, digəri bir sərvət bahasına satışa çıxarılır).

Mələklər isə yalnız Allaha tərəf ucalmaqla məşğuldurlar (buna "yaxınlaşmaq" desək, daha doğru olar).

İnsan isə ona verilən faili-muxtarlığın gücüylə həm ucala bilir, həm alçala bilir. Bu, həm mələklərin ona səcdə etdiyi insandır, həm də Şeytanın məkrini gerçəyə çevirib, Allahın ən böyük düşməninə çevrilən insandır.

"Hər şey insan üçündür" demək, insana qürurla bərabər, ağırlıq və məsuliyyət də gətirir.

İnsan üçün ən gizli olan şeylər onun gözləri önündə olanlardır.

İlahi rəhmət və bərəkət artdıqca insanın nankorluğu da artır. Nankorluq əslində korluqdur. Günahkarlıq əslində ən böyük nadanlıqdır.

**Yer üzünün ən əbləh adamı Allahın (əgər onun üçün Allah gerçəkdirsə) haram saydığı şeyləri halal və mümkün hesab edənlərdir.**

Nəyin mümkün, nəyin namümkün olduğunu təyin etmək üçün bəlkə də insanlıq tarixinə nə peyğəmbərlər, nə də səmavi kitablar gərək deyildi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahın Haqq zərrəsi hər kəsdə doğuluşdan bulunduğu üçün körpə uşaq da səhv edəndə şüuraltı hisslərlə utanır.

İlahi tərbiyənin iki əsas səbəbi vardır – biri imanlı insanları tənha qoymamaq üçün, digəri isə imansızların bəhanəsini kəsmək üçün  yəni Həqiqət ortaya çıxanda “bizə yol göstərən yox idi” deməsinlər deyə.

Həqiqət isə görən gözlər üçün hər zaman ortadadır.

Mütləq həqiqəti nisbi yapanlar öz tənhalıqlarına təskinlik vermək üçün öz “həqiqətləri”ni yaradanlardır.

Vacib olanlar mümkün olanlardır. Qanunlar isə mümkün olanlara hesablanıb.

İlahi qanunlarla bəşəri qanunlar arasında uçurum onda yaranır ki, bəşəri qanunlar Haqdan və könüldən deyil, məkrdən və nəfsdən doğur.

Ağlın və nəfsin insanı tərk etməyəcəyi labüddür. Adi, Yer məntiqi isə, bunu göstərir ki, bu insanın yaradacağı hər hansı qanun fəlakətlərə səbəb olacaq dərəcədə qüsurludur. Əgər nəzərə alsaq ki, ümumiyyətlə ehkam və qanunlar qüsursuz deyil – bunlar İlahi kitablara əsaslansalar belə, onda məsələlərə nisbi baxmağa məcbur oluruq.

Fəqət səmavi kitablar qanun yazmır. İlahi hökmlər isə iman əhlinə yardımdan, küfr əhlinə isə tövsiyədən başqa bir şey deyil.

Tarix boyu səmavi kitablara əsaslanan qanunların müəllifi insandır. Bu qanunlar qondarma ideologiya və uydurma cəmiyyətlərdən fərqli olaraq, daha məntiqli və insana yaxın olsa da nəticədə insan iradəsinin məhsulu olduğu üçün dini dövlətlə “demokratik” cəmiyyətin bəlaları sonunda bərabər keyfiyyətlərə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

malik olur. Çünki ikisi də insani təşəbbüs və bəşəri müdaxilənın bəhrələridir.

Qədim dövrün kahinləri müasir dövrün siyasi ideoloqlarıdır. Hər ikisi İlahi müdaxilənin qarşısını almağa çalışır və insan zəifliyinin köməyi ilə bunları gerçəkləşdirir.

"Şeytan hardadır" deyənlər, üzündə nur qalmamış, təkəbbürdən ağlını itirmiş, ölümdən başqa hər şeyi görən, maddi sərvət hərisliyinə mənəvi-fəlsəfi don geydirmiş, həyatında hüzur və könül rahatlığına bir zərrə yer qoymamış insanlara tərəf baxsın! Şeytan əhdinə vəfa qıldı. Fəqət şərtinə də sadiq qaldı. Şərt isə beləydi: mən Sənə sadiq olanlardan başqa hər kəsi Sənin yolundan azdıracağam.

İlahi sədaqət xilqətdən gəlir. İnsan dünyaya pak gəlsə də gələcəkdə onun Allah dostu, yoxsa nəfsinin köləsi olacağı onun taleyinə çox bağlıdır. Bunun sirrini isə, sıradan qanunlara söykənən məntiqlə açmaq mümkün deyil. Cəbr və ixtiyar məsələsi bütün dünyada, tarix boyu alimləri məşğul etmiş, fəqət eyni zamanda məyus etmişdir.

Buradan belə nəticə çıxır ki, çoxsaylı sualların cavabı ya elmdən kənardadır, ya da elm o elm deyil. Hər iki halda cəbr və ixtiyar, yəni insanın yaşadıqlarının öz taleyi, yoxsa öz iradəsi olduğu məsələsi açıq qalır. İnsan faili-muxtardır, eyni zamanda İlahi nizamın bir parçasıdır. İnsan nə iş görsə də sonunda kainatın nizamına xidmət edir. Bəs onda haram və halallar, günah və qadağalar nə üçündür?

Nəfsin yeri insan vücududur. Onun ehtiyacı vücudun ehtiyacıdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İdrakın varlığı onun vacibliyini təsdiq edir. Ruh haqqında bilgi nə qədər az olsa da onun varlığıyla qurulan rabitə insanı ən çox məşğul edən şeydir.

Yaradılan heç bir şey səbəbsiz və gərəksiz olmadığı halda onların hansına yaxın olub, hansından uzaq olmağın həqiqəti yenə də İlahi təqdirdir. Hər şey insan üçündür – fəqət bəziləri xeyri üçündür, bəzilər ziyanı üçün. Xeyirə yaxınlaşıb, ziyandan uzaqlaşmağın ən birinci yolu xeyirli və ziyanlı şeylərin valığını qəbul etməkdir. Torpaqdan qalxan, yer üstündə gəzən, beyinlərdə və gözlərdə dolaşan saysız məxluqat var ki, insanın onlarla məcburi əlaqəsi qanun və ehkamlar olmadan tənzim edilə bilməz.

Ehkam və qanun şərtdir  fəqət buna mütləq ehtiyacı olanlar üçün. Hər mərtəbədə ehtiyac insanla bərabərdir. Bu gün qanuna, qorxuya ehtiyacı olan, sabah eşqə və azadlığa ehtiyac duyur.

**"Müctehidə təqlid edən kafərdir"** deyən Şəms Təbriziyə möminin yox, arifin ehtiyacı var. Yetər ki, bütün varlıq İlahi vəhdətə doğru getsin.

**Rübai**

***Hafiz deyir, aşiq ola hər dərdə düçar,***
***Alnındakı müşkülləri möhr ilə açar.***
***Leykən, ürəyim bağlı qalan saətdə,***
***Hafiz qəzəli oldu mənə altun aşar.***

Şəriət nədən vardır? Bunu bilmək maraqlıdır.

Bədənin ehtiyaclarının paralelində qeyri-bədənin də ehtiyacları mövcuddur. Buna ibadət deyilir. İbadət öz yanında təqva, ədəb, pəhriz, elm və digər nəsnələr gətirir. Bu nəsnələr ictimailəşib müəyyən sistem və ehkam halına keçəndə buna şəriət deyilir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əslində dinin özü ibadət və təqvanın ətrafında dolanan əfkari-ümumiyyədir desək, səhv etmərik. İbadət Allahla davamlı rabitədir. Bu rabitəyə səylə varmaq və onu boş yerə, boş zamana çevirməmək üçün hərtərəfli bilgilər və əxlaqi ünsürlər gərəkməkdədir.

İnsan varlığı özündə çox geniş aləmləri ehtiva etdiyi üçün din və şəriət onun əxlaqı və məişəti çərçivəsindən çıxır. Həmin insan öz ruhi və bədəni mövcuiyyəti ilə ictimai hadisəyə çevrilir. Bu, onun ailəsində, yaxınlarında və ətrafında önəmli iz buraxır. Əgər bu keyfiyyətin bir və ya bir neçə insanı deyil, geniş insan toplumunu əhatə etdiyini düşünsək, o zaman şəriətin mövcudluğunu ciddi anlamda qəbul etmək gərəkdir. Mövcudluq isə inkara gəlməz bir şeydir. Mövcud olanı ya qəbul edirlər, ya da məhv edirlər.

Şəriət dinin əsasında təşkil tapan qanunlar məcmusudur. Əgər bu qanunlar əsrlər boyu yaşayaraq, öz gücünü itirmir və modernləşərək, özünə yeni həyat qazanırsa, buradakı dini faktoru, dolayısı ilə İlahi müdaxiləni unutmamaq ağıllı adamların işidir.

Hər zamanın öz şəriəti onun təmsil edən dinin gerçəkliyinə bağlıdır. Şəriətsiz din ölü dindir.

Bəzi dinlər isə uydurma və insan kamalının bəhrəsi olduğu üçün onların şəriəti də uydurmadır. Hər hansı bir əqidəni və yaxud dini cərəyanı zorla yaşatmaq olar, amma qəlblərə yeritmək olmaz. Çünki, beyindən, ağıldan, idrakdan, məntiqdən fərqli olaraq, qəlblərə girən hər şey lillahdır, yəni Allahdan gəlir. O düşüncənin birbaşa Allahın sözü olması şərt deyil. Haqq üçün çırpınan, ustadı mələklər olan hər hansı bir insan övladının da hər hansı bir təlimi lillahdır. Bəs Haqqı batildən necə ayırmalı?



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Hər hansı bir əfkar və düşüncənin Haqq yoxsa batil olduğunu anlamağın ən asan yolu onun silsiləyə bağlı olub-olmadığını bilməkdir. Silsilə zaman içində qırılmayıbsa və yaxud özünü davam etdirən başqa bir təlimə, başqa bir ada və şəklə təbdil olubsa, deməli o, Haqqdır. Çünki zaman hər şeyi saf-çürük edir. Zamanın  sahibi və onu nəzarətdə saxlayan yalnız Allahdır! Allahın istədiyi əqidə və əfkar zamanları aşan, ustadının və şagirdinin arasında mövcud olan nəsnədir.

Sevilmək üçün sevmək, dərk olunmaq üçün dərk etmək, qəbul olunmaq üçün qəbul etmək şərtdir.

Özündən və ətrafdan qaynaqlanan qeyri-İlahi hər şeyi ən az zərərlə dəf etməyin yeganə yolu ehkam halına keçmiş ibadət və təqvadır.

Şəriət ehkamları ilə qane olmayan könüllər zamanını Şeytanı dəf etməyə deyil, Allahı qazanmağa sərf edir. Tərs mütənasiblik isə ondadır ki, Allahı qazannmaq üçün də Şeytanı dəf etmək lazımdır. Deməli mənəvi, əqli və ruhi mərtəbələrdən asılı olmayaraq, şəriətin təməl ehkamları  namaz, oruc, təqva, zöhd vacib əməllərdir.

Bu mənada şəriət ürfan şəhərinin hasarıdır. Qapısı isə təriqətdir. Qapıdan dostlar girər, hasardan düşmənlər...

***Allahın şəhri Nəbidir, qapısı Şahi-Vəli,***
***Deşik axtarma, bu şəhrin belə dərvazəsi var.***
(Şəhriyar)

Haramlardan qaçmaq təqvanın əsasıdır. Təqva isə ibadətin bel sütunudur. İbadətsə dinin diriliyidir. İbadətsiz insanın dini əfsanədir. Yanında ibadət olmayan elmi məşğuliyyət nəticədə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dəlilikdir. Əqli yorğunluğu və durğunluğu isə istirahət deyil, ibadət dəf edər. Çünki elm insana təfəkkür gətirir, ibadət isə onu yox edir. Hər hansı bir elmin isə yalnız Allaha məxsus olduğunu isə imanlı alimlər bilər.

İmansız alimləri elm xilas etməyəcək, amma elmsiz möminləri iman xilas edəcək.

**"İnsanın insandan üstünlüyü yalnız təqvadadır"**

(Həzrət Əli)

Bir tərəfdən ibadətin şirinliyi, bir tərəfdən də günahların çoxluğu əksər möminlərin şəriətlə kifayətlənməsinə səbəb olmuşdur.

Təriqət, Mərifət, Həqiqətdən fərqli olaraq, Şəriət toplumun malıdır. Toplum üçün şəriəti əvəz edə biləcək ikinci bir şey yox-dur. Şəriət din evinin çöl qapısı, digər üçü isə iç qapılarıdır.

Şəriət varlıqdır, Təriqət yoxluq. Mərifət varlıqdır, Həqiqət yoxluq. Şəriət dinin, Təriqət isə Şəriətin bəhrəsidir.

Şəriət yaz fəslidir, insan könlündəki Haqq gülüstanının güllər açan məqamıdır. Küfrün yoxluğundan imanın varlığına açılan qapıdır. Haqqa sarı açılan yolun əvvəli də şəriətdir, ortası da şəriətdir. Sonu isə,.. Bu yolun sonu yoxdur.

Qalan mərtəbələr insan könlündə ucaldıqca, onun binası şəriət üzərində daha da möhkəm qurulur. Təriqət əhli olmaq şəriətdən qaçmaq deyil, şəriəti yanında aparmaqdır. **Dərin zəkadan, tərbilyəli nəfsdən dəm vuranların sadə bir ibadətə gücü yetmirsə, o zaman bu yolun sonunda Şeytan dayanıb.** İnsanı təkcə ibadətdən ayırmaq Şeytana bəs edir. Daha onun başqa mücadilə verməsinə ehtiyacı qalmır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qanunlar və ehkamlar Şeytanı dəf edə bilirsə, həmin andan eşqin dövranı başlayır. Eşq olan yerdə Şeytan mövcud deyil.

İbadət bədəndən və ruhdan verilən zəkatdır.

Niyyətsiz ibadət quru hərəkətdir.

İbadətsiz oruc pəhrizdir.

Təqvasız ibadət yoxdur, ibadətsiz din yoxdur, dinsiz heç nə yoxdur.

Şəriət açılmayan sirrlərin tərcümanıdır.

**"Allah-Təala Meracda mənimlə doxsan min kəlmə paylaşdı və buyurdu: Bunların otuz minini xalqa aç söylə. Otuz minini yalnız ariflərlə paylaş. Qalan otuz minini heç kimə açma"** (Hədisi-şərif)

Şəriət susmaq üçün danışmağa bənzəyir. Danışan isə Haqq özü olduğu üçün xalqa şəriət də bəs edir.

**"Qurani-Kərimin yeddi, gahən də yetmiş qatı vardır"**

(İmam Cəfəri-Sadiq)

Şəriətin alimləri, şəhidləri insanlığın kamalı üçün yetərlidir. Bəşəriyyət İslamın sadəcə şəriət qatındakı böyüklərini həzm etməyə başlasa, qiyamət saatına qədərki vaxt ona kifayət etməz. Aşiqlərin və ariflərin dərki isə Dünya və axirət tanımayan könüllərin işidir. Könüllərin sultanı aləmlərin Rəbbidir. Həmd olsun o Allaha ki, hər kəsin könlünə bəs edir!

**"İrəli getməyin meyvəsi peşmançılıqdır, ehtiyat etməyin meyvəsi salamatlıq"**

(Həzrət Əli)

Xilas xalislikdəndir. Xalislik ixlasdır. İxlas könüldə baş verir. Könüldə tam olmayan ixlas əməldə naqislik törədir. Düşüncə ilə əməlin vəhdətinin yeganə yolu ixlasdır.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

İmanın sirri ixlasda gizlənmişdir. İnsanlığın sirri isə, imanda. İxlaslı olmayanın imanı, imanı olmayann insanlığı naqisdir.

Şəriət alimlərin və fəqihlərin bəhs edəcəyi mövzudur.

Könül işi elm və məqam istəməz. Könülün sərmayəsi ixlasdır. Əməllərin və ibadətlərin zahiri kamilliyi könülə təsir etməz. Amma könüldəki ixlas ibadət və əməlləri kamilləşdirər.

Əslində həqiqi mömin də aşiqdir.

***“Məhəbbətdən keçən Haqdan da keçər”***

(Şah Xətai)

Könüldən düşən ixlas zahidlikdir. Aşkara çıxan zahidlik riyakarlığın başlanğıcıdır. Riyakar zahidlik imanın təməlini sarsıtsa da zahiri şəklini qoruyur. Batin zəiflədikcə zahir qüvvətlənir. Buna görə də ariflərin dilindəki “zöhdü riya” kəlməsi yanyana işlənir.

Sirrlər eşqin içində yatır. Aşiqlərin eşqi qüvvətləndikcə, onlar arifə, zəiflədikcə isə, möminə çevrilir. Sirrlərin açılması qorxunu yox etdiyi üçün imanda qorxu var. Qorxu mənfəətə çevrildikcə, zahidlik də riyakarlığa çevrilir. Mənfəətini güdən riyakarlar imanını güdən zahidlərə bənzəyərək, dinə və dindarlara rəhbərlik etmişlər. İslam Peyğəmbərinin bütün nəslini İslam və iman adıyla qətlə yetirənlər əslində aşiqlərə və ixlas sahiblərinə savaş açmışlar. Çünki bu savaşın əsl mahiyyətində eşqi aldadan iman, imanı aldadan mənfəət var.

**Dünyəvi mərtəbələrə ucalmaq mənəvi mərtəbələrdən enməyə bərabərdir.**

Dindən ayrı, hətta “Allahsız” rejimlərdə belə dövlətin və hakimiyyətin xidmətində dayanan ruhanilərin din adına



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

topladıqları sərvət qalınlaşdıqca, altda qalan din get-gedə görünməz olur, həqiqi məkanı könüllər olan imanın səsi eşidilməz olur.

Təkallahlığın təbliği üçün zülmdən qaçıb, dünyalarından imtina edən Əshabi-Kəhf 309 illik yuxudan ayıldıqdan sonra həsrətində olduqları dinin indi də zülmün başında dayandığının şahidi olub, bu dəfə qiyamətə qədər yuxuya getdilər.

İmanın bədəni şəriətdir, ruhu isə ürfan. Şəriətsiz ürfanın sonunda təhlükə, ürfansız şəriətin sonunda isə riyakarlıq dayanır.

İmanla eşqin fərqi zahidlə aşiqin fərqindən törəyib. Eşqini qəlbindən dilinə gətirən insan oğludur.

***Eşqdən xəlvət gələr, xəlvətdən eşq,***
***Oldu peyda çün əzəl xilqətdən eşq.***
(Cavid Mürtəzaoğlu)

Xəlvət məhrəmlik ehtiyacından doğur. Naməhrəmin olmadığı zamanlar xəlvət yox idi.

Sirrlərin aşkara çıxacağı gün bəlli deyil. Aşkarların sirrə çevrildiyi gün isə çoxdan bəllidir.

Eşqdən gələn yolun eşqə gedəcəyi məlumdur. Bunu Haqqın son kitabı da buyurur: **“İnna lillahi və inna ileyhi raciun” – Hamınız Allahdansınız və dönüşünüz də Onadır.**

Qurani-Kərimin şəriət təfsirləri Quranı şəriət qəlibinə salır. Anlamadıqları ayələri izah etmək üçün isə hədislərə və xəbərlərə istinad etmişlər. Əxbar və hədislər isə əksər halda səhih və elmi olmadığı üçün həqiqətdən uzaqdırlar.

Allah və Onun kitabını sona qədər dərk etməyin mümkünsüzlüyünü iddia edənlər nədən öz hökmlərində bu qədər israrlıdırlar?!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**“La ikrahə fiddin” Dində məcburiyyət yoxdur.** Bunu da Allah buyurur.

Din böyüklərinin israrı, imanın deyil, hakimiyyət və mənfəətin keşiyində dayanmışdır. Kərbəladakı qatillərlə Hələbdəki qatillərin fərqi çox azdır.

***Şadəm ki, İlahi, tökülür qanı Hüseynin,***
***Çün razı qalır eşqdə cananı Hüseynin.***
(S.Ə.Şirvani)

Əgər Kərbəla şəhidlərinin bilgiləri yalnızca ehkam və şəriətdən ibarət idisə, o zaman bu əllamələrin niyə birinin qanı axmır?

**Hüseynin sinəsini yaran qılıncların hədəfi onun könlündəki sirrləri ortaya çıxarmaq idi!** Onlar bunu bacardılar! Tarixə elə bir qan axıtdılar ki, bu qan eşq ilə riyanın arasında əbədi səddə çevrildi. Eşqdən axan bütün qan çaylarının mənbəyi bu qandır. **“Sarullah”** – yəni **“Allahın qanı”** kəlməsi aşkardır və şəriət əhlinin leksikonundadır.

***Hər kəs ki, Hüseyntək olmaz aşiq,***
***Zövqi-ələmü səfanı bilməz,***
***Nuş eyləməyən meyi-bəlanı,***
***Keyfiyyəti-Kərbəlanı bilməz.***
(S.Ə. Şirvani)

Qanunlar qanunsuzluqlar üçündür. Qanuna ehtiyac eşqin yoxluğundan doğulub. Eşq əhlinin qanuni-şəriətə ona görə ehtiyacı olmayıb ki, eşq olan yerdə qanunsuzluq yoxdur.

***Eşq olan yerdə səvabü cürm bir əfsanədir,***
***Yoxdur onda nə cəhənnəmdən nə cənnətdən əsər.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cənnət müjdəsi və cəhənnəm qorxusunun içində şərt və məcburiyyət var. Cənnət nemətlərini dünya nemətləri kimi düşünənlər nə üçün nağdı buraxıb niysənin dalınca gedirlər?

Həqiqi cənnət neməti və onun mahiyyəti Haqq camalı olduğu üçün bu məqama nə dünya gərəkdir, nə də axirət.

Şəriət əhli üçün Allahın yaratdıqları və Onun təcəllası yoxdur. Onlar təcəllanı bəzən namümkün, hətta küfr hesab edirlər. Həqiqi və cürətli təcəlla isə, yalnız eşqin kitabındadır.

Şəriət əhli Allahın 99 Əsmaül-Hüsnasını az hesab edirlər və bu məsələdə yerdən göyə qədər haqlıdırlar.

Eşq əhlinə isə bir kəlmə **"HU"** bəs edir.

Elm qal mənbəyidir, eşq hal. Qal idrakda, hal könüldədir.

Ağıl kəsrət olduğu üçün həqiqət haqqındakı biliklər parçalanır.

Həqiqət vəhdətdədir, vəhdət könüldə.

**"Allahın zatı haqqında düşünən zindiq olar"**

(Həzrət Əli)

Düşüncə ağıla sığan şeylər üçündür. Ağıl isə məhduddur və sərhədləri bəllidir.

Eşq isə könülə sığan şeylər üçündür. Könül isə sonsuz və sərhədsizdir.

Könlünə etimad edənin ağıla və məntiqə ehyiyacı yoxdur.

Arif bir tək özünə hökm edə bilməyi böyük qələbə hesab edir. Zahid isə yüz minlər üzərindəki nüfuzunu yetərsiz bilir. Çünki öz könlündən xəbərsizdir. Hökm etdiyi milyonlar isə ona inanmır. İnam ağılda yox, könüldə olur. Zahid isə könlündən deyil, ağlından çıxış edir. Belə olmasaydı, ürfanla şəriət arasındakı uçurum bu qədər dərinləşməzdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Peyğəmbərləri tir-tir titrədən ayələr nədən bu cılızların tükünü də tərpətmir?**

Əməl sahiblərinin bütün naqisliklərinə rəğmən İslamın ibadət və şərtləri özünün ilk günlərdəki qüdsiyyətini və toxunulmazlığını qoruyur.

Sübh azanı açılan sabah kimidir. İnsanlar milyon illərdir ki, eyni sabahı görsələr də hər gecə eyni həsrəti çəkirlər – sabah açılsın deyə.

Gündə beş dəfə qılınan namaz hər dəfə təzədir – sanki daha öncə qılınmamış kimi.

İbadətlərin vaxtı günün vaxtı kimi qaçılmazdır.

Mömin qəlblər üçün axşam azanı oxunmayınca günəş batmır.

Varlıqların ömrü onların xilqətinə bağlıdır. Yaradılış kimdəndirsə, xaliq kimdirsə, ömür qazanan varlığın gücü və təsiri də yaradanı qədər olur.

İbadətlər Allah iradəsi olduğu üçün ona gedən Allaha gedir, ondan qaçan Allahdan qaçır.

İmandan ixlasa, ixlasdan ürfana, ürfandan həqiqətə qədər ucalmış bir ariflə avam bir möminin ibadətində zahirən heç bir fərq yoxdur.

Haqq-Təala ibadətin üstündə dilin və əzaların deyil, qəlbin və idrakın təbəddülatına və irşadına imkan yaradıb.

Maraqlıdır, görəsən gündə on yeddi dəfə deyilən **"ehdinas-siratəl-müstəqim"** ayəsinin sirri nədədir? Üzü qibləyə, hər şeydən arınmış bir halda, dolayısı ilə "düz yolda" olan abid nədən gündə on yeddi dəfə (ən azı) **"bizi düz yola yönəlt"** deyir?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə çıxır ki, “düz yol” hələ bu deyil?

İslamın şəriət çərçivəsindəki bilgilər toplusu yetərlidirmi?

Peyğəmbər sünnətini yeganə xilas yolu hesab edənlər nədən onun çəkdiyi əzablara, keçirdiyi möhtəşəm hallara, inanılmaz yoxsulluğa, dünyadan imtinasına, könlündəki istiğna və vəhdətə şərik çıxmaq istəmirlər? Nədən yalnız özlərinin çəkə bildikləri, özlərinə sərf edən şeylərlə yüklənirlər? Axı onun zahiri görkəmini yamsılamaq onun əxlaqına sahib olmaq deyil!

Şəriəti əhli-şəriətdən ayıra bilməyənlər özlərini haqlı bilə-bilə möhtəşəm bir küfrə getmişlər.

İncə ruhlu insanlar isə, cameəyə qarışmamış, gizlin ibadətlərinə şövqlə davam etmişlər.

İbadətin məxfiliyi onun qəbul dərəcəsini yüksəldir. Gizli ibadət riyadan uzaqdır.

***Canı kim cananı üçün sevsə, cananın sevər,***
***Canı üçün kim ki, cananın sevər, canın sevər.***
(M.Füzuli)

İbadətdən fərqli olaraq, təqvada riyakarlıq mümkün deyil. Təqvaya yetişən insan zatən riyadan uzaqdır.

İbadətin mərtəbələri batindədir. Təqvanın mərtəbələri isə həm batindədir, həm zahirdə.

Zahiri ibadət batini təmizləməz. Zahiri təqva isə batini təmizləyər.

Təqva çəkinməkdir  haramdan, çox danışmaqdan, çox istirahət etməkdən, yalandan və s. Bunlar insanın batini aləmini yönləndirir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təqvanın yüksəlişi sonsuzdur. İnsanın təqvası onu Həqiqət məqamına qədər müşaiyət edir və hər məqamda öz imkanlarını üzə çıxarır.

Nə qədər ki, insan nəfsi var, nə qədər ki, vücudun cazibəsi var və nə qədər ki, insan beyni ağıl və məntiq istehsal edir, təqva hər zaman gərəklidir.

Böyük günahları aşan böyük məqamlara yetişər. Təqvası az olanın məqamı da az olar.

Təqvanı gizli saxlamaq çətin olduğu üçün təqvalı insan get-gedə ətrafından uzaqlaşmağa başlayır. Fəqət Mövla mömini tək qoymaz. Təqva əhli mövsüm quşları kimi öz yerini bulub bir araya gəlir.

Qəlbin açarı təqvanın əlindədir. Təqva Allahın məkanı olan insan qəlbinə gedən yolları təmizləyər.

Dünya ilə Həqiqətin məsafəsi ağılla qəlbin məsafəsi qədərdir. Həqiqətə yaxınlaşdıqca dünyanın, qəlbə yaxınlaşdıqca da ağlın cazibəsi artır.

**Cazibədən qurtuluş fənafillahdır.**

***Yüz Kəbədən üstündür***
***Bir könül ziyarəti.***
(Yunus Emrə)

Allahın rəhmətini yaxında buraxıb, uzaqlarda arayanlar bədənlərini yol yorğunu edib qayıtdıqdan sonra iki əllərinin boş qaldığını görürlər. Çünki, ən yaxındakı ac insanların gözləri önündə ziyarət məsrəfi toplamaqla məşğul idilər. Belə ziyarətləri Allah qəbul etsə də öz ürəkləri qəbul etmir. Ona görə də



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adlarının ikiləşməyindən başqa insanlar onlarda heç bir dəyişiklik görmürlər.

***Qibləsən aşiqlərə, Kəbvü bütxanəsən,***
***Cavid odur yeksərə tərki-Hicaz eylədi.***
(Cavid Mürtəzaoğlu)

Şəriət əhlindən uzaqlaşmaq şəriətin gərəksiz olduğundan deyil, onun yetərli olmadığındandır. Şəriətdə nəhayət bulanlar mütləq və mütləq özlərini və ətrafı aldadırlar. Buna görə də zaman içində üzlərindəki nurun, qəlblərindəki kəramətin yerini dünya sərvəti, dünya qayğısı tutur. Onlar var olmaq üçün özlərini təsdiq etməlidirlər. Bu təsdiq məcburi yalandan və icbari ehkamlardan keçir.

**Şəriət insanları üç yerə böldü: onların bir qismi ehkamlardan qaçıb imansızlığa getdilər, o biri qismi imansızlıqdan qaçıb təriqətə getdilər. Üçüncü qisim isə, yerində qalıb, riyakarlığın zivəsinə yetişdilər.**

**Şəriət İlahi nəfəsin insani iradə ilə əvəz olunmasıdır.**

**Şəriət İlahi sirrlərin bəşəri qanunlara dönmüş yarımçıq təzahürüdür.**

**Şəriət insanı öz qəlbi ilə deyil, başqaları ilə razılaşmağa məcbur edən məhdud məntiqlər toplusudur.**

Şəriət deyir, ya gərək özün müctehid olasan, ya da bir müctehidə təqlid edəsən.

Şəms Təbrizi isə deyir: **"Müctehidə təqlid edən kafərdir".**

Qanunlar eşqi pərdələyir.

Eşq əhlinə bilərəkdən atılan iftira çirkin əfsanələrə söykənərək, Mənsuru, Nəsimini və Eynülqüzzatı dara çəkdirdi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqi İlahi yaddaşdan bəşəri münasibətlərə endirmək şəriət böyüklərinin dəyirmanına su tökdü  bu gün də bu dəyirman işləyir. Buna görə də zamanın müctehidini görürlər, amma zamanın övliyasını görmürlər.

Qanunlar yaşadıqca eşq də yaşayır.
Alimlər yaşadıqca aşiqər də yaşayır.
Qal davam etdikcə, hal da davam edir.

***Səni əfv etdi o hüsni-əzəli,***
***O gözəldir, sevər əlbət gözəli.***
(Hüseyn Cavid)

**TƏRİQƏT**

***Çoxdandı ki, meyxanədən heç badə alan yox,***
***Müştaqi-meyü zairi-meyxanə olan yox.***

***Meyxanə idi, mütrib idi, bir də müğənni,***
***Səslər batıb, əllər quruyub, tarı çalan yox.***

***Meyxanə sarı aşiqə min kuçə var idi,***
***İndi küçə qalsın, dəxi bir qarə dalan yox.***

***Leyli var idi Qeys ilə, həm Vamiqü Əzra,***
***Dünyayi-əməldə onları yadə salan yox.***

***Hər kimsə də tərk eyləsə meyxanə məqamın,***
***Cavid eləməz tərk, bu söhbətdə yalan yox.***
(Cavid Mürtəzaoğlu)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könül istəklərinin əqli və məntiqi pərdələdiyi, hüzurun təlaşı, istiğnanın ehtiyacı əvəz etdiyi, eşqin dünya və axirətə bədəl olduğu zaman xərabatdan həqiqət, viranə qəlblərdən xəzinə doğdu.

Tarix beləsini görməmişdi. Xəlvətdə dünyanın sirrləri açılırdı. Şeyxləri mürşidlər, tələbələri müridlər əvəz edirdi. Mədrəsələr yerini təkyələrə verirdi. Alimin yerini aşiq, elmin yerini eşq, qalın yerini hal tuturdu.

Böyüklərimiz belə buyurub: **"Tərbiyəsiz uşağa anası hirslənəndə, o uşaq qaçar, qonşunun evinə sığınar. Tərbiyəli uşaq isə, yenə də qaçar anasının dizlərini qucaqlar. Çünki, qaçacaq başqa yeri yoxdur"**.

Eşq əhli məsciddən qaçdı, Allahdan qaçmadı. Qanundan qaçdı, mahiyyətdən qaçmadı. Əhli-şəriətdən qaçdı, şəriətdən qaçmadı.

Xilafətin xilafları möminləri iki yerə böldü  yarısı küfrün övladı riyakarlığa, yarısı isə, imanın atası eşqə yuvarlandı.

Zülmdən qaçmaq olmaz. Ya ona qalib gəlmək olar, ya da məğlub olmaq.

Zülmün üzərindəki qələbə zahiri olmaya bilər. Çünki insan, zülmü əvvəlcə özünə edir. Özünə zülm etməyin mahiyyəti şeytani nəfsə və küfrə boyun əyməkdən ibarətdir. Bu zülmə qələbə çalanlar isə, ilkin qaliblər hesab olunurlar. Onlar əhli-təriqətdir. Özüylə kifayət qədər və yaxud kafiyə yaxın dərəcədə hesablaşanlar artıq öz gəmilərini dəryaya sürüb, cəmiyyətin fırtınaları ilə çarpışırlar. Bunlar da əhli-mərifətdir.

**Şəriət qorxur, Təriqət sevir, Mərifət tanıyır, Həqiqət qovuşur.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunlar şərtidir. Mütləq olan isə bircə şeydir – eşqi-İlahi!

Könlünə məhəbbət gələnlər könlündən nifrəti qovanlardır.

Haqqın eşqi qonaqdır, aşiq ürəyi isə ev. Təravətli və təmiz olmayan evə qonaq gəlməz. Bu evi pak saxlamaq -- hər kimsəyə olur-olsun, kin və nifrəti yox etməklə mümkün olur.

***Evini pak eylə mehmana layiq,***
***Evin pak olmasa mehman əylənməz.***
***Kibr ilə küdurət olan bir yerə***
***Şahi-caha gəlməz, inan əylənməz.***

(Əhli-Həq kəlamı)

Möminlərin nəzərindəki aşiqlər münkirlərin nəzərindəki möminlər kimidir. Bütxanədən çıxanlar məscidə gəlmədiyi kimi, məsciddən çıxanlar da meyxanəyə girmədilər. Fəqət, küfrdən imana yol başqadır, imandan eşqə başqa. Birinci yol hər kəs üçündür, ikinci yol hər kəs üçün deyildir. Şəriət Allah evinin qapısıdır. Təriqət isə evin içindədir. Şəriət qapısını içəridən bağlamadan təriqət otağına rahat girmək olmaz.

***Həft şəhri-eşqra Əttar gəşt,***
***Ma hənuz an dər xəmi yek kuçeyim***

Mövlana buyurur: **Eşqin yeddi şəhrini Əttar gəzdi bitirdi, biz hələ onun bir küçəsinin bir döngəsindəyik.**

Eşqin ünvanı xərabat şəhridir. Viranə və sınıq könüllər bu ünvanın təmas nöqtələridir. Könüllərə təmas edən xərabat şəhrinin sirrlərinə varid olar.

Xərabatın canı rəmzlərdir. Rəmzin elmi **“simiya”**dır. Simiya təriqətinn nəfəsidir. Rindlik də simiyadır. Rind olmayan aşiq xamdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Biz haman rindi-xərabatiyi-bibaklərik,***
***Söhbəti indi də dillərdədir əfsanəmizin.***
(Əliağa Vahid)

Təqriqət varid olduğu sirrlərə görə aşikardan xəlvətə keçdi.

Namazdan sonrakı zikr, namazdan önə keçdi. Hətta təkyələr uzun müddət namaz üzünə həsrət qaldı. "O məsciddə ki, Əlinin qanı axdı, biz o məscidə ayağımızı qoymarıq. Məscid bunu özünə necə rəva bildi?" dedi təriqət əhli.

"Rəmzlər xərabatın canıdır" dedik. "İçəridə mey içirlər, zina edirlər" dedi əhli-bixəbər.

"Mey" sözünün Ələst aləmindən gəldiyini unutdu xalqın şəriəti və şəriətin xalqı. "Mim" və "yey" hərflərinin əbcədlə on dörd məsum haqqındakı gizlin elmin rəmzləri olduğunu da bilmədilər eşitdilər, amma bilmədilər.

Xərabat əhli isə, "xalq ilə olub, xalqdan olmamağı" seçdilər. Əli eşqi Əli xilafətindən ayrıldı.

**"Quran Dostdan bizə yadıgardır. Əgər dostun özü bizimlədirsə, yadigarına nə hacət?"** Bunu da əhli-təriqət dedi. Küfrün lap astanasında dayandılar. Amma rəzalət uçurumuna düşmədilər. Çünki binasında eşq, təməlində şiddətli iman, niyyətində vəhdət dayanırdı bu xərabat şəhrinin.

**"Hamı öz axırından qorxur, mən isə əvvəlimdən"**
(Həzrət Əli)

Niyyət yolun sonunu göstərən işıqdır. Yoldakı qaranlıqlar isə aşiqlərin pak niyyətlərinə qarşı Allahın imtahanı, pis niyyətlərinə qarşı isə nəfslərinin qurduğu uçurum və tələlərdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**“İnsan bilmədiyi şeyin düşmənidir”**

(Həzrət Əli)

Xalq eşq əhlini görmədi. Görmədiyi üçün də haqqında əfsanələr uydurdu. Əhli-təriqət xalqı dünya bilib, tərki-dünya oldu.

Haqq meyinin məstliyindən hansı qafil oyanmaq istər?

Dünyadan qaçıb, onun təlaşından, dünyanın təlaşından qaçıb cəhənnəm atəşindən qurtuldular.

Dünya qapısı genişdir, fəqət irəli getdikcə daralır. Haqqın qapısı isə dardır, fəqət irəli getdikcə genişlik və azadlıq gəlir.

Haqq qapısı iynə deşiyi qədərdir. Nəfsindən, təkəbbüründən, istək və arzularından, qorxu və şübhələrindən qurtulanlar bu qapıdan keçə bilərlər. Şeytanın dəvət etdiyi dünyaya girmək üçün isə nə qədər böyük və təkəbbürlü olsan, yenə də azdır.

***Öylə zəif qıl tənimi firqətində kim,***
***Vəslinə mümkün ola yetirmək səba məni.***

(M.Füzuli)

Örnək təcrübəni əvəz edə bilər. Dar ağacının yerini dara çəkilənlər tuta bilər. Bu yer aşiqlərin könlüdür.

Var olan hər şey Haqqdır. Var olanı danmaq Haqqı danmaqdır. Haqq isə Allahdır. Allah hər nəsnəyə haqq versə, onun ömrü baqidir.

Haqq-Təala eşq əhlinə haqq verdi. Aşiqin varlığı imanın kökünü qoruyar. Eşqin yoxluğu imanın yoxluğudur.

Meyxanə əhlinin namazı Haqqın piyaləsinə süzülən aşiqin qanı ilə qəbul oldu. Meyxanə azanı ney səsidir, dəf səsidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəmsin semahı Haqqı hər yerdə gördü. Kəbə, su üzərindəki əbru rəngləri kimi yayıldı, qiblə hər yana döndü.

**“Allah buyurdu: Əlinin Vilayəti mənim qalamdır. Hər kəs o qaladan içəri daxil olsa, mənim əzabımdan amanda qalar”**

(Hədisi-qüdsi)

***Leyla çiçeklere şöyle bir baktı***
***Baktı ki çiçekler Ali diyordu***
***Ali’ye ulaşmak aşk ister kardeş***
***Aşk’a gelen güller Ali diyordu***

***Şemsini aradı yıllarca belki***
***Mevlana dönerken Ali diyordu***
***Nemrut’un yaktığı alevli ateş***
***Birden söner iken Ali diyordu***

***Kuyuya varınca dertleşmek için***
***İnan ki kuyu da, Ali diyordu***
***İbni Mülcem, vurdu ama darbeyi***
***Vallahi kılıç da Ali diyordu***

***İlim kapısını gösterdi Resul***
***Kapı açıldıkça Ali diyordu***
***Başa geçen nice zorba insanlar***
***Başı sıkışınca Ali diyordu***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Ali doğacaktı Kâbe açıldı*
*Açılırken Kâbe Ali diyordu*
*İçeri girdiler açılan yerden*
*Kâbe'de misafir Ali diyordu*

*Nuh Besmele çekti bindi gemiye*
*Halatı sökerken Ali diyordu*
*Yusuf'u kuyudan çıkaran insan*
*İpini çekerken Ali diyordu*

*Yakup Yusuf için gözyaşı döktü*
*Dökülen damlalar Ali diyordu*
*Musa Tur dağına gidip gelirken*
*Ne güzel insan bu Ali diyordu*

*Eşin hayırlısı kimdir deyince*
*Fatıma: ey baba, Ali diyordu*
*Miraçta ne gördün yüce Peygamber*
*Perde arkasında Ali diyordu*

*Ali peygamberi çok seviyordu*
*Peygamber her yerde Ali diyordu*
*Hazreti İbrahim Halil'di ama*
*Allah'a âşıktır Ali diyordu*

*Peygamber sözünden bir şey anlayın*
*Beni kefenlesin Ali diyordu*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Veda haccında da onca Sahabe***
***Bize Mevla oldun Ali diyordu***

***Kerbela çölünde İmam Hüseyin***
***Dedem Resul, babam Ali diyordu***
***Yezit'e sordular ne istiyorsun***
***Bizim düşmanımız Ali diyordu***

***A yazılmış Ali' ninde başına***
***Bir gün sordum yüzüğümün kaşına***
***Bana dedi elini koy döşüne***
***Allah, Muhammed ve Ali diyordu***

(Mehmet Demirer)

Məxfi ibadətlər aşkar ibadətlərdən ona görə fərqlənir ki, burada fərqli kütləvilik yoxdur. Meyxanənin məsciddən fərqi meyxanədəkilərin fərqli insanlar olmamasındadır. Möminlər kənardan gəlib, məsciddə birləşirlər. Aşiqlər isə kənarda biləşib, meyxanəyə gəlirlər.

İbadət vərdiş ola bilər. Zikr və hal isə hər zaman ehtiyac mərtəbəsindədir.

Vərdiş küfrdən pisdir.

**Dünyada ən böyük gühan nədir, ya Şəms?**
**Ən böyük günah gözəl işlər görməyə vərdiş etməkdir.**

İbadət hal məqamına yaxınlaşmadıqca, get-gedə parçalanır ya vərdiş halına keçir, ya da möminin həyatını tərk edib gedir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məsciddən sonra meyxanəyə olan ehtiyac qaldan sonra hala olan ehtiyacdır.

Zahidlik donmaqdır. Hər mərtəbənin zahidi təhlükəlidir. Batini ibadəti əldən verib, zahirdəkini qorumaq üçün riyakarlıq icbaridir.

Təsdiqin təsdiqi inkardan keçir. "La ilahə"dən sonra "illəhlah" gəlir.

Bəzən gözəl şeylərin qədri onları itirməmiş bilinmir.

**"İki şey var ki, itirilməyincə qədri bilinməz – biri gənclik, o biri dinclik"**

(Həzrət Əli)

Fəqət, itirilənlərin içərisində elə bir şey var ki, onu geri qaytarmaq hər zaman mümkündür. Onun adı ibadətdir. Tövbə və eşq qapısının hər zaman açıq olması Şeytana vurulan ən böyük zərbədir.

Könül ibadəti ya təklikdə, ya da könüllərin vəhdət bulduğu cəm halında mümkündür.

Allah evindən – qiblədən hər kəsin öz təmənnası var. Bu səbəbdən də məsciddə hər zaman qal yaşanır.

Aşiqlərin qibləsi isə, mürşidi-kamilin üzüdür. Ondan isə, hamının bir təmənnası var – Haqq nurunu, Pir nəfəsini könüllərə lütf etmək. Meyxanədəki hal da bu səbəbdəndir. **Məsciddə hər kəs özüdür. Meyxanədə isə hamı Odur.**

Mərifətin hifz olunmuş xəbərlərində deyilir:

**Qırxların qapısını döyən Həzrəti Rəsulallahdan soruşurlar:**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Kimsən?**

**Allahın Rəsuluyam.**

**Allah özü buradaykən Rəsuluna ehtiyac yodur.**

**Yenı qapını döyür.**

**Kimsən?**

**Mənəm.**

**Burada "mən" yoxdur.**

**Üçüncü dəfə qapı döyülür:**

**Kimsən?**

**Sənəm!**

**Bu cavabdan sonra qapı açılır və Peyğəmbər Qırxlar Cəminə daxil olur.**

Məhəmməd Füzuli Leyli ilə Məcnunu bir qəbrə qoyur. O Füzuli ki, şəriət və ehkamlardan gözəl bilirdi – iki naməhrəmi bir qəbrə qoymaq olmaz. Fəqət, onu da bilirdi ki, onlar iki nəfər deyil, bir can, bir vücud idilər.

***Gər mən mən isəm, nəsən sən ey zar?***

***Gər sən sən isən, nəyəm məni-zar?***

Vücudun vəhdəti aləmlərin vəhdətidir. Vəhdətə yetmiş kiçik bir xanəyə on səkkiz min aləmin əzəməti sığır.

Halın məkanı və zamanı fərqlidir. Günəş Qərbdən doğanda qiyamət qopacaq deyirlər. Aşiqlərin Günəşi məxluqun Günəşi, ariflərin, zamanı Yer kürəsinin zamanı deyil. **Meyxanədə Günəş öz cazibəsindən çıxıb, əmmamə kimi sarınır, ulduzlar ələnib tökülür, dağlar parçalnıb quma dönür, göylər mis rənginə çalır, yer didilmiş panbığa bənzəyir.** İnsanın öz qəlbinə doğru yol aldığı məkanda kiçik qiyamət hər gün qopur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oturub qiyamət saatını gözləyən Həzrəti İsrafil öz Surunu aşiqlərin qəlbində hər gün çalır.

Eşqin səsindən başqa heç nə duymayan təriqət əhli üçün Dünya ayağa ilişən daş kimidir. Onu alıb kənara atmaq mümkün olmasa da yanından və ya üzərindən keçib getmək labüddür. Dünyada qalmaq mümkün olmadığı üçün, o daşa ilişib qalanlar sonsuz yanlışlıq içindədirlər. Ustad Nəsimi məhz bu səbəbdən

***Dünya duracaq yer deyil ey can, səfər eylə,***

***Aldanma anın alına, andan həzər eylə***

deyir.

Başının içində ağıl gəzdirənlər sinəsinin altında ürək gəzdirdiklərini unudurlar. Həqiqətin ağıl deyil, qəlb gözü ilə görülə biləcəyindən xəbərsiz olduqları üçün bu müəmmalı Dünyaya istəmədən gəlib, nakam gedirlər. Nə yazıq ki, sonunda hər kəsə məzar olan bu Dünya cahillərin həyat sevincidir.

Dərvişlə xalqın ayrılığı yerlə göyün ayrılığı qədərdir.

***Xalqın evi var, dərvişin xanəgahı.***

***Xalqın atası var, dərvişin piri.***

***Xalqın canı var, dərvişin cananı.***

***Xalqın başı çiyninin üstündədir, dərvişin başı sinəsinin üstündə.***

***Xalqın evi Dünyadır, dərvişin dünyası evidir.***

***Xalqın gözü başındadır, dərvişin gözü qəlbində.***

***Xalqın burnu göydədir, dərvişin alnı səcdədə.***

***Xalq danışır, dərviş zikr edir.***

***Xalq fürsəti həyat bilir, dərviş həyatı fürsət.***

***Xalq doğuşdan ölümə gedir, dərviş ölümdən həyata.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Xalqın ehtiyacı nəfsi qədərdir, dərvişin nəfsi ehtiyacı qədər.*

*Xalq Dünyaya aldanır, Dünya dərvişə.*

*Xalq torpağın üstündə, fələyin altındadır, dərviş Allahın altında, fələyin üstündədir.*

*Xalqın şəcərəsi var, dərvişin silsiləsi.*

*Xalqın rahatlığında təlaş var, dərvişin təlaşında rahatlıq var.*

*Xalqın qayğısı ruzidir, dərvişin ruzisi ibadət.*

*Xalq bir fikri yüz sözlə, dərviş yüz fikri bir sözlə deyir.*

*Xalqın ibadəti şəkkdir, dərvişin yuxusu ibadət.*

*Xalq həyat dolu sübhü gözləyir, dərviş ibadət dolu gecəni.*

*Xalq dərviş deyil, dərviş xalqdır.*

*Xalq Günəşi sevir, dərviş Ayı.*

*Xalqın əli ovcundadır, dərvişin əli torpaqda.*

*Xalq Dünyanın avazı ilə rəqs edir, dərviş Haqqın səsiylə semah edir.*

*Xalq dərddən qaçır, dərviş arzulardan.*

*Xalqin dayağı Dünyadır, dərvişin əsası göylər.*

*Xalq gördüyünü təsdiq edir, dərviş təsdiq etdiyini görür.*

*Xalq yanıb kül olur, dərviş yanıb bişir.*

*Xalq sonunu düşünür, dərviş sonunu yaşayır.*

*Xalq ümidlə yaşayır, dərviş məhəbbətlə.*

*Xalqın sirri qəlbindədir, dərvişin qəlbi sirrində.*

*Xalq Dünyadan Haqqa gedir, dərviş Haqqdan Dünyaya gəlir.*

*Xalq haramı məkruh edir, dərviş məkruhu haram.*

*Xalq sözüylə dini öldürür, dərviş əməliylə onu dirildir.*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Xalq özünü Haqqa, dərviş Haqqı özünə gətirir.***

***Xalq Dünyaya möhtacdır, Dünya dərvişə.***

***Xalqın anası Dünyadır, dərvişin anası torpaq.***

***Xalqın Peyğəmbəri tarixdədir, dərvişin övliyası yanında.***

***Xalqın ümidi kəsilən yerdən ölümü, dərvişin ümidləri kəsilən yerdən həyatı başlayır.***

***Xalqın sevinci dərd gətirir, dərvişin dərdi sevinc.***

***Xalqın ağlı nəfsinə, dərvişin ağlı eşqinə qulluq edir.***

***Xalq heç nəylə qane olmur, dərviş hər şeylə rahat olur.***

***Ne varlığa sevinirim,***
***Ne yokluğa deyinirim.***
***Aşkın ile ovunurum,***
***Bana Seni gerek, Seni.*** (Yunus Emrə)

***ŞEİR***

***Namazı saz ilə qılsın, duanı ah ilə aşiq,***
***Axan hər damla göz yaşı onun həmdü səna olsun.***

Xanəgahda zikrlər ürək döyüntüsü kimi çırpınır. Bəlkə də ürkələr durub, çırpınan zərbi-zikrdir. Çünki, dərvişlərin vücudu zahirən təkyədədir. Əslində isə, orada bulunan şey vəhdətin zərrələridir. Çöldəki həyatı öldürüb, içəridəki həyatı diriltmək üçün feiliyyət və onun qədəmlərini eşq adına vücuda gətirmək şərtdir.

Hal nizamdadır. Zərbi-zikr ahəngdar olmasa, hal gəlməz. Əruzun bəhrləri ilə oynayan misralar məna və həqiqətləri nizam edir. Mövlana Rumi yapdığı semahları, yaşadığı halları qələmə alıb:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Yari-məra, bari-məra,***

***Eşqi-cigərxari-məra...***

İnsan bu misralarda məna axtarmır, çünki buna zamanı qalmır. Ahəng və nizam vücudu bir an içində semaha götürür. Üstəlik, dəflərin və əllərin zərbi zikrə ahəng, ahəngə hal qatır.

Zikr nə şeirdir, nə də musiqi. Zikr nə formadır, nə də məzmun. Zikrdə məna axtarmağın özü belə halı pozan ilk şeydir.

Ağılla zikrə oturmaq olmaz. Ağlı, məntiqi, mənliyi, varlığı ayaqqabı kimi qapıda soyunub, sonra xanəgaha girmək şərtdir. Əks halda pərtöv və hal o məkandan yan keçər. Bu, başqalarını da hüsrana uğradar.

Əgər eşq əhlinin halı müştərəkdirsə, deməli qalı da müştərəkdir. Qalı çöldə halı içəridə paylaşmaq ərkandır və lillahdır.

Təkyə, ictimai məsələlərin çözülə bildiyi məkan deyildir. Bunun üçün "came" (ictimai yer) adlanan məscid var.

Təkyənin çölü dərki-dünyalıqdır, içərisi tərki-dünyalıq. Təkyəyə çöldən heç nə girmir. Amma içəridən çölə dünyalar axır.

Məsciddə insanlar içlərini boşaldıb yüngülləşir, amma təkyədə dolub ağırlaşırlar.

Mey saqinin əlindədir. Saqi mürşiddir.

Nəzir xalqın əlindədir. Gedəcək yeri isə şeyxin cibləridir. Buna görə də xalq məscidə dolu gəlib, boş gedir.

Aşiqlərin sərvəti isə əlində deyil, könlündədir. Həmin könül meyxanəyə hər zaman boş gəlir. Onu dolduran isə mürşidin bərəkətli nəfəsidir.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Pirin nəfəsi saqinin sürahisi kimidir. Haradan dolduğu bəlli olmaz. Amma qədəhləri, yəni aşiq könüllərini heç zaman boş buraxmaz.

Əgər aşiqin könlü meyxanədən boş çıxırsa, qədəhi dolu deyilsə, illəti özündə aramalıdır. Şərab süfrədəydi.

Mürşidin nəfəsi rəhməti-İlahidir – bitib tükənməz. Üstəlik, müridlər bəndə olmadığı üçün onlara ədalət və hökm deyil, rəhmət və lütf müqabil olur. Bəndəlik halın eşiyindədir.

***Eşq ilə gəlin talibi-quyəndə olalım,***
***Zövq ilə səfalar sürəlim, zində olalım,***
***HəzrətiMövlanaya gəlin bəndə olalım,***
***Semah səfa, canə şəfa, ruha qidadır.***

(Mövləvi ilahilərdən)

Haqq-Təala xanəgahdan içəri mürşidin vücudunda təcəlla etdiyi üçün bəndəlik müridlikdir. Müridin isə, təmənna və istəyi dünyəvi olmadığı üçün orada ədalət və sorğu–sual yoxdur. Talibin tək təmənnası xidmətə layiq görülməkdir. Aşiq varlığını bitirməklə, bəndəliyinə də son verib.

**Təklikdə varlıq var, vəhdətdə yoxluq.**

Məsciddə hər kəs şeyxin əlini öpür.

Meyxanədə isə pir başda olmaqla hər kəs bir-birinin əlini öpür. Ortada hər hansı bir varlıq qalmır, mənlik, özəllik yoxa çıxır. Yox olan bir şeydən nəyi sorğu-sual edəsən?

Bəndə cənnət təmənnasındadır. Buna isə layiq olmalıdır.

Mürid isə qulluq eşqindədir. O da buna layiq olmalıdır.

Zikrin sədası könüldən gəlmir, könülə gəlir.

Peyğəmbərlik bitdtyi üçün vəhy də bitdi. Allah Mövladır. Mövla övliyaya təbdil olur. Hüccət şərt olduğu üçün övliya hər



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zaman diridir. Övliyaya gələn həvalədir. Vəhy mələklərlə gəlir, həvalə nəfəslə. Vəhyin mələyi ilə həvalənin nəfəsi birdir. Fəqət, vəhy peyğəmbərlərin diliyə xalqa gəlirdi, həvalə isə övliyaların nəfəsiylə aşiqlərə. Xalq başladığı kimi də bitdi. Aşiq isə məzhərdən gəlib, zühura – kandan gəlib məkana getdi.

**Xalq xalqdan yaranıb, aşiq Haqdan.**

***"İnsanlar Dünyanın övladlarıdır. Heç kimi öz anasını sevdiyinə görə qınamaq olmaz"***

(Həzrət Əli)

Yenə, təriqətin örtülü məxəzləri yazır:

***Həzrəti Rəsulallah Meraca yüksələrkən, peyğəmbərlərin, sonda isə Həzrəti Cəbrayılın bulunmadığı bir nöqtəyə varır. O məqamda eşqin təzyiqindən zorlanır və müvazinətini itirmək həddinə gəlir. Bu zaman onun mübarək ayaqlarının altına dayaq olaraq bir çiyin gəlir. Rəsulallah əyilib baxanda görür ki, bu, övliyalar sultanı Əbdülqadir Geylanidir.***

***O anda Alalhın Rəsulu belə buyurdu:***

***Ya Əbdülqadir, mənim ayaqlarım sənin çiynində, sənin ayaqların isə bütün ümmətin çiynindədir.***

Burada Meraca qalxan onunla bərabər bütün İslam idi. Fəqət şəriət İslamını eşqin təzyiqi zorladı. Əslində müvazinətini itirməkdə olan ümmətin mayası ehkam idi. Əbdülqadir Geylaninin mübarək varlığı isə, İlahi bir hədiyyə idi ki, Haqqın eşqinə aşiqlərin və onların könlünə sığacaq bir şəkildə nizamlandı.

Peyğəmbərlərin nəbilərdən və mələklərdən keçən məqamı mərtəbeyieşq idi. Yəni burada nə vəhyləri gətirən, nə də onları daşıyanlar yoxdur. Aşiq-məşuq rabitəsi gerçəyin o biri üzüdür.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Meracda Rəsulla paylaşılan və hər kəsdən gizli saxlanılması əmr olunan üçüncü otuz min kəlmənin sirri də eşqin sərhədləri içərisindədir. Yəni buraya ancaq aşiqlər varid ola bilər. Varlığından, mənliyindən, vücudundan keçən aşiqlər,..

Təkyənin eninə və uzununa sığan hadisələr, o şuriş, o qovğa ərşdəki mənzərələrin Yerdəki inikasıdır. Orada nə baş verirsə, burada da o baş verir.

Sözlərlə, məntiq və məzmunla izah oluna bilməyən hal məqamı yalnız onu yaşayanların yolunu gözləyir. Hal elə bir bağlı qapıdır ki, eşiyində heç bir əlamət yoxdur. Yalnız açıb içəri girməklə mahiyyətə varmaq olar.

***Türrəhatı qoy kənara, rəqsə gəl divanəvar,***
***Gir xərabat içrə, gör bu şurişu qovğa nədir.***
(Əbülqasim Nəbati)

Hətta xərabatın içində belə, mahiyyət idrakdan kənardadır. Bilməklə bilməmək arasındakı səddin dağılması halın əlamətlərindəndir. Yenə də həmin Nəbati ərz edir:

***Yetdi ömrün axıra, sən bir Nəbati, bilmədin,***
***Kimdir ol gözdən baxan, ya dildə bu quya nədir...***

Bilməzliyin kökündə məstlik, məstliyin kökündə bilmək dayanır. Arif alim deyil. Elm Dünyada, eşq könüldədir. Qəlb dünyadan çox böyükdür. Dünyanın sərhəddi var, eşqin üfüqü belə yoxdur.

***Öylə sərməstəm ki, idrak etməzəm Dünya nədir,***
***Mən kiməm, saqi olan kimdir, meyü səhba nədir.***

***Hikmətü Dünyavü ma fi ha bilən arif deyil,***
***Arif oldur, bilməyə Dünyavü ma fi ha nədir...*** (M. Füzuli)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***RÜBAİ***

***Biz könlümüzə piri-mühəqqəq demişik,***
***Haqqı sevənə aşiqi-mütləq demişik,***
***Merac yolunu getməyə Mənsur kimi,***
***Batində "Əli", dildə "Ənəlhəq" demişik.***

Hal hal içində gizlənir. Məqam məqamı örtür. **"Sirr içində sirr"** demiş ərənlər.

***Bayəzid Bistami həzrətləri xanəgah taxtında ikən, zikrin fövqündə "Mən Allaham, mən Allaham, mənə səcdə edin!" deyir.***

***Çevrədəki ayıq xəlifələr təəccüblə bir-birnin üzünə baxır. Çünki, təriqət, məqam etibarilə bu mərtəbələrə hazır deyildilər.***

***Haldan sonra qal gəlir, süfrə açılır. Müridlərdən biri icazə alıb soruşur:***

***Ustad, biz anlayamadıq. Sən halın içindəykən "Mən Allaham, mənə səcdə edin" dedin.***

***Bayəzid bir az düşündükdən sonra açıb yanına qoyduğu qılıncını çəkib, həmin xəlifələrdən birinə verib deyir:***

***Mən sizə nəfəsimi halal etmərəm, əgər bu küfr bir də mənim ağzımdan çıxsa, bu qılıncla mənim boynumu vurmasanız!***

***Növbəti həftə, yenə də zikr zamanı, hal məqamında Bayəzid yenə də o sözləri sərf edir. Həmin xəlifə bu səfər qılıncı çəkir və ustadın boynuna endirir. Amma baxır ki, qılınc havanı kəsir. Bir neçə dəfə zərbə endirsə də eyni şey baş verir.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Dübarə hal gedir, qal gəlir və süfrə başında həmin mürid soruşur:***

***Ustad sən o sözləri yenə dedin. Nədən?***

***Bəs mən sizə demədimmi, boynumu vurun.***

***Heyrətdən ölüm həddinə çatmış baş xəlifə deyir:***

***Ağa, mən çox vurdum, ancaq qılınc kəsmədi!***

***Gördünüzmü? O anda mən yox idim, Allah idi. Allahı qılınc kəsməz.***

Bu xəbərdən belə anlaşılır ki, təcəlla eşqin zirvəsidir.

Məstlik həqiqətə açılan qapıdır.

Ariflərin içdikləri mey sadəcə məkan və zaman dəyişdirərək, bu yerə, bu zamana gəlmişdir. Halbuki həmin vəhdət meyi öz varlığı etibarilə Ələst bəzminə aiddir.

Təcəlla edən təkcə Həqqin camalı deyil. Camalın təcəllasını seyr edənlər də o əzəl günün şahidləridir.

Vəhdəti unutmaq eşq əhlinə xas deyil. Çünki qal əhli bu həqiqətin içindən gəlməyib. Eşq əhli isə, hal əhlidir, qal əhli deyil. Dünya əhli Dünyaya tərəf, eşq əhli isə hala tərəf dolanır. Əzəl günün xatirəsi hicran yaratsa da ümidsizlik yaratmır.

***Xoş ol zaman ki, yar mənə həmzəban idi,***
***Bəzmim cəmali-yar ilə rəşqi-cinan idi,***
***Sultan idim ki, hər yana hökmüm rəvan idi,***
***Dövlət qulam idi mənə, bəxtim cavan idi,***
***Bu həzineyi-vəsldə arami-can idi,***
***Dəmlər o dəmlər idi, zaman ol zaman idi.***

(S.Ə.Şirvani)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adəmlə vəhdət iki mənanı ifadə edir. Birinci məna təriqətin sərhədlərini aşır. Bəyanı çətindir.

İkinci məna isə, insanın, yəni Haqq aşiqinin Adəmin zatı ilə vəhdətdə olduğunu ifadə edir.

Fəqət, mətləblərdən də aydın olduğu kimi, təriqətin tutumu və əhatəsi məhduddur. Təriqətin də öz zahidliyi mövcuddur.

Təriqətdən fərqli olaraq, şəriqətdəki zahidlik sırf donmağa və mənafepərəstliyə bağlıdır.

Təriqət mürşidinə münasibət daha artıq məhəbbət və təmənnasızlığa söykəndiyi üçün müridlərdəki surətpərəstlik və başqasını inkar, şəriət əhlinə nisbətən daha güclüdür.

**Hər hansı bir hadisə və məkandakı sərhəd və müəyyənlik onun sonunu gətirir.**

Təsəvvüf təriqətlərinin sonu onların dağılması deyil, yox olması deyil, onların sonuncu olması mənasına gəlir. Yəni, təriqətin özündən də doyub, daha feiliyyətli və işlək məqamlara üz tutmaq labüddür. Lakin üzərindən əsrlər keçməsinə baxmayaraq, çoxlu sayda təriqət məkanları bu gün də yaşayır. Çünki bunlar Allahın nuru və rəhməti ilə, övliyaların nəfəsi və himməti ilə yoğrulmuşlar. Şəriətdən qopanlar, əsl mənada şəriətin mahiyyətini qoruduqları kimi, təriqətdən mərifətə uzananlar da həm şəriətin, həm də mərifətin bəhrələrini yaşadıb, daha da irəli getmişlər.

Eşqdə riya olmaz, amma təriqət əhlinə tərki-dünyalıq və süstlük xasdır.

***Tərki-dünyadən hədəf tərki-cəmaət olmayıb,***
***Cümlə məxluq Həqqdir, ey talibi-məna olan.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Tərki-dünyayi-cəmadi tərki-divi-nəfsdir,***
***Nəfsi tərk et, Həqqi gör, bil kimdir ol “Taha” olan.***

***Əsrlərdir gizlədibsən zahida, Leylanı sən,***
***Qoy yetişsin Məcnuna ol “La fəta illa” olan.***
(Cavid Mürtəzaoğlu)

“Sufilər” deyilən zümrə İlahi nurun təmsilçiliyində böyük tarixi pol oynamışlar. Onlar imanın şəriətdə qalıb çürüməməsi üçün vücudlarıyla gerçək iman yaşatmışlar.

Təriqət ariflərin vücudunu tərk etsə də yeni gələn aşiqlərin canında öz varlığını yaşatdı.

Şəriətə hər zaman ehtiyac olduğu kimi, təriqətə də ehtiyac vardır.

Bizim bəhs etdiyimiz təriqət məzhəb anlamında deyil. Məzhəbdən fəqrli olaraq, təriqət dini parçalamır. Çünki təriqət dinin içində deyil. Amma məzhəb dinin içindədir. Məzhəb şəriətdir, təriqət eşq. Təriqət kütləvi deyil, buna görə də ictimai ixtilaflara səbəb olmur.

Son zamanlar yaranan “dini cərəyanlar” (guya) təriqət deyil. Heç məzhəb də deyil. Sadəcə cəfəngiyyatdır.

Mürşidlik də Vilayətdən olduğu üçün, ona İlahi təsdiq gərəkdir. Vilayət isə Nübuvvətin davamıdır.

Qeyri-bəşəri iradənin müdaxiləsi ilə son dövrlərin ruhani durumu Haqq təriqətlərini doğmur.

Haqq təriqətləri silsilənin davamı olaraq, yaşayır. Yeni doğulanlar haqqında isə, bir cümlə demək olar: **Son üç yüz il ərzində yaranan bütün təriqət və məzhəblərin müəllifi Şeytandır**.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəriət zaman içində irticanın silahına çevrildiyi kimi, təriqətlər də bəzi yerlərdə öz həqiqi simasını itirərək, müəyyən qüvvələrin əlində vasitəyə çevrilmiş, hətta siyasiləşmişdir.

Yalançı məsihləri, silahlı imam-zəmanları da təriqət doğmuşdur.

Fəqət, binasında eşq və təcəlla gəzdirən təsəvvüf öz əslini hər zaman qorumuşdur.

Bir şey də həqiqətdir ki, təriqətin tərki şəriətin tərkinə bənzəmir. Eşq əhli riyadan və zahidlikdən qaçdı, ürfan əhli isə durğunluq və hər şeylə barışmaqdan.

**Şəriət əhli ətrafın küfründən qurtulanlardır, təriqət əhli öz küfründən.**

Fəqət özündən qurtulanlar bu dəfə ətrafını qurtarmağa məmur olurlar.

Ətrafından qurtulmaq bir mərhələdir, ərtafını qurtarmaq başqa bir mərhələ. Lakin bu ikisinin ortasında dayanan özündən qurtulmaq mərhələsidir. Özündən qurtulmayan nə ətrafından qurtula, nə də ətrafını qurtara bilər.

Xalqdan çıxıb xalqa qayıtmaq Haqqdandır.

**Şəriət Allahdan insanlara seyrdir.**

**Təriqət İnsandan Allaha seyrdir.**

**Mərifət Yenə də Allahdan insanlara seyrdir.**

**Həqiqət Allahdan Allaha seyrdir.**

***Şəriət, təriqət yoldur varana,***
***Mərifət, həqiqət ondan içəri,***
***Məni məndə sorma, məndə deyiləm,***
***Bir mən vardır məndə məndən içəri.*** (Yunus Emrə)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünya Haqq kitabı kimi vərəq-vərəqdir, qat-qatdır. Bu kitabın əvvəli də Lillahdır, ortası da sonu da. Dünyada nə varsa İlahi təqdir və təcəllanın əlamətləridir. Tarixin mahiyyəti də məhz budur. Əksini düşünsək, onda nə Dünya nə də onun tarixi zaman axınından başqa heç bir şey demək deyildir.

***MƏRİFƏT***

. Yalan gerçəkləşdikcə, gerçək yalana çevrilir. Əfkar və könüldəki gerçəklik həyatda olmasa da həyat özü bir gerçəklikdir.

Könül çırpıntıları ilə həyatın ritmi harmoniya təşkil etmir.

Dünya özü fani ola-ola, bizi faniyə çevirir. Dünyadan qopmaq nə qədər çətindirsə, həyatın içinə qayıtmaq ondan qat-qat çətindir.

Söz paylaşmaq üçündür. Gerçəkləri insanlarla paylaşmaq, onları insanlardan gizlətmək qədər müşküldür.

**Təriqət gedişdir, Mərifət qayıdış.**

***RÜBAİ***

***Hicranı könüldən silə bilmək müşkül***
***Qan ağlamaq asan, gülə bilmək müşkül.***
***Dərdi, kədəri, qüssəni bölməkdə nə var?***
***Xalq ilə sevincin bölə bilmək müşkül.***

**Özünə qayıdan, xalqdan qurtular. Özündən qurtulan, xalqa qayıdar.**

Mərhələlər bir-birindən keçdikcə mərhələ olur. Şah Xətai demişkən;

***Ayaq bir-bir basarlar nərdivanə***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hikmətdən fərqli olaraq, ürfan yaşantıdır.

Təriqət də ürfandır, amma Mərifət deyil. Mərifət yaşamaqla mümkündür. Yaşantının isə ən böyük sərmayəsi təcrübədir. **"Təcrübə ən böyük mürşiddir"** deyib ulular.

Təriqət Hərra dağıdır. Əhli-mərifət isə kiçik peyğəmbərlərə bənzəyir. Mərifətin risaləti eşqdir. Eşqi inziva dağında qazanan əhli-təriqət xalqın içinə qayıdanda əhli-mərifət olur və təcrübəsini xalqla paylaşır.

İrşad olmaq hər zaman qaçılmazdır. Çünki, yol Haqqa sarıdır. Haqqla, həqiqətlə müqabil dayanan hər şey naqis olduğu üçün salikin gəldiyi hər nöqtə bir keçid, hər dayandığı məqam özü bir zahidlikdir  yəni donmaqdır.

Hər mərhələdə irşad üçün canlı mürşidə və təkyə həyatına vaxt və ehtiyac olmur. Mürşid ömürlük rəhbərdir. Ən bəhrəli və sevimli mürid isə, onun dizinin dibində oturmayıb, onun surətindən (zahirindən) uzaqda mücadilə verəndir. Yəni, batini ziyarətlə, ayaqüstü zikrlərlə, "iki əli qan içində" bu hərdəmxəyal dünyada savaşanlar əsl müridlərdir. Onlar təkyəni fiziki olaraq tərk edir.

Əhli-mərifət Haqqın dünyadakı məmurlarıdır. Dünya bunu bilsə də bilməsə də.

Dünyanın arifə olan ehtiyacı torpağın suya ehtiyacı qədərdir. Dünya bunu istəsə də istəməsə də.

**Əhli-mərifətin Dünyaya atılması nə arifin istəyidir, nə Dünyanın tələbi. Bu, Allahın iradəsidir.**

Xanəgah və təkyələrdə yetişən müridlər qış günü üstüörtülü bağçalarda yetişdirilən meyvələr kimidir. Yəni, Dünyanın havası eşqə müsaid deyil. Fəqət, İlahi təqdir belədir.

**Şəriət əhli Dünyanın cazibəsində təktərəfli həyat sürür.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Təriqət əhli Allahın cazibəsində təktərəfli həyat sürür.**

**Mərifət əhli isə, çölündə Dünyanı, içində Allahı gəzdirə-rək, ikili həyat sürür.**

Fəqət, Allaha tərəf gedən yol şəriətdən başladığı üçün Dünyadan ilk qopanlar da elə şəriət əhlidir  onlar bunu hiss etməsələr də.

Şəriət Allahın izn verdiyi ən aşağı mərhələdir. Şəriətdən də aşağı düşməyənlər qurtulanlardır. Hər mərtəbənin öz vacibatı, özünə xas şərtləri var. Fəqət ümumun fövqündə Təriqət, Mərifət, açılması vacib olan qapılar deyildir. İnsanlıq evinin yeganə vacib qapısı Şəriətdir. Bu qapıdan içəridə baş verənlər artıq eviçi məsələlərdir.

Dünyanın gözəllikləri özündə Allahın zərrələrini daşıyır. Hər mərtəbədə gözəllik və üstünlüklər Allaha məxsusdur. İnsanların üstünləri və gözəlləri bütün gözəlliklərin Allaha məxsus olduğunu dərk edənlərdir. Əks təqdirdə insan heç bir gözəllik və üstünlüyə sahib deyil.

**Mərifət Haqqı xalqın içində görməkdir.**

Məxluq Xaliqdən uzaq olsa da Xaliq məxluqun içindədir.

**“Tərki-dünyalıq xalqın şərindən qurtulmaq deyil, xalqı öz şərindən qurtarmaqdır”** (Seyyid Yəhya Bakuvi)

Dünyanı tərk edənlər əslində onu dərk etmək üçün guşənişin oldular.

Dünyanı dərk etmədən ona qayıtmaq təhlükəlidir.

**Dünyadan qaçmaq həqiqətdən qaçmaqdan yaxşıdır.** Mövlana deyir: ***“Xam idim, yandım, bişdim”***. **Xam bədənlə Dünyada yaşamaq ona təslim olmaqdır.**



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Aşiqlərin bişdiyi yer təriqətdir. Əlbəttə, xamlıq da bişmək də, tərki-dünya olmaq da, Dünyanı dərk etmək də yalnız eşq əhlinə xas olan nəsnələrdir. Dünya əhli Dünyadadır. Eşq əhli ilə Dünya əhlini ayıran onların xilqətidir, yəni yaranışı. Xilqətin sirri isə yalnız **Həqiqətdə** gizlənir.

Aşiqi təriqətin giriş qapısından çıxış qapısına aparan, fəqət mürşiddir.

Təriqətə giriş aşiqin qəzavü qədəridir. Təriqətdən çıxış onun üstünlüyüdür.

Təriqətdə riya yoxdur. Əgər sufi Mərifət meydanına atıla bilmirsə, deməli bu, onun məmuriyyətinin davamıdır.

Fəqət təriqət əhli bir şeyi bilməlidir ki, mürşidin nəfəsi təkyədə qalmır və gedilən Dünya qayıdılan Dünya deyil. Əhli-şəriət aşiqlərə xor baxdığı kimi, təriqətdəki aşiqlər də bəzən mərifət əhlinin Dünya üzərindəki arifanə savaşını qəbul etmək istəmir. Bu, yanlışdır. Unutmaq olmaz ki, mürşidə bağlı könüllərdə qopan qiyamət kiçik qiyamətdir.

Dünyada qoparılan qiyamət isə, orta qiyamətdir ki, bunu əhli-mərifət gerçəkləşdirir. Fəqət bunlar Həqiqətin təcəlla və zərrələri olsa da **Zati-Mütləqin** böyük qiyaməti deyil. ***Həqiqətin qiyamı*** **bütün Dünyanı özünə çəkəcək!**

Əgər təriqət əhli qiyam qaldırıb özünü dara çəkdirirdisə, Mərifətin qiyamçılarını – Mənsuru, Nəsimini şəriət və xalq dara çəkirdisə, Həqiqətin zühuru bütün kainatın qiyamı olacaq.

Lakin, məxluqdan kənarda olan şeylər dünya müstəvisində gerçək sayılmır.

**Kənar gerçəkləri Dünya gerçəkliyinə çevirə bilmək Mərifətdir.** Mərifətin qapıları Şəriət kimi hər kəsin üzünə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

açıqdır. Lakin bu qapıdan içəridə tövbə və hüzur deyil, təlaş və qan var.

Mərifət payız fəsli kimidir – yağışlı, tufanlı, narahat fəsil olsa da eyni zamanda barlı və bərəkətlidir.

Eşqin bütün gözəlliyi və bəhrəsi  şeiri, musiqisi, qiyamı, şanlı tarixi, hətta dövlətçiliyə qədər uzanan ictimai hərəkatlarının hamısı Mərifətin görüntüləridir.

Təkyədə yazılan şeir təkyə üçündür. Mərifətin şairi isə xalqın dilində yazır. Dolayısı ilə xalqın içindəki Şeytanı tərpədir. Nəticəsi isə, ya şanlı edam olur, ya da gizlin terror.

Ariflər siyasi liderlərə, ictimai nəhənglərə bənzəməzlər. Arifin sözü özü ilə vəhdətdə olduğu üçün mütləq olaraq, ona inanırlar. Əhli-mərifətin durumunda yalan və ikiüzlülük, şöhrət, qorxu, pul və ordu heç bir iş görə bilmir. Orduların, sərvətin ala blmədiyi könülləri, fədakar duyğuları arifin bir baxışı alır. Buna görə də əhli-mərifət tarix boyu zahiri iqtidar sahiblərinin qısqanclıq və qəzəbinə tuş gəlmişlər. İqtidardakılar anlamamışlar ki, əsl iqtidar sahibi Allah özüdür! Eşq əhli övliyadır, övliya Allahın dostudur. Allahın nəzəri və iradəsi olan yerdə isə başqa güclərə ehtiyac yoxdur.

**“Həqiqətə qarşı vuruşan məğlub olar”**

(Həzrət Əli)

Dünya eşq əhli üçün qaranlıq və sisli bir vadini xatırladır. Bu vadidə yaşamağın özü başlı-başına bir savaşdır. Yəni, ariflərin varlığı hər zaman Şeytan üçün təhlükə mənbəyidir. Bu özü də bir missiyadır ki, yalnız mərifət əhlinin üzərindədir. Buna görə də eşqin tanınmış simaları, dünyanın insan yaradan çürük fəlsəfələrini alt-üst edən mədəni və ictimai hərəkətlərin sahibləri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əhli-mərifətdir. Əgər belə demək mümkünsə, təriqətin belə bir fikri yoxdur, belə bir imkanı yoxdur. Mənəvi, ruhi savaşlar yalnız Mərifətin imkanlarına sığır.

Bəs bu döyüş nədən ibarətdir?

Mənzərəni ən başdan seyr etdikdə görürük ki, ilk baxışda mədəni, elmi hadisələr, insanın təfəkkür yaradıcılığı əslində Allahın varlığı və bu varlığın dərkinə qoyulmuş maneədir. Hətta bəzi ifrat ruhani cərəyanlar da mövcuddur ki, onlar ümumiyyətlə elmin, incəsənətin varlığını Şeytanın fəaliyyəti hesab edirlər. Yəni, Allahın yaradıcılıq qüdrətinin müqabilində insanın da nələrisə yaratmağa can atması iddia və təkəbbürdür ki, bunlar iblisanə xislətlərdir.

Elm iki cürdür – insani və İlahi. İnsandan başqa heç bir varlığın elmə ehtiyacı olmadığı üçün İlahi elmin özü də insanidır.

Onda belə çıxır ki, birincinin, yəni insan beyninin məhsulu olan elmin kökündə nəfs dayanır.

Əslində İlahi elmin mənbəyi və necə yaranması qaranlıq və məntiqsiz deyil. Yəni, aydındır ki, Allahın mövcudiyyəti insan vücudu vasitəsilə bəlli olaraq, peyğəmbərlər, övliyalar və daha kimlərin beyni, ürəyi və dili və əməli ilə elm şəklinə düşüb, özünü təsdiq etmişdir. **İlahi elm İlahi silsilənin davamıdır.**

Mənbəyi və hədəfi məlum olmayan elm isə insani elmdir.

İnsanların yaratdığı fəlsəfə bu qədər ciddi cəhdlə nəyi demək istəyir?

Axı hər şey kifayət qədər aydın və sadədir. Yaranışın mənası varlığın gerçəkliyində mövcuddur. Gerçək olan hər şey o Vahiddən hərəkət alır, ölür və dirilir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəs onda insanlar nəyə görə birbirini çaşdırır? Bu niyələrin özü də absurddur. Çünki etiraz etdiklərimiz də gerçəklikdir.

İslamın Peyğəmbəri buyurur:

**“Elm bir nöqtə idi, cahillər onu parçaladı”**

Hər parçalanan şey kiçilər. Amma elm parçalandıqca böyüyür, böyüdükcə də anlaşılmaz olur. Məhəmməd Füzuli demişkən;

***Eşqdir hər nə var aləmdə,***

***Elm bir qilü qal imiş,...***

Asan suallar zaman keçdikcə şişdi, qəlizləşdi,.. Kosmosa çıxan insan öz məişətində özünü təsdiq edə bilmədi. Məşhur misalda deyildiyi kimi, **“insan Yerin cazibəsindən çıxdı, öz cazibəsindən çıxa bilmir”**

Allahın təbii şəkildə insana bəxş etdiyi bir çox şeylərin anoloji bənzərini Şeytan icad edib ortaya qoydu. Bunu anlamaq bu qədərmi çətindir?

Şeytan ona görə bu qədər “yaradıcı mələk” deyil ki, insanı sevir, onun həyatına zənginlik və rəvanlıq gətirmək istəyir. Xeyr. O, sadəcə olaraq Allahı unutdurmaq istəyir!

İnsanlar bir zaman sağ əli sol döşünün üstündə gözüyumulu rabitə quraraq, birbirləri ilə xəbərləşərdilər. Bu rabitələr Allahın izniylə olduğu üçün müqəddəs və gözəl şeylərdən ötrü istifadə olunurdu. Çoxlu böyüklər bu növ qabiliyyətləri indi də özlərində yaşadırlar.

Şeytan isə əvvəlcə nəfsin, sonra ağılın müdaxiləsi ilə telefonu kəşf etdirdi. Kəşfləri insan edir. Texnika dünyanı dəyişdirir. Amma bir az açıq gözlə baxanda görürük ki, nəticəsi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

fəlakət, təbiətin müvazinətsizliyi olan insan fəaliyyətinin altından Şeytan çıxır.

**Eşqin sonu elmdir, elmin sonu fəlakət.** Eşq insana müqəddəslik, paklıq gətirər. Bu isə, müşküllərin çözülməsinə, yəni həqiqi elmə aparıb çıxarar. İnsan Allahdan gələn qüdrətin sahibi olar!

Elm isə İlahi mənşəyi, qəlblərdəki vəhdət duyğusunu öldürər, ağlını və imkanlarını işə salaraq, insana şeytani qüdrət verər. Bu isə, fəlakət daşıyıcısı olan təkəbbür və cahilliyin əlamətidir.

Eşqin daşıyıcısı olan Mərifət əhli Dünyanın nizamının pozulmasına əngəldir. Bu mənada ariflər Yer üzərində Allahın hakimiyyətini təmsil edirlər. Bu hakimiyyət daha çox qəlblərdə və mənəviyyatlarda təşəkkül taparaq, tarixdə bir neçə dəfə həm də zahiri siyasi iqtidara gəlmişdir. Allahın iradəsi ilə bu nadir hadisələr əslində eşq əhlinin maraq dairəsində deyil.

**"Əgər Allahdan qorxmasaydım, ərəbin dahisi olardım"**

(Həzrət Əli)

Allahın istəklərini öz istəklərinə çevirən, dolayısı ilə Allahın sifətlərini daşıyır.

Allahın varlığı insanlıq tarixindən, insan təfəkürünün əsas və güclü hissəsindən nə qədər silinsə də tarixin çoxlu dönəmlərində ürfani hərəkətlər, mərifət qiyamları öz sözünü demişdir.

Nə yazıq ki, İlahi eşqin daşıyıcılarını fiziki cəhətdən öldürməkdən başqa çarəsi qalmayan Şeytanın tarix boyu ən yaxın köməkçisi və icraçısı İslam şəriəti olmuşdur. Mənsur Həllacın, Fəzlullah Nəiminin, İmadəddin Nəsiminin, Eynülqüzzat Həmədaninin, Şihabəddin Sühreverdinin və digər ariflərin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edamı Roma kilsəsinin alimlərə açdığı inkivizisiya məhkəmələrinə bənzəyir. **Qərbin alimləri elmin uğrunda can verdilər, Şərqin ariflri isə Həqiqətin!**

Əmir Teymurun Fəzlullaha gücü çatsaydı, onun böyüklüyünü və eşqini toplumun qəlbindən silərdi, daha onu parça-parça eyləyib, tarixə övliya qatili kimi düşməzdi. Amma müdrik imperator neç nəyə nail ola bilmədi. **Bu gün milyonlar Fəzlin elmi ilə nicat tapır, Teymurun qılıncı ilə yox!** Fəth etdiyi torpaqlardan öz millətinə belə bir qarış saxlaya bilməyən imperator, deyilənə görə, ömrünün sonunda hürufi olmuşdu. Fəqət, bu etiraf Qırmızı dənizdə boğulan Fironun son tövbəsinə bənzəyir.

**Fəzl qiyamı zühuri-xass idi.** Yəni Fəzlullah könüllər şahı olaraq, kiçik çevrəyə zühur etdi. Bu qiyam dəryadan götürülmüş bir qab suya bənzəyir ki, onların fərqi keyfiyyətlərində və xasiyyətlərində deyil, tuttuqları yerin həcmindədir. Biri kiçik bir qaba, o biri dərya kimi nəhəng bir çuxura sığır.

Ariflərin qiyamı onların varlığıdır. Ariflərin varlığı eşqin, eşqin varlığı həqiqətin varlığıdır. Həqiqətin eşqə bağlılığı xilqətin mənasını müəyyən edir. Əks təqdirdə “varlıq niyə mövcuddur” sualı cavabsız qalacaq.

***Bir pəri silsileyi-eşqinə düşdüm nagah,***
***İndi bildim səbəbi-xilqəti-Adəm nə imiş.*** (Füzuli)

Ən böyük sirrlər insan könlündə yatır.

İnsan Allahın sirridir, Allah insanın. **İnsanın kəşfi Həqiqətin kəşfidir.**

“Arif” “ürfan” sözündəndir. Yəni, “tanıyan” Haqqı tanıyan, insanı tanıyan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahı tanımaq insanı tanımaqdır. Bu tanışlığa məzhər olanlar eşq əhlidir.

**Arifin məstliyi onun huşyarlığı, xaqlın huşyarlığı onun qəflətidir.** Qafillik cahilliyin başlanğıcıdır. Eşq isə arifliyin təməlidir.

Qəflət cəhaləti kamal zirvəsinə qədər müşaiyət edir. Yəni, cahil zahirən nə qədər şöhrət və ağıl sahibi olsa da əslində özündən bixəbər qafilin ta özüdür.

Ürfan əhlini isə Fəna və Həqiqət məqamına qədər müşaiyət edən eşqdir.

***Çıxsa can çıxsın tənimdən, mehri-canan çıxmasın.***

(Mir Sədi Əfəndi)

Ürfan əhlinin fəziləti uca dağlar kimidir. Bu dağlar Yerin müvazinətini qoruyur və onu çevrəsindən çıxmağa qoymur. Müvazinət cazibənin nəticəsidir. Cazibə isə eşqdir. **Eşqin qəlibləri ariflərin qəlbi olduğu üçün Mərifət əhlinin varlığı mənəvi müvazinəti və ruhani nizamı təmin edir.**

"Ənəlhəq" qapallı məkanlarda söz və kəlimə deyildi. Zikr və hal məqamında "Ənəlhəq" tam bir gerçək idi. Təcəllanın və pərtövün insan vücuduna təbdili əhli-təriqətin hər zaman yaşadığı məqam idi.

Fəqət, "Ənəlhəq"qi dilə gətirmək, üstəlik onu naməhrəm xalqla bölüşmək xanəgah divarlarına sığan bir şey deyildi.

Bu gerçəyi dilə gətirmək insan işi deyil, ürfanın mərhələli təkamülünün nəticəsi idi.

Tarixdə ilk belə səadət Hüseyn ibn Mənsur Həllaca nəsib olmuşdu. **Mənsur Həllac eşqin və ürfanın ilk şəhididir.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sirli məxəzlərin sirr sahiblərinə ötürdüyü xəbərlərə görə, təbdili-ruh, və təcəllayi-Həq, yəni, **Hülul** gerçəyini Mənsurdan öncə çox böyük zatlar dilə gətirmişlər. Amma iki səbəbdən onların adı Mənsurdan öncə hallanmır: Birincisi, onlar çox böyük adamlardır və Allahın onların çiyninə yüklədiyi şəriət və risalət idi. İkincisi, onlar daşıdıqları mükəlləfiyyət səbəbindən bu sirri xalqla yox, ariflərlə paylaşmışlar. Biz də onların kim olduqlarını elə ariflərin fəhminə buraxıb, adlarını dilə gətirmirik.

***Vaxtıdır biz də gedək akifi-meyxanə olaq,***
***Çünki saqi bu pəridir, dəli-divanə olaq.***

Bu misralar Hüseyn ibn Mənsur Həllacındır. Ürfan əhlinin şairliyi Həqiqətin zühurunun rəmzlərlə söylənən məcburi şəklidir. Bəlkə də başqa vasitələr olsaydı, onlar heç şair olmazdılar. Fəqət, vücudun, musiqinin halın və başqa nəsnələrin dili quş dilidir ki, bunu da Süleyman bilər. Xalqın dili isə təkyənin eşiyində anlaşılan dildir. Heç hal məqamında dərvişlər də xalqın dilini anlamır.

Ərəbi, farsi, türki, hindi ləfzlər eşqin diliylə ayrı bir cana girdi.

Xalqın dilində eşqi anlatmaq kimsənin ağlına gəlməzdi. Amma xalq Haqq olduğu üçün onun gerçəyini gec ya tez özünə qaytarmaq lazım idi. Bu, elə bir gerçək idi ki, ondan qaçmaq meydandan qaçmaqla bir olardı. Mənsur deyirdi:

***Bəsdi bu naləvü fəryad kim, ol yar hanı,***
***Bütün aləmdədi ol yar, bəs əğyar hanı?***

Ustadın dilinə gətirdiyi "bəsdi" kəlməsi təriqətin sınan qapısının səsi idi. Yarı axtarmağa gərək yoxdur. Bir zaman



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaçdığımız aləm elə HaqqTəalanın özüdür! Məhəmməd Füzuli də buna işarə edir:

***Mən ol səhrayi-vəhşət, mənzil etmən afiyət küncün,***
***Əsiri-dami-zülmət olmaram, çün talibi-nurəm.***

Afiyət-rahatlıq, tutduğu anları qənimət bilib, təkyə küncündə gizlənmək əslində qaranlıq küncüdür. Nura talib olan sinəsini oxlara, dəmir çarığı çoxdan yırtılmış ayaqlarını tikanlara, sərməst olan başını daşlara rəva bilməlidir. Bəlayi-eşqin mahiyyəti də budur. Hafiz bunu daha da açıq deyir:

***Ki, eşq asan numud əvvəl, vəli övtad müşkelha!***

Eşqin əvvəli asan, sonu isə müşküldür! Bax. həmin müşkül olan şey elə Mərifətdir.

Daha öncə də qeyd etdiyimiz kimi, Mərifət qəhrəmanlıq yox, eşqin növbəti mərhələsidir. Ən böyük qəhrəmanlıq isə özünə qalib gəlməkdir ki, bu da qəbir evinə qədər insanın vücudunu tərk etməyəcək olan müqəddəs cihaddır.

Təriqətin hallarını xalqla paylaşmaq yanlış bir hədəfdir. Doğru olan xalqa qayıtmaqdır.

Onda sual oluna bilər ki, dərvişlər xalqın içinə qayıdacaqdılarsa, onda niyə xalqı tərk edib gedirdilər? Xalq Haqq idisə, onda Haqqı niyə kənarda axtarırdılar?

Mövlana Rumi **“Məsnəvi”**də bir əhvalat nəzmə çəkmişdir. O qəribə və sarsıdıcı əhvalat belə idi:

***Varlı bir adamın bir xanımı və bir də kənizi var imiş. Bir gün xanım diqqət edib görür ki, kəniz güngündən gözəlləşir, yeriyəndə dingildəyir, qərəz ki, get-gedə cavanlaşır.***

***Xanım kənizlə əri arasında bir şey var deyə, şübhələnir. Bir gün o kənizi izləyir və görür ki, kəniz qaçdı girdi tövləyə.***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Xanım tövlə qapısının dəliyindən baxıb görür ki, kəniz yekə bir ulaqla cinsi təmasa girir. O saat barmağını dişləyir ki, bu kənizin keyfi niyə gün-gündən artır.***

***Bir gün evin xanımı da eyni hərəkəti edir, amma çox ağır şəkildə xəsarət alır. Ölümdən zor qurtulur.***

***Sağalıb, ayağa qalxandan sonra həmin kənizi yanına çağırır və soruşur ki, bu nə sirrdir? Əhvalatı öyrənən kəniz gülərək deyir ki, xanım, mən özümlə o heyvanın arasına bir kudu (uzun xiyar) bağlamışdım. Sən içəri boylananda həmin kudunu görmədin.***

Mövlana əhvalatı burada nöqtələyir. İzahını isə ariflərə buraxır. Gəlinən nəticə budur ki, xalq və Dünya həmin ulaq kimidir. Həmin kudu isə, tərki-dünyalıqda qazanılan rindlik, bişkinlik, qısası ariflikdir. Əgər xalqın içinə gəlirsənsə, mütləq o "kudu"nu qoymalısan. Yoxsa, bir zamanlar haqlı olaraq tərk etdiyin Dünya, şərindən qaçdığın xalq səni məhv edər. Çünki, sən onlardan biri deyilsən! Əgər arifliyin və rindliyin yetərli deyilsə, sən elə təkyəküncündə də qal. Boş yerə Dünya adlı heyvanın altına girib, özünü təhlükəyə atma. Məhəmməd Füzuli də yəqin ki, elə bunu qəsd edərək yazmışdı:

***Gəzmə ey könlüm quşu, qafil fəzayi-eşqdə,***
***Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var.***

"Xalqdan qaçmaq" əslində təhrif olunmuş ifadədir. Dərvişin qaçdığı öz tərbiyə olunmamış nəfsidir ki, bu nəfs xalqın içində öz "bəhrələrini" verir.

Mürşid ətəyinə, xanəgaha, Füzuli demişkən, "afiyət küncü"nə sığınan, nəfsindən başqa dərdi, o nəfsi tərbiyə etməkdən başqa qayğısı olmayan əhli-təriqət bunlara qismən də olsa nail



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

olandan sonra xalqın içinə qayıdıb, öz işini görür. Çünki, yaşantı gerçəkdir, qaçılmazdır. Şərt isə, bu yaşantını hansı şəkildə yaşamaqdır.

Könüldə qazanılmış həqiqətləri dilə, dildən əmələ, əməldə xalqa gətirmək Mərifətin əsas qayəsidir.

Fəqət, nəfsi tərbiyənin paralelində savaş hər zaman ikitərəflidir.

Xalqın içində, gözləri önündə gedən riyazəti-nəfs eyni zamanda nümunə, bir mənada da hüccət və risalətdir.

"Belə yaşamaq mümkündür" demək və onu yaşaya bilmək özü də Mərifət mərhələsidir.

Ariflər heç nə etmirlər, sadəcə yaşayırlar. Ariflər eşqi hərəkətə gətirmirlər, eşq onları hərəkətə gətirir. Onların qayəsi, missiyası təbliğat və ya elm deyil. Xalq onların ətrafına, işığın ətrafına toplaşan kimi toplaşır. Xalq bir mürid sifətiylə onların danışmağını gözləyir. Bu yerdə ***naz məqamı*** ariflərin yaraşığıdır.

**"Bütün Dünya mənim saqqalımdan asılsa, yenə də ağzımı aça bilməz. Mövlananın bərəkətindəndir ki, hərdənbir məndən bir kəlmə söz eşidirsiniz"** (Şəms Təbrizi)

**Xalqı özünə qarşı mənəvi ehtiyac sahibi etmək üçün böyüklük yox, kiçiklik lazımdır.** Bu isə xalqla dost olmaqdan keçir. Dostun dosta ehtiyacı isə qarşılıqlıdır. Yıxılan qürurun, rəmzə çevrilən sirlərin, bu sirləri münasib dildə paylaşmağın fədakarlığının bədəli olaraq, Haqq-Təala xalqın sifətində arifə təcəlla edir. Necə ki, arifin sifətində də xalqa görünmüşdü.

Əslində arifin xalqdan öyrənəcəyi daha çox şey var.

Ən böyük bacarıq xalqın öz gücünü özünə qarşı işlətməkdir. Ruhani və mənəvi dünyada bu strategiya ruhi və idraki təlimin



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əsas keyfiyyətlərindən biridir. Çünki xalqın içində ruhani potensial yatır. Onu qəflətdən çıxarıb, xalqın öz gözündə gerçəyə çevirmək eşqin qələbəsidir! Necə ki, Şeytan xalqın içindəki yonulmamış nəfsi, qüruru, şöhrəti, şəhvəti üzə çıxarır. Eşq əhli isə İblis qədər çalışqan və əhdinə vəfalı olsa, yetər.

**"Əgər Müaviyyənin əsgərlərində olan sədaqət mənim əsgərlərimdə olsaydı, iki cahanı çiynimdə gəzdirərdim"** (Həzrət Əli)

***RÜBAİ***

***Qılmaq dilərəm nizəvü şəmşir ilə cəng,***
***Zindanü qəfəs, həlqeyi-zəncir ilə cəng.***
***Almaqçün ələ taci-səri Bəhramtək,***
***Etsin gərək eşq əhli olan şir ilə cəng.***

Şərafət tacı savaşla alınır. **Bir aşiqin kəşf olunması yüz möminin kafərə dönməsindən güclüdür.**

Onsuz da eşqi eşq əhli, halı hal əhli anlayacaq. Ancaq bu əhli-hal təkcə xanəgah küncündə, təkyə içində gizlənmir. Təriqətdən mərifətə yüksəlişin bir qayəsi də qərib aşiqləri, özündən bixəbər qalan hal əhlini tapıb, özünə qaytarmaqdır. Bu yükü sirlərlə, ürfanın daxili halıyla, bişmiş təfəkkür və qəlblə silahlanmış ariflər daşıya bilər.

**Arifin mürşidi təkyədə, müridləri xalqın içindədir.**

***"Zühhadül-leyl, əsədün-nəhar"*—"Gecənin zahidi, gündüzün aslanı"** deyə buyurmuş Həzrəti Mövla.

Zahidlik mərifətlə, yəni nəfsi və camei mücadilə ilə yanaşı gedərsə, onu daşıyan şəxsin **arif** olduğuna şübhə yeri qalmır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Belə vəhdət, vəhdəti-vücuddan daha ziyadə vəhdəti-mövcuddur.**

Başını dərdlərlə qarışdıran, həyatı və mücadiləni unudar. Başını mücadiləyə qarışdıran dərdlərini unudar.

Öz dərdini unutmağın yeganə yolu başqasının dərdlərinə könül verməkdir.

Şeytanın heç zaman yaxın düşə bilmədiyi insan hər zaman mücadilə edən insandır. O, nəfsi ilə savaşdığı üçün nəfsi də onunla savaşır. Dolayısı ilə, onun nəfsi məşğuldur və Şeytana qucaq açmağa vaxtı yoxdur.

**“Nəfsinizi bir şeylə məşğul edin. Yoxsa, o sizi məşğul edəcək”** (Həllac Mənsur)

Yaradılışın qayəsi mübarizədir.

Yaşamaq uğrunda mübarizə aparanlar xalqdır. Mübarizə aparmaq uğrunda yaşayanlar isə ariflərdir.

Savaş meydanını həzz və zövqü səfa meydanına çevirən **Eşqdir!**

Eşqsiz verilən mücadilə ya məcburiyyət qorxusu, ya da mənfəət azarıdır.

Bəndələr, tacirlər və aşiqlər olaraq, ibadət edənlər də üç qismə bölünür.

İçində savaşan, çölündə barış və hüzur içində olar. İçində özüylə savaşmayan, çölündə hər kəslə qovğa edər. Çünki, özüylə barışmaqla özünü haqlı, çıxarıb. Özünü haqlı bilən isə, ətrafını hər zaman haqlı çıxarar.

**“Öz nöqsanlarını görən insanın, başqalarının nöqsanlarını görməyə vaxtı qalmaz”** (Hz.Əli)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Bəla zimnində rahət olduğun izhar edər xəlqə,***

***Fələk bihudə xarü xüşkdən gülbərgi-tər verməz.*** (M. Füzuli)

Şəriət əhli xalqın əlindən dad eləyir, təriqət əhli eşqin əlindən. Biri az bilmək və təkəbbür səbəbindən hər zaman şikayətçidir. O biri isə məşuqun ərk və nazından şikayətçidir. Dolayısı ilə ikisi də şeydalıq edir.

Mərifət əhli isə, xalqı sevir. Sevdiyini isə gizlədir. Onun sevdiyi xalq deyil,.. Xalqı sevgilisinə xatir sevir. Yunus Emrə ***"Yaradılanı sevəriz Yaradandan ötrü"*** deyir.

**Mərifəti, Şəriətin və Təriqətin naqisliyi doğdu, Həqiqəti isə Mərifətin mücadiləsi.**

**Dolayısı ilə, Mərifət ehtiyacın bəhrəsidir, Həqiqət mücadilənin. Necə ki, Şəriət küfrün bəhrəsidir, Təriqət ehkamın.**

**Heç bir şərtlərə və qəliblərə sığmayan külli kainat isə EŞQİN bəhrəsidir!**

Əslində ehtiyac deyilən şey cazibədən yaranır. Ağıl, məntiq, təmənna və mənfəət isə sonradan gəlmədir. Allah qatında bu sonradan gələnlər eşqin sularına qarışa bilməyib, axıb, insanlıq dənizinə dolub.

Əhli-mərifətin böyük mücadiləsi insanlıq dənizinin, əslində çirkabdan deyil, nurdan xəlq olunduğunu insanlığın öz təfəkkürünə qaytarmaqdır, o mərtəbəni onun özünə göstərməkdir.

Təbriz folklorunda məşhur, amma çox sadə bir xalq mahnısı var – adı "İNSAN"dır:

***Ey insan, ey insan,***
***Sən özün Allahsan,***
***Mənsur-iHəllacsan,***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***Dərdlərə dərmansan.***
***İnsan, insan,***
***İnsan dərdlərə dərmansan!***

Bunlar, Şəriətdəki **"Əmr be məruf, nəhy əz münkər" Yaxşılığa dəvət, pislikdən çəkindirmək –** deyil. Şəriət əhli özü bilər, ancaq gerçəkdən də insan öz pisliklərini həll etdimi ki, başqalarını yaxşılığa dəvət edir?

Əhli-mərifət heç kimi heç nəyə dəvət etmir və heç kimi heç nədən çəkindirmir. O, sadəcə özüylə davamlı mücadilə etməklə, Allahın sifətlərinə məzhər olur və ətrafda hadisəyə çevrilir. Buna görə də tarix boyu daşıdığı işığa, yaydığı gözəlliklərə görə şəriət əhli deyil, eşq əhli təqiblərə və edamlara məruz qalmışdır. Həm də bu zülmün və qəflətin müəllifi elə şəriət əhlinin özüdür.

Dar ağacı arifin son mücadiləsidir. Dar ağacı bir kamandır. Dar ipindən sallanan aşiq isə **HƏQİQƏTƏ** tərəf çəkilən yayın ucundakı oxdur!

Əhli-mərifətin fitvasını verənlər onların kim olduğunu hər kəsdən gözəl anlayırdılar. Əks təqdirdə bu fitvanı verməzdilər. Bu mənada mənfəət və həsəd insanı sonuna qədər təqib edir və əslində onun sonunu yaxınlaşdırır.

Ürfan əhlindəki həqiqəti görmədən onları dara çəkmək olmaz. Həqiqəti görəndən sonra isə bu işə qol qoymaq Şeytanın həmin arifdən aldığı intiqamdan ziyadə onu şəhid edənlərin üzərindəki qələbəsidir.

Şeytana oxunan lənətlər, atılan daşlar gücdən düşmüş torpağa verilən gübrə kimi onu dirildir, şişirdir, gücləndirir. Buna görə Yunus Emrə deyirdi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Yüz Kəbədən üstündür*
*Bir könül ziyarəti*

Atılan daşlar geri qayıdır. Daşları əvvəl özümüzə ataq ki, onlar da geriyə, xalqın içindəki Şeytana qayıtsın! Amma biz birbaşa Şeytanı daşlayanda o daşlar əvvəl-axır gəlib özümüzü tapır. Çöldəki Şeytanın ixtiyarı Allahın əlindədir. İçimizdəki Şeytanın ixtiyarı isə öz əlimizdədir. Öz içimizə gücümüz çatmırsa, o zaman çöldə Allahın işlərinə qarışmayaq.

**Şəriətdə riyakarlıq var, mərifətdə rindlik. Riyakarlıq xalqı və özünü aldatmaqdır, rindlik nəfsi və Şeytanı.**

Riya əhli savaşmır,.. Amma rind əhli savaşır. Onun zirehi ədəb, silahı əxlaq olmalıdır.

Eşq əhli qorxunu dəfn edib özü ilə bərabər. Əvvəl ölüb, sonra dirildiyi üçün onun savaşı da təlaşdan və qəzəbdən uzaq, hal və huşyarlıq içində keçən savaşdır.

***El düşdü bütün heyrətə divanəliyimdən,***
***Sirrin demədim bir kəsə mərdanəliyimdən.***

***Divaneyi-eşq olmağa hər kim həvəs etsə,***
***Əvvəlcə gərək dərs ala rindanəliyimdən.***

(Ə.Vahid)

**Dünya əhlinin ağlı və tədbiri divanəlik, eşq əhlinin divanəliyi rindlik və huşyarlıqdır.**

Dünya əhli eşq sirlərinə varid ola bilmədiyi kimi, onların əsl dərdlərinin də nə olduğunu heç zaman anlamayacaq.

**DİVANƏLİK, RİNDANƏLİK və MƏRDANƏLİK** olan yerdə ağıl və tədbir, şöhrət və sərvət, qorxu və şəhvət ölü nəsnələrdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyəvi sifətlərlə Allahın sifətləri bir araya sığmır. Birini qazanan o birindən məhrum olur.

Ürfanın təməli hər zaman düzgün atılır. Əyri atılan təkəbbür və iqtidarın təməlidir. Ona görə də biri sağ ikən ölür, qurduğu binalar, yığdığı sərvət tarmar olur, o birinin isə qəbrinin torpağı da tutiyaya dönür. Nisgilli Vahid yenə yazır:

***Xakistər-ieşqəm, mənə təhqir ilə baxma,***
***Min gənc çıxar zahirə viranəliyimdən.***

***Vahid, mən o xakəm, yenə meyxanədə bir gün,***
***Bir zövq yetər aləmə peymanəliyimdən.***

Mərifət əhli sağ ikən də öldükdən sonra olduğu kimi, özünə deyil, xalqa gərəkdir.

Arif öz ömrünü xalqdan uzaqlaşıb, tərki-dünya olarkən əldən verib. Onun ömrü, arzuları və varlığı təkyə qapısının eşiyində qaldı. Arif üzərindən keçdiyi körpüləri yandırdığı üçün, xalqın içinə qayıdanda özü kimi yox, Həqiqətin məmuru kimi qayıdır. O, hələ Həqiqət məmurudur, Həqiqət əhli deyil.

***Biz haman rindi-xərabatiyi-bibaklərik,***
***Söhbəti indi də dillərdədi əfsanəmizin*** (Ə.Vahid)

**Arifin əfsanəsi Dünyanın gözəlliyinə və xilasına, Allahın isə iftixarına döndü.**

**Ömrünü Mərifətdə itirib, Həqiqətdə tapanlar bir daha Dünyaya gəlir Həqiqətdə yaşamaq üçün!**

**Əhli-Mərifətin ölümü Əshabi-Kəhfin yuxusu kimidir. Zamanı gəldikdə Haqq-Təala onları oyadıb, təzədən Dünyanın göbəyinə atır.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Fəqət bu dəfə ayrı donda, başqa sifətdə.**
***Keçmişim razi-nihan olmuşsa da məxluq ara,***
***İndi mən Cavid donunda aşikarəm, aşikar!***

(Cavid Mürtəzaoğlu)

## *HƏQİQƏT*

**Tanrının müqəddəs həvari Yəhyaya göndərdiyi vəhy.**

**I Fəsil**

***...10. Rəbbin günündə (yəni bazar günü) Ruhda idim və arxamda boru səsinə oxşar yüksək bir səs eşitdim. O səs deyirdi:***

***11. Gördüyünü kitaba yaz və yeddi cəmiyyətə, Efesə, İzmirə, Bekdamaya, Titakyaya, Sardisə, Filadelfiyaya və Laodikiyaya göndər.***

***12. Çevrildim ki, mənimlə danışanı görüm. Döndükdə yeddi qızıl şamdan,..***

***13. Və şamdanların ortasında ayağa qədər uzun libas geymiş, sinəsinə qızıl qurşaq taxmış insan oğluna bənzər birini gördüm.***

***14. Onun başı və saçları isə ağ yun və qar kimi ağ, gözləri atəş alovu kimi idi;***

***15. Onun ayaqları kürədə qızardılmış parlaq tunca bənzəyirdi; Onun səsi çoxlu suların səsi kimi idi.***

***16. Sağ əlində yeddi ulduz vardı, ağzından iti bir ikiağızlı qılınc çıxırdı. Onun üzü bütün qüdrəti ilə parlayan günəş kimi idi.***

***17. Onu görəndə, Onun ayaqları önünə ölü kimi yıxıldım. O, sağ əlini mənim üstümə qoyub dedi:***



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***18. Qorxma! Birinci və axırıncı,***
***Və diri olan mənəm. Ölü idim və budur,***
***əbədi olaraq diriyəm; Ölümün və ölülər***
***aləminin açarları Məndədir.***

***19. Buna görə gördüklərini, indi olan şeyləri və bundan sonra baş verəcək vaqeələri yaz.***

***20. Sağ əlimdə gördüyüm yeddi ulduza və yeddi qızıl şamdanın sirinə gəlincə: yeddi ulduz yeddi cəmiyyətin mələkləri, yeddi şamdan isə yeddi cəmiyyətdir.***

(İncil – Bibliya tərcümə mərkəzi – 1993)

***Hər zərreyi-zahirin zühuri,***
***Bir özgəyə bağlıdır zəruri...***
***Əndişeyi-zat qılmaq olmaz,***
***Bilmək bu yetər ki, bilmək olmaz...*** (M.Füzuli)

Göyün yolları yatan ağılların, oyaq qəlblərin içindən keçir.

Əllə toxunduğumuz şeylər duyduğumuz şeylərdir. O şeylər ki, onları duyarkən əllə toxunmaq, gözlə görmək olmazdı.

Axan nurun dayandığı yerlər təkəbbür və ağıldır.

Yoxluq dənizdir, varlıq axan çaydır; axmasa dənizə qovuşa bilməz.

Varlıq çayı bulansa da durulsa da axmaq zorundadır.

Sonuncu məkan nisbidir. Əvvələ qayıtmır, amma əvvəldir.

Bir zaman duyulanlar artıq həzz mənbəyi deyil, **Həqiqətdir.**

Can alan və can verən iti bir qılınc göylərin qəzəb şimşəyidir; bunu yerlər bilməz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerlərin çirkabı göylərə sıçramadı. Mələklərin qanadı Yerin küfründən göyü, göyün qəzəbindən Yeri qoruyur hələ ki,..

Göylər səsini açmadı ki, Yerin qulaqları partlamasın. Yerin səs-küyü özünə yetər. Ərşi titrədən küfrün deyil, iman üçün tökülən qanların sədasıdır.

***"HƏQİQƏT ƏCƏL SABAHINDAN İŞARAN BİR İŞIQDIR Kİ, BİRLİK VARLIQLARININ ÜZƏRİNƏ DÜŞƏR"*** (Həzrət Əli)

Mümkün keyfiyyətlər gerçəyə tab gətirə bilmir.

Həqiqət heç bir sirrə sığışmır. Bütün sirlər Həqiqətin içində gizlənib.

**Gerçəyi rəmzlərlə dilə gətirmək olmaz .**

***Yunus, xəzinə gövhərin***
***Xərc eyləmə nadanlara,***
***Ta görəlim nə göstərir***
***Gerçəklərin zəmanəsi...*** (Yunus Emrə).

Həqiqətin məkansızlığı onun zamansızlığındadır. Zamanı gələndə O da məkana sığacaq.

Gerçəyin sığacağı məkan nə göylərdir, nə yerlərdir, nə də bunların arasındakılar.

Həqiqət haqdakı məlumatlar Həqiqətin özü kimi qaibdədir.

***"HƏQİQƏT FƏHM EDİLƏN ŞEYLƏRİN MƏLUM ZÜHURU İLƏ YOX OLMASIDIR"*** (Həzrət Əli)

Fəhm edilən şeylər fəhmin və idrakın sərhədləri içindədir. Gerçəklik isə fəhmə və idraka, hətta qəlbə və duyğulara da möhtac deyil (ikincilərə ehtiyac Təriqət və Mərifət qatlarında idi).



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Həqiqətin qapısı imtiyazlı qonaqlar üçün hərdənbir açılan qapılardan deyil. Bu qapı bir gün özü açılmayana qədər bütün kainatın üzünə bağlıdır.

Dünya gerçəyi görsə, ona tərəf qaçar. Gerçəyin cazibəsi gözəl olduğu üçün deyil, Həqiqət olduğu üçündür.

**Şeytanın qatili ariflərdir, ariflərin qatili Həqiqət!**

Həqiqətin kənarlarında Şeytanın tuta biləcəyi bir budaq, ya da ilişə biləcəyi bir dəlik yoxdur. **Şeytan dinə və Mərifətə nifrət edir. Amma Həqiqətdən qorxur. Çünki, Onu sevir!!!**

Bütün olmuş və olacaqlar Həqiqətin zühuru üçün hazırlandığına görə, Ələst bəzmində bir tək Həqiqət yox idi.

Gerçəyin tərifi ürfanın şərtləriylə, Mərifətin dili ilə mümkün deyil.

Əhli-Həqiqətin durumu aşiqlər və ürfan əhli üçün bilməzlik məkanıdır.

Həqiqətin bu Dünyadakı varlığı ağlasığmaz bir lütf və Allahın sonsuz minnətidir.

Ariflər Yerin nazıdır, Əhli-Həqlər göylərin.

Ürfan əhli özündən əvvəlkilərlə bəlli və ölçülü məsafədədir. Fəqət, Mərifətlə Həqiqətin arası ölçüyəgəlməz dərəcədə uzun və fasiləlidir.

Şəriətdən Təriqətə, Təriqətdən Mərifətə keçid insani eşq və iradə ilə Həqiqətə keçid isə, bu həyatdan o biri həyata qanla, ya da bir ömürdən o biri ömrə Ərənlərin himmətiylə mümkündür.

Həqiqətdən başqa hər şeyə iddia etmək olar. Həqiqət özü iddia etməyincə, onun harada olduğunu görüb, ona yaxınlaşmaq mümkün olmayan müşküllərdəndir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**“Anam heyrət, babam şübhə”** (Hüseyn Cavid) deyənlər Həqiqətin məcnunlarıdır. Amma nə yazıq ki, onlar Həqiqəti deyil, Həqiqət onları görə bilər. Dolayısı ilə, Həqiqət özü görünməsə, onu heç bir göz – nə başdakı, nə də qəlbdəki göz görə bilməz!

***“Məndə bir mücövhər var ki, onun üstünü açsam, bütün xalq mənə “kafər” damğası vurar. Bu həmin sirdir ki, onu Əli övladlarına verdi”*** (Hz.İmam Zeynəlabidin)

**Əslində gerçəyin iki başı var biri <u>Şəriət</u>, o biri <u>Həqiqət</u>.**

***Qaibdən dəlil göründün,***
***Dədəm, xoş gəldin, xoş gəldin.***
***Bizi sevib, sevindirdin,***
***Dədəm, xoş gəldin, xoş gəldin.***

***İki can idik, birləşdik,***
***Məhəbbət qapısın açdıq.***
***Şükür, didara erişdik,***
***Dədəm, xoş gəldin, xoş gəldin!*** (Şah Xətai).

Qaibdən görünən dəlillər iki canın birləşməyinin nəticəsi olsa da görünüb-görünməmək öz əlindədir.

**Həqiqət vüsal deyil, amma Həqiqətdə hicran yoxdur.**

Vüsal fənadan sonradır ki, bu da yoxluqdur. Həqiqət isə, yoxluğun da fövqündədir.

Həqiqətin varlığı başqa varlıqların yanında olsa da onlardan çox uzaqdadır.

**Həqiqətin görünməzliyi onun məlum olan yeganə sifətidir.**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həqiqət nə Haqdan xalqadır, nə də xalqdan Haqqa.

Həqiqət Haqdan Haqqa, Allahın özündən özünə gedən yoldur.

Xalqa nisbətdə Allahın sifətləri çoxdur və məlumdur. Özünə nisbətdə isə, Allahın sifətləri məlum deyil.

Zatı düşünmək insanı kafir etdiyi üçün, Həqiqət zatın da kənarındadır.

Həqiqət həm Allahdır, həm insan!

**Allah görünməyən Həqiqətdir, insan görünən Allahdır!**

***Vəhdətin şəhrində seyran eylərəm,***
***Mən səni cismimdə heyran eylərəm.***
***Sirrimi Adəmdə pünhan eylərəm,***
***Adəmi həm Haqq, həm insan eylərəm!***

(Nəsimi)

Həqiqət maddənin və cismin təcəllasıdır.

Həqiqət müstəvisində mövcudiyyət Haqqın zərrələrini deyil, **Özünü** daşıyır.

Həqiqətin tarixi və fəlsəfəsi yoxdur. Fəlsəfə insanın, tarix Yer kürəsinin nəsnələridir. Həqiqət isə yerdən kənar işığın bəhrəsidir.

Dünyanın sabahı Dünya üçündür. Həqiqətin sabahı bütün kainatın sabahıdır. O, mütləq zaman ölçüsündədir.

O, rəmz və işarələrlə deyil, gerçək söz və cümlələrlə ifadə olunur.

Onun məxfiliyinin səbəbi aşkarlığındadır. Aşkarlığın zamanı gəlmədiyi üçün isə, məxfidir.

Ondan xəbəri olanlar vücud və görüntülərini dəyişib, növbəti dəfə yaşamaq məcburiyyətindədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, qış fəsli kimidir  onun ehtiramı və ədəbi, soyuqluğu və sərtliyidir.

Başqalarının təqvası günahdan, onların təqvası Dünyadandır.

Günah və savab, cəhalət və mərifət Ona qədərdir.

Məzhərullah xalqa gizli, onlara aşkardır.

Onların xalqı mələklərdir.

Onların şərtləri dinin və dinsizliyin üstündədir.

**Dünya mömininin zindanıdır** (Hz.Əli), onların əyləncəsi.

Ona qədər yol var, Ondan sonra görünmür.

Onun qapısına qədər uzun və əziyyətli yol keçib gəlmək olar. Lakin, çəkilən əziyyət və dünyalarca savab o qapının açılmasına dəlalət etməz.

Paklıq və abidlik, təqva və zöhd, eşq və ürfan Ona gətirən yollar deyil. Bu yollar fənayadır. Fənadan qayıda bilən yol isə Həqiqətə doğrudur.

Gerçəklik tamam olandan sonra Həqiqət üzə çıxır.

Sultanın mələkləri və onların bir yerə cəm olmaları hər dəfə Həqiqəti zühur məqamına gətirir.

Bu zühurdan Dünya və insanlar batində, göylər və onların sakinləri zahirdə xəbərdar olur.

Ərşin səssizliyi duyğularımızın o tərəfindədir. Duyğudan kənar, insanüstü səslər və rənglər əsilliyini və paklığını Həqiqətin zühuruna saxlamışdır. Yerin cazibəsinə daxil olan Həqiqət əhli bu səsləri duyaraq, bu rəngləri görərək, susmaq məcburiyyətindədirlər.

Əslində isə onlar Yerin yox, Yer onların cazibəsindədir.

Onların Yerdəki cəmi ərşdəki mələkləri bir yerə toplayır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onların qapısına qan və qəhrəmanlıqla gələnlər məlamət və minnətlə qarşılanır.

Dünyanın fatehləri onların qullarıdır.

***Qırxlar meydanına vardım,***
***Gəl bəri ey can, dedilər,***
***Salam verdim izzət ilə,***
***Gir iştə meydan, dedilər.***

***Gir semayə belə oyna,***
***Silinsin, açılsın ayna.***
***Qırx il bir qazanda qayna,***
***Yenə çiy bu tən, dedilər*** (Şah Xətai).

Bütün bişmişlər Həqiqətin qazanında çiydir.

Onun rəngi Allahın rəngidir. Ona boyanan Allahdan seçilməz. Bunu Allahın son kitabı buyurur: ***"Hamınız Allahın rənginə boyanın. Ondan gözəl rəng yoxdur"***

Dünya yuxudaykən, Həqiqət oyaqdır. Məxluqun hamısında ixtiyar və faili-muxtarlıq var. Həqiqət isə Allahın ixtiyarındadır, çünki, məxluq deyil, Xaliqin özüdür.

Kamil insan ətrafına gərəkli, Dünyanın işığı, yaranmışların əşrəfidir.

Kamil insan Həqiqətin aşiqidir. Lakin, məşuqunun üzü ona bir dəfə açılır, o da dar ağacında.

Dünya cəhənnəm, Həqiqətin camalı isə cənnətdir deyə, eşq əhli sevdalandı. Fəqət aşiqlik hicrana talibdir, vüsal isə Həqiqətin ayaqları altındadır.

Həqiqətin quyəndəsi Beyrək Quşçuoğlu deyir:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Getdim, gördüm gerçəklər,*
*Yaslanıb Yarın xaki-dərinə,*
*Kaş mən də yaslanaydım*
*O gerçəklər arasında*

Yar Həqiqətdir, gerçəklər Dünyadan süzülmüş, ürfanla və qanla yoğrulmuş arif və aşiq canlarıdır.

**Yarın camalı gerçəklərin üzündə əks olundu və lütfi-İlahi yerini aldı.**

Şəriət dindən, Həqiqət Haqdan ibarətdir.

Şəriət görmədiyini sevir, Həqiqət gördüyünü. Həqiqət aynasında görünənlər özündən əvvəlkilərdə küfrün özüdür.

Dünya Mərifəti görməzlikdən gəlir, çünki onu dərk edir. Həqiqəti isə görmür, çünki onu dərk etmir.

Görünən şey dərk olunmur, dərk olunan şey görünür.

Həqiqətin sirləri könüllərdə yatmır. Qəlblərdə gizlənən Təriqətin və Mərifətin sirləridir. Həqiqətin sirləri gerçəkdən də sirdir.

Həqiqət Mərifətdən törəməyib, amma ondan sonra gəlir. O, Haqdan törəyib. Haqdan gələn Haqqa, insandan gələn insana qayıdır.

Həqiqətin ən böyük şərti Əhli-Həq kimi doğulmaqdır.

Sağlığında içəri alınanlar, yəni üzünə Haqq qapısı açılanlar, sirri yalnız Allaha bəlli olan səbəblərin nəticələridir.

Həqiqətin müqabilində, kamil sayılan hər şey naqisdir. Əhli-Mərifət olan Şəms Təbrizi yazırdı: ***"Mən yalnız şeyxləri tutub danlayaram. Özü də hər şeyxi yox, kamil şeyxi".***

Buradakı "şeyx" şəriətin mollası deyil, təriqətin başçısı olan mürşiddir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həqiqətin qapısında ömrünün sonuna qədər inim-inim inləyən Şəms yenə yazırdı: ***“Təbrizdə bir “Məhəlleyi-xamuşan” var. Orada yaşayan kiçik bir uşağın dırnağını biləni mənim başım bilməz”***

Həqiqət nə Günəşdir, nə də Ay – Günəşin və Ayın nur mənbəyidir. Onun yerləşdiyi məkanda sürət və zaman təfəkkürüstü bir ölçüyə malikdir.

Fəzadakı qara dəliklər Həqiqətin qapılarıdır. Varlıqlar orada yox olur. Yox olub, o qapılardan içəri girməyincə orada nə baş verdiyini anlamaq sadəcə mümkün deyil.

**Cazibə eşq olduğu üçün, eşqin sürəti artdıqca, yoxluğa daha tez cəzb olunur.**

Gözəllik məchulluqdadır. Məlum nöqtələr kəşf olunmuş və ötüb keçmişdir.

İrəlidəki məchul hələ məlum deyil. Ancaq məlum olan, artıq geridəki məchuldur. Geri dönmək heç vəchlə mümkün deyil. Çünki, cazibə qüvvəsi qədər də itələmə qüvvəsi var. Yəni, keçmiş olan, gələcəyə xidmət edir.

Həyat ölümə doğru, ölümsə həyata doğrudur.

Ölümdən sonra gələnlər geri dönmürlər. Dünya hərəkət etdiyi və irəli getdiyi üçün onlar da bizi gələcəkdə qarşılayırlar.

Gerçək təkamül ruhani təkamüldür.

Darvinizmi inkar edən bəzi bütpərəst Asiya dinləri, insanın meymundan gəldiyini təkzib edə-edə, insanın öləndən sonra geri qayıdıb, heyvana dönüşə biləcəyinə sadəlöhvcəsinə inanırlar. Anlamırlar ki, bütün, amma istisnasız olaraq bütün yollar Allaha və Həqiqətə çıxır. Allah və Həqiqət isə yalnız irəlidədir. Geriyə isə, sadəcə yol yoxdur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allaha bağlılıq ədalətdən ziyadə rəhmət üzərindədir. Onun lütfünə inanmaq özünə inanmaq qədər vacibdir.

***Həqiqət Allahın özündən özünə seyrdir*** – dedik.

Dünya və insan dörd qütbə və altı cəhətə doğru hərəkət edir. Həqiqət bu feiliyyətdən də kənardır. Onu daşıya bilən insanlarsa, tamamilə dərkdən və onları anlaya bilmək məsafəsindən uzaqdırlar.

**Əhli-Həqlər Allahın adi geyimə bürünmüş zər kəmərli, Günəş ulduzlu əsgərləridir. İnsan cildində olduqları üçün onların gizlənməsi mələklərin gizlənməsindən çətindir.**

***RÜBAİ***

***Meydani-məhəbbətdə məram Allahdır.***
***Viranə könüllərdə məqam Allahdır.***
***Eşqin qələmi nəzm çəkib Dünyaya,***
***Yerlərdə, səmalarda NİZAM ALLAHDIR!!!***

# SON



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Ağbabalı İ. Ayırdılar Ağbabadan, I kitab. Bakı: Ozan, 1998, 181 s.
2. Axundov Ə. Aşıq Ələsgərin həyatı və yaradıcılığı: filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: ADU, 1946, 157 s.
3. Allahmanlı M. Aşıq Ömər yaradıcılığında mənəvi əxlaqi dəyərlərin və Türk şeir ruhunun daşınışı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXVI kitab. Bakı: Nurlan, 2007, s. 38-55
4. Allahmanlı M. Krım tatar şairi Aşıq Ömər və ortaq Türk şeir ənənəsi // “Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə” IV uluslararası Folklor Konfransının materialları. Bakı: Səda, 2006, s. 188-198
5. Aşıq Alı. Əsərləri. Bakı: Avrasiya Press, 2006, 190 s.
6. Aşıq Ələsgər / toplayanı H.Əlizadə. Bakı: Azərnəşr, 1934, 241 s.
7. Aşıq Ələsgər / II çapı, toplayanı H.Əlizadə. Bakı: Azərnəşr, 1935, 253 s.
8. Aşıq Ələsgər / III çapı, toplayanı H.Əlizadə. Bakı: Azərnəşr, 1937, 269 s.
9. Aşıq Ələsgər / toplayanı İ.Ələsgərov, tərtib edənlər Ə.Axundov, M.Təhmasib. Bakı: Az.SSR EA nəşriyyatı, 1963,
10. Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətlər, xatirələr... Bakı: Şərq-Qərb, 1999, 577 s.




Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

11. Aşıq Ələsgər / toplayanı İ.Ələsgərov. I kitab, Bakı: Elm, 1972, 326 s.

12. Aşıq Ələsgər / toplayanı İ.Ələsgərov. II kitab, Bakı: Elm, 1972, 327 s.

13. Aşıq Ələsgər / tərtib edəni İ.Ələsgərov. Bakı: Yazıçı, 1988, 184 s.

14. Aşıq Ələsgər. Gözüm bir alagöz xanıma düşdü. Say-seçmə şerləri / tərtib edəni M.Qardaşlı, toplayanı İ.Ələsgər. Bakı: Yazıçı, 1993, 139 s.

15. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.

16. Aşıq Ələsgər. Əsərləri / tərtib edəni H.Araslı. Bakı: Elm, 1973, 326 s.

17. Aşıq Ələsgər. Qoşmalar, təcnislər, dodaqdəyməz-təcnislər, deyişmələr, gəraylılar / tərtib edəni İ.Ələsgərov. Bakı: Azərnəşr, 1956, 199 s.

18. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1988, 178 s.

19. Azərbaycan dastanları: beş cilddə, I cild. Bakı: Lider, 2005, 391 s.

20. Azərbaycan klassik ədəbiyyatından seçmələr: üç cilddə, II cild. XIIIXIV əsrlər Azərbaycan şeiri. Bakı: Şərq-Qərb, 2005, 405 s.

21. Balasaqunlu Y. Qutadğu Biliğ. Bakı: Avrasiya Press, 2006, 439 s.

22. Bayat F. Xoca Əhməd Yəsəvi və xalq sufizminin bəzi problemləri. Bakı: Ağrıdağ, 1997, 101 s.

23. Bünyadzadə K. Orta əsr Şərq təfəkküründə panteizm // Elmi axtarışlar (folklorşünaslıq, filologiya, fəlsəfə, tarix,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

incəsənət və nəzəriyyə aspektləri), XXI kitab. Bakı: Səda, 2006, s. 153-157

24. Cami Ə. Bahrıstan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 92 s.

25. Cəfərov N. "KitabiDədə Qorqud"da İslama keçid poetikası. Bakı: Elm, 1999, 54 s.

26. Cəlilova A. Təsəvvüfün ümumtürk folklorunda intişarı // "Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə" V Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2006, s.43

27. Çıpan M. Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 2007, s. 18-19

28. Daşqın M. Əsərləri. I cild. Bakı: Agah, 2003, s.

29. Əbbasi K. Tarix ilə əfsanə qarışığı, Şah İsmayıl dastanı // "Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə" III Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2005, s. 230-232

30. Əhmədov Ə. İslam əxlaqı. Bakı: Maarif, 1993, 294 s.

31. Ələsgər İ. Haqq aşığı Ələsgər. Bakı: Maarif, 1999, 264 s.

32. Ələsgərov İ. Aşıq Ələsgərin yaradıcılığının bədii xüsusiyyətlərinə dair / "Ədəbiyyat və incəsənət" qəzeti, 19 avqust 1967

33. Ələsgərov İ. Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları: filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı: ADU, 1971, 135 s.

34. Ələsgərov İ. Göyçə aşıq mədəniyyətinə bir baxış / "Ədəbiyyat" qəzeti, 30 sentyabr 1994

35. Əlizadə H. El şairləri haqqında / "Ədəbiyyat" qəzeti, 3 sentyabr 1936



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

36. Faseh R. Seyyid İmadəddin Nəsiminin seçilmiş bəzi şeirlərinin şərhi. Bakı: ŞərqQərb, 2007, 391 s.

37. Füzuli M. Əsərləri: 5 cilddə, III cild. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1958, 465 s.

38. Füzuli M. Əsərləri: 6 cilddə, I cild. Bakı: Azərbaycan Nəşriyyatı, 1996, 447 s.

39. Füzuli M. Əsərləri: 6 cilddə, IV cild. Bakı: Azərbaycan Nəşriyyatı, 1996, 364 s.

40. Füzuli M. Əsərləri: 6 cilddə, V cild. Bakı: Azərbaycan Nəşriyyatı, 1996, 237 s.

41. Göyçəli Aşıq Nəcəf / tərtib edəni. Bakı: Səda, 2000, 202 s.

42. Göyüşöv N. Füzuli sənətində kosmoloji anlamların bədii-arifanə ifadəsi // Elmi axtarışlar (folklorşünaslıq, filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), XXII kitab. Bakı: Səda, 2006, s. 14-21

43. Hacıyeva M., Rıhtım M. Folklor və təsəvvüf ədəbiyyatı sözlüyü. Bakı: Nurlan, 2009, 330 s.

44. Həkimov M. Ələsgərin təcnisləri / "Azərbaycan müəllimi" qəzeti, 26 aprel 1972

45. Həkimov M. Ələsgər ocağının poetik işığı / "Azərbaycan müəllimi" qəzeti, 19 fevral 1992

46. Hikmət xəzinəsi (Qədim Azərbaycan ədəbiyyatı müntəxəbatı). Bakı: Maarif, 1992, 556 s.

47. Hümmətova X. Mövlana və Yunus Əmrə // Elmi Axtarışlar (Folklorşünaslıq, filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), XXIII kitab. Bakı: Səda, 2006, s. 62-67



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

48. Xavəri S. Xətai poeziyasında təsəvvüf ideyası // Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, XVII cild. Bakı: Ağrıdağ, 1999, s. 206-214

49. Xəlilov N. Aşıq sənətinin təşəkkülü. Bakı: BDU, 2003, 228 s.

50. İbrahimov M. Aşıq sənəti və Aşıq Ələsgər // "Elm və həyat" jurnalı, № 2, 1964

51. İslamzadə A. Mif: araşdırmalar, müddəalar // "Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə" V Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2007, s. 72-81

52. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: Elm, 2002, s. 310

53. İsmayılov H. Aşıq sənətinin ata, baba, dədə mərhələləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XII kitab. Bakı: Səda, 2002, s. 156-164

54. İsmayılov H. Azərbaycan dastanlarında "saz"ın sufi semantikası // "Dədə Qorqud" jurnalı. Bakı: Səda, 2003, № IV (9) s. 33-47

55. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002, 404 s.

56. İsmayılov H. Göyçə dastanlarında Şah İsmayıl obrazı // «Struktur-semiotik araşdırmalar» toplusu, N 2, Bakı: Səda, 2002, s. 6266

57. Kahraman A. Bir folklor unsuru olarak musikiye İslamın bakışı // AMEA Folklor İnstitutu, Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə, IV Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2006, s. 13-14



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

58. Kiçik H. Şəmsdən sonra Mövlana, Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 2007, s. 38-39

59. Qaracaoğlan. Şeirlər. Bakı: Səda, 2006, 254 s.

60. Qəniyev S. Şirvanlı Aşıq Xanmusa. Bakı: Nurlan, 2004, 184 s.

61. Qəzzali Ə.H. Əməllərin mizanı. Bakı: Adiloğlu, 2007, 211 s.

62. Quliyev E. Hafiz Şirazi-İrfan şairi // Elmi axtarışlar (folklorşünaslıq, filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), XV kitab, Bakı: Səda, 2005, s. 35

63. Qurbanov N. Azərbaycan folkloru epik mətnlərində qəhrəmanın möcüzəli doğuluşunun mifoloji kosmoqonik doğuluşuna dair // "Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə" IV Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2006, s. 217-221

64. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. Bakı: Şərq-Qərb, 2006, 189 s.

65. Meriç C. İşıq Şərqdən gəlir (seçmə yazılar). Bakı: , 2004, 158 s.

66. Məmmədli E. Aşıq poeziyasında təcnis. Bakı: Nafta-Press, 1998, 139 s.

67. Mirzə A. Şirvanda ilkin aşıq mühitlərinin tipoloji və regional xüsusiyyətləri // "Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə" V Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2007, s. 72-81

68. Miskin Abdal / toplayanı, ön söz, qeyd və izahların müəllifi H.İsmayılov. Bakı: Səda, 2001, 287 s.

69. Molla Cümə. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1983, 228 s.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

70. Nağıoğlu M. Şirazinin “Gülşəni-raz” tərcüməsi. Bakı: Nurlan, 2004, 380 s.

71. Namazov Q. Aşığın sazı və sözü. Bakı: Yazıçı, 1980, 156 s.

72. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984, 192 s.

73. Namazov Q. Azərbaycan aşıq şeirinin inkişafı tarixindən: filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, Nizami adına Ədəbiyyat İnstitutu, 1968, 145 s.

74. Nəbati S.Ə. Əsərləri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968, 331 s.

75. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004, 310 s.

76. Nəsimi İ. Seçilmiş əsərləri: 2 cilddə, I cild. Bakı: Lider, 2004, 334 s.

77. Ögəl B. Türk mifologiyası: 3 cilddə, I cild. Bakı: MBM, 2006, 626 s.

78. Öz G. Pir Sultan Abdal // “Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə” V Uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2007, s. 266-269

79. Özcan H. Səma və ney // Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 2007, s. 14-16

80. Rıhtım M. Seyid Yəhya Bakuvi və Xəlvətilik. Bakı: Qismət, 2005, 250 s.

81. Rumi C. Mənəviyyat Məsnəviləri. I kitab. Bakı: Adiloğlu, 2002, 325 s.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

82. Rumi M. C. Məsnəvidən seçmələr. Bakı: Yom yayınları, 2007, 230 s.

83. Rüstəmova A. Yaxın Şərq poetik fikrində "elm əlbədi"nin təşəkkül tarixindən // Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, XVII cild. Bakı: Ağrıdağ, 1999, s. 140-161

84. Rzasoy S. Nizami poeziyası: miftarix konteksti. Bakı: Ağrıdağ, 2003, 212 s.

85. Sadıq oğlu Ç. Azərbaycan təsəvvüfü tarixində Səfəviyyə və onun Xətai yaradıcılığında yeri // Şah İsmayıl Xətai / məqalələr toplusu. Bakı: Elm, 1988,

86. Sasani Ç. Nizami və Füzuli yaradıcılığında ürfan // Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, XVII cild. Bakı: Ağrıdağ, 1999, s. 162-172

87. Sazlı-sözlü Göyçə/ tərtib edəni. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1999, 286 s.

88. Seyidov F. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı: ADU, 1997, 188 s.

89. Şah İsmayıl Səfəvi (Xətai). Külliyatı: qəzəllər, qəsidələr, nəsihətnamə, Dəhnamə, qoşmalar, Bakı: Alhoda, 2004, 534 s.

90. Şirvani S.Ə. Qəzəllər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1960, 658 s.

91. Şıxıyeva S. Nəsimi şeirində "Əlif-Lam" poetik forma və fəlsəfi rəmz kimi // Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, XVII cild. Bakı: Ağrıdag, 1999, s. 173-190

92. Şükürov A. Fəlsəfə. Bakı: Adiloğlu, 2002, 490 s.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

93. Şükürov A. Mif və fəlsəfə // Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, XVII cild. Bakı: Ağrıdağ, 1999, s. 951-17

94. Təhmasib M.H. Aşıq Ələsgər / "Ədəbiyyat və incəsənət" qəzeti, 8 iyul 1956

95. Təhmasib M.H. Ələsgərin Dastan yaradıcılığı / "Ədəbiyyat və incəsənət" qəzeti, 21 avqust 1971

96. Təhmasib M.H. Gözəllik nəğməkarı // "Azərbaycan" jurnalı, 1971, № 10

97. Təhmasib M.H. Qüdrətli xalq nəğməkarı / "Sovet kəndi" qəzeti, 10 iyun 1972

98. Təhmasib M.H. Xalq nəğməkarı / "Ədəbiyyat və incəsənət" qəzeti, 17 iyun 1972

99. Təsəvvüf nurunun iki çırağı: Mənsur Həllac və Sərrac Tusi. Bakı: Adiloğlu, 2007, 192 s.

100. Tırınqılar / toplayıb tərtib edəni T.Səmimi. Bakı: Qərənfil, 2005, 63 s.

101. Tusi X. N. Əxlaqi-nasiri. Bakı: Elm, 1980, 256 s.

102. Tusi N. Övsafül-əşraf (Şərafət sahiblərinin vəsfi). Bakı: Nurlan, 2002, 33 s.

103. Tusi N. Təzkirə (Ağazü əncam, Məbdə və məad). Bakı: Nurlan, 2002, 70 s.

104. Yenitərzi Ə. Mövlananın qədər və iradə haqqındakı düşüncələri // Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 2007, s. 810

105. Vəqqasoğlu V. Zamanın qocalda bilmədiyi eşq sultanı // Könüllərdən könüllərə Mövlana. Bakı: Xəzər, 2007, s. 57



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

106. Vəfadağlı A. Gözləri həsrətli, naləli Göyçə. Bakı: Nağıl evi, 2009, 381 s.

107. Zeynalov Ş. Müsəlman Şərqində fəlsəfənin formalaşmasına antik elmin və fəlsəfənin təsiri // Elmi Axtarışlar (folklorşünaslıq, filologiya, fəlsəfə, tarix, incəsənət və nəzəriyyə aspektləri), XXV kitab. Bakı: Səda, 2006, s. 257-263

## Türk dilində

108. Abdulfettah M. Şahin, İzmir1991, 280 s.

109. Ardanuçlu Aşık Efkari / hazırlayan Yrd. Dç. Dr.H. Raynan. Erzincan: T.C. Kültür Bakanlığı Yayınları, 1998, 381 s.

110. Aşık Yoksul Derviş (Şemseddin Kubat), Ankara: Kültür ajans yayınları; 8, Baskı tarihi Mart 2004, 1.baskı, 174 s.

111. Aşık Zakiri / hazırlayan Yrd.Doc.Dr.Doğan Kaya. Sivas: Dilek Ofset Matbaacılık, 1996, s. 350

112. Aydın A. Alevilik-Bektaşilik Söyleşileri, ikinci kitap. İstanbul: Kahraman Ofset LTDŞTİ, 2003, 482 s.

113. Divani-Seyyid Nigari, Mir Hamza Nigari. İstanbul: Kule İletişim Hizmetleri LTD ŞTİ, Yayın No 2, 2003, 369 s.

114. Doğan A. Salih Baba, hayatı ve eserleri. Ankara: Özkan matbaaçılık sanayi, 1998, 254 s.

115. Düzgün D. Aşık Yaşar Reyhani, Hayatı, sanatı ve şiirlerinden seçmeler. Erzurum: Atatürk Universitesi yayınları, No; 852, 1997, 312 s.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

116. Eraydın S. Tasavvuf ve tarikatlar. İstanbul: Marmara Universitesi ilahiyyat fakultesi yayınları, No 82, 1994, 518 s.

117. Fığlalı A.N. Çağımızda itikadi İslam mezhepleri. İstanbul: ŞATO İlahiyat, 1999, 443 s.

118. Gençosmanoğlu N. Y. Dede Korkuttan Salur Kazan Destanı. İstanbul: Ötüken Yayınevi, 1976, 157 s.

119. Gevheri Divanı / hazırlayanı Prof.Dr. Şükrü Elçin. Ankara: Atatürk Kültür Merkezi Yayınları, 1998, 763 s.

120. Gölpınarlı A. 100 soruda tasavvuf. İstanbul: Gerçek yayınevi, 1969, 222 s.

121. Hacı Bektaş Veli. Makalat. Ankara: T.C. Kültür Başkanlığı Milli Kütüphane Basınevi, 1996, 202 s.

122. Kalafat Y. Balkanlardan Uluğ Türküstana halk inançları, II. Ankara: Babil, 2005, 365 s.

123. Kısakürek N.F. Çile. Bütün şiirleri. İstanbul: Yapı Kredi Yayınları2144, Şur188, II baskı, 2005, 472 s.

124. Konya Mevlana Türbesi ve Dergahında Dilek Yerleri. Ankara: Milli Kültür Araştırmaları 50.Kültür ve sanat yılında Dr.Mehmet Öndere Armağan (Milli Küıtür Araştırmaları), T.C.Kültür Bakanlığı Milli Kütüphünesi Basımevi, 1996, s.280-289

125. Köprülü F. Türk edebiyatında ilk mutasavvuflar. İstanbul: Diyanet İşleri Başkanlığı yayınları No:118, 1976, 415 s.

126. Kurnaz C. Anadoluda Orta Asyalı şairler. Ankara:Yargıevı matbaası, 1997, 223 s.

127. Oğuz O.M. Yozqatlı Hüzni. Divanlarından seçmeler. Ankara: Feryal, 1990, 303 s.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

128. Sağlam F. Dünyada türkçe ve Türk edebiyatları. İzmir: Kitabek yayınları, No 7, 2003, 266 s.

129. Salçı V.L. Gizli Türk dini oyunları. İstanbul: Folklor və etnoqrafiya araşdırmaları, 1985, 504 s.

130. Türk dili, Türk şiiri, Özel sayısı III (halk şiiri), sayı 445450, ocak-haziran, 1989

131. Türk Kültürü ve Hacı Bektaş Veli. Ankara: T.C. Kültür Bakanlığı Yayınları, 1998, 109 s.

132. Yazıcı S. Temel dini bilgiler. Ankara: Diyanet İşleri başkanlığı yayınları, 2003, 336 s.

133. Yazıcıoğlu A.B. Envarül aşıkın, Hak aşıklarının nurları. İstanbul: Bedir Yayınevi, hicri 1403, miladi 1983, 592 s.

134. Yılmaz H.K. Anahtarlarıyla tasavvuf ve tarikatlar. İstanbul: Ensar Neşriyat, 2004, 370 s.

135. Yörükan Y. Müslümanlıktan evvel Türk dinləri, Şamanizm, şamanizmin diger dinler, Alevilik üzerindeki etkileri // Yol, 1.Basım. Ankara: 2005, 221 s.

## Rus dilində

136. АбдульКадыр Иса. Истина суфизма / перевод с арабского М. Саадуева. Москва: ИД Ансар, 2004, 288 с.

137. АльКирмани Хамид адДин. Успокоение разума / введение, перевод с арабского и комментарии А.В. Смирнова. Москва: Ладомир, 1995, 510 с.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

138. АльХуджвири. Раскрытие скрытого за завесой. Старейший персидский трактат по суфизму. Москва: Единство, 2004, 504 с.

139. Арберри А. Дж. Суфизм. Мистики ислама. Москва: Сфера, 2002, 272 с.

140. Ашуг Алескер. Баку: Элм, 1972, 126

141. Байат М., Джамниа М. Али. Под суфийским плащом. Москва: Старклайт, 2002, 200 с.

142. Бартольд В.В. Ислам и культура мусульманства. Москва: МГТУ, 1992, 144 с.

143. Бёрк О.М. Среди дервишей / перевод с английского С.В.Нилов. Москва: Сампо, 2002, 192 с.

144. ВилайятИнайят Хан, Пир. Пробуждение. Опыт суфиев / перевод с английского. Москва: Гелос, 2002, 240 с.

145. Девитт В. Поэзии огни негосимые. Баку: Элм, 1979, 126 с.

146. Дьяконов И. История Мидии. От древнейшых времен до конца IV века до н.э. Москва-Ленинград: Издательство Академии Наук СССР, 1956, 485 с.

147. Жуковский В**.** Тайны единения с Богом в подвигах старца Абу-Саида. Толкование на четверостишие Абу-Саида. Персидские тексты. Спб: 1899, 516 с.

148. Идрис Шах. Особое озарение: Как суфии используют юмор / перевод Номадова Х.Б., Васильева О. Москва: Сампо, 1993 148 с.

149. Идрис Шах. Учиться как учиться. Психология и духовность на суфийском пути. (Пер. с англ.) Москва. УРСС 1999  304 с.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

150. Инайят Хан. Учение суфиев / перевод с английского. Москва: Сфера, 1998, 343 с.

151. Инайят Хан. Суфийское послание освободе духа / перевод с английского. Москва: Сфера, 1999, 64 с.

152. Иса АбдульКадыр. Истина суфизма. Москва: Издательский дом Ансар, 2004, 288 с.

153. Казанский К. Мистицизм в Исламе. Самарканд: 1906, 238 с.

154. Кныш А.Д. Мусулманский мистицизм. Москва-Санкт-Петербург: Диля, 2004, 453 с.

155. Мухаммад Али Джамниа, Модже Байат. Под суфийским плащом / перевод с английского Орлова А. Москва: Старклайт, 2002, 200 с.

156. Подвижники ислама: Культ святых и суфизм в Средней Азии и на Кавказе / составители Абашин С.Н., Бобровников В.О. Абашин С.Н., Бобровников В.О., Огудин В.Л.. Москва: Наука, 2003, 336 с.

157. Сибгатуллина А.Т. Тайны суфизма: (Религиозно-суфийские символы, образы и термины в тюрко-татарской поэзии). Казань: Заман, 1998, 367 с.

158. Смирнов А.В. Великий шейх суфизма (опыт парадигмального анализа философии Ибн Араби). Москва: Наука, 1993, 328 с.

159. Суфизм в Центральной Азии. Сборник статей памяти Фритца Майера (1912–1998). Санкт-Петербург: Санкт-Петербургский Государственный Университет, 2001, 394 с.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

160. Суфизм с точки зрения современной психопатологии. Самарканд: Издательство Самаркандской области, 1905, 150 с.

161. Тримингем Дж.С. Суфийские ордены в Исламе. Москва: Наука, 1989, 326 с.

162. Урусбаева Ф. Метафизика колеса. Вопросы тюркского культурогенеза. Сергиев Посад: Вес Сергиев Посад, 2003, 207 с.

163. Хунджи Ф. Р. Тарихи-аламарайи амини. Баку: Элм, 1987, 169 с.

## İnternet resursları

164. Akdoğan R. Kelamçılara göre zarurilik ya da nazarlılık yönüyle marifetullah, http://www.marife.orq

165. Akkuş M. 19. asırda bir Bektaşı icazetnamesi, http:// www. tasavvufakademi.com

166. Avşar Z. Mevlana rübailerinde gerçek aşkın büründüğü simgeler, http://www.akademik.semazen.net

167. Babacan İ. İran türkleri arasında yaygın bir inanç: Ehli-Hak ve kutsalları, Bayrak Kuşçuoğlu kelamları, http:// www. alevileriz.biz

168. Can Ş. Allah dostları ve Mevlana, http://www. Akademik.semazen.net

169. Çetinkaya B. "İkiz ruhlar"ın konuşma dili sema. http:// www. tasavvufakademi.com



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

170. Çift S. Gazzali öncesi mutasavvufların Hz. Ali ve Ehli-Beytle ilgili görüşleri. http:// www.marife.orq

171. Demirer M. Ali diyordu, http://www.ehli-beyt.orq

172. Geylani A. Fütuhul-kayb http:// www.darulkitap.com

173. İmam Gazali, İhyayil-ülumiddin, III cilt, Vecd kısımları. http:// www.darulkitap.com

174. Kartal A. "Metafizik dönemden geriye bakmak" İbnül-Arabinin ilk sufilerin bazi görüşleri hakkında eleştrileri. http:// www.tasavvufakademi.com

175. Kayqusuz İ. Kızılbaşlık ve Kızılbaşlar, http:/www. uzumbaba.com

176. Melikoff İ. Yunus Emre ile Hacı Bektaş Veli, http:// cizgiliforum.com

177. Miroğlu A. Sufilik ve mücadele, http://www. semerkanddergisi.com

178. Nicolson R.A. Tasavvufun kaynağı be gelişimi üzerine tarihi bir araştırma (çeviren A.Kartal), http//kutuphane.uludag.edu.tr

179. Tanyıldız A. Neyin diliyle kalemin simgesel anlatımı. http://www. akademik.semazen.net

180. Yıldırım A. Mevlananın vahdet anlayışı ve paradoksal söylemi, http://www.akademik.semazen.net



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜNDƏRİCAT

**Ön söz..........................................................................3**
**Giriş..............................................................................9**

**I FƏSİL**
**Ozan aşıq yaradıcılığında təsəvvüfə ümumi baxış.......62**

**II FƏSİL**
**Aşıq Ələsgər yaradıcılığında ürfani dünyagörüş..........132**

**III FƏSİL**
**Aşıq Ələsgər poeziyası və klassik divan ədəbiyyatı nümunələri ilə ürfani paralellər .....................................211**

**IV FƏSİL**
**Bəzi xalq dastanlarında ürfan və təsəvvüf elementləri.........................................................................274**

**V FƏSİL**
**Eşq risaləsi .......................................................................353**

**İstifadə olunmuş ədəbiyyat...............................................442**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**FƏXRƏDDİN SALİM**
**(BAXŞƏLİYEV)**

# MİLLİ YADDAŞ SİSTEMİNDƏ ÜRFAN VƏ TƏSƏVVÜF



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Tural Əhmədov**
*Səhifələyici:* **Vüsalə Mirzəyeva**

Yığılmağa verilmiş **29.06.2010.**
Çapa imzalanmış **01.07.2010.**
Şərti çap vərəqi **28,75.** Sifariş № **302**
Kağız formatı **70x100 1/16.** Tiraj **200**

---

Jurnal **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional